İSSN 2218-7588
E- ISSN 2219-5513

LANGUAGE AND LİTERATURE
ЯЗЫК И ЛИТЕРАТУРА
DİL VƏ ƏDƏBİYYAT

BEYNƏLXALQ ELMİ-NƏZƏRİ
ЖУРНАЛ
2(119)

BAKI -2022

İSSN 2218-7588
E- ISSN 2219-5513
İASJ 0000 0001

DİL

VƏ

ƏDƏBİYYAT

LANGUAAGE AND LİTERATURE ЯЗЫК И ЛИТЕРАТУРА

Beynəlxalq elmi –nəzəri jurnal

Elektron versiyası Электронная версия

2(119)

Jurnal
1993-cü ildən 2 aydan bir çıxır

– 2022 –

REDAKSİYA HEYƏTİ - РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

UMUMİ DİLÇİLİKОБЩЕЕ ЯЗЫКОЗНАНИЕ:	**Prof.Ə Rəcəbli-məsul redaktor** **Prof. N.Məmmədli**
ŞƏRQŞÜNASLIQ VƏ İLAHİYYAT **ВОСТОКОВЕДЕНИЕ И ТЕОЛОГИЯ:**	**Prof. R.Rüstəmov–məsul redaktor** **Prof. M.Kazımov**
AZƏRBAYCAN DİLÇİLİYİ: **АЗЕРБАЙДЖАНСКОЕ ЯЗЫКОЗНАНИЕ:**	**Prof. E.Əzizov** **Prof. T.Hacıyev** **Prof. S.Abdullayeva** **Dos. Ə.Agakişiyev**
AZƏRBAYCAN ƏDƏBİYYATI: **АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА**	**Dos. E.Məmmədov-məsul redaktor** **Dos. Ə.Nəcəfzadə**
ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ: **ТЕОРИЯ ЛИТЕРАТУРЫ:**	**Akad. N.Paşayeva-məsul redaktor** **AMEA müx.üzvü, prof.T.Mütəllimov**
TÜRKOLOGİYA: **ТЮРКОЛОГИЯ:**	**Akad. N.Cəfərov – məsul redaktor** **Fil.f.dok., dos. N.Hüseynova** **Fil.f.dok. R.Bayramov**
JURNALİSTİKA: **ЖУРНАЛИСТИКА:**	**Prof. Q.Məhərrəmli – məsul redaktor**
RUS FİLOLOGİYASI: **РУССКАЯ ФИЛОЛОГИЯ:**	**Prof. Ə.Paşayeva** **Prof. L.Əhmədova** **Prof. L.Quliyeva-məsul redaktor** **Prof. M.Cəfərov**
QƏRB FİLOLOGİYASI : **ЗАПАДНАЯ ФИЛОЛОГИЯ:**	**Prof. N.Vəliyeva-məsul redaktor** **Prof. C.Nağıyev** **Prof. B.İsmayılov** **Fil.e.dok., dos. R.Xəlilov**
PEDAQOGİKA VƏ PSİXOLOGİYA:	**Prof. S.Mirzəyev** **Prof. R.Hüseynzadə** **Dos.S.Abbasova - məsul redaktor** **Dos. L.Ələkbərova**
İNSANŞÜNASLIQ **ЧЕЛОВЕКОВЕДЕНИЕ:**	**RTA müx.üzvü., prof. C.M.Mallaev** **Prof. P.Omarova** **Prof. M.Seyidova**
KİTABŞÜNASLIQ **КНИГОВЕДЕНИЕ:**	**Prof. X.İsmayılov-məsul redaktor** **Dos.M.Məmmədov**

Baş redaktor: dos. T.Cəfərli. Baş redaktorun müavinləri: prof. L.Əhmədova, fil.f.dok. R.Bayramov
Xarici əlaqələr üzrə müavin: dos. N.Əfəndiyeva. Məsul redaktor: dos. L.Ələkbərova
Məsul katib: Pərvin Eyvazov. Administrator: C.T.Əliyev
Redaksiyanın ünvanı: Bakı AZ1073, Z.Xəlilov23. BDU, Filologiya fakültəsi. Tel. 050 287 10 14
Jurnalın elektron ünvanı: http://philology.bsu.edu.az/az/content/dil_v_dbiyyat_beynlxalq_elminzri_jurnal

MÜNDƏRİCAT-CONTENTS-ОГЛАВЛЕНИЕ

DİLÇİLİK – ЯЗЫКОЗНАНИЕ.....5 -135
S.MƏMMƏDOVA. Ismin təsnifatı.....5
A.RÜSTƏMZADƏ. İngilisdilli elitar diskursda efvemizmlərin implisit məna ötürücülüyü funksiyası haqqında.....9
N.BABAYEVA. Koqnitiv dilçilik və onun istiqamətlər.....13
S. SEYİDOVA. Leksik vahidlərin ekspresiv-üslubi calarları.....15
F. MUSTAFAYEV. Kino dilində sadə və mürəkkəb birləşmələr.....21
Ş.SƏFƏROVA. "Kitabi-Dədə Qorqud" dastanlarının dilində terminoloji sözlər.....25
А.ГУСЕЙНОВА. Диминутивы в терминологии естественных наук 28
Z. ŞAHBAZOVA .Ara sözlərin mürəkkəb cümlə ilə işlənmə xüsusiyyətləri.....32
G. NƏSİBOVA. Türk dillərində sifətin müqayisə dərəcəsi.....37
A. SƏLİMOVA. Müxtəlifsistemli dillərdə feilin əmr şəklinin işlənmə xüsusiyyətləri.....40
M. İSMAYILOVA. Dialoqlarda işlənən yarımçıq cümlələr.....43
R. AĞAYEVA. Diaoji mətnlərdə elliptik konstruksiyalar.....49
S. MUXTAROVA.Professor Ə.Abdullayevin yaradıcılığında cümlə üzvü məsələləri.....52
C. RÜSTƏMOVA.Türk dilində mürəkkəb cümlə modellərinin tərtiblənməsində linqvokulturoloji faktorlarжn rolu barədə.....57
G. HÜSEYNOVA, K. ƏLƏKBƏROVA. Azərbaycan dilində morfoloji yolla alınan etnonimlər.....60
У. АЛИЕВА. К употреблению предложений с вводным словом в русском языке.....63
A. CƏLİLZADƏ. Amerika və Böyük Britaniya media diskurslarında işlənən və struktur baxımından müxtəliflik göstərən abreviaturlar.....66
S. NAMƏTOVA. Topluluq bildirən isimlərin bəzi linqvistik xüsusiyyətləri.....69
F. RZAYEVA. Ərəb dilinin İraq dialektində işlənən ön qoşmalar, bağlayıcılar və əvəzliklər.....72
Ş. BÜNYATZADƏ. Müasir ingilis dilində sözün mənası və çoxmənalılıq.....78
G. XANBABAYEVA. Söz anlayışı və sözün mənası nəzəriyyələri.....82
С..АЙДЫНОВА. Ономастикон концепта «Беженец» (документонимы, официонимы).....85
M.MEHDİYEVA. Çoxmənalılığın üslubikeyfiyyətləri.....88
R..ƏLİYEVA.Azərbaycan və müasir ingilis dillərində frazeoloji vahidlərin təsnifatı 91
A. HƏSƏNOVA, L. MEHDIYEVA. Müasir Fransız və Azərbaycan dillərində sual cümləsinin oxşar və fərqli xüsusiyyətləri.....94
K. VƏLİYEVA. Müasir İngilis dilində müxtəlif zərf mənali paremioloji vahidlərin linqvistik təhlili.....97
E. QASIMOVA. İngilis dilində Skandinaviya mənşəli sözlərin etimoloji və tipoloji xüsusiyyətləri.....100
K. HÜSEYNOVA, İ. VƏLİYEVA. Müasir dövrdə multikulturealizm münasibətlərində tərcümə sənətinin rolu və əhəmiyyəti..... 103
A. HÜSEYNLİ, R. CƏFƏROV. Ümumdilçilik sistemində dialektizmlərin dilin lüğət tərkibinin zənginləşməsində rolu haqqında.....106
N. RZAYEVA. Müasir İngilis dilində feilin infinitive forması və onun Azərbaycan dilində ifadə üsulları..... ..109
L. HÜSEYNOVA. İngilis dilinin Böyük Britaniya variantı ilə Amerika variantı arasında fərqli və oxşar cəhətləri.....112
Q. ALLAHVERDIYEVA, M. MURADOVA. Dilçilikdə konversiya hadisəsi və ingilis dilində neologizmlərin yaradilmasi üsulları....115
P. MƏMMƏDZADƏ. Ingilis dilinin kanada variantinin onomastikasinda alinma sözlərin leksik-semantik xüsusiyyətləri.....118
Ş. ƏLIYEVA. İngilis dilində bədii mətnin ədəbiyyatşünasliq və dilçilik baximindan tədqiqi.....121
Ş. HEYDƏROVA, S. HACIYEVA, İngilis dilində semantik korrelyasiya alinma söz problemi və leksik cütlüklər haqqida.....124
S. BAĞIROVA. Elliptik cümlələrin leksik-semantik və struktur xüsusiyyətləri.....127
G. QULİYEVA. Ədəbi ingilis dilinin tələffüz üslubları.....130
N. HƏSƏNOVA, G. İSMAYILOVA. Ingilis dilində feilin xəbər şəklinin grammatik zaman formaları.....133
ƏDƏBIYYATŞUNSLIQ-ЛИТЕРАТУРОВЕДЕНИЕ.....136-198
L. MƏMMƏDOVA. Ə.Cəfərzadənin "Eldən-elə" romanında fədakar qadın və qayğikeş ana obrazları.....136
Н. СЕИД-ЗАДЕ. Защитник женского равноправия и " Баб и бабиды".....140
Н. ГАСАНОВА. Японская художественная традиция и западная культура.....143
Y. QASIMOVA. Ə. Haqverdiyev və xalq ədəbiyyatı.....146
V. ALLAHVERDİYEV. Bəxtiyar Vahabzadə yaradıcılığında ana dilimizin saflığı uğrunda mübarizə motivləri.....149
С. ИСМАИЛОВА. Исламский Восток в творчестве поэтов-символистов.....153
S. ƏLİYEVA. Mirzə Ələkbər Sabirin yaradıcılığında. uşaq dünyasının bədii təqdimi.....157
Ə. BAXŞƏLiYEV. Səməd Vurğunun bədii yaradıcılığında Türk xalqları mövzusu.....161
İ. CƏFƏROVA. Samuel Riçardson ingilis sentimentalist nəsrinin banisi kimi.....166
K. NƏCƏFOVA. Türk xalqları ədəbiyyatında türk dili uğrunda mübarizə.....170
A. ZEYNALOVA. Mən söz cadugəriyəm.....173
T. MƏMMƏDOVA. Aşıq Hüseyn Saraclının dastan repertuarı 177
Ü. NƏBİYEVA. Göyçə aşıq məktəbinin zirvəsi - Asıq Ələsgərin poetik dünyası.....181
J. ALLAHVERDİYEVA. İngilis və Amerika ədəbiyyatında romantizm.....186
S. MƏMMƏDOVA. Azərbaycan nağılları SMOMPK məcmuəsində.....189
S. İMAMOVA. Azərbaycanin böyük tarixi şəxsiyyəti, görkəmli ictimai xadimi və şairi Şah İsmayil Xətainin həyat və yaradıcılığı.....192
T. BAĞIROVA. Aşıq Nabatın sənət şəcərəsi.....196
PEDAQOGİKA-PSIXOLOGIYA, ПЕДАГОГИКА-ПСИХОЛОГИЯ 199-273
A.MEYBƏLİYEVA. Some aspects of developing reading skills.....199
G. KARİMOVA. İnovative technologies in teaching english language.....202
D. QULİYEVA. İngilis dilində cümlə quruluşu.....206
M. QƏHRƏMANOVA. İngilis dilində yazı bacarığının təkmilləşdirmə yolları.....209
M. ASLANLI. "Kitabi-Dədə Qorqud" eposunda ovçuluq cəngavərlik meyarı kimi.....212
S. MUSTAFAYEVA. Azərbaycan dilinin tədrisi məsələləri 1930-50-ci illərin metodik əsərlərində.....217
Л. КЕРИМОВА. Актуальные проблемы преподавания английского языка в высших учебных заведениях.....220
T.AGAYEVA.Ethnocultural features of communication in different linguistic cultures..... 224
Р. ИМАНОВА. Особенности обучения деловому общению азербайджанских студентов в аспекте русского языка.....227

Г. РАСУЛОВА. Диалоги на уроках русского языка для иностранцев....231
G. MƏMMƏDOVA. Yaradıcı yazılarda bədii üslubun formalaşma yolları....235
Д. КАЗИ-ЗАДЕ. Эффективные методы обучения языку специальности....239
A. ŞELEMANOVA,V. QURBANOV. Ümumiləşdirici dərslər: tarixi təcrübə və müasir səciyyə baxımından təhlillər....242
Ж. МУСТАФАЕВА, Н. ХИЯЛОВА. Вопросы дисциплины детей на современном этапе....245
Н. ХАЛИЛОВА. Антонимичные глаголы в лингводидактическом аспекте....248
Р.ТАХМАЗОВА, Н.ШИРАЛИЗАДЕ. Особенности обучения чтению на основе текста....252
Д. МУСТАФАЕВА.Компютерные и интернетные ресурсы в обучении русскому языку как иностранному....255
E. SADIQOV. Tələbə gənclərin əmək fəaliyyətinə hazırlığının psixoloji problemləri....259
A. MEYBƏLIYEVA. About Communicative Language Teaching....263
З. МАНСИМОВА. К вопросу о сознательно – практическом методе обучения....266
И. ИСГЕНДАРЗАДЕ, Л. АХУНДОВА. Использование мультимедийных средств в обучении английскому языку....268
В. БУНЯДОВА. Применение сопоставительного анализа как средства изложения нового материала в методике 271
JURNALİSTİKA-ЖУРНАЛИСТИКА....274-278
G. İLQAR. Blogerlik vətəndaş jurnalistikası kimi....274
MƏRUZƏ VƏ MƏQALƏLƏR – ДОКЛАДЫ И СТАТЬИ....279
Ə. QULIYEVA. Qloballaşma şəraitində Azərbaycan dili....279
Л. АЛЕКПЕРОВА, Т. ДЖАФАРЛИ. Использование компьютерной технологии в обучении второму языку....279
E. ƏLİYEVA. Orammatik məfhumların mənimsənilməsində məntiqi ardıcıllıq....281
M. AXUNDOVA. Səməd Vurğunun "Azərbaycan" seirinin tədrisi 285
L. QƏDİRLİ. I-IV Sinif Azərbaycan dili dərslikləri və metodik vəsaitlərində məntiqi çalışmalar 287
S. QURBANOVA. Anarın " Keçən ilin son gecəsi" əsərinin təhlilinə dair....289
Л. ГУСЕЙНОВА. Концепт «Свое – Чужое» на материале повести А. И. Куприна «Жанета»....292
A. MEYBƏLIYEVA. The Role of Games at the English Lesson....296
M. XUDAVERDİYEVA,R.SÜLEYMANOVA,T.ƏLİZADƏ Methods of english language teaching....299
M. OSMANOVA. V.Hildeshaymerin "Tinset"və A.Məsudun "Üzü işığa" romanlarında ekzistensial problemlər....302
Д. ХАНБАБАЕВА. Семантическое своеобразие фразеологических синонимов....306
Л. ГУЛИЕВА. Самостоятельное чтение как вид внеаудиторной работы на начальном этапе обучения....309
А. НАМАЗОВА. Человек перед лицом глобальных проблем....313
S. QULİYEVA. Bolşevik mətbuatinda işlənən termin və terminoloji birləşmələr....317
Т. ИБРАГИМОВА. К вопросу о фонетической и лексической адаптации заимствований в русском языке....320
Ş. ƏLİYEVA. XVII-XVIII əsrlər Azərbaycan ədəbi dili....323
R. QULİYEVA. Azərbaycan dilində alliterasiya 326
S. MUSTAFAYEVA Rəşid bəy Əfəndiyevin ədəbi-nəzəri görüşləri....329
G. MEHDİYEVA. Antroponimiya dil haqqında bir elm kimi....333
С. АЛИЕВА, К. АХМЕДОВА. Залоги глагола в русском и азербайджанском языках....336
N. QƏDİMOVA, S. ZEYNALOVA. Qədim, orta və müasir ingilis dilində inversiya hadisəsinin sadə cümlə tərkibində işlənməsi....339
ЛИ ЦИНЦИН. Концепт «Китай» в русской терминологии....342
Л. ФИГАРОВА. Исследование структурно-грамматических категорий типов глаголов в китайском языке....345
M. İSMİXANOV, N. İMAMVERDİYEVA. Müasir təlim prosesi: əsas tələblər və vəzifələr....348
N. QURBANOVA. Robert Dabornun "A christian turned turk" əsərində türk konseptinin ifadəsi....352
L. QOCAYEVA. İngilis dilində psixologiyanın rolu....356
M. MƏMMƏDLİ. İntibah dövründə yaranmiş sözlərin ingilis dilinin zənginləşməsində rolu....360
T. MEHDİYEVA. Ana dili fənninin intellektuallığın inkişafı üçün əhəmiyyəti....363
Y. QARAŞOVA. İngilis dilində modal feillərin tarixi-nəzəri aspektləri....366
X. QOCAYEVA. Yazı və tələffüz arasında olan bəzi fərqlilik....370
Н. МАМЕДОВА. Диминутивы в коммуникативных ситуациях выражения «манипуляции, ласки, симпатии,....373
Х. ЙОЛЧИЕВА. Концепт «чувство» в русском и азербайджанском языке....376
G. MƏMMƏDOVA, S. XANKİŞİYEVA. Müasir ingilis dilində işlənən –ing formalı sözlərin cerundla bəzi allomorf və izomorf....380
O. PİRİYEVA. Baş cümləsi budaq cümlədən sonra gələn tabeli mürəkkəb cümlələrdə qəlib sözlər....383
S. MUSTAFAYEVA. İngilis dilində keçmiş zaman feili sifət tərkibləri....386

RƏYLƏR-ОТЗЫВЫ....
M. QURBANOVA. Rəna Mahmudova: "Xalq təbabətinin izi ilə"....
YUBİLYARLAR-ЮБИЛЯРЫ....
A.FƏRƏCOV, R.BAYRAMOV, P.EYVAZOV. Professor Zemfira Şahbazova və Azərbaycan dilinin qrammatikasi məsələləri

==========

Йыыылмаьа верилмишдир: 12.06.32 Чапа имзаланмышдыр : 29.06.22 Резограф чапы. Шящдятнамя № 27
Лисензийа: Серийа АБ № 022471. Тираъы 1000. Гиймяти пулсуз. Ляман няшр-полигр. ММЪ»-дя чап олунмушдур

RƏYLƏR-ОТЗЫВЫ....
M. QURBANOVA. Rəna Mahmudova: "Xalq təbabətinin izi ilə"....
YUBİLYARLAR-ЮБИЛЯРЫ....
A.FƏRƏCOV, R.BAYRAMOV, P.EYVAZOV. Professor Zemfira Şahbazova və Azərbaycan dilinin qrammatikasi məsələləri

==========

Йыыылмаьа верилмишдир: 12.06.32 Чапа имзаланмышдыр : 29.06.22 Резограф чапы. Шящадятнамя № 27
Лисензийа: Серийа АБ № 022471. Тираъы 1000. Гиймяти пулсуз. Ляман няшр-полигр. ММЪ»-дя чап олунмушдур

Sevinc Gülməmməd qızı Məmmədova1

İSMİN TƏSNİFATI

Biz formal dil vasitələrini qrammatik forma və ya digər ümumiləşdirilmiş qrammatik mənanın köməyi ilə başa düşürük. Qrammatikasız dil yoxdur və ola da bilməz (5, 7).

Hər hansı bir nitq hissəsi ya fərqli qrammatik kateqoriyaların (isimlər, fellər, sifətlər) bütöv bir sistemi və ya qrammatik kateqoriyaların (sözlər, bağlayıcılar, artikllar) olmaması ilə xarakterizə olunur.

Ənənəvi olaraq bütün nitq hissələri şərti sözlərə və funksional sözlərə bölünür. Əsasən isimlər, fellər, sifətlər, zərflər, əvəzliklər və saylar (nouns, verbs, adjectives, adverbs, pronouns and numerals) əsas nitq hissələridir, tam nominativ məna daşıyır, əksər hallarda dəyişkəndir və cümlədə özündən asılı sintaktik funksiyaları yerinə yetirir. Məsələn: bir nitq hissəsi kimi isim, hallanir, artikl qəbul edir, cümlədə mübtəda, tamamlıq və ya xəbərin funksiyalarıni daşıyır. Eyni şəkildə, bütün digər əsas nitq hissələri. Bağlayıcılar, sözönləri, artikl, nida, ədatlar və modal sözlər (conjunctions, prepositions, articles, interjections, particles, and modal words,) köməkçi nitq hissələridir. Natamam nominativ dəyərə malikdir, dəyişməzdir və vasitəçilik, konstruktiv sintaktik funksiyaları yerinə yetirir.

O.Musayev özünün " English Grammar" adlı kitabında nitq hissələrini aşağıdakı kimi təsnif edir:

1) Əsas nitq hissələri- isim, sifət, say, əvəzlik, fel, zərf .
2) Köməkçi nitq hissələri- sözönü, bağlayıcı, artikl, ədat.
3) Müstəqil nitq hissələri- nida, modal sözlər.

Müasir Azərbaycan dilində isə nitq hissələri aşağıdakılardır:

a) Əsas nitq hissələri: isim, sifət, say, əvəzlik, fel, zərf
b) Köməkçi nitq hissələri: qoşma, bağlayıcı, ədat, modal sözlər, nida

Bütün bunları nəzərdən keçirdikdə görürük ki, bəzi nitq hissələri bütün dillərdə, həmçinin, ingilis və azərbaycan dillərində də universal xarakter daşıyır (4, 12). Demək olar ki, bütün dillərdə isim və fel mövcuddur. Bəzi hallarda isim adı altında başqa sözlər nəzərdə tutulsa da, ümumilikdə isimlər subyekt, fellər isə subyekt haqqında danışılanı əhatə edir. İngilis və Azərbaycan dillərində nitq hissələrinin sayı da eyni deyildir. Muasir ingilis dilində əsas nitq hissələrinin sayı 7, azərbaycan dilində isə 6-dır.

İsim (The Noun)

İsim əsas nitq hissəsi olub, əşyalıq bildirir. Əşyalıq məfhumuna təkcə konkret sözlər (a boy, the moon, snow, butter) deyil, həm də əşyalara xas olan keyfiyyət (beauty, heroism) əlamət (heaviness, highness və s.), hərəkət adları (running, conversation) və eləcə də mücərrəd məfhumlar da (time, permission, friendship, childhood) daxildir. Müasir ingilis dilində isim, aşağıdakı qrammatik əlamətlərə malikdir:

1) İsim -er(-or), -ness, -ment, -hood, -ism, -ance, -ing şəkilçiləri vasitəsilə düzələ bilir, Məsələn: writer, sailor, darkness, boyhood, heroism, attendance, (the) writing.
2) İsimlə əlaqəli ən önəmli söz kateqoriyalarından biri, qeyri-müəyyən və müəyyən artikldır (2, 54).

Məsələn: a girl, the girl, a table, the table və s.

Məhz buna görə də bəzən ancaq sözün qarşısında işlənmiş artikl onun isim olduğunu bildirir. Məsələn: A four is a good mark.

3) İsim əşya bildirdiyi üçün onun qarşısında əlamət və ya keyfiyyət bildirən təyin işlənə bilir. Məsələn: a deep lake, a new building, a kind man və s;
4) İsim (sayıla bilən) tək və cəm formada işlənə bilir. Məsələn: a table — tables, a boy — boys, a box — boxes və s.

İngilis dilində ismin cəminin -s (-es) şəkilçisi ilə ifadə edilməsini nəzərə alsaq, bilavasitə feldən əvvəl gələrək -s (-es) şəkilçisinə malik olan sözün isim olduğunu yəqin etmək olar. Goods were sent two days ago.Colds are bitter here. cümlələrində işlənmiş goods, colds sözlərində olduğu kimi.

5) İsim sözönü ilə işlənə bilir. Məsələn: of the garden, to the park, in the street, on the wall, at the desk və s.
6) İsim cümlədə mübtəda, tamamlıq, predikativ, təyin və zərflik (sözönü ilə birlikdə) funksiyasında işlənə bilir.

İngilis dilində ismin 2 halı var:

1) The Common Case (Adlıq Hal)
2) The Genitive Case (Yiyəlik Hal)

Yiyəlik hal 's/of/' ilə düzəlir.

1. Tək isimlərin yiyəlik halı "'s" cəm isimlərin yiyəlik halı isə sadəcə " ' " vasitəsilə düzəlir.

Məsələn: the teacher`s book, the teachers` books.

Cəm forması kökündən dəyişməklə düzələn isimlərə " 's " artırılır. Onların yiyəlik halı tək isimlərin yiyəlik halı kimi düzəlir. Məsələn: children`s toyses, women`s bags.

2. Mürəkkəb isimlərdə isə son isim yiyəlik halda işlənir: The editor in chief's room
3. Eyni bir əşya iki və daha çox şəxsə aiddirsə axırıncı şəxsə, ayrı-ayrılıqda aiddirsə hər biri yiyəlik halda olur. Məsələn: my brother and sister`s room (mənim qardaşımın və bacımın otağı).my brother`s and sister`s room. (mənim qardaşımın və bcımın otaqları).

1 Azərbaycan Dövlət Pedoqoji Universiteti. s.mammadova@outlook.com

4. Daha çox cansız əşyalarının yiyəlik halı "of" sözönü ilə düzəlir.
5. “ S/' ” eyni zamanda bir sıra cansız isimlərlə də işlənilə bilir. Buraya daha çox məkan, zaman, məsafə və səma cisimlərini ifadə edən isimlər aiddi. Məsələn: Today's newspaper; The moon's light.
7. İsmin yiyəlik halı yer-məkan anlayışı da bildirir. Bu halda daha çox dilimizdəki "gildə" sonuluğuna uyğun gəlir. (Cümlədəki sözü geçən ismi təkrak etməmək üçün) Məsələn: She is at my uncle's (home). - O dayımgildədir. (Dayımın evindədir)
8. Bəzi mağaza, sənət və peşə adları məkan, yer anlayışı bildirdikdə 's qəbul edir. Məsələn: The Baker's; The greengrocer's ; The butcher's ; The Chemist's ; The Grocer's və s.
İngilis dilində cansız və heyvan adları "it" sözü ilə əvəz edilsə də, bəzən ölkə, planet, gəmi, maşın və bəzi kiçik və zəif heyvan adları bildirən isimlər qadın cinsinə aid edilir və she əvəzliyi ilə işlənə edilə bilir.
The sun kişi cinsinə The moon qadın cinsinə aid edilir.
Heyvanlar bir qayda olaraq orta cinsə aiddir. Həmçinin, güclü və böyük heyvanlar kişi, zəif və kiçik heyvanlar isə qadın cinsinə aid edilir
Tək və cəm isimlər
Yalnız tək formada işlənən isimlər (Nouns Used Only in the Singular)
Müasir ingilis dilində elə isimlər vardır ki, onlar yalnız tək formada işlənir.
Sayıla bilməyən isimlər.
Bura maddi və mücərrəd isimlər daxildir. Məsələn: sugar, butter, cheese, iron, water, love, hate, bread, friendship və s. Azərbaycan dilində də bu qəbildən olan isimlər, adətən, tək formada işlənir.
Azərbaycan dilində maddi isimlər müxtəlif növ bildirərkən də cəm formada işlənə bilir: sular, yağlar və s. Məsələn: Vətənimizdə müxtəlif müalicə suları vardır. Neftdən müxtəlif surtkü yağları alınır.
İngilis dilində advice, information, progress, knowledge isimləri də ancaq təkdə işlənir. Azərbaycan dilində isə bu sözlərin qarşılığı olan isimlər həm təkdə, həm də cəmdə işlənir. Beləliklə, yuxarıda verilmiş isimlər ifadə etdikləri mənadan asılı olaraq dilimizdə həm tək, həm də cəm formaya uyğun gəlir. Müqayisə edin:
advice-məsləhət-məsləhətlər
information -məlumat-məlumatla
knowledge –bilik-biliklər.
Fruit, money və hair isimləri də bir qayda olaraq təkdə işlənir. Məsələn: My father's hair is grey. Fruit is cheap in Autumn. This money is not enough to buy the coat.
Fruit ismi müxtəlif növ meyvə mənası kəsb etdikdə cəm formada işlənə bilir. Məsələn: There are a lot of fruits in our garden in autumn.
Fruit sözü məcazi məna kəsb etdikdə də cəm formada işlənir. Məsələn: The rich fruits of the Azeri people are visible everywhere.
Hair ismi ümumiyyətlə saç deyil, tük mənasında işləndikdə, yəni saçın ayrı-ayrı hissələrini bildirdikdə cəm formada işlənir. Məsələn: My mother has a few grey hairs. She has more hair than wit, and more faults than hairs (Shakespeare).
Yalnız cəm formada işlənən isimlər (Nouns Used Only in the Plural)
Müasir ingilis dilində bir qisim isimlər var ki, onlar yalnız cəm formada işlənir. Bu qəbildən olan isimləri iki qrupa bölmək olar:
1) iki eyni hissədən ibarət olan isimlər
tongs, scissors, spectacles, scales, trousers;
2) topluluq bildirən isimlər. Bu qəbildən olan isimlərin özləri də, iki yarımqrupa bölünür:
a) konkret əşya bildirəplər
goods, stairs, clothes və s;
b) mücərrəd məfhum bildirənlər
holidays, wages, beginnings, earnings, contents və s.
Qeyd: Wages ismi bəzən tək formada da işlənir. Məsələn: a living wage, a fixed wage, a minimum wage və s.
Qeyd etmək lazımdır ki, İngilis dilindən fərqli olaraq, Azərbaycan dilində bu əşyaları bildirən isimlər, digər isimlər kimi, ümumi qaydaya uyğun olaraq həm təkdə, həm də cəmdə işlənə bilir. Məsələn: biz qayçı, eynək, tərəzi, maşa və s. deyə bildiyimiz kimi, qayçılar, eynəklər, tərəzilər və maşalar da deyə bilirik. Demək, haqqında danışılan qəbildən olan isimlər dilimizə iki cür — həm təkdə, həm də cəmdə tərcümə edilə bilər. Müqayisə edin:
trousers – şalvar-şalvarlar. (1, 32)
scissors – qayçı-qayçılar.
scales – tərəzi-tərəzilər.
goods – mal-mallar
riches – sərvət-sərvətlər.
lothes – geyim-geyimlər.
Bununla əlaqədar olaraq yadda saxlamaq lazımdır ki, The scissors are sharp cümləsi dilimizə həm Qayçılar itidir, həm də Qayçı itidir şəklində tərcümə oluna bilər. Bunlardan hansının seçilməsi mətnin ümumi mənası ilə müəyyənləşdirilməlidir; əgər mətndə söhbət bir qayçıdan gedirsə, scissors sözü təkdə, bir neçə qayçıdan danışılırsa, cəmdə tərcümə edilməlidir.

Burada digər bir cəhət də nəzərə alınmalıdır. Haqqında danışılan isimlərin dilimizdə mövcud olan qarşılığı (şalvar, qayçı, mal, sərvət və s.) tək və cəm formada işlənməsindən asılı olmayaraq ingilis dilinə həmişə cəm formada tərcümə edilməlidir.

Cəm formada olub təkdə işlənən isimlər

Müasir ingilis dilində bir neçə isim var ki, onlar formaca cəmdir, yəni "s" şəkilçisinə malikdirlər, lakin həmişə təkdə işləni. Məsələn: news (xəbər) ismi formaca cəmdir, lakin o, həmişə təkdə işlənir: The news has shaken everybody. (3,23)

Azərbaycan dilində, ingilis dilindən fərqli olaraq, xəbər ismi həm təkdə, həm də cəmdə işlənir: xəbər—xəbərlər (şad xəbər, son xəbərlər). Bununla əlaqədar olaraq nəzərə almaq lazımdır ki, ingilis dilində mövcud olan news ismi dilimizə eyni formada, ümumi mənadan asılı olaraq, həm tək, həm də cəm formada tərcümə edilə bilər.

Elm adları bildirən bəzi isimlər—phonetics, physics, optics, lexics, linguistics və s. "-s" şəkilçisinə malik olmasına baxmayaraq, adətən, təkdə işlədilir:

Phonetics is a branch of linguistics. Mathematics is one of the exact sciences.

Qeyd: Elm və ya fənn adı bildirən həmin isimlər praktik bilik mənasında işlədilərkən cəmlik bildirir və cümlədə mübtəda rolunda çıxış edərkən özündən sonra feli cəmdə tələb edir. Məsələn: This student's phonetics are excellent. (4, 45)

Təkdə və cəmdə eyni formada işlənən isimlər

İsimlərin çox hissəsinin tək və cəm forması var. Buna baxmyaraq müasir ingilis dilində bir neçə xüsusi sözlər var ki, onlar eyni morfoloji formada həm təklik, həm də cəmlik ifadə edir. Bunların bir neçəsini aşağıda qeyd edirik:

sheep, swine, deer, gravel, fish, species.

Digər isimlərdən fərqli olaraq bu isimlər, heç bir şərtlə -s şəkilçisi qəbul etmir. Bu isimlərin təklik və ya cəmlik ifadə etməsi, digər sözlə, onların tək və ya cəmdə işlənməsi ancaq cümlə daxilində müəyyənləşir; bu isimlərdə kəmiyyət kateqoriyası bəzən (1) felin şəxs forması, (2) bəzən qeyri-müəyyənlik: artiklı, (3) bəzən isə qeyri-müəyyən əvəzlik ilə müəyyənləşdirilir. Məsələn:

1) The sheep is in the garden. The sheep are in the yard.
2) I see a sheep in the valley.
3) A wolf killed some sheep last night.

Yuxarıda verilmiş misallarda sheep isminin tək və ya cəmdə işlənməsini birinci və ikinci cümlələrdə to be felinin şəxs formaları (is, are), üçüncü cümlədə qeyri-müəyyənlik artiklı, dördüncü cümlədə isə qeyri-müəyyən əvəzlik (some) vasitəsilə müəyyənləşdirmək olur: birinci və üçüncü cümlələrdə sheep ismi təkdə, ikinci və dördüncü cümlələrdə isə cəmdə işlənmişdir.

Bununla əlaqədar olaraq nəzərə almaq lazımdır ki, Azərbaycan dilində olan qoyun, donuz, maral və s. bu kimi isimlər ingilis dilinə həm tək, həm də cəm formada eyni morfoloji quruluşa malik sözlə tərcümə edilir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. А.И.Смирницкий " Русско – английский словарь" (Москва. 1987)
2. H.Sweet "A New English Grammar" (London. 1892)
3. İsmixan Rəhimov " İngilis Dilinin praktik qrammatikası" (Bakı: Azərnəşr, 2003)
4. O.Jespersen " Modern English Grammar on Historical Principles" (London. 2006)
5. O.Musayev " İngilis Dilinin Grammatikası" (Bakı. 1996)

Açar sözlər: nitq hissələri, təhlil, nitq hissələrinin ənənəvi təsnifatı, problemlərin aşkarı

Key words: part of speeches, study, analysis of parts of speeches, reveals problems.

Ключевые слова: части речи, изучение частей речи, анализ частей речи, проблемы традиционной классификации частей речи.

İSMİN TƏSNİFATI

XÜLASƏ

Bu tədqiqat işinin məqsədi İngilis və Azərbaycan dillərində nitq hissələrini öyrənməkdir.Yazılan iş, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İki dildə nitq hissələrinin (İsim, Fel, Say, Zərf, Sifət) təhlilindən bəhs edir.

"Nitq hissələrinin təsnifatı" başlığı altında yazılmış tədqiqat işində müasir İngilis dili və Azərbaycan dilləri arasında nitq hissələrinin ənənəvi təsnifatı və problemləri aşkar edilmişdir. Bu, bütün üç meyarın birləşməsinə əsaslanır: "məna – forma – funksiya". Məsələn, söz sinfi kimi götürülən isimdə onun ümumiləşmiş mənası substantivlik, nitq hissəsi kimi feldə proses və ya hərəkət mənasını ifadə edir. Sifət isə nitq hissəsi kimi keyfiyyət və ya xassələrin adlarını və s. ifadə edir.

THE CLASSIFICATION OF NOUN

SUMMARY

The purpose of this research work is to study the parts of speech in the English and Azerbaijani languages. The work consists of a plan, conclusion and the list of the used literature. It deals with the analysis of Parts of speech (The Noun, The Verb, The Numeral, The Adverb, The Adjective) in two languages.

In the research work under the title of "The Classification of Parts of speech" reveals problems and the traditional classification of parts of speech between the modern English and Azerbaijani languages. It is based on the combination of all the three criteria: 'meaning – form – function'. In the noun, for example, taken as a class of words its generalized meaning is that of substantivity. In the verb as a part of speech its meaning is that of process or action. The adjective as a part of speech expresses names of qualities or properties and so on.

КЛАССИФИКАЦИЯ СУЩЕСТВИТЕЛЬНОГО

РЕЗЮМЕ

Целью данной исследовательской работы является изучение частей речи в английском и азербайджанском языках. Работа состоит из плана, заключения и списка использованной литературы. Она посвящена анализу частей речи (существительное, глагол, числительное, наречие, прилагательное) на двух языках.

В исследовательской работе под названием «Классификация частей речи» раскрываются проблемы традиционной классификации частей речи между современным английским и азербайджанским языком. Она основана на сочетании всех трех критериев: «значение — форма — функция». Например, в имени существительном, взятом в качестве класса слов, его обобщенное значение – значение субстантивности, а в глаголе как части речи – это значение процесса или действия. Прилагательное, как часть речи выражает качество или свойство существительного.

RƏYÇİ: dos. S.Abbasova

Aygün Vahid qızı Rüstəmzadə2

İNGİLİSDİLLİ ELİTAR DİSKURSDA EFVEMİZMLƏRİN İMPLİSİT MƏNA ÖTÜRÜCÜLÜYÜ FUNKSİYASI HAQQINDA

Məlumdur ki, istənilən diskursun formalaşmasında verbal, qeyri-verbal və transverbal işarələr həlledici rol oynayır. Bu mənada instutisional diskursun, o cümlədən, elitar diskursun linqvistik xüsusiyyətlərinin təhlili çərçivəsində verbal dil işarələrinin transverbal reallıqlarla əlaqəsi, qarşılıqlı şərtlənməsi mexanizmləri də sistemli şəkildə tədqiq edilməlidir. Belə ki, yalnız kontekstual zəmində təhlil əsnasında bu və ya digər verbal işarənin, əslində öz ilkin lüğəvi mənasında deyil, məcazi, evfemikləşmiş semnatikasında işlədildiyi ortaya çıxa bilər. Konkret olaraq, elitar diskurs kontekstində onu deyə bilərik ki, bu insttutisioanal diskursun öz daxili nizamlanma qaydaları olduğundan, həmin diksurs çərçivəsində müəyyən qəlibdən informasiyaların açıq şəkildə dilə gətirilməsi alqışlanmır. Məhz, bu zəmində də dil işarələrinin evfemistik mövqedə istifadəsi halları kütləviləşir. Həmin evfemizmlər isə öz növbəsində, elitar diksurs iştirakçılarının implisit informasiya ötürücülük intensiyasına xidmət etmiş olurlar.

Xatırladaq ki, Collins lüğətində vurğulandığı kimi, evfemizm, məhz, belə situasiyalarda, yəni kommunikantların çəkindiyi, utandığı və ya müəyyən toplumj yasaqları ilə qarşılaşdıqda "köməyə gələn" sözlərdir: A euphemism is a polite word or expression that is used to refer to things which people may find upsetting or embarrassing to talk about, for example sex, the human body, or death. [1].

"Sosiolinqvistik terminlər lüğəti"ndə isə "evfemizmlərin linqvokulturoloji və sosial aspektdən danışan üçün arzuaolunmaz görünən söz və ifadələrin" əvəzləyicisi kimi istifadə olunduğu qeyd edilir. [2]. Evfemizmlərin öz semantik nüvəsində daha nəzakətli, daha etik nominasiya mexanizmlərinin işə salınmasını hədəf alması, onları "yüksək üslub", "yüksək nitq mədəniyyəti" və deməli, "elitar nitq davranışı" komponentinə çevirmişdir. Bu mənada təsadüfi deyil ki, məhz, elitar diskursu, elitar dil kiimliyini tədqiq edən dilçilər məhz, evfemizmlərin elitar nitq mədəniyyəti daşıcılarının idiolektindəki işlənmə mövqelərinin tədqiqinə (daha ətraflı bax: [3; 167-168] ; [4; 16-17]), habelə bilavasitə elitar diskursda evfemizmlərin "sosial işarələr", "sosial markerlər" kimi istifadəsinin araşdırılmasına xüsusi diqqət yetirirlər. [5 ; 6, 34] ; [6; 79-84].

"Elitar dil kimliyi – mədəni-nitq kompitensiyasının ideal daşıyıcısı kimi" adlı araşdırmasında A.Aşevanın da qeyd etdiyinə görə, elitar dil kimliyi daşıyıcısı aşağıdakı səciyyəvi özəlliklərinə görə digər toplum fərdlərindən seçilir: dil sisteminin və ədəbi normalarının dərin biliciliyi ilə; yüksək üslubi mədəni səviyyə ilə, nitqin kommunikativ məqsədəmüvafiqliyi ilə; müsahibinə və auditoriyaya qarşı yüksək həssaslıq , hörmət və ünsiyyət müddətində etik normaların gözlənilməsi ilə və s. fərqləndirici xüsusiyyətlərlə özünün dil kimliyini tamamlayır [7]. Bu sırada məhz, leksik sistemin üslubi laylarından ustalıqla istifadə edilməsi bu və ya digər informasiyanın "üstüörtülü", eyhamla, yəni həmin toplumda qəbul edilmiş etik norma çərçivələrinə uyğun şəkildə, habelə qəbul edilmiş ənənələrdən kənara çıxmadan təqdimatını mümkün edir. Məhz, Britaniya zadəganlıq diskursunun, monarxik diskursunun konvensionallaşdırıdığı nitq davranışı qaydaları M.Markl, şahzadənin Harrinin müəyyən evfemistik törəmə nominasiya vahidlərinə müraciətini labüd etmişdir.

Onu da qeyd edək ki, they əvəzliyi bu subdiskursda yer almış yeganə "törəmə" (ikinci səviyyəli, ilkin olmayan) nominasiya vahidi deyil. Belə ki, biz, Britaniya kral ailəsinin Firm, family business statusunda dəyərləndirilməsi artıq evfemizm deyil, disfemizm mahiyyəti kəsb edir.

Oprah: So, are you saying you did not feel supported by the powers that be, be that The Firm, the monarchy, all of them?

Meghan: It's hard for people to distinguish the two because there's . . . it's a family business, right? [8].

Xatırladaq ki, disefimizmlər mahiyyət etibarı ilə evfemizmə əks mənalı sözləri əhatə edirlər. Yəni, evfemizmlər mənanın "yumşaldılması" xidmət etdikləri halda, disevfemizmlər nominasiya törəmə vahidinin (izlədfiyimiz nümunədə olduğu kimi) və ya hər hansı bir əlamətin, xüsusiyyətin kobud şəkildə. Vulqar formatda təqdimatını gerçəkləşdirirlər. "Sosiolinqvistik terminlər lüğəti"ndə qeyd edildiyi kimi, evfemizlərə müraciət çox vaxt praqmatik məqsədlərlə bağlı olur və daha çox müəyyən predmetin, hadisənin, əlamətin və s. "daha kobud, daha familyar və ya daha vulqar adlandırması ilə səciyyələnir. Siyasi diskursda yüksək işlənmə tezliyi ilə seçilir" [9].

Əslində, ilk baxışdan paradoksal görünsə də, bu kontekstdə The Firm, the İnstitution,family business disefimizləri özlərini evfemizm kimi "aparırlar": mahiyyət etibarı ilə Britaniyanın ən ali elitar təbəqəsinin, monarxik sisteminin "zirvəsinin", yəni kraliyyət ailəsinin belə neqativ konnotasiyalı töərmə nominasiya vahidləri ilə adlandırılması (yəni, disefimizmlərə müraciət edilməsi) həmin şəxslərin adlarının aşkarlanmaması məqsədilə icra edilir. Başqa sözlə desək, elitar diskurs daxili konsvensiolnal nitq davranışı tələbinə görə, açıq şəkildə ailə üzvlərinin adlarını çəkmək istəməyən diskurs iştirakçıları qeyd edilən disevfemizmlərdən yararlanır: həmin konkret şəxslər The Firm, the İnstitution,family business kimi yayğın, qeyri-dəqiq, denotatı məlum olmayan ümumi mücərrədləşmələrlə işarələnirlər.

Meghan: And I was — I went to the institution, and I said that I needed to go somewhere to get help. I said that, 'I've never felt this way before, and I need to go somewhere'. And I was told that I couldn't, that it wouldn't be good for the institution. And I called . . .

Oprah: So the institution is never a person. Or is it a series of people?

Meghan: No, it's a person. [8]. Bu mücərrədləşmələr o dərəcədə qeyri-dəqiqdir ki, kontekstdən kənarda həmin disevimizlərin, məhz neçə nəfəri işarələdiyini müəyyənləşdirmək çətin olur.

---

2 Azərbaycan Dillər Universitetinin İngilis dilinin qrammatikası kafedrasının müəllimi

Meghan: And I . . . and I remember so often people within The Firm would say, 'Well, you can't do this because it'll look like that. You can't'. [8].
Onu da qeyd edək ki, müsahibədə 5 dəfə işlədilmiş The Firm disefemizminin məhz, bu situasiyaya nəzərən evfemizm mövqeyində istifadə edildiyinin əyani şahidi olmaq üçün Britaniya elitar diskursunun digər iştirakçıları tərəfindən, hətta bilavasitə monarxiya institutunun ən yüksək "eşelonu" tərəfindən aktiv şəkildə istifadə edildiyini xatırlamaq kifayətdir.
The term is often linked to Queen Elizabeth's husband, Prince Philip, who popularized its use. But it dates further back, to the queen's father, King George VI, who was once reported to have declared, "We're not a family. We're a firm." [10].
Bu mənada The Firm disefemizminin istifadəsi, əslində, sadəcə olaraq, denotatın neqativ "işıqda təqdimatı" intensiyasına xidmət etmədiyini iddia etməklə nə dərəcədə haqlı olduğumuz bir daha ortaya çıxır. Başqa sözlə desək, artıq qeyd etdiyimiz kimi, elitar diskursun bir tabusunu pozmamaq üçün, yəni 1) kral ailəsi üzvlərinin adlarının açıqlanması ilə onların mənfi aspektdə geniş ictimaiyyətə təqdim olunmasının qarşısının alınması üçün, habelə 2) kommunikantların elitar diskursun nitq davranışı yasaqlarını "tapdalamaqla" məhrəm ailə sirrlərinin açıqlanmasına yol verməsi ilə bağlı yanlış davranışın əks-effektini bir qədər yumşaltmaq məramı ilə bu disefizmə müraciət edilmişdir, nəticə də nonsens görünə biləcək durum: disefemizmin evfemizm mövqeyində işlənməsi mümkün olmuşdur.
Yes, "The Firm" Is a Nickname for the Royal Family...Meghan Markle mentioned the phrase in her Oprah interview, but it's been used by royals before her.(kursiv bizimdir. – A.R.). [11].
Digər tərəfdən, obyektivlik naminə demək lazımdır ki, kommunikantlar kral ailəsini, məhz, neqativ aspekttdən işıqlandırılmasını hədəf aldığından burada disefimizn intesional təsirini də arxa plana atmaq doğru olmazdı. Məsələn, aşağıdakı kontekstdə "Firma" qara piar "emalı" ilə məşğul olan "böhtan maşını" kimi təqdim edilir.
Meghan: But I think, to answer your question, I don't know how they could expect that after all of this time, we would still just be silent if there is an active role that The Firm is playing in perpetuating falsehoods about us. [8].
Xatırladaq ki, The Firm disfemizmin yaranması hal-hazırkı Britaniya monarxının atası – kral IV Georqun adı ilə əlaqələndirilir. Onu da qeyd edək ki, bu disefemizm kral ailəsi üzrə bir çox araşdırmaların müəllifi olan Penny Junorun monoqrafik tədqiqatının balığına çıxarılmışdır: The Firm: The Troubled Life of the House of Windsor. [9].
But in her 2005 book The Firm: The Troubled Life of the House of Windsor, author Penny Junor writes that King George VI, who ruled from 1936 to 1952, "first referred to the House of Windsor as The Firm and the name stuck". (yenə orda).
Müşahidəçilər M.Marklın kommunikativ strategisyasındakı bəlirsizliyə, yəni The Firm ifadəsinin kimi şamil olunması ilə bağlı yayğınlığın, qeyri-dəqiqliyin mövcudluğuna diqqət çəkmişlər. Konkret olaraq, R.Bruner M.Marklın bu "termindən" iki fərqli semantikada yaralandığını qənaətinə gəlmişdir.
During Markle's interview with Winfrey, she made two distinctions. First, she drew a line between the family and the "institution": "So, there's the family, and then there's the people that are running the institution," she said. And she drew a line between her personal relationship with the head of the family and her dealings with the institution, saying that Queen Elizabeth "has always been wonderful to me." In contrast, she said that she requested mental health support from the institution's HR, but was denied because she was not technically on payroll. [13].
Əslində, belə bir "qeyri-dəqiqliyin" özü də elitar diskurs üçün xarakterik olan kommunakitiv strategiyanı təcəssüm etdirir
Meghan: ... And I had known for a long time and had been asking the institution for help for quite a long time. [8].
Maraqlıdır ki, müsahibədə 14 dəfə institution disfemizm/evfemizmindən istifadə edilmişdir. İştirakçılardan: M.Markl – 7 dəfə, şahzadə Harri – 3 dəfə, O.Uinfri isə – 4 dəfə bu terminə fərqli məqsədlərlə müraciət etmişlər. Konkret desək, yalnız ilk istifadə mövqeyində institution termini öz real situativ anlamına uyğun şəkildə işlədildiyi halda (But you weren't just marrying a family, you were marrying a 1,200-year-old institution, you're marrying the monarchy.), digər mövqelərdə bu istilaha konkret şəxsin və ya şəxslərin adlarının açıqlanmasından qaçınmaq məqsədilə (I had just had that conversation with Harry that morning, and it was the next day that I talked to the institution.) müraciət olunmuşdur.
Bu termindən istifadə məqamını şərh edən kraliyyət elitası üzrə ekspert V.Arbiterin də qeyd etdiyi kimi, "bu, çox qəliz və qarışıq cavabdır. Belə ki, "institutut" termini həm monarxiya intitutuna, yəni monarxiya biznesinə, həm də onun ictimai mövqeyinə şamil oluna bilər. Eləcə, institutun daxilində saray köməkçiləri də vardır. Yəni, şəxsi katiblər..., mətbuatla əlaqələr üzrə komanda da bura daxildir... Monarxiya institutu – nəhəng mənzərəni təcəssüm etdirir.". [14]. Yəni, izahatdan da bəlli olduğu kimi, M.Markl və şahzadə Harri şəxsi məsuliyyətdən "qaçınmaq" üçün, habelə mənfi reaksiyaların kütləviliyinin qarşısını almaq üçün istifadə etdikləri disefimizm/evfemizmlər, bilavasitə elitar diskursun daxili nitq davranışı qaydalarının tələblərinin qarşılığında müsahibə boyu yüksək işlənmə tezliyi nümayiş etdirmişdir.
Məqalə çərçivəsində yer alan təhlilləri yekunlaşdıraraq, nəticə kimi, onu demək istərdik ki, elitar diskurs iştirakçılarının nitq davranışı 1) elitar diskursun daxili konvensional nitq davranışı qaydaları ilə şərtlənir; 2) elitar diskursun konvensional nitq davranışı qaydaları bilavasitə həmin elitanın təmsil etdiyi xalqın dünyanın dil mənzərəsi ilə şəkilllənir və həmin xalqın koqnitiv "pəncərəsinin" imkan verdiyi çərçivədə qəliblənir, yəni linqvokulturoloji mühitdən, adət-ənənələrdən, xalqın dil kimliyindən birbaşa asılılıq nümayiş etdirir (hətta bu elitar toplumlar eyni dildə danışan fərqli linqvokulturoloji mühitləri təmsil etəslər də, məsələn, Böyük Britaniya elitar diskursu ilə ABŞ elitar diskursunun fərqliliklərini kiçik bir müsahibə çərçivəsində izlədiyimiz kimi); 3) elitar diskursun formatı, bu diskurs çərçivəsində reallaşan kommunikasiya bilavasitə həmin kommunikasiya situsiyasının iştirakçılarının emossional-psixoloji xüsusiyyətləri ilə, habelə dil kimliyi özəllikləri ilə şərtlənir. Nümunələrdən şahid olduğumuz kimi, kommunikantların Britaniya elitar diskursunda tərbiyə almış introvert-qapalı dil

kimilyi daşıyıcı olması; və ya ekstravert amerikan dəyərlərində tərbiyə alıb formalaşmış dil kimliyi daşıyıcı olması faktı ünsiyyətin formatına ciddi şəkildə təsir göstərə bilər.

Ədəbiyyat:

1. Collins Dictionary https://www.collinsdictionary.com/dictionary/english/euphemism
2. Эвфемизм // Словарь социолингвистических терминов. — М.: Российская Академия Наук. Институт языкознания. Российская академия лингвистических наук., Отв. редактор: В.Ю. Михальченко. 2006. https://sociolinguistics.academic.ru/820/%D0%AD%D0%B2%D1%84%D0%B5%D0%BC%D0%B8%D0%B7%D0%BC
3. Кочеткова Т.В. Эвфемизмы в речи носителей элитарной речевой культуры// Вопросы стилистики: Человек и текст. Саратов, 1998, Вып.27.-С. 168-179.
4. Кочеткова Т.В. Эвфемизмы в речи носителя элитарной речевой культуры // Риторика и речевая коммуникация: теория - практика - преподавание. - М.: МГУ, 1998. - С. 16-17.
5. Островская Т. А. Дискурс элиты: когнитивный, прагматический и семиотический аспекты, автореферат диссер…доктора.филол.наук., Майкоп, 2016, 52 с.
6. Островская, Т.А. Эвфемизация и обратные процессы в поведенческом дискурсе / Т.А. Островская // Вестник Адыгейского государственного университета. Сер. Филология и искусствоведение. - Майкоп: Изд-во АГУ, 2012. - Вып. 3(105). - С. 79-84.
7. Ашева А.А. Элитарная языковая личность как идеальный носитель культурно-речевой компетенции // Вестник Адыгейского государственного университета. Серия 2: Филология и искусствоведение 2013 https://cyberleninka.ru/article/n/elitarnaya-yazykovaya-lichnost-kak-idealnyy-nositel-kulturno-rechevoy-kompetentsii
8. Meghan Markle Oprah interview: read the full transcript of Duchess and Prince Harry's bombshell confessions https://www.thesun.co.uk/news/14277841/meghan-markle-oprah-interview-full-transcript/
9. Дисфемизм // Словарь социолингвистических терминов. — М.: Российская академия наук. Институт языкознания. Российская академия лингвистических наук. Ответственный редактор: доктор филологических наук В.Ю. Михальченко. 2006. https://sociolinguistics.academic.ru/170/%D0%94%D0%B8%D1%81%D1%84%D0%B5%D0%BC%D0%B8%D0%B7%D0%BC
10. Landler M. In Royal 'Firm,' the Family Business Always Comes First // The New York Times, March 9, 2021. https://www.nytimes.com/2021/03/09/world/europe/royal-family-firm-meghan-harry.html
11. Gonzales E. Yes, "The Firm" Is a Nickname for the Royal Family // March 4 2021, https://www.harpersbazaar.com/celebrity/latest/a35723590/why-royal-family-is-called-the-firm/
12. Matza M. Meghan and Harry: Questions the US had about Oprah interview // BBC, 9 March, 2021, https://www.bbc.com/news/world-us-canada-56328790
13. Bruner R.Meghan Markle Calls the British Royals 'The Firm.' Here's Why // Time Magazine, March 9, 2021, https://time.com/5945032/what-is-the-firm-royal-family/
14. Fakuade M.What is "the institution"? What is "the firm"? A royals expert explains. // Vox - Understand the News, Mar 8, 2021, https://www.vox.com/the-goods/22320355/meghan-markle-oprah-prince-harry-archie-cbs-royal-british-monarchy-queen-firm-institution-explainer

Açar sözlər: elitar diskurs, linqvistik xüsusiyyətlər, ingilis dili, evfemizmlər, implisit məna.

Ключевые слова: элитарный дискурс, языковые особенности, английский язык, эвфемизмы, имплицитное значение.

Keywords: elite discourse, linguistic features,the English language, euphemisms, implicit meaning.

XÜLASƏ

İngilisdilli elitar diskursda efvemizmlərin implisit məna ötürücülüyü funksiyası haqqında

Məqalədə ingilisdilli elitar diskursda efvemizmlərin implisit məna ötürücülüyü funksiyası araşdırılır. Aparılan təhlil və araşdırmalar onu deməyə imkan verir ki, elitar diskurs iştirakçılarının nitq davranışı 1) elitar diskursun daxili konvensional nitq davranışı qaydaları ilə şərtlənir; 2) elitar diskursun konvensional nitq davranışı qaydaları bilavasitə həmin elitanın təmsil etdiyi xalqın dünyanın dil mənzərəsi ilə şəkilllənir və həmin xalqın koqnitiv "pəncərəsinin" imkan verdiyi çərçivədə qəliblənir, yəni linqvokulturoloji mühitdən, adət-ənənələrdən, xalqın dil kimilyindən birbaşa asılılıq nümayiş etdirir (hətta bu elitar toplumlar eyni dildə danışan fərqli linqvokulturoloji mühitləri təmsil etəslər də, məsələn, Böyük Britaniya elitar diskursu ilə ABŞ elitar diskursunun fərqliliklərini kiçik bir müsahibə çərçivəsində izlədiyimiz kimi); 3) elitar diskursun formatı, bu diskurs çərçivəsində reallaşan kommunikasiya bilavasitə həmin kommunikasiya situsiyasının iştirakçılarının emossional-psixoloji xüsusiyyətləri ilə, habelə dil kimliyi özəllikləri ilə şərtlənir.

РЕЗЮМЕ

О функции эвфемизмов в англоязычном элитарном дискурсе

В статье исследуется функция имплицитного значения эвфемизмов в англоязычном элитарном дискурсе. Анализ и исследование позволяют говорить о том, что речевое поведение участников элитарного дискурса 1) обусловлено внутренними конвенциональными правилами речевого поведения элитарного дискурса; 2) конвенциональные правила речевого поведения элитарного дискурса непосредственно формируются языком мира, репрезентируемого людьми, репрезентируемыми этой элитой, и формируются в когнитивном «окне» этого народа, т. е. находятся в прямой зависимости от лингвокультурной среды. , обычаи и языковая идентичность (даже этой элиты), хотя общества представляют собой разные лингвокультурные среды, говорящие на одном языке (например, как мы наблюдали в небольшом интервью, различия между дискурсом британской элиты и дискурсом элиты США); 3) формат элитарного дискурса, коммуникация, происходящая в рамках этого дискурса, напрямую обусловлена эмоционально-психологическими характеристиками участников данной коммуникативной ситуации, а также особенностями языковой идентичности.

SUMMARY

On the function of euphemisms in the English-speaking elite discourse

The article examines the function of the implicit meaning of euphemisms in the English-speaking elite discourse. The analysis and research allow us to say that the speech behavior of the participants of the elite discourse is 1) conditioned by the internal conventional speech behavior rules of the elite discourse; 2) The conventional rules of speech behavior of an elite discourse are directly shaped by the language of the world represented by the people represented by that elite and molded within the cognitive "window" of that people, ie they are directly dependent on the linguocultural environment, customs and lan-

guage identity (even this elite). although societies represent different linguocultural environments that speak the same language (for example, as we observed in a small interview, the differences between the British elite discourse and the US elite discourse); 3) the format of the elite discourse, the communication that takes place within this discourse is directly conditioned by the emotional and psychological characteristics of the participants in that communication situation, as well as the features of language identity.

RƏYÇİ : dos. L.Ələkbərova

Babayeva Nigar Oqtay qızı3

KOQNİTİV DİLÇİLİK VƏ ONUN İSTİQAMƏTLƏRİ

Mədəniyyət ən uğurlu dildir. Bu dillə insanlar bir-birini anlayır. Qeyd edək ki, mədəniyyətlərin qovuşması olduqca böyük bəhrə verir. Xalqlar dostlaşır, mədəniyyətlər bir-birini inkar etmir. Azərbaycanda mədəniyyətlərarası dialoq hər zaman mövcud olub və mədəniyyətlərarası dialoqun multikulturalizmə təsiri əvəzsizdir. Dil ünsiyyətin ilk vasitəsi və insanlar arasında qarşlıqlı anlaşılma üçün vasitədir. Mədəniyyətlərarası, ölkələrarası qarşılıqlı anlama və inkişaf istiqamətində istifadə edilib və tədris edilərək öyrədilir. Koqnitiv dilçilik doğma dilin təhlilinə yanaşma 70-ci illərin sonu və səksəninci illərin əvvəllərində Corc Lakoff, Ron Langacker və Len Talmynin əsərlərində yaranıb və təşkil etmək üçün bir vasitə kimi diqqət yetirilib. Bu nöqteyi nəzərdən dil kateqoriyalarının konseptual və təcrübi əsaslarının təhlili koqnitiv linqvistikada birinci dərəcəli əhəmiyyət kəsb edən dilin formal strukturları sanki avtonom deyil, ümumi konseptual təşkilatın, təsnifat prinsiplərinin, təhlil mexanizmlərinin əksi kimi öyrənilib. Koqnitiv dilçiliyin nəzəri mövqeyini, tədqiqatın təşkil olunması, bir sıra praktik xüsusiyyətlərini təsvir edərək koqnitiv dilçiliklə məşğul olan insanlar kimlər olur, mühüm konfranslar və müvafiq nəşrlər hansılardır, giriş dərslikləri varmı, koqnitiv dilçiliyə bu nəzəri və "sosioloji" giriş boyunca vurğulanacaq, koqnitiv dilçilik tək dil nəzəriyyəsi deyil, daha çox geniş şəkildə uyğun gələn yanaşmalar toplusudur. Koqnitiv dilçiliyin görünən cəlbediciliyini izah edə bilərikmi və çərçivənin gələcək inkişafı üçün hansı vacib suallar olacaqdır, koqnitiv linqvistika dili insanın ümumi idrak imkanlarında yerləşmiş hesab etdiyi üçün xüsusi maraq kəsb edən mövzulara aşağıdakılar daxildir. Doğma dilinin təsnifatının struktur xüsusiyyətləri məsələn, prototiplik, sistematik çoxmənalılıq, idrak modelləri, psixi obrazlar və metafora linqvistik təşkilatın funksional prinsipləri ikoniklik və təbiilik kimi, sintaksis və semantika arasında konseptual interfeys koqnitiv qrammatika və konstruksiya qrammatikası tərəfindən araşdırıldığı kimi, istifadə olunan dilin təcrübi və praqmatik fonu, relativizm və konseptual universallarla bağlı suallar da daxil olmaqla dil və düşüncə arasındakı əlaqələrdir. Əsas odur ki, koqnitiv dilçilik tərəfindən bu tədqiqat mövzularının bütün bunlara bu təlimatın fəsillərində xüsusi diqqət yetirilir, uyğun olaraq həyata keçirildiyi vahid əsası yoxdur. Bu mənada koqnitiv dilçilik vahid dil nəzəriyyəsi deyil, çevik çərçivədir. Kateqoriya strukturu baxımından koqnitiv linqvistikada təhlil üçün standart mövzulardan biri deyə bilərik ki, koqnitiv dilçiliyin özü bir kateqoriya kimi baxıldığında, ailə oxşarlığı strukturuna malikdir. Dəqiq müəyyən edilmiş nəzəriyyədən çox, bir çox qismən üst-üstə düşən yanaşmaların toplusunu təşkil edir.

Bununla belə, koqnitiv linqvistikanın hələ də vahid vahid nəzəriyyəyə çevrilmədiyini etiraf etmək, Koqnitiv Dilçilik etiketi altında bir araya gələn bir çox tədqiqat formaları arasında fundamental ümumi xüsusiyyətlər və ortaq perspektivlər axtarmağa mane olmamalıdır. Başlamaq üçün açıq bir sual koqnitiv linqvistikanın "idrak" aspekti ilə bağlıdır. Koqnitiv linqvistika hansı mənada dilin öyrənilməsinə koqnitiv yanaşmalardan hesab edilir. Terminoloji baxımdan, koqnitiv dilçilik bu təlimatda təqdim olunan yanaşma və böyük hərflə yazılmamış koqnitiv dilçilik təbii dilin psixi fenomen kimi öyrənildiyi bütün yanaşmalar arasında fərq qoyulur. Koqnitiv linqvistika, məsələn, generativ qrammatikadan və süni intellekt sahəsində linqvistik tədqiqatların bir çox formalarından fərqləndirilməli olan koqnitiv dilçiliyin ancaq bir formasıdır. Beləliklə, koqnitiv elm daxilində koqnitiv dilçiliyin spesifikliyini nə müəyyənləşdirir. Sual daha iki spesifik məsələyə bölünə bilər: Koqnitiv linqvistikada koqnitivin dəqiq mənası nədir və (2.5) bu məna dilçiliyin digər formalarının özlərini idrak kimi təsəvvür etmə tərzindən nə ilə fərqlənir.

İdrak psixologiyasında, elm fəlsəfəsində və əlaqəli fənlərdə koqnitiv paradiqmanın əsas xüsusiyyətləri fonunda koqnitiv linqvistikanın qəbul etdiyi nəzər nöqteyi daha dəqiq müəyyən edilə bilinər. Koqnitiv dilçilik dilin idrak funksiyasında öyrənilməsidir, burada idrak dünya ilə görüşlərimizdə ara informasiya strukturlarının həlledici roluna istinad edir. Koqnitiv linqvistika idrak psixologiyası kimi koqnitivdir, dünya ilə qarşılıqlı əlaqəmizin şüurdakı informasiya strukturları vasitəsilə vasitəçilik edildiyini fərz etməklə ifadə edilir. Bununla belə, bu məlumatı təşkil etmək, çatdırmaq üçün bir vasitə kimi istifadə olunan dilə diqqət yetirməklə, koqnitiv psixologiyadan daha spesifikdir. Beləliklə, dil dünya biliklərinin anbarı, yeni təcrübələrlə mübarizə aparmağa və köhnələr haqqında məlumat saxlamağa kömək edən mənalı kateqoriyaların strukturlaşdırılmış toplusu kimi görünür.

Bu ümumi xarakteristikaya əsasən koqnitiv dilçiliyin üç əsas xarakteristikasını çıxarmaq olar: 1) 1.linqvistik təhlildə semantikanın üstünlüyü; 2) linqvistik mənanın ensiklopedik xarakteri; 3) linqvistik mənanın perspektiv xarakteri.

Birinci xüsusiyyət sadəcə olaraq bildirir ki, dilin əsas funksiyası məna ehtiva edir, digər iki xüsusiyyət sözügedən semantik hadisələrin xarakterini müəyyənləşdirir. Linqvistik təhlildə semantikanın üstünlüyü bilavasitə koqnitiv baxımdan özünü göstərir: dilin əsas funksiyası kateqoriyalara ayırmaqdırsa, deməli, əsas dil hadisəsi məna olmalıdır. Dil mənasının ensiklopedik mahiyyəti dilin kateqoriya funksiyasından irəli gəlir: dil dünyanın təsnifatı sistemidirsə, dünya biliyinin mövcud olduğu səviyyədən fərqli linqvistik mənanın sistemli və ya struktur səviyyəsini göstərməyə ehtiyac yoxdur.

Linqvistik mənanın perspektiv təbiəti dünyanın dildə obyektiv şəkildə əks olunmamasını nəzərdə tutur, dilin kateqoriyalara ayırma funksiyası obyektiv reallığı əks etdirməkdənsə, dəqiq olaraq dil fərdlərin və mədəniyyətlərin ehtiyaclarını, maraqlarını və təcrübələrini əks etdirən biliyin təşkili üsuludur. Linqvistik mənanın perspektivləşdirici funksiyaya malik olması ideyası koqnitiv dilçilik tərəfindən qəbul edilən fəlsəfi, qnoseoloji mövqedə nəzəri olaraq işlənmişdir (3.123). Koqnitiv linqvistikanın insan biliyinə münasibətdə təcrübəçi mövqeyi insan zəkasının bizim üzvi təcəssümümüz və fərdi və kollektiv təcrübəmizlə müəyyən edildiyi fikrini vurğulayır. Koqnitiv linqvistikanın təbiətinin bu ilkin xarakteristikasını nəzərə alaraq, indi ikinci suala keçə bilərik, necə ola bilər ki, koqnitiv dilçilik və generativ qrammatika özlərini koqnitiv müəssisələr kimi bəyan edirlər.

3 Bakı Slavyan Universiteti. dos. nigar79@hotmail.com

Əsasən, istifadə edilən dilin qnoseoloji rolu ilə bağlı iki yanaşma bir-birindən fərqlənir. Onların hər ikisi razılaşırlar və bu, onların ümumi idrak valideynliyidir ki, subyekt və obyekt arasında qnoseoloji münasibətdə konstitutiv, vasitəçi rola malik olan zehni təmsil (4. 6) olmadan heç bir bilik ola bilməz. Lakin koqnitiv dilçiliyə görə, öz dilləri xarici aləmə dair bu cür kateqoriyalı perspektivləri dəqiq şəkildə təcəssüm etdirdiyi halda, generativ dilçi təbii dili subyekt və obyekt arasında aralıq əlaqə kimi deyil, qnoseoloji əlaqənin obyekti kimi qəbul edir. Koqnitiv dilçilik dünya haqqında biliklərimizlə maraqlanır və təbii dilin ona necə töhfə verdiyi sualını öyrənir. Generativ dilçi isə əksinə, bizim dil haqqında biliklərimizlə maraqlanır və öyrənmənin koqnitiv nəzəriyyəsi əsasında belə biliyin necə əldə oluna biləcəyi sualını verir. Koqnitiv müəssisələr olaraq, koqnitiv dilçilik və generativ qrammatika eyni şəkildə biliyi təşkil edən psixi strukturlarla maraqlanır. Koqnitiv yanaşma üçün doğma dilin özü belə strukturlardan ibarətdir və müvafiq bilik növü dünya haqqında bilikdir. Generativ qrammatik üçün isə nəzərdən keçirilən bilik dil haqqında bilikdir və müvafiq psixi strukturlar insanların dili öyrənməyə imkan verən genetik səciyyəsindən ibarətdir. Generativ qrammatika dil bilikləri ilə maraqlandığı halda, Koqnitiv Dilçilik dil vasitəsilə biliklə maraqlanır.

Generativ qrammatikanın koqnitiv təbiəti ilə müqayisədə koqnitiv dilçiliyin "idrak" təbiəti haqqında verdiyimiz səciyyə göstərir ki, koqnitiv dilçilik və generativ qrammatikanın birbaşa qarşıdurmasına nail olmaq üçün iki yol vardır. İlk növbədə, generativ qrammatikanın formalist mövqeyini nəzərə alaraq, koqnitiv dilçilik göstərməyə çalışmalıdır ki, generativ nəzəriyyənin formalaşmasının əsasını təşkil edən iddia edilən formal hadisələrin adekvat təsviri özünə qoyulan hüdudları aşan semantik və funksional amilləri əhatə edir. Bu mənada, koqnitiv dilçilik dogma dil haqqında spesifik işləyən fərziyyə ilə xarakterizə olunur, yəni doğma dildə indiyədək güman ediləndən daha çox semantik və funksional əsaslarla izah edilə bilər həmin fərziyyə, bir çox digər praqmatik və funksional yönümlü dilçilik nəzəriyyələri ilə, müəyyən bir fenomenin sadəcə formal sintaksisdən daha çox idrak funksiyasını əhatə etdiyi ortaya çıxdıqda, mümkün sintaktik konstruksiyalara genetik olaraq verilmiş formal məhdudiyyətlərin qoyulmasına ehtiyac azalır. Bu cür arqumentasiyanın əsas nümunəsini Van Hoekin bu təlimatın 34-cü fəslində tapmaq olar.

İkincisi, koqnitiv dilçilik proqnozları təcəssüm etdirən qeyri-avtonomist dilin mənimsənilməsi nəzəriyyəsini inkişaf etdirməlidir, birincisi, dilin mənimsənilməsi çox vaxt doğma dilə xas olmayan mexanizmləri və məhdudiyyətləri əhatə edir, ikincisi, öyrənmə ilə bağlı məhdudiyyətlərin mövcud olduğu dərəcədə doğma dilin mənimsənilməsi ilə məhdudlaşan, ən azı müəyyən dərəcədə linqvistikdən başqa idrak sistemləri tərəfindən təmin edilən "informasiya substansiyasından" istifadə edəcəklər. Hazırkı təlimatın 41-ci fəslində Tomasello bu proqramın əslində necə həyata keçirildiyini göstərir, Ümumiləşdirərək qeyd edə bilərik ki, koqnitiv linqvistikanın müxtəlif formalarını birləşdirən, dil biliyinin təkcə dil biliyini deyil, dilin vasitəçiliyi ilə dünya biliyini də əhatə etdiyinə inamdır. Generativ qrammatikadan fərqli olaraq yanaşmaların diqqət yetirdiyi bilik tipindəki bu dəyişikliyə görə və xüsusən də koqnitiv dilçiliyin eksperimental təbiətinə görə bəzən koqnitiv dilçiliyin "ikinci idrak inqilabına" aid olduğu deyilir. Generativ qrammatika 1950-ci illərin "ilk idrak inqilabı"na aid olunmuşdur.

ƏDƏBİYYAT SİYAHISI

Berthele, Raphael. 2004. The typology of motion and posture verbs: A variationist account. In Bernd Kortmann, ed., Dialectology meets typology: Dialect grammar from a cross-linguistic perspective 93–126. Berlin: Mouton de Gruyter.
Bybee, Joan L., and Paul Hopper, eds. 2001a. Frequency and the emergence of linguistic structure. Amsterdam: John Benjamins.
Croft, William. 2000. Explaining language change: An evolutionary approach. London: Longman.
Croft, William. 2000. Explaining language change: An evolutionary approach. London: Longman.
Dirven, René, Roslyn Frank, and Martin Pütz, eds. 2003. Cognitive models in language and thought: Ideology, metaphors and meanings. Berlin: Mouton de Gruyter

Açar sözlər: koqnitiv, dilçilik, ümumi, çoxmənalı, dil.
Keywords: cognitive, linguistics, general, ambiguous, language.
Ключевые слова: когнитивное, языкознание, общее, неоднозначное, язык.

SUMMARY

Cognitive linguistics and its main directions

The article concludes that linguistics, which combines various forms of cognitive linguistics, includes not only linguistics, but also the knowledge of the world through language. In contrast to generative grammar, cognitive linguistics is sometimes referred to as belonging to the "second cognitive revolution" because of this change in the type of knowledge on which attention is focused, especially for cognitive linguistics experimentally.

РЕЗЮМЕ

Когнитивное языкознание и его основные направления

В статье говориться о том, что языкознание, объединяющее различные формы когнитивной лингвистики, включает в себя не только языкознание, но и познание мира посредством языка. В отличие от порождающей грамматики, когнитивную лингвистику иногда называют принадлежащей ко «второй когнитивной революции» из-за этого изменения типа знания, на котором сосредоточено внимание, особенно для когнитивной лингвистики.

Rəymi: dos. Günay Hümbət qızı Babayeva

Seyidova Sultan Muxtar qızı [4]

LEKSİK VAHİDLƏRİN EKSPRESİV-ÜSLUBİ ÇALARLARI

(I məqalə)

Dünyanın bütün zəngin dilləri kimi, Azərbaycan dili leksik-semantik cəhətdən özünəməxsus lüğət tərkibinə malikdir. Bu lüğət tərkibinin, eləcə də, dilimizin lüğət fondunun əsasını milli leksika təşkil edir. Dilimiz qanadlı fikirləri dəqiq ifadə etmək, bütün funksional üslublara məxsus, eləcə də ümumxalq danışıq dilinə aid olan kommunikativ əlaqələndirməni rahat şəkildə yerinə yetirmək qabiliyyətinə malikdir. Dilin lüğət tərkibinin standart sərhədlərindən kənarda mövcud olan sözləri, ekspressiv-üslubi çalarları bildirən ifadələri də nəzərə alsaq, gözümüzün önündə sahilləri görünməyən bir ümman canlanar. Bu ümman özündə üzdə olan və olmayan nemətləri birləşdirir. Ümmanın sirlərinə bələd olan hər bir adam ondan yetərincə bəhrələnə bilər.

Azərbaycan dilinin leksikası leksik-semantik söz qruplarını (çoxmənalı sözlər, omonim, sinonim, antonim və paronimlər), müasir Azərbaycan dilinin mənşə etibarilə lüğət tərkibini (əsl Azərbaycan sözləri və alınmalar), aktiv və passiv sözləri (sonunculara arxaizm və neologizmlər daxildir), dialekt, peşə-sənət leksikasını və jarqon leksikasını öyrənir. Müasir Azərbaycan dilinin üslubca leksikası və frazeoloji vahidləri, sözlərin etimoloji cəhətdən öyrənilməsi və onomasiologiya problemləri də bura daxildir. Bu söz qrupları içərisindən lazım olanları seçmək, onları nitqdə yerli-yerində işlətmək, yoruculuğa yol verməmək üslubi leksikanın payına düşür.

Prof. H. Həsənov üslubi leksikanı "leksik-semantik vasitələrərdən üslubi məqsədlərlə istifadə haqqında təlim" adlandırır və yazır: "Bu təlimdə çoxmənalı, omonim, sinonim və antonim sözlərin üslubi vəzifələrindən, arxaizm və neologizmlərdən, alınma sözlərdən üslubi istifadə qaydaları, dialektizmlərin və jarqonların bədii üslubda işlənmə xüsusiyyətləri, ekspressiv sözlərin müxtəlif üslublarda yeri və funksiyası, hər hansı üslubda müxtəlif səciyyəli sözlərin işlənmə tezliyi və onun səbəbləri və s. öyrənilir" (10, 263). Məhz buna görə də üslubi leksika dedikdə leksik-semantik söz qruplarının, leksik-üslubi layların, frazeologiyanın və onomastikanın üslubi imkanları nəzərdə tutulur. Akad. A. Qurbanov dil vahidlərinin üslubi imkanları siyahısında üslubi fonetika və üslubi leksika ilə bir sırada "üslubi onomastika", "üslubi frazeologiya" və "üslubi derivatologiya" başlıqlarını da qeyd edir və yazır: " Bütün üslublarda olduğu kimi, üslubi leksikanın əsasını da sinonimlik hadisəsi təşkil edir"(12, 13).Yeri gəlmişkən deyək ki, akad.V.V.Vinoqradov da sinonimik vasitələri üslubiyyatın əsas elementi hesab edir (16, 15).

Prof. N. Abdullayev nitqin üslubi rəngarəngliyinin təmin edilməsində dilin bədii təsvir vasitələrinin (metafor, metonimiya, sinekdoxa, epitet, müqayisə, bənzətmə, mübaliğə, tabu sözlər) rolunu da üslubi leksikaya daxil edir (2,184-187). Göründüyü kimi, prof. N. Abdullayev bədii ifadə vasitələrindən danışmır, ancaq bədii təsvir vasitələrini üslubi leksikaya daxil edir. Fikrimizcə, dilin bədii təsvir və ifadə vasitələrinin üslubi leksikaya daxil edilməsi yerində deyil. Təəssüflər olsun ki, təkcə elmi ədəbiyyatda deyil, metodik ədəbiyyatda da bu hal təkrar olunur, dilin bədii təsvir və ifadə vasitələrinin öyrənilməsi üslubiyyat məşğələlərinə həvalə olunur (3, 219-233). Bizim fikrimizcə, bədii təsvir və bədii ifadə vasitələri bədii üslubun leksik və qrammatik səviyyədə obrazlılıq yaradan vasitələrindəndir və onlardan nitqin funksional üslublarından danışarkən bəhs etmək lazımdır.

Dilin leksik-üslubi imkanlarından maksimum yararlanmaq üçün leksik normalara dərindən bələd olmaq, onları dərindən mənimsəmək lazımdır. Bu normada dəyişmələrin və yeniləşmələrin tez-tez baş verdiyini, alınma leksikanın dilə mütəmadi şəkildə daxil olduğunu nəzərə alsaq, leksik normanın təbiətinin düzgün başa düşə bilərik. Leksik normanın təbiətini prof. K. Əliyev belə izah edir: "Dilin lüğət tərkibindəki ən zərif, incə mənalı, hamının başa düşdüyü sözlər, sabit ifadələr ədəbi dildə işlənir" (9, 120). Digər tərəfdən, leksik normaların üslubi normalara xidmət etdiyi vurğulanır: "Leksik normalar sözlərin incəlik, zəriflik, rəvanlıq cəhətdən daha geniş işlənməsi, mənasının asan dərk olunması və s. baxımından uyarlısının müəyyənləşdirilməsi və ədəbi dilə gətirilməsinə xidmət edir" (2, 128). Bu sözlərə dərindən fikir verdikdə aydın olur ki, leksik normaların əsas vəzifəsi nitqin ifadəliliyini təmin etməkdən ibarətdir. Bu da son nəticədə dilin leksik tərkibindən məqsədəuyğun istifadə deməkdir ki, üslubiyyatın əsas məqsədi də elə bundan ibarətdir.

Leksik-semantik söz qruplarından biri sayılan çoxmənalı sözlər dilimizin zəngin məcazlaşma sistemini əks etdirir, bir sözün semantikası altında neçə-neçə məna çalarlarının gizləndiyini göstərir. Məcazlaşma nitqdə böyük qüvvəyə malikdir: əvvələn, o, sözün mənasını dəqiqləşdirir; ikinci tərəfdən, dilin zənginliyini əks etdirir. Çoxmənalı sözlərin yaranmasında məcazlaşmanın mühüm əhəmiyyəti vardır; söz öz dominant mənasından uzaqlaşaraq, az qala tamamilə fərqli məna kəsb edir. Məsələn:

Səngərdən açdıq əzmlə yollar səadətə;
Şeirimdə dil açıb danışmırmı bəs
Sənin bulaqların, göy çinarların? (B. Vahabzadə);

Zirvəsində qanad açdım,
Ətəyində süfrə açdım (M. Araz);

Ürək açan mənzərələr... (S. Vurğun);

---

4 BDU, dosent. filologiya üzrə fəlsəfə doktoru. sultan@seyidli.com

-Gördünmü, ay bala,-dedi,-atan mənim başıma nə oyun açdı? (İ. Şıxlı).

Müxtəlif sənətkarların əsərlərindən götürülən bu nümunələr "açmaq" sözünün çoxmənalılığını əyani şəkildə göstərir; burada "yol açmaq" həqiqi,"dil açmaq", "qanad açmaq", "süfrə açmaq", "ürək açmaq", "başına oyun açmaq" kimi idiomatik ifadə və ya ibarələr canlı nitqi əks etdirir, hər hansı söz və ya leksik vahidin ən müxtəlif məqamlarda işlənməsini nümayiş etdirir.

Çoxmənalılıq, demək olar ki, üslubi leksikanın əsasını təşkil edir, prof. S. Cəfərova görə, dilimizdəki məcazi mənalı sabit söz birləşmələrinin, demək olar ki, hamısının yaranmasında çoxmənalılıq baza rolunu oynayır (6, 18). İ. V. Qolub da haqlı olaraq, nitqin zənginliyini çoxmənalılıqdan istifadə ilə əlaqələndirir: "Ancaq nitqin zənginliyi təkcə sözlərin kəmiyyəti ilə müəyyənləşdirilmir. Əsas odur ki, sözlərin bir çoxunun bir yox, bir neçə mənası olsun, daha doğrusu, onlar çoxmənalı olsunlar" (13, 265). Deməli, İ. V. Qolub dil//nitq vahidlərindən istifadə zamanı kəmiyyəti yox, keyfiyyəti nəzərdə tutur. Böyük N. Gəncəvinin unudulmaz sözləri yada düşür:

Sözündə çoxluğa qoyma yer olsun,
Birin yüz olmasın, yüzün bir olsun.

Sözün məcazi mənası, eləcə də onun bədii gücü mətndə neydana çıxır. Hər hansı bir söz çoxmənalılıq keyfiyyəti qazanmaq üçün mütləq digər bir sözlə əlaqəyə girməlidir; əlaqəyə girdiyi söz və ya onun ifadə etdiyi məfhumun xarakterindən asılı olaraq, sözdə məcazilik yaranır və ya söz məcazlaşır. Prof. H. Balıyev də analoji fikirdədir: "Sözün məcazi mənasını mənimsətmək üçün bədii mətnlər üzərində iş qurulmalı, şagirdlərdə obrazlı söz və ifadələri seçə bilmək bacarığı formalaşdırılmalıdır. Yadda saxlamaq lazımdır ki, çoxmənalılığın yaranması da məcazlaşma ilə əlaqəlidir " (5, 177). Məsələn:

Daşdan tutmuş insana qədər yol gözləyirdi (M.Süleymanlı);
Sən könlümü qırdıqca
Mən öz könlümü aldım (F. Qoca);
Yadlara açma əlini;
Gülür torpaq,gülür insan... (S. Vurğun).

Verilən nümunələrdəki " yol gözləmək", könül qırmaq", "könül almaq", "əl açmaq", "gülür torpaq" ifadələri əlaqəyə girdikləri sözlərin yaratdığı ekspressivliyin nəticəsində məcazilik qazanmışdır. Sonuncu nümunədəki "gülür insan" ifadəsi isə həqiqi mənada işləndiyi üçün çoxmənalılıq keyfiyyətinə malik deyildir.

Dilin leksik üslubi imkanını səciyyələndirən vasitələrdən biri də omonimlərdir. Onlar formaca çoxmənalı sözlərə oxşasalar da, aralarında semantik bağlılıq olmaması ilə xarakerizə olunur. Ünsiyyət prosesində eyni söz birdən-birə tamamilə fərqli məna ifadə edir ki, bu da nitqdə canlılıq yaradır. Omonimlər emosionallıq və ekspressivlik yaradır, xüsusən poeziyada oxşar sözlərdən istifadə olunması "ahəngdarlığı və səlisliyi artırır, musiqilik və axarlıq yaradır, mənanı gücləndirir, oxucunun bədii zövqünü oxşayır. Bədii əsərlərdə omonimlər müəyyən üslubi səmərə yaratmaq, oxucuya, dinləyiciyə güclü emosional təsir göstərmək məqsədi ilə qarşılaşdırılır" (10, 274).

Omonimlərlə tanışlıq, omonim cütlüklərin mənasının öyrənilməsi söz ehtiyatını artırır, bir çox sözlərin təkcə dilimizin milli sözləri ilə deyil, başqa dillərdən alınma sözlərlə qarşılaşmasını da nəzərdə tutur və ünsiyyət zamanı bu sözlərin leksik-semantik mənalarına bələd olmağı, yeri gəldikcə lüğətlərdən istifadəni zəruri edir. Məsələn, dilimizdəki "qaz" sözü (quş adı kimi) "qaz" feili ilə omonimlik təşkil etdiyi kimi, alınma "qaz" (rus dilindən) sözü ilə də qarşılaşdırılır. Hələ vaxtilə prof. Ə.Dəmirçizadə omonimlərin yaranma səbəblərindən danışarkən bunun müxtəlif səbəbləri olduğunu göstərir və səbəblərdən biri kimi də söz alınmasını qeyd edirdi: "Omonimləri törədən başqa səbəblər də vardır. Xüsusən müxtəlif dillərin qaynayıb-qarışması, dildə bu və ya digər bir sözün, eyni zamanda, əvvəlki mənasını saxlamaqla yeni məna kəsb etməsi də omonimlərin törəməsində az rol oynamır" (7, 144). Bədii əsərlərin dilində işlənən omonimlər emosionallıq və ekspressivlik yaratmaqda mühüm rol oynayır, bədii əsərlərin üslubi gözəlliyini şərtləndirən leksik vahidlər kimi çıxış edir. Məsələn:

Bir səs deyir:-

Rza, durma, Rza, yaz!
Qarşı gündən gülümsəyən
yaraşıqlı yaza yaz,
Qırçın tarla, faraş qoza,
bol pambıqlı yaza yaz! (R. Rza);

Bu Göyçaydır, oğlanlarım,
göy dalğalı
Bax o dağlar başındakı
Mavi göydən axıb gəlir (Ə.Kərim);

Xoşdur bu dağların sərin havası,
Çal, qarışsın ona gürcü havası (S.Vurğun).

Nümunələrdəki "yaz", "göy" və "hava" sözləri formaca oxşar olsa da, mənaca bir-birindən tamamilə fərqlənir: yaz-yazmaq feili~yaz (fəsil); göy (rəng)~göy (səma); hava (yaz havası)~hava (oyun havası). Bu sözlərin dalbadal təkrar olunması, yerli-yerində işlədilməsi, onların deyilişində məna və məntiqi uyğunluqlara fikir verilməsi bədii ədəbiyyat nümunələrində gözəl bir musiqi və ahəngdarlıq yaradır, həm oxucunu heyrətləndirir, həm də onun bədii zövqünü oxşayır.

Omonimlərdə mənanın əsas olduğunu nəzərə alsaq, yuxarıdakı nümunələrdə qarşılaşdırılan sözlər leksik mənaya malik olduqları üçün leksik omonimlər hesab edilir. Lakin elə nümunələrə də rast gəlinir ki, onlarda qarşılaşdırılan sözlərin biri

leksik mənaya malik olmur, daha doğrusu, onlar köməkçi nitq hissəsi olur. Həmin sözlər xüsusi vurğu ilə deyilməsə də, başqa sözlərlə birləşib bir məna ifadə etsə də, nitqin ümumi axarında emosional-ekspressiv təsirin yaranmasında birbaşa iştirak edir, bəzi hallarda isə üslubi intonasiyanı gücləndirir. Məsələn:
Gəl sınıq könlümü sarı, dur gedək,
Tərlansan, ovlatma sarı, dur gedək,
Ələsgərəm, bizə sarı dur gedək...(Aşıq Ələsgər).
Verilən nümunədə əslində formaca oxşar olan iki söz var: onun biri "sarı"(maq) feili, ikincisi isə "sarı" qoşmasıdır. İkinci misradakı söz isə "sar" sözünün təsirlik halda işlənmiş formasıdır ki, təcnisin əsas əlaməti olan cinasların yaranmasında iştirak edir. Yeri gəlmişkən deyək ki, omonimlər və onlara oxşar leksik söz qrupları həm dil üslubiyyatının, həm də bədii ədəbiyyat üslubiyyatının predmeti kimi maraqlıdır.
Azərbaycan dilində omonimlərə oxşar, lakin omonim sayılmayan bəzi söz qrupları da vardır ki, onların yaratdığı üslubi gözəllik bədii ədəbiyyat üslubiyyatına daxildir. Bu söz qruplarına omoqraf, omofon, omoform, leksik-qrammatik omonim-lərvəparonimlərdaxildir.
Omoqraflar vurğusu etibarilə fərqlənən sözlərdir; eyni cür yazılan sözlərin fərqli vurğularla deyilməsi həm mənanın dəqiqləşməsinə, həm də üslubi çalarların yaranmasına səbəb olur: dimdik~dimdik; bölmə~bölmə; gəlin~gəlin; bozartma~ bozartma və s. Məsələn:
Gəlin sapsarı saralsa da, özünü itirmədi~
Tapdığın səsi eşidildi:
-Ağa , burdasanmı?
-Gəlin(İ. Şıxlı);
Ət yeyən quş dimdiyindən bilinər~Onlar döyüşkən quşlar kimi dimdik dayanmışdılar.
Birinci nümunədə fərqləndirilmiş sözlərin birincisində vurğu sözün son hecasına, ikincisində isə birinci hecaya düşür. Məhz bu heca fərqi, yəni ikinci sözdə vurğunun birinci hecaya düşməsi sözdə "əmr", "buyuruq" kimi üslubi çalarlar yaradır. İkinci nümunədəki sözlərdən birincisi adi informativ məlumatın təqdiminə xidmət etdiyi halda, ikinci söz fikrin ekspressivliyini artırmağa yönəldilmişdir.
Omofonlar və ya fonetik omonimlər yalnız səslənməsinə görə eyni olub, təsadüfən bir-birilərinə bənzəyir: yar alar~yaralar; al, İnci~al, İnci; ay ağa~a yağa və s. Məsələn:
Adət budur, yar xəbərin yar alar,
Mənim yarım zəif canım yaralar(Molla Cümə);
Gey qəddinə al, İnci,
Qurma mənə al, İnci!;
Ələsgərəm, dərdim budu, ay ağa!
Gözüm yaşı neysan kimi a yağa.(Aşıq Ələsgər).
Fərqləndirilmiş sözlər təcnisdə cinasların yaranmasına kömək edir, buna görə də həmin ifadələrin düzgün oxunması və mənaca dəqiq qavranılması həm emosiyanı artırır, həm də nitqi gözəlləşdirir. Məsələn, oxucu ikinci "al" sözünün "hiylə" mənasında işlədildiyini bildikdə misranın emosionallığı daha da artır.
Omoformlar və ya morfoloji omonimlər oxşar forma şəkilləri ilə yaranır və onlarda vurğu fərqi olmur. Bunlar ayrı-ayrı mor-foloji əlamətə malik olmaqla bir-birilərindən fərqlənir: bağlar~bağlar; gözlər~gözlər; çıçəklər~çiçəklər və s. Məsələn:
güllü-çiçəkli bağlar~Yaramı bağlar; Gözlər, nə gözlər~O məni gözlər; Çiçəklər, gözəl çiçəklər~ Hər yazda ağaclar çiçəklər
Nümunələrdə bağlanğıc formalar işarələnmişdir. Belə sözlərdə omonimlik qrammatik şəkillər hesabına təmin edildiyindən onların hansı nitq hissələrinə aid olması da başlanğıc formalara görə müəyyənləşir: birincilər isim, ikincilər isə qeyri-qəti gələcək zamanda olan feillərdir. Buradakı leksik vahidlər mətndən ayrılıqda omonimlik xüsusiyyətini itirir, mətn daxilində isə sözün qabardılan hissəsindən asılı olaraq, fikirdə obrazlılıq yaranır.
Leksik-qrammatik omonimlərə gəlincə, bunların nitqdə işlədilməsində belə bir cəhətə diqqət yetirmək lazımdır: qarşılaşdırılan sözlərdən biri öz nominativ mənasını saxlayır, digəri isə yalnız qrammatik dəyişmə nəticəsində həmin sözlə omonim olmaq hüququ qazanır. Məsələn:
Bir el ağasıydı əvvəlki ərim...
Rəhmətlik gündə bir məclis qurardı....(S. Vurğun);
Əzizinəm, gündə mən,
Kölgədə sən, gündə mən... (bayatı);
Əzizim, tikə-tikə,
Doğrandım tikə-tikə,
Anan saçını yolur,
Kəfənin tikə-tikə(bayatı).
İşarələnmiş sözlər poetik obrazlılıq yaradır, onların mənaya uyğun işlədilməsi həm məzmun, həm də forma cəhətdən dili zənginləşdirir. Omonimlər və omonimik hadisələr cinas yaratmağa xidmət etdiyindən onlar daha çox bədii ədəbiyyat üslu-biyyatının formalaşmasında əsas rol oynayır. Prof. H. Həsənov omonimlərin üslubi imkanlarını belə qiymətləndirir: "Omonim və omonim hadisələr bədii əsərlərdə, xüsusən bayatılarda, təcnislərdə və lirik şeirlərdə cinas yaradır. Bunların

əsasında yaranan cinaslar şeirə yüksək bədii keyfiyyət verir, orijinal və oynaq forması ilə oxucunun diqqətini cəlb edir, hiss və duyğularına emosional təsir göstərir" (10, 275).
Omonimlərdən daha çox bədii üslubda istifadə olunur. Aşıq ədəbiyyatında təcnis, cığalı təcnis, cığalı müxəmməs kimi janrların formalaşmasında onlar həlledici rola malikdir.
Paronimlər haqqında üslubiyyata dair yazılan əsərlərdə söhbət açılmasa da, onların da nitqin gözəlləşməsində, obrazlılığın yaradılmasında müəyyən rolu vardır. Səslənmə oxşarlığına görə bir-birinə təsdüfən bənzəyən bu sözlər bəzən bir-biri ilə qarışdırılır, biri digərinin yerində işlədilir. Prof. H. Həsənov həmin sözləri paronomasiya (yaxın adlı) adlandırılan və səslənməsinə görə bir-birinə uyğun gələn sözlərlə (asma~ astma, ekskavator~eskalator) müqayisə edir (11, 58-59).
Nitqdə bu sözlərdən istifadə zamanı onları nə tələffüzcə, nə də mənaca eyniləşdirmək olmaz. Xüsusilə paronomasiyalar nitqdə xeyli dolaşıqlıq yarada bilər. Bir şəxs öz danışığında ekskavator və eskalator sözlərini düzgün işlətməzsə, fikir aydın ifadə ounmaz. Məsələn:
Ekskavator sözü yoxdur Sarvanımın öz dilində (S.Vurğun);
Beləcə lal-dimməz adımlayaraq metro stansiyasına çatdılar...
- Beş qəpik atmasaydım keçə bilməzdin, -Dedi, - O saat adamın qıçından vurur.
- Sən nə danışırsan?
- Bəli, bəli, görürsən, bu da yeriyən pilləkən(Anar).
Göründüyü kimi, ikinci nümunədə "eskalator" sözündən imtina edilərək, "yeriyən pilləkən" ifadəsi işlədilmişdir.
Paronimlərisə yazılışca, deyilişcə yaxın, mənası isə tamamilə fərqlənənsözlərdir; məs.: əsir~əsr, tənəffüs~tələffüz, sevis~serviz, surət~sürət, mətn~mətin, bilvasitə~bilavasitəvə s.
İstər rusistikada, istərsə də, türkoloji ədəbiyatda nitqin üslubi cəhətdən gözəlləşməsində rolundan, daha doğrusu, üslubi çalarlarının zənginliyinə görə sinonimlərin geniş imkanlara malik olmasından danışılır. Bu da təsadüfi deyildir. Sinonimlərdən istifadə nitqdə yoruculuğu və yeknəsəkliyi aradan qaldırır, dildə yersiz təkrarların qarşısını alır. Bu söz qrupundan yerli-yerində istifadə edən şəxsin nitqində dəqiqlik olur, sinonimlərin yaratdığı ahəngdarlıq, bir növ, ruha qida verir. Məhz bu cəhəti nəzərə alan prof. N. Abdullayev dahi rəhbərimiz H. Ə. Əliyevin nitqinə belə qiymət verir: "...Ulu öndər H.Əliyevin nitqi təsirli və zəngin olmuşdur. Onun dilində həyəcan-narahatlıq, arzu-istək, kömək, qayğı, mənəvi dayaq, bilikli-savadlı, hörmət-ehtiram-minnətdarlıq, fikir-duyğu-istək və s. kimi ifadələrə, sinonimlərə tez-tez rast gəlmək mümkündür ki, bu da onun dilinin leksik cəhətdən zəngin olduğunu göstərir" (2,178).
Dilimiz sinonimlərlə xeyli zəngindir. Sinonimlər nitqin qarşısında geniş imkanlar açır, onu üslubi cəhətdən gözəlləşdirir. Bu da leksik normanın tələblərinə uyğundur: nitqdə sözlər düzgün seçilsin, nitq aydın və düzgün dərk edilsin.
Bir-birinə yaxın mənaları ifadə edən sözlər sinonim cərgəadlanır. Bu cərgəyə daxil olan sözlərin biri yerində işlənməyəndə həm leksik norma pozulur, həm də nitq üslubi cəhətdən qüsurlu olur. Məsələn, hündür, uca, yüksək sözləri sinonim cərgə əmələ gətirir, lakin bu sözlərdən hündür sözünü həm bina sözünə, həm də adam sözünə aid etmək mümkündür, lakin yüksək vəzifə demək mümkün oluğu halda, hündür vəzifə ifadəsi qüsurludur. Eləcə də, nəm paltar, yaş paltar demək mümkün olduğu halda, nəm hava demək olar, yaş hava isə yox. Sinonimlərin həmişə bir-birini əvəz edə bilməməsinə Prof. H. Balıyev belə münasibət bildirir:"...sinonimik əvəzlənmələr həmişə mümkün olmur. Əgər mümkün olsaydı, böyük rus tənqidçisi Belinskinin təbiri ilə desək, xalq uzun illər sinonim sözləri öz fəal lüğət fondunda paralel şəkildə saxlamazdı" (5, 181-182).
İstər adi danışıqda, istərsə də, bədii ədəbiyatda sinonim sözlər müxtəlif üslubi məqsədlərə xidmət edir. Prof. S. Cəfərov üslub xüsusiyyətərinə görə sinonim sözlərdən istifadənin bir sıra hallarını göstərir. Bura ifadəni qüvvətləndirmək üçün hər hansı bir sözün sinonimi ilə əvəz edilməsi, sinonim əvəzinə onun bir idiomunun işlədilməsi, mənanı dəqiqləşdirmək və ifadəni qüvvətləndirmək, satira və yumor yaratmaq, ləhcə xüsusiyyətlərini nəzərə çarpdırmaq daxildir (6, 31-35). Bu fikri bədii ədəbiyyatdan gətirilən nümunələrlə də möhkəmləndirmək olar. Məsələn:
Sınamışam dostu, yarı;
Yurdum, yuvam məskənimsən,
Elim, günüm, obam sənsən (S. Vurğun);

Səhər vaxtı ya rəb! Nə gördüm ki, canan,
Gəlir şadü xəndən xuraman, xuraman (H. Cavid);
Şeirimim mayası - bu qaynar nəfəs,
Sənin öz çiçəyin, sənin öz barın (B. Vahabzadə);

Beşiyim, səngərim, çörəyim, suyum...
Anam - Azərbaycan torpağım mənim (F. Qoca).
Nümunələrdən göründüyü kimi,mətndən kənarda sinonim kimi işlənə bilməyən söz və ifadələr belə bədii sözün qüdrəti ilə emosional-ekspressiv təsir gücü qazanır, oxucunun və ya dinləyicinin zövqünü oxşayır. Həqiqətən də, nitqin dəqiqliyi və aydınlığı fikrin dinləyiciyə necə çatması ilə qiymətləndirilir. "Yüksək nitq mədəniyyətinə yiyələnmək üçün yalnız qrammatik qaydaları gözləmək, fonetik, orfoepik, orfoqrafik normalara əməl etmək kifayət deyil. Nitqi üslubi cəhətdən elə tənzimləmək, elə sözlər seçmək, cümlə qurmaq lazımdır ki, fikir aydın və dəqiq ifadə olunsun" (14, 68). Elmi ədəbiyyatda sinonimlərin mütləq və nisbi deyə bölgüsündən də istifadə edirlər. Mütləq sinonimlər mənaca hər yerdə bir-birini əvəz edə bilir, bunun üçün mətnə ehtiyac olmur. Bəzən mənaca bir-birinin tam eyni olan sinonimlərdən də istifadə olunur ki, bunlara sinonim-

dubletlər deyilir; məsələn, eynək, çeşmək gözlük; bahar, yaz; künc, bucaq və s.Sinonim-dubletlər haqqında ziddiyyətli fikirlər vardır; belə ki, prof. S. Cəfərovun dubletlərin dili lüzumsuz sözlər hesabına ağırlaşdırması fikrinin əksinə olaraq, prof. H. Həsənov onlardan dildə təkrardan qaçmaq və səlislik yaratmaq üçün istifadə edildiyini qeyd edir (6, 8; 39, 79). Fikrimizcə, dubletlərin hamısına eyni şəkildə qiymət vermək olmaz. Məsələn, universitet~ darülfünun, eynək~çeşmək~gözlük, bi-ca~yersiz kimi dubletlər cərgəsindəki ikinci sözlər artıq arxaikləşmişdir və işlənmir. Ad~san, dava~dərman, sağ~salamat, şərəf~şan qarşılaşdırmalarında dublet adlanan bu sözlərin bəziləri müstəqil işlənə bilmir (Məsələn, san, dava, sağ və şan sözləri belələrindəndir).

Məna və üslub fərqinə görə sinonimlər üç qrupa ayrılır. Semantik, üslubi və semantik-üslubi sinonimlər (10, 265).Prof. H. Həsənova məxsus olan bu bölgü özünü o qədər də doğrultmur. Belə ki, semantik-üslubi sinonimlərə aid edilən veyillənmək, səfillənmək, sülənmək tipli sözlər, üslubi sinonimlər ədəbi dildə olan sözlərlə loru sözlərin qarşılaşdırması kimi başa düşüldüyündən onlara aid edilməlidir.

Sinonimlərin üslubi imkanları bədii ədəbiyyatda, şeirdə, nəsrdə və dramaturji əsərlərdə daha aydın görünür. Sənətkar dilin geniş üslubi potensialından istifadə edərək öz əhval-ruhiyyəsini ifadə etmək üçün sinonim sözlərdən istifadə edir. Bəzən bu iki söz və ya idiomatik ifadə də ola bilər. Məsələn:

Sən mehrin, ülfətin, pərişanlığın,
Ümidin, nəşənin, eşqin, vüqarın,
Alovlu, şimşəkli ehtirasların,
Bir ilk beşiyisən, ilk anasısan;
Ovçunun könülsüz atdığı güllə,
Ya torpaq sovurar, ya gözdən itər.
Hər kimi dindirsən soyuq bir dillə,
Baxıb yadlar kimi yanından ötər (S. Vurğun).

Birinci nümunədə ayrılıqda bir-biri ilə sinonim olmayan sözlər mətnin ümumi axarında sinonimlik qazanmış, lirik qəhrəmanın əhval-ruhiyyəsini, ürək çırpıntılarını, hiss və duyğularını ifadə etmişdir. İkinci nümunədə isə "könülsüz" sözü "soyuq dil" ifadəsinə paralel olaraq işlənmişdir. Bəzən dialoqlarda ekspresivliyi artırmaq məqsədi ilə üslubi sinonimlərdən istifadə olunur. Məsələn:

Molla başladı:

- Nə səbəbə gedib öz xahişinlə ərinin evinə daxil olmursan. Deyirsən, gərək səni zornan aparalar? Bədnamlıqnan aparalar? Rüsvayçılıqnan aparalar? (C.Məmmədquluzadə).

Belə nümunələrin sayını istənilən qədər artırmaq olar. Sinonimlər nitqdə ifadəlilik yaratmaqla bərabər, əsərin təsirliliyini və bədii gözəlliyini qüvvətləndirmək, fikrin daha dəqiq və aydın çatdırılması vəzifəsini daşıyır. Dilin sinonim ehtiyatına dərindən bələd olan şəxs öz fikrini ifadə etmək üçün çətinlik çəkmir, yəni söz axtarmır. Sinonimlərin bolluğu dil zənginli-yinin bariz göstəricisidir.

Dilin leksik səviyyədə üslubi imkanlarını əks etdirən söz qruplarından biri də antonimlərdir. İnsanı əhatə edən sosial mühitin yaxşılıq və pislik, ağ və qara, şirin və acı, gülmək və ağlamaq məfhumları ilə əhatə olunduğunu nəzərə alsaq, antonimlərin mövcudluğunun səbəbi tamamilə aydınlaşar. Bunların biri o biri ilə qarşılaşdırılır, müqayisə olunur. Onlara birlikdə antonim-lər deyilir. Deməli, antonimlik ayrılıqda deyil, ziddiyyətlərin vəhdətindədir. Vaxtilə prof. Ə. Dəmirçizadə onları sinonimlərlə müqayisə edərək yazırdı:"...antonimlər sinonimlərdən bununla fərqlənir ki, sinonimlik iki və ikidən çox sözlər silsiləsi ilə ölçüldüyü halda, antonimlik qoşalıqla, yəni qarşı mənalı iki sözün qoşalığı ilə ölçülür. Bu cəhətdən fəlsəfi formulda belə demək olar ki, antonim sözlər zidd mənalı sözlər vəhdətidir" (7, 134-135). Prof. H. Həsənov da antonimləri "eyni anlayışın əks tərəflərini ifadə edən, formaca müxtəlif, mənaca bir-birinə əks olan sözlərdən yaranan semantik vahidlər" adlandırır (10, 271).

Antonimlər daha çox bədii ədəbiyyatın üslubi cəhətdən zənginləşməsinə xidmət edir, sənətkarın-lirik qəhrəmanın duyğu və düşüncələrində, həyat hadisələrinin xarakterində, obrazların əhvali-ruhiyyəsində baş verən dəyişikləri qarşılaşdırmaq, müqayisə etmək vəzifəsi daşıyır və oxucuya bədii zövq verir. Ədəbiyyatşünaslıqda bədii təzad (antiteza) yaradan va-sitələrdən biri və ya birincisi məhz antonimlərdir. Böyük M.Füzulinin aşağıdakı misraları yada düşür:

Tutuşdu qəm oduna o şad gördüyün könlüm,
Müqəyyəd oldu ol azad gördüyün könlüm.
Diyari-hicrdə seyli-sitəmdən oldu xərab
Fəzayi-eşqdə abad gördüyün könlüm

Bu misralarda bir-birinə zidd olaraq işlənən altı söz üç qrupda qarşılaşdırılır və bədii təzad yaradılır. Bu ifadə vasitəsinin gücü ondadır ki, lirik qəhrəmanın əhvali-ruhiyyəsini oxucunun gözləri qarşısında canlandırır, adi sözlərə uzunmüddətli ömür bəxş edir: Qəm oduna yanan könlün azadlığı da əlindən alındı, hicran sitəmi abad könlü xaraba qoydu. Bu bəsit şərhin özü də antonimlərdən yaranan bədii vasitənin gücünü aydın şəkildə göstərir.

Elmi ədəbiyyatda bütün antonimlərin antiteza yaratmadığından da söz açılır. Antonimlər adicə leksik vahidlərdir, onlar nitqdə, eləcə də, bədii ədəbiyyatda qarşılaşdırma yaratmaq məqsədi ilə işlədilir. Onların köməyi ilə yaranan antitezalar isə həm sənətkarın fərdi yaradıcılıq məhsuludur, həm də bədii mətnin gücü ilə reallaşır. "Antiteza məfhumu antonim məfhu-muna nisbətən genişdir. Antonimlər ancaq leksik mənaya, antitezalar isə həm leksik mənanın kontrastlığına, həm də məfhuma əsasən qurulur" (11, 86). Məsələn:

1. Sən nə qədər yaxınsan,
Uzaq ulduzum mənim! (N. Xəzri);

Mən sahili olmayan dənizlər istəyirəm,
Axşamları olmayan gündüzlər istəyirəm
(B.Vahabzadə);
Gündoğanım, günbatanım olsa da,
İnnən belə o gözlərə baxmaram (M. Araz);

2. Gözəl-gözəl adı var
Hər enişin, yoxuşun (S. Vurğun);
Gündüz yatmadılar,gecə dincəlmədilər...
Birinci tip nümunələrdə "yaxın" sözü, "uzaq ulduzum mənim" metaforunun tərkibindəki sözlə qarşılaşdırılır, lakin bu, adi qarşılaşdırma deyildir. O biri nümunələr də bu qəbildəndir. İkinci tip nümunələrdə adicə əks sözlər qarşılaşdırılır, lakin bu qarşılaşdırmaların da hər hansı bədii məqsədə xidmət etmədiyini, üslubi gözəllik yaratmadığını da söyləmək olmaz.
Qədim yunan ədəbiyyatşünaslığında antiteza bədii təsvir vasitəsi kimi çox yüksək qiymətləndirilir. Ziddiyyətləri açmaq üçün ən təsirli vasitə olan antitezanın mənasını Aristotel belə müəyyənləşdirilir: "Bu cür təsvir əlverişlidir, çünki ziddiyyətli qarşılaşdırmalar olduqca anlaşıqlıdır, onlar yanaşı durduqda isə daha anlaşıqlı olur, həm də ona görə ki, təsvirin bu üslubu sillogizmə bənzəyir; həqiqətən, sübut ziddiyyətlərin qarşılaşdırılmasıdır" (1, 85).
Elə antitezalar da mövcuddur ki, onların tərkibində bir məfhumun əks tərəfləri "gizlənir". Belə ifadələrə elmi ədəbiyyatdaoksimoron(Yunanca "ağıllı dəli" deməkdir) adlanır. Oksimoron elə ifadələrdəndir ki, orada bir-birinə əks olan sözlərdən biri digərinin təyini kimi işlənir. Məhz bu cəhətinə görə ona bəzən "epitet-oksimoron" da deyilir. Lakin burada bir məsələni də yaddan çıxartmaq olmaz: əvvələn, epitetdə təyin edən söz məcazi, oksimoronda isə hər iki tərəf məcazi olur; ikincisi, epitet müqayisə və bənzətmə bildirdiyi halda, oksimoron zidd məfhumları qarşılaşdırır. Məsələn: ağlar güləyən, diri ölülər, göz yaşı içərisində qəhqəhələr, saqqallı uşaq, yaşlı bir uşaq və s. Bunlar bədii əsərlərdə ekspressivlik yaratdığı kimi dilimizin ecazkar qüdrətini də əks etdirir. Sözün bütün emosional boyaları müsbət və mənfi çalarların vəhdəti ilə ifadə olunur. Məsələn:
Ağlamaq ki vardır, məhəbbətdəndir (M. V. Vidadi);

Vurulmuşam dənizin şirin, duzlu suyuna (R. Rza);

Sevdaya düşməyən bir həyat heçdir,
İç onu gör necə sərin atəşdir (M. Müşfiq).
C. Məmmədquluzadənin adı oksimoron olan "Saqqallı uşaq" hekayəsində bu ifadə çox ciddi bədii gülüş yaradır. Hekayənin məzmunundan bəlli olur ki, divarları yazan uşaqlar yox, yaşlı bir kişi imiş:
- Balalarım, bu yazını yazan da sizin kimi uşaq idi; ancaq bircə təfavütünüz oradadır ki, onun saqqalı var, sizin hələ saqqalınız yoxdur.

ƏDƏBİYYAT

1. Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər). Bakı: Elm, 1970, 356 s.
2. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı: Elm və təhsil, 2013, 288 s.
3. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978, 278 s.
4. Adilov M., Paşayev A. Azərbaycan onomastikası. (izahlı terminoloji lüğət). Bakı: Nurlan, 2005, 488 s.
5. Balıyev H. B., Balıyev A. H. Azərbaycan dilinin tədrisi metodikası (dərslik). Bakı: "Qismət", 2014, 384 s.
6. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə (leksika). Bakı: "Şərq-Qərb", 2007, 192 s.
7. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962, 269 s.
8. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: Maarif, 1979, 267 s.
9. Əliyev K. Y. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, 240 s.
10. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: Bakı Universiteti nəşriyyatı, 2003, 399 s.
11. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1987, 308 s.
12. Qurbanov A. Dil və üslub. Bakı: APU nəşri, 1992, 45 s.
13. Голуб И. Б. Русский язык и культура речи. М.: «Логос», 2010, 432 с.
14. Seyidova S. Nitqin dəqiq ifadəsi üçün söz seçmək bacarığının formalaşdırılması // Azərbaycan dili və ədəbiyyatının tədrisi, Bakı: 2010, № 2, s. 67-70
15. Seyidov Y. Əsərləri. 15 cildə. I cild. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2006, 626 s.
16. В. В. Виноградов. Проблемы русской стилистики. М.: Высшая школа, 1981, 320 с.
17. Гвоздев А. Н. Очерки по стилистике русского языка. М.: Изд. Академии пед. наук РСФСР, 1952, 334 с.

Açar sözlər: çöxmənalı sözlər, omonimlər, sinonimlər, sinonim-cərgə, sinonim-dubletlər, antonimlər, bədii təzad, oksimoron
Ключевые слова: многозначные слова, омонимы, синонимы, синонимический ряд, синонимический дублет, антонимы, художественный контраст, оксюморон
Keyswords:colloquial words, homonyms, synonyms, synonymous series, synonymous doublet, antonyms, artistic contrast, oxymoron

Fizuli Nəcməddin oğlu Mustafayev5

KİNO DİLİNDƏ SADƏ VƏ MÜRƏKKƏB BİRLƏŞMƏLƏR

Giriş. Söz birləşmələrinin sadə və mürəkkəbliyi onların quruluşuna görə bölgüsüdür. "Quruluş" sözündən bir termin olaraq qrammatikada çox tez-tez istifadə edilir. Sözlərin, cümlələrin, cümlə üzvlərinin quruluşundan bəhs olunur və sözlər bu prinsipə görə təsnif edilir. Lakin quruluş sözü iki mənada işlədilir. Biz cümlələri quruluşca iki yerə ayırırıq və nəzərdə tuturuq ki, sadə cümlə cümlənin ilk, heç bir əlavə cümləyə parçalana bilməyən tipidir, mürəkkəb cümlə isə cümlələr toplusudur, iki və daha artıq cümlənin – sadə cümlənin məna və qrammatik cəhətdən qanunauyğun birləşməsidir. Bununla yanaşı biz ayrı-ayrılıqda sadə və mürəkkəb cümlələrin öz quruluşundan da bəhs edə bilərik.

Kino dilində mürəkkəb cümlənin komponentlərinin vəziyyəti, mövqeyi, sırası və s. cəhətləri onun quruluşuna daxil olur, hətta bu quruluşu nəzərə alaraq mürəkkəb cümlələr modelləşdirilir. Söz birləşmələrinə də eyni cəhətlərdən yanaşmaq olar. Kitabın cildi birləşməsi ilə kitabı oxumaq birləşməsi müxtəlif quruluşdadır; kitabı oxumaq birləşməsi ilə kitaba baxmaq birləşməsi də eyni quruluşa malik deyildir.

Kino dilində söz birləşmələrindən danışarkən onların quruluşu hər iki mənada bizi maraqlandırır, birinci isə daha çox maraqlandırır, söz birləşmələrinin konkret formalarının öyrənilməsi bu cəhətə əsaslanır: yaxşı sədr bir, kolxoz sədri digər, kolxozun sədri isə tamam başqa birləşmə növü kimi təqdim edilir, çünki quruluş fərqi onların mahiyyətinə təsir edir və hər birinin bir sıra xüsusiyyətlərilə çıxış etməsinə səbəb olur. İndi isə birləşmələri kinofilmlərdə axtaraq.

"Hacı: – Nuş olsun. Bizim kəndin qoyunları dadlı olur. Yaxşı sədr var idi kolxozda, o yetişdirirdi".

"Sarı gəlin" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 1998.

"Baba: – Bütün professorlar kimi dərslərimi yaxşı oxudum. Bəs sən kim olacaqsan?

Xalid: – Kolxoz sədri".

"Dərs" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 2015.

"Əsəd: – Buraxma bunu!

Səslər: – Kolxozun sədri gəldi".

"Bəyin oğurlanması" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 1984.

Söz birləşmələrinin sadə və mürəkkəb olaraq qruplaşdırılmasında birinci cəhət, söz birləşmələrini əmələ gətirən sözlərin forması deyil, ikinci cəhət, yəni birləşmələrdəki sözlərin miqdarı əsas götürülür. V.V.Vinoqradov söz birləşmələrindən bəhs edərək yazır: "...sadə söz birləşmələrinin əmələ gəlmə qaydaları, sadə söz birləşmələrinin tiplərinin canlı tarixi inkişafda öyrənilməsi: mürəkkəb söz birləşmələrinin əmələ gəlmə qaydaları, onların əsas tiplərinin inkişafının öyrənilməsi söz birləşməsi nəzəriyyəsinin başlıca mövzusudur [1, 21]. Göründüyü kimi, burada söz birləşmələrinin sadə və mürəkkəb olaraq təsnifinə ciddi əhəmiyyət verildiyi kimi, mürəkkəb birləşmələrin sadə birləşmələrlə birlikdə öyrənilməsi də vacib sayılır.

Söz birləşməsi dedikdə, adətən, iki müstəqil sözün birləşməsi nəzərdə tutulur. Rus dilçiliyində söz birləşməsi bu şəkildə düşünülmüş və söz birləşmələri, birinci növbədə, iki sözün birləşməsi kimi müəyyənləşdirilmişdir. Türk dillərinə aid dilçilik əsərlərində də, indiki məktəb qrammatikalarında da söz birləşmələri bu şəkildə izah edilir. Misal üçün filmlərdən söz birləşmələrini seçək.

"Nazlı: – Bilirsən, nə var dədə?.. Bir bahar axşamı Tahirnən ayrılmışıq. Day təngə gəlmişəm. Adam evsiz-eşiksiz, onunbunun küncündə nə qədər yaşayar?"

"Qoca palıdın nağılı" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 1984.

"Məmmədov: – Avtomatçı Musayev! Sol cinaha atəş.

Döyüşçü: – Baş üstə! Böyük qələbə bizimlədir".

"Sovet pəhləvanı" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 1945.

"Abbas Mirzə: – Yalandır!

Müstəntiq: – Sus! Doğru danışmaq lazımdır. Yoxsa sənlə başqa cür danışaram. Bura sənin teatrın deyil ki, qızlar başına gül-çiçək səpsin".

"Cavid" ömrü bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 2007.

Filmlərdəki misallardan göründüyü kimi, söz birləşmələrini yalnız iki sözün birləşməsi ilə məhdudlaşdırmaq mümkün deyildir. Dildə ikisözlü birləşmələrlə yanaşı, ikidən artıq sözdən təşkil olunmuş birləşmələr də işlənir.

"I cin: – Ləl-cəvahir içərisində üzəcəksən.

Qərib: – Elədir. Görürsən, nərgiz gülü, şadlığından yaşlaşmış gözlərini silərək bahar səhnəsinə tamaşa edir.

Akşad: – Bəli, elədir, başa düşdüm. Amma de görüm sən bu yaxşılığı mənə niyə görə edirsən?

Qərib: – Ona görə ki, əvəzində sən də mənə edəsən".

"Qərib cinlər diyarında" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 1977.

Filmdən misal çəkdiyimiz cümləni aşağıdakı şəkildə birləşmələrə ayırmaq mümkündür: Nərgiz gülü, bahar səhnəsinə, şadlığından yaşlaşmış gözlərini, gözlərini silərək, yaşlaşmış gözlərini silərək, şadlığından yaşlaşmış gözlərini silərək. Buradakı birləşmələrdən beşinin hərəsi iki sözdən, qalanları isə ikidən artıq sözdən ibarətdir. Buna görədir ki, dilçilik ədəbiyyatında ikisözlü birləşmələrdən danışıldığı kimi, çoxsözlü birləşmələrdən də bəhs edilir. Məsələn, F.F.Fortunatov söz

5 AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d., dosen. mustafayev.fizuli8@gmail.com

birləşməsini iki müstəqil sözün birləşməsi kimi xarakterizə etsə də, mürəkkəb, çoxsözlü birləşmələrdən də bəhs etmişdir [2, 455].
A.M.Peşkovski yazır: "...söz birləşməsi iki yaxud bir sıra sözlərin nitqdə və fikirdə birləşməsidir" [3, 35]. V.P.Suxotin "Проблема словосочетания в современном русском языке» adlı məqaləsində bu məsələyə toxunaraq yazır ki, qeyd-şərtsiz olaraq söz birləşməsinin yalnız iki sözdən ibarət hesab etmək mümkün deyildir [4, 151]. Buna baxmayaraq rus dilçiliyində söz birləşməsi haqqında təlim sadə birləşmələrə əsaslanır. Mürəkkəb birləşmələr az-az yada salınır və tədqiqata cəlb edilmir.
Hələ vaxtı ilə M.A.Kazım bəy isim birləşmələrinin genişlənərək silsilə təşkil etdiyini göstərib dildə ikisözlü birləşmələrlə yanaşı, çoxsözlü birləşmələrin də olduğunu qeyd etmişdi. Türkologiyada mürəkkəb birləşmələrin nisbətən geniş təsvirini S.S.Mayzel vermişdir. S.S.Mayzel "izafet" adı ilə ancaq ismi birləşmələrdən bəhs etdiyindən, ümumiyyətlə mürəkkəb söz birləşməsi məsələsini qoymamış və yalnız izafət birləşmələrinin mürəkkəbinə nəzər yetirmişdir.
N.A.Baskakov türk dillərində söz birləşmələrinin hər bir tipinin sadə və mürəkkəb olaraq bölündüyünü göstərir. O, "mürəkkəb söz birləşməsi" ifadəsi ilə yanaşı, eyni mənada "qarışıq söz birləşməsi" ifadəsini də işlədir və bununla da mürəkkəb birləşmələr daxilində müxtəlif tipli birləşmələrə məxsus əlamətlərin toplandığını qeyd edir [5, 71].
Kino dilində söz birləşmələrinin bir neçə sözdən ibarət olması fikri Azərbaycan dilinin materialları ilə tam surətdə təsdiq olunur. Azərbaycan dilində başqa birləşmə növlərini nəzərə almasaq belə, feili bağlama, feili sifət və məsdər tərkiblərinin tədqiqi istər-istəməz belə bir nəticəyə gətirir ki, söz birləşmələri dedikdə iki sözün birləşməsi əsas alınsa da, bur neçə sözdən ibarət olan söz birləşmələrinin də olduğunu qeyd etmək lazımdır [6, 69].
Azərbaycan dilçiliyində mürəkkəb söz birləşmələrinin ancaq bir növü – mürəkkəb təyini söz birləşmələri ayrıca, yəni "mürəkkəb birləşmə" adı ilə izah edilmişdir. M.Hüseynzadə "Müasir Azərbaycan dilində mürəkkəb təyini söz birləşmələri" adlı məqaləsində [7, 27], "Müasir Azərbaycan dilində təktərəfli və mürəkkəb təyini söz birləşmələri" adlı kitabçasında və nəhayət, "Müasir Azərbaycan dili, sintaksis" adlı dərs vəsaitinə yazdığı hissədə [7, 150] mürəkkəb təyini söz birləşmələrinin xüsusiyyətləri haqqında ətraflı məlumat vermiş, onların əmələ gəlmə yollarını göstərmişdir. M.Hüseynzadə təyini söz birləşmələrinin mürəkkəb formasına aid qızıl saat zənciri, daş qala hasarı, rayon maarif şöbəsi, kolxoz kəndinin həyatı, Kür çayının dəmir körpüsü, Dərbənd hasarının dəmir qapıları və s. kimi misallar vermişdir.
Bütün bunlar göstərir ki, türk dillərinə aid söz birləşmələri onları təşkil edən sözlərin miqdarına görə də təsnif edilmiş sadə və mürəkkəb birləşmələrdən danışılmış və hətta bütöv şəkildə olmasa da, bu və ya başqa cəhətdən mürəkkəb birləşmələr sahəsində müəyyən tədqiqat işləri aparılmışdır.
Yuxarıda qeyd etdiyimiz əsərlərin hamısında mürəkkəb birləşmələr ikidən artıq sözdən təşkil olunması ilə sadə birləşmələrdən fərqləndirilir. Buradan belə bir nəticə çıxır: mürəkkəb söz birləşmələri iki sözdən ibarət ola bilməz; eləcə də söz birləşmələri ikidən artıq sözdən ibarət ola bilmir. M.Hüseynzadə yazır: "Bizim fikrimizcə, həm məna, həm də formaca bir-birinə bağlanan, tərkibində iştirak edən sözlərin hamısı birlikdə bir cümlə üzvü kimi işlənə bilən birləşmələr mürəkkəb təyini söz birləşməsi hesab edilməlidir" [7, 15]. Buraya isə Azərbaycan dilində xüsusi şəkli vasitələrlə əmələ gələn, cümlədə bütövlükdə bir mürəkkəb üzv kimi çıxış edən, ikinci və üçüncü növ təyini söz birləşmələri adı ilə qeyd edilən birləşmələr tipindəki çoxsözlü birləşmələr daxil olur.
Filmlərdə kinoaktyorların dilində belə birləşmələrə tez-tez rast gəlmək olur.
"Mirzə Fətəli: – Görsünlər yazıdan-pozudan nəyim qalıb. Həm də beş maraqlı kitab. Bundan qorxub eləməyin. Nə yazmışamsa hamısı sansordan keçib".
"Sabahın elçisi" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 2010.
"Rüstəm əmi: – İşləmək lazımdır. Kolxozun torpaqları, geniş kənd yolları, çöl-çəmən sizin ixtiyarınızdadır. Bütün cavanları gərək ayağa qaldırasan".
"Böyük dayaq" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 1962.
Digər tərəfdən nəzərə almaq lazımdır ki, M.Hüseynzadənin nəzərdə tutduğu birləşmələrin bir üzv kimi götürülməsi bütün türk dillərinin qrammatikalarına aid deyildir. Belə olduğu halda, bir dildə mürəkkəb birləşmə kimi qeyd edilən söz kompleksi, ona qohum olan başqa bir dildə mürəkkəb birləşmə hesab edilməyəcəkdir və beləliklə, burada mürəkkəb birləşmə haqqında danışmaq imkanı da aradan qalxacaqdır.
Bizə elə gəlir ki, kino dilində söz birləşmələrinin sadə və mürəkkəb olmaqla bölgüsündə heç bir başqa cəhəti nəzərə almadan sözlərin miqdarına əsaslanmaq, ikisözlü birləşmələri sadə, ikidən artıq sözdən ibarət birləşməni isə mürəkkəb söz birləşməsi adlandırmaq lazımdır.
Mürəkkəb birləşmələrin quruluşunda müxtəlif cəhətlər görmək olur. Bu cəhətdən Azərbaycan dilindəki mürəkəb birləşmələrin aşağıdakı formalarını qeyd edə bilərik:
1. Bir tabeedici və bir neçə tabe sözdən ibarət olan mürəkkəb birləşmələr. Belə birləşmələrdə tabe sözlər bir-biri ilə qrammatik əlaqədə olmur, hər biri birbaşa əsas sözə tabe olur. Bu tipli mürəkkəb birləşmələri iki yerə ayırmaq olar: tabeedici söz substantiv xasiyyət daşıyır və bir qayda olaraq, isimdən ibarət olur.
"Nərmin: – Evdəki beş gümüş qaşıq ən xoşum gələn qaşıqlardır.
Tahir: – Mənim də. Romantik şam yeməyi üçün sifarişiniz də qəbul olundu".
"Yalançılar" bədii filmi. "AGFİA" Butafim şirkəti. 2008.
"Dursun: – Yox, Malik, çox çətindir. Həmin möhkəm daş hasar yıxılan deyil. Bir şey fikirləşə bilmədim. Beton xətt partladılmalıdır".

“Arxada qalmış gələcək” bədii filmi. “Azərbaycanfilm” kinostudiyası. 2005.
Aşağıda filmlərdən gətirəcəyimiz misallarda isə tabeedici söz feildir.
“Natəvan: – Sən oxumalısan. Səhər mağazadan kitab almaq üçün növbə tutmalısan”.
“Üzeyir ömrü” bədii filmi. “Azərbaycanfilm” kinostudiyası. 1983.
“Cəlil: – Oxay!.. Kəblə Şəfinin ehsanından gəlirəm. İki kasa bozbaş yemişəm. Gələn bazar toyumdur. Çiçəkləri evə göndərmək lazımdır”.
“Neft və milyonlar səltənətində” bədii filmi. “Azərbaycanfilm” kinostudiyası. 1982.
“Baş həkim: – A bala, kimi istəyirsən? Gördün? Kitabları evdən məktəbə aparanda ehtiyatlı ol. A yoldaş, sənnən deyiləm?!”
“Küçələrə su səpmişəm” bədii filmi. “Azərbaycanfilm” kinostudiyası. 2004.
Burada tabe tərəfləri müxtəlif miqdarda etmək olar. Belə birləşmələri sadə birləşmələrə ayırsaq, mürəkkəb birləşmənin tabeedici sözü yeni yaranan hər bir sadə birləşmənin də tabeedici sözü kimi çıxış edəcəkdir; məs.: evdəki həmin beş gümüş qaşıq birləşməsindən evdəki qaşıq, həmin qaşıq, beş qaşıq, gümüş qaşıq.
2. Birləşmədəki sözlərin hamısı deyil, bir qismi birləşmənin əsas tabeedici sözü ilə qrammatik əlaqə saxlayır. Belə birləşmələrin daxilində əsas tabeedici sözlə qrammatik əlaqədə olmayan sözlər də iştirak edir. Beləliklə, mürəkkəb birləşmə daxilində əsas tabeedici sözün iştirak etmədiyi əlavə söz birləşmələrini də ayırmaq mümkün olur; məs.: həmin evdəki maraqlı kitab, adamlara baxmadan astaca getmək.
Bu birləşmələrin daxilində bir neçə əlavə, ikinci dərəcəli mərkəzləşdirici üzvləri də müəyyənləşdirmək mümkündür. Filmdən uyğun misal təqdim edək.
“Ləman: – Siz bilmirsiniz. Kitab, dəftər və qələmləri yığışdırıb evə gedəndə zəngin səsini eşitmək Buta üçün gözlənilməz oldu”.
“Buta” bədii filmi. “Azərbaycanfilm” kinostudiyası. 2011.
3. Biri digəri ilə qarşılıqlı tabelilik əlaqəsində olan sözlərin silsiləsindən ibarət mürəkkəb birləşmələr. Belə mürəkkəb birləşmələr ikinci və üçüncü növ təyini söz birləşmələrinə əsaslanır.
Yenə filmlərdən misallar.
“Pasiyent: – Bəs məsləhət?
Oruc: – Mən sizə məsləhət verərəm. Filoloji fakültəsi dekanının I müavininə də yazmışam. Düzünü desəm, yaxşısı budur Qarabağla başımızı qatmayasınız”.
“Tilsim” bədii filmi. Film Prodüser Mərkəzi. 2005.
“Nərmin: – Ux! Alındı! Moskva Universitetinin kimya fakültəsi cavab verdi. Alındı! Gərək sifətimlə ciddi məşğul olum”.
“Yalançılar” bədii filmi. “AGFİA” Butafilm Şirkəti. 2008.
“Camaat: – Ay camaat, bu kolxozun ferma müdiri də dirilib.
“Hacı Həsən: – Ya şeyx, bizim yerlərə bələd deyilsiz”.
“Ölülər” bədii filmi. “Azərbaycanfilm” kinostudiyası. 1980.
Nəticə. Beləliklə, son olaraq belə bir nəticəyə gəlmək olar ki, birləşmələrə belə sözlərin daxil olması onların quruluşunda müəyyən dəyişiklik əmələ gətirir və onları bir qədər başqa şəkildə sxemləşdirmək lazım gəlir.
Mürəkkəb söz birləşmələrinin konkret formalarını nəzərə alıb çox müxtəlif qaydalar, sxemlər göstərmək olar. Azərbaycan dilindəki mürəkkəb birləşmələrin ümumi quruluş xüsusiyyətlərini təsəvvür etmək üçün yuxarıda deyilənlərlə kifayətlənmək olar.
Ədəbiyyat
Виноградов В.В. Грамматика русского языка. Москва. 1945. т. II. ч. I. с. 21
Фортунатов Ф.Ф. Избранные труды. Москва. 1957. I. 2. с. 455
Пешковский А.М. Русский синтаксис в научном освещении. Москва. 1954. с. 35
Сухотин В.П. Вопросы синтаксиса современного русского языка. Москва. 1954. с. 151
Баскаков Н.Д. Предложение и словосочетание в тюркских языках. Москва. 1962. с. 71
Seyidov Y. Feili bağlama tərkibləri söz birləşmələrinin bir növü kimi. “Elmi əsərlər”. BDU nəşri. 1956. № 11. s. 69
Hüseynzadə M. “Ədəbiyyat və Dil İnstitutunun əsərləri”. VIII c. Bakı. 1957. s. 27, 150, 15
Bədii filmlər
“Ölülər”. 1980.
“Yalançılar”. 2008.
“Arxada qalmış gələcək”. 2005.
“Üzeyir ömrü”. 1983.
“Neft və milyonlar səltənətində”. 1982.
“Tilsim”. 2005.
“Küçələrə su səpmişəm”. 2004.
“Böyük dayaq”. 1962.
“Sabahın elçisi”. 2010.
“Qərib cinlər diyarında”. 1977.
“Odla qol-boyun”. 2001.
“Ev”. 2006.

"Cavid ömrü". 2007.
Sovet pəhləvanı. 1942.
"Qoca palıdın nağılı". 1984.
"Bəyin oğurlanması". 1984.
"Dərs" 2015.
"Sarı gəlin". 1998.

Açar sözlər: söz birləşməsi, söz, sadə birləşmə, mürəkkəb birləşmə, cümlə, qrammatik məna
Ключевые слова: словосочетание, слово, простое сочетание, сложное сочетание, предложение, грамматическое значение
Key words: word combination, word, simple combination, complex combination, grammatical meaning of the sentence

Kino dilində sadə və mürəkkəb birləşmələr

Xülasə
Məqalə kino dilində sadə və mürəkkəb birləşmələrə həsr olunub. Məqalədə aparılan tədqiqata görə söz birləşmələrinin sadə və mürəkkəbliyi onların quruluşuna görə bölgüsüdür. Quruluş sözündən bir termin olaraq qrammatikada çox tez-tez istifadə edilir. Sözlərin, cümlələrin, cümlə üzvlərinin quruluşundan bəhs olunur və onlar bu prinsipə görə təsnif edilir.
Məqalədə ayrı-ayrılıqda sadə və mürəkkəb cümlələrin öz quruluşundan da bəhs edilir. Məsələn, kino dilində mürəkkəb cümlənin komponentlərinin vəziyyəti, mövqeyi, sırası və sair cəhətləri onun quruluşuna daxil olur, hətta bu quruluşu nəzərə alaraq mürəkkəb cümlələr modelləşdirilir. Burada söz birləşmələrinə də eyni cəhətdən yanaşılır.
Məqalədə söz birləşmələrindən danışılarkən onların quruluşu hər iki mənada maraq doğurur. Araşdırmaya görə söz birləşmələrinin bu bölgüsü cümlələrin sadə və mürəkkəb olmaqla bölgüsü qədər əhəmiyyətli olmasa da, əhəmiyyətsiz də deyildir.

Простые и сложные сочетания на языке кино

Резюме
Статья посвящена простым и сложным сочетаниям на языке кино. Согласно исследованию, проведенному в статье, словосочетания по простоте и сложности делятся по их структуре. Структура слова часто используется в грамматике как термин. Обсуждается структура слов, предложений и предложений, и они классифицируются по этому принципу.
В статье также рассматривается структура простых и сложных предложений. Например, в языке кино положение, положение, порядок и другие аспекты компонентов сложного предложения включены в его структуру, и даже сложные предложения моделируются с учетом этой структуры. Точно так же трактуются и словосочетания.
Если говорить о словосочетаниях в статье, их структура интересна в обоих смыслах. Согласно исследованию в статье, такое разделение фраз не так важно, как разделение предложений на простые и сложные, но оно не является незначительным.

Simple and complex combinations in the language of cinema

Summary
The article is devoted to simple and complex combinations in the language of cinema. According to the research carried out in the article, phrases by simplicity and complexity are divided according to their structure. Word structure is often used as a term in grammar. The structure of words, sentences and sentences is discussed, and they are classified according to this principle.
The article also discusses the structure of simple and complex sentences. For example, in the language of cinema, position, position, order, and other aspects of the components of a complex sentence are included in its structure, and even complex sentences are modeled with this structure in mind. Phrases are interpreted in the same way.
If we talk about phrases in the article, their structure is interesting in both senses. According to the research in the article, this separation of phrases is not as important as the separation of sentences into simple and complex, but it is not insignificant.

RƏYÇİ: dos.L.Ələkbərova

Şəhla Zahid qızı Səfərova6

"KİTABİ-DƏDƏ QORQUD" DASTANLARININ DİLİNDƏ TERMİNOLOJİ SÖZLƏR

Giriş. VI-IX əsrlərdə el sənətkarlarının-ozanların Oğuz yurdunu oba-oba gəzib yaydıqları "Kitabi-Doda Qorqud" boyları onun yayıldığı geniş ərazidə vahid dildə - türk dilində danışan böyük bir xalqın - Azərbaycan xalqının yaşadığını sübut edən möhtəşəm bir abidədir. İslamiyyətdən əvvəl və onun ilk çağlarında yaranan bu epos xalqımızın məişəti, əmək faaliyyəti, adət-ənənələri, musiqisi, mədəni-ictimai münasibətləri, xalq ədəbiyyatı haqqındakı məlumatları günümüzə qədər qoruyub saxlamışdır. Dastanın boylarından göründüyü kimi, oğuz tayfaları oturaq həyat sürürdülər. Onların əsas peşələri taxıl əkmək idi. Oğuzların su dəyirmanları vardı. Bağçılıq, üzümçülük, şərabçılıq inkişaf etmiş təsərrüfat sahələrindən idi. Eyni zamanda dəvəçilik, atçılıq, qoyunçuluq və bununla bağlı olan sənətkarlıq səhələri geniş inkişaf etmişdi. Oğuzlarda sənətkarlıq [xalçaçılıq] va kənd təsərrüfatından ayrılmış ayrı-ayrı peşələr müstəqil istehsal sahələrinə çevrilmişdi. Ticarətdə əsasən oğuzların öz yerli pullarından "altun axça"larından istifadə olunurdu. "Kitabi-Dada Qorqud" ensiklopedik abidədir.

Əsas hissə. Bununla yanaşı, Azərbaycan şifahi ədəbiyyatının ilk zəngin abidələrindən sayılan "Kitabi-Dədə Qorqud" dastanı terminlərin işlənma tarixini, elmi dilin inkişafını müəyyənləşdirməkdə mənbə rolunu oynayır. Bu barədə Ə.Damirçizada yazır: "Məhz bu növ xüsusiyyətləri nəzərə aldıqda belə nəticəyə gəlmək olur ki, şifahi ədəbiyyatda və şifahi dildə bədii üslub əsas olmuş ictimai-siyasi üslub, elmi üslub ancaq rüşeym halında işlənilmişdir" [4, s. 47].

T.Hacıyevin qeyd etdiyi kimi, bünövrəsində tam tarixi əsər olan "Kitabi Dədə Qorqud"da "söyləmələr" adlı şeir parçaları az deyil. Terminoloji sistemin bir sıra diferensial sahələri vardır ki, həmin şeirlərin arxitekturası, poetik-texniki xüsusiyyətləri kifayət qədər uyğun gəlir. Abidənin dilində terminoloji sahələrin xüsusi şəkildə ayrılması həmin dövrün intellekt səviyyəsi barədə müəyyən məlumat verir va həmin sahələrin inkişaf varlığını faktlaşdırır. Abidədə tibbi terminlər, musiqi ila bağlı anlayışlar, hərbi anlayışlar, geyim adları daha çox işlənmişdir ki, bunların hər biri bu və ya digər şəkildə dövrünün ictimai-etnoqrafik məzmununu aks etdirir. Elmi-tarixi informasiya ilə zəngin olan bu dastanlar heç şübhəsiz ki, terminoloji materiallarla da zəngindir. Lakin müasir tipli elmi üslubla o dövrün dili arasında fərqlər mövcuddur ki, bu da təbiidir. Çünki arada 1300 illik məsafə var [5, s. 117].

Həm də bu dövrdə Azərbaycan terminologiyası ümumşərg konteksinin mədəni-gneseoloji prinsipləri baxımından tabəddülata uğrayır ki, bunun da izlərinə "Kitabi-Dədə Qorqud"da rast gəlmək olur. Burada rast gəlinən dini terminologiya ərəb, fars dilindən gəlir, başqa sahələrdə isə bu və ya digər dərəcədə mədəniyyətin təsiri hiss olunur. Bundan sonra meydana gələn demək olar ki, bütün elmi üslub nümunələrindəki terminologiyanın inkişafında ümumşərq meyli üstünlük təşkil edir. Buradakı terminologiya türk mənşəli terminologiya ilə semantik sahə vəhdətinə malikdir. Çünki, türk elmi təfəkkürü ümumşərq mədəniyyətinə həmin mədəniyyəti qəbul edə-edə daxil olmuş və bu yolla ona öz anlayışlarını da vermiş, zənginləşdirici funksiyanı hayata keçirmişdir.

"Kitabi-Dədə Qorqud"da Azərbaycan tabiətini, onun relyefini, flora və faunasını, iqlimini aks etdirən anlayışlar vahid bir sistem təşkil etməkdədir. Buradan da belə qanaətə gəlmək olar ki, həmin vahidlər daha qədim dövrlərdə təşəkkül tapıb sistemləşmişdir. Çünki, Azərbaycan təbiəti oğuzların həm yaşayış yeri. Həm də vuruş meydanı olmuşdur. Eyni zamanda, əsərdə təbiata animistik baxışla real baxış bir-biri ilə dialektik münasibətdə təqdim olunmuşdur. Məsələn, "Sərt qayalar oynamadan yer, obrildi". Burada tabiat hadisəsi zəlzələyə işarə var. Yaxud "Yel əsdi, yağmur yağdı, bunu [tufan mənasında] qopdu". "Kafəri qamış kimi od oluban yandırayım". "Atlu baxıb onun balçığına qunlar döşədim". Göründüyü kimi, "Kitabi-Dədə Qorqud"dakı termin yaradıcılığı prosesində Azərbaycan dili fəal iştirak etmişdir. Buradakı təbiət leksikasını tədqiq etdikdə aydın olur ki, coğrafi terminologiyanın əsasını məhz azərbaycan dilində olan, yaxud da qədim dillərdən olan türkləşmiş vahidlər təşkil edir. Dastanın Azərbaycan mühiti ilə bağlılığı təbiət leksikasında daha açıq şəkildə görünür. Belə ki, ictimai quruluş, məişət həyatı dəyişir, təbiət isə natural mövcudluğunu qoruyur. Bununla bağlı "ala dağ", "dağ ətayi", "qala dağ", "qarşı yatan qara dağ", yamac ifadələri daha çox işlənir. Məsələn, Boyu uzun Burla xatun oğlunun yamacına gəldi. Sami günlüyü yer yüzünə dikdirmişdi. Alan sabah turmuşsan, ağ ormana girmişsən [6, s. 44].

Dastanın təsərrüfat leksikasında heyvandarlıq, əkinçilik terminləri çoxluq təşkil edir. Strabonun məlumatına görə, albanlar daha çox heyvandarlığa meyyilidirlər və bu məlumat "Kitabi-Dədə Qorqud"dakı hadisələrlə uyğun gəlir. Albanların yaşadığı ərazi barədə deyilir: "Onlar iberiyalılarla Kaspi dənizi arasında yaşayırlar: şərqdə onların ölkəsi dənizə qədər uzanır, qərbdə isə iberiyalarla həmsərhəddir. Yerdə qalan tərəflərə gəldikdə isə şimalda Qafqaz dağları ilə əhatə olunur, dağlar. düzənliklər üzərinə yüksəldiyinə və bir tərəfi dənizə söykəndiyinə görə Geravin dağları adlanırlar" [1, s. 34].

"Kitabi-Dədə Qorqud" dastanında hərbi terminlər daha çox işlənmişdir. Hərbi təsərrüfatın mövcudluğu adətən ictimai münasibətlərin xarakterinə də təsir göstərir. Hərbi iş türklərin əsas sənət məşğuliyyəti idi. Abidədə işlənən hərbi terminlərin əsasını milli vahidlər təşkil edir. Bir sıra qeyri-türk mənşəli hərbi terminlərə də dastanın dilində təsadüf olunur ki, bunlar da mətnə sonralar əlavə edilmişdir. Ümumiyyətlə, dastan o dövrdə [X-XV əsrlər nəzərdə tutulur] Azərbaycan xalqının ictimai-siyasi, ailə məişəti, mədəni həyatı ilə yanaşı, hərbi iş, qoşunu, habelə silahlan öyrənmək baxımından da qiymətli bir mənbədir. Lakin bir sıra tədqiqatçıların dediklərininin əksinə olaraq. Azərbaycan ərazisində yaşayan türklər barbar hərbçilər olmamışdır, hərbi iş onlarda sənət səviyyəsində idi. "Kitabi Dədə-Qorqud" dastanları da bunu bütün dəqiqliyi ilə əks etdirir. Dastanda hərblə bağlı terminlər daha çox işlənmişdir. Məsələn: alay - üç yüz döyüşçüdən təşkil olunmuş hərbi dəstə mənasında işlənir. M.Kaşğari, Əfləki, İbn Bətut, Rəşid əd - Din və sairələrin əsərləri əsasında aparılan tədqiqatlardan belə nəticə çıxır ki, "alay"

---

6 Bakı Dövlət Universitetinin İngilis dili [təbiət fakültələri üzrə] kafedrasının müəllimi

[polk] ən tezi səlcuqlar dövründə meydana gəlmişdir. Bu söz - terminin işləndiyi ilk mənbələrdən biri də "Kitabi-Dədə Qorqud" dastanıdır [2, s. 51].
Hərbi terminologiyanın sistem olmasını şərtləndirən birinci əlamət burada hərb sənətinin ən müxtəlif sahələrinə aid olan anlayışların əhatə dairəsidir. Belə ki, abidənin dilində qoşun və onun bölüklərinin adları, silah və onun hissələrinin adları, hərbi geyim adları, hərbi leksikası və hərblə bağlı hərəkət anlayışlarını bildirən sözlər sistemli şəkildə işlənir. Dastanda işlənən hərbi terminlər türk mənşəlidir. Məsələn,
Marə nə heybətli qocasan
Qapuçılar səni görmədi,
Çavuşlar səni tutmadı
Mənim görən gözlərim görməz oldu [6, s. 81].
Bu dövrdə fəal şəkildə işlədilən döyüş və savaş prosesini və orada işlədilən alətlərin adlarını bildirən sapan, cida, gürz, yay, ox, dəyənək, topuz anlayışları artıq arxaikləşmiş terminlərdir [5, s. 48].
Məsələn: Ərənlər əvrənç Qaraçuxur çaban sapanın ayasına. Qalxanını ordu, dəbilqəsini əzdi, üz-gözünü meyirdi, ancaq oğlanı məğlub edə bilmədi [6, s. 207]. İki qardaşı oxa düşdü, şəhid oldu [6, s. 43]. Qara polat üz qılıncın belinə quşadı. Ağ tozlıca qarğı yayın əlinə aldı. Altun cidasın əlinə aldı [6, s. 40]. Oğlan qırq yigidin boyuna aldı at dəpdi, cəng və savaş etdi [6, 210]. Əzrayıl nə çavuş gördü; nə qapuçi [6, s. 79]. Mənim avımı bozma, ləşkərimi dağıtma [6, s. 44]. Çal qılıncın, ağam Qazan, yetdim! – dedi [6, s. 44]. Altı pərli gürzünü ələ alıb, atını oğlanın üzərinə sürdü [6, s. 207].
Lakin elə terminlər də var ki, hazırda da o mənanı bildirir və işlənir. Məsələn, Dün qara pusariq ordumun üzərinə tökülü gördün [6, s. 44]. Qalan kafirlər bunu bildirər, meydanı qoyub qaçdılar. Hünərin varsa, qardaşın Əlincə qalasında əsiridir, get, onu qurtar [1, s. 209] . Tövlədən bir şahənə at çıxardı, yəhərlədi, döyüş paltarını geyindi.
Abidə yeməklə bağlı anlayışlarla da zəngindir ki, bu da oğuz türklərinin - qədim azərbaycanlıların təsərrüfat mədəniyyəti ilə əlaqədardır. Yeməklərin əksəriyyəti heyvandarlıqla bağlıdır. Yemək adları, qab-qacaq adları və yemək hazırlamaqla bağlı aşyaların adları burada öz əksini tapmışdır. Məsələn, "Altun ayaq sürahilər düzülmüşdü", "Adam ətin yaxni qılan aşbazı olur", "Südü, peniri bol qaymaqlı çoban" [4, s. 131].
Abidənin dilindəki dini-mifoloji terminologiyada müxtəliflik özünü göstərir. Belə ki, asas yeri islam dini ilə bağlı terminlər təşkil etsə də, xristian dini, eləcə də dini-mifoloji terminlər də işlənir. Məsələn: Azğın dinli kafərə ban varayım [6, 38] . Variban peyğəmbərin yüzünü görən [6, s. 49] . Iki rükət namaz qıldılar. Adi görklü Məhəmmədə salavat götürdülər [6, s. 50] . Allah verən ümüdün üzülməsin. "Amin" deyənlər didar görsün [6, s. 51] . Əl qaldırıb dua etdilər [6, s. 52] . Dəsmalı gözünə silcək, Allah-Təalanın qüdrətilə gözü açıldı [6, s. 66]. Kafərin kəlisasın yıqdılar, yerinə məscid yapdılar [6, s. 67] .
H.Həsənov yazır: "Kitabi-Dədə Qorqud"dakı dini - mifoloji terminologiya sistemli şəkildə islam dininin Azərbaycanda yayılması ilə əlaqədar olaraq sonradan abidənin mətninə əlavə edilmişdir" [3, s. 149] .
Ə.Dəmirçizadə yazır: "Kitabi-Dədə Qorqud"-un dilində ərəb, eləcədə də fars leksikasının "başlıca olaraq" islamiyyət hərb və cəngavərlik məfhumlarını ifadə edən sözlərdən ibarət olması, bu dastanların yenicə islamiyyəti qəbul etmə və ərəb işğalına qarşı çarpışma dövrlərindəki Azərbaycan xalqının dilini əks etdirdiyini çox aydın surətdə göstərir" [4, s. 49] .
"Kitabi-Dədə Qorqud" da musiqi terminləri də işlənmə məqamlarına görə diqqəti cəlb edir. Burada bir xalqın toy-düyünündə çalınan musiqi və onun alətləri, bir də xalqı döyüşə çağıran, yaxud döyüşü müşahidə edən musiqidən danışılır. Onu da qeyd etmək lazımdır ki, dastanda işlənən musiqi terminoloji sistemi onun mühafizə etdiyi musiqi təfəkküründən geri qalır. Məsələn: gümbür-gümbür naqaralar dögüldü [2, s. 50] . Burması altin tuc borular çalındı [2, s. 50] . Mərə ozan, nerəyə gedirsən? Ozan aydır: Bəg yigit, düğüna gedirəm [2, s. 50] .
Nəticə. Göründüyü kimi, ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" da işlənən və cəmiyyətin müxtəlif sahələrinə aid terminlər, terminoloji və terminləşmiş sözlər dil tariximizdə ilk termin sözlər olub mövcud olduğu dövrün mənzərəsini – həyat tərzini, adət-ənələrini, əsas məşğulliyyətlərini, peşə sahələrini, dini-fəlsəfi, ədəbi-mədəni görüşlərini özündə əks etdirir. Bu mövzuda ayrıca elmi monoqrafik əsərə ehtiyac vardır ki, bizim bu məqaləmiz də bu sahədə atılan addımların ilkin rüşeymləri hesab oluna bilər.
İstifadə olunmuş ədəbiyyat siyahısı
1. Cəmşidov Ş. "Kitabi Dədə Qorqud". Bakı: Elm, 1977, 174 s.
2. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud'u vərəqləyərkən. Bakı: Gənclik, 1969, 100 s.
3. Dədə Qorqud Kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, 2004, 368 s.
4. Dəmirçizadə, Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili: Pedaqoji institutların tələbələri üçün tədris vəsaiti. Bakı, "APİ-nin nəşri", 1959, 164 s.
5. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.
6. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.

Açar sözlər: "Kitabi-Dədə Qorqud", epos, termin, dil, xalq
Ключевые слова: "Китаби-Деде Горгуд", эпос, термин, язык, народ
Keywords: "Kitabi-Dada Gorgud", epic, term, language, people

Terminological words in the language of the "Kitabi-Dada Gorgud" epic

Summary

We have spoken the terms in the language of the ancient epic of the Azerbaijanian people "Kitabi-Dada Gorgud" epic in this article. There are many terms belonged to the different spheres of society in this epic. One of the first rich monuments of

Azerbaijanian oral literature “Kitabi-Dada Gorgud” epic acted as a source in determining the development the history of the terms and the development of scientific language.
The terminology in here has the semantic space unity with the Turkish origin terminology. The livestock and the agricultural terms have a majority in the farm lexicon of this epic. The military terms had been much more used in the “Kitabi-Dada Gorgud” epic. Usually the existance of the military farm have also affected the nature of the public relations. Military work was the main art occupation of the Turks.
This literary monument is also rich in the food concepts that this is related to the farm culture of the Oghuz Turks – the old Azerbaijanians.
There is a diversity in religious-mythological terminology of the language of this monument. The religious - mythological terminology in the “Kitabi-Dada-Gorgud” epic had been later added to the text of the monument related to the the systematic spread of Islam in Azerbaijan.
The musical terms in the “Kitabi-Dada-Gorgud” epic also attract attention due to the using points.

Терминологические слова в языке эпоса “Китаби-Деде Горгуд”

Резюме

В этой статье мы говорили о терминах на языке древнего эпоса азербайджанского народа “Китаби-Деде Горгуд”. В этом эпосе много терминов, принадлежащих к разным сферам общества. Одним из первых богатых памятников азербайджанской устной литературы был эпос “Китаби-Деде Горгуд”, послуживший источником в определении развития истории терминов и развития научного языка.
Терминология здесь имеет семантическое пространственное единство с терминологией тюркского происхождения. Скотоводство и сельскохозяйственные термины составляют большинство в фермерском лексиконе этого эпоса. В эпосе “Китаби-Деда Горгуд” военная терминология употреблялась гораздо чаще. Обычно существование военного хутора сказывалось и на характере общественных отношений. Военный труд был основным художественным занятием тюрков.
Этот литературный памятник также богат представлениями о еде, что связано с земледельческой культурой огузских тюрков – древних азербайджанцев.
Существует разнообразие в религиозно-мифологической терминологии языка этого памятника. Религиозно-мифологическая терминология в эпосе “Китаби-Дада-Горгуд” позднее была дополнена текстом памятника, связанного с планомерным распространением ислама в Азербайджане.
Музыкальные термины в эпосе “Китаби-Дада-Горгуд” также привлекают внимание за счет использования точек.

RƏYÇİ: dos. L.Ələkbərova

Гусейнова Аида Аскеровна

ДИМИНУТИВЫ В ТЕРМИНОЛОГИИ ЕСТЕСТВЕННЫХ НАУК

(На материале русского языка)

В настоящей статье систематизируются и рассматриваются семантико- функциональные особенности диминутивных образований в терминологии естественных наук на материале русского языка. Поскольку в рамках одной статьи охватить такие термины всех естественных наук невозможно, мы решили ограничиться привлечением к исследованию диминутивных терминов лишь следующих естественных наук: анатомия, зоология, ботаника.

Уменьшительность (диминутивность) – интересное языковое явление, которое в русской лингвистике рассматривалось и рассматривается до сих пор неоднозначно. В грамматике диминутивность относят к одному из компонентов категории количества, слова-диминутивы же образуются путем прибавления определенного аффикса к именной основе. А.В. Потебня и многие другие исследователи считают диминутивные суффиксы словообразовательными элементами, слова же, образованные с помощью диминутивных дериватов, - имеющими иное значение. Другие лингвисты (А.А.Шахматов, Л.В. Щерба) считали диминутивы только формами слов. В.В. Виноградов (3) относил их к промежуточному явлению между собственно словами и грамматическими формами слова.

Подтверждением этой точки зрения является возможность превращения уменьшительно-ласкательной формы в самостоятельное, имеющее своё конкретное значение, слово. Доказательством тому может служить проведенное нами исследование особенностей словообразования терминологии естественных наук, в которой наблюдается большое количество терминов и терминосочетаний с диминутивной деривацией.

В соответствии с этим статья состоит из трёх разделов:

1) Анатомическая терминология
2) Зоологическая терминология
3) Ботаническая терминология

Рассмотрим конкретные примеры.

1) Анатомическая терминология

Анатомические термины, называющие реалии человеческого организма, передают их характерные признаки и выражают их внешнее сходство.

Как уже указывалось выше, в настоящей статье под диминутивами понимаются слова с уменьшительно-ласкательными суффиксами. В терминологии, к примеру, они могут выражать уменьшенный размер анатомической реалии по сравнению с двумя, исходной структурой, например, кость — косточка (только в словосочетании слуховые косточки), или ямка - ямочка, бугор — бугорок, канал — каналец.

Следует отметить, что не все уменьшительные суффиксы русского языка принимают участие в образовании анатомических терминов. Предлагаем список суффиксов, участвующих в образовании диминутивов:

— -ка: головка, шейка, стенка, ямка;
— -ок, ёк: бугорок, крючок, язычок, родничок, пузырёк;
— -очк-: косточка, ямочка, молоточек;
— -ик: валик, хрусталик;
— -ец, -цо, -це: каналец, коленце, кольцо и др.

Рассмотрим эти примеры более подробно. Сразу укажем, что примеры, рассматриваемые в данном разделе, взяты из «Энциклопедического словаря медицинских терминов» (6). Итак, исследователями отмечается три диминутивных значения с общим значением «уменьшение размера объекта». Это медицинские (анатомические) термины с такими суффиксами, как: -к-, -ок/ек-, -ик-, -чик-, -ушк/ юшк-, -ышк/ишк-, -ичк-, -очк/ечк-, -оньк/еньк-, -ошк-, -онк- и другие.

Желудочек1 - отдел сердца; у человека делится на правый и левый желудочки, получающие кровь из предсердий и перекачивающие её в артерии.

Желудочек2 – полости в головном мозге и спинном мозге, заполненные спинномозговой жидкостью.

Желудочек3- парное углубление слизистой оболочки гортани между преддверной и голосовой складками.

Примечательно, что желудочек представлен тремя омонимами в системе анатомических терминов.

Коленце1 - острый изгиб какой-либо анатомической структуры, например: изгиб лицевого нерва в медиальной стенке среднего уха.

Коленце2 - фигура или оборот в пении либо танце, то же, что и колено (в соответствующем значении).

Мозжечок- отдел головного мозга позвоночных, отвечающий за координацию движений, регуляцию равновесия и мышечного тонуса.

Молоточек- одна из слуховых косточек среднего уха.

Надколенник (коленная чашечка) — самая крупная кость скелета человека, расположенная в толще сухожилия мышцы бедра.

Палочка1 (в микробиол.) - вытянутая цилиндрическая бактерия; любой организм, имеющий палочковидную форму.

Палочка2 (анат.) наряду с колбочкой - один из видов светочувствительных рецепторов глаза.
Палочка3 (муз.) - принадлежность ударных музыкальных инструментов, орудие для извлечения звука из барабанов, тарелок и т. п.
Палочка4 (муз.) - небольшой жезл, используемый дирижёром при управлении оркестром.
Палочка5(лингв.) - буква, используемая в кириллических алфавитах ряда кавказских языков.
Па́лочки— один из двух типов фоторецепторов, периферических отростков светочувствительных клеток сетчатки глаза, названный так за свою цилиндрическую форму.
Подушечка- мягкая выпуклость на лице, руке. Отёкшие подушечки век. Подушечки пальцев (их мягкие кончики).
Ушко1 - отверстие в иголке для продевания нитки.
Ушко2- мн. ч. ушки - вид макаронных изделий.
Хрусталик1— прозрачное тело, расположенное внутри глазного яблока. Хрусталик составляет важную часть светопреломляющего и светопроводящего аппарата глаза.
Хрусталик2- то, что прозрачностью, блеском, многоцветной игрой света напоминает такой кусочек.
Чашечка1 - (в анатомии) косточка, образующаяся в коленном сочленении через окостенение сухожилия.
Чашечка2- (ботан). совокупность чашелистиков.
Чашечка3- (зоология) вид молюска с чашкообразной раковиной (отсюда название).
Шейка1-часть длинной кости, расположенная между эпифизом и диафизом (обычно речь идет о шейке бедренной кости, где она действительно имеет место).
Шейка2 (гастрон.)- разновидность мясного продукта.
Шейка3 (зоол., анат.) - у ракообразных — часть тела.
Тельце- небольшое образование в составе живой ткани человека и животного.
Язычок, или нёбный язычок1— небольшой конический отросток заднего края мягкого нёба, состоящий из соединительной ткани.
Язычок2 (ботан.) - небольшой листовидный отросток (у однодольных).
Язычок3 – деталь- язычковых музыкальных инструментов.
Как видно из примеров, рассмотренных в первом разделе, наиболее продуктивными суффиксами анатомических терминов являются –очк-(а), -ок(-ек). Кроме того, в системе этих терминов обнаруживается омонимия: термин желудочек обозначает самые разные части человеческого организма: 1) отдел сердца; 2) полость в головном мозге и в спинном мозге; 3) углубление в гортани. Коленце является не только анатомическим, но и музыкальным термином. Особый интерес, на наш взгляд, представляет термин палочка, употребляющийся в трёх различных областях науки: в микробиологии, анатомии, лингвистике, а также и в музыке. Примечательно, что в музыкальной терминологии данный термин представлен двумя омонимами: палочка1- жезл дирижера, палочка2- принадлежность ударных музыкальных инструментов. Термин чашечка употребляется в анатомии и в ботанике. Термин шейка употребляется в анатомии, зоологии, кулинарии. Отметим, что соматоним шея входит также в состав географического термина перешеек (полоса земли, соединяющая два отделённых водным пространством массива суши, два материка или материк с полуостровом, например: Суэцкий перешеек, Панамский перешеек, Карельский перешеек). Термин язычок употребляется в анатомии, ботанике и в музыкальной терминологии.
2) Зоологическая терминология
П римеры, которые будут рассматриваться в данном разделе, взяты из «Краткого зоологического словаря» (4).
Бе́лая лазо́ревка, или князёк — небольшая певчая птица семейства синицевых.
Жилка - сосудик, уголщение в виде нити на листьях, на крыльях насекомых.
Щиток1 - (в зоологии) твёрдая пластинка у оснований крыльев жука.
Щиток2 –(спорт). приспособление, защищающее отдельные части тела игрока от ушибов или от ударов (при игре в футбол, хоккей и т. п.).
Щиток3- (ботан.) соцветие, в котором все цветки расположены на одной плоскости.
Щиток4-(ботан.) один из основных органов зародыша злаков.
Хохолок1- торчащий клок волос на голове; вихор.
Брюшко1 - следующий за грудью отдел тела членистоногих животных.
Брюшко2- (анат.) живот маленьких зверей, птиц и т. п.
Брюшко3 –(кулин.). мясо брюшной части рыб, употребляемое в пищу.
Вилочка/ Дужка - дугообразная кость плечевого пояса у птиц.
Хоанофлагеллаты, или воротничковые жгутиконосцы – организмы, обитающие в морских и пресных водах. Примечательно, что данное терминологическое сочетание состоит из двух диминутивов: прилагательное воротничковый, образованное от диминутива воротничок, и сложного слова жгутиконосец (диминутив жгутик + носец). Характерная черта этих организмов – наличие у клетки одного жгутика, окруженного воротничком из множества микроворсинок (отсюда и название).
Зеркальце1 — участки оперения на крыльях самцов птиц (особенно у уток), выделяющиеся по окраске, иногда с зеркальным блеском, (отсюда и название)
Зеркальце2 — пластинки воска, образуемые воскоотделительными железами на стернитах брюшка у рабочих пчёл.

Зеркальце3 — характерный элемент текстуры древесины дуба и бука, образующийся при радиальном разрезе древесных лучей.
Зеркальце4 — часть звукового (стрекочущего) аппарата у самцов некоторых кузнечиковых (резонатор).
Хоботок (зоол.)- длинный придаток в передней части тела насекомых, служащий органом обоняния, защиты, нападения.
Тазик, или ляшка (соха) — первый основной членик ноги у насекомых, многоножек и паукообразных.
Усики1 (антенны) — головные придатки членистоногих.
Усики2(зоол.) - органы чувств членистоногих в виде подвижных придатков на голове.
Усики3(ботан.)- нитевидные ползучие образования на листьях, стебле и некоторых соцветий растений.
Усики4(техн.)- удлиненные тонкие выступы какой-либо детали, какого-нибудь приспособления.
Глазок1- круглое пятно, иногда окаймленное цветным ободком (у насекомых, птиц и т.п.)
Глазок2(с.-х. в садоводстве) — почка, срезаемая с растения привоя и прививаемая на подвой
Глазок3(биол.)- пигментное пятно (в окраске насекомых, птиц, растений), а также кружок, пятнышко в рисунке ткани
Глазок4(техн.)- ушко для продевания нитей основы на ткацком станке
Чашечка3 (зоол.) – вид молюска, по форме напоминающего чашечку (отсюда и название).
Как видно из примеров, рассмотренных в данном разделе, в системе зоологических терминов наблюдается синонимия и омонимия: 1) синонимия - небольшая певчая птица семейства синицевых имеет два названия: по цвету – белая лазоревка, по размеру – несколько меньше большой синицы, но чуть крупнее лазоревке и похожее на неё, но благодаря уникальному сочетанию белых и синих тонов окраски хорошо отличается от остальных синиц. Дугообразная кость плечевого пояса у птиц также имеет два названия: представленного диминутивами: вилочка, дужка. Один из видов организмов, обитающих в морских и пресных водах, имеет два названия: латинское – хоанофлагеллаты, и русское – воротничковые жгутиконосцы.
Первый основной членик у насекомых называется тазик, или ляшка. 2) Омонимия представлена следующими примерами: глазок в зоологии, биологии, технической терминологии и в садоводстве. Термин чашечка в зоологии, анатомии и в ботанике. Термин усики 1-4 в зоологии, ботанике и в технической терминологии. Термин глазок1-4 – в зоологии, садоводстве, биологии и в технической терминологии.
3) Ботаническая терминология
Термины, рассматриваемые в данном разделе, взяты из «Ботанического иллюстрированного словаря» (2).
Как показали наши наблюдении над материалами словарей, диминутивы представлены и в ботанической терминологии. Сюда входят следующие термины: Кале́ндула, или ноготки́— род травянистых растений семейства астровые.
Колокольчик1 (ботан.)- травянистое растение с лиловыми или тёмно-голубыми цветками, по форме похожими на маленькие колокола (отсюда и название).
Колокольчик2 (муз., мн. ч.)- оркестровый ударный музыкальный инструмент.
Колосо́к— структурный элемент сложного соцветия в некоторых семействах цветковых растений.
Листовая подушечка— вздутая или утолщенная часть черешка листа, которая прикрепляется к побегу.
Хохолок2 -совокупность волосков или чешуек, расположенных кольцом в один, два и более рядов на вершине нижней завязи и плода большинства растений семейства сложноцветных, валериановых и некоторых других. (Как уже указывалось в предыдущем разделе, данный термин используется и в зоологии).
Зеркальце3 — характерный элемент текстуры древесины дуба и бука, образующийся при радиальном разрезе древесных лучей;
Щиток3- (ботан.) соцветие, в котором все цветки расположены на одной плоскости
Щиток4-(ботан.) один из основных органов зародыша злаков, через который происходит питание зародыша
Усики3(ботан.)- нитевидные ползучие образования на листьях, стебле и некоторых соцветий растений.
Чашечка2- (ботан.). совокупность чашелистиков.
Чашелистики - небольшие зеленые листочки цветка.
Корзинка – вид соцветия.
Мешочек - плод осоки, по форме напоминающий мешочек (отсюда и название).
Рыльце - верхняя часть плодолистика, специализированная для улавливания пыльцы.
Чечевичка - участок перидермы с рыхло расположенными клетками, через который осуществляется газообмен.
Как видно из примеров, рассмотренных в данном разделе, наблюдается синонимия среди ботанических терминов: календула, или ноготки. Это растение с ярко-желтыми цветками получило своё название из-за их лепестков, имеющих форму птичьего коготка (отсюда и название). Термин колокольчик имеет ряд следующих омонимов: 1) травянистое растение, цветки которого по форме похожи на маленькие колокольчики; 2) оркестровый ударный музыкальный инструмент. Термин щиток встречается в таких науках, как ботаника, зоология, а также в спортивной терминологии.

«Уменьшительные суффиксы в перечисленных терминах в соответствии с принципами терминологии как науки, которые не имеют субъективно-ласкательного характера и не присутствуют в латинских прототипах, входят в группу словообразовательных метафор» (5, с.112-119)

Таким образом, наименование анатомических, зоологических и ботанических реалий часто осуществляется с помощью метафоризации. В примерах, рассмотренных в настоящей статье, метафоризация происходит на основе сходства формы, и лишь в одном случае – на основе сходства по функции (зеркальце, щиток). Однако метафоризация является и одним из способов внутреннего словотворчества, которая играет важную роль не только в науке, но и в разных терминологических системах. Номинативные метафоры естественной терминологии характеризуются утратой образности: связь между признаками, на которых основано сравнение, становится слабее: таким образом они часто являются источником омонимии. В этих терминах, терминосочетаниях и терминоединствах диминутивные суффиксы приобретают большее смысловое значение, чем в общелитературном языке, а некоторые из них приобретают четко очерченный терминологический статус (например: левый желудочек сердца, головка бедренной кости). Изучение терминов в любом аспекте представляет большой научный интерес и позволяет проследить взаимосвязь словообразовательных, морфологических и лексических факторов. Кроме того, на примерах терминов, рассмотренных в данной статье, можно убедиться в том, что метафоризация свойственна не только поэтической речи, но и строгому языку науки.

Список использованной литературы

1) Биологический энциклопедический словарь // гл. ред. М. С. Гиляров - Москва: Директ Медия Паблишинг, 2006, 9000 с.
2) Ботанический иллюстрированный словарь Авторы: Дубенская Г. И. Дорофеев В. И. Яковлев Г. П. Издательство: СпецЛит, Санкт- Петербург ,2019, 382 с.
3) Виноградов В.В. Русский язык (Грамматическое учение о слове) / Под ред. Г.А. Золотовой. 4-е изд. Москва: Русский. язык, 2001, 720 с.
4) Краткий зоологический словарь // Крапивный А.П., Радкевич В.А., Тихонова Н.И.; Под ред. Радкевич В.А –Мню: Выш. Школа, 1990, 222 с.
5) Международная анатомическая терминология // гл. ред. Колесников Л. Л.- Москва: 2003, 216 с.
6) Энциклопедический словарь медицинских терминов // гл. ред. В. И. Покровский. — 2-е изд. — Москва: Медицина, 2001, 960 с.

Литература из интернета:

7) https://www.academia.edu.
8) https://cyberleninka.ru/article/n/diminutivy-kak-rechevaya-neudacha.

Ключевые слова: диминутивы, терминология, анатомия, зоология, ботаника, форма, метафоризация

Açar sözlər: diminutivlər, terminologiya, anatomiya, zoologiya, botanika, forma, metaforlaşma

Keywords: diminutives, terminology, anatomy, zoology, botany, form, metaphorization

Təbiət elmləri terminologiyasında diminutivlər
(rus dilinin materialları əsasında)

Xülasə

Məqalədə rus dilinin materialları əsasında təbiət elmləri terminologiyasında diminutiv birləşmələrin semantik-funksional özəllikləri sistemləşdirilmiş və təhlil edilmişdir. Diminutiv dedikdə əzizləmə-kiçiltmə şəkilçiləri ilə yaranmış sözlər nəzərdə tutulur. Bir məqalədə təbiət elmlərinin bütün terminlərini əhatə etmək mümkün olmadığına görə burada yalnız anatomiya, zoologiya, və botanikaya aid diminutiv terminlər tədqiqata cəlb edilmişdir. Təbiət elmləri terminologiyasında xeyli sayda diminutiv derivasiyalı terminlər və termin birləşmələri mövcuddur və müvafiq olaraq bu məqalə də üç bölmədən ibarətdir: 1) anatomik terminologiya; 2) zooloji terminologiya; 3) botanik terminologiya.

Məqalədə həmçinin nəzərdən keçirilən terminlər sistemində omonimlik və sinonimliyə də diqqət yetirilmişdir. Qeyd edilir ki, anatomik, zooloji və botanik realiyaların adları çox zaman metaforlaşma vasitəsilə yaradılır. Məqalədə nəzərdən keçirilən nümunələrdə metaforlaşma forma oxşarlığı əsasında, yalnız bir halda bu, funksiya uyğunluğu əsasında baş verir. Belə terminlərdə diminutiv şəkilçilər ümumi ədəbi dilə nisbətən daha böyük məna qazanır, bunların bəziləri isə dəqiq ifadə edilmiş terminoloji status kəsb edir.

Diminutives in the terminology of natural sciences (based on the Russian language)

Summary

The article deals with systematization and analysis of the semantic and functional features of diminutive formations in the terminology of the natural sciences on the material of the Russian language. Diminutives are understood as words with diminutive suffixes. Since it is impossible to cover such terms of all natural sciences within the framework of one article, diminutive terms of only the following natural sciences are involved in the study: anatomy, zoology, botany. There are a large number of terms and term combinations with diminutive derivation in the terminology of the natural sciences,and in accordance with this, the article consists of three sections: 1) anatomical terminology; 2) zoological terminology; 3) botanical terminology. Particular attention is also paid to homonymy and synonymy in the system of terms under consideration. It is noted that the naming of anatomical, zoological and botanical realities is often carried out through metaphorization. In the examples considered in this article metaphorization occurs on the basis of the similarity of form, and only in one case it occurs on the basis of similarity in function. In such terms, diminutive suffixes acquire a greater semantic meaning than in the general literary language, and some of them acquire a clearly defined terminological status.

RƏYÇİ: dos. E.Vəliyeva

Zemfira Əsgər qızı Şahbazova7

ARA SÖZLƏRİN MÜRƏKKƏB CÜMLƏ İLƏ İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Giriş. Cümlə üzvləri bir-biri ilə qrammatik və məna əlaqələri vasitəsilə bağlanırlar. Sintaktik əlaqələrin tabesizlik növü ilə bağlanan cümlə üzvləri bir-birindən, asılı olmur, bu üzvlərin arasında bərabər hüquqluluq özünü göstərir. Tabesizlik əlaqəsi ilə cümlənin həmcins üzvləri bağlanır. Tabesizlik əlaqəsi isə bir-birindən qrammatik cəhətdən asılı olan cümlə, cümlə üzvləri və söz birləşmələrinin tərəflərinin arasında olur. "Bu əlaqə prosesində bir söz əlaqədə olduğu başqa sözdən asılı olur, bu və ya başqa cəhətdən ona xidmət edir, onu aydınlaşdırır, digər söz isə nisbi müstəqilliyə malik olaraq başqa sözü özünə tabe edir, onun vasitəsilə öz xüsusiyyətlərini meydana çıxarır" [2, s. 13].

Sözlər arasındakı məna əlaqəsi qrammatik bağlılığı formalaşdırır. Məna əlaqələrinin müxtəlifliyi obyektiv aləmdə olan subyekt, predikat, obyekt, proses və onun əlamətləri arasındakı münasibətlərlə şərtlənir. Əgər cümlə və onun üzvlərinin bir-biri ilə bağlılığını bir çevrəyə bənzətsək, bu çevrədən kənarda qalan, lakin ondan ayrılmayan, bəzi söz və ifadələr diqqəti cəlb edir. Bu tipli ifadələr cümlə ilə bağlılığını tabeli və tabesizlik əlaqəsindən kənarda xüsusi formada tapır. Bu tipli ifadələrin qrammatik və məna bağlılığı formasına görə digərlərindən fərqlidir. Ara sözlərin cümlənin içərisində özünə məxsus mövqeyi və aid olduğu üzv, birləşmə və hissələr vardır.

Ara sözlər cümlə daxilində işlənərək müəyyən semantik mənanın yaranmasına və ya gücləndirilməsinə xidmət edir. Söylənilənləri nəzərə alaraq ara sözlərin cümlədə işlənməsində xüsusiyyətləri önə çəkmək olar. Bu tipli ifadələr sadə cümlənin müxtəlif növlərində və mürəkkəb cümlələrdə işlənə bilir. Sadə cümlənin içərisində işlənən ara sözlər bütün cümləyə, cümlənin bir hissəsinə, ayrı-ayrı üzvə aid ola bilir. Bu zaman cümlədə ifadə olunan obyektiv modallıq subyektiv modallıq bildirir. Mürəkkəb cümlədə işlənən ara sözlər isə sadə cümlədən fərqli şəkildə özünü nümayiş etdirir. Bu sözlər mürəkkəb cümlənin komponentlərinin daxilində işlənir və eyni zamanda komponentlərin bağlanmasına, əlaqəsinə xidmət edə bilir.

Ara söz və ara söz birləşmələrinin mürəkkəb cümlədəki yerini və vəzisfəsini öyrənmək uçün bir neçə məsələyə diqqət etmək lazımdır.

1. Ara söz və ara söz birləşmələrinin mürəkkəb cümlədə vəzifəsi.
2. Mürəkkəb cümlənin komponentlərində ara söz və ara söz birləşmələrinin işlənmə xüsusiyyətləri.

Tabesiz mürəkkəb cümlənin komponentlərində işlənərkən ara söz və ara söz birləşmələrinin xüsusiyyətləri sadə cümlədə işlənməsindən kəskin fərqlənir. Komponentlərdə işlənən ara sözlər obyektiv modallığa subyektiv münasibət bildirərək cümlənin ümumi modallığına xidmət edir. Bunun üçün biz tabeli mürəkkəb cümlədə işlənən ara sözlərə diqqət yetirməyi qarşımıza məqsəd qoymuşuq. Ara söz, ara söz birləşmələri tabeli mürəkkəb cümlənin komponentlərinin bağlamasına da xidmət edə bilir. Əlbəttə, bu bağlılıq bağlayıcı, bağlayıcı söz, ədatlar kimi rol oynamır. Lakin tabeli mürəkkəb cümlənin bəzi tiplərinin qurulmasında ara söz və ara söz birləşməsi mühum rola malik olur. Belə tabeli mürəkkəb cümlələrdə ara söz və ara söz birləşməsini cümlədən çıxarmaq və ya ona mənaca yaxın olmayan ara sözlə əvəz etmək mümkün deyildir. Əks halda cümlədə dəyişiklik, mənada anlaşılmazlıq əmələ gəlir. Məsələn:

Güləhmədlə Balının çəkişməsinin ən qızğın yerində Kərəməli işi elə düzəltdi ki, elə bil, odun üstünə su əndərdilər. (Mir Cəlal) Sonra o maşını buradan elə sürdü, elə sürdü ki, sanki bu saat bu yağışlı, çənli-çisəkli gündə onu tutub, bu yad qəbirstanlıqda diri-diri basdıracaqdılar. (Ə.Vəliyev)

Yuxarıda qeyd etdiyimiz cümlələrdə işarə olunan ara sözləri mürəkkəb cümlənin tərkibindən çıxarıldıqda məna dəyişəcək və bu cümləni işlətmək olmayacaq. Cümlənin strukturasında intonasiya və modallığında da nəzərə çarpacaq keyfiyyət dəyişikliyi baş verəcək.



Buradan bu nəticəyə gəlmək olar ki, bəzi tabeli mürəkkəb cümlənin içərisində ara sözün işlənməsi zəruri xarakterə malikdir. Ara söz və ara söz birləşməsi leksik mənası olmayan, cümlə ilə qrammatik əlaqəyə malik olmayan və cümlə içərisində lazımsız sözlər deyildilər. Ara söz və ara söz birləşməsinin mürəkkəb cümlənin tərkib hissəsində işlənə bilməsi aşağıdakı şərtlərdən aşlıdır.

Baş və budaq cümlənin bağlanma vasitəsinin tələb edilən xüsusiyyətlərindən.

Baş cümlədəki izah olunması sözün leksik - semantik mənasından.

Baş və budaq cümlə bir-biri ilə guya, guya ki, sözləri və ya mı, mi, mu, mü ədatı vasitəsi ilə bağlandıqda budaq cümlədə ara söz və ara söz birləşməsi bağlama funksiyasında işlənmir, ona görə ki, bu sözlərin özlərində modal çalarlığı yaratmaq imkanı vardır.

A.N.Kononov "guya, guya ki" sözlərini tabelilik bağlayıcılara aid etmiş və göstərmişdir ki, bu bağlayıcılar müqayisə mənasıda cümlələri bağlamaqla yanaşı yaratmağa xidmət edə bilirlər [6, s. 329].

---

7 Bakı Dövlət Universitetinin professoru

Z.Əlizadə "sanki, elə bil, elə bil ki, guya" sözlərin modal sözlərə daxil etmiş və bu haqqda yazırdı ki, bu sözlər müqayisə edilən, oxşadılan, təsəvvür olunan fikrin həqiqətə uyğun olmadığını bildirir və çümləyə müxtəlif məna çalarlığı verir. [3, s. 116] Yəni qeyri-reallığı əks etdirir.

M.Hüseynzadə bu sözləri müqayisə və bənzətmə bildirən bağlayıcılara daxil etmiş və göstərmişdir ki, bunlar ən çox tabeli mürəkkəb cümlənin tərkibindəki müqayisə budaq cümləsini baş cümləyə bağlamağa xidmət edir. [4, s. 325]

Ə.Z.Abdullayev «Müasir Azərbajcan dilində tabeli mürəkkəb cümlələr» adlı kitabında bu sözlərin mürəkkəb cymlənin hissələrinin bir-birinə bağlanmasında xidmət etdiyini və real olmayan hərəkəti və ya hadisəni bildirdiyini qeyd edir. [2, s. 136]

Ə.Abdullayev bu tipli vahidlərin model söz olduğunu qəbul etmiş və müqayisə məzmununun qabarıqlığını nəzərdən qaçırmamışdır.

Deməli, bu sözlər vasitəsi ilə cümlədə subyektiv modallıq əksini tapır. Belə cümləyə ikinci dəfə subyektiv modallıq bildirən sözün əlavə olunmasına ehtiyac qalmır və bu nitqdə tələb olunmur. Cümlənin obyekt modallığına istiqamət verir, yönləndilir.

Xan ona elə nəzərlə baxırdı ki, sanki uzaq, sirli ölkədən gətirilmiş naməlum yırtıcıya baxırdı. (C.Məmmədov); Elə ki, ləzzətli bişmişi buğlana-buğlana süfrəyə gətirirəm, adamlar şirin-şirin yeyirlər, elə bil dünyanı mənə bağışlayırlar. (B.Bayramov); Zavallının ürəyi elə atlanırdı ki, saiki bu saat partlayacaqdır. (S.S.Axundov); Gülüşü elə qaynayırdı ki, deyəsən, qarqara eləyirdi. (Mir Cəlal)

Bu sözlərin morfoloji təyinatında müxtəlifliyin olmasına baxmayaraq, bu sözlər əslində modal sözlərdir. Modal sözlərin bir nitq hissəsi kimi əsas sintaktik vəzifəsi ara söz olmaqdır. Bu tipli ara sözlərin cümlədə əlavə bir funksiyası baş və budaq cümlədə bağlama vasitəsi olmaqdır.

«Mı, mi, mu, mü» ədatı vasitəsilə bağlanan tabeli mürəkkəb cümlələrdə də ara söz işlənmir, və ya işlənməsinə az rast gəlinir. Baş cümləsi sual formasında olan tabeli mürəkkəb cümlənin bağlanmasında ara söz və ara söz birləşməsi iştirak etmir.

Yaxşı olmazmı, məktubu aparım ona göstərim (S.S.Axundov); Sən ona demədinmi ki, biz onu çox gözlədik. (C.Məmmədov); Sofiya Aleksandrovna, bu gecə sirk açılır, yaxşı olmazmı ki ,bu gecə Əşrəfi aparaq. (S.S.Axundov).

Bunu qeyd etmək lazımdır ki, ara sözlərin, söz birləşmələri komponentin içərisində işlənə bilər, ancaq bu işlənmə bağlama xarakterinə malik olmur. Komponent daxilində işlənmədə də bəzi məhdudiyyət özünü göstərə bilər.

Budaq cümləsi «kim, kim ki, hər kim, hər kəs, nə, hara» bağlayıcı sözləri vasitəsilə formalaşan və xəbəri şəkilçiləşmiş «sa, sə» ədatı vasitəsi ilə bağlanan tabeli mürəkkəb cümlənin baş cümləsində ara sözün bağlama vasitəsi kimi işlənməsi məhdud xarakterə malikdir. Ona görə ki, bu vasitəsilə qurulan tabeli mürəkəb cümlələrin leksik-semantik mənasında konkretlik vardır.

Kim istəyir ki, Xanlar iclasımızın sədri olsun əlini qaldırsın (Mir Cəlal); hər kim məni istəmir, gedə bilər (C.Dağlı); Kim ki; kolxozları birləşdirməyin əleyhi nədir, əl qaldırsın (Ə. Əylisli).

II. Baş cümlənin xəbərinin leksik - semantik mənasından asılı olaraq budaq cümlədə ara sözün işlənməsində iki vəziyyətlə qarşılaşırıq. Bu zaman bağlanma vasitəsi kimi bir başqa olmasa da, mənaya güclü təsir özünü göstərir.

Baş cümlənin xəbəri elə leksik mənalı sözlə ifadə olunur ki, özündən sonrakı aydınlaşdırıcı cümlədə – yəni budaq cümlədə ara söz və ara söz birləşməsi işlətmək mümkündür. Belə ki, baş cümlənin xəbəri cümlədə ara söz və ara söz birləşməsinin işlədilməsi üçün şərait yaradır.

a) Baş cümlənin xəbəri təfəkkür prosesi ilə əlaqədar fellərlə ifadə olunduqda. Məsələn, düşünmək, qərara gəlmək, fikirləşmək, zənn etmək, başa düşmək, güman etmək.

Düşünürdüm ki, doğrudan da, Zahidin şirin söhbətləri zahirən mülayim xasiyyəti mənim üçün ideal ola bilməz. (Mir Cəlal); O güman edirdi ki, gəlini, nəhayət, ömründə bir dəfə yumşaq xasiyyətindən əl çəkəcək. (M.Hüseyn); Gənc elə fikir etdi ki, deyəsən, qoca vədəsini unudub yuxuya daddı. (S.S.Axundov).

b) Emosional münasibət bildirən fellərlə ifadə olunduqda, sevinc, kədər, əsəbilik, şadlıq, təəccüb və s. bildirən fellərlə ifadə olunduqda. Şadlanmaq, kədərlənmək, təəccüblənmək, əsəbiləşmək, acıqlanmaq və s.

Leyla isə buna çox şadlanırdı ki, deyəsən, qardaşı ona Liya ilə gəzməyə mane olmurdu. (S.S.Axundov); Qorxurdum ki, bəlkə də, bu adam məni öz hərəkətlərinə alışdırır. (Mir Cəmal); Arzu elədim ki, nə olaydı, bizim də qapı açılaydı və oradan keçən Zərifə bizim ağ güllərimizə baxıb sevinəydi. (M.Cəlal) B. Baş cümlənin xəbəri elə leksik -semantik mənalı fellə ifadə olunur ki, asılı cümlədə – yəni budaq cümlədə ara söz və ara söz birləşməsini işlətmək ya mümkün olmur və ya ara söz və ara söz birləşməsinin işlənmə dairəsi daralır. Bu fellər konkret məna bildirir, onların ehtimal, güman mənalı ara sözlərlə işlənməsi məhdudlaşır.

a) Baş cümlənin xəbəri görmə və eşitmə prosesi ilə bağlı olan fellərlə ifadə olunur; görmək, eşitmək, baxmaq.

Gördüm ki, o gəlib. Eşitdim ki, səndən danışırlar. Kəndlilər qəbrə baxdıqda gördülər ki, Molla Qasım meyit qucaqlayaraq huşsuz uzanmışdır (Mir Cəlal).

Xəbəri belə mənalı fellərlə ifadə olunan baş cümlədən sonra ara sözün işlənməsinə demək olar ki, rast gəlinmir. Çünki cümlənin özünün leksik mənasında həqiqilik, konkretlik vardır. Lakin iddia etmək olmaz ki, bu fellərdən sonra gələn budaq cümlədə ara söz və ara söz birləşməsi qətiyyən işlənə bilməz. Əlbəttə. leksik mənasından asılı olaraq buda çümdədə ara söz və ara söz birləşməsi işlənə bilər. Bu həqiqilik, konkretlik mənası ara sözlərin işlənməsinə şərait yaradır.

«Mən gördüm ki, o gəldi» və «mən fikirləşdim ki, o gələcək» cümlələrini müqayisə etdikdə fikrimizi daha aydın başa düşmək olar. Birinci cümlədə «şahidlik» vardır. Bu yolla əhvalatın konkret olaraq baş verdiyinə şahidlik edir. İkinci cümlədə

ehtimallıq bildirən «deyəsən, bəlkə, yəqin» mənalı ara sözləri işlətmək mümkündür. Çünki ikinci cümlədə birincidəki kimi konkretlik yoxdur. Bu da fellərin leksik-semantik mənasından asılıdır.
Bildi ki, kitabı alacaqlar. (Mir Cəlal).
b) Baş cümlənin xəbəri «şübhəsiz, şəksiz, məlumdur, aydındır, şübhə ola bilməz, doğrudur, düzdür» kimi sözlərlə ifadə olunduqda budaq cümlədə ara söz və ara söz birləşməsinin işlənməsinə ehtiyac qalmır. Çünki bu ifadələr vasitəsilə cümlədə elə məna əmələ gəlir ki, söylənilən fikir hamıya məlumdur, inandırıcıdır və buna şübhə etmək olmur. Deməli, ara söz və ara söz birləşməsinin işlənməsinə ehtiyac qalmır.
Yoldaş direktor anlamalıdır ki, zavod fəhlələrindir. (Mir Cəlal); Aydındır ki, hər canlı üçün xüsusi ekoloji şərait lazımdır. («Ədəiyyat və inçəsənət qəzeti»); Yəqindir ki, müsavirədə hamının gözü məndə olacaqdır. (Ə.Vəliyev); Yoldaşlar, bizə aydın oldu ki, Əntərzadə bir klub işçisi deyil, xalisçə fırıldaqçıdır. (Mir Cəlal).
Tabeli mürəkəb cümlənin ayrı-ayrı növlərində ara söz və ara söz birləşməsinin iştirakı və ya zəruriliyi eyni deyildir. Yuxarıda qeyd etdiyimiz hallardan başqa elə tabeli mürəkkəb cümlələr vardır ki, onlarda ara sözün işlənməsi maraqlı xüsusiyyətlərin meydana çıxmasına səbəb olur. Tərzi-hərəkət budaq cümləsində ara sözün işlənməsi digər budaq cümlələrdən bir qədər fərqlidir.
Ə.Z.Abdullayev tərzi-hərəkət budaq cümləsini mənaca üç qrupa ayırır [2, s. 295].
1. Nəticə bildirənlər. 2. Məqsəd bildirəndər. 3. Müqayisə bildirənlər.
Məqsəd və müqayisə tipli tərzi-hərəkət budaq cümləsində ara söz və ara söz birləşməsinin işlənməsi maraqlı xüsusiyyət daşıyır. Məqsəd tipli tabeli mürəkkəb cümlədə ara söz və söz birləşmələri işlənmir. Bu tipli mürəkkəb cümlənin baş cümləsinin xəbəri çox zaman felin əmr formasında olan III şəxsin təki ilə ifadə olunur [2, s. 296]. Əmr cümləsi isə tabeli mürəkkəb cümlənin baş cumləsi olduqda budaq çümlədə ehtimal mənalı ara söz işlənə bilmir.
Bu haqda V.V.Amocova belə qeyd edir: «Baş cümləsinin xəbəri əmr şəkli ilə ifadə olunan tabeli mürəkkəb cümlələrdə ara söz və ara söz birləşmələri işlənə bilmir» [5, s. 45].
Baş cümləsinin xəbəri felin vicib forması ilə ifadə olunan cümlələrdə də ehtimal mənalı ara sözlər işlənmir: Elşad, sən Yaxşı fikir verməlisən ki ,yaxşı qayıq sürməyi öyrənəsən. (Ə.Hacıyev); Sən mənə söz verməlisən ki, mənim işlərimə qarışmayacaqsan; O, bu görüşdə qalib gəlməlidir ki, finala çıxa bilsin. («İdman» qəzeti, 1978).
Müqayisə tipində isə vəziyyət tamamilə əvvəlklərin əksinədir. Tərzi-hərəkət budaq cümləsinin bu tipində ara söz və ara söz birləşməsi olmadan cümləni qurmaq mümkün deyildir. Bu tipdə "elə bil, guya, sanki, elə bil ki, guya ki, deyəsən" ara söz və ara söz birləşmələri iştirak edir. Bu zaman baş cümlədə «elə, belə, necə» sözləri işlənir. Belə tabeli mürəkkəb cümlədə ara söz və ara söz birləşməsi cümləyə elə daxil olur və onun içərisində özünə elə yer edir ki, onları cümlədən çıxarmaq cümlədə boşluq, anlaşılmazlıq əmələ gətirir.
Siz nə qədər dərin bir duyğu ilə, necə ehtirasla oxuyursunuz, elə bil, özünüz yazıbsınız. (C.Məmmədov) - Qəzeti yoldaşlarımın əlindən aldım, sanki hərfləri gözümlə yeyəcəkdim. (M.Cəlal).
Birinci cümlədəki «elə bil», ikinci cümlədəki «sanki» sözünü cümlədən çıxardıqda belə vəziyyət alınır. Siz nə qələr dərin bir duyğu ilə necə ehtirasla oxuyursunuz, özünüz yazıbsınız. Qəzeti yoldaşlarımın əlindən aldım, hərfləri yeyəcəkdim.
Məlumdur ki, heç kim belə cümlə qurmaz və deməz. İkinci vəziyətdə cümlədəki məna pozğunluğu özunü daha aydın büruzə verir. Əgər ara söz və ara söz birləşməsi cümlə ilə, onun üzvləri ilə qrammatik və məna əlaqəsi ilə bağlı olmadığını qeyd edən dilçilərlə razılaşsaq, onda bu vəziyyəti nə ilə izah etmək olap. Əlbəttə, dil özünə lazım olmayan ifadələri kənara atır. Dil faktları ilə bunu göstərmək olar. Dillə heç nə, kiçicik bir şəkilçi də lazım olmadan yapanmır və yaşamır. Ara sözlər də lazım olmayan, dildə rahat yer tapan ünsürlər deyil. Onlar dildə lazımdır və cümləyə, onun üzvlərinə özünəməxsu qrammatik, həm də məna cəhətdən bağlıdırlar. Şərt budaq cümləsində də ara sözlərin işlənməsi bəzi spesifik xüsusiyyətlərə malikdir. Şərt budaq çümləsi baş cümləyə «madam ki» bağlayıcısı ilə bağlanarkən baş çümlədə "deməli, əlbəttə, yəqin, doğrudan, doğrudan da, bəlkə" və s. ara sözlər işlənir.
Madam ki, anbardə yeyinti olub, deməli, sədr də, anbardar da günahkardır. (Ə.Əylisli); Madam ki, sən məsləhət bilirsən, əlbəttə, mən də etiraz etmipəm.; Manam ki, anan da razıdır, deməli, sənin də razılaşmağın məsləhətdir.; Madam ki, bizim sözümüzə inanmırsınız, deməli, şahidləri çağırmalıyıq. (P.Makulu).
Şərt budaq cümləsinin də ara sözlərin işlənmə sxemini belə köstərmək olar.



Bu ara sözlər şərt budaq cümləsinin bu qrupunda olanlar üçün əsas təşkil edir. Qarşılaşdırma tipli budaq çümlənin yaranmasında da ara sözlər mühüm rol oynayır.
Ə.Z.Abdullayev tabeli mürəkkəb cümlənin qarşılaşdırma budaq cümləsinin bir tipində budaq cümlədə «düzdür, doğrudur» ara sözlərinin işlənmə dinamikasının çox olduğunu qeyd edir. [2]
Qarşılaşdırma budaq cümləsində ara söz əsil mənasında bağlayıcı kimi cümlənin əvvəlində işlənir. Baş və budaq cümlə sərhəddində ancaq, amma, lakin bağlayıcısından istifadə edilir.
Doğrudur, əvvəllər bağça müdirinin xırdaca davakar oğlu mənə göz verib işıq vermədi: gah xörəyimə torpaq tökdü, gah papağımı başımdan götürüb ayağının altına saldı, ancaq çox keçmədi onu da yola gətirdilər. (M.Cəlal); Düzdür, mən Əlimurad

dayının nə o portfeli açdığını görmüşdüm, nə o qırmızı qələmlə bir şey yazdığını görmüşdüm, ancaq orasını heç vaxt ağlıma gətirməmişdim ki, onun savadı olmaya bilər (İ.Əfəndiyev).
Qarşılaşdırma tipli tabeli mürəkkəb cümlənin başqa tiplərində leksik mənasından asılı olaraq ara söz və ara söz birləşmələri işlənə bilir. Lakin bu zaman onlar baş və budaq cümlənin bağlanmağı üçün vasitə olmurlar. Cümləyə məna çalarlığı yaratmaq və modal cəhətdən xidmət edirlər.
Nəticə. Ümumiyyətlə, ara söz və ara söz birləşmələrinin mürəkkəb cümlədə işlənməsi üçün aşağıdakılar xarakterikdir: 1. Ara söz və ara söz birləşmələri mürəkkəb cümlənin tərkib hissələrində, yəni baş və budaq cümlədə çox işlənir. 2. Hər tabeli mürəkkəb cümlənin növündən, ifadə etdiyi mənadan asılı olaraq tərkibində müəyyən ara söz və ara söz birləşməsi işlənə bilər. 3. Ara söz və ara söz birləşməsi mürəkkəb cümlənin tərkibində adi şəkildə, yəni tabeli mürəkkəb cümlənin bağlanması üçün heç bir zərurilik daşımadan işlənə bilər. 4. Ara söz və ara söz birləşməsi mürəkkəb cümlənin zəruri hissələrindən birinə çevrilə bilər.

ƏDƏBİYYAT

1) Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. IV h., Bakı: Şərq-Qərb, 2007
2) Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı: Maarif, 1974, s. 136
3) Əlizadə Z. Müasir Azərbaycan dilində madal sözlər. Bakı: Maarif, 1965, s. 116
4) Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1973, s. 325
5) Амосова В.В. Вводные модальные единицы в составе сложного подчиненного нредложения. Куйбышев, 1971, с. 45
6) Кононов А.Н. Грамматика современного узбекского языка. М.:1960, с. 329
7) Пещковский М.М. Русский синтаксис в раучном освещении. М., 1920, с. 104.

Açar sözlər: mürəkkəb cümlə, ara söz, sintaktik əlaqə, baş cümlə, budaq cümlə
Key words: complex sentence, intermediate word, syntactic connection, main sentence, branch sentence
Ключевые слова: сложное предложение, промежуточное слово, синтаксическая связь, заглавное предложение, ветвь предложения

Ara sözlərin mürəkkəb cümlə ilə işlənmə xüsusiyyətləri

Xülasə
Məqalədə mürəkkəb cümlələrdə ara sözlərin işlənmə xüsusiyyətləri və funksiyalarından danışılır. Qeyd olunur ki, ara sözlər cümlə daxilində işlənərək müəyyən semantik mənanın yaranmasına və ya gücləndirilməsinə xidmət edir. Bu sözlər mürəkkəb cümlənin komponentlərinin daxilində işlənir və eyni zamanda komponentlərin bağlanmasına, əlaqəsinə nail ola bilir. Həmçinin tabesiz mürəkkəb cümlənin komponentlərində işlənərkən ara söz və ara söz birləşmələrinin xüsusiyyətləri sadə cümlədə işlənməsindən kəskin fərqləndiyi nümunələrlə əsaslandırılır. Yəni komponentlərdə işlənən ara sözlər obyektiv modallığa subyektiv münasibət bildirərək cümlənin ümumi modallığına xidmət edir.
Məqalədə tabeli mürəkkəb cümlələrdə işlənən ara sözlərin xüsusiyyətlərindən də geniş bəhs edilir və ara sözlərin budaq cümlələrdə işlənmə sxemi verilir. Göstərilir ki, təqdim olunan nümunələrdə işarə olunan ara sözlər mürəkkəb cümlənin tərkibindən çıxarıldıqda məna dəyişər və o cümləni işlətmək mümkün olmaz. Yəni cümlənin strukturasında, intonasiya və modallığında da nəzərə çarpacaq keyfiyyət dəyişikliyi baş verər.

Features of processing intermediate words with a complex sentence

Summary
The article discusses the features and functions of the development of intermediate words in complex sentences. It is noted that intermediate words are developed within a sentence and serve to create or strengthen a certain semantic meaning. These words are used within the components of a complex sentence and at the same time can achieve the connection of the components. Also, when used in the components of a subordinate complex sentence, the features of the intermediate and intermediate combinations are based on examples that differ sharply from the processing in a simple sentence. That is, the interjections used in the components serve the general modality of the sentence, expressing a subjective attitude to the objective modality.
The article also discusses the features of intermediate words used in subordinate compound sentences and gives a scheme of developing intermediate words in branch sentences. It is shown that in the examples presented, the meaning changes when the interjections indicated are removed from the complex sentence, and it is impossible to use that sentence. That is, there will be a significant qualitative change in the structure, intonation and modality of the sentence.

Особенности обработки промежуточных слов в сложном предложении

Резюме
В статье рассматриваются особенности и функции развития промежуточных слов в сложных предложениях. Отмечается, что промежуточные слова развиваются внутри предложения и служат для создания или усиления определенного семантического значения. Эти слова используются внутри компонентов сложного предложения и в то же время могут обеспечить соединение компонентов. Кроме того, при использовании в компонентах придаточного сложного предложения особенности промежуточных и промежуточных сочетаний основаны на примерах, которые резко отличаются от обработки в простом предложении. То есть междометия, используемые в

компонентах, служат общей модальности предложения, выражая субъективное отношение к объективной модальности.
В статье также рассматриваются особенности промежуточных слов, используемых в придаточных сложных предложениях, и дается схема развития промежуточных слов в ответвительных предложениях. Показано, что в представленных примерах значение меняется, когда указанные междометия удаляются из сложного предложения, и использовать это предложение невозможно. То есть произойдет значительное качественное изменение структуры, интонации и модальности предложения.

RƏYÇİ: dos. S.Abbasova

Gülnarə Şaməddin qızı Nəsibova8

TÜRK DİLLƏRİNDƏ SİFƏTİN MÜQAYİSƏ DƏRƏCƏSİ

Sifətin müqayisə dərəcələrindən dilçilikdə bir qrammatik kateqoriya kimi bəhs olunduğu hamıya məlumdur.

Başqa dillərdə, məsələn, rus dilində sifətin müqayisə dərəcələrinin xüsusi morfoloji əlamətləri vardır. Bu əlamətlərin yardımı ilə sifət həm müqayisə, həm də üstünlük dərəcələri üzrə dərəcələnir; məsələn, umnıy-umnee, umneyşiy; krasivıy-krasivee, krasiveyşiy; stroqiy-stroje, strojayşiy və s.

Lakin müasir rus ədəbi dilində sifətin müqayisə və üstünlük dərəcələri sintaktik (analitik) yolla da düzəldilir və bu qaydanın müasir dildə daha məhsuldar olmasına baxmayaraq, rus dilində sifətin müqayisə dərəcələri morfoloji əlamətlərinə görə bir sistem şəkli alaraq, morfoloji kateqoriyanın tələblərinə də uyğun gəlir. Bunun da nəticəsində rus dilində sifətin müqayisə dərəcələri sistemi morfoloji bir kateqoriya kimi də qəbul edilmişdir.

Müsir türk ədəbi dilində də sifətlər əlamət və ya keyfiyyətin çox və ya azlığını bildirmək üzrə dərəcələnir. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

I forma	II forma	III forma
Böyük	büyürek/ böyükçe	böyücek
Küşük	küçürek/ küçükçe	küçükcek/ küçücük
Körpe	körpece	körpecik
Yumuşak	yumuşakça	yumuşacık
Ufak	ufarak/ufakça	ufacık
Kolay	kolayca	kolaycacık
Geniş	genişçe	genişçecik
İnce	incerek	incecik
Güzel	güzelce	güzelcik

Həmin sifətlərin cədvəl üzrə göstərilən II forması I formaya, yəni adi dərəcəyə nisbətən əlamət və ya keyfiyyətin artıqlığını, III formanın isə II formaya nisbətən daha da çox olduğunu göstərir. Türk dilində sifətin dərəcələnmə forması həmin sifətlərlə qurtarmır və onların sayını artırmaq mümkündür. Müasir türk dilinə aid bədii əsərlərə nəzər saldıqda məlum olur ki, sifət dərəcələrinin düzəldilmə formaları, qaydaları öz müxtəlifliyi etibarilə başqa türk dillərindən əhəmiyyətli dərəcədə fərqlənir.

Buraya kimi dediklərimizdən aydın olur ki, müasir türk ədəbi dilində keyfiyyət və ya əlamətin çox və ya azaldığını göstərmək üzrə sifət öz-özlüyündə dərəcələnmə qabiliyyətinə malikdir və bütün bu proses morfoloji kateqoriyanın tələbinə uyğun olaraq şəkli əlamətlərlə dəyişilir.

Lakin sifətin müqayisə dərəcələrinin düzəldilməsi xüsusiyyəti bununla qutarmır. Ümumi dilçilikdə qəbul olunmuş qaydaya əsasən, sifətin müqayisə dərəcələrinin özünə xas spesifik xüsusiyyətləri vardır ki, biz bu xüsusiyyətlərin nədən ibarət olduğunu aşağıda izah etməyə çalışacağıq.

Sifət, ümumiyyətlə, əşyalara xas olan və ya onlara isnad edilən əlamət, keyfiyyət və ya hər hansı başqa bir xüsusiyyəti səciyyələndirən nitq hissəsidir. Sifətin həyatiliyi, mövcudluğu onun əşyalarla daima sıx əlaqədə olmasındadır. Əşyalarla yanaşı, sifət müxtəlif təbiət hadisələrini də xarakterizə edir. Buna görə də əşya və ya hadisələrin müxtəlif dərəcədə əlamət və ya keyfiyyətə malik olduqlarını onların bir-biri ilə tutuşdurulması, müqayisəsi yolu ilə müəyyən etmək mümkündür. Beləliklə də sifətin müqayisə dərəcələrindən danışmaq əşyaların bir-birinə olan əlaqəsindən danışmaq deməkdir.

Əşyalar arasında müqayisə olmadıqda onlar arasındakı münasibət, əlaqə də ötrtülü qalır. Başqa sözlə desək, əşyaların keyfiyyət və ya əlamətcə birinin başqasından az və ya çox dərəcədə fərqli olması müəyyənləşdirilmir. Çünki müqayisənin özü də əşyaların əlaqəsindən, bir-biri ilə tutuşdurulmasından ibarətdir.

Ümumiyyətlə, əşya və hadisələrin eyni keyfiyyət və ya əlamətcə müqayisəsi nədən ibarətdir? Bu, həmin məsələnin həllində böyük əhəmiyyət kəsb edir.

Yuxarıda göstərildiyi kimi, müqayisə əşyaların bir-birinə olan münasibətindən, əlaqəsindən doğur. Buna görə də sifətin müqayisə dərəcələrinin spesifik xüsusiyyəti, birinci növbədə, eyni əlamət və ya keyiyyətli əşyaların bir-birinə olan münasibətindən, əlaqəsindən ibarətdir. Bu barədə danışarkən akad.V.Vinoqradov yazır: «kaçestvo otıskivaetsə v otnoşenii predmeta k predmetu. Otnoşenie k predmetu lojitsə v osnovu kaçestvennoy xarakteristiki» [3, 56].

Məlumdur ki, əşyalara məxsus olan əlamətlər öz-özlüyündə ayrıca bir əşya deyildir. Təbiətdə varlıqlar meydana gəldikdən sonra onları bir-birindən fərqləndirmək üçün əlamətlər də meydana gəlmişdir. Məsələn, təbiətdə insanların hamısı eyni xüsusiyyətlərə malik deyildir. Bunlardan biri uzun, digəri qısa boylu, biri istedadlı, başqa birisi istedadsız olur və s.

Buna görə də əlamət və ya keyfiyyət əşya və hadisələrin təbiətini xarakterizə edən, bir əşya və hadisəni başqalarından fərqləndirən qrammatik bir kateqoriya olduğundan, onu əşyalardan ayıraraq mücərrəd bir məfhum kimi götürmək olmaz. Eləcə də təbiətdəki vrlıqlar öz-özlüyündə müəyyən əlamətlərə malik olub, bu əlamətlərlə səciyyələndirildiyindən onları da əlamətlərdən ayırmaq mümkün deyildir. Deməli, əşyasız əlamət, əlamətsiz də əşya yoxdur və bunları bir-birindən ayırmaq olmaz. Buradan belə nəticə çıxır ki, müqayisə yalnız tərəflərin bir-biri ilə əlaqəsində deyil, həmçinin müqayisə edilən tərəflərin məlum keyfiyyət və ya əlamətləri arasında da olur.

---

8 Gəncə Dövlət Universitetinin dissertantı gulnarnsibova6@gmail.com

Əşyaların, ümumiyyətlə, keyfiyyət və ya əlamətcə fərqlənməsindən danışdıqda qeyd etmək lazım gəlir ki, əşyalar, adətən, ya müxtəlif əlamətlərinə görə, ya da eyni cinsdən olan əlamətlərin müxtəlif kəmiyyətinə görə fərqlənir. Məsələn, müxtəlif rəngdə iki karandaş götürək. Əgər həmin karandaşlardan biri yaşıl, digəri qırmızıdırsa, onları əlamətcə fərqləndirmək də çətin deyildir. Deməli, əşyaların hər ikisi müxtəlif rəngdə (yaşıl və qırmızı) olduğundan bu əlamətləri müqayisəyə də ehtiyac yoxdur.

Əgər hər iki karandaş bir əlamətə eyni dərəcədə malik olarsa, bu o deməkdir ki, onlar arasında əlamət fərqləri də yoxdur. Karandaşlardan biri o birindən çox və ya az dərəcədə qırmızı olduqda isə onlarda olan eyni əlamətin kəmiyyətcə fərqi də meydana çıxır. Əşyaların eyni keyfiyyət və ya əlamətlərindəki kəmiyyət fərqləri də öz-özlüyündə bilinmir. Bu fərqlər yalnız müqayisə nəticəsində aydınlaşır.

Beləliklə, tutuşdurulan əşyaların məlum əlamətlərindəki kəmiyyət fərqlərini müqayisə yolu ilə sifətin dərəcəsi də müəyyən edilir. Məsələn, qırmızı rəngdə olan karandaşların birinin daha qırmızı, çox qırmızı və s. dərəcədə olması aşkar olunur. Deməli, sifətin müqayisə dərəcələrinin spesifikasını müəyyən etdikdə bunu da unutmaq olmaz ki, ümumiyyətlə, sadəcə olaraq keyfiyyət və ya əlamətlər deyil, iki və ya daha çox əşyanın məlum keyfiyyət və ya əlamətinin kəmiyyətləri müqayisə olunur.

Beləliklə, bir və ya bir neçə əşyanın əlamət və ya keyfiyyəti kəmiyyətinin başqa bir və ya bir neçə əşyanın məlum əlamət və ya keyfiyyətinin kəmiyyətinə olan nisbətinə müqayisə dərəcəsi deyilir.

Sifətin müqayisə dərəcələri kateqoriyası ümumi dilçilikdə yalnız bu cür anlaşılır. Həmin qaydaya uyğun olaraq, müasir türk və başqa türk ədəbi dillərində morfoloji yolla sifətin müqayisə dərəcəsi yalnız -rak, -rek şəkilçiləri vasitəsilə düzəldilir, üstünlük dərəcəsinin isə heç bir morfoloji əlaməti yoxdur.

Sifətin cədvəldə göstərdiyimiz dərəcələnmə formaları ilə müasir türk ədəbi dilində eyni əlamət və ya keyfiyyətdən olan iki və ya daha çox əşyanın müqayisəsini bildirmək mümkün deyil. Sifətin həmin dərəcələnmə formaları ilə hər hansı müəyyən bir əşya, şəxs və ya hadisənin başqa əşya ilə bilavasitə müqayisəsi olmadan özünün malik olduğu dərəcəsi bildirilir. Bu cəhətdən də demək olar ki, rus dilinə nisbətən türk dillərində daha çox morfoloji əlamətlər inkişaf etmişdir. Eyni əlamət üzrə iki və daha çox əşyanın bilavasitə müqayisəsini ifadə etmək deyil, yalnız müəyyən bir əşyanın malik olduğu əlaməti bildirdiklərindən -ca, -cek, -cık və onların başqa fonetik varantlarını müasir türk ədəbi dilində sifətin müqayisə dərəcələrinin düzəldilməsi üçün morfoloji bir əlamət hesab etmək olmaz.

Müasir türk ədəbi dillərində sifətlərin müqayisə dərəcələrinin düzəldilməsi əsasən sintaktik yolla olur ki, bu da türk dillərinin öz quruluşu və spesifikasından irəli gəlir.

Qeyd etmək lazımdır ki, başqa türk dillərindən fərqli olaraq, müasir türk ədəbi dilində sifətin müqayisə dərəcələrinin sintaktik yolla ifadə forması sifətin artıqlıq, çoxaltma mənası bildirən düzəldilmə formaları ilə müəyyən əlaqədə olur və bununla da əlamət və ya keyfiyyət kəmiyyətcə daha da artırılır. Bu forma müasir türk ədəbi dilində geniş şəkildə istifadə edilir. Məsələn: Bu istiğna ifadesi, biraz dolğun ve alttaki daha irice olan dudaklarında tamamen açık bir hal alıyordu; - Çocukluğumda kurduğum hayallere benziyen, fakat onlara nazaran daha delice,… Şeyler tavassur ediyordum (S.Ali. Kürk Mantolu Madonna) - O tümsek berikinden az daha yüksekçe (Y.Kemal. İnce Memed)- … oralarda otel ve ahır vaziyesini gören hanlar vardır: kasabanın öbür evlerinden daha büyücek, hatta iki katlı bir bina… (V.Sıtkı. Memleket Hikayeleri) və s.

Türk dilind sifətin müqayisə dərəcələrinin düzəldilməsində sintaktik və morfoloji formaların əlaqəsi onlara bir növ sintaktik-morfoloji kateqoriya şəkli verir.

Azərbaycan dilində sifətin adi dərəcəsini xarakterizə edərkən prof. M.Hüseynzadə göstərir ki, «Adi dərəcə… həm məzmun, həm də şəkilcə başqa dərəcələrdən onunla fərqlənir ki, bu, bütün dərəcələr üçün meyar hesab olunur» [1, 134].

Akademik V.V.Vinoqradov isə bu barədə belə deyir: «Sifətin müqayisə dərəcələri haqqında müasir qrammatik nəzəriyyədə, hər şeydən əvvəl, terminologiyanın özü, xüsusən adi dərəcənin adlandırılması tam mənasında dərk edilməmişdir» [3, 38].

Elə bu nöqteyi-nəzərdən də müasir türk dillərində sifət dərəcələrinin təsnifatında adi dərəcə barəsində dilçilər arasında müəyyən fikir ayrılığı vardır. Belə ki, dilçi-türkoloqlardan bəziləri sifət dərəcələrinin təsnifində adi dərəcəni birinci olaraq göstərirlər; bəziləri isə onu sifət dərəcəsi kimi deyil, bir çıxış nöqtəsi kimi izah edir və bu səbəbdən də adi dərəcəni sifətin müqayisə dərəcələri səpkisinə daxil etmirlər.

Müasir türk, həmçinin türk sistemli başqa dillərdə sifətin müqayisə dərəcələrinin həllində mübahisəli məsələlərdən biri də azaltma, çoxaltma və şiddətləndirmə dərəcələridir. Çünki bəzi dilçilər həmin mənaları bildirən sifətləri əşyaların eyni əlamət və ya keyfiyyəti üzrə müqayisəsi ilə qarışdırırlar.

Yuxarıda qeyd etdik ki, sifət dərəcələrinin meyarı sifətlərin adi dərəcəsidir. Buna görə də əgər hər hansı bir əşyanın keyfiyyət və ya əlaməti adi dərəcədən az olarsa, o zaman azaltma dərəcəsi yaradır. Məsələn, qırmızımtıraq tam mənada qırmızı deyil, qırmızı rəngə oxşar, bir az qırmızı deməkdir. Həmçinin də sarımtıraq dedikdə tam mənasıda sarı deyil, həmin əşyada sarılıq əlamətinin bir oz olması anlaşılır.

Bunlarla yanaşı, sifətlərin digər bir farması da var ki, onlar əksinə, əlamət və ya keyfiyyətin adi dərəcədən artıq olduğunu bildirir. Belə ki, müasir türk dilində güzelce, iyice, büyükçe, bolca; büyücek, küçücük, daracık və başqa səpkidən olan sifətlərlə əlamət və ya keyfiyyətin təyinlik dərəcəsi artırılır, çoxalır.

Q.İ.Ramsted Altay dillərində təkrarın müxtəlif formalarından danışarkən haqlı olaraq göstərir ki, sifətin tam və yarımçıq tərkrarı vasitəsilə onun qüvvətləndirmə dərəcəsi yaradılır. O yazır ki, monqol və türk dillərində təkrarlanma… hər hansı bir xüsusiyyətin qüvvətləndirilməsini bildirir… Məsələn, türk dillərində qar qara, qur quzul, köm kök və s.»

Prof. N.A.Baskakov [2, s. 211- 212] göstərir ki, müasir qaraqalpaq dilində -rakc, -rek şəkilçilərinin yardımı ilə sifətin yalnız qüvvətləndirmə dərəcəsi düzəldilir. Buna görə də müəllif həmin şəkilçilərlə düzələn sifətləri qaraqalpaq dilində sifətin müqayisə dərəcəsində deyil, ayrıca «qüvvətləndirmə dərəcəsi» adı altında izah edir. Məsələn, djakğ sırakğ (daha yaxşı), djamanırakğ (daha pis) və s..Türk dillərində olduğu kimi, sifətin təkrarlama formaları başqa xalqların dillərində də çox geniş şəkildə işlədilməklə həmin dillərin qrammatik quruluşunda özünə möhkəm yer tutmuşdur. Sifətin tam və yarımçıq təkrarı başqa xalqların da dillərində əşya və ya əlamətin çoxluğunu, artıqlığını, həddindən artıq olduğunu, intensivliyini bildirir.
Beləliklə, başqa dillərdə olduğu kimi müasir türk dillərində də sifətin tam və yarımçıq təkrarı ilə əşyaların müqayisəsiz şəkildə keyfiyyət və ya əlamətcə yüksək dərəcəyə malik olduqları ifadə olunur.

ƏDƏBİYYAT SİYAHISI

Hüseynzadə M. Müasir Azərbaycan dili. .B., 2007, s. 134.
Baskakov N.A.. Karakalpakskiy əzık. M., 1952, s. 211-212
Vinoqradov V.V. Russkiy əzık. Qrammatiçeskoe uçenie o slove. M-L., 1997

Açar sözlər: türk dilləri, sifət, müqayisə dərəcələri, təhlil
Keywords: Turkish languages, adjectives, comparison degrees, analysis
Ключевые слова: турецкие языки, прилагательные, степени сравнения, анализ.

Türk dillərində sifətin müqayisə dərəcəsi

Xülasə
Sifətin müqayisə dərəcələrindən dilçilikdə bir qrammatik kateqoriya kimi bəhs olunduğu hamıya məlumdur.
Sifət, ümumiyyətlə, əşyalara xas olan və ya onlara isnad edilən əlamət, keyfiyyət və ya hər hansı başqa bir xüsusiyyəti səciyyələndirən nitq hissəsidir. Sifətin həyatiliyi, mövcudluğu onun əşyalarla daima sıx əlaqədə olmasındadır. Əşyalarla yanaşı, sifət müxtəlif təbiət hadisələrini də xarakterizə edir. Buna görə də əşya və ya hadisələrin müxtəlif dərəcədə əlamət və ya keyfiyyətə malik olduqlarını onların bir-biri ilə tutuşdurulması, müqayisəsi yolu ilə müəyyən etmək mümkündür. Beləliklə də sifətin müqayisə dərəcələrindən danışmaq əşyaların bir-birinə olan əlaqəsindən danışmaq deməkdir. Müasir türk ədəbi dillərində sifətlərin müqayisə dərəcələrinin düzəldilməsi əsasən sintaktik yolla olur ki, bu da türk dillərinin öz quruluşu və spesifikasından irəli gəlir.
Türk dillərində olduğu kimi, sifətin təkrarlama formaları başqa xalqların dillərində də çox geniş şəkildə işlədilməklə həmin dillərin qrammatik quruluşunda özünə möhkəm yer tutmuşdur. Sifətin tam və yarımçıq təkrarı başqa xalqların da dillərində əşya və ya əlamətin çoxluğunu, artıqlığını, həddindən artıq olduğunu, intensivliyini bildirir.

Degree of comparıson of adjectıves ın turkısh languages

Summary
It is well known that degrees of comparison of adjectives are used in linguistics as a grammatical category.
Adjectives are words that describe the qualities or states of being of nouns. The vitality of the adjective lies in the fact that it is always in close contact with objects. In addition to objects, the adjective also characterizes various natural phenomena. Therefore, it is possible to determine whether objects or events have different signs or qualities by comparing them with each other. Thus, to speak of the degrees of comparison of the adjective is to speak of the relation of things to each other. The comparison of degrees of adjectives in modern Turkic literary languages is mainly syntactic, which is due to the structure and specificity of the Turkic languages.
As in the Turkic languages, the forms of repetition of the adjective are widely used in the languages of other peoples and have a strong place in the grammatical structure of those languages. The complete and incomplete repetition of an adjective in the languages of other peoples also signifies the abundance, excess, and intensity of an object or quality.

Степень сравнения прилагательных в турецких языках

Резюме
Общеизвестно, что степени сравнения прилагательных используются в языкознании как грамматическая категория.
Имя прилагательное в русском языке — это самостоятельная часть речи, которая обозначает признак, качество, свойство предмета или принадлежность признака. Жизнеспособность прилагательного заключается в том, что оно всегда находится в тесном контакте с предметами. Помимо предметов, прилагательное характеризует также различные явления природы. Следовательно, можно определить, имеют ли объекты или события разные признаки или качества, сравнивая их друг с другом. Таким образом, говорить о степенях сравнения прилагательных — значит говорить об отношении вещей друг к другу. Сравнение степеней прилагательных в современных тюркских литературных языках носит преимущественно синтаксический характер, что обусловлено структурой и спецификой тюркских языков.
Как и в тюркских языках, формы повторения прилагательного широко используются в языках других народов и занимают прочное место в грамматическом строе этих языков. Полное и неполное повторение прилагательного в языках других народов также означает обилие, избыток и интенсивность предмета или качества.

RƏYÇİ: dos. E.Vəliyeva

Arzu Səlimova[9]

9 ADU

MÜXTƏLİF SİSTEMLİ DİLLƏRDƏ FEİLİN ƏMR ŞƏKLİNİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Feilin əsas qrammatik kateqoriyalarından biri şəkil kateqoriyasıdır. Bu kateqoriya modallıqların dilimizdə bir sistem şəklində ifadə olunmasına xidmət edir. Şəkil kateqoriyası hər hansı bir hərəkətin, hadisənin həqiqiliyinə, gerçəkliyinə münasibət bildirir. Qeyd etmək lazımdır ki, şəkil kateqoriyası feilin yalnız şəxsliformasını əhatə edir.

Q.Kazımov "Müasir Azərbaycan dili dərsliyində" yazır: "Subyektin gerçəkliyə münasibətini bildirmək üçün feillərin düşdüyü şəkillərə feilin şəkilləri deyilir. Feillərin şəkillər üzrə dəyişməsi onların zaman, şəkil və şəxs şəkilləri qəbul edərək dəyişməsi nəticəsində feil şəkilləri yaranır" (3, s.217).

Bəzi türkoloqlar şəkil kateqoriyası vasitəsilə danışanın hərəkətin həqiqiliyə, gerçəkliyə münasibətini subyektiv kateqoriya hesab edir. Bu dilçi alimlər gerçəkliyə münasibəti subyektin nöqteyi-nəzəri ilə müəyyənləşdirilər. Bu kateqoriyanın gələcək zamanla yaxınlığı dilimizdə müxtəlif, bir-birinə əks olan fikirlərin yaranmasına səbəb olmuşdur. Azərbaycan dilçiliyində şəkil kateqoriyasının həm tarixi inkişafı, həm də indiki vəziyyəti nisbətən tədqiq olunub, lakin onu da qeyd etmək yerinə düşər ki, bu məsələnin mahiyyəti barədə irəli sürülən müxtəlif mübahisə doğuran məsələlər, bəzi cəhətlər hələ də öz hüquqi əksini tapmamış, hələ də mübahisəli məsələ kimi qalmaqdadır. Feilin şəkil kateqoriyalarının çoxluq təşkil edən, əksəriyyət tərəfindən qəbul edilən bölgüsünə gəldikdə bu bölgü belədir: xəbər şəkli, əmr şəkli, vacib şəkli, şərt şəkli, lazım şəkli.

Bu şəkillərdən ən əsası və başqa şəkillərdən həm məna zənginliyinə, həm də qrammatik formasına görə feilin başqa şəkil formalarından köklü şəkildə ayrılır. Bir əmr şəkli deyəndə təkcə feilin əmr forması deyil, eyni zamanda xahiş, nəsihət, çağırış, məsləhət, yalvarış, istək və başqa mənalar da nəzərdə tutulur. Bu məna müxtəlifliyi xüsusi intonasiyasında rolu danılmazdır.

Qeyd etmək lazımdır ki, əmr şəklinin ayrıca, xüsusi morfoloji əlaməti yoxdur. Feilin əmr şəklinin qrammatik quruluşu belədir: feil kökü + şəxs sonluğu + əmr intonasiyası.

Azərbaycan dilçiliyində əmr şəxsini işlənməsi haqqında müxtəlif fikirlər və mülahizələr vardır. Bəzi dilçilər əmr şəklinin I şəxcsini xüsusilə (I şəxs təki) inkar edirlər. Digər qrup dilçi alimlər əmr şəklinin hər üç şəxsdə işlənməsi fikrini irəli sürürlər. Əmr şəklinin I şəxs üçün işlənməsini inkar edən alimlər sübut etməyə çalışırlar ki, insan heç vaxt öz-özünə əmr edə bilməz.

H.Ağazadə irəli sürdüyü fikirlərdə sübut etməyə çalışır ki, əmr şəklinin birinci şəxsi kimi qəbul edilmiş, -ım/-üm şəkilçisi, əmr şəklinin müxtəlif formalarını ifadə edir. Məsələn,

Siz oxuyun, mən gəlim, su gətirim.

Sabah məni qəbul edin.

Müasir ingilis dilində də feilin əmr şəkli işlənir. Feilin əmr şəkli məsdərdən to hissəciyini atmaqla düzəldilir. Məsələn,

Send the letter.

Turn off the light.

Əmr şəklinin inkar forması köməkçi feil to do və inkar ədatı not inkar ədatı vasitəsilə düzəlir. Məsələn,

Don't send the letter.

Don't off the light.

Don't interrupt my words.

Qeyd etmək lazımdır ki, feilin əmr şəklinin emfatik forması da var. Yəni mənanı qüvvətləndirmək üçün işlədilən forma. Bu halda to do köməkçi feili işlədilir və bu köməkçi feil cümlənin əvvəlində durur. Məsələn,

Do send the letter.

Do turn off the light.

Do have dinner?

İngilis dilində də əmr şəkli hər hansı hərəkətin, işin icra edilib edilməməsi haqqında danışanın niyyət, əmr, təklif məsləhətini bildirmək üçün işlədilir. Məsələn,

Take to open the door.

Try to open the door.

Throw it under the bed.

Leave the room at once.

Bildiyimiz kimi feilin əmr şəkli ikinci şəxsə aid olur. Lakin nəzərdə tutulan işin yerinə yetirilməsi, yəni işin icrası bəzi hallarda birinci və yaxud üçüncü şəxsə aid edilir. Belə olduqda feilin əmr şəkli xüsusi forma daşıyır. Bu xüsusi formanın tərkibi to let feili + obyekt halında şəxs əvəzliyi və yaxud ümumi halda isim + məsdər (to ədatsız) olur. Məsələn,

Let him speak.

Let me sing a song.

Let the students answer the questions.

Let us prepare our lesson.

Let me go out.

Let them go away.

O.Musayev (4, s.214) "İngilis dilinin qrammatikası" dərsliyində yazır: Müasir ingilis dilində feilin əmr şəklinin emfatik forması vardır. Bu forma to do köməkçi feili vasitəsilə düzəldilir: köməkçi feil cümlənin lap başlanğıcında işlədilir. Məsələn,

Do leave the room.
Do come and to see me.
İngilis dilində əmr şəklinin müxtəlif işlənmə variantları var. Məsələn,
Ring up again.
Don't you be angry, my oldest friend.
Feilin əmr şəklinin modal feillərlə işlənməsi daha maraqlıdır. Məsələn,
You're to write this.
You're are not to write any.
Xahiş cümlələrində feilin əmr şəklinin işlənməsinə nəzər salsaq burada will feilinin xahiş bildirdiyini görə bilərik.
Will you come a bit earlier?
Biz bunun timsalında will you mind, would you mind ifadələrini də işlətsək yenə xahiş cümləsinin mənasını almış olacağıq.
Daha nəzakətli xahiş işləndikdə baş cümlədə wish feili işlənir və xahişin daha da yumşaldırılması nəzərə çarpdırılır. Məsələn,
I wish you'd be brave (Please be brave).
Feilin əmr şəkli təklif, dəvət də bildirə bilər. Bu halda əsasən shall we sualı işlənir. Məsələn,
Let us read the text, shall we?
Əmr, xahiş, təkid, məsləhət adətən ikinci şəxsə aid olur və ingilis dilində əmk şəklinin ifadə etdiyi məna dilimizdə feilin əmr şəkli vasitəsilə tərcümə edilir.
Don't write quickly.
Listen silently.
Müasir Azərbaycan dilində də feilin əmr şəklinin müxtəlif məna çalarları var: çağırış, təklif, xahiş, icazə, yalvarış, təhrik, məcburiyyət, nəsihət, məsləhət, qəzəb, məqsəd, arzu və s.
Əmr şəkli birinci şəxsdə tam əmr mənası ifadə etməyib, ancaq məsləhət, təklif, xahiş, icazə, məcburiyyət mənalarını ifadə edir. Məsələn,
Bağışla, ana can, icazə ver son dəfə sənin alnından öpüm.
Yaxşısı budur, sən burada qal, mən qaçım çay gətirim.
Azərbaycan dilində feilin təhrik, məcburiyyət mənası II şəxs təkdə daha çox nəzərə çatpır.
Atları yəhərləyin! – deyə əmr etdi.
Nəsihət, məsləhət mənasına nəzər saldıqda feilin əmr formasının nə qədər çalarları olduğunu görürük.
Qızım, ata evini tərk edirsən, get xoşbəxt ol.
Nifrət, qəzəb mənası:
İtil gözümdən.
Rədd ol burdan. Gözümə görünmə.
Məqsəd mənası:
Getdi görsün ki, orada na baş verib.
Arzu mənası:
İşdir, şayət şəhərə getsən bu məktubu ona çatdır.
Onu da qeyd etmək lazımdır ki, əmr şəklinin məna çalarları bəzən xüsusi modal sözlər, ədatlar, əlavə morfoloji əlamətlərlə müşayət olunur və bu müdaxilə əmr şəklinin müvafiq mənalarının qüvvətlənməsinə, zəifləməsinə xidmət edir. Əgər cümlədə əmr şəklinin mənasına təsir edən leksik vasitələr feildən əvvəl işlənərsə, həmin vasitə müvafiq mənanın yumşaldılmasına xidmət edir. Əmr şəklinin mənasına təsir edən leksik vasitələr feildən sonra işlənərsə təkid mənasının qüvvətlənməsinə səbəb olur.
Əmr şəklinin mənasını yumşaldan və qüvvətləndirən vasitələr bunlardır: di ədatı, qoy/qoyun, qoysana ədatı, gəl/gəlin, təki, bir/bircə ədatları feilin əmr şəklinin yumşalmasına xidmət edən vasitələrdir. Məsələn,
Qoy mən gedim ora.
Di de görək nə deyirsən.
Gəlin açıq danışaq.
Təki torpaqlarımızın azad olunması uğrunda şəhid olaq.
Bircə mənə qulaq assan nə yaxşı olar.
Feildən sonra işlənən vasitələr isə bunlardır: ha, barı, da/də, sana/sənə, sanız/səniz ədatları. Bunlar əmr şəklinin mənalarının qüvvətləndirilməsinə xidmət edir. Məsələn,
Məni yaddan çıxarmayın ha.
Barı qonaq gələndə xəbər elə.
Ürəyini aç, biz də bilək.
Bir məsələni danışsana.
Əmr şəklinin əlavə mənaları da var. Bu əlavələr onun əsas qrammatik mənaları ilə eynilik yəni sinonimlik təşkil edir. Müasir Azərbaycan dilində əmr şəkli şərt mənasında daha çox işlənir.
Əmr şəklinin əlavə mənaları gərək, istəyirsənsə, lazımsa və yaxud da feilin arzu şəkli ilə ifadə oluna bilir. Məsələn,
Mən istəyirəm ki, sülh olsun, insanlar millətindən asılı olmayaraq bir yerdə xoşbəxt yaşasın.
Onu da qeyd etmək lazımdır ki, əmr şəklinə məxsus olan intonasiya əsas rol oynayır.

İntonasiyanın işlənməməsi zamanı intonasiyanın işlənməməsi feilin əmr şəklinin mənasını itirir və bu formanı məsdərə çevrilməsinə gətirib çıxardır.
Bəzən təktərkibli nida cümlələri vasitəsilə də əmr cümləsi düzəltmək mümkündür.
Ayrıca şəkli olmayan, yalnız şəxs şəkilçisi qəbul edən feillər feilin əmr şəkli adlanır. Əmr hansı şəxsə aid olursa yalnız şəxs şəkilçilərindən istifadə edilir.
M.Hüseynzadə (2, s.189) yazır: Əmr şəklinin bütün şəxslər üzrə şəkilçiləri aşağıdakılardır:
Birinci şəxsin təkində: ım (-im, -um, -üm)
Birinci şəxsin cəmmində: aq (-ək)
İkinci şəkisin təki üçün heç bir şəxs şəkilçisi yoxdur.
İkinci şəxsin cəmində: -ın (-in, -un, -ün)
Üçüncü şəxsin təkində: -sın (-sin, -sun, -sün)
Üçüncü şəxsin cəmində: -sınlar (-sinlər, -sunlar, -sünlər)
Ədəbiyyat

1) Azərbaycan ədəbi dili tarixi. AMEA Nəsimi adına Dilçilik İnstitutu. Bakı, "Şərq-Qərb", 2007.
2) Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Bakı, "Maarif" nəşriyyatı, 1983.
3) Kazımov Q. Müasir Azərbaycan dili. Bakı, "Elm və təhsil", 2010.
4) Müasir Azərbaycan dili. II cild. Bakı, "Elm" nəşriyyatı, 1980.
5) Türksevər (Musayev) O. İngilis dilinin qrammatikası. Bakı, "Qismət", 2007.
6) Eastwood R. Mackin. A basic English Grammar.
7) Raevska N.M. Present-day English syntax. Kiev, 1970.
8) Thomson A.J., A.V.Martinet. A Practical English Grammar. Oxford, 1986.

Açar sözlər: feilin əmr şəkli, intonasiya, əmr, xəbər şəkli, məsləhət
Key words: imperative mood, intonation, order, indicative mood, advice
Ключевые слова: повелительная форма, глагола, интонация, приказ, совет

Summary

The usage features of the Imperative Mood in different systematic languages
This article deals with the Indicative Mood in different systematic languages. It is pointed out that by "The Indicative Mood" we don't always mean commands, orders or requests. Many other different paterns, warnings, advice, threats, invitations, wish, etc. are also touched upon here. Especially in this article is touched upon intonation the usage features of the Imperative Mood.

Резюме

Особенности использования повелительной формы на разносистематных языках
Это статья о повелительном наклонении на разносистемных языках. В статье отмечается, что под термином "повелительное наклонение" мы не только подразумеваем просьбы, приказы, приглащение, но и другие, похожие по смыслу формы опвелительного наклонения.

RƏYÇİ: dos. S.Abbasova

İsmayılova Məsmə Əliyulla qızı1

DİALOQLARDA İŞLƏNƏN YARIMÇIQ CÜMLƏLƏR

Müasir dövrdə dil-nitq fəaliyyətinin müxtəlif sahələrində dialoqlardan istifadə olunması, ədəbi dilin danışıq dilinə yaxınlaşmaq meyilləri dialoji nitqin hərtərəfli, kompleks tədqiq olunmasına tələbatı artırır. Dialoji nitqdə informasiyanın tez, konkret və yığcam şəkildə, adresatın aydın qavraya biləcəyi sadə formada ötürülməsi ilə yanaşı, onun kommunikativ niyyətdən asılı olaraq qeyri-dəqiq, yayğın, fərqli yozumlar doğuran şəkildə verilməsi də müşahidə olunur. Dialoqların bu cür semantik formaları kommunikantların öz nitq aktlarını formalaşdırarkən seçib istifadə etdikləri dil vasitələrinin leksik-semantik xüsusiyyətlərindən irəli gəlir. Dialoqda işlədilən leksik vahidlər, dialoji nitqə xas olan xüsusi konstruksiya və qəliblər müəyyən toplu təşkil edir. Müxtəlifsistemli dillərdə dialoji nitqdə kommunikatların replikalarında müxtəlif formalı, müxtəlif konstruksiyalı vahidlər qeydə alınır. Belə vahidlərin təyin olunması, onların semantikasının müəyyənləşdirilməsi, qarşılaşdırılması və müqayisəsi həm elmi-nəzəri, həm də praktik əhəmiyyət daşıyır.

Dialoji nitqdə kommunikantların adresant və adresat mövqeyində çıxış etməsi qarşılıqlı növbələşmiş proses kimi gedir. Adresantın replikasına adresatın reaksiyası onların ünsiyyətdəki rollarını dəyişməsinə səbəb olur. Dialoji nitqin bu cür növbələşmiş şəkildə davam etməsi onun iştirakçılarının qarşılıqlı nitq fəaliyyətinin nəticəsi olan və bir-biri həm leksik-semantik, həm də konstruktiv baxımdan bağlı olan nitq aktlarından ibarət qapalı dialoji nitq diskursu əmələ gətirir. Həmin nitqdə ayrı-ayrı kommunikantlara aid nitq aktlarının həm bir-biri, həm də haqqında söhbət gedən mövzu ilə bağlılığı olur. Dialoji nitqdə mövzunun bitməsi və yeni mövzuya keçid, kommunikativ niyyətdən asılı olaraq qapanmış, bitmiş mövzuya təkrar qayıdış mümkündür. Bu isə dialoji nitqdə müxtəlif mövzuların bir-birini izləməsi, bir mövzudan digərinə keçid, əvvəlki mövzuya qayıtma məqamlarında dialoqlarda istifadə olunan dil vasitələrini təyin etmək, onların leksik-semantik xüsusiyyətlərini aydınlaşdırmağa ehtiyac yaradır. Dialoji nitq prosesinin son nəticəsi kimi formalaşan diskursun bir tam şəklində araşdırılması, bu diskursun tərkib hissələri arasındakı dildaxili və dilxarici əlaqələrin üzə çıxarılması həllini gözləyən əhəmiyyətli məsələlərdən biridir.

Dialoji nitqdə ellipsis, yarımçıq cümlələrin çoxluğu müşahidə və qeyd olunmuş linqvistik məsələlərdən biridir. Dilin ifadə vasitələrinin ünsiyyət prosesində buraxılması və onların bərpası, bir dilə xas olan ellipsisin başqa dildə hansı formalarda təzahür etməsi, eləcə də mümkünlüyü, yaxud qeyri-mümkünlüyü tərcümə praktikasında, dillərin müqayisəli tədqiqində, həm də tədrisin-də aktuallıq kəsb edir.

Dilçilikdə "Yarımçıq cümlə" adı altında ,adətən bir və ya bir neçə baş üzvü buraxılan cümlələr şifahi nitqdə çox geniş yer tutur.Bu tip cümlələr dilçilikdə adi bir sintaqmatik normadır. Yarımcı cümlələr şifahi nitq üçün daha xarakterik olmaqla bədii ədəbiyyatda,dialoqlarda və qismində təsvirlərdə işlənir.Yarımcıq cümlələrin dilimizdə işlənən ən əsas növü dialoqun qarşılıqlı replikalarından ibarət yarımçıq cümlələrdir.Dialoqda işlənən cümlələrin çox hissəsinin yarımçıq işlədilməsi əvvəl deyilən replikalarda işlədilməsindən irəli gəlir.Bu səbəbdən də dialoqlarda yarımçıq cümlələr iki hissədən ibarət olur: dialoqun (replikanın) hissəsini təçkil edən cümlələr; və cavab cümlələr.

Yarımmıq cümlələr arasında feli tərkibli cümlələr daha aktivdir.Bu səbəbdən də ingilis dilində dialoqlarda feil tərkibli cümlələrə tez tez təsadüf edilir və bu cümlələrin yaranmasında köməkçi feillərin rolu mühüm əhəmiyyət kəsb edir. Dilimizdə yarımçıq cümlələrlə yanaşı elliptik cümlələr də mövcud-dur.Hər iki cümlə növü qismən bir-birinə oxşasada onların fərqli cəhətləri vardır.Bəzi hallarda eynilik təşkil etsə də, danışıq ərzində onların fərqli cəhətləri özünü biruzə verir.

Azərbaycan dilçiliyində də kifayət qədər geniş bəhs olunmuşdur. Təbii ki, burada müxtəlif müəlliflərin bu problemlə bağlı fikirlərinin xülasəsini verməyə ehtiyac duyulmur. Lakin bəzi məqamlar üzərində dayanmaq, yeri gəldikcə qeyd edilən məsələ ilə bağlı bəzi fikirləri yada salmaq lazım gəlir. Dilçiliyimizdə elliptik cümlələrdə feli və ya ismi xəbərin buraxılması, onların yarımçıq cümlənin digər növlərindən fərqli cəhətləri göstərilmişdir.

Dilçilikdə "Yarımçıq cümlə " adı altında ,adətən bir və ya bir neçə baş üzvü buraxılan cümlələr şifahi nitqdə çox geniş yer tutur.Bu tip cümlələr dilçilikdə adi bir sintaqmatik normadır.Yarımcı cümlələr şifahi nitq üçün daha xarakterik olmaqla bədii ədəbiyyatda,dialoqlarda və qismində təsvirlərdə işlənir.

Yarımcıq cümlələrin dilimizdə işlənən ən əsas növü dialoqun qarşılıqlı replikalarından ibarət yarımçıq cümlələrdir.Dialoqda işlənən cümlələrin çox hissəsinin yarımçıq işlədilməsi əvvəl deyilən replikalarda işlədilməsindən irəli gəlir.Bu səbəbdən də dialoqlarda yarımçıq cümlələr iki hissədən ibarət olur: dialoqun (replikanın) hissəsini təçkil edən cümlələr; və cavab cümlələr.

Yarımmıq cümlələr arasında feli tərkibli cümlələr daha aktivdir.Bu səbəbdən də ingilis dilində dialoqlarda feil tərkibli cümlələrə tez tez təsadüf edilir və bu cümlələrin yaranmasında köməkçi feillərin rolu mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan dilində olduğu kimi ingilis dilində də yarımçıq cümlələr müxtəlif növlərdə olur.Yəni yarımçıq cümlələr təsdiq,sual,suala cavab,cümlə üzvlərinin mövcudluguna görə (tək baş üzvlərdən ibarət olan yarımçıq cümlələr; ikinci dərəcəli üzvlərdən ibarət olan yarımçıq cümlələr) müxtəlif olur.

Məsələn: Mübtədadan ibarət olan yarışçıq cümlə:

John looked to Anna and said:"Nelson comes."Anna asked :Who?"John answered" Nelson".

Burada birinci tərəfin xəbərini dəqiqləşdirmək üçün ikinci tərəf sual verir.Cavabında isə birinci tərəf yarşmçıq cümlə növündən istifadə edərək,tək gələn şəxsin adın çəkir.Bu cavab da baş üzvü ifadə edən mübtədadan ibarətdir.Onu da qeyd etmək

1ADPU, Xarici dillər məkkəzinin əməkdaşı, filoligiya üzrə fəlsəfə doktoru

lazımdır ki,bu cümlədə nəqli yarımçıq cümlə ilə yanaşı sual yarımçıq cümləsi də işlənmişdir.Bu növ cümlə mübtədanı ifadə edən yarımçıq cümlə adlanır.

Digər baş üzvlərdən olan xəbərə aid cümləyə də nəzər yetirək:Scott looked through the window and said:"Tom broke the apple tree."Ketty asked:"What did?"

Yenə burada cümlənin baş üzvlərindən olan xəbər təklikdə sual formasında işlənmiş və xəbəri ifadə edən sual yarımçıq cümləsi işlənmişdir.

Eyni qaydanı cümlənin ikinci dərəcəli üzvlərinə də aid etmək olar.Belə bir nümunəyə baxaq: Jerry was alone in the room.Her mother was in the kitchen and was cooking.And Jerry cried from her room to mother:"Mam,I want to go to my sister"-Mother asked :" where? "Jerry: "To sister".

Bu nümunədə də iki yarımçıq cümlə işlədilmişdir.Birinci yer zərfini ifadə edən yarımcıq sual cümləsi,ikinci isə ona cavab olaraq ,yenə yer zərfini ifadə edən yarımçıq təsdiq cümləsi.

Yarımçıq cümlələr tək bir sözdən deyil,bəzən bir neçə sözdən də ibarət olur.

Məsələn: School director asked teacher :"What can you say about Tony?He is from your class."-Teacher answered:"very clever,active and talkative"

Bu nümunədə məktəb direktorunun sualına sinif müəllimi təyini ifadə edən bir nece sözdən ibarət olan yarımçıq cümlə ilə fikrin bildirdi.

Bu növ yarımçıq cümlələr nitq hissələri ilə də işlədilir.Yarımçıq cümlədə sayları ifadə edən belə bir çümləyə nəzər yetirək.

Clara begins to introduce herself:"I'm Clara Madson.I was born in 1998 in USA."Editor asked:"When?"Clara:"1998".

Bu nümunədə də iki yarımçıq cümlə verilmişdir.Yarımçıq sual cümləsi sual əvəzliyi ilə,cavab yarımçıq cümlə isə sayla ifadə olunmuşdur.

Dialoqlarda işlənən yarımcıq cümlələr təktərkibli cümlələrin bir növü kimi verilir. "Söz cümlələr öz məzmunu etibarilə ya təsdiq, ya inkar, ya razılıq, ya narazılıq, ya da əvvəlki fikrə ümumi şəkildə modal qiymət verildiyini bildirir. Öz leksik tərkiblərinə görə bunlar təsdiq və ya inkar bildirən bəli, xeyr, yox, hə, əlbəttə, şübhəsiz, sözsüz, yaxşı, bəlkə, təbii, əsla, qətiyyən, heç və s. kimi ədat və modal sözlərdən, ya da nidalardan ibarət olub, daha çox dialoq nitqində cavab və sual replikalarında və ya monoloq nitqi çərçivəsində işlənir və nida intonasiyası ilə deyilir".

Söz və ya yarımçıq cümlələrin beş işlənmə məqamı qeyd olunur: 1) təsdiq; 2) inkar; 3) sual; 4) görüş və ayrılıq məqamı; 5) qəzəb, sevinc, təəccüb, heyfsilənmə .

Söz-cümlənin beş növü göstərilir: 1) emosional-qiymətləndirici söz-cümlə; 2) söz-cümlə; 3) sual söz-cümlə; 4) təsdiq söz-cümlə; 5) təhrikedici söz-cümlə .

Dilçilik terminləri lüğətində söz-cümlənin bölgüsü daha konkret və ümumidir. Söz-cümlənin işlənmə məqamlarının dəqiqləşdirilməsi çətindir. Şübhəsiz ki, qəzəb, sevinc, təəccüb, heyfslənmə emosional qiymətləndirmə kimi ümumiləşdirici ad altında qruplaşdırıla bilər. Qeyd edilmiş cümlə tiplərinə dair nümunələri nəzərdən keçirək.

Did you go to meet your dad?
Yes.
Did you see somebody there?
No.

Verilmiş nümunədəki yarımçıq cümlələr inkarlıq və ya təsdiqlik ifadə edən yarımşıq cavablardan ibarətdir.

İngilis danışıq dilində, eləcə də bədii ədəbiyyatdakı dialoqlarda da söz-cümlələr işlənir ki bunlarda yarımcıq cümlələrə aiddir. "Verbless imperative sentence" adlanın söz-cümlələrdə feil iştirak etmir:

"Silence!", "The salt, please", "Hats off", "Quiet!", "Easy", "Out!", "Over there!", "Out with it!", "Down with him" və s. bu kimi söz və ifadələr danışıq dilində, dialoqlarda geniş istifadə olunur. İngilis dilində bu cümlələr onların tərkibindəki sözün nitq hissəsinə aidliyi üzrə aşağıdakı şəkildə təsnif olunur.

1. Substantiv imperativ cümlələr. Bu cümlələrdə əsas hissə isimlə ifadə olunur. Məsələn:"Tea! Tea at once! And some brandy immediately!" (K.Mansfield)

2. Tərkibində söz önlüyü olan substantiv cümlələr. Bu tipdə isim söz önlüyü ilə bir yerdə cümlənin əsas hissəsini təşkil edir. Məsələn: "Out of the way there!" shouted the captain (E.Voynich).Arthur: They're on the march! They're coming up the drive!

3. Adverbial imperativ cümlələr. Bu cümlələrdə əsas hissə zərflə və ya adverbial elementlə ifadə olunur. Məsələn,
"All abroad. Give way there" (B.Shaw).
"Up!" said Dinny. The dog jumped on to the divan (J.Galsworthy).

4. Sifətli imperativ cümlələr. Cümlənin əsas hissəsi sifətlə ifadə olunur. Məsələn,
Genevra: I won't believe it's right! I won't
Brett: Careful, Nevvy (J.Cow and A.D'Usseau).
Hubert dropped his hands. "You're both cracked."

5. Cerundlu imperativ cümlələr. Əsas hissə cerundla ifadə olunur. Məsələn,
No smoking here (Do not smoke here.).

Cerundlu konstruksiyalar danışıq dilində, dialoji nitqdə az işələnir.

6. Feilsiz imperativ cümlələr. Bu tip, bir qayda olaraq, danışıq dilində istifadə edilir. Məsələn: Jean: Hush! Don't make a noise (J.Bridie).
Hey, up there!
7. Yalnız "please" sözünün işlənməsi ilə özünü göstərən feilsiz cümlələr.
Talbot: Why-uh-what are you talking about?
Lucy: Please, Jo! I'm not going to make a scene (G.Kaufman, E.Ferber).
Feilsiz imperativ cümlələrin böyük bir qismini vokativ cümlələr təşkil edir. Məsələn,
Jane: Mr.Sebestian!
Sebestian (turning round): Yes? (K.Winter).
Leo (calling): Miss Hodge – Miss Hodge.

Nitq prosesində iştirak edənlər arasındakı dialoqda onların bir-birinin fikri ilə razılaşması və razılaşmaması halları baş verir. Hər iki hal nitqdə müəyyən yollarla və vasitələrlə gerçəkləşir. Razılaşmamaq nitq aktı ünsiyyyət zamanı müəyyən qrammatik və leksik vasitələrin köməyi ilə yarımçıq cümlələrlə ifadə olunur. Razılaşmamağı ifadə edən qrammatik vasitələr model və xüsusi quruluş şəklində cümlədə birləşir. Onların köməyi ilə ünsiyyət zamanı danışan bu və ya digər hadisə ilə bağlı özünün narazılığını bildirir. Bu cür modellər və quruluşlar hazır qəliblər, klişelər (ştamp) şəklində olur. Onların qrammatik forması dildə hazır formadadır. İngilis dilində belə qrammatik qəliblər rolunu do not; do not agree with; can not; is not və s. birləşmələri oynayır. Azərbaycan danışıq dilində də belə hazır qəliblər çoxdur: xeyr, yox, ola bilməz, mümkün deyil, elə deyil, razı deyiləm, razılaşmıram və s. Bu cür qəliblərin işlənmə xüsusiyyətlərini nümunələr əsasında araşdırmaq daha məqsədəuyğundur.
- Jane, I'd like to visit our Granny today?
-Oh, I do not think that Monday is a suitable day for a visit. I don't see any sense in it.
Bu nümunədə do not qrammatik vasitəsindən istifadə olunmuşdur. Qeyd olunan qrammatik qəlib Azərbaycan dilində müxtəlif vasitələrlə ifadəsini tapır və bu vasitələr verilmiş cümlənin tərcüməsi ilə bilavasitə bağlıdır. İngilis dilində do not qrammatik vasitəsindən sonra think that birləşməsindən istifadə edilmişdir. Bu birləşmə cümlənin tərcüməsi zamanı oxşar konstruksiyanın tapılması tələbini ortaya atır. Məsələn, mən belə fikirləşmirəm; mən belə hesab etmirəm; mən belə düşünmürəm və s. Lakin iki müxtəlifsistemli dilin razılaşmamaq konstruksiyaları arasındakı fərq cümlələrin fərqli şəkildə qurulmasını tələb edir. Daha doğrusu, ingilis dilini öyrənmək istəyənlərin nitq praktikasını inkişaf etdirmək üçün məsələyə fərqli aspektlərdən yanaşmaq lazım gəlir. Bu fərqli cəhət onunla bağlıdır ki, bir halda danışanın nitq arsenalına ingilis dilinə xas hazır nitq qəliblərini daxil etmək lazım gəlirsə, digər halda Azərbaycan dilinin eyni ünsiyyət aktına aid qəlibin ingilis dilindəki konsituasiyaya uyğun gələn qəlibini formalaşdırmaq lazım gəlir. Bunlar fərqli hadisələrdir və bilinqvanın nitq prosesində hansı dildə düşünməsi onun istifadə edəcəyi qrammatik vasitəni təyin edir. Yuxarıdakı nümunədə dialoq iştirakçılarından ikincisi birincinin yerinə yetirmək istədiyi proseslə razılaşmır. O, birincinin nəzərdə tutduğu işi görməsini istəmir. Ona görə də nitqində razılaşmamaq konstruksiyasından istifadə edir. Hərfi tərcümə belədir: Oo! Mən belə düşünmürəm ki, birinci gün baş çəkmək üçün əlverişlidir. Bu forma Azərbaycan danışıq dili üçün ağır və işlək olmayandır. Bu dil üçün yad qəlibdir, alınmadır. Hansı qəlib formasında istifadə edilməsi, qeyd olunduğu kimi, danışanın hansı dildə düşünməsindən asılıdır. Hər bir dilin daşıyıcısı öz fikirlərini ana dilində formalaşdırır. Yeni öyrənilən dildə nitq ana dilindəki nitq aktlarının qarşılığının verilməsi üzərində köklənir. Ona görə də ana dilində danışıq konstruksiyalarına uyğun gələn xarici dil konstruksiyalarının, ifadə və frazaların öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Oxşar tədqiqatların danışıq dilinin hazır qəliblər üzrə aparılması da məqsədəuyğundur.
Yarımçıq cümlələrin tərkibinin çox hissəsini hazır qəliblər təşkil edir.Dialoji nitqdə razılaşma və təsdiq xüsusi yer tutur.Razılaşma müxtəlif subyektlərin gerçəkliyin hansısa hadisəsi haqqında fikir eyniliyini ifadə edir. Bizim fikrimizcə, müəyyən hadisə haqqındakı nöqteyi-nəzərin oxşarlığı həmişə razılaşma olmadığı kimi, münasibətin tam üst-üstə düşməməsi də razılaşmaq kimi qəbul oluna bilməz. Razılaşma semantik-kommunikativ kateqoriyası mənasına görə müxtəlif çalarlara malikdir. Razılaşmanın patetik, yalançı, bəyənilməyən, ironiyalı növləri ola bilər. Sonuncu üç növ formaca razılaşma, məzmunca razılaşmamaqdır.
Razılaşmanın dialoji ünsiyyətdəki kommunikativ təyinatı xüsusi əhəmiyyət daşıyır. Onun mənası və bu mənanı ifadə edən dil vasitələrinin linqvistik tədqiqatı dialoqun öyrənilməsinin ayrıca bir qolunu təşkil edir. Dialoji nitqdə razılaşma və təsdiq ifadə edən hazır qəliblər yüksək işləklik dərəcəsinə malikdir. Azərbaycan dilində işlənən "hə", "bəli" kommunikativləri ümumi kommunikativlər sistemində xüsusi yer tutur. "Hə" (bəli) vahidi dialoq iştirakçısının fikrinin, mülahizəsinin doğruluğunu, həqiqiliyinin təsdiqi üçün işlənir. "Hə" cavabını işlədən tərəf razılaşma və təsdiqetmə zamanı məsələ ilə bağlı məlumatlara, empirik müşahidələrinə, həyat təcrübəsinə və s. əsaslanır. "Hə" kommunikativ vahidinin mənasında qarşılıqlı əlaqəsi olan bir neçə tərkib hissəsini ayırmaq mümkündür. "Hə" propozisiyanın həqiqiliyinə işarə edir. Ümumi təsdiqedici abstrakt mənanı ötürür, nəyəsə müsbət reaksiyanı ifadə edir.
İlkin neytral kommunikativ akt kimi "hə" (bəli) bütün üslublardakı dialoji nitq üçün səciyyəvidir. "Hə" və "bəli" kommunikativləri eyni funksiyanı yerinə yetirir. "Bəli" hörmət mənasını, müsahiblər arasında münasibətlərin müəyyən ierarxiyasına, onların sosial statusuna, bir-birini tanıma dərəcəsinə işarə edir.
"Hə" kommunikativi daha çox sual və faktı dəqiqləşdirən nitq aktlarına uyğun gələn sual və nəqli cümlələrə reaksiya kimi üzə çıxır. Sual cümlələrinə cavab funksiyasını yerinə yetirmək məqamında "hə" ("bəli") daha çox işlədilir. Nəzərə almaq lazımdır ki, bu söz dilin ümumi suallara lakonik cavab formalarından biridir. Ümumi pozitiv suala "hə" təsdiqedici cavab və

ya təsdiqedici cavabı ötürmək vasitəsidir. Əgər belə suala dialoq iştirakçılarından birinin hansı bir hadisənin doğruluğu haqqında fərziyyəsi kimi baxılarsa, onda təsdiqetmənin modus mənasının söylənmiş versiyanın obyektivliyini, doğruluğunu təkrarı olmasını söyləmək mümkündür.
- Sabah universitetdə olacaqsan?-Hə (birinci saat dərsim var).
Ümumi sual neqativ səciyyə daşıdıqda dialoqda «hə» cavabı semantik çoxmənalığa səbəb olur, kommunikativ çətinlik doğurur.
A:- Əşrəf, çörək almağa getməmisən?
Ə:- Hə
A:- Getmisən?
Ə:- Yox, hələ getməmişəm.
"Hə" dialoji nitqdə nəqli cümlələrə reaksiya olur. Məsələn,
Anam dedi:
- Bürküdü, Mehbalı əmi.
- Hə. Bu il bürküdü, qızım (İ.Hüseynov. Seçilmiş əsərləri. I cild, Bakı Azərbaycan, 1988. s.323) .
İngilis dilində "hə" kommunikativinin qarşılığı "yes" sözüdür. Bu söz də nəqli cümlələrə reaksiya olur. Məsələn,
"Santiago," the boy said.
"Yes," the old man said (Hemingway E. The Old Man and the Sea) .
Belə dialoqlarda Azərbaycan dilində "hə", ingilis dilində "yes" müsahibin fikrini təsdiq etmək, onunla həmrəyliyini bildirmək üçün işlədilir.
"Hə" kommunikativi bir sıra hallarda şərti olaraq kvazidəqiqləşdirici funksiyanı yerinə yetirir. Adresantın fikir və ya mülahizəsinə adresat "Hə?" sualı ilə reaksiya verir. Sualın bu şəkildə qoyuluşu özünün kommunikativ mahiyyətinə görə çox zaman emfatik təkrar soruşma formasına yaxınlaşır. Məsələn:
- Mən çox şadam ki, sən elə bir adamla dostsan, Vahid. Bəhlul Cəlalov mənim də mənəvi atamdır.
- Hə?
Təhrikedici nitq aktına reaksiya kimi "hə" kommunikativinin işlədilməsi səciyyəvi deyildir. Replikalar arasında belə münasibət real görünmür. Məsələn, A-Qapını ört. B-Hə. A-Kitabı mənə ver. B-Hə. Nümunələrdən görünür ki, cavab reaksiyası adresatın tələb olunan fəaliyyəti yerinə yetirib yetirməyəcəyi barədə dəqiq məlumat vermir. Lakin oxşar məqamda "hə" kommunikativindən sonra propozisional mövqedə, müəyyən komponentlərin işlənməsi dəqiqləşdirməyə xidmət edir:
A- Qapını ört
B- Hə, indi
Təhrikedici kommunikativ aktlarda "yaxşı" final elementinin işlədilməsi «hə» kommunikativinin yerində olmasına gerçəkləşdirir.
A- Gedəndə işığı söndürərsən?
B- Hə
A- İşığı söndür, yaxşı?
B- Hə (yaxşı)
"Hə" kommunikativinin qeyd olunmuş funksiyaları ingilis dilində "Ok", "Yes" kommunikativlərindən istifadə olunmaqla yerinə yetirilir.
The old man saw that we were looking at this fish.
-Ah, he said,-thats a big fish, is nt it?
-Yes, it is -İ replied.
Razılaşma və təsdiqetmə kommunikativləri sırasında "yaxşı" sözü də xüsusi yer tutur. İşləkliyinə görə yaxşı kommunikativi "hə" kommunikasiya vahidindən geri qalmır.
"Yaxşı" kommunikativinin razılaşma və ya təsdiqetmə prosesində müəyyən güzəştə getmək semantik çaları da vardır.
Azərbaycan və ingilis dillərində razılaşma və təsdiqetmə kommunikativləri sayca müəyyən çoxluq təşkil edir. Hə, əlbəttə, aha, şübhəsiz, yəqin, sözsüz, təbii, bəs necə, demə, yaxşı, oldu, doğru və s. Razılaşmanı bildirmək üçün Azərbaycan dilində müvafiq xəbərlik şəkilçisini qəbul etmiş "razı" sözü də istifadə edilir. Dialoji nitqdə və danışıq dilində bu kommunikativ vahid işləkdir. (Mən) razıyam, (Biz) razıyıq, (Onlar) razıdırlar, (O) razıdır (Sən) razısan. Dialoji nitqdə sözün şəxs şəkilçisi qəbul etməmiş variantı da istifadə edilir. Bu zaman əvvəlki mövqedə şəxs əvəzliyi işlənir. Məsələn, "Mən razı", "Biz razı" və s.
İngilis dilində eyni məqamda "agree" sözündən istifadə edilir. I agree with you- Mən sizinlə razıyam. Azərbaycan dilində işlənən "tam razıyam", "tamamilə razıyam" nitq qəliblərinin ingilis dili qarşılığı kimi "I could not agree more" cümləsindən istifadə edilir.Razılaşmadan başqa bu funksioanl zonada təsdiq və icazənin praqmatik mənaları gerçəkləşir.
-Student olmusan?
-Bəli.
-Your name is Romanie Heilger?
-Yes.
Funksioanl zonanın kommunikativlər toplusuna Azərbaycan dilində aşağıdakıları aid etmək olar: hə, əlbəttə, şübhəsiz, aha, bəli, bəs necə, demə, yaxşı, təbii, doğru, elə və s.

Dialoqlarda cümlə səciyyəsi daşımayan,lakin aparılıan söhbətin anlamlı,yorucu olmamasında yarımçıq cümlələrin əhəmiyyəti böyükdür.İllər ötdükcə dilimizə gələn neologizmlərin vasitəsilə,idiomların yaranması ilə yarımçıq cümlələr dialoqlarda əhatəsini genişləndirərək şifahi nitqdə əhəmiyyətli olan dialoqların daha da aktivliyi ilə nəticələnir.

ƏDƏBİYYAT

1) Ağayeva F. Azərbaycan danışıq dilində yarımçıq cümlələrin bəzi tipləri// ADU-nun Elmi Əsərləri. Bakı, 1966, № 1, s. 127-132.
2) Budaqova Z. Müasir Azərbaycan dilində elliptik cümlələr//Azərb. EA Xəbərləri. İctimai elmlər seriyası. 1961, № 2, s. 158-162.
3) Əfəndiyeva T.Ə. Yarımçıq cümlə. Azərbaycan dilinin sintaksisinə dair tədqiqlər. Azərb. SSR EA-nın nəşri, Bakı, 1963, s. 108-128.
4) Əliyeva S. Yarımçıq cümlələr haqqında// Elmi axtarışlar. XV. Bakı, "Səda", 2005, s.51-53.
5) Həbibova K. Müasir Azərbaycan dilində elliptik cümlələr və onların üslubi xüsusiyyətləri. Namizədlik dissertasiyası. Bakı, AMEA Mərkəzi kitabxanası, 2008, 136 s.
6) Həsənov H. Təktərkibli yarımçıq cümlələr// ADU-nun Elmi xəbərləri, Dil və ədəbiyyat seriyavsı, № 4-5, 1967, s. 69-76.
7) Бахтин М.М. Эстетика словесного творчества. Москва, Наука, 1979, 424 с.
8) Серль Дж. Классификация иллокутивных актов// Новое в зарубежной лингвистике. Вып. XVII. Москва, Прогресс, 1986, с. 170-195.

Açar sözlər şıfahi nitq,kommunikativ ifadələr,frazeoloji ifadələr,fərq , müxtəlif sistemli, feilli birləşmələr,dialoji nitq,leksik,emocional,şərait.

Ключевые слова: устная речь, коммуникативные выражения, фразеоло-гические выражения, различия, разная систематичность, глагольные сочетания, диалогическая речь, лексическая, эмоциональная, ситуация.

Key words: oral speech, communicative expressions, phraseological expressions, differences, different systematicity, verb combinations, dialogical speech, lexical, emotional, situation.

X Ü L A S Ə

Təqdim edilən məqalə hal-hazırki dövrün aktual məsələlərindən biri olan dialoji nitqin həm yazıda ,həm də şıfahi nitqdə istifadəsindən bəhs edir.Ədəbi dilin danışıq dilinə yaxınlaşması bir cox dialoji problemlərin tədqiqatına ehtiyac yaradır.Bu baxımdan təqdim edilən mövzu oz aktuallığı ilə fərqlənir. Dialoq nəzəriyyəsi bir çox dilçilik problemləri ilə əlaqəlidir.Dialoji nitqdə müxtəlif formalı, konstruksiyalı ifadələr öz əksin tapır.Bu tədqiqat işində də elə həmin kommunikativ vahidləri,hazır qəliblərin istifadəsindən danışılır. Bu araşdırmalar Azərbaycan və İngilis dili materialları əsasında aparılır.Hazırda dilin tədrisi, danışıq dilinin tez öyrədilməsi və mənimsənilməsi məqsədilə müxtəlif dillərdə dialoqlarda qeydə alınan xüsusi kommunikativ vahidlərin təyini, onların qarşılıqlarının tapılması, işlənmə məqamlarının müəyyənləşdirilməsi ilə bağlı tədqiqatlar xüsusi aktuallıq kəsb edir. Müxtəlif meyarlar əsasında dialoqların təsnifi verilir. Müxtəlif dialoq tiplərində kommunikasiyanın spesifik xüsusiyyətləri, kommunikativ aktlarda istifadə olunan leksik-semantik vasitələr, habelə sintaktik konstruksiyalar təyin olunur.Dialoji prossesdə iştirak edən tərəflər müxtəlif fikirlərlə qarşılaşır və bu fikirlər də müxtəlif vahid və hazır qəliblərlə həyata keçir. Bu ifadələrin hər biri işlənmə yerinə görə fərqlənir.Dialoqlar zamanı natamam cümlələrin müxtəlif növlərindən istifadə olunur və bunlar sintaktik quruluşuna görə fərqli olurlar. Bu prossesdə ön sözlər, fellər, köməkçi feillər əsas yer tutur. Natamam cümlələrlə yanaşı, elliptik cümlələr də var. Natamam cümlələrlə elliptik cümlələr arasında fərqlər var.Təqdim edilən bu məqalə dialoqları bu nöqteyi nəzərdən araşdırır.

Р Е З Ю М Е

Представленная статья иследовает использования диалогической речи как в письменной, так и в устной речи, что является одной из актуальных проблем. Приближение литературного языка к устной речи создает необходимость изучения многих диалогических проблем. Теория диалога связана со многими языковыми проблемами. Диалогическая речь отражает выражения различных форм и конструкций. В данной исследовательской работе также обсуждается использование одних и тех же коммуникативных единиц, готовых шаблонов. Эти исследования проводятся на основе материалов на азербайджанском и английском языках. В настоящее время исследования по выявлению особых коммуникативных единиц, записанных в диалогах на разных языках, поиску их эквивалентов, выявлению точек развития, особенно актуальны для обучения языкам, быстрого изучения и овладение разговорной речью. Диалоги классифицируются по разным критериям. Различные типы диалога определяют особенности общения, лексико-семантические средства, используемые в коммуникативных актах, а также синтаксические конструкции.

Стороны, вовлеченные в процесс диалога, сталкиваются с разными идеями, и эти идеи воплощаются в разных единых и готовых шаблонах. Каждое из этих выражений различается в зависимости от места развития, и все эти выражении нашли свое места в этом статье.

Различные типы неполных предложений, отличающиеся по своей синтаксической структуре, используются в разных диалогах. Главную роль в этом процессе играют предлоги, глаголы и вспомогательные глаголы. Помимо незавершенных предложений, существуют также эллиптические предложения. Существуют различия между незавершенными предложениями и эллиптическими предложениями. Данная статья исследовала диалоги с этой точки зрения.

S U M M A R Y

The presented article concerns the use of dialogical speech in both written and oral speech, which is one of the actual problems. The approximation of the literary language to oral speech creates the need for the exploring of many dialogical problems.

Dialogue theory is connected with many linguistic problems. Dialogue speech reflects expressions of various forms and structures. This research work also discusses the use of the same communication units, ready-made templates. These re-

searching work are carried out on the basis of materials in Azerbaijani and English. Currently, research on the identification of special communicative units recorded in dialogues in different languages, the search for their equivalents, the identification of points of development, are especially relevant for teaching languages, quickly learning and mastering spoken language. Dialogues are classified according to different criteria. Various types of dialogue determine the features of communication, lexical and semantic means used in communicative acts, as well as syntactic constructions.

The parties - involved in the dialogue process come across different ideas, and these ideas are embodied in different phrases and ready-made templates. Each of these expressions differs depending on the place of development, and all these expressions have found their place in this article. The different types of incomplete sentences that differ in their syntactic structure use in different dialogues. Prepositions, verbs and auxiliary verbs play the main role in this process.Besides incomplete sentences, there are also elliptical sentences. There are differences between incomplete sentences and elliptical sentences. And this article explored dialogues from this point of view.

RƏYÇİ: dos.S.Abbasova

Ruqiyyə Əbdul qızı Ağayeva10

DİAOJİ MƏTNLƏRDƏ ELLİPTİK KONSTRUKSİYALAR

Dialoji mətnlərdə elliptik konstruksiyaları tədqiq etməzdən əvvəl, gəlin ellipsis sözünün mənasına baxaq. "Ellipsis" – ifadənin hər hansı bir elementinin buraxılması kimi izah olunur.Lakin həmin element mətndə asanlıqla bərpa edilə bilər.

Tədqiqatçılar ellipsisi sintaktik səviyyədə tədqiq edərkən, əsasən, 3 qrupa ayırırlar; 1) nitqi ellipsis; 2) qrammatik ellipsis; 3) semantik ellipsis.

Azərbayan dilində işlənən ellipsislərin bərpası haqqında K.Abdullayev 3 istiqaməti qeyd edir; 1) Ellipsisin cümlə quruluşu vasitəsilə bərpası, 2) Ellipsisin mürəkkəb sintaktik bütövün (kontekstin) vasitəsilə bərpası, 3) Ellipsisin situasiya vasitəsilə bərpası [6, s. 98].

Elliptik cümlələrə nəzər saldıqda görürük ki, bu cümlələr məna cəhətdən müstəqil, struktur cəhətdən isə yarımçıq hesab olunur.Bu cümlələrdə bir üzvün buraxılması, o cümlənin məzmunu ilə müəyyənləşir.

Elliptik cümlələr feli və ismi xəbəri buraxılmış yarımçıq cümlənin bir növü hesab olunur.Yarımçıq cümlənin başqa növləri kimi elliptik cümlələrdə oğuz qrupu türk dillərinin materialları əsasında müqayisəli təhlil olunmamış, onların oxşar və fərqli cəhətləri müəyyənləşdirilməmişdir.

Z.İ.Budaqova elliptik cümlələri 2 hissəyə bölmüşdür; 1)Feli xəbəri buraxılmış elliptik cümlələr; 2) İsmi xəbəri buraxılmış elliptik cümlələr [3, s. 171].

Elliptik cümlələri araşdırarkən, türk dillərinə aid materiallarda bu cümlələrin daha çox aşağıdakı situasiyalarda geniş istifadə olunduğu nəzərə çarpır.

İlk növbədə bu tip cümlələr məişətdə daha çox rastımıza çıxır.Xüsusilə, intensiv hərəkət olan yerlərdə sıxlıqla istifadə olunan cümlələrdir.İkinci növbədə isə təkid məzmunlu cümlələrdə elliptik konstruksiyalar qarşımıza çıxır. Məsələn; Ay məni istəyən, dərziyə xələt!.Bundan əlavə elliptik cümlələrin xəbərsiz işlənən forması görüş və vidalaşma məqamlarında olduqca işləkdir.Buna misal olaraq, danışıq dilində hər gün istifadə etdiyimiz; axşamın xeyir, gecəniz xeyirə və s.Elliptik cümlələrin istifadəsi hərbi sistemdə bütün rəngarəngliyi ilə əks olunur.Məsələn; İrəli Hücuma... Komandir qışqırdı. Elliptik cümlələrlə rastlaşdığımız bir digər yer isə qəzet və məqalələrin adlarıdır. Məs.; Adamlara qayğı... Elliptik cümlələrə xas əlamətlərdən biri də, onda emosiya, çağırış, müraciətin çox geniş işlənməsidir. Məs; Müstəqil Azərbaycan yolunda. Demokratiya düşmənlərinə ölüm!Ümumiyyətlə, Oğuz qrupu türk dillərində şüarların elliptik cümlələrin müxtəlif formaları ilə ifadə olunduğunu görə bilərik.

Elliptik cümlələrin yuxarıda sadalanan işlənmə xüsusiyyətlərindən bəhs edərkən T.Ə.Əfəndiyeva yazır: "Elliptik cümlələr qrupuna danışıq nitqinin elə cümlələri də daxildir ki, bunlar əmr, hökm, arzu, salam, təbrik mənaları bildirir və formal-qrammatik cəhətdən yarımçıq olsalar da, mahiyyətcə bütövlük, tamlıq ifadə edir.Bu cümlələrdə xəbər buraxılsa da, həmin cümlələrə məxsus intonasiya subyektin fikrinin ifadəsi üçün tamamilə kifayət edir.Azərbaycan dili subyektin ifadəsini-əmrini, buyuruğunu, xahişini ifadə edən elliptik cümlələrlə də zəngindir" [3, s. 120].

Frazeoloji konstruksiyalarda, atalar sözü və məsəllərdə də elliptik cümlə növləri olduqca aktualdır və geniş işlənmə tezliyinə malikdir. Misal olaraq; Lənət şeytana...

İsmi xəbərin buraxılması da, elliptik cümlələrə xas əlamətlərdən biridir.Bu cümlə tiplərinə də, biz daha çox atalar sözlərində rast gəlirik.Məs; Yay gününün yağışı-ər-arvadın savaşı [8, s. 136]. Bu tipli misallar çox gətirmək olar, lakin nəzər salsaq görərik ki, Azərbaycan dilində atalar sözü və məsəllərdə daha çox ismi xəbərlər buraxılır.Feli xəbəri buraxılan atalar sözünə misal olaraq; Ata qamçı, eşşəyə biz (vurarlar).

Elliptik cümlələrə tamlığı verən cümlə üzvü əsasən xəbər olur. Buna səbəb bu və ya digər elliptik cümləyə hər zaman digər bir fel cümləsi müvafiq gəlir.

Elliptik cümlələrə nəzər saldıqda, bunların bir hissəsinin sual səciyyəli olması üzə çıxır.Məsələn, məişət danışığımızda olduqca çox istifadə etdiyimiz "Sən hara?" sualı buna bariz nümunədir. Bu tipi cümlələrdə göründüyü kimi, xəbər ellipsisə uğramışdır. Qeyd etmək lazımdır ki, bu cümlələrdə yalnız feli xəbərlər deyil, ismi xəbərlərindən ellipsisə uğramasının şahidi oluruq.Məsələn, yenə gündəlik danışığımızdan bir nümunə; Uşaqdan nə xəbər?. Xəbərin buraxılmasından söhbət açmışkən, var/yox tipli cümlələrin elliptik konstruksiyada iştirak etməsini də qeyd etməliyik. Məs.; İndi bunların nə mənası?.

Elliptik cümlələrdən danışdığımız zaman, onların yarımçıq cümlələrlə bənzərliyin və ya fərqlərini qeyd etmək xüsusən vacibdir. Bu haqda dilçilər arasında vahid fikir mövcud olmamışdır. Rus dilçilərindən bəziləri (A.A. Şaxmatov, A.P.Skovorodnikov və s.) elliptik cümlələrdən söhbət açarkən, sintaktik cəhətdən natamam olan bütün cümlələri yarımçıq cümlə qrupuna daxil edirlər.Lakin, biz bu tədqiqatçılarla tam şəkildə razılaşa bilmərik. Sintaktik cəhətdən hər ikisinin də yarımçıq olması, onların arasında bərabərlik işarəsi qoymağa bizə səbəb vermir.Bu cümlələr arasındakı fərqin aydın şəkildə izahını biz AMEA-nın sintaksisə dair tədqiqatlarında görə bilərik;

1) Yarımçıq cümlələrdə mübtədanın, tamamlığın, xəbərin buraxılması mümkün olduğu halda, elliptik tipli yarımçıq cümlələrdə yalnız xəbər buraxılmış olur.

2) Xəbəri buraxılmış başqa yarımçıq cümlələrdə xəbər əvvəlinci cümlədə və ya kontekstdə olur, elliptik tipli yarımçıq cümlələrdə isə buraxılmış xəbər əvvəlinci cümlədə olmur və cümlənin , kontekstin ümumi məzmununa görə aydın edilib bərpa oluna bilər [2, s. 175].

---

10 BDU-nun doktorantı raghayeva@mail.ru

Gördüyümüz kimi, elliptik cümlələrdəki xəbərlərin və ya digər cümlə üzvünün buraxılması mənaya heç bir xələl gətirmir, əksinə qısa şəkildə də olsa, bu cümlələrdə bir poetiklik hiss olunur. Bu da təsadüf deyil ki,elliptik cümlələrə biz daha çox nəzm əsərlərində sıx-sıx qarşılaşırıq. Məs.;

Azadlığın al rəmzi var bayrağında,
Bayrağına canım qurban, Azərbayan! [9].

Beləliklə, elliptik cümlələr danışıq dilinin xüsusi növünü təşkil edir. Bu cümlələrdə məqsəd sadəcə olaraq hərəkətin prosesini, onun başvermə tərzini təsvir etmək deyil, mübtədanın hal və vəziyyətinin səciyyəsini verən yer, zaman və tərz haqqında, mübtədanın fəaliyyətinə məruz qalan obyektlər haqqında məlumat verməkdir.

Dialoji nitqimizdə olduqca çox işlənən ; salam, axşamınız xeyir və s. tipli ifadələrdən ibarət olan cümlələri ilk baxışdan elliptik cümlələr bənzətmək olar.Lakin bu tipli cümlələri nə elliptik, nə də yarımçıq cümlələrə aid etmək düzgün olmaz. Burada xəbərin buraxılmış olması, bizə bu cümlələrin elliptik olmasını deməyə əsas vermir. Qeyd etdiyimiz cümlələr o qədər sabitləşmişdir ki, burada xəbərin işlənməsinə ehtiyac da duyulmur.

Monoloq nitqindən fərqli olaraq, dialoji nitqlərdə yarımçıq və elliptik cümlələr daha çox işlədilir. Elliptik cümlənin bütün xüsusiyyətləri özünü dialoqlarda qabarıq şəkildə büruzə verir. Bu da öz növbəsində dialoqların sual-cavaba bölünmək xüsusiyyətindən irəli gəlir. Məlumdur ki, bu xüsusiyyətlər canlı danışıq dilinə məxsus olub, bədii əsərlərdə də öz əksini tapır. Bədii ədəbiyyatda, xüsusən də, dram əsərlərində dialoq böyük rol oynayır. O, bədii ədəbiyyatda iştirak edən ayrı-ayrı şəxslərin nəinki fikirlərini və hisslərini əks etdirir, eyni zamanda daxili hiss və həyəcanlarının incəliklərini də göstərir.

Məs.; Bədii əsərlərimizdə işlənən dialoqlara fikir verdiyimiz zaman, burada xahiş məzmunlu elliptik cümlələrə rast gələ bilirik. Məs.; - Bir parça çörək (verin). Bu cümləyə fikir verdiyimiz zaman görürük, burada xahişlə yanaşı bir üzüntü, tələş, ehtiyac hissləri də var.

Elliptik cümlələr xəbəri buraxılmış yarımçıq cümlələrin bir növüdür. Çünki bunlarda da xəbərsiz yarımçıq cümlənin başqa növlərində olduğu kimi xəbər buaxılır. Lakin bununla belə, elliptik cümlələri yarımçıq cümlələrlə bərabərləşdirmək düzgün deyil. Yarımçıq cümlələrdə buraxılmış üzv bütöv cümlələrdə olur. Bir nüansa diqqət etmək lazımdır ki, elliptik cümlələrdə xəbərin buraxılması müəyyən məqsədlə bağlı olur. Yəni danışan işin ya icra yerini, ya zamanını, ya səbəbini və s. nəzərə çarpdırmaq istəyir. Məsələn; İrəli, əsgər! dedikdə məqsəd hərəkətin obyektini, dost dar gündə! Misalında işin icra zamanını, yay vaxtında belə yağış?! cümləsində isə əşyanı nəzərə çarpdırmaqdır [7, s. 68]. Məhz bu məqsədlə əlaqədar olaraq, həmin cümlələrdə feli xəbər buraxılmışdır. Fikrin ağırlığı isə tamamlığın, zərfliyin və mübtədanın üzərinə düşmüşdür.

Elliptik cümlələr ilk baxışdan adlıq cümlələrə bənzəyir. Bunların oxşar cəhətləri bundan ibarətdir ki, hər ikisinində xəbəri olmur və buna ehtiyac da duyulmur. Bunlarla bərabər, onların fərqli xüsusiyyətləri də vardır. Elliptik cümlələrdə buraxılmış üzv və ya üzvün bir hissəsini mətnə, yaxud cümlənin öz məzmununa görə müəyyənləşdirmək mümkündür. Məs.; Əsgər, səngərə!. Adlıq cümlələrdə isə heç bir üzv buraxılmır. Bu cümlələrdə müəyyən zamanda hadisənin, əşyanın mövcud olması təsdiq edilir. Adlıq cümlələr hadisələri təsvir məqamında daha çox işlənir və özlərindən sonra gələn cümlələrdəki işin yerini, zamanını və s. göstərir; məs.; Yay günü, yol üstü, ağac kölgəsi.

Elliptik cümlələr sabit söz birləşmələri ilə ifadə olunan söz-cümlələrə bənzəyir. Bu cümlələrin elliptik cümlələrdən fərqi orasındadır ki, bunlarda xəbəri tapıb yerinə qoymaq çətindir, elliptik cümlələrdə isə bunu istədiyimiz vaxt edə bilərik.

Z.Budaqova elliptik cümlələrin təsnifatını belə vermişdir; 1) Feli xəbəri buraxılmış elliptik cümlələr , 2) İsmi xəbəri buraxılmış elliptik cümlələr [2, s. 179].

İsmi xəbəri olmayan cümlələri nəzərdən keçirdikdə görürük ki, adətən belə cümlələrdə var sözü buraxılır və çox zaman sual xarakteri daşıyır. Məs; Sənin oğlun, mənim oğlum, nə fərqi? (S.Rəhimov)

Elliptik cümlələrin işlənmə məqamları aşağıdakılardır:

a) Yalvarış, əzizləmə, alqış, təbrik məqamında; məs: Ziynət, Şeyda toyunuz mübarək. (S.Rəhman)

b) Nifrət, qarğış, narazılıq məqamında; məs: Ağrım xanın ürəyinə, xan gələndə dünya qopmayacaqdır ki, iki kəlmə danışıb, çıxıb gedəcək (N.Vəzirov)

c) Çağırış, müraciət məqamında. Bunlar, əsasən, qəzetlərdə başlıq kimi işlənir; məs.: Oxucuların nəzərinə!

Nəqli və sual cümlələrində müəyyən üzvü nəzərə çarpdırmaq, eləcə də fikrin obrazlı ifadəsi məqsədi ilə feli xəbər buraxılır. Bu qəbil cümlənin əsasını müxtəlif üzvlər təşkil edə bilər.

1. Cümlənin əsasını adlıq halda duran ismi söz birləşməsi ilə ifadə olunmuş mübtəda təşkil edir. Bu tipli cümlələrə əsasən atalar sözlərində çox rast gəlirik. Məs.: Aslanın nə erkəyi, nə dişisi. Doğrudur, misal çəkdiyimiz atalar sözləri çox zaman bütöv şəkildə işlənir. Lakin bizim tədqiqat obyektivimiz dialoji nitq olduğu üçün, biz bu cümlələrin danışıqda işlənən formalarını qeyd edirik.

2. Cümlənin əsasını yönlük, təsirlik, yerlik və ya çıxışlıq halda duran isimlə ifadə edilmiş tamamlıq təşkil edir; məs.: Dostluq üç almadır: gah ikisi səndə, biri məndə , gah ikisi məndə, biri səndə. (Atalar sözləri)

3. Cümlənin əsasını müxtəlif nitq hissələri ilə ifadə olunmuş zərflik təşkil edir. Belə cümlələrdə işin icra yeri, zamanı, məqsədi ilk planda verilir; məs: Çörəyi ellərdən, suyu göllərdən (Atalar sözləri).

4. Tabesiz mürəkkəb cümlələrdən ibarət atalar sözlərində hər iki tərkib hissədə eyni mənalı xəbər, əksərən, buraxılır. Bunlarda da zaman, yer, məqsəd bildirən (zərflik) daha qabarıq nəzərə çarpdırılır; məs.: Ağ ayran ağaclar dibində, qara kişmiş bəylər cibində (Atalar sözləri).

Elliptik cümlələri nəzərdən keçirdiyimiz zaman, onun bir çox işlənmə məqamlarına rast gəldik. Bu da bizə onu deməyə imkan verir ki, elliptika dilçilikdə, o cümlədən dialoji nitqdə xüsusi yer tutur.

Ədəbiyyat
1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998, 224 s.
2. Aslanov A. Azərbaycan dilinin sintaksisinə dair tədqiqlər. Bakı: AzSSR EA, 1963, 191 s.
3. Budaqova Z. Müasir Azərbaycan dilində sadə cümlə. Bakı: Az SSR EA, 1963, 224 s.
4. Hacıyev T. Müasir Azərbaycan dilində mürəkkəb cümlələrin struktur-semantikası. dok. diss. Bakı: AMEA-nın Dilçilik İnstitutu, 1992, 136 s.
5. Həbibova K. Müasir Azərbaycan dilində elliptik cümlə. Bakı: Elm və Təhsil, 2009, 189 s.
6. Vəliyev S. Sadə cümlə. Bakı: Elm, 1997, 80 s.
7. Vəliyev S. Dialoji və monoloji nitqin sadə cümlələri. Bakı: Elm, 1999, 90 s.
8. Yusifov G. Azərbaycan atalar sözlərinin leksik-üslubi xüsusiyyətləri nam.diss., Bakı: 1969, 208 s.
9. https://portal.azertag.az/az/node/6710
Açar sözlər: Elliptik, konstruksiya, dialoq, məzmun, cümlə üzvləri
Key words: Elliptic, dialog, construction, content, sentence members
Ключевые слова: Эллиптический, диалог, строительство, содержание, члены предложения

Dialoji mətnlərdə elliptik konstruksiyalar

Xülasə

Məqalədə müasir dilimizdəki dialoji mətnlərin strukturu qısa şəkildə nəzərdən keçirildi. Dialoqları təhlil edən zaman, dilimizdə mövcud olan elliptik cümlələri tədqiqata cəlb etdik. Elliptik cümlələrin bir sıra müxtəlif formalarının olması sübut edir ki, hal-hazırdakı müasir nitqimiz olduqca zəngindir. Elliptik konstruksiyaların araşdırılması onun yarımçıq cümlələrdən fərqləndirilməsinə də geniş imkan açır. Həmçinin, onun işlənmə məqsədlərinin və cümlədəki yaratdığı məna çalarlığı xüsusi diqqət kəsb edir. Elliptik cümlələri araşdırarkən məlum olur ki, onun daha çox atalar sözlərində işlənməsi də, bu konstruksiyaların qədimliyindən xəbər verir. Elliptika bizim sadəcə nəsr dilimizə deyil, poetik şeir dilimizə də olduqca çox nüfuz etmişdir. Bu da öz növbəsində şeir dilimizə daha da məna çalarlığı qatmışdır. Qısa olaraq qeyd etmək olar ki, dialoqlarımızda yarımçıq cümlələr qədər elliptik cümlələr də böyük rol oynayır. Bu baxımdan elliptik cümlələrin daha da geniş şəkildə öyrənilməsi vacibdir.

Эллиптические конструкции в диалогических текстах

Резюме

В статье кратко рассматривается структура диалогических текстов в нашем современном языке. При анализе диалогов мы исследовали эллиптические предложения, существующие в нашем языке. Существование ряда различных форм эллиптических предложений доказывает, что наша современная речь очень богата. Изучение эллиптических конструкций также позволяет отличать их от неполных предложений. Особое внимание также уделяется цели его развития и смысловому оттенку, который он создает в предложении. Рассматривая эллиптические предложения, оказывается, что их употребление в пословицах также свидетельствует о древности этих конструкций. Эллиптика оказала большое влияние не только на наш прозаический язык, но и на наш поэтический язык. Это, в свою очередь, добавило больше смысла нашему поэтическому языку. Короче говоря, эллиптические предложения играют важную роль в наших диалогах, как и неполные предложения. В связи с этим важно более широко изучать эллиптические предложения.

Elliptical constructions in dialogic texts

Summary

The article briefly reviews the structure of dialogic texts in our modern language. When analyzing dialogues, we explored elliptical sentences that exist in our language. The existence of a number of different forms of elliptical sentences proves that our modern speech is very rich. The study of elliptical constructions also allows to distinguish it from incomplete sentences. Special attention is also paid to the purpose of its development and the shade of meaning it creates in the sentence. Examining elliptical sentences, it turns out that its use in proverbs also indicates the antiquity of these constructions. Elliptics has greatly influenced not only our prose language, but also our poetic language. This, in turn, has added more meaning to our poetic language. In short, elliptical sentences play an important role in our dialogues, as well as incomplete sentences. In this regard, it is important to study elliptical sentences more widely.

RƏYÇİ: dos .E.Vəliyeva

Səbinə Əhməd qızı Muxtarova11

PROFESSOR Ə.ABDULLAYEVİN YARADICILIĞINDA CÜMLƏ ÜZVÜ MƏSƏLƏLƏRİ

Azərbaycan dilçilik elmi tarixində silinməz iz buraxan alimlər içərisində filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Mükafatı laureatı Əlövsət Zakir oğlu Abdullayevin xüsusi yeri vardır. K.Vəliyev haqlı olaraq yazır ki, "Əlövsət müəllimin bütün həyatı ana dilinə xidmət nümunəsidir" (14, s. 5). Professor Ə.Abdullayevin məşğul olduğu sahələr çox genişdir; demək olar ki, dilin elə bir sahəsi yoxdur ki, alim orada qələmini işlətməsin, ciddi fikirlər söyləməsin, yeniliklər etməsin. Fonetika, orfoqrafiya, orfoepiya, leksikologiya, etimologiya, morfologiya, sintaksis, nitq mədəniyyəti və s. sahələrlə məşğul olan alim Azərbaycan dilçiliyinin ən aktual, mübahisə obyekti olan və həllinə ehtiyacı olan problemləri ilə bağlı çoxlu sayda əsərlərin müəllifidir. Bu məsələlər içərisində bir çoxu var ki, onlar haqqında dilçiliyimizdə ilk dəfə məhz Ə.Abdullayev araşdırma aparmış, fikir söyləmişdir. Köməkçi nitq hissələri, o cümlədən ədatlar, predikativlər, xüsusiləşmələr, əlavələr, tabeli mürəkkəb cümlədə transformasiya, qarışıq tipli mürəkkəb cümlələr və s. alimin ilk dəfə elmimizdə işlədiyi sahələrdir.

Ə.Abdullayevin yaradıcılığında sintaksis məsələlərinin araşdırılması mühüm yer tutur. Türkologiyada, əsas etibarilə tabeli mürəkkəb cümlənin əvəzsiz tədqiqatçısı kimi tanınan alimin yaradıcılığında sadə cümlə ilə bağlı məsələlər də yer alır. Alimin "Feili sifət və feili bağlama tərkibləri posessiv quruluşa malik olan söz birləşmələridir", "Cümlə üzvləri", "İkinci dərəcəli üzvlər", "Sintaktik əlaqələr", habelə "Türk dillərində sintaktik quruluşun qeyri bərəvər inkişafi" və s. kimi məqalələri bu sahədə istiqamətverici xarakterə malik olub, gələcək tədqiqatlara, bir növ, işıq salır. Qeyd edək ki, müəllifin cümlə üzvləri ilə bağlı yazıları "Azərbaycan dili məsələləri" kitabında toplandığından biz də fikirləri o kitaba müraciət etməklə təhlil etməyə çalışacağıq (1).

Qeyd edək ki, professor cümlə üzvləri ilə bağlı ayrıca tədqiqat əsəri yazmaqla yanaşı, bu mövzunun Azərbaycan dilçiliyində tədqiqi ilə bağlı da ayrıca məqalə yazmışdır. Böyük bir dilçi ordusunun adını sadalayan müəllif əsas diqqəti mövzu ilə bağlı yanlışlığa yönəldərək, onun mahiyyətini izah etməyə çalışır. Müəllifin fikrincə, ən çox nəzərə çarpan yanlışlıq ikinci dərəcəli üzv kimi tamamlıq və təyinin olduğunu qəbul etmək, zərfliyi cümlə üzvü hesab etməməkdir. Təbii ki, müasir dilçiliyimiz üçün belə fikir absurd görünür, lakin keçən əsrin 40-cı illərinin sonunda başqa dilçilərin zərfliyin cümlə üzvü kimi qəbul etməsinə baxmayaraq, 1947-ci ildə məntiqi qrammatikanın nümayəndələrindən olan böyük dilçi Ə.Dəmirçizadə tərəfindən yazılan "Müasir Azərbaycan dili. Cümlə üzvləri" (8) kitabında bu fikrin irəli sürülməsi, doğrudan da, diqqəti cəlb etməyə bilməzdi. Ona görə də Ə.Dəmirçizadənin əsərinə müraciət edərək, oradakı qesurları göstərərək, əslində bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoymuşdur. Onun fikrincə, Ə.Dəmirçizadənin böyük nöqsanı "zərfliyin cümlə üzvləri sırasından çıxarılması, mübtədanın baş üzv sayılmaması, xitab, ara söz, nida və bağlayıcıların cümlə üzvü hesab edilməsi idi" (8, s. 5).

Onu qeyd etmək lazımdır ki, Ə.Dəmirçizadənin cümlə üzvlərinin təsnifatında əsas götürdüyü prinsipə XX əsrin əvvəlində rus dilçiliyində, məsələn, Ovsyaniko-Kulikovskidə, habelə türkologiyada A.P.Potseluyevskidə rast gəlmək olur; belə ki, hər iki alimin yaradıcılığında yalnız xəbərin baş üzv olması, mübtəda və tamamlığın birinci dərəcəli üzv olması faktı özünü göstərir (11, s. 206). Xəbərin cümlədə əsas üzv kimi alınması fikri XIX əsrin sonlarında təşəkkül tapmış və sintaksisə psixoloji cəhətdən yanaşan dilçilərdə də özünü göstərmişdir. Onlar cümlə şəklində hər hansı fikrin verilməsində hərəkərin (yəni xəbərin) ilkin nəzəri cəlb etdiyi fikrini müdafiə edirdilər, ona görə də baş üzv kimi ancaq xəbəri götürürdülər. Bunun təsiri sonralar da bəzi dilçilərdə özünü göstərmişdir.

Professor Ə.Abdullayev cümlə üzvlərinin iştirakı ilə bağlı cümlə növlərinin yanlış izah olunmasına qarşı da öz mövqeyini bildirmişdir. Müəllif N.C.Abdullayevanın mübtədası xəbərdə şəxs sonluqları ilə ifadə olunmuş cümlələri təktərkibli müəyyən şəxsli cümlə adlandırmasına da etirazını bildirmişdir. Onun fikrincə, "Sən bizim katibəsən, ancaq zarafatdan əl şəkmirsən" cümləsində xəbərlər bir mübtəda ətrafında birləşmiş və xəbər də baş üzv olduğundan hər bir xəbərin də ətrafında ikinci dərəcəli üzv yerləşə bilər. Bunu ikinci həmcins xəbərdə müşahidə edirik.

Burada maraqlı bir məsələ də özünü göstərir: professor Ə.Abdullayev A.Həsənovun cümlə üzvləri ilə bağlı fikirlərini analiz edərkən onun dilçiliyimizə gətirdiyi belə bir "yenilikdən" də bəhs edir ki, bir cümlədə həmcins olmayan iki mübtəda ola bilir. Buna belə misallar verilir: Bu sülalənin hökmdarları Şirvanşahlar adlanırdılar. (Azərbaycan tarixi); Bulatay bütün qüvvələrə sərkərdə təyin olundu. (Y.V.Çəmənzəminli) Ənənəvi təlimə görə birinci cümlənin mübtədası "sülalənin hökmdarı" ismi birləşməsi, ikinci cümlənin mübtədası isə "Bulatay" xüsusi ismidir. Lakin birinci cümlədəki "Şirvanşahlar", ikinci cümlədəki "sərkərdə" sözlərinin də mübtəda adlandırılması birmənalı şəkildə qəbul edilən fikir deyildir. Bu məsələyə toxunan Q.Kazımov "ikinci mübtəda" kimi təqdim edilən o sözləri əslində xəbərin tərkib hissəsi hesab edir. Müəllif yazır: "İkinci "mübtədalar nəzərə alınmadan xəbərlərin heç birini müstəqil xəbər saymaq olmaz. Xəbərin mənası yalnız müəllifin ikinci mübtəda hesab etdiyi sözlərlə birlikdə konkretləşir" (9, s. 114; 5, s. 245). Bizə belə gəlir ki, verilmiş nümunələrdə "Şirvanşahlar adlanırdılar" və "sərkərdə təyin olundu" ifadələrini birlikdə xəbər hesab etmək düzgün deyildir, ona görə ki, həm qrammatik, həm də leksik-semantik cəhətdən ayrıdır.

Professor Ə.Abdullayevin cümlə və cümlə üzvləri haqqında fikirləri sintaktik təlimdə mühüm əhəmiyyətlidir. Müəllif cümlə üzvlərinin müəyyənləşməsində bir sıra xüsusiyyətlərin olmasını zəruri hesab edir. Bu cərgədə leksik mənanın olması, bir-biri ilə məna və qrammatik əlaqədə olması, sintaktik funksiya daşıması, cümlədə müəyyən mövqeyə malik olması, xüsusən cümlədə müəyyən yerə malik olması və s. məsələlər diqqət mərkəzində götürülür. Bu xüsusiyyətlər içərisində nitq hissələrin-

---

11 Bakı Dövlət Universitetinin doktorantı

in semantikası cümlə üzvünün müəyyənləşməsində əsas hesab edilir. Müəllif hətta isimlə ifadə olunan cümlə üzvünün eyni halda belə, müxtəlif cümlə üzvü vəzifəsində çıxış edə bilməsini bu sözlərin semantikası ilə bağlı olduğunu konkret misallarla izah edə bilir. Belə ki, ismə aid olan bəzi sözlər əşya, digər sözlər məkan anlayışı bildirir ki, bunların eyni halda, məsələn, yönlük, yerlik və çıxışlıq hallarda müxtəlif cümlə üzvü funksiyasında çıxış etdiyini müşahidə edirik. Müəllif əşya bildirənlərə "kitab, çanta, portfel", məkan bildirənlərə "otaq, məktəb, kənd" sözlərini misal gətirərək, müvafiq hallarda birincilərin tamamlıq, ikincilərin isə yer zərfliyi olduğunu əsaslandırır.

Alim dildə özünü göstərən və bir çox halda mübahisə obyektinə çevrilən bəzi sintaktik vahidlərin müəyyənləşməsi üçün də konkret kriteriyalar müəyyənləşdirir və bu əsasda mübahisənin asanlıqla həll olunduğunu görmək mümkündür. Məsələn, "məhəbbətlə" sözünün müxtəlif cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlənməsini müəllif belə izah edir: "Eyni formalı söz həm tərzi-hərəkət zərfliyi, həm də vasitəli tamamlıq vəzifəsində işlənir. Bu onların işlənmə mövqeyindən, əlaqələndiyi feildən, cümlənin məzmunundan, buna əsasən də tələb etdiyi sualdan asılıdır. Misallar. 1. Sabutay Aygünü çılğın məhəbbətlə sevir; 2. Qəlbim bu məhəbbətlə isinir" (səh. 149). Birinci nümunədəki "məhəbbətlə" sözünün tərzi-hərəkət zərfliyi, ikinci nümunədəki eyni sözün isə vasitəli tamamlıq olduğu qeyd olunur.

Onu da qeyd edək ki, bu sözlərin fərqləndirici kriteriyaları düzgün müəyyənləşdirilmişdir. Lakin bununla yanaşı, demək lazımdır ki, əslində bu sözlər qrammatik-semantik cəhətdən eyni deyil; belə ki, birinci cümlədəki söz nitq hissəsi olaraq, isimdən düzələn tərzi-hərəkət zərfidir və onların sintaktik vəzifəsi, bir qayda olaraq, tərzi-hərəkət zərfliyidir. İkinci cümlədəki söz isə nitq hissəsi kimi isim olaraq qalır, ona görə ki, ona birləşən –lə zərf düzəldən şəkilçi yox, qrammatik kateqoriyaya aid olan qoşmadır. Qoşma isə sözə çalar versə də, onun ümumqrammatik mənasını dəyişmir.

Ümumiyyətlə, demək lazımdır ki, müasir dilçiliyimizdə bəzən mübahisə yaradan bu tipli bir neçə məsələyə professor Ə.Abdullayev konkret misallar verib şərh etməklə aydınlıq gətirir. Xüsusən ismin eyni halında, məsələn məkani-qrammatik hallardan hər hansı birində olan sözün hansı cümlə üzvü olması ilə bağlı maraqlı faktlar verilir. Bu zaman müəllif halda olan sözün məzmunca əşya və ya məkan bildirməsinə, o cümlədən semantikasına xüsusi fikir verir. Onu da deyək ki, müəllifin bu cür dəqiqləşdirmələr aparması, bir tərəfdən, dilimizin qrammatik quruluşunun səciyyəvi cəhətlərinin müəyyənləşdirməsinə xidmət edirsə, digər tərəfdən, məktəb qrammatikasının, o cümlədən dərsliklərin formalaşmasına böyük köməkdir. Müəllif eyni sözün eyni sintaktik mühitdə və eyni sözlərin əhatəsində müxtəlif funksiyalar yerinə yetirməsinə aid maraqlı nümunələr verir: 1. Pulları evə vermişəm(yəni saxlamağa vermişəm); 2. Pulları evə vermişəm(yəni ev almışam) (səh. 150).

Omonim səciyyəli bu konstruksiyada informasiyanın məzmunu fərqlidir; bunu müəllif özü qeyd etmişdir və bu fərqin bilavasitə feilin semantikası ilə bağlı olduğunu göstərir. Doğrudan da, "vermək" feili "Bir şeyi öz əlindən çıxarıb başqasına ötürmək, təslim etmək, çatdırmaq, tapşırmaq" mənasını ifadə edir (7, s. 471). Bu mənaya birinci cümlədəki feil uyğun gəlir. Lakin həmin feil dilimizdə həm də məcazi mənada işlənir, müxtəlif mənalı sözlərlə əlaqədə rəngarəng çalarlar ifadə edir. İkinci cümlədə də həqiqi məna başa düşülür, yəni haqqında söhbət gedən pul, doğrudan da, verilib, lakin burada ödəmə məzmununa malikdir. Burada "vermək" feili həqiqi məna daxilində həm də qarşılıqlı şəkildə həyata keçirilən prosesin bir tərəfini ifadə edir; pul verilib, ev alınıb. Bununla yanaşı, bu cümlədə "vermək" feili birbaşa obyektlə əlaqələnməmişdir; belə ki, "pulu kiməsə vermək" ifadəsində "kiməsə" sözü birbaşa obyekt, yəni pulun yönəldiyi, təqdim edildiyi tərəf kimi çıxış edir. Verilən cümlədə isə "ev" sözü obyekt deyil, səbəbdir, yəni pul ev üçün verilmişdir.

Məsələyə bu cür yanaşma yalnız sintaktik təhlil üçün deyil, əlaqəyə girən feil və digər sözün qarşılıqlı əlaqəsində qazandıqları semantik cəhətlə bağlıdır. Feilin mücərrədləşməsi onunla əlaqəyə girən sözlə münasibətində və bu cəhətdən sintaktik təhlilin fərqli xüsusiyyətinin meydana çıxmasında əsaslı rol oynayır. Professor Ə.Abdullayev bu münasibətlə aşağıdakı nümunələri misal gətirir: 1. Evə gedirəm; 2. Evə baxıram ("tamaşa edirəm" mənasında); 3. Evə baxıram ("evi saxlayıram" mənasında) (səh. 150). Məllifin fikrincə, birinci nümunədə "gedirəm" feili dinamik feil, sonrakı cümlələrdə "baxıram" feili isə statik feildir, ona görə də "gedirəm" feili ilə əlaqələnən "evə" sözü hərəkətin istiqamətləndiyi məkanı bildirdiyindən yer zərfliyi funksiyasını yerinə yetirir. İkinci və üçüncü cümlələrdə "baxıram" feili ilə əlaqələnən "evə" sözü obyekt səciyyəsinə malik olduğu üçün vasitəli tamamlıqdır.

Burada bir məsələyə də münasibət bildirmək lazım gəlir. İkinci və üçüncü nümunələrdə "baxıram" sözü statik feil kimi çıxış etsə də, onlar arasında bərabərlik işarəsi qoymaq olmaz; belə ki, ikinci nümunədə " baxıram" feili özünün həqiqi mənasında işlənərək, "evə" sözü ilə birbaşa semantik təmasdadır, ona görə də statikliyin özündə zəif də olsa bir dinamika vardır, yəni obyektə təsir vardır. Üçüncü nümunədə isə "baxıram" sözü həqiqi mənada işlənməmişdir; Burada həmin söz "qulluq etmək, qayğısına qalmaq, təmin etmək" (6, s. 209). Bu sözün məcazi mənada işlənməsi obyektlə əlaqəsində qrammatik fərqlilik yaratmır və bu halda da obyekt əlaqəsi özünü göstərir və "evə" sözü yenə də vasitəli tamamlıq funksiyasını yerinə yetirir.

Dilimizin tarixini, onun təkamül prosesini dəqiq bilən professor Ə.Abdullayev müasir dilçiliyimizdə düzgün təhlili verilməyən bəzi qrammatik formalar haqqında dəyərli fikirlər söyləyir. Bu cəhətdən alimin qədim alət (instrumental) halının qalığı olan və formaca təsirli hala oxşayan sözlər haqqında fikirləri diqqəti cəlb edir. Müasir dilimizin qrammatikasına aid yazılan bəzi əsərlərdə bu tip ifadələrin təsirlik halda olan söz kimi təqdimi ilə qarşılaşırıq: "Zaman bildirən isimlər təsirlik halda işləndikdə həm təsirli, həm də təsirsiz feili xəbərə aid olub(bəzən də öz təyinləri ilə birlikdə) zaman zərfliyi olur: məs.:...Ona baxma, bu yayı anam müəllim tutacaq, hazırlaşacağam!" (S.Rəhimov) (2, s. 160). Akademik "Müasir Azərbaycan dili" kitabında isə yazılır: "Bəzən təsirlik halında ifadə ilunan sözlər feilin məna tələbilə cümlənin tamamlığı yox, zərfliyi olur". Buna misal olaraq "Cavad tamam qışı xəstə yatıb" tipli cümlələr gətirilir (10, s. 198). Professor Ə.Abdullayev həmin formanın təsirlik hal deyil, qədim instrumental haldır; "Kitabi-Dədə Qorqud"dan gətirdiyi "Bir yazın, bir küzin buğa ilə buğranı kürəşdirərdilər" cümləsini misal gətirərək, "yazı" tipli ifadələrin məhz həmin sözlərin sonrakı ink-

işafda qazandığı formadır. Bunu sübut etmək üçün müəllif əsaslı dəlillər gətirir: "Yaxşı olar ki, instrumental hal forması ilə təsirlik hal forması da qarışdırılmasın. Onda belə bir "qeyri-qanuni" təsirlik hal da meydana çıxmaz. Əgər o, həqiqətən, təsirlik haldırsa, gərək vasitəsiz tamamlıq olsun. Təsirlik halın təsirli feillərlə işləndiyi ümumi haldır" (səh. 152). Müəllif bu fikirdədir ki, təsirlik halda olan söz təsirsiz feillə işlənməz, halbuki instrumental halda olan söz təsirli feillə olduğu kimi, təsirsiz feillə də işlənə bilir.

Professor Ə.Abdullayev cümlədə fikir yükünün hansı cümlə üzvünün üzərində olması fikrinə də aydınlı gətirir. Müəllif göstərir ki, baş üzvlər cümlədə əsas rola malikdir, lakin bu, cümlənin formalaşması üçün daha düzgün qəbul edilə bilər. Daha doğrusu, cümlə qurmaq tərəfdən məsələyə yanaşılsa, baş üzvlər əsasdır; onlarsız (xüsusən də xəbərsiz) cümlə ola bilməz. Bununla yanaşı, müəllif gətirdiyi bir neçə nümunə əsasında sübut edir ki, müəyyən cümlələrdə semantik ağırlıq ikinci dərəcəli üzvlərin üzərinə düşə bilir. Alimin gətirdiyi bir neçə nümunədən biri əsasında fikrimizi izah edəcəyik. "Dərs zamanı dinc oturmayan şagirdi görən müəllim deyir: "A bala, dinc otur". Burada məqsəd heç də o deyil ki, müəllim şagirdi oturtsun. Çagird onsuz da oturub. Müəllim onu intizama dəvət edir. Ona görə də dinc sözü ikinci dərəcəli üzv də olsa, bu cümlədə əsas semantik sanbala malikdir" (səh. 153-154). Bu artıq cümlənin semantik-qrammatik səciyyəsinin məntiqi əsasda elmi cəhətdən sadə bir dillə izahıdır ki, bundan asan dillə həmin fikri qəbul etdirmək olmazdı. Onu da qeyd edək ki, dünya dilçiliyində də bu fikrin təsdiqinə rast gəlmək olur. Belə ki, V.Q.Admoni alman dili materialları əsasında göstərir ki, cümlə üzvlərinin baş üzv və ya ikinci dərəcəli üzv olması o demək deyil ki, konkret mətndə bunlardan biri semantik cəhətdən əsas, digəri isə ikinci dərəcəli xarakter daşıyır (3, s. 68)

İkinci dərəcəli üzvlər haqqında professor Ə.Abdullayevin maraqlı fikirləri vardır. Müəllif ikinci dərəcəli üzvləri iki qrupa ayırır: 1)cümlənin əsas qismində (onun predikativ xarakterli hissəsində); 2)cümlədə işlənən feili tərkiblərin, yəni feili sifət, feili bağlama və məsdər tərkiblərinin içərisində işlənənlər. Birinci qrupa ənənəvi dilçiliyimizdə qəbul edilən və mübtəda və xəbər qrupunda birləşən üzvlər nəzərdə tutulur. İkinci halda isə feili tərkiblərin içərisində olan sözlərin cümlə üzvü adlandırılması ilə qarşılaşırıq. Bu zaman müəllif feili tərkibli cümləni müvafiq tabeli mürəkkəb cümlə ilə müqayisə edir. Müəllifə görə, budaq cümlə daxilindəki sözlər cümlə üzvləri olduğu kimi, feili birləşmələrin tərkibindəki sözlər də ikinci dərəcəli üzv hesab edilməlidir. Qeyd edək ki, "Müasir Azərbaycan dili" dərsliyinin 1985-ci il nəşrində tamamlıqdan bəhs edən A.Həsənov tamamlığın tərkib daxilində feili sifətə, feili bağlamaya və məsdərə də aid olması fikrini qeyd etmişdir (2, s. 138). Lakin dərsliyin sonrakı – 2007-ci il nəşrində artıq bu qeydə rast gəlmirik.

Professor Ə.Abdullayevin gətirdiyi arqumentlərdən biri tabeli mürəkkəb cümlələrin bəzilərində budaq cümlənin baş cümlədəki hər hansı tamamlığa deyil, məhz tərkib daxilindəki oxşar – müvafiq sözə aid olmasıdır ki, tabeli mürəkkəb cümləni sadə cümləyə çevirəndə də budaq cümlə həmin sözün yerində işlənmiş olur. Fikrini əsaslandırmaq üçün müəllif belə bir misala müraciət edir: Sənə deyən var ki, bu gün ayın neçəsidir? (səh. 158) Burada budaq cümlənin (bu gün ayın neçəsidir) baş cümlədə feili sifət tərkibində iştirak etməyən, lakin düşünülüb bərpa edilə bilən "qəlib söz" sözü izah və əvəz etməsi belə deməyə əsas verir ki, budaq cümlə baş cümlənin hətta ümumiləşmiş şəkildə qəbul edilmiş üzvlərinə deyil, feili tərkibin daxili üzvünə də aid ola bilər.

Professor Ə.Abdullayevin cümlə üzvləri ilə bağlı araşdırmaları içərisində yiyəlik hallı sözün cümlə üzvü olub-olmaması ilə bağlı fikirləri əhəmiyyətli yer tutur. Məlumdur ki, Azərbaycan dilçiliyində ikinci və üçüncü növ təyini söz birləşməsinin birinci komponenti kimi çıxış edən yiyəlik hallı söz müstəqil cümlə üzvü kimi ayrılmır; birləşmə komponentləri ilə birlikdə bir cümlə üzvü kimi təhlil edilir. Bu məsələdə fərqli mövqe tutan professor Ə.Abdullayev halların hər birinin sintaktik funksiyasının əsas alması ilə yanaşı, türkologiyadakı yanaşmanı, habelə sözlərin leksik-qrammatik əlaqələnməsində spesifik cəhətlərə diqqəti yönəldir. Alimin fikrincə, qeyri-müəyyən yiyəlik halın mənsubiyyət şəkilçili ikinci tərəfdən ayrılıb müstəqil cümlə üzvü kimi çıxış etməsi mümkün deyil; bunu sübut etmək üçün bir neçə arqument gətirir. İlk olaraq onu göstərir ki, müəyyən yiyəlik hal müstəqil şəkildə cümlənin xəbəri ola bilir; "Bu kitab Əhmədindir" cümləsində "Əhmədindir" sözü ismi xəbərdir.

Bəzən belə fikirlə qarşılaşırıq ki, bu halda üçüncü növ təyini söz birləşməsinin yiyəlik halda olan birinci komponenti ikinci komponentdən ayrılaraq, xəbər mövqeyinə keçmişdir ki, bu zaman həmin sözün aktuallaşmasını rolu böyükdür. Burada aktuallığın rol oynaması məlumdur, çünki aktual olan söz, cümlə üzvü, bir qayda olaraq, cümlənin sonuna meyillənir. Lakin dil materialını, xüsusən də sintaktik materialı bu şəkildə müqayisə etmək yanlışdır, bu, qrammatik anlayışla məntiqi anlayışı qarışıq salmağa bərabərdir. Bu konstruksiyaların hər biri ayrı-ayrı cümlələrdir. Hər şeydən əvvəl ona görə ki, bu cümlələrdə ifadə olunan fikirlər tamam başqa-başqadır ki, burada yiyəlik hallı sözün xəbər funksiyasında çıxış etməsinin rolu əvəzsizdir. Ələvsət müəllimin gətirdiyi arqumentlərdən biri də tabeli mürəkkəb cümlənin bəzilərində budaq cümlənin baş cümlədə üçüncü növ təyini söz birləşməsinin birinci komponentinə aid olub, onu izah etməsidir ki, bu barədə bir az əvvəldə bəhs etmişdik. Belə ki, bu tip tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümlə daxilində olan söz birləşməsinin yalnız təsirlik halda olan sözünü deyil, digər hallarda olan komponentlərini də izah edə bilir. Alimin gətirdiyi müqayisə üçün gətirdiyi nümunələrdən bilavasitə yiyəlik halla bağlı bir misala müraciət edək: Mən onun dərdini çəkirəm ki, sən nə vaxt müstəqil hərəkət edəcəksən (səh. 165).

Nümunədən aşkar göründüyü kimi, postpozitiv budaq cümlə (Sən nə zaman müstəqil hərəkət edəcəksən) baş cümlədəki başqa üzvü deyil, məhz üçüncü növ təyini söz birləşməsinin yiyəlik haldakı birinci komponenti olan "onun" sözünün məzmununu açmağa xidmət edir. Bu zaman müvafiq sual da ona verilir: Mən nəyin dərdini çəkirəm? Buna məhz budaq cümlə cavab kimi meydana çıxır: Sənin nə vaxt müstəqil hərəkət edəcəyinin.Təbii ki, güclü arqumentdir, burada başqa cür düşünmək də mümkün deyil.

Müəllifin sözlərin morfoloji və sintaktik sualların verilməsi ilə bağlı gətirdiyi arqument də inandırıcılığı ilə diqqəti cəlb edir; digər halların sualları cümlə üzvlərinin sualları kimi sabitləşdiyi halda, niyə yiyəlik halın sualı müvafiq cümlələrdə verilsə də, sintaktik sual kimi qəbul edilmir. Bununla da müəllif o fikirdədir ki, təyinin sualları cərgəsinə kimin?, nəyin?, haranın? Sualları da daxil edilməlidir.

Onu da xatırlatmaq istəyirik ki, keçən əsrin 80-ci illərində bu məsələ ilə bağlı bir-birini təkzib edən fikirlərin yer aldığı məqalələr çap olunmuşdu; Ə.Sadıqov (12) və Y.Seyidov (13) üçüncü növ təyini söz birləşmələrinin tərəflərinin sintaktik təhlildə ayrılmasının düzgün olmadığı fikrini müdafiə edirdilərsə, A.Axundov və İ.Əhmədov (4), əksinə, həmin birləşmənin tərəflərinin ayrı-ayrı cümlə üzvü kimi izah edilməsinin tərəfdarı kimi çıxış edir və konkret faktlarla fikirlərini əsaslandırırlar.

Professor Ə.Abdullayevin cümlə üzvləri problemləri ilə bağlı fikirləri elmi-məntiqi dəyəri ilə diqqəti cəlb edir və bunların daha ətraflı araşdırılması lazımdır, biz isə bir məqalə həcmində bəzi məsələləri işıqlandırmaqla kifayətlənirik.

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayev Ə. Azərbaycan dili məsələləri. Bakı: Bakı Universiteti, 1992, 329 s.
2. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili, IV hissə, Sintaksis, Bakı: Şərq-Qərb, 20007, 424 s.
3. Адмони В.Г. Введение в синтаксис современного немецкого языка. Москва: Наука, 1956
4. Axundov A., Əhmədov İ. Bizim fikrimizcə // "Azərbaycan dili və ədəbiyyat tədrisi", №4, Bakı, 1983
5. Azərbaycan dilinin funksional qrammatikası: sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi. Bakı: Prestige çap evi, 2014, 505 s.
6. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I cild. Tərtibçilər: Əliheydər orucov, Bəhruz Abdullayev, Nərgiz Rəhimzadə. Bakı: Şərq-Qərb, 2006, 744 s.
7. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. Tərtibçilər: Əliheydər orucov, Bəhruz Abdullayev, Nərgiz Rəhimzadə. Bakı: Şərq-Qərb, 2006, 712 s.
8. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Cümlə üzvləri. Bakı: Azərnəşr, 1947, 88 s.
9. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Elm və təhsil, 2010, 500 s.
10. Müasir Azərbaycan dili. III cild, Sintaksis. Bakı: Elm, 1981, 444 s.
11. Поцелуевский А.П. Избранные труды. Изд. Ашхабад: ЫЛЫМ, 1975,
12. Sadıqov Ə. Üçüncü növ söz birləşməsi haqqında bir neçə söz // "Azərbaycan dili və ədəbiyyat tədrisi". №1, Bakı, 1982
13. Seyidov Y. Bir neçə söz bir neçə cümlə üzvü rolunda. "Azərbaycan müəllimi", №31, 14 aprel, 1983
14. Vəliyev K. Görkəmli alim, sevimli müəllim // Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. Bakı: Bakı Universiteti, 1992, 329 s.

Açar sözlər: sintaksis, cümlə üzvü, yiyəlik hal, funksiya, semantik təmas, semantik yük

Ключевые слова: синтаксис, член предложения, родительный падеж, функция, семантическая связь, семантическая нагрузка

Key words: syntax, a part of a sentence, genitive case, function, semantic connection, semantic load

Professor Ə.Abdullayevin yaradıcılığında cümlə üzvü məsələləri

Xülasə

Azərbaycan dilinin elə bir sahəsi yoxdur ki, professor Ə.Abdullayev araşdırma aparmasın. Bunların bəzilərini dilçiliyimizdə ilk dəfə məhz Ə.Abdullayev tədqiq etmişdir. Köməkçi nitq hissələri, o cümlədən ədatlar, predikativlər, xüsusiləşmələr, əlavələr, tabeli mürəkkəb cümlədə transformasiya, qarışıq tipli mürəkkəb cümlələr və s. alimin ilk dəfə elmimizdə işlədiyi sahələrdir.

Ə.Abdullayevin yaradıcılığında sintaksis məsələlərinin araşdırılması mühüm yer tutur. Türkologiyada, əsas etibarilə tabeli mürəkkəb cümlənin əvəzsiz tədqiqatçısı kimi tanınan alimin yaradıcılığında sadə cümlə ilə bağlı məsələlər də yer alır. "Feili sifət və feili bağlama tərkibləri posessiv quruluşa malik olan söz birləşmələridir", "Cümlə üzvləri", "İkinci dərəcəli üzvlər", "Sintaktik əlaqələr", habelə "Türk dillərində sintaktik quruluşun qeyri-bərabər inkişafi" və s. məqalələrində alim ciddi məsələlər elmi həllini tapır. Bu məqalələrdə müəllif ikinci dərəcəli üzvlərin bəzən cümlədə əsas fikrin daşıyıcısı olduğunu, eyni leksik vahidlərdən ibarət cümlələrdən sözlərin qarşılıqlı əlaqəsinin xarakterindən asılı olaraq müxtəlif funksiyalar daşıdığını, yiyəlik halın müstəqil cümlə üzvü—təyin olduğunu və s. fikirləri konkret faktlar və elmi dəlillərlə sübut edir. Bütün bunlar dilçiliyimizin sonrakı mərhələsindəki tədqiqatlarda əhəmiyyətli rol oynamışdır.

Проблема членов предложения в творчестве профессора А.Абдуллаева

Резюме

Профессор А.Абдуллаев, внесший весомый вклад в азербайджанское языкознание, проводил научные исследования во всех областях грамматики азербайджанского языка. Некоторые из них впервые были изучены в азербайджанском языкознании именно профессором А.Абдуллаевым, в частности, служебные части речи, в том числе частицы, предикаты, обособления, приложения, а также трансформация в сложноподчиненном предложении, сложные предложения смешанного типа и др.

В научном творчестве А.Абдуллаева важное место занимает исследование синтаксических проблем. В научных трудах ученого, известного в тюркологии в основном как выдающегося исследователя сложноподчиненного предложения, особое внимание уделяется и проблемам простого предложения. В статьях А.Абдуллаева " Причастные и деепричастные обороты- словосочетания с позессивной структурой", " Члены предложения", "Второстепенные члены предложения", " Синтаксические связи", а также " Неравное развитие синтаксического строя в тюркских языках" находят своё научное решение серьёзные проблемы. В этих статьях А.Абдуллаев на основе конкретных научных доводов и фактов доказывает, что иногда второстепенные члены предложения заключают в себе основную мысль предложения, в зависимости от характера взаимосвязи слов в предложении, состоящем из одинаковых лексических единиц, выполняют различные функции; родительный падеж является

независимым членом предложения - определением. Все эти научные труды А.Абдуллаева сыграли важную роль в дальнейших исследованиях на последующих этапах развития азербайджанского языкознания

The problem of Parts of a Sentence in Professor A. Abdullaev's works

Summary

Professor A. Abdullayev who made a significant contribution to Azerbaijani linguistics conducted scientific research in all areas of the grammar of the Azerbaijani language. Some of them were first studied in Azerbaijani linguistics by Professor A.Abdullayev, in particular, auxiliary parts of speech, including particles, predicates, separations, appposition, as well as transformation in a complex sentence, compound sentences of a mixed type, etc.

In A.Abdullayev's scientific works, an important place is occupied by the study of syntactic problems. In the scientific works of the scientist known in Turkology mainly as an outstanding researcher of the complex sentence special attention is paid to the problems of the simple sentence.The serious problems find their scientific solution in A. Abdullaev's articles: "Participial and adverbial participial phrases - phrases with a possessive structure", "Parts of a sentence", "Secondary parts of a sentence", "Syntactic relations", and also "Unequal development of the syntactic structure in the Turkic languages".In these articles, A. Abdullayev, on the basis of specific scientific arguments and facts, proves that sometimes the secondary parts of a sentence contain the main idea of the whole sentence, depending on the nature of the relationship of words in a sentence consisting of the same lexical units they perform different functions; the genitive case is an independent member of the sentence, i.e. it is an attribute. All these scientific works of A. Abdullayev played an important role in further research at subsequent stages of the development of Azerbaijani linguistics.

RƏYÇİ: dos. L.Ələkbərova

Cəmilə Rüfət qızı Rüstəmova

TÜRK DİLİNDƏ MÜRƏKKƏB CÜMLƏ MODELLƏRİNİN TƏRTİBLƏNMƏSİNDƏ LİNQVOKULTUROLOJİ FAKTORLARIN ROLU BARƏDƏ

(məsələyə funksional-kommunikativ aspektdən dəyərləndirmə prizmasından baxış)

Türk dilinin mürəkkəb cümlə modellərinin funksional-kommunikativ aspektdən təhlili burada bir çox etnokulturoloji şərtləndirməli məqamların mövcudluğunu təsbit etməyə əsas verir. Belə ki, dil təfəkkürün reallaşma forması kimi, nitq isə təfəkkür prosesi olaraq [1; 71] müəyyən mental proseslərin, koqnitiv mexanizmlərin təsiri ilə şəkillənib inkişaf edir. Yəni, koqnitiv proseslər özlüyündə konseptuallaşma və kateqoriallaşmanı ehtiva etməklə ətraf aləmdən gələn informasiyanın sistemləşdirmə əsasında dərk edilməsinə yardımçı olduğu kimi, eləcə də onların müəyyən mental prizma çərçivəsində dəyərləndirilməsinə, qiymətləndirilməsinə (dilin aksioloji funksiyasının tələblərinə uyğun olaraq) yol açır. Belə ki, funksional-kommunikativ reallaşma özlüyündə cəmiyyət daxilində işləkliyi nəzərdə tutduğundan həmin cümlə modellərinin bu və ya digər real həyati situsiyalarda hansı anlayış ifadə edə biləcəyi, hansı meta-dil mesajını ehtiva edəcəyi yalnız baş verən ünsiyyət formatında, və ya mətn çərçivəsində nəzərdən keçirildikdə isə, tekstemin kontekstual şərtləndirməsində müəyyənləşir.

Yəni, məhz, kontekst (istər şifahi, istər yazılı kontekst) bu və ya digər cümlə modelinin birbaşa və ya dolayı nitq aktını təzahür etdirdiyini müəyyənləşdirməyə əsas verə bilər. Bu kontekstdə dilin aksioloji funsiyasının, məhz, sintaktik yarusa "istiqamətləndiyini" önə sürən K.Y.Siqalın fikirlərini xatırlatmaq yerinə düşərdi. Belə ki, özünün "Aksiologiya və sintaksis" adlı araşdırmasında dilçi haqlı olaraq onu bildirir ki, mürəkləb cümlə modelləri özlüyündə aksioloji şərtləndirmə çərçivəsində reallaşma qazanırlar. Bu kimi fikirlərinin məntiqi davamı olaraq, K.Y.Siqal belə bir nəticəyə gəlir ki, sintaktik vasitələr, konkret olaraq, cümlə modelləri, söz sırası, bağlayıcılar qiymətləndirmə, dəyərləndirmə anlamının qrammatik ifadəsinə xidmət edirlər. Dilçi bu sırada xüsusilə müxtəlif mürəkkəb cümlə modelləri üçün səciyyəvi olan "ancaq", "lakin", "bəlkə", "ya da" və s. bağlayıcıların aksioloji semantika ifadə potensilına diqqət çəkir. [2 ; 236-240]. Aksioloji funksiyanın isə bilavasitə ekstralinqvistik faktorların təsiri ilə formatlana bildiyini (yəni, müəyyən qəlibdə şəkillənə bildiyini) nəzərə alaraq, burada mütləq şəkildə dil – cəmiyyət qarşılıqlı şərtləndirməsindən doğan bəzi məqamlara diqqət yetirmək ehtiyacı duyuruq.

"Dilin inkişafını və onun sistem və stukturunu şərtləndirən ümumi səbəblər və faktorları" dil sisteminin təkamülünün təkanverici qüvvələri statusunda nəzərdən keçirən İ.A.Boduen de Kurtene bu sırada ilk olaraq, vərdiş amilinin mühüm rol oynadığını qeyd etmişdir. [3; 46].

Xatırladaq ki, fərdin nitq vərdişləri idiostili, ideolekti formalaşdırdığı kimi, yəni onun nitq portretini, nitq obrazını yaratdığı kimi (daha ətraflı bax: [4; 63-68]), xalqın, etnik və ya sosial qrupun nitq vərdişləri onların nitq davranışını formalaşdırır (bu barədə də daha ətraflı bax: [5; 172-178]). Və bu zaman istər fərdin, istər xalqın nitq vərdişləri və ya nitq davranışının formalaşmasında həmin xalqa xas olan dil duyumu, dünyanın dil mənzərəsi həlledici rol oynayır. Bir daha dahi İ.A.Boduen de Kurtenenin fikirlərinə müraciət edərək xatırlatmaq istərdik ki, "xalqın dil duyumu, bu, bir uydurma deyil, subyektiv aldanma deyil, əksinə, əlamətlərinə və hərəkətlərinə görə təyin edilə bilən, obyektiv cəhətdən təsdiq etmək və faktlarıa sübut etmək mümkün olan həqiqi müsbət kateqoriyadır (funksiyadır)" [3 ; 50]. Məhz, öz çoxşaxəliliyinə görə, xalqın dil duyumu, xalqın nitq vərdişləri, xalqın dil kimiliyi kimi sıx əlaəqli olan anlayışlar həm linqvokulturoloqların, həm sosiolinqvistlərin, həm psixolinqvistlərin, eləcə də dilin funksional-kommunikativ aspektlərini tədqiq edən dilçilərin müştərək maraq dairəsini təşkil edir.

Ünsiyyət situasiyasında linqvo-davranış strategiyalarını araşdırmış K.S.Fedorova həmin davranış standartlarının, davranış vərdişlərinin, normalarının formalaşmasınasosial, psixoloji, mədəni faktorların təsiri ilə yaranmış dil mühitinin, dil ortaqlığının və ya dil ortamının ciddi təsir etdiyini vurğulamışdır. Bu sırada kulturoloji faktorların rolunu xüsusilə qabardan dilçi, burada (kulturoloji faktorun reallaşmasında) müəyyən konvensionallaşmış qadağaların da əhəmiyyət kəsb etdiyini qeyd edir. [6; 41, 161, 207-209].

Xatırladaq ki, konvensionalaşmış qadağalar dedikdə, müəyyən toplum çərçivəsində davranış normalarından kənara çıxan, o cümlədən nitq davranışı standartlarına uyğun olmayan fəaliyyətlərə (o cümlədən, nitq fəaliyyəti və ya aktlarına) qoşulan "qadağalar" nəzərdə tutulur. Sözsüz ki, qadağa anlayışı burada şərti anlamda işlədilir. Belə ki, heç bir normativ aktla yasaqlanmayan nitq davranışı elementləri yalnız cəmiyyətin daxili nitq davranışı qaydalarına nəzərən arzuolunmayan nitq davranışı və fəaliyyətləri sayılır. Konvensionallığa12 gəlincə, burada cəmiyyət fərdləri tərəfində a priori qəbul edilən, yəni sözsüz, əlavə izahsız razılaşdırılan davranış sistemləri nəzərdə tutulur. Buradakı "sözsüz", "qeyd-şərhsiz" və ya "şərhsiz" kimi dəyərləndirmələr sırf sinxronik aspektdən verilə dəyərləndirmədir. Heç şübhəsiz ki, həmin nitq davranışlarının bugünkü formata gəlib çıxmasında kifayət qədər şərh, izah tələb edən hadisə və situasiyalar olmuşdur və zamanla həmin nitq etiketləri, nitq aktları bu və ya digər xalq üçün uyğun olan formatda qəlibləşə bilmişdir. Lakin tarixdən bu günümüzədək olan təhlil yanaşması diaxronik araşdırma formatında gerçəkləşən təhlil rakursunu əks etdirdiyindən, eləcə də həmin nitq aktlarının linqvokulturoloji aspektdən yaranma səbəblərinin, yaranma tarixinin müəyyənləşdirilməsi bizim tədqiqatımızn obyektindən kənarda qaldığından, biz, araşdırmamızda sırf sinxroniyaya təhlilə köklənəcəyik.

Türk dilində mürəkkəb cümlə modelləri ilə tanışlıq burada daxili, yəni etnik qrup çərçivəsində konvensionallaşmış nitq davranışı stereotiplərinin, nitq davranışı vərdişlərinin mühüm rol oynadığını təsbit etməyə imkan verir. Türk mentallığı tipik Şərq düşüncə tərzi, metoforik-simvolistik ifadə potensialına istinad etdiyindən, türk dilinin linqvokulturoloji şərtlənmə mexanizmləri fikrin, ifadənin "çılpaq", "yalın" şəkildə səsləndirilməsini məqbul "hesab etmir". Yəni, (elə biz də, həmin metaforik

12Konvensional, yəni latın dilində: conventionalis "razılaşdırılmış" analmını ifadə edən söz əsasında meydana gəlmişdir [7]

nominasiya mexanizmlərindən yararlanaraq fikrimizi ifadə etsək) türk mentallığını, bir növ, antropomorfikləşdirməklə, onun (türk mentallığının) birbaşa nitq aktlarına meylli olmadığını təsbit edə bilərik.
Sözsüz ki, bu heç də o anlama gəlmir ki, türk dil kimliyi sadəcə olaraq, istənilən fikrin dolayı tərzdə, izafi dil vasitələrinin cəlb edilməsi ilə ifadəsinə əsaslanır. Təbii ki, biz, belə, qeyri-appellyasyon verdikt çıxartmaqdan uzağıq. Belə ki, heç şübhısiz ki, türk nitq davranışında birbaşa nitq aktlarını labüd edən həyat sahələri ilə bağlı diskurs rəngarəngliyi mövcuddur. Məsələn, müasir türk hərbi diskursunun istənilən dolayınitq aktı üçün əlverişli mühit olmadığını, burada həmin qəlibli fikir ifadələrinin çox az say nisbəti nümayiş etdirdiyini görmək olar. Halbuki, bundan fərqli olaraq, müasir türk diplomatik diskursu, Şərq siyasət ənənələrinə xas bir şəkildə fikrin daha dolayı şəkildə ifadəsi üçünçox münbit zəmin təşkil edir.
Doğrudur, V.Cəfərovun özünün "Diplomatik etiket və nitq mədəniyyəti" adlı araşdırmasında da qeyd etdiyi kimi, diplomatın nitq fəaliyyətini mövcud etiket normalarına cavab verməlidir. Müəllif eləcə də dəqiqləşdirmə apararaq, onu da əlavə edir ki, diplomatın nitq etiketi normaları aid olduğu zaman çərçivəsində tələb edilən standartlara uyğun gəlməlidir. [8; 11]. Göründüyü kimi, diplomatik diskursda labüd şəkildə müəyyən emossional-ekspressivlik baxımından neytral olan (yəni, kobud qiymələndirmələrdən uzaq, neqativ emosional ekspressiyadan kənar) fikir və ifadələrin səsləndirilməsi labüddür. Bu beynəlxalq standartdır. Lakin beynəlxalq standartdan ziyadə, məşhur konseptual metaforada deyildiyi kimi "incə iş olan Şərqin" diplomatiya dilinin özü də daha implisit fikir ifadəliliyinə köklənmiş, altmənalardakı məna yükünün dolayı nitq aktları ilə reprezentasiyasına üstünlük verən diplomatik nitq etiketi də mövcuddur ki, Türk diplomatiya diskursunda bunu aydın şəkildə izləmək imkanına malik oluruq.
Özünün "Diplomasi dili və çevrisi" adlı araşdırmasında G.Ünsalın da haqlı olaraq qeyd etdiyi kimi, diplomatik diskurs üçün neytral anlamlı sözlərin istifadəsinə diqqət yetirilməsi və ifadə edilən fikirlərin mümkün qədər yumşaldılması, habelə lazımı informasiyanın gizli şəkildə verilməsi məqamları xasdır. Dilçi gizliliyin bir çox halda polisemiya ilə ifadə tapdığını, eləcə də, müvafiq gizli mesaj və eyhamlar vasitəsilə əsas intensiyanın çatdırıla bildiyini qeyd edir. [9; 22-39].
Maraqlıdır ki, türk dilində bir çox halda nəzakət kateqoriyasının tələblərinə görə nitq etiketlərinin dolayı nitq aktları ilə ifadəsi mümkün olur. Yəni, demək olar ki, eyni şəkildə: nəzakətlilik prinsipi, kobud anlamın yümşaq tərtibatda verilməsi, hədəf alınan intensiyanın dolayı şəkildə ifadə tapması və s. bu kimi faktorlar müasir türk ədəbi dilində dolayı nitq aktlarının aktuallığını labüd edir. Şərqli nəzakəti ilə hədə-qorxu, xəbərdarlıq, təhdid və s. kimi nitq janrlarının daha yumşaq şəkildə ifadəsi müvafiq mürəkkəb cümlə modellərinin ortaya çıxmasını mümkün edir. Məsələn, nümunəyə diqqət edək: "Korkarım büyük bir yanlış yapmışsınız," diye onun sözünü kesti Profesör büyük bir iç rahatlığıyla. "Ben öyle bir kitap yazmadım. Aslına bakarsanız ben hiç kitap yazmadım." [9].
Nümunədən də aydın şəkildə göründüyü kimi, tamamlıq budaq cümlə komponentli mürəkkəb cümlə bilavasitə etiraz nitq janrının "yumşaldılması" məqsədilə belə dolayı tərzli ifadə tapmışdır. Belə ki, kontekstdən də aydın şəkildə göründüyü kimi, Korkarım baş cümləsi adresantın kommunikasiya situasiyasında yaşamış olduğu real emosiyanı ifadə etmir. Diqqət edək ki, korkarım feilinin pozitiv emotiv konnotasiyalı ifadə ilə (büyük bir iç rahatlığıyla) eyni kontekstdə, hətta eyni cümlə "çatısı" altında verilməsi adresantın həqiqi anlamda belə bir emosiya yaşamadığını, baş cümlənin sadəcə olaraq, dolayı nitq aktının təzahürü kimi ortaya çıxdığını söyləməyə əsas verir. Yəni burada lakusiya ilə illokusiyanın üst-üstə düşmədiyini açıq-aşkar izləmiş oluruq. Bununla da illokutiv aktın ortaya çıxdığını təsbit etmiş oluruq.
Sana ne demişler bilmiyorum ama korkarım ki büyük bir hata yapmışsın.[10]. Göründüyü kimi, burada da dolayı nitq aktı ilə qarşılaşırıq. Bu mürəkkəb cümlə xəbərdarlıq nitq janrını ifadə etməklə, perlokutiv anlamın yumşaldılması intensiyasına xidmət etməkdədir. Növbəti nümunədə isə biz, xəbərdarlıq və təhdid nitq janrlarının kontaminasiyasını təşkil edən mürəkkəb cümlə modeli ilə qarşılaşırıq.
"Ama korkarım, benimle birlikte yapmayı düşündüğünüz iş konuşunda bilgi vermezseniz bu teklifinizi kabul edemem."[9]. Təklifi geri çevirə biləcəyi ehtimalını empatiya qurararaq daha emossional planda mülayim tərzdə ifadə etməyə çalışır.
Yuxarıda qeyd olunan misallardan fərqli olaraq, növbəti nümunədə biz, birbaşa nitq aktı ilə qarşılaşırıq və məhz, həmin nümunə əsasında dolayı nitq aktında perlokusiya və illokusiyanın üst-üstə düşməməsi məqamının necə fərqli olduğunu bir daha aydın şəkildə yəqin edir. Belə ki, açağıdakı nümunədə səsləndirilən məlumat real informasiyanı əks etdirir və deməli, lokutiv aktı təcəssüm etdirir.
Babacığım! Doğrusu sana Rahman katından bir azabın gelmesinden korkuyorum ki böylece şeytanın dostu olarak kalırsın.13[10].
Azərbaycan dilində həmin ayənin tərcüməsi isə belə səslənir: "Atacan! Qorxuram ki, Mərhəmətli Allahdan sənə bir əzab toxunsun və beləcə, şeytana yoldaş olasan" [11].
Göründüyü kimi, hər iki halda biz, korkmak "qorxmaq" feilinin iştirakı ilə yaranmış baş cümlə ilə qarşılaşırıq. Və hər iki halda "korkuyorum ki" və "Qorxuram ki," mürəkkəb cümlə komponentləri birbaşa nitq aktını təzahür etdirir, yəni danışanın real emossional durumunun avtorefleksiyasını ifadə edir.
Nümunələrdən də aydın şəkildə göründüyü kimi, türk dilində mürəkkəb cümlə modelləri bir çox hallarda dolayı nitq aktını təzahür etdirir ki, bu da əksər hallarda türk mentallığının nəzakət kodeksini izləməyə meylli olmasının məntiqi nəticəsi kimi dəyərləndirilə bilər.
ƏDƏBİYYAT:
1) Axundov A.A. Ümumi dilçilik, Bakı: Şərq-Qərb, 2006, 280 s.

13yâ ebeti innî eḫâfü ey yemesseke `aẕâbüm mine-rraḥmâni fetekûne liṣṣeyṭâni veliyyâ. [10]

2) Сигал К. Я. Аксиология и синтаксис // Вестник Нижегородского университета им. Н.И. Лобачевского. № 4. 2019. С. 236–240. http://www.unn.ru/pages/e-library/vestnik/19931778_2019_-_4_unicode/33.pdf
3) Boduen de Kurtene İ.A. Ümumi dilçilik üzrə əsərləri (tərcümə redaktoru: F.Veysəlli), Bakı: "Prestije çap evi" 2014, 334 s.
4) Матвеева Г. Г., Зюбина И. А. Речевая привычка как основа речевого портрета говорящего (на материале британского политического дискурса) ///Г. Г. Матвеева, И. А. Зюбина // Вестник Волгоградского государственного университета. Серия 2, Языкознание. – 2016. – Т. 15. – № 4. – С. 63–68. DOI: https://doi.org/10.15688/jvolsu2.2016.4.6
5) Хайруллина Д Д. Особенности речевого поведения англичан, русских и татар в этикетных коммуникативных ситуациях / Д. Д. Хайруллина // Известия Волгоградского государственного педагогического университета. – 2019. - № 4(137). – С. 172-178. https://cyberleninka.ru/article/n/osobennosti-rechevogo-povedeniya-anglichan-russkih-i-tatar-v-etiketnyh-kommunikativnyh-situatsiyah
6) Федорова К. С. Лингвоповеденческие стратегии в ситуации общения с иностранцем (на материале русского языка), диссертация…канд.филол.наук., Санкт-Петербург, 2002, 230 с.
7) Conventional (adj.) https://www.etymonline.com/word/conventional#:~:text=conventional%20(
8) Cəfərov V. Diplomatik etiket və nitq mədəniyyəti, Bakı: AzTu-mətbəəsi, 2009, 175 s.
9) Canıgüz A. Tatlı Rüyalar. (Psiko-Absürd Romantik Komedi) https://docplayer.biz.tr/220056635-Tatli-ruyalar-psiko-absurd-romantik-komedi-alper-caniguz-iletisim-yayinlari.html
10) Kur'an-ı Kerim Meryem suresi ayet 45, https://surahquran.com/turkish-aya-45-sora-19.html
11) https://quran-al-karim.com/meryem-suresi-19/aye-45

Açar sözlər: türk dili, sintaksis, mürəkkəb cümlə, funksional-kommunikativ dilçilik, linqvokulturologiya
Key words: Turkish language, syntax, complex sentences, functional-communicative linguistics, linguoculturology
Ключевые слова: турецкий язык, синтаксис, сложные предложения, функционально-коммуникативная лингвистика, лингвокультурология

О роли лингвокультурных факторов в составлении турецких моделей сложных предложений (взгляд на проблему через призму функционально-коммуникативной оценки)

РЕЗЮМЕ

В статье рассматриваются лингвокультурные факторы, играющие роль в составлении моделей турецкого сложносочиненного предложения. Было выявлено то, что, оценка этих факторов может помочь ответить на ряд вопросов, возникающих при функционально-коммуникативном анализе моделей сложных предложений. Таким образом, среди моделей сложных предложений в турецком языке особый вес имеют и синтаксемы, служащие для выражения иллокутивного акта. Эти модели сложных предложений (в ответ на требования тюркской лингвокультурной среды) позволяют формировать такие речевые акты, как предупреждение, угроза, протест

On the role of linguistic and cultural factors in the compilation of Turkish models of complex sentences (a look at the problem through the prism of functional and communicative assessment)

SUMMARY

The article deals with linguistic and cultural factors that play a role in the formation of models of the Turkish compound sentence. It was found that the assessment of these factors can help answer a number of questions that arise in the functional-communicative analysis of complex sentence models. Thus, among the models of complex sentences in Turkish, syntaxemes that serve to express an illocutionary act also have a special weight. These models of complex sentences (in response to the requirements of the Turkic linguistic and cultural environment) allow the formation of such speech acts as a warning, a threat, a protest.

RƏYÇİ: dos. S.Abbasova

Gülrux Nəsib qızı Hüseynova, Kübra İsmayıl qızı Ələkbərova14

AZƏRBAYCAN DİLİNDƏ MORFOLOJİ YOLLA ALINAN ETNONİMLƏR

Giriş. Azərbaycan onomastikasının ən maraqlı, vacib və əhəmiyyətli sahələrindən birini etnonimlər təşkil edir. Azərbaycan etnonimlərinin ekstralinqvistik amilləri nəzərə alınmaqla linqvistik tədqiqi, istər dilçilik, istərsə də tarixi coğrafiya üçün daha etibarlı nəticələr verə bilər. Azərbaycan ərazisində tarixən mövcud olmuş qəbilə, tayfa, tirə, etnik qrup və xalq adlarını müəyyənləşdirməklə yanaşı, onların Azərbaycan dili və Azərbaycan xalqının formalaşma və inkişafındakı rolunu, dil mənsubluğunu, qədim və yaddan çıxmış adət-ənənələrin bərpasını, maddi və mənəvi mədəniyyət fəaliyyətini, qədim dünyagörüşü və milli təfəkkürünü və s. təyin etmək mümkündür. Məqalədə əsas məqsəd Azərbaycan dilində morfoloji yolla düzələn etnonimləri aşkarlamaqdır.

Onomastikanın ən maraqlı qollarından birini təşkil edən etnonimlər yaranma yolları və üsullarına görə, dilin ümumi leksik vahidləri ilə təxminən eynilik təşkil edir. Dilin söz yaradıcılığında olduğu kimi, etnonim yaradıcılığında da üç üsuldan – leksik, morfoloji və sintaktik üsullardan istifadə olunur. Bu üsullardan isə etnonim yaradıcılığı üçün daha səciyyəvi olan morfoloji üsuldur. Bu üsul tarixən aparıcı rola malik olmuşdur. Bu prosesdə iştirak edən şəkilçilər dilin digər semantik qruplarına məxsus düzəltmə sözlərin yaradılmasında istifadə olunan eyni morfemlərdən funksiyalarına, ifadə etdikləri məna çalarlarına görə müəyyən qədər fərqlənirlər. Belə ki, etnonim yaradıcılığında iştirak edən eyni şəkilçilərin funksiyaları ədəbi dildəkindən məhdud, həm də semantik çalarca müxtəlifdir. Bu da, şübhəsiz ki, həmin morfemlərin və ilk növbədə, etnonim yaradıcılığında istifadə olunmuş leksik vahidlərin semantikası, məna qruplarına görə darlığı ədəbi dilimizdə işlənən rəngarəng məna qruplarına mənsub sözlərin, heç də hamısından bu prosesdə istifadə oluna bilməməsi ilə bağlıdır. Məsələn, C.Cəfərovun geyd etdiyi kimi, muasir Azərbaycan ədəbi dilinin söz yaradıcılığında –lıq4 şəkilçisi iki funksiyanı, -lı4 və çı4 şəkilçilərinin hər biri 6 funksiyanı və s. yerinə yetirirsə, onlar etnonimiyada yalnız bir funksiyani, özü də onlardan fərqli olaraq "mənsubluq, aidlik" funksiyasını yerinə yetirir.

Düzəltmə etnonimlərin səciyyəvi cəhəti odur ki, onların bir qismi muxtəlif quruluşlu (sadə, duzəltmə və ya murəkkəb) umumi və ya xüsusi adlara, əsasən, tayfa, nəsil, başçılarının adlarına, onların ləqəb, titul, fəxri adlarına, peşə, sənət, məşğuliyyət, dini mənsubluq və ya rütbəsini və s. bildirən sözlərə bu və ya digər sözduzəldici şəkilçinin əlavə edilməsi ilə yeni yarandıqları halda, bir çoxu əvvəlcədən mövcud olan etnonimlərə müəyyən morfemlərin artırılması ilə həmin tayfa, nəsil, etnik qrup və xalqa məxsus konkret qrup, dəstə, zümrə mənsubluğu, aidliyi bildirən başqa, fərqli yeni etnonimlər əmələ gətirilir. Bu baxımdan onları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. İlkin etnonimlərdən düzələn etnonimlər.

Azərbaycan etnonim yaradıcılığında tarixən – əvvəlcədən mövcud olan tayfa, nəsil, və s. adlarına aşağıdakı söz-şəkilçi və şəkilçiləri – etnoformantları əlavə etməklə yeni etnonimlər düzəldilir:

- ar,-er/-ər, - ir, - r formantı ilə düzələn etnonimlər. Xəzər, kəngər, savir/suvar, tatar, bulqar/balkar/malkar, avar/abar, qacar, kəbər, ləgər və s. etnonimlərin tərkibindəki -ar... formantı bir çox tədqiqatçıların diqqətini özünə çoxdan cəlb etmiş və onların əksəriyyəti göstərilən etnoformantın "adam, kişi, ər" mənalı sözlə əlaqədar olmasını geyd etmişlər. Həmin sözşəkilçinin mənşəyi məsələsində isə tədqiqatçılar arasında yekdil fikir yoxdur. Məsələn, D.Y.Yeremeyev onun İran mənşəli olduğunu qeyd edərək yazır ki, "Turk dilləri ar/er/ir sözünü İran dillərindən, ehtimal ki, çox qədimdə - hun və qədim türk dövründə, daha doğrusu, bizim eranın V əsrinə yaxın almışlar. Belə ki, həmin dövrdə türk və İran tayfalarının fəal əlaqələri nəticəsində İran dillərinin türk dillərinə təsiri güclənmişdi. Həqiqətən də, Hun dövründən sonra -ar- la bitən etnonimlərin sayı çoxalmışdı.

Bunu ən çox Şərqi Avropanın qədim türk xalqlarında -ar ilə bitən etnonimlərin (avar, suvar, bulqar, kanqar) geniş yayılması faktı da inkar etmir. Məhz buna o türk etnik birləşmələri arasında rast gəlirik ki, onlar Hind-Avropa təsirinə daha çox məruz qalmışlar.

Tədqiqatçıların əksəriyyəti isə onun türk mənşəli olduğunu göstərmişlər. Bunu hərtərəfli və dərindən tədqiq edən V.K.Kelmakov yazir: "... gördüyümüz kimi, keçən əsrdə ar sözünün mənşəyi ilə əsasən etnoqraf və tarixçilər məşğul olmuşlar. Onların isə etimologiyaları söz oyunu üzərində qurulmuş, sözün təsadüfi uyğunluğuna əsaslanmışlar.

Bizə isə münasib görünəni Jirai Mikloşun fərziyyəsidir ki, ar etnonimi etimoloji cəhətdən "adam, kişi" mənalı türk sözü olan eri, er, ir sözünə, daha doğrusu, arxa sıra vokalazmi variantına (muq.et: çuv.ar) uyğun gəlir. ... Elə buna görə də, o tədqiqatçılar haqlıdırlar ki, onlar ar sözünün etimoloji təhlilində türk dilləri materiallarından çıxış edirlər" [5, s. 191].

Qədim bir tarixə və geniş bir areala malik olan -ar, -ər, -ir komponentli etnonimlərin bir çoxuna Azərbaycanda da rast gəlinir: xəzər, tatar, bulqar, avar, suvar, kəngər, padar, qusar, qacar, kəvər, kəmər, qəmər, bazar və s.

Belə adların əksəriyyəti tarixi mənbələrdə və bir sıra Azərbaycan etnotoponimlərinin tərkibində mühafizə olunmuş, bəziləri isə hətta indiyədək adını daşıdığı tayfa ilə yaşamaqdadır.

Bu qəbildən olan etnonimlərin tədqiqi ilə məşğul olan alimlər etiraf edirlər ki, etnonimlərin birinci komponentlərinin mənalarını açmaq heç də hər vaxt mümkün olmur. Lakin apardığımız muşahidələrə əsasən deyə bilərik ki, onlar ya yer məfhumu bildirən sözlə, ya ilkin etnonimlə və ya da şəxs anlayışı hər hansı bir vahidlə ifadə olunmuşdur. Bunu həm etnonimik sistemin qanunauyğunluğu, həm tədqiqatçıların onlardan bəziləri haqqındakı nəticələri, həm də aparılan tədqiqatlar təsdiq edir. Bu baxımdan onlardan bəzilərinin etimoloji təhlillərini nəzərdən keçirək:

---

14 Gəncə Dövlət Universiteti dosentləri

Padar etnonimi. Öncə, onu qeyd edək ki, təkcə XIX əsr mənbələrində padarların və padar etnonimi əsasında yaranmış toponimlərin Qafqazın Tiflis, Kutaisi, Qars, Cəbrayıl, Nuxa, Dağıstan, Bakı, Quba, Zaqatala, Ərəş və s. quberniya, qəza və əyalətlərində - geniş bir arealda mövcudluğu qeyd edilmişdir. N. Zeydlits və M.F.Axundov tərəfindən həmin əsrdə tərtib və çap olunmuş bir əsərdə padarların türk tayfalarından olması, Nuxa qəzalarında yaşamaları göstərilmişdir.
Padarlar və padarların məskunlaşdıqları məntəqələr haqqında təxminən eyni məlumata "Azərbaycan tarixi", Q.Ə.Qeybullayevin "Топонимия Азербайджана" və s. əsərlərdə rast gəlirik.
İlk baxışda padar etnoniminin fars dilindəki "ata" mənalı pedər/pədər sözündən törəndiyini söyləmək olar. Lakin istər fars və başqa İran dillərində həmin sözün padar variantında işlənməməsi, istərsə də göstərilən dillərdən, əlaqədə olduğu türk dillərinə bu leksik vahidin, demək olar ki, keçməməsi və padar formasında işlənə bilməməsi bu ehtimalı xeyli zəiflədir. Padar etnonimi ilə Urartu mixi yazılarında təsadüf olunan Manna əyalətindəki Paddiri şəhər adı və ya şəhər mənalı patar-i sözü arasında çox böyük bir yaxınlıq hiss olunur [3, s. 64]. Belə ki, həmin mənalı sözlərdən Azərbaycan və ümumiyyətlə Yaxın Şərq onomastikonunda - lı4 şəkilçisi və onun sinonimlərinin köməyi ilə müxtəlif etnonimlərin yaradılması məlumdur. Məsələn, şəhərli, padarlı, şamlı, rumlu və s. Sonrakı inkişaf mərhələlərində həmin şəkilçi düşə də bilər. (paradlı - padar).
Lakin padar etnoniminin pad və ar hissələrindən ibarət olması fikirini irəli sürmək və həmin komponentlərin mənşəyini, semantikasını düzgün müəyyənləşdirmək, bu yolla onu təhlilini vermək daha inandırıcı nəticə əldə etməyə imkan verər. Etnonimin ikinci komponenti yerində işlənmiş ar ünsürünün adam, kişi, ər, xalq mənası daşıdığı və lı şəkilçisinin sinonimi kimi bir sıra türk dillərində etnonim düzəltmə qabiliyyətinə malik olması yuxarıda qeyd edilmişdir. Pad sözünə isə bu və ya digər fonetik variantda (pad/bat, pata/bata və s.) müxtəlif mənalarda bəzi türk dillərində işləndiyinə rast gəlirik [6, s. 173]. Onu türk mənşəli dua, xoşbəxt, uğurlu, bəxtiyar mənalı bata/pata/pada (pada+ar=padar=dualı, dua edənlər, xoşbəxt, uğurlu, bəxtiyar adam) leksik vahidi ilə də bağlamaq doğru sayıla bilər. Bu etnokomponenti qədim şumer dilində divarla əhatə olunmuş yer mənasında işlənmiş bad leksemi ilə də əlaqələndirmək mümkündür. Qədim etnonimlərin bir çoxunun bu yolla yaranması prosesi əksər xalqlarda və o cümlədən qədim türklərdə özünü göstərməsi məlumdur.
Qusar etnonimi – ar söz-şəkilçisi əsasında ilkin etnonimdən yaranmış etnonimlərdən biri də qusar tayfa adıdır. T.M.Əhmədov çox doğru olaraq, bir sıra toponimlərimizin tərkibində mühafizə olunmuş qusar etnonimini qus və ar hissələrinə ayıraraq təhlil etmiş, onun ikinci komponentinin göstərilən "adam, kişi, ər" mənalı ar sözü ilə, ikinci hissəsinin isə türk tayfa birliyinə daxil olmuş, orta erkən əsrlərdə peçeneklərdən şərqdə, onlarla və xəzərlərlə qonşuluqda yaşamış quz/uz tayfa adı ilə ifadə olunduğunu göstərmişdir. Onun fikirincə, qusar etnonimi və Qusar toponimi quzzar-qussar-qusar kimi inkişaf yolu keçmişdir. Müəllif nəticə olaraq qeyd edir ki, qusar qus quz/quzz adamı, qus tayfasına mənsub adam (kişi, ər) mənasını daşıyır [2, s. 4]. – ar komponentli etnonimlər üzərində apardığımız müşahidələr göstərilən fikrin həqiqətə yaxın olduğunu təsdiq edir.
Xəzər etnonimi. - ər etnoformantı vasitəsilə ilkin etnonimlərdən yaranan adlardan biri də xəzər-dir. Xəzər etnoniminin birinci komponenti də, qusar etnonimində olduğu kimi, quzz/quz/qaz/kaz/xaz/xəz etnonimi ilə ifadə olunmuşdur. F.A.Cəlilov az/as/kaz/kas komponentli etnonimlərdən danışarkən qeyd edir ki, azər, kaspi, kacaq, qazax etnonimləri kimi, bu etnonimin də əsasını kas/kaz etnonimi (kaz-ər/xaz-ər) təşkil edir [1, s. 271].
Kəngər etnonimi. D.Y.Yeremeyev türk etnonimiyasında ilk olaraq kəngər etnoniminin kənq "tayfa adı" və - ar "adam, kişi, ər" hissələrindən ibarət olması fikirini irəli sürmüş, kanqlı etnoniminin də ondan düzəldiyini söyləmişdir. Lakin təəssüf ki, o bu etnonimi ətraflı tədqiq etməmişdir [4, s. 134]. Biz isə bu etnonimi bir qədər geniş izah etməyə çalışacağıq.
Qeyd edək ki, etnonimin birinci komponenti yalnız kanq ilə (kanq-ar) deyil, kanqlı ilə də ifadə oluna bilərdi (kanqlı-ar). Və sonrakı inkişaf mərhələlərində - lı şəkilçisi düşə bilərdi (kanqar). Göstərilən şəkilçinin isə etnonimlərdə düşümü mümkün dil hadisələrindəndir.
Məlum olduğu kimi, kanqlılar ən qədim türk-qıpçaq tayfalarından olub, bir sıra türk xalqlarının, o cümlədən özbəklərin, qazaxların və nəhayət azərbaycanlıların formalaşmasında mühüm rol oynamışdır. Etnonimin bir sıra türk dillərində kanqar, bəzilərində, o cümlədən Azərbaycan dilində kəngər variantında işlənməsi qanunauyğun olub, qədim dil paralellərindən başqa bir şey deyildir. Etnovariantlardakı nq və ng qovuşuq səslərinin də qədim fonetik hadisələrdən olması etnonimin qədimliyini sübut edir.
Nəticə. Göstərilənlər bir daha təsdiq edir ki, bu qəbildən olan etnonimlər və etnokomponentlər haqqında dəqiq, düzgün və ya inandırıcı fikir söyləmək heç də hər vaxt mümkün olmur. T.İ.Teplyaşinanın dediyi kimi "... son er, - ar elementi nə vaxtsa müstəqil mənalı sözdən törənmiş, dillərin müəyyən inkişaf mərhələlərində o, şəkilçiyə çevrilmiş, etnonimlərin tərkibində də müstəqil leksik vahid kimi işlənmə funksiyasını itirmişdir" [7, s. 184].
Təəssüf ki, hazırda bir çox etnonimlərin birinci hissəsinin etimoloji cəhətdən təhlili mümkün deyildir. Lakin onların müəyyən tip etnonimlər yaradan sonuncu - er, -ar elementinin ayrılması belə mülahizə yürütməyə imkan verir ki, əvvəlki komponentlər də keçmişdə konkret məna ifadə etmişlər.
Ədəbiyyat

1) Cəlilov F.A. Azərbaycan dilinin morfologiyası. Bakı: Maarif, 1988, 280 s.
2) Əhmədov T.M. Qusar adının mənşəyi. – "Azərbaycan gəncləri" qəzeti, 5 mart 1988-ci il, c. 4.
3) Ахмедов Т.М. Система Азербайджанских топонимов. Автореф.док. дисс., Баку, 1986, 18 с.
4) Еремеев Д.Е. К семантике тюркской этнонимы. М., 1979, 240 с.
5) Кельмаков В.К. Происхождение и первые упоминания этнонима ар. – Этнонимы, М., 1970, 221 с.
6) Радлов В.В. Опыт словаря тюркских наречий. T.IV, ч.2. 550 с.
7) Тепляшина Т.И. Памятники удмуртский письменности XVIII века. Выпуск 1. Москва, 1970, 194 с.

Azərbaycan dilində morfoloji yolla alınan etnonimlər

Xülasə

Məqalədə Azərbaycan dilində morfoloji yolla alınmış etnonimlərdən bəhs edilir. Qeyd olunur ki, etnonimlərin əsas funksiyalarından biri toponim yaradıcılığında fəal iştirak etməsidir. Qəbilə adlarından törənən yer-yurd adları digər qrupdan olan toponimlərlə müqayisədə daha qədimdir. Tarixən hər hansı bir etnos hansı əraziyə qədəm qoyub məskunlaşmışsa, heç şübhəsiz ki, həmin əraziyə öz adını vermiş və beləliklə də, həmin bölgənin toponimiyasında öz dərin izlərini buraxmışdır.
Azərbaycanda qədim tarixə malik, geniş diapazonlu -ar, -ər, -ir komponentli etnonimlər də az deyil. Bu etnonimlərin tarixi çox qədimdir. Bu komponentlərlə bitən bir çox etnonimlər Azərbaycan etnotoponimlərində qorunub saxlanmış, hətta bəziləri hələ də mənsub olduqları tayfa ilə yaşamaqdadırlar. Məqalədə əsasən
padar, qusar, xəzər, kəngər etnonimlərinin yaranma üsullarına toxunulur.

Этнонимы, полученные морфологическим путем в азербайджанском языке

Резюме

В статье говорится об этнонимах, полученных морфологическим путем в азербайджанском языке. Отмечается, что одной из основных функций этнонимов является их активное участие в создании топонимов. Производные от племенных имен названия земля гораздо древнее по сравнению с топонимами из другой группы. Исторически сложилось так, что любой этнос, где бы он ни расселился, несомненно, давал свое название той местности и тем самым оставлял свои глубокие следы в топонимике этого региона.
В Азербайджане встречается также много этнонимов с компонентами -ар, -ер, -ир, имеющих древнюю историю и широкий ареал. История этих этнонимов очень древняя. Многие этнонимы, оканчивающиеся на эти компоненты, сохранились в азербайджанских этнотопонимах, а некоторые даже живут с тем племенем, к которому до сих пор относятся. В статье в основном затрагиваются способы образования этнонимов падар, гусар, хазар, кангар.

Ethnonyms obtained morphologically in the Azerbaijani language

Summary

The article deals with ethnonyms obtained morphologically in the Azerbaijani language. It is noted that one of the main functions of ethnonyms is their active participation in the creation of toponyms. Land-dwelling names originating from tribal names are older than toponyms from other group. Historically, any ethnos, no matter where it settled, no doubt gave its name to that area and thus left its deep traces in the toponymy of that region.
There are also many ethnonyms with components -ar, -er, -ir, which have an ancient history and a wide range in Azerbaijan. The history of these ethnonyms is very ancient. Many ethnonyms ending in these components have been preserved in Azerbaijani ethnotoponyms, and some even live with the tribe to which they still belong. The article mainly touches on the methods of formation of ethnonyms padar, gusar, khazar, kangar.

Rəyçi: prof. Qaraşarlı Çingiz

Усния Nовруз kызы Алиева15

К УПОТРЕБЛЕНИЮ ПРЕДЛОЖЕНИЙ С ВВОДНЫМ СЛОВОМ В РУССКОМ ЯЗЫКЕ

В настоящее время наблюдается активизация интереса к изучению предложений с вводным компонентом в русском языке [1; 2]. Это связано с развитием и большой популярностью принципов семантического синтаксиса. Кроме того, «знание структуры предложения, осложненного вводным компонентом, определение его места в синтаксической системе создают благоприятные условия для свободного использования этого типа предложений в речевом общении» [3, с. 10]. С точки зрения модального значения вводные синтагмы выражают оценку сообщаемого факта. В. В. Виноградов указывает, что модальные значения, выражаемые вводным членом, «образуют как бы второй слой модальных значений в смысловой структуре высказывания, так как они накладываются на грамматический грунт предложения, уже имеющего модальное значение» [4, с. 159]. В сфере связей вводного компонента с составом предложения особый интерес «с точки зрения объективной квалификации места вводных единиц в структуре предложений и тенденции их употребления в речи» [8, с. 172] представляют следующие основные закономерности: а) зависимость употребления вводного компонента от повествовательного, вопросительного и побудительного характера высказывания; б) зависимость между глаголами мысли, чувства, состояния и употреблением вводных единиц со значением предположения. Данные зависимости носят характер общих закономерностей и распространяются как на простые, так и на сложные предложения [7, с. 325].

Вопрос о синтаксических условиях употребления вводных слов в составе того или иного простого предложения есть, по сути дела, вопрос о возможности совмещения выражения модальности различными грамматическими способами: при помощи вводных слов, с одной стороны, и иными грамматическими способами – с другой.

Вводный компонент может модально обслуживать актуализированные второстепенные члены: обстоятельство, дополнение, определение, приложение и через их посредство, косвенно соотноситься со всей предикативной единицей в целом [5, с. 75]. Такая соотнесенность способствует интенсивности взаимодействия субъективной и объективной модальности. Например: Ни о чем, кажется, не спорят с таким ожесточением (В. Каверин. Два капитана); Входит молодой доктор в новой черной паре, в золотых очках, конечно, в белом галстуке (А. Чехов. Невеста).

Вводные слова типа конечно, безусловно, несомненно, бесспорно и др. выражают в повествовательном предложении уверенность в достоверности высказывания. Например: Мне, безусловно, случалось видеть более значительные, крупные работы (Из разг. речи); Разумеется, у этих пловцов есть чему поучиться (Из разг. речи).

В вопросительном предложении вводные слова типа конечно выступают в иной функции. Сообщая мыслительному содержанию вопросительного предложения значение субъективного предположения о наличии у предмета определенных признаков, они тем самым снимают собственно вопросительное значение этих предложений. Например: Револьвер – ваш знаменитый, конечно, и сейчас с вами? (С. Сергеев-Ценский); Мосье Иван Иванович, товарищ Иван Иванович! Вы, конечно, знаете Ивана Ивановича? (В. Маяковский. Баня).

Таким образом, вопросительное предложение с вводными словами уверенность в достоверности наличия у предмета тех или иных признаков выражать не может.

В вопросительном предложении, как и в повествовательном, вводные слова типа должно быть, кажется, наверно, верно, видно и др. следует выделить в особую группу. Допуская возможность употребления в тех же случаях, что и вводные слова типа конечно, они все же сохраняют в предложении элемент вопросительности: Например: Адъютант, давай узнай, чего он там летает. Он засек от нас, должно быть, Николай Трофимович, а? (А. Твардовский. В долгой обороне).

В вопросительных предложениях с вводными словами типа может быть, пожалуй, вероятно и т. д. содержится предположение в форме вопроса. Спрашивающий ожидает определенного ответа, который подтвердил бы его предположение. Например: Может быть, в чем-то виноват сам оперный театр? Спору нет... (г. «Комс. правда»); Так, может быть, вы, святой отец, партийный? (Ильф и Петров. Двенадцать стульев). Значения субъективного отношения в побудительных предложениях хотя и возможны, но мало характерны. Можно сказать: Конечно, работай! В ответной реплике на вопрос: Работать ли? Но употребить в этих предложениях вводные слова типа вероятно, может быть и т.п. невозможно. Слова типа конечно усиливают основную функцию побудительного предложения, подчеркивают категоричность этого поведения, просьбы, приказания. Из функциональных типов изъяснительных предложений повествовательный тип предложения, ввиду своего назначения передавать определенную информацию о фактах действительности, является наиболее «удобным» для использования модально-оценочных слов. В самом деле, если говорящий сообщает о чем-то, то самый факт информации уже предполагает как наличие у говорящего сведений о сообщаемом, так и возможность оценки имеющихся сведений с точки рения их достоверности- недостоверности. Например: Наверное, он (командир) тоже думал, что я болен и что у меня голова не в порядке (Л. Пантелеев. Честное слово); Грушницкий, кажется, очень рад, что моя веселость ее (княжну) не заражает (М. Лермонтов. Герой нашего времени). Иными словами, оценка степени достоверности сообщаемого возможна лишь при условии, что говорящий что-то знает о действительности. Ввиду этого

15 Бакинский славянский университет

включения модально-оценочного компонента в смысловую структуру повествовательного предложения потенциально ограничено, чего нельзя сказать о некоторых видах вопросительных и побудительных предложений с придаточным изъяснительным. Сравним: 1. Он (вероятно) уже сообщил ему, что факты подтвердились. 2. Сообщил ли (-) он ему, что факты подтвердились? 3. Сообщи (-) немедленно, что факты подтвердились.

Как видим, вводный компонент возможен только в первом, повествовательном предложении; в последующие предложения − вопросительное и побудительное ввести вводное слово не представляется возможным. (Речь идет о возможности включения вводного показателя в главную часть изъяснительного предложения, так как функциональная принадлежность сложной конструкции определяется ее главной частью).

Вопросительные предложения по степени выражаемой в них осведомленности говорящего о тех или иных сторонах действительности неодинаковы, а потому неодинаковы по своим возможностям употребляться с вводными единицами. Исключает употребление вводного компонента главная часть тех вопросительных конструкций, которая содержит в своем составе местоименно-вопросительные слова. Например: Кто ему сказал, что я вернулся? От кого ты узнал, что письмо получено? Когда он обнаружил, что за ним следят? Зачем ему сказали, что письмо затерялось? Включить вводные слова в главную часть приведенных структур не представляется возможным, так как «эти конструкции заключают в себе вопросы о предикате, о том, что утверждается в предложении» [1, с. 97]. Действительно, все содержание данных конструкций, кроме того, что относится к вопросительному слову, представляется заведомо известным, в плане актуального членения оно является «данным». Искомым «предицируемым» оказывается лишь то, что выражено обобщенно в словах кто, когда, зачем, отчего и т. д. Именно эти элементы высказывания (лицо, время, место, цель, причина и проч.) неизвестны говорящему и ищутся им при содействии других участников речи, потому, естественно, не могут быть модально оценены говорящим. В определенных случаях модально-семантическая функция вводных единиц вовсе не чужда функциональной направленности вопросительных предложений. Более того, известны конструкции, в составе которых вводные единицы (чаще всего это слова со значением предположения) являются важным строевым и модально-логическим компонентом. Например: Вы, наверное, думали, что у нас тут ничего не делается, бюрократы сидят... (г. «Комс. правда»); Ты скажешь, может быть, что я не прав, что я плохо разбираюсь в людях... (Из разг. речи).

Данные структуры заключают в себе предположение говорящего о содержании мыслей, речи, намерений собеседника или других лиц. В отличие от чисто вопросительных конструкций, показывающих, что реальное положение спрашивающему неизвестно, данные предположительные суждения являются выражением того, что говорящий будто догадывается о реальном положении вещей и ищет только подтверждение своей догадке.

Вводное слово, как важнейший структурно-семантический компонент таких предложений, ставит их (даже и при любом знаке препинания) в положение полувопросительных-полуповествовательных − в положение, когда эти различия в значительной мере нейтрализуются в силу того же предположительного характера суждения. Таким образом, форма предположительного суждения для употребления вводно-модальных единиц − очень удобная структура. Более того, структура, которая как раз и организуется, приобретает свою специфику при обязательном участии вводного компонента: Ты скажешь ему, что я ошибся? (или не скажешь?) Ты, может быть, скажешь, что я ошибся?

Иногда на месте вводных слов со значением предположения в анализируемых конструкциях могут быть модальные единицы типа конечно: Ты, конечно, думаешь, что я неправ? Вы, конечно, полагаете, что дело можно поправить? В таких конструкциях особенно отчетливо выражается убежденность говорящего в естественности своих предположений о факте и содержании размышлений собеседника.

При выявлении возможностей включения вводных единиц в побудительные предложения целесообразно отграничить конструкции, служащие для выражения просьб, от конструкций, выражающих в императивной форме приказы разной категоричности. Формы решительного, категорического приказа, как правило, не могут сочетаться с вводными единицами, обозначающими предположение. Прямой императив включает самую возможность предположения, как тонкий намек на то, что выполнение воли говорящего не строго обязательно. В самом деле, приказывая совершить действие, говорящий хочет видеть это действие осуществленным, а слова типа может быть, вероятно и т.п. переводят прямую императивную форму в какое-то полувопросительное предположительное суждение. Сравним: Иди и сейчас же заяви хозяйке, что ты уходишь отсюда навсегда (А. Куприн. Яма) − Может быть, надо пойти и заявить хозяйке, что ты уходишь отсюда навсегда.

Из всех вводных единиц со значением предположения только слово пожалуй, генетически восходящее к формам повелительного наклонения, может входить в главную часть побудительных конструкций и взаимодействовать с императивом. Но тогда побуждение утрачивает значение категоричности и приобретает оттенок некоторого колебания, нерешительности. Ср.: Ты проси, чтобы прислали двоих − Ты, пожалуй, проси, чтобы прислали двоих.

В отличие от модальных слов типа вероятно, очевидно вводные единицы типа конечно, разумеется не противоречат функциональной направленности побудительных предложений и потому могут употребляться при императиве, выражающем наказ. Например: Передай письмо и, разумеется, скажи, что заплатим с процентами (А. Кольцов. Лес); А ему, конечно, сообщи, что на обратном пути в Москву не заедем (К. Федин. Первые радости).

Находясь при императиве и усиливая его, слова конечно, разумеется подчеркивают естественную необходимость того действия, к которому побуждает говорящий.

Если в конструкциях, служащих для выражения категорического приказа, употребление вводных единиц неуместно или вовсе недопустимо, то в некоторых побудительных предложениях, выражающих просьбу, модальные слова являются важным структурно-логическим компонентом. Здесь имеются в виду те полувопросительные структуры, которые заключают в себе деликатно высказанные просьбы и предложения. Например: Может быть, вы объясните, как это у вас получается такое сочетание, и не обидно и завидно (В. Попов. Разорванный круг); Может быть, подскажете, где вкралась ошибка? (Из разг. речи). Установление зависимостей употребления вводных единиц от функционального назначения и лексического состава предложения позволяет отметить, что, с одной стороны, указанные стороны предложения влияют на использование вводных единиц, а с другой стороны, сами вводные компоненты известным образом воздействуют на функциональную модально-логическую направленность предложения. В коммуникативно-ориентированном обучении русскому языку как иностранному предложения с вводным компонентом имеют большое значение для развития устной и письменной речи учащихся.

ЛИТЕРАТУРА

1) Амосова В.В. О формах взаимодействия вводно-модальных единиц с составом сложноподчиненного предложения // Русский язык в школе, 1993, № 4, с. 94-98.
2) Артеменко Е.П. К анализу предложений с вводными и вставными конструкциями // Лингвистический анализ в школе и вузе. Воронеж: ВГУ, 1983, с. 49-57.
3) Ахундова З.С. К методике обучения простым предложениям, осложненным вводными словами и конструкциями // Русский язык и литература в азербайджанской школе, 1975, № 12, с. 8-17.
4) Виноградов В.В. Русский язык (грамматическое учение о слове). Москва: Высшая школа, 1972, 614 с.
5) Гуревич В.В. Актуальное членение предложения в его разных проявлениях // Вопросы языкознания, 2004, № 3, с. 69-87.
6) Кривоносов А.Т. Отрицание в предложении и отрицание в умозаключении // Вопросы языкознания, 1986, № 1. с. 46-52.
7) Современный русский литературный язык. Москва, 1988, 415 с.
8) Чеснокова М.П. Методика преподавания русского языка как иностранного. 2 изд., перераб. Москва: МАДИ, 2015.

Açar sözlər: ara sözlər, modal mənalar, cümlə,modallıq

Ключевые слова: вводные слова, модальные значения, предложение, модальность

Key words: parenthetical words, modal meanings, terms of use, narrative sentence, interrogative sentence, incentive sentence, modality.

RUS DİLİNDƏ ARA SÖZLÜ CÜMLƏLƏRİN İŞLƏNİLMƏSİNƏ DAİR

XÜLASƏ

Məqalədə rus dilində ara sözlərin cümlənin tərkibində işlənilməsinin sintaktik şərtləri nəzərdən keçirilir. Ara sözlərin söyləmin nəqli, sual və əmr xarakterindən asılı olaraq işlənilməsi şərh edilir. Fikir, hiss, hal bildirən feillər və müəyyən mənalı ara sözlərin işlənilməsi arasında asılılıq da təsvir edilir. Ara söz nəqli cümləyə daxil edilərkən cümlənin bütövlükdə təsdiqlik və inkarlıq xarakteri də dəyişir. Ara sözün nəqli cümlədə funksiyasını bu cümləyə əlavə etibarlılıq və ya ehtimallılıq mənasını məlumat verməsi təşkil edir. Ara sözlərin nəqli cümlədə danışanın söyləmə subyektiv münasibətini ifadə edən vasitələr kimi xüsusiyyətləri öyrənilir. Ara söz modal baxımdan aktuallaşmış ikinci dərəcəli cümlə üzvlərinə xidmət edə bilər və onların vasitəsilə predikativ vahidlə bütövlükdə əlaqə yarada bilər. Ara sözlər sual cümləsində ehtimallılığı ifadə edərək bu cümlənin sual mənasını neytrallaşdırır.

ON THE USE OF SENTENCES WITH parenthetical words IN THE RUSSIAN LANGUAGE

SUMMARY

The article deals with the syntactic conditions for the use of parenthetical words in a sentence in Russian. The use of introductory words is interpreted depending on the narrative, interrogative and incentive nature of the statement. It also describes the relationship between the verbs of thought, feeling, state and the use of parenthetical words with a certain meaning. When parenthetical words are included in a sentence, the nature of the affirmation and negation of the sentence as a whole also changes. The function of the parenthetical word in a sentence is to convey to this sentence the meaning of additional certainty or probability. The features of parenthetical words as a means of expressing the subjective attitude of the speaker to the statement in the narrative sentence are studied. The parenthetical word can serve the secondary members of the sentence, actualized from the modal point of view, and through them can form a connection with the predicative unit as a whole. The parenthetical words neutralize the interrogative meaning of this sentence, expressing the probability in the interrogative sentence.

Rəyçi: dos. Ş.A.Həsənova

Aidə Cəlilzadə 16

AMERİKA VƏ BÖYÜK BRİTANİYA MEDİA DİSKURSLARINDA İŞLƏNƏN VƏ STRUKTUR BAXIMINDAN MÜXTƏLİFLİK GÖSTƏRƏN ABREVİATURLAR

Abreviasiya prosesi qədim tarixə malik olub istifadəsinin ilk dövrlərindən başlayaraq təbii dil prosesi kimi meydana çıxmışdır. Abreviasiyanın məhsulu olan abreviaturlar isə sözə və zamana qənaət prinsipindən irəli gələn səbəblərdən yaransa da, sözdüzəltmə prosesində bilavasitə iştirak edərək dilin lüğət tərkibini zənginləşdirməyə xidmət edir. Əksər fəaliyyət sahələrində mövcud olan abreviaturların ən geniş istifadə olunduğu diskurslardan biri də media diskursdur.

Media diskursda işlənən abreviaturların Britaniya qəzetləri üzrə üç, Amerika qəzetləri üzrə iki tematik qrupda təhlili göstərir ki, ən işlək abreviaturlar inisial abreviaturlar tipinə aiddir. Bu struktur tip özü üç alt struktur tipə bölünür: 1) inisial-hərfli; 2) inisial-səsli; 3) inisial-hərfli səsli. İnisial səsli abreviaturlar söz səviyyəsində qəbul edilir və onlar inisial akronimlər də adlandırılır. Media diskurslar əsasında aparılmış tədqiqat inisial hərfli abreviaturların məhsuldar olduğunu təsdiq edir. Dilin əlifbasında samitlər və onları ifadə edən qrafemlər çox olduğuna görə, ikili, üçlü, dördlü qrafem birləşmələrinin sayı da çoxdur. Bu isə daha çox hərfi abreviaturların əmələ gəlməsinə səbəb olur. İkinci mövqedə qarışıq inisial abreviaturlar (hərfli-səsli), üçüncü yerdə isə inisial səsli abreviaturlar durur.

Adətən, dövlət, idarə, təşkilat, kompaniya, şirkət adları söz birləşmələri strukturunda olur. Ona görə abreviasiyanın qısaltma, yapışdırma, teleskopik və s. tipləri əsasında yaranan abreviaturlar belə tematik qruplarda az qeydə alınır. Məsələn, dövlət adı: Afghanistan – Afghan.

Amerika media diskurslarında digər tematik qruplara aid olan abreviaturları onların spesifik struktur xüsusiyyətləri əsasında təhlilə cəlb edərək təhlil prosesində tematik qrupu göstərməyi məqsədəuyğun saymaq mümkündür. Bu halda abreviaturların müxtəlif struktur tipləri tədqiqat obyekti ola bilir.

Qrafik formalaşma baxımından aşağıdakı abreviatur strukturları da vardır: 1) baş hərfli; 2) baş və kiçik hərfli; 3) kiçik hərfli; 4) nöqtəli; 5) rəqəmli; 6) çəp xətli; 7) defisli; 8) işarə və simvollu. Qeyd edilən 8 struktur modellərin müxtəlif alt modelləri və qrafik işarələrin kombinasiyasından əmələ gələn alt struktur modelləri vardır. Qeyd olunan modelləri Amerika və Britaniya media diskurslarında işlənən abreviaturların müqayisəsi ilə təhlil etməyə çalışaq.

Böyük və kiçik hərflərin kombinasiyası şəklində formalaşan modellər

LibDem – Liberal-Democrat. Böyük Britaniyada partiya adları qısaltma və yapışdırma (clipping+blending) abreviasiya mexanizmi ilə düzəldilmişdir. Birinci və ikinci komponentin başlanğıc hissəsi saxlanılmaqla birləşdirilmişdir. Britaniya media diskursunda nöqtəsiz və nöqtəli variantları (Lib.Dem - LibDem) işlənir. Başlanğıc hissə sonuncu qrafemin samit olması şərtilə formalaşdırılmışdır. "LibDem coalition sources were alarmed when Maude warned on Wednesday that a strike would risk people's lives as he…" [2, s. 1].

Amerika media diskursunda: FedEx. "America's leading companies – Boeing, Wal-Mart, FedEx, G.E. – and a message: America is ready to invest in Africa" [3, s. 4].

FedEx – Federal Express Corporation (USA). ABŞ-da çoxmillətli konqlomerat holdinq kampaniyadır. Sillabik, heca abreviaturu sayılır. Əslində birinci komponent heca yox, birinci üç qrafem birləşməsidir. Baş və kiçik hərflərin kombinasiyasına malikdir.

LibDem, FedEx abreviaturları baş hərflərlə başlanır. Baş və kiçik hərflərin kombinasiyası ilə düzələn, Böyük Britaniya və Amerika media diskurslarında işlənən kiçik hərf+böyük hərf struktur modelli abreviaturlar da işlənir: iMac, iPhone, iPad və s.

2) Nöqtəli abreviaturlar. Amerika media diskursunda, ümumiyyətlə Amerika abreviatur sistemində çox istifadə olunur. Onların yalnız baş hərflərdən, baş və kiçik hərflərdən, yalnız kiçik hərflərdən düzələn formaları vardır. Məsələn, U.S., A.I.A – American Insurance Association, A.I.B. – Authorized Inspection Body və s. Kiçik hərflilərə a.m., p.m., pp., i.e. və başqalarını misal göstərə bilərik.

3) Çəp xətli abreviaturlar. Britaniya və Amerika media diskurslarında bu modellə düzələn abreviaturların fərqli alt struktur tipləri qeydə alınır: a) baş hərflər və çəp xətt ilə formalaşanlar; I/L – import licence; A/P – account paid; kiçik hərflərlə a/c – account current; baş və kiçik hərflərlə A/o – account of.

Bu nümunələr iqtisadiyyat və maliyyə terminləri tematik qruplarına aiddir. Tədqiqat göstərir ki, başqa tematik qruplarda da bu struktur modeldən olan abreviaturlar həm Britaniya, həm Amerika media diskursunda işlədilir.

4) Defisli abreviaturlar. Media diskurslarda aşağıdakı struktur modellərinə rast gəlinir: 1) inisial hərfli: PA – DSS – Payment Application Data Security Standard; 2) inisial səsli: ebit – eps – earnings before interest and taxes-earnings per share, Wi-Fi, Lo-Lo – Lift on, lift off; 3) inisial hərfli-səsli və ya inisial qarışıq: MIBACR-IG - Moscow Inter Bank Actual Credit Rate – Investment Grade; 4) söz+defis+abreviatur: pay-TV; 5) abreviatur+defis+söz: Io-point, NY-Poly.

5) Rəqəmli abreviaturlar. Tərkibində rəqəm olan abreviaturlar da rəqəmlə hərflərin bir-biri ilə müqayisədə yerləşməsinə görə fərqli alt struktur modellər əmələ gətirir: 1) rəqəm əvvəldə işlənir: 6HD, 3D və s.; 2) rəqəm axırda yerləşir: BBC1, BBC2, TV1, M25, G8, G20, Cop26. Söz və rəqəm tipli abreviaturlar həm Britaniya, həm Amerika media diskurslarında qeydə alınır. Məsələn, London 2012, Kony 2012.

16 Naxçıvan Dövlət Universiteti, dissertant jalilzadehaida@yahoo.com

Qeyd edilmiş struktur modellərdən başqa media diskurslarda tərkibində & işarəsi olan abreviaturlar da müəyyən çoxluq təşkil edir. & simvolu "and" bağlayıcısını əvəz edir. Tabesizlik bağlayıcısı, adətən həmcins adları birləşdirmək məqsədilə abreviaturlara daxil edilir. Daha çox kompaniya və şirkətlərin adlarında istifadə olunur. Amerika və Britaniya media diskurslarında işləkdir.

Media diskurslarda hərfi ixtisarların yazılışlarında eyni sistem gözlənilmir. Abreviatur baş və kiçik hərflərlə, çəp xətlə, defislə yazılır. Bəzi abreviaturlarda qısaltma uyğunluğunda fərqlər nəzərə çarpır. Məsələn, bill of exchange maliyyə termini kiçik hərfli inisial abreviatur (be) kimi verilməklə yanaşı, B/E və b/e variantlarında da işlədilir. Eyni prototipin üç abreviatur forması qeydə alınır ki, bura b.e. Amerika variantını da əlavə etsək, dörd variantının mövcudluğu ilə üzləşirik. Stock exchange termin-söz birləşməsinin beş variantda yazılışına rast gəlinir. Birinci variant inisial baş hərflərlə düzəldilmiş SE abreviaturudur. Söz birləşməsinin St.Ex və St.Ech. abreviaturları, həmçinin S/E variantı da istifadə olunur. Onu da qeyd edək ki, yazılış variativliyi eyni qəzet üçün səciyyəvi deyil. Fərqli variantlar müxtəlif qəzetlərdə, Britaniya və Amerika media diskurslarında özünün göstərir. Belə bir cəhət, fikrimizcə, qəzetlərdə abreviatur formasının qəbul edilməsində ümumi razılaşmanın yoxluğu ilə izah oluna bilər. Lakin nəzərə almaq lazımdır ki, hər bir dilin öz abreviatur fondu vardır və bu fonda daxil olan abreviaturlar lüğətlərdə yazılış və oxunuş normativləşməsinə məruz qalırlar. Görünür, əsas və ya normativ abreviaturlar lüğəti dəqiqləşdirilməmişdir. Nəticədə qəzetlərdə eyni mənalı abreviaturun fərqli yazılışları yer almış olur.

Abreviaturlar yeni abreviaturların əmələ gəlməsində iştirak edir. Belə abreviasiya mexanizmi daha çox inisializmlərdə baş verir. Tam formanın komponent ölçüləri genişləndikdə və ya daraldıqda onu əvəz edən abreviatur da dəyişir. Bu hal variativliklə deyil, yeni abreviaturun yaranması ilə bağlıdır. PC – Personal Computer. İnformasiya texnologiyası terminologiyasında Personal Computer və personal computer word processor termin-söz birləşmələrindən istifadə olunur. Birinci termin çox işlək olduğundan onun PC abreviaturu daha tez-tez istifadə edilir. Abreviatur Britaniya və Amerika media diskurslarında, eləcə də müvafiq sahə terminologiyasında işlənir. Fərdi kompüter insan məişətinə əsaslı şəkildə daxil olmuş cihazdır. Bu baxımdan, termin həm söz birləşməsi, həm də abreviatur kimi danışıq dilində də məhsuldar işlənir, ümumişlək söz funksiyasını yerinə yetirir. Belə proses reterminləşmə adlanır. Personal computer word processor dörd komponentdən ibarətdir və onun birinci iki sözü PC abreviaturudur. Beləliklə, əvvəl PC word processor abreviatur və sözlərdən ibarət abreviatur birləşmə formalaşmış, sonradan terminin ikinci hissəsinin də inisial komponentlə əvəzlənməsi nəticəsində PCW abreviaturu düzəldilmişdir. Abreviasiya PC → PCW istiqamətində getmişdir.

Qəzetlərin reklam səhifələrində PC və PCW abreviaturları daha işləkdir.

iPhone – internet phone; iPod – internet pod kimi ixtisarların ikinci abreviasiya mərhələsini keçməsi şübhə doğurmur. Əvvəl telephone sözünün qısaltma variantı olaraq phone əmələ gəlmişdir. İnternet telefon reallaşandan sonra iPhone abreviaturu formalaşmışdır.

Britaniya media diskurslarında ən çox işlənən abreviaturların təyini məqsədilə müxtəlif qəzetlərin fərqli nömrələrində onların sayı müəyyənləşdirilmiş və bu hesablamalar ümumiləşdirilmişdir. Aparılmış statistik hesablamalar göstərir ki, Britaniya media diskursunda Mr, UK, US, MP, NHS abreviaturları ən çox işlənir. Mr, Ms, Mrs abreviaturlarının işlənmə tezliklərinin müqayisəsindən aydın olur ki, Mr daha yüksək tezliyə malikdir. Oxşar vəziyyət Amerika media diskursunda da müşahidə olunur. Amerika media diskursunda Mr, U.S. abreviaturları məhsuldardır. U.K. abreviaturu Britaniya media diskursları ilə müqayisədə Amerika media diskursunda xeyli dərəcədə az istifadə olunur.

Amerika və Britaniya media diskursunda müəyyən abreviaturların işləkliyi rubrika və sahələrlə bağlılığa malikdir. News, World, Politics kimi rubrikalarda UK, US abreviaturları çoxluq təşkil edir. Sport rubrikasında FIFA, UEFA, NXL, FA, FA cup kimi abreviaturlardan istifadə olunur. Mr, Mrs, dr, App, lab kimi abreviaturlar rubrikadan asılı olmayaraq, demək olar ki, bütün diskurs növlərində işlədilir.

Abreviasiya ilə ellipsis hadisələri arasında müəyyən mahiyyət, məzmun yaxınlığı olsa da, onları eyni linqvistik hadisə saymaq özünü doğrultmur. Hər iki hadisədə qənaət prinsipi öz rolunu oynayır. Abreviasiya prosesinin nəticəsində abreviatur yaranır. Predmet, obyekt, hadisə təkrar nominasiya edilir və onun iki paralel, eyni məzmun daşıyan ifadə vasitəsi olur. Bunlardan biri tam forma və ya prototip, digəri isə abreviatura adlanır. Ellipsis təkrar nominasiya prosesi deyildir. Ellipsis təkrarın aradan qaldırılması məqsədini daşıyır. Eyni zamanda ellipsis kommunikasiya prosesində təzahür edir. Buraxılan, yazılmayan, tələffüz edilməyən hissə kontekstin və bir sıra hallarda fon biliklərinin köməyi ilə bərpa olunur.

J.O. – Journal Official abreviaturunun yaranmasında ellipsisin rolu yoxdur. Bəzi tədqiqatçılar məhz bu abreviaturu tam ellipsis, Sci – sciences abreviaturunu isə natamam ellipsis hesab edirlər. Fikrimizcə, hər iki abreviatur (J.O və Sci) abreviasiya prosesinin nəticəsidir və onun ellipsislə heç bir bağlılığı yoxdur.

Britaniyanın "Daily Mail" qəzetində "Yard spends £40m investigating "phone hacking"" başlığı ilə dərc olunmuş yazıda "Yard" ellipsisin nəticəsidir. Məqalənin birinci cümləsində başlıqdakı cümlə bir qədər dəyişdirilmiş şəkildə təkrar olunur. Dəyişmə "Yard" sözündən əvvəl "Scotland" sözünün işlədilməsindədir: "Scotland Yard is spending..." [1, s. 22]. Bu şəkildə ellipsis mahiyyətinə görə ixtisara yaxındır. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, Britaniyada "Scotland Yard" əvəzinə "Yard" sözünün işlədilməsi yayılmış hadisədir.

Sci abreviaturu Britaniya media diskursunda scific abreviaturunun tərkibində də qeydə alınır. Qəzetlərdə scientific fiction söz birləşməsi scific abreviaturu ilə əvəzlənir. By PC və PCW abreviaturları arasındakı münasibətə identik şəkildə formalaşmış abreviaturdur. Əvvəl yaranmış abreviatur yeni abreviaturun yaranmasında iştirak edir. Abreviasiya müvafiq işlək söz birləşməsinin mövcudluğu ilə motivləşir.

Britaniya və Amerika media diskurslarında X-card abreviaturu yeni il açıqçası mənasında işlənir. Ümumi mənanın formalaşmasında iştirak edən ikinci komponent sözün özüdür (card). Defisli abreviaturun birinci komponenti inisial qrafemdir. Amerika və Britaniya media diskurslarında işlənən Eurasis (Europe and Asia), libs (liberals), motel (motorist's hotel), assn (association), T-shirt, Ex-prisoner, Ex-boxer, mum, dad, afro, tank, WWII, Xbox kimi abreviaturlar struktur tip baxımından maraq doğurur. Ümumiyyətlə, müasir ingilis dilində abreviasiya məhsuldar sözdüzəltmə üsulu kimi fərqli istiqamətlərdə inkişaf edir. Abreviaturlar müxtəlif tematik qruplarda birləşmələrdə onların struktur tipləri və alt tipləri tematika ilə bağlılığa malik deyildir.

Amerika və Britaniya media diskurslarında işlənən abreviaturlar eyni struktur tipləri əhatə edir, abreviasiya prosesində də heç bir əsaslı fərq müşahidə edilmir.

ƏDƏBİYYAT SİYAHISI

1. "The Daily Mail" qəzeti. 30.03.2012
2. "The Guardian" qəzeti. 30.03.2012
3. "The International Herald Tribune" qəzeti. 10.08.2012

Açar sözlər: abreviasiya, media diskurs, ellipsis, sturktur, tezlik, orfoqrafik variativlik
Key words: abbreviation, media discourse, ellipsis, structure, frequency, orthographic variability
Ключевые слова: аббревиатура, медиадискурс, эллипсис, структура, частотность, орфографическая вариативность.

Xülasə

Məqalədə Amerika və Böyük Britaniya media diskurslarında işlənən abreviaturlardan, onların struktur baxımdan oxşar və fərqli xüsusiyyətlərindən bəhs edilir. Britaniya qəzetləri üzrə üç, Amerika qəzetləri üzrə iki tematik qrupda təhlil aparılmışdır. Müxtəlif strukturlu abreviaturların Amerika və Böyük Britaniya qəzetlərində işlənmə tezliyi araşdırılmışdır.

Məqalədə müxtəlif abreviaturların yazılış variativliyi tədqiq olunmuşdur. Müxtəlif qəzetlərdə özünü göstərən fərqli orfoqrafik variantlar nümunəsində Amerika və Böyük Britaniya media diskurslarında bir abreviaturun müxtəlif formalarının olması müəyyənləşdirilmişdir.

Məqalədə abreviasiya və ellipsis arasındakı oxşarlıq və fərq nümunələr əsasında əsaslandırılmışdır. Nəticədə Amerika və Böyük Britaniya media diskurslarına xas abreviaturların eyni struktur tipləri əhatə etdiyi və abreviasiya prosesində də kəskin fərqlərin olmadığı müəyyənləşdirilmişdir.

Abbreviations, varying from structural point of view, used in American and British media discourses

Abstract

The article discusses abbreviations used in American and British media discourses, their structural similarities and differences. A case study is conducted in three thematic groups of British newspapers and in two thematic groups of American ones. The usage frequency of abbreviations of different structures in American and British newspapers is studied.

Orthographic variability of different abbreviations is studied in the article. It is clarified in the article, in the samples of different orthographic variants of different newspapers, that, an abbreviation might have different forms in American and British media discourses.

The examples substantiate the similarity and difference between an abbreviation and an ellipsis. As a result, it is identified that abbreviations of the American and British media discourses are of the same structural types. There are no substantial differences in their abbreviation process.

ббревиатуры, различные со структурной точки зрения, используемые в Американских и Британских СМИ

Резюме

В статье рассматриваются аббревиатуры, используемые в дискурсах американских и британских СМИ, их структурные сходства и различия. Исследование проводится в трех тематических группах британских газет и в двух тематических группах американских. Изучена частота употребления аббревиатур разной структуры в американских и британских газетах.

В статье исследуется орфографическая вариативность различных аббревиатур. В статье на примерах разных орфографических вариантов разных газет выясняется, что аббревиатура может иметь разные формы в дискурсах американских и британских СМИ.

На примерах обосновывается сходство и различие между аббревиатурой и многоточием. В результате выявлено, что аббревиатуры американского и британского медиадискурсов относятся к одному и тому же структурному типу. Принципиальных различий в их сокращении нет.

Rəyçi: fil.e.d., prof. İlham Tahirov

Sevinc Namətova17

TOPLULUQ BİLDİRƏN İSİMLƏRİN BƏZİ LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Cəmlik paradiqması ayrı-ayrı dillərdə çox işlənilsə də, müqayisəli dilçilikdə bu problem öz əksini kifayət qədər tapmamaışdır. Topluluq bildirən və sayıla bilən isimlərin arasındakı fərq bu günlərdə öz müzakirə genişliyi ilə həm koqnitiv sahədə çalışan elm adamlarını (düşüncə ilə mənaçıxarma və yəni ekstralinqvistik konseptual sistemlər), eləcə də qarammatikləri daha çox düşündürür. Odur ki, Universal Qrammatika və Konseptual Sistemlər bu sahədə mövcud olan ziddiyyətlərin araşdırılmasına daha çox səy göstərirlər. Bu baxımdan isimlərin qəbul edilə biləcək ümüumi təsnifat modelinin hazırlanması da mühüm məsələ hesab edilir. Ümumiyyətlə, ingilis və azərbaycan dillərində isimlərin cəmlik paradiqmasının nəzərdən keçirilməsi və toplu isimlərin yerini müəyyənləşdirmək üçün, biz isimlərin aşağıdakı təsnifat modelinə istinad olunmasını təklif edirik. (Bax: Şəkil 1)



Şəkil 1. İsimlərin təsnifat modeli

Alimlərin böyük bir qismi həm bu problemə, həm də elə cəmlik paradiqmasının özünə münasibətdə də fərqli mövqe tuturlar. Məsələn, almaniyalı dilçi Kristian Lehmann göstərir ki, "əgər paradiqma anlayışı mütləq morfoloji paradiqmalara istinad kimi başa düşülmürsə (və mən bunun üçün heç bir səbəb görmürəm), aydındır ki, dillərdə morfoloji modifikasiyası olmayan və ya az dəyişikliyə uğrayan sözlərdə də qrammatik paradiqmalar mövcud ola bilər [3, s. 74].Topluluq bildirən isimlərin ümumi xüsusiyyətlərini müəyyənləşdirməkdə məsələni çətinləşdirən bir neçə səbəb vardır və onalardan birincisi dildaxili əhəmiyyətli görünüən meyarların çoxluğu ilə əlaqədardırsa, digəri birisi dillərarası fərqlər və cəmliyin kodlaşması metodları ilə bağlıdır. Dilşünas alim Çierçia Gennaro qeyd edir ki, "müvafiq morfosintaktik və semantik faktlar toplusu sabit bir özəyi təqdim etməklə yanaşı, həm də bütün dünya dilləri üzrə xeyli dəyişkənliyə məruz qalır, yəni dillər həm mikro səviyyədə (yaxın əlaqəli dillər/dialektlər arasında), həm də makro səviyyədə (genetik cəhətdən əlaqəsi olmayan dil ailələri arasında) cəmliyin yaradılmasında öz rəngarəngliyi ilə seçilir" [2].

Biz bəzən yalnız tək və cəm forması olan isimləri gözdən keçirir, lakin topluluq bildirən isimlərə, onların fərqli xüsusiyyətlərinə o qədər də fikir vermirik. İngilis və bir çox digər dillərdə də sayıla bilən isimlərdən fərqli morfosintaktik xüsusiyyətlərə malik olan topluluq bildirənlər isimlər vardır. Maraqlı olan budur ki, morfosintaktik hesab edtdiyimiz sayılan və topluluq bildirən isimləri biz çox vaxt sadəcə olaraq onların fərqli semantik xüsusiyyətləri ilə əlaqələndirir, lakin onların semantik təsirlərinin dəqiq nədən ibarət olmasını aydınlaşdırmırıq. Görünən isə budur ki, əslində isə bu, heç də sadə məsələ olmayıb, dəqiq araşdırılması lazım gələn bir sıra problemlərlə bağlıdır. Belə isimlərin bəzi xüsusiyyətləri ilə tanış olaq.

İngilis dilinə doğma olmayan bir sıra topluluq bildirən isim növlərinin morfo-sintaksisi ilə bağlı bəzi araşdırmalar vardır. Hesab edilir ki, onlar semantik cəhətdən elə cəm olduqları üçün, onlara cəmlik şəkilçisinin artırılması lazımsız görünür. Belə isimlər, ana dili ingilis dili olmayanların, eləcə də azərbycan dilinin morfologiyasında təzahür edən dil proseslərinin xüsusiyyətidir; burada flektiv cəm şəkilçisi -s (lar2) yerli ingilis dillərində qrammatik cəhətdən "toplu" hesab edilən isimlərə tətbiq edilir. İngilis dilində onların hətta bir qismi - baggages (baqajlar), strawberries (çiyələklər), equipments (avadanlıqlar) və softwares (proqram təminatları) kimi topluluq bildirsə də, belə isimlərin plüralizasiyasının məhdud olmadığı və geniş yayıldığını bildiririlər.

Digər tərəfdən, water (su), butter (yağ), intellegence (zəka), petrol (benzin), lumber (meşə materialı), gold (qızıl), rice (düyü) və sair kimi topluluq bildirən isimlər də vardır ki, onlar yalnız təkdə işlənirlər. Belə olan halda, deməli, topluluq bildirən isimlər yalnız tək halda işlənir desək də, onların: 1. Cəm halda işlənə bilən toplu isimlər və 2) cəm halda işlənə bilməyən toplu isimlər kimi- iki növə ayrıldığı göz qabağındadır. Sual olunur? Nə üçün , məsələn, water, literature və ya rice cəmdə işlənə bilmir? Halbuki, heç kimə sirr deyildir ki, biz müəyyən məqamlarda, məsələn: Non- portable waters seem useless for

17 Xəzər Universitetinin doktorantı

Şəkil 3



this purpose. – İçməli olmayan sular bu məqsəsdə əhəmiyyətsiz görünür – kimi cümlələrdə suyun növündən danışarkən, onu hər iki dildə cəm formada işlədə bilirik.

Azərbaycan dilində olduğu kimi, dilçilər ingilis dilinin həm yazılı, həm də şifahi növlərində hazırda topluluq bildirməklə sayıla bilən isimlərin istifadə olnması kimi nümunələrə hər yerdə istinad edirlər [1]. Belə tipoloji yanaşma həm sinxron, həm də diaxronik mülahizələri ehtiva edir. Əvvəlcə, biz tipin tərif xarakteristikası ilə bağlı ilkin təsəvvürlərə əsaslanan geniş, ideal və hərtərəfli dil nümunəsini nəzərə alırıq. Belə olan hallarda dillərin sinxronik planda müqayisəsi bir sıra ümumiləşdirmələrə gətirib çıxarır və öz formasına görə, adətən implikativ və ya implisit formaları da əhatə edir.İkinci əsas məqsəd (dinamik prinsipləri üzə çıxarmaqdır), yəni topluluqnövün inkişafı, sonrakı dövrlərdə genişlənməsi və son nəticədə yoxa çıxması ilə əlaqədar olaraq tarixən müstəqil instansiyalarda təkrarlanan dəyişikliklərin nəzərə alınmasıdır.

Dilçilikdə tədqiqatın bu hissəsini həyata keçirərkən adətən ayrı-ayrı dillərin daxilində rekonstruksiyaya əsaslanan dəyişikliklər, linqvistik ehtiyatlar daxilində müqayisəli metod və tarixi sənədlərin mövcud olduğu birbaşa mənbələr daxildir. [5, s. 4].Alman dilçisi Krifka (1956) hesab edir ki, "sayıla bilməsinə görə sayıla bilməyən isimlərə həm oil (neft), (gold) qızıl, (flour) un kimi (topluluq bildirən prototip isimləri) "maddi isimlər", həm də mebel (furniture), mal-qara (cattle), heyət (staff) kimi "kollektivlik (birgəlik) bildirən isimlər" daxildir [6, s. 222]. Onlar burada sonuncunun alt qrupunu fərqləndirir; belə ki, onlara - "funksional kollektivlik (birgəlik) bildirənlər" (yəni, mebel, baqaj, zərgərlik) isimlər kimi istinad edilir ki, bunlar da ənənəvi olaraq topluluğun sayıla bilən növlərə oxşamaqla öz əhatə dairəsinin fərqləndirir və genişləndirir" [7, s. 3].

Digər yanaşmalar da mövcuddur. Məsələn, belə yanaşmaların birində qeyd olunur ki, "sayı ifadə etmək üçün istifadə edilən dil nümunələrindən asılı olmayaraq, insanlar nominallaşdırıla bilən anlayışların mahiyyətcə bölünə bilən olub-olmama dərəcəsini zehni olaraq müəyyən edə bilirlər [8, s. 138]. Deməli, situasiyadan (kontekstdən) asılı olaraq topluluq bildirən isimlərin cəmdə işlənməsi məsələsi koqnitiv bir hadisə hesab edilir. Tədqiqatlar göstərir ki, Dünya İngilis Dilləri səviyyəsində (World Englishes) ana dili ingilis dili olmayan variantların heç birində sayıla bilməyən (yəni topluluq bildirən isimlər) ismlər çox tez-tex flektiv yolla –s/es cəmlik şəkilçisi qəbul edə bilir. Bizim buna dair keçirdiyimiz müsahibələrin nəticələri də göstərmişdir ki, ingilis dilinin ana dili və ya xarici dil kimi işləndiyi müxtəlif məqamlarda topluluq bildirən isimlərə yanaşmalar çox müxtəlifdir (Bax: Şəkil 2 və Şəkil 3).

Buradan da göründüyü kimi, ana dili ingilis dili olanlarla ana dili ingilis dili olmayan kontingentin toplu isimlərin sayıla bilən olmasına dair yanaşmaları arasındaki fərq 64:47 olan nisbətində dəyişir. Bu empirik fakt bir daha sübut edir ki, topluluq bildirən isimlərə yanaşma öz xüsusiyyətinə görə əsasən koqnitiv yanaşmanın mövzusudur.

Hazırda dilçilər arasında belə yanaşmanı təsdiqləmək üçün aparılan təcrübələr daha çox iki istiqamətin fərqləndirilməsi üzərində cəmlənmişdir. Bunlardan birincisi Qlobal Britaniya İngilis Dilinə Əsalanan (The GloWbE corpus), ikincisi isə Beynəlxalq İngilis Dilinə Əsaslanan (International Corpus of English) topluluq bildirən isimlərə yanaşmalarda olan müxtəliflikdir. Hətta son zamanlarda bu iki müxtəlifliyin arasında ayrıca Amerikan Əsaslı İngilis Dilinin topluluq bildirən isimlərinin də ayrıca bir model kimi olması vurğulanır və göstərilir ki, Britaniya İngilis Dilində istifadə edilən topluluq bildirən isimlər daha çox cəmlik ifadə etmək xüsusiyyətinə malik olduğu halda, bu Amerikan İngilis Dilində fərqli xüsusiyyətlər kəsb edir. Bu cür yanşmaların çoxunda konseptual fərdiləşmədə referentin keyfiyyət strukturuna aid olanlar sırf semantik xüsusiyyətlərlə verilir və bu ismin morfosintaktik kodlaşdırılması ilə əlaqələndirilir.

Bundan başqa, sayıla bilən isim anlayışı adətən daha çox rabitəli və möhkəm olur və şəhər (city) müəllim (teacher), parta (desk) və sair kimi sözlərdə cəmliyin işarələnmış formasında olur. Bunu əksinə, sayıla bilməyənlər isə daha az rabitəli, tipik amorf formalı obyektləri, bölünə bilən və toplu olan ot (grass), məsləhət (advice) kimi mücərəd məhfumları ifadə edir. Lakin bununla belə bəzi dilçi alimlər [4] bildirirlər ki, topluluq bildirən sayıla bilən isimlərin nə aydın və aşkar şəkilldə özünü biruzə verən qeyri-linqvistik xüsusiyyətləri, nə də onların morfoloji icra yolları mövcud yolları vardır.

Nəhayət, qeyd olunmalıdır ki, ingilis və azərbaycan dillərində topluluq bildirən ismlər həm öz daxilində (inter), həm də öz aralarında (intra) fərqli xüsusiyyətlərə (leksik, semantik, morfoloji, koqnitiv və sair) malikdirlər.

İstifadə olunmuş ədəbiyyat

1) Björkman, B. English as the lingua franca of engineering: The morphosyntax of academic speech events. // Nordic Journal of English Studies 7(3), - 2008, - p. 103–122.
2) Chierchia G. Mass nouns, vagueness and semantic variation // - Springer Science + Business Media B.V, - 2009, 174 - p. 99–149.
3) Christian L. Thoughts on grammaticalization. 3rd edition (Classics in Linguistics 1) /Lehmann Ch. - Berlin: Language Science Press. - 2015 - 214 p.
4) Fieder, N., Nickels L. & Biedermann B. Representation and processing of mass and count nouns: A review. //Frontiers in Psychology No 5. – p. 589 – 2014.
5) Greenberg, J. H. 1972/1977. Numeral classifiers and substantival number: problems in the genesis of a linguistic type. Revised-version of a paper presented at the International Congress of Linguisticslth, /- Bologna: Italy, - p. 1-39. - 1972 – 39 p.
6) Krifka M. Mass expressions. //In Keith Brown & Jim Miller (eds.), Concise encyclopaedia of grammatical categories, - Oxford: Pergamon. - 1999. p. 221–223.
7) Schneider G., Hundt, M., Schreier D. Pluralized non-count nouns across Englishes: a corpus-linguistic approach to dialect typology // Corpus Linguistics and Linguistic Theory, 16(3): - University of Zurich, - 2020.- p. 515-546.
8) Schmidtke D and Kuperman V. Mass counts in World Englishes: A corpus linguistic study of noun countability in non-native varieties of English// Corpus Linguistics and Ling. Theory - De Gryuter Mouton -2017; 13(1): - p. 135–164

Açar sözlər: isimlər, cəmlik paradiqması, topluluq bildirən isimlər, topluluq bildirən isimlərin xüsusiyyətləri
Key words: Nouns, plural paradigm, mass nouns, features of mass nouns
Ключевые слова: Существительные, парадигма множественного числа, массовые существительные, признаки массовых существительных

Some linguistic features of mass nouns

Summary

The article discusses some important features of mass nouns peculiar for Azerbaijan and English languages. It denotes that despite its simplicity, there are still some more complications in full comprehension of the grammatical, lexical and morpho-syntactic features of mass nouns and their countable and uncountable types.

The author highlights the citations from the most linguistic researches and bring the arguments of inter and intra language properties standing behind the complicated characteristics of mass nouns.

Некоторые языковые особенности массовых существительных

Резюме

В статье рассматриваются некоторые важные особенности массовых существительных, свойственные азербайджанскому и английскому языкам. Это означает, что, несмотря на его простоту, есть еще некоторые сложности в полном понимании грамматических, лексических и морфосинтаксических признаков массовых существительных и их исчисляемых и неисчисляемых типов.

Автор выделяет цитаты из большинства лингвистических исследований и приводит доводы об интра- и интерязыковых свойствах, стоящих за сложными характеристиками массовых существительных.

RƏYÇİ: dos.S.Abbasova

Fidan Rzayeva18

ƏRƏB DİLİNİN İRAQ DİALEKTİNDƏ İŞLƏNƏN ÖN QOŞMALAR, BAĞLAYICILAR VƏ ƏVƏZLİKLƏR

Məlum olduğu kimi, ərəb ölkələrində bir sıra fonetik və leksik fərqlər olmaqla, ərəb ədəbi dili rəsmi dövlət dili statusunda qəbul olunmuşdur.

Ədəbi dil rəsmi çıxışlarda, bəzi televiziya verilişlərində (siyasətə, iqtisadiyyata və dinə aid müzakirələr və söhbətlərdə) xəbərlərdə, qəzet və jurnallarda, bədii ədəbiyyatda, rəsmi sənədlərdə (ümumiyyətlə yazı formatında) və s. istifadə olunan dil kimi yer almışdır.

Bu dil sabit norma və qaydalara əsaslanaraq, müəyyən çərçivədən çıxmaq imkanına malik olmadığı üçün, başqa işlək dillər kimi dəyişmək, inkişaf etmək (leksik tərkibi istisna olmaqla) proseslərinə məruz qalmır.

Ərəb ədəbi dili ilə yanaşı hər bir ərəb ölkəsində aktiv kommunikasiya vasitəsi olan yerli dialekt və ləhcələr vardır ki, bu da bir növ ədəbi dilin ünsiyyət vasitəsi olmaması boşluğunu doldurur.

"Dialekt" istilahına gəlincə, bu barədə müəyyən fikir müxtəlifliyi var ki, bunlar da, qısaca olaraq, aşağıdakı şəkildə qeyd oluna bilər. Bəzi alimlər bu terminin ərəb dialektlərinə aid işlənməsini düzgün saymır. Onun daha çox hind-Avropa dillərinə tətbiq edilməsi, ərəb ölkələrindəki dil aspektinə o qədər də uyğun olmaması fikrini irəli sürür, ərəb ölkələrində yerli ünsiyyət vasitəsi olan "ləhcələrin" ərəb ədəbi dilinin pozulmuş variantı, yerli anomaliya nəticəsi və ya ərəb ədəbi dilinin sistematik hissəsi müddəasını,məsələn, Mişkurov Ə.H. yanlış hesab edir.

"Dialekt" dedikdə, məhdud əhatə dairəsində işlənən quruluşca müstəqil danışıq dili olan, ədəbi dillə genetik qohumluğu təsbit edilən və funksional cəhətdən onu tamamlayan dil forması nəzərdə tutulur (2, 4).

Belə təqdirdə ərəb danışıq dilini "dialekt" yox, "dialekt dili" adlandırmaq daha məqsədəuyğundur (3, 11).

Ərəb dialektlərinin (biz şərti olaraq bu termindən istifadə edəcəyik) ərəb ədəbi dilinin "pozulmuş" və ya "korlanmış" variantı olması fikrinə etiraz edən alimlərə bir növ haqq qazandırmaq olar. Çünki, bilindiyi kimi ərəb dialektləri hələ çox qədim dövrlərdə də mövcud olmuşdur və əsasında ədəbi dilin yarandığı qureyşi dialekti ilə paralel eyni dövrlərdə işlənmişdir və uzun illər ərzində hər bir "canlı" substansiya kimi dəyişmiş – transformasiyaya uğramışdır.

Dillər də ümumi inkişaf qanunlarına uyğun olaraq, mürəkkəbdən sadəyə, qəliz və ağır qrammatik formalardan daha bəsit şəkillərə düşmüşdür. Dində politeizmdən monoteizmə keçidə bənzər bir proses qət etmişdir.

Dialektlərdə təyin bağlayıcılarının unifikasiyası (التى؛ الذى və s.) əvəzinə tək (إلى) bağlayıcısının işlənməsi, feil təsrifində cəm müənnəs və təsniyə formasının olmaması və s. xüsusiyyətlər buna dəlalət edir.

Ərəb dialektlərinin yaranmasında bir neçə faktorun da rol oynamasını təsbit etmək mümkündür. Buraya ictimai, siyasi, iqtisadi, tarixi və mədəni amillər aid edilə bilər, o cümlədən, ərəb hərbi yürüşləri zamanı fəth edilən ölkələrin substrat dillərlə təmas, qonşu dillərin təsiri, müstəmləkə şəraitində hakim dillərin basqısı və s. səbəblər göstərilə bilər.

Ərəb dilinin fütuhat dövründən sonra, xüsusilə, islam dininin qəbulu nəticəsində nəhəng bir arealda yayılması, və, xüsusilə, ona yaxın sami dillərini assimilə etməsi yeni reallığın yaranmasına bais oldu. Fəth edilmiş ərazilərin bəzən bir-birindən uzaq olması da dialektlərin bir-birindən fərqlənməsini şərtləndirmişdir. Əlcəzair, Tunis, Mərakeş əhalisinin danışdığı dilin İraq, Suriya və Misir dialektlərindən hətta anlaşılmayacaq dərəcədə, fərqli olması buna sübutdur. Belə fərqlənmələri biz türk, slavyan və başqa dillərin misalında da müşahidə edə bilərik: Bir ana kökdən olub, ayrı-ayrı inkişaf yolu keçən bir-birindən ciddi şəkildə fərqlənən dillər buna nümunə ola bilər.

Ərəbşünaslar ərəb dialektlərini iki böyük qrupa ayırmağı münasib hesab etmişlər: şərq və qərb qrupu. Dialektləri dörd və daha artıq qruplara bölməyin tərəfdarları da vardır. Bundan əlavə hər regional dialekt daxilində bir çox ləhcələr, şivələr, koynelər, hətta bəzi yerlərdə kişi və qadın ləhcələrinə də təsadüf etmək mümkündür.

İraq dialekti ərəb dialektlərinin Şərq qrupuna aid edilir. Burada əsasən Bağdad, Bəsrə, Mosul və b. şivələr əsas götürülür, bunların içərisində ən geniş yayılmışı, əlbəttə ki, Bağdad dialekti hesab olunur.

İraq dialekti uzun bir tarixi zaman kəsiyi içərisində bir çox təsirlərə məruz qalmışdır; buraya Arami substratı, yunan, siryani və fars dilləri (VII əsrdən başlayaraq), sonrakı dövrdə Osmanlı və Avropa dillərinin adını çəkmək olar.

Belə təsirlərin nəticəsində İraq dialektinin sintaksisi və leksikası ilə yanaşı fonetikasında da bəzi xüsusiyyətlər özünü göstərmişdir.

Belə ki, 1)ق[q] hərfinin tələffüzü dilimizdəki [q] samitinə yaxındır.

[ey] diftonqu [ē] saiti ilə əvəz olunur. Məs. [bēt].

[hu] bitişən əvəzliyi (k.c.tək III) [ə, e] olur. Məs.: [kitəbə] – onun kitabı.

Ədəbi dildə yer almayan [o] saiti işlənir. Məs.: [fōq] – üstündə.

Ədəbi dildə və başqa dialektlərdə təsadüf edilməyən [ç] samiti. Məs.: [şlōnıç] – necəsən?

Qeyd: Məqalə fonetikaya həsr edilmədiyindən başqa fonetik hadisələrə toxunmamağı lazım bildik.

Məqalədə verilən transkripsiyada uzun saitlər hərf üzərində xətt [ə], ق hərfi [q], چ hərfi [ç] ilə verilmişdir.

Təqdim etdiyimiz məqalədə İraq dialektində işlənən ön qoşmalar, bağlayıcılar və əvəzliklər haqqında məlumat verməyə çalışmış, onların tələffüzü, ədəbi dildəki analoqlarından fərqi və s. göstərilmişdir.

İraq dialektindəki ön qoşmaları, onların mənalarını, işlədilmə xüsusiyyətləri və s. məlumatları aşağıdakı siyahıda əks etdirməyi hədəfləmişik.

---

18 BDU

Vasitə, zaman və and bildirən بـ[B] ön qoşması: [byed] - əllə; [bhəssənə] – bu il; [bşərəfi] – şərəfim haqqı.
Ədəbi dildəki [Bi] بـ ön qoşmasından saitsiz olması ilə fərqlənir.
İstiqamət bildirən: [li]; [إلى]
فاطمه نزلتْ لِلسُّوقْ[fātıme nizlit li-ssūq] – Fatma bazara getdi. لِوَين رَايح [livēn-rayıh] – o, haraya gedir?
Ədəbi dildəki إلى ön qoşmasının analoqu:
Yer bildirən ön qoşmalar: خارج[xəric]: بَرَه [barra]. Məs.: بره المدينة[barra-l-mədine] – şəhər kənarında,
جُوّه[cuvva] – içində. Məs.:جوه البيت[cuvva-l-bēt] – evin içində.
دَايرْ مَدَايِرْ[dəyir mədəyir] - ətrafında. Məs.:دَايِرْ مَدَايِرَك[dəyir mədəyirək] – sənin ətrafında.
بين؛ بينات[bēn]: [bēnət] – arasında. Məs.:بيناتهن[bēnəthun] – onların (c.müən.) arasında.
عِدْ؛ عِنْد[`ıd]: [`ınd] – yanında.
عِدْ مدير[`ıdmudir] – müdirin yanında.
فوق[fōq] – üstündə, üzərində.
Məs.:فوق البيت[fōq-il-bēt] – evin üzərində.
Qeyd: Bu önqoşma həm də "artıq" mənasını verir. Məs.:فوق المئه[fōq-il-miyə] – yüzdən çox
Ədəbi dildə [fauqa]
قُبَال: مُقَابِلْ[qbəl]; [muqəbil] – qarşısında.
Məs.:قبال المدرسه[qbal-il-mədrəsə] – məktəbin qarşısında
Ədəbi dildə [qubālə] və ya [qibəl].
قِدّام [qiddəm] – qabağında.
Məs.:قدام البيت[qiddəm-il-bēt] – evin qarşısında.
ورا[vara] – arxasında;
Məs.:وَرَا المَسجِد[vara-l-məscid] – məscidin arxasında.
يَمّ[yəmm] – yanında
Məs.:يم الحديقه[yəmm-il-hadiqa] – bağın yanında.
براس[brās] - əvvəlində.
Məs.:بْرَاسِ اَلشَّارِعْ[bras-iş-şəri`]
بْسدّ[bsidd] – yanında.
Məs.:بسدّك[bsiddək] – sənin yanında
بسراه[bsırā] – yerində.
Məs.:بصفك[bsaffik] – sənin yanında.
بْصَفِّى[bsaffi] – mənim yanımda
Zaman bildirənlər.
بَعْدْ[ba`d]; بَعَدَ[ba`ad] – sonra.
Məs.:بَعْدِ الظُهْر[ba`ad-iz-zohr]
Qeyd: Bu önqoşma "hələ" mənasında da işlənir. Məs.:بعد ما إجا[ba`ad mə `icə] – o hələ gəlməyib.
قَبُلْ[qabul]; قَبْلْ[qabl] - əvvəl.
Məs.:قَبْلِ اَلْيُوْمَيْن[qabl-ıl-yōmēn] – iki gün əvvəl.
باخر[bəxir] – son
خاطر [xətır] – xətrinə
Məs.:باخر الشهر[bəxir-ş-şəhir] – ayın axırında
Məs.:خاطر الله[xātır alla] – allar xatirinə
على مود[ʿaləmūd] – üçün
Məs.:على مودك[ʿalə mūdək] – sənin üçün, sənə görə.
Qeyd: Bu ifadə həm də "çünki" mənasını verir.
Məs.:آنى مستعجل على مود يستنّانى ['əni mustəcilʿalə mūd yistənnəni] – mən tələsirəm, çünki o məni gözləyir.
"Üçün" mənasında bir də عَشَان[ʿaşən] birləşməsi mövcuddur ki, o da həm isimlərlə, həm də bitişən əvəzliklərlə işlənir.
Məs.:عَشَان والدى[ʿaşən vālidi] – atam üçün və ya عشانك[ʿaşənək] – sənin üçün.
Bəzi idiomatik ifadələrdə işlənən və "üstə", "üzərində" mənasını verən ع[ʿ]; على[ʿalə] önqoşması.
Məs.:عَلْعَيني [ʿalēni] – gözüm üstə
مسؤوليه عليكم[məs ʿūliyyə ʿalēkum] – məsuliyyət sizin üzərinizdədir.
لِ [li] önqoşmasının müxtəlif mənalarda işlənməsi.
Məs.:نِزِلِ لِلشارع[nizil li-şəri] – o küçəyə çıxdı.
لِوين رايح؟[liven rayıh?] – haraya gedirsən?
Qeyd: sonuncu misaldakı لِ-ni إلى önqoşmasının variantı kimi də qiymətləndirmək olar.
Birgəlik bildirənlər:
ويّا[viyyə] – birgə
Məs.:ويَّاىَ[viyyəyə] – mənimlə.
ويا والده[viyyə vālidə] – atası ilə.

Ədəbi dildəki مع[mə‘ə] önqoşmasının yerinə işlənir.مَعَ[mə‘a] ön qoşması isə yalnız bəzi ifadələrdə işlənir. Məs.: مع السلامه[mə‘a-s-sələmə] – sağ ol, əlvida.
“-Sız” “-siz” mənasını verənlər:
بْلَيّه[bleyyə]
Məs.: إجا بْلَيّه أُخته['icə bleyyə 'uxtə] – o, bacısız gəldi.
Ədəbi dildəki بِلَا[bilə] ön qoşmasının analoqudur.
“inadına” mənasını verən عَلَى عِنَاد['alə ‘inəd] birləşməsi.
Məs.: عَلَى عِنَاد ٱلعَدُوّ['alə ‘inādi-l-‘aduvv] – düşmənə inad, düşmənin əksinə.
"فى"[fi] ön qoşması yerinə çox zaman بِ işlənir. (Bu ön qoşma haqqında məlumat verilmişdir) "فى" isə bəzi idiomatik ifadələrdə təsadüf edilir.
Məs.: فِي أَمَان الله[fi 'əməni-l-lāh] – allah amanında.
2) во вторую группу официонимов входят названия должностей, непосредственно связанных с решением проблем беженцев, защитой их прав и т.д. Исходя из того, что, в данную группу можно отнести и официонимы, связанные с международными организациями, а также и официонимы, связанные с организациями локального (местного) уровня, то было бы целесообразно в рамках данной группы выделить две подгруппы: 2а) названия должностей в международных организациях (например: UN Goodwill Ambassador for Refugees ; UNICEF Goodwill Ambassador);

Filippo Grandi is the 11th United Nations High Commissioner for Refugees. [7]; UNICEF Goodwill Ambassador Orlando Bloom in Moldova to meet refugee children fleeing Ukraine war [8]; American actress Angelina Jolie will help bring awareness about refugees as the U.N. refugee agency’s Goodwill Ambassador. [9].

2б) названиядолжностейместныхорганизаций (например: Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Head ofThe State Committee of Ukraine on Nationalities and Migration)22

---

21 Преподаватель кафедры английского языка (для гуманитарных факультетов) БГУ, Диссертант Бакинского Славянского Университета sakinaaydinova@yahoo.com

22The State Committee of Ukraine on Nationalities and Migration in accordance with established procedure introduces the motions concerning forming of the state policy in the sphere of international relations, migration, ensuring national minorities and refugees rights in Ukraine, ...[11; 1].

В этом контексте следует отдельно указатьто, чтов современной лингвистической литературе наблюдаются случаи контоминации понятий официонимов и эргонимов. Так, например, в исследовании Н.И.Понамаревой читаем: «типология официонимов представляет собой следующую структуру: 1. Названия организаций, учреждений, партий (с однокомпонентными/неоднокомпонентными ономастическими маркерами); 2. Названия должностей, званий (с однокомпонентными/неоднокомпонентными ономастическими маркерами)» [10; 147].

Как видно из приведённой цитаты, автор рассматривает официонимы в статусе некоего гиперонима, по отношению которого и сами официонимы (названия должностей), а также и эргонимы (названия организаций) расположились в иерархической зависимости. Мы не согласны с таким подходом и считаем более целесообразным разграничение официонимов и эргонимов. В этой связи, можно добавить и то, что наша позиция совпадает с подходом к данной классификационной проблеме, изложенной в исследовательских работах М.Чигашевой. М.Чигашева выделяет следующие классы ономастических единиц: антропонимы..; топонимы ..; этнонимы ..; эргонимы (наименование делового объединения людей, в том числе союза, организации, учреждения, корпорации, предприятия, общества); официонимы (наименование должностей); документонимы (наименование документов, актов, законов); гемеронимы (наименование СМИ); геортонимы (наименование праздников, политических, исторических и военных событий) и т.д. [12]. На счет последних можно добавить и то, что в концепте «Беженец» присутствуют множество геортонимов. Среди них хотелось бы особо подчеркнуть наличие геортонима – День беженцев (World Refugee Day). Известно, что, каждыйгод 20 июняотмечается Всемирный Деньбеженцев.

World Refugee Day is an international day designated by the United Nations to honour refugees around the globe. …World Refugee Day is an occasion to build empathy and understanding for their plight and to recognize their resilience in rebuilding their lives [13].

Выводы. На основании вышеизложенных фактов можно прийти к выводу о том, что концепт «Беженец» изобилен ономастическими единицами и это обусловлено тем, что проблема беженцев затрагивает различные сферы общества (политику, общественную жизнь, экономику и т.д.). Многогранность проблемы беженцев порождает мультиракурсные подходы к ее решению, что в свою очередь делает неизбежным появление различных международных, государственных, межправительственных учреждений, фондов, премий, а также законов, конвенций, пактов, договорённостей. А это несомненноозначает то, что когниомоделирование концепта «Беженец», ее внутренняя иерархическая структурабудет отзеркаливать (в должном порядке и в соответствующей степени) факт наличия огромного ономастического материала.

Использованная литература:

1) Сологуб О. П. Документонимы: структура, семантика, функционирование // Филология в XXI веке, 2019,№1, с. 276-281 https://www.elibrary.ru/download/elibrary_39555650_50404641.pdf
2) Qaçqınların və məcburi köçkünlərin statusu haqqında Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/7750
3) Persaud S.Protecting refugees and asylum seekers under the International Covenant on Civil and Political Rights, November 2006, 33 pp. https://www.unhcr.org/4552f0d82.pdf
4) http://idp.gov.az/az/content/2/parent/1
5) https://e-qanun.az/framework/34675
6) Krogstad J.M. Key facts about refugees to the U.S. // Pew Research Center, October 7, 2019, https://www.pewresearch.org/fact-tank/2019/10/07/key-facts-about-refugees-to-the-u-s/
7) https://www.unhcr.org/the-high-commissioner.html
8) https://reliefweb.int/report/moldova/unicef-goodwill-ambassador-orlando-bloom-moldova-meet-refugee-children-fleeing
9) Angelina Jolie named UNHCR Goodwill Ambassador for refugees // UNHCR - The UN Refugee Agency, 23 August 2001 https://www.unhcr.org/news/press/2001/8/3b85044b10/angelina-jolie-named-unhcr-goodwill-ambassador-refugees.html
10) Пономарёва Н.И. Денотативная классификация официонимов в орфографическом аспекте [Текст] / Н.И. Пономарёва // Филологические науки. Вопросы теории и практики. - 2015. - № 10-1. - С. 146-150. https://www.gramota.net/articles/issn_1997-2911_2015_10-1_34.pdf
11) Decree of the President of Ukraine , https://www.refworld.org/cgi-bin/texis/vtx/rwmain/opendocpdf.pdf?reldoc=y&docid=5d667d204
12) Chigasheva M. Onomastic Classification of the Realities of Political Discourse // 8 Jun 2020, https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3599989
13) World Refugee Day https://www.unhcr.org/world-refugee-day.html

Ключевые слова: ономастикон, концепт «Беженец», документоним, официоним, геортоним

Açar sözlər: onomastikon, "Qaçqın" konsepti, dokumentonim, ofisionim, georton im

Key words: onomasticon, concept "Refugee", documentonym, officionym, georton ym

"Qaçqın/Refugee" konseptinin onomastikonu (dokumentonimlər, ofisionimlər)

Xülasə

Məqalədə "Qaçqın/Refugee" konseptinin onomastikonunu araşdırılır. Məlum olur ki, bu və ya digər konseptin onomastikonu dedikdə, bu konseptdə yer alan onomastik konseptlərin məcmusu nəzərdə tutulur. Müəllif məqalə çərçivəsində "Qaçqın/Refugee" konseptinə daxil olan onomastik vahidlərin lokal qrupunu – əsasən, dokumentonim və ofisionimləri araşdırmışdır. Dokumentonimlər dedikdə, konvensiya, pakt, razılaşma, müqavilə, qanun, fərman, təlimat, göstəriş və s. bu kimi sənəndlərin adları nəzərdə tutulur. Məıum olur ki, "Qaçqın/Refugee" konseptinə daxil olan dokumentonimlər 1) hüquqi, 2) inzibati-idarəetmə; 3) maliyyə sənəndlərinin adları olaraq üç qrupda fərqləndirilir. Ofisionimlər isə bu və ya digər vəzifə adlarını əhatə edir. Müəllif "Qaçqın/Refugee" konseptinə daxil olan ofisionimləri də iki böyük qrupda fərqləndirir: 1)

neytral (qaçqınlarla iş üzrə olmayan) vəzifələrin adları; 2) bilavasitə qaçqınlarla iş üzrə olan vəzifələrin adları. Sonuncu qrupun özü də iki yerə bölünür: 2a) beynəlxalq təşkilatlardakı vəzifə adları; 2) yerli təşkilatlardakı vəzifə adları.

Onomasticon of "Refugee" concept (documentonyms, officionyms)

Summary

The article examines the onomasticon of the "Refugee" concept. It becomes evident that when the onomasticon of this or that concept is mentioned, the set of onomastic concepts included in this concept is meant. Within the framework of the article, the author has researched the local group of onomastic units included in the concept of "Refugee", i.e. documentonyms and officionyms. Bydocumentonymsthe names of such documents as conventions, pacts, agreements, contracts, laws, decrees, instructions, guidelines, etc. are meant. It becomes known that documentonyms being the names of documents, included in the concept of "Refugee" are distributed among three groups i.e. 1) legal 2) administrative 3) financial. Officionyms encompass the names of this or that job titles. The author also distinguishes the officionyms included in the concept of "Refugee" into two major groups: 1) neutral (positions related to non- refugees; 2) names of positions directly related to refugees. The latter group itself is divided into two: 2 a) job titles in international organizations 2) job titles in local organizations.

Rəyçi: prof. Eldar Piriyev

Mehriban Asif qızı Mehdiyeva23

ÇOXMƏNALILIĞIN ÜSLUBİ KEYFİYYƏTLƏRİ

Üslub vəüslubiyyat terminləri filologiya elmindəçox qədim zamanlardan işlənir. Dilçilik elminin müstəqil sahəsi kimi üslubiyyat XX əsrin 20-30-cu illəridən, onun funksional üslubiyyat adlandırılan qolu isə 50-ci illərdən sonra formalaşmağa başlamışdır. Üslubiyyat dilçiliyin başqa sahələrindən fərqli olaraq dilin işlənmə xüsusiyyətlərini öyrənir. Bu mənada üslubiyyatın tədqiqat dairəsinə dilin işlənməsi ilə bağlı vasitələr daxil olur.

Görkəmli Azərbaycan alimi Ə.M.Dəmirçizadəüslublarıöyrənən elm kimi üslubiyyatı belə səciyyələndirir: "Üslubiyyat dilin ifadəlilik vasitələrinin məqsədəuyğun surətdə istifadə edilmə qayda və qanunlarından, xüsusiyyət vəəlamətlərindən, ifadə vasitələrinin sistem təşkil etməsi xüsusiyyətlərinə görə formalaşan müxtəlif üslubların əlamətdar cəhətindən bəhs edən bir elmdir" (2, s. 24).

Üslubiyyatın əsas kateqoriyalarından biri üslub kateqoriyasıdır. "Üslub" termini ərəbcə tərz, ifadə tərzi, üsul mənasındadır. Ümumiyyətlə götürdükdə, üslub hər şeyin öz "mənidir", yəni hər hancı bir kateqoriyadan olan fəaliyyət növünün özünəməxsus keyfiyyət məcmusudur. Hər hansı bir sahənin ilkin inkişaf mərhələsindəüslubu ola bilməz. Elə dilin özünü götürmüş olsaq, onun ilkin inkişaf mərhələsində hansıüslubdan bəhs etmək olar?

Üslubun yaranması vəçoxlu üslubların meydana gəlməsi dilin inkişafi ilə bağlıdır. Bütün dil üslubları dilin inkişaf səviyyəsindən asılıdır. Üslub çox geniş anlayışdır. Üslub anlayışının tarixi çox qədimdir. Hələ yunan dilçiliyində Aristotel insan nitqi və onun fəlsəfi problemlərindən danışarkən üslub məsələlərinə toxunurdu. Yunan alimi üslub terminiни ritorika, bəlağətli nitq, natiqlik geniş mənada sənəti kimi başa düşürdü.

Məlumdur ki, dil insan fəaliyyətinin bu və ya digər sahəsi ilə bağlı müxtəlif funksiyalar yerinə yetirir. Bunlar başlıca olaraq, ünsüiyyət, məlumat və təsir funksiyalarıdır. Həmin funksiyaları reallaşdırmaq üçün dilin tarixən yalnız müəyyən tətbiq sahəsində işlənən, xüsisi ifadəlilik vasitələri olan müxtəlif qolları funksional üslubları formalaşmışdır. Funksional üslubların yaranması dilin fəaliyyət sferi ilməlaqədardır. Funksional üslubun yaranması aşağıdakı faktorlardan asılıdır:

Dilin inkişaf etməsi
Milli adət vəənənə
Xalqın özünün mədəni səviyyəsi
Dövlətin və xalqın dilə münasibəti
Din faktoru
Dilin fəaliyyət sferi

Funksional üslublar ekstralinqvistik zəmində yaranır və ifadənin məzmunu, məqsədi və vəzifələrindən asılı olaraq dildaxili əlamətlərə - ümummilli dilin nitq vahidlərinin seçilməsi,əlaqələndirilməsi və təşkili prinsiplərinə görə bir-birindən fərqlənir. Hər hansı bir üslubun dil materialının əsas hissəsini ümumdilə məxsus vasitələr təşkil edir. Ayrı-ayrıüslubların səciyyəsi isə yalnız həmin üsluba xas olan, eyni işlənmə normaları olan və bir növ mikrosistem əmələ gətirən xüsusi dil vasitələrinin mövcudluğu ilə müəyyənləşir.

Funksional üslublar ünsiyyətin hər hansı bir sahəsində müəyyən məqsədə xidmət edən müəyyən funksiya daşıyan dil vasitələrinin sistemidir. Hər hansıüslub ümumxalq dilinin tarixən formalaşmış növü, rəngarəngliyidir. Üslublar müxtəlif dil səviyyələrində (leksik, morfoloji və sintaktik) müəyyən dil vasitələri toplusunun işlənmə tezliyi ilə səciyyələnir. Belə ki, funksional üslublar leksik səviyyədəünsiyyətin müəyyən sahəsinə məxsusu anlayışları ifadə etmək üçün daimi şəkildə işlədilən xüsusi söz ehtiyatının (məsələn elmi üslubda terminlərin), eləcə dəüslubi və emosional-ekspressiv məzmun daşıyan sözlərin mövcudluğuna görə, qrammatik səviyyədə bir qrup morfoloji və sintaktik vasitələrin üstün şəkildə işlədilməsinə görə, frazeologiyada isə frazeoloji vahidlərin müəyyən tiplərindən istifadə olunmasına görə bir-birindən fərqlənir.

Dilin buvə ya digər funksional üslubunu müəyyənləşdirərkən ünsiyyətin bilavasitə həmin sahəsinə məxsus ifadəlilik vasitələri ilk növbədə nəzərə alınır. Lakin bu heç dəüslubları qapalı sistem kimi səciyyələndirməyəəsas vermir. Üslublar daim bir-biri ilə qarşılıqlıəlaqədə olduğuna görə müxtəlif nitq kontekstlərində ayrı-ayrıüslubların ünsürləri işlənə bilər. Qeyd olunduğu kimi, funksional üslubların spesifikasını nitq kontekstlərində təkrar olunan, ümummilli dilə məxsus ünsürlə deyil, ünsiyyətin yalnız müəyyən sahəsində işlənən və xüsusi sistem əmələ gətirən dil vasitələri təyin edir. Həmin dil vasitələri ümumxalq dilinə məxsus ifadəlilik vasitələrindən seçilib götürülür vəünsiyyətin müəyyən sahəsinin qarşısında qoyulan məqsəd və vəzifələrləəlaqələndirilir. Göstərilən cəhətlərləəlaqədar dilin üslublar sistemində iki meyl müşahidə edilir:

Hər bir üslubun ayrıca nitq sistemi kimi nisbi müstəqilliyi.
Üslubların bir-birinə qarşılıqlı təsiri.

Üslublar həm ümumi, ictimai baxımdan, həm də xüsusi, fərdi baxımdan özünü göstərir. Birinci halda, yəni ümumi, ictimai məzmun daşıdıqda funksional üslublar ortaya çıxır. Funksional üslublar milli ictimai təfəkkürün müxtəlif sahələrini əhatə edir, buna görə də bir neçə növə bölünür. Funksional üslublar bütövlükdə ədəbi dili təşkil edir. Ədəbi dilin normaları (fonetik, leksik, qrammatik) bütün funksional üslublar üçün məcburidir.

Çoxmənalılığın üslubi funksiyaları dedikdə bu nəticəyə gəlirik ki, söz kontekstdə mövcud olan mənalardan birində çıxış edir və bu, kontekstual məna adlanır. Lakin yerdə qalan digər mənalar tamamilə təcrid edilmir və üslubi fon rolunda çıxış edir.

---

23 BDU-nun Filologiya fakültəsi İngilis dili (təbiət fakültələr üzrə) kafedrasının müəllimi mehriban.mehdiyev@gmail.com

Çoxmənalılıq anlayışına dəfələrlə müraciət edilmiş və müxtəlif məna növləri adlanan çoxlu sayda terminlər mövcuddur. Burada hərfi və məcazi, metaforik və metonimik, ümumi və xüsusiləşmiş, adi və təsadüfi, ümumxalq dili və terminoloji, neytral və üslubi çalarlı, müasir və köhnəlmiş mənaların qarşılıqlı əlaqəsi əsas yer tutur [1, s. 144]. Sözün hərfi və ya nominativ mənası kontekstdən kənarda realizə edilə bilər. Şübhəsiz ki, məcazi məna kontekst daxilində şərh edilir. Bu baxımdan aşağıdakı parça səciyyəvidir:

She ruled not by love, but by fear;

Her weapons were no cane; they were different, subtle and cruel, unfair and vicious (W.Golding).

"Cruel" sözünün mənfi qüvvətləndirici mənası "subtle" sözü ilə tarazlanaraq əsas mənaları təcrid edir və sözün ikinci dərəcəli mənası – "hiyləgər", "xain" mənaları vurğulanır. Bu cəhəti "unfair" və "vicious" sözlərinə də aid etmək olar. Burada da birinci cərgədə dayanan söz intensiv qüvvətləndirici çalara malik olduğu üçün ikinci cərgədə dayanan sözə təsir göstərir. Başqa nümunəyə nəzər salaq:

And then in a nice old-fashioned, lady-like, maiden lady way, she blushed (A.Christie).

Müsbət qüvvətləndirici məna daşıyan "nice" sözünün təsiri ilə "old-fashioned" və "maiden lady" sözləri də müsbət çalara malikdir. Sözlərin bu növ düzülüşü "nice" sözünün əhəmiyyətini bir daha vurğulayır. Çünki o, ardıcıl gələn ünsürlərdə müsbət konnotasiyaların oxucu tərəfindən dərk olunmasına şərait yaradır.

Yalnız bir leksik mənası olan sözə təkmənalı söz deyilir. Məsələn: moruq, böyürtkən, avtobus, yaşıl və s. Eyni leksik məna ilə bağlı bir-birinə yaxın müxtəlif mənaları bildirən sözə isə çoxmənalı söz deyilir. Məsələn: üz–adamın üzü, suyun üzü, yorğanın üzü; göz-adamın gözü, bulağın gözü, şkafın gözü və s. Çoxmənalılıq yaradan sözlər həmişə eyni nitq hissəsinə aid olur. Məsələn: Həqiqi məna: polad balta (isim); gözəl mənzərə (sifət); Məcazi məna: polad bilək(isim); Bu zaman həmin sözlər və birləşmələr bir-biri ilə oxşar əlamətlərə malik əşyaları ifadə edir. Beləliklə, sözlərin çoxmənalılığı yaranır.Məsələn: alovun dili, çəkmənin dili, insanın dili, heyvanın dili. Bu söz birləşmələrindən insanın dili, heyvanın dili nümunələrində leksik vahidi həqiqi mənada, alovun dili, çəkmənin dili nümunələrində isə məcazi mənada işlənib.

Çoxmənalı sözlər bu və ya digər cəhətdən bir-birinə oxşar əşyaları, yaxud oxşar əlamət və hərəkəti bildirir. Məsələn, kağız sözü əsasən üç mənada işlənir: 1) Kağız–üzərində yazı yazılan, yazı çap edilən xüsusi materialdır. 2) Kağız–hər cür rəsmi sənəddir (yaş kağızı, icazə kağızı və s.). 3) Kağız–müxtəlif əşyaları hazırlamaq üçün işlədilən materialdır (kağız torba, kağızdan hazırlanmış gül və s.) Bu mənaların üçündə də bir-birinə yaxınlıq var. Bütün sözlər çoxmənalı ola bilməz. Çoxmənalı sözlər əsasən bədii üslubda işlədilir. Çoxmənalı sözlərə dilimizin, demək olar ki, bütün əsas nitq hissələrində təsadüf olunur. Bunların içərisində isimlər, fellər və sifətlər daha çoxdur.

Aşağıdakı sözlər daha çox çoxmənalı söz kimi işlənir: qol, maşın, baş, tutmaq, ağız, keçmək, çəkmək, almaq, saymaq, qaş, burun, göz, dil, kağız, şirin, acı, yumşaq, dolu, kök, güclü, dumanlı, dəmir, polad.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1990, 148 s.

Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962, 271 s.

Əliyev K. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2001, 240 s.

Əliyev K.Üslubiyyat və üslub sistemi. Bakı, 1985, 138 s.

Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2003, 398 s.

Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, 1980, 182 s.

Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı, 2001, 95 s.

Rəcəbli Ə. Dilçilik metodları. Bakı, 2003, 492 s.

Костомаров В.Г. Русский язык на газетной полосе. М., 1971, 267 стр.

Кузнец М.Д. Стилистические функцианировании синонимов, т.1., Л.,

Канин А.В. Курс фразеологии современного английского языка: М.: Высш.шк., 1986, 336 с.

Гальперин И.Р. Перевод и стилистика \\ Теория и методика учебного перевода, М., 1950, 304 с.

Щвейцер А.Д. Современная социолингвистика: Теория, проблемы, методы. М., 1976, 175 с. 1940, 138 стр.

Crystal D.A. A dictionary of linguistics and corn wall. Phonetics Lack well Publishing, 2003, 503 p.

Galperin I.R. Stylistics. M., 1981, 334 p.

Açarsözlər: üslub, leksik, dilçilik,çoxmənalı, üslubi yanaşmalar

Ключевые слова: стилистика, лексика, лингвистика,многословие, стилистические приемы

Keywords: stylistic, translation, lexical, linguistics,many words, stylistic devices

Стилистические качествы многословие

Резюме

Одно из значений многословие заключается в том, что он берет свое специфическое выражение только внутри текста. Когда слово отделено от своего первоначального независимого значения и многогранно, оно имеет символическое значение. Существует два типа языковых единиц, которые используются образно: а) лингвистические символы; б) стилистические символы представляет собой сборник словарей. Они не могут быть отделены от текста. Например: «Ручка пищит как масло». В этом предложении выражение «масло» несет в себе сравнительное содержание, поэтому его стиль является образным. Независимо от того, сколько смысла есть во многих словах, одно из них, безусловно, является его первым истинным независимым значением. Другие значения отражаются в его более поздних источниках, хотя он менее или менее близок к первоначальному значению.

The style qualities of polysemantic words

Summary

One of the meanings of polysemantic words is that it takes its specific expression only within the text. When a word is separated from its original independent meaning andmany-sided, it has a symbolic meaning. There are two types of language units that are usedmetaphoric: (a) linguistic symbols; (b) stylistic symbols. The symbols are a collection of dictionaries. They cannot be separated from the text. For example: "The pen writes like butter". In this sentence, the expression "butter" carries a comparative content, so its style is figurative. No matter how much meaning there is in many words, one of them is certainly its first true independent meaning. Other meanings are reflected in its later sources, although it is less or less close to the original value.

RƏYÇİ: Dos..L.Ələkbərova

Əliyeva Rəna Camal qızı

AZƏRBAYCAN VƏ MÜASİR İNGİLİS DİLLƏRİNDƏ FRAZEOLOJİ VAHİDLƏRİN TƏSNİFATI

Türk dillərinin ilk təşəkkül mərhələsini əks etdirən abidələrdə mürəkkəb feilin əsas aparıcı komponenti kimi çıxış edən köməkçi feillərin miqdarı olduqca az və məhdud idi. Bunlardan çox işlənən "ər, bol" sonralar müəyyən fonetik dəyişkliyə məruz qalmış və zəmanəmizə "er" idi, "bol" isə "ol" şəklində gəlib çıxmışdır. Məsələn:"Günlərdən son, gecələrdən sol yiğit boldu". – günlər, gecələr keçdi, igid oldu.

"Kitabi Dədə Qorqud" dastanının dili göstərir ki, bu növ mürəkkəb feil yaratmaq ənənəsi sonralar da X-XIV əsrlərdə davam etmiş, belə sözyaranma (tərkib yolu ilə) üsulundan geniş surətdə istifadə edilmişdir. 1) "isim+köməkçi feil"-dən olanlar: "ad qoysun, həsəd elədilər, qurban kəs, qoç qırdırdı, fikir eləmək, otağa qondurun (oturun), otaq qurdurmuşdu (tikdirmişdi); 2) "feil +feil"-iki müstəqil mənalı feil birləşməsindən yaranan mürəkkəb feillər aşağıdakılardır: "unudurdu" (cəld), dursun getsin, üstünə sürdü gəldi, salır gedər; ərin sözünü qulağına qoymaz (eşitməz).

Beləliklə, dilimizin tarixi inkişaf mərhələlərində tərkibi feillərin yaranma və inkişafını aydınlaşdırmaq üçün qədim yazılı abidələrin mətnlərini, eləcə də bu haqda yazılan elmi, bədii və tədqiqi dilçilik ədəbiyyatını nəzərdən keçirib aşağıdakı nəticələri çıxara bildik:

Yaranma tarixi etibarı ilə mürəkkəb feillər türk dillərinin ən qədim mənzərəsini əks etdirən runik yazılarında, yəni Orxan-Yenisey abilərinin dilində öz əksini tapanlardır.

Bu abidələr dini məzmundan uzaq olub, tərcümə yolu ilə yaranan ədəbiyyatın dili deyildir. Onlar V-VIII əsrlərdə türk dillərinin ilkin mənzərəsini əks etdirib, hər hansı bir başqa dilin təsirinə məruz olmadığına görə daha etibarlı və düzgün mənbə sayılır. Belə ki, Gültəkin abidəsinin həm kiçik, həm də böyük mətnində tərkibi feillərin sayı olduqca məhduddur. Xüsusilə "isim+köməkçi feil" tipli tərkibi feillərin sayı olduqca azdır. Buda onunla izah olunur ki, həmin abilərdə köməkçi feil rolunda çıxış edən sözlər olduqca məhdud idi.

Qeyd etmək lazımdır ki, leksik vahidlərin hamısı eyni bir yolla əmələ gəlmir. Bu təkcə feillərdə deyil, başqa nitq hissələrində də belədir, məsələn: "dəvədabanı, quşəppəyi, itburnu" kimi mürəkkəb isimlərlə "nənəqızı, Həsənoğlu" kimi mürəkkəb isimlərin əmələ gəlmə yolları müxtəlifdir, yəni birincilərdə tərkib hissələrdə məcazlılıq var, ikincilərdə isə hər iki söz və öz müstəqil mənasında işlənmişdir. Deməli, mürəkkəb nitq hissələrinin əmələgəlmə üsul qaydalarını məhdudlaşdırmaq olmaz. Mürəkkəb feillər sərbəst söz birləşmələrinin mənasının dəyişməsi nəticəsində də əmələ gələ bilər.

Bəzi dilçilər frazeoloji tipli feilləri leksikləşmiş ifadələr adlandırdıqdan sonra qeyd edirlər ki, "Bu quruluşlu ifadələr sintaktik birləşmələr olub, xüsusi vəziyyətə malikdir". Tədqiqatçılar mürəkkəb sözlə frazeoloji vahidlər arasında əsaslardan biri feilin bacarıq formasıdır. Bir çox əsərlərdə bunlar feil kimi izah edilir. Bu cür birləşmələrdə "bilmək" feili öz lüğəvi mənasını itirib "bacarıq" mənası-subyektin işi görmək qabiliyyətinə malik olmasını göstərir. Məsələn:"yazmaq, kömək etmək" feilləri ilə "yaza bilmək, kömək edə bilmək" arasında ancaq qrammatik fərq mövcuddur. Odur ki,"a/ə" şəkilçisi feil "bil-(mək)" feilindən bacarıq birləşmələr leksik vahid olmayıb, feilin getmiş, gedəcək" və "ol-(maq)" feilindən ibarət birləşmələrə də müxtəlif nöqteyi-nəzərdən yanaşılmışdır. Bir çox əsərlərdə bu birləşmələr mürəkkəb feil hesab edilir. Başqa qrup türkoloqlar isə bunları "perifrastik-təsviri formalar" adlandırırlar.

Müasir dilçilikdə frazeologiya iki mənada işlənir: 1) müəyyən bir dildəki frazeoloji vahidlərin hamısı; 2) dilçilik elmində belə vahidlərdən bəhs edən fənnin adı. Frazeoloji birləşmələrin əmələ gəlməsində feillər xüsusi rol oynanır. Belə ki, dilimizdəki frazeoloji birləşmələrin əksəriyyəti feillərin iştirakı ilə yaranır. Müasir Azərbaycan və ingilis dillərində frazeoloji birləşmələrin çoxu feillə düzəlir. Məsələn:"göz qoymaq üz vurmaq, boş-boğazlıq etmək, dil tökmək, söhbətə tutmaq", ingilis dilində: "to talk to the wind, to waste one`s breath, to call a spade a spade".

Müasir ingilis dilində tərkibi feillər işləndiyi zərflərlə birlikdə feilin mənasını dəyişir. Beləki, elə tərkibi feillər də vardır ki, onların tərkibindəki komponent həmin mənanı vermir. Məsələn: "to give up-bitirmək», dayandırmaq, "to bring up-tərbiyə etmək", "to do away-ləğvetmək".

Elə tərkibi feillər vardır ki, onların tərkibindəki komponent öz əsas mənasını saxlayır. Məsələn: "to stand up, to come in to go out, to put on". Qeyd etmək lazımdır ki, tərkibi feillər frazeoloji janrda da yarana bilir.

Frazeologiya cəmiyyətə xas olan həyat tərzini və düşüncə tərzini əks etdirir. Hər bir xalqın nitqindəki adət-ənənələr, assosiativlik, düşüncə obrazlarının xüsusiyyətləri nəzərdən keçirilir. Frazeoloji vahidlər və frazeoloji sistemin mövcudluğu baxımından İngilis dili ən zəngin dillərdən biridir. Böyük Britaniyada baş verən bütün hadisələr: siyasi həyat, idman, mədəni tədbirlər, gündəlik həyat frazeologiyada öz əksini tapmışdır.

İngilis dilində idiomlar insan fəaliyyətinin müxtəlif növləri ilə əlaqələndirilir. Məsələn: dənizə aid idiomlar-dənizə baş vurmaq, ovçuluq-dovşana qaç, tazıya tut demək; ev-evi alt-üst etmək, işlərini qaydaya salmaq, müxtəlif sənətkarlıq və alətlər-dəyirman daşına baxmaq (çox anlayışlı adam olmaq) [1].

Bir çox idiomlar ingilis milli xarakterinin məqsədyönlülük və əzmkarlıq kimi xüsusiyyətlərini ifadə edir, onların əsas məzmunu insan münasibətləridir.

A.İ.Smirnitski ingilis frazeoloji vahidləri canlı ifadə və emosional etiketə malik olan və stilistik cəhətdən neytral olan sabit ifadələrə bölür. A.İ.Smirnitski idiomları frazeoloji vahidlərdən fərqləndirir.

Professor Smirnitski frazeoloji vahidləri funksional prinsiplərə görə təsnif edir və iki qrupa bölür: frazeoloji vahidlər və idiomlar. Məsələn: ayağa qalx, yuxarıya get, içməyə apar. (frazeoloji vahidlər) öküzü buynuzlarında tutmaq, kolun üstündə döymək və s. (idiomlar).

Professor Amosova frazeoloji vahidləri kontekst tipinə görə təsnif edir. Frazeoloji vahidlər sabit kontekstdə olur və iki qrupa bölünür: frazemalar və deyimlər.
Frazemlər iki komponentdən ibarətdir ki, biri frazeoloji cəhətdən, digəri isə təyinedici kontekst rolunu oynayır: yaşlı göz (qısqanc baxış), yaşıl əl (təcrübəsiz işçi), yaşıl illər (gənc illər) və s.
Deyimlər idiomatik olaraq səciyyələnir: onların mənası bütün qrup tərəfindən yaradılır və onun tərkib hissələrinin mənalarının sadəcə birləşməsindən ibarət deyil.
Professor Kooninin təsnifatı frazeoloji vahidin birləşmədəki funksiyasına daxildir. O, frazeoloji vahidləri aşağıdakı qruplara bölür: nomunativ, nomunativ-kommunikativ, interjectional, kommunikativ.
Nomunativ frazeoloji vahidlər predmeti hadisələri, hərəkətləri, halları ifadə edir. Onlar cümlədə mübtəda, sifət, zərf, sözönü kimi işlənə bilər.
Nomunativ-kommunikativ vahidləri idarə edən feil var: qəbirdə kimsəni çevirmək, vulkanda rəqs etmək.
İnterjectional-aralıq frazeoloji vahidlər danışan duyğularını, əşyalara münasibətini ifadə edir: a pretty caatle, of fish - Allah lənət eləsin! Cəhənnəm kimi!
Kommunikativ-ünsiyyətli frazeoloji vahidlər atalar sözləri və deyimlərlə təmsil olunur: səhər bir saat axşam ikiyə dəyər; Heç vaxt "heç vaxt" demə).
Frazeoloji vahidlər bir neçə meyara görə təsnif edilir.
Akademik Vinaqradov frazeoloji vahidləri semantik prinsipi, daha doğrusu mənanın motivasiya dərəcəsinə, yəni bütün vahidin mənası ilə onun tərkib hissələrinin mənası arasındakı əlaqəyə görə təsnif edir: 1) frazeoloji birləşmələr, 2) frazeoloji vahidlər, 3) frazeoloji componentlər.
D.Yunusov Frazeoloji feilləri və feildən törəmiş sabit söz birləşmələrini ayrı-ayrılıqda sistemləşdirmişdir.
For ek: I`ll do at the living room (yığışdırmaq).
Do ap your coat; it s cold (düymələmək).
Janie didherself up for the party (bəzənmək).
I could do with sand wich. I`m hungry. (istəmək).
She did away with herself (özünüöldürmək).
To look, to take, to give, to make, to get, to turn, to rush, to run, to set, to do feillərisözönülərəqoşularaqyenifrazeolojifeillərəmələgətirir.
Yuxarıdabuna aid bəzinümunələrgöstərildi.
Feildəntörəmişsabitsözbirləşmələri (verbal idioms) aşağıdakıbəzinümunələrigöstərməkolar:
As a result of the recent unprovoked attack, the two countries broke off their diplomatic relatrons (qurtarmaq).
The senator brought up the question of the treaty negotiations (qaldırmaq).
The teacher called on James to write the equation on the blackboard (çağırmaq).
Let`s call on our teacher (baş çəkmək).
Frazeologiya leksikologiyanın frazeoloji vahidləri frazeologizmləri və ya idiomları öyrənən bölməsidir. Frazeoloji vahidlər semantik və struktur cəhətdən sərbəst söz bildirir və onların mənası idiomatikdir. 1) Vahid anlayışı bildirir və onların mənası idiomatikdir.2) Struktur dəyişkənliyi ilə xarakterizə olunurlar. 3) Bir sözdən fərqli olaraq, frazeoloji vahid ayrı-ayrılıqda struktur elementlərə bölünə bilər. (bir anda o fikirləşdi ki, indi aralarındakı buz qırılandan sonra onun üslubunun nə qədər təbii və təsirsiz olduğunu düşünürdü. (Th. Dreiser, An American Tragedy)... Mən...bu adamı bir növ qıcolma birlikdə tapdım və köməyə getdim. Bu, aramızda olan buzları qırdı və heç birimiz başqasının adını öyrənmədən çox danışdıq (H.Pollitt, Serving).
Azərbaycan dilində isə iki cür söz birləşməsi mövcuddur: sərbəst söz birləşməsi, sabit söz birləşməsi.
Sabit söz birləşməsinə frazeoloji birləşmələr də deyilir. Frazeoloji birləşmələr tərkibcə dəyişməz, bütövlükdə məcazi bir mənanı bildirən sabit söz birləşmələridir. Məsələn: dabanına tüpürmək (qaçmaq), dilini saxlamaq (susmaq), yanıb tökülmək (heyiflənmək), əldən düşmək (yorulmaq) və s. frazeoloji birləşmələrdir. Onlar dildə hazır şəkildə olur, bəzilərini bir sözlə əvəz etmək mümkündür. Məsələn: ağzına su alıb oturmaq-susmaq, başa salmaq-anlatmaq və s.
Frazeoloji birləşmələr iki və daha artıq sözdən ibarət ola bilər. Məsələn: qanı qaralmaq (iki sözdən ibarət) ürəyi ağzına gəlmək (üç sözdən ibarət) və s.
Frazeoloji birləşmələr tərkib hissələrinə bölünmədən bütöv bir cümlənin üzü olur. Məsələn: müəllim dərsi uşaqlara başa saldı. Bu cümlədəki "başa saldı" birləşməsi (mübtəda) nəhayət dilləndilər.
Frazeoloji birləşmələr dəniz havası, məktəbin həyəti, yük maşını və s. kimi sərbəst söz birləşməsindən fərqlənir, belə ki, bunların tərkibinə daxil olan sözlər öz həqiqi mənalarında işləndiyi halda, frazeoloji birləşmələrin tərkibindəki ayrı-ayrı sözlər öz həqiqi mənalarını itirir, birlikdə müəyyən bir məcazi mənanı ifadə edir. Sərbəst söz birləşmələrindən fərqli olaraq sabit söz birləşmələrinin asılı və əsas tərəfi olmur. Onlar lüğətlərə daxil olur. Dilimizdə lüğətlərin növləri sırasında frazeoloji lüğətlər də xüsusi yer tutur.
Frazeoloji birləşmələr də omonimlik, sinonimlik və antonimlik xüsusiyyətinə malikdir.
Frazeoloji omonimlərə misal olaraq aşağıdakıları göstərə bilərik: üz vermək, can vermək, işə düşmək, ürəyi yanmaq, söz vermək, cana gəlmək və. s.

Frazeoloji sinonimlərə eyni və yaxın mənalı birləşmələrdir. Məsələn: qulaq asmaq-qulaq vermək, özündən çıxmaq-hirsi başına vurmaq, ürəyi ağzına gəlmək-tükləri ürpəşmək, qılığına girmək-qəlbinə yol tapmaq, burnuna sallamaq-qaş qabağı yer süpürmək, dərd çəkmək-qəm dəryasına qərq olmaq, acığı gəlmək-zəhləsi getmək və s.
Frazeoloji antonimlər isə bir-birinə əks olan birləşmələrdir. Məsələn: xoşu gəlmək-zəhləsi getmək, yada düşmək-yaddan çıxarmaq, dil-dil ötmək-azğına su almaq, əlini ağdan qaraya vurmamaq-dəridən-qabıqdan çıxmaq və s.
Dilçilik intizamı kimi frazeologiyanın vəzifələri müəyyən bir dilin frazeoloji fondunun hərtərəfli öyrənilməsini əhatə edir.
Bu elmin tədqiqinin mühüm cəhətləri bunlardır: frazeoloji vahidlərin sabitliyi, frazeologiya sistemi və frazeoloji vahidlərin semantik quruluşu, onların mənbəyi və əsas funksiyaları.

Frazeologiya tarixinin predmeti frazeoloji vahidlərin ilkin forma və mənalarının tədqiqi, bütün mövcud abidlərdən, onların mənbələrinin müəyyən edilməsi, dilin müxtəlif dövlərində onların işlənmə sahələrinin müəyyən edilməsi, o cümlədən frazeoloji vahidlərin istifadəsinin həcminin müəyyənləşdirilməsidir.
Frazeologiyanın dilçilik elmi kimi inkişafı son zamanlar tədqiqatçılara çox mürəkkəb bir problem-frazeloji vahidin sözlə münasibəti ilə bağlı problem yaratmışdır. Müasir dilçilikdə bu sualın özü ilə bağlı müxtəlif fikirlər mövcuddur.
Müasir dilçilikdə bəziləri bu birləşmələri sözlərə ekvivalent hesab edir, digərləri isə onların sözlə əlaqəsini göstərir, ekvivalentlik nəzəriyyəsini frazeoloji birləşmənin sözlə əlaqəsi nəzəriyyəsi ilə əvəz edir.
Onu da nəzərə almaq lazımdır ki, atalar sözləri və məsəlləri, yəni cümlə quruluşlu frazeologizmləri yalnız cümlələrdən istifadə etməklə müəyyən etmək olar, məsələn: quşlar bir yerə toplaşır-eyni maraqları, ideyaları və s. olan insanla hər birinə cəlb olunur.

Ədəbiyyat

1.Алажена А.И., Фразеологическая единица и слово. Минск, 1991.
2. Амосова Н.Н. Основа английской фразеологии, 1989.
3. Аничков И.Е. Труды по языкознанию, С. Петербург. Наука, 1997.
4. Features of phraseological units of modern English. A. Smirnitski, Moscov,
5. Bağırov Q.K. Azərbaycan dilində feillərin leksik-semantik inkişafı, Bakı 1996.
6. Barabash T.A. "A comperative study in Grammer", USA, 1997, 276.
7. Quliyev H.K. Müxtəlif sistemli dillərdə feillərin semantik təsnifatı. Bakı, 1966.
8. Fleron S. "A course of theoretical English Grammer", London, 2021.

Summary

This article discusses the phraseological units of modern Azerbijani and English, its history and development paths, as well as different types of phraseological units.
Suggested to your attention this scientific investigation is actual from the typological and practical point of view as it is written for audience, which learns the peculiarities of modern English and Azerbaijani.

Xülasə

Bu məqalədə Azərbaycan və ingilis dillərində frazeoloji birləşmələr, onun tarixi inkişaf mərhələləri, o cümlədən frazeoloji vahidlərin müxtəlif növləri müzakirə olunur.
Nəzərinizə çatdırırıq ki, bu xüsusi elmi araşdırma Azərbaycan və ingilis dillərinin xüsusiyyətlərini öyrənən auditoriya üçün nəzərdə tutulduğu üçün tipoloji və praktik baxımdan aktualdır.

Açar sözlər: frazeoloji birləşmələr, dil, söz birləşməsi, nitq, sərbəst məna.
Keyword: phraseological units, language, word combination, speech, independent meaning.

RƏYÇİ: dos. L.Ələkbərova

Aybəniz Mahmud qızı Həsənova24, Lyüdmila Məhəmmədəli qızı Mehdiyeva25

MÜASİR FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SUAL CÜMLƏSİNİN OXŞAR VƏ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

Giriş. Məlum olduğu kimi, nitq vasitəs ilə ünsiyyət zamanı ifadə edilən məqsəddən asılı olaraq, hər hansı dilə xas olan cümlələr əsasən, üç şəkildə təzahür edir: nəqli, sual, əmr. Nəqli cümlələrdə obyektiv həqiqətlər haqqında müəyyən məlumat verilir. Sual cümləsində isə danışan ona məlum olmayan bir anlayışı alınacaq cavabla aydınlaşdırmaq istəyir. Əmr cümlələrində danışan şəxs müsahibini müəyyən bir işə təhrik edir. Sual ilk növbədə məlum olmayan öyrənmək, başqalarından cavab almaq məqsədi daşıyır. Müasir Azərbaycan və fransız dillərində sual cümlələri probleminə dair bir sıra məqalə, dərslik və monoqrafiyalarda indiyədək geniş şəkildə tədqiqat işləri aparılmışdır. Bu baxımdan təqdim etdiyim bu məqalə sual cümləsinin ümumiyyətlə suallıq kateqoriyasının, digər tərəfdən sual cümləsinin formal, sintaktik-semantik və intonasiya cəhətdən obyektiv təbiətinin aşkar edilməsinə dəlalət edir. Sual cümləsinin sintaktik-morfoloji və intonasiya xüsusiyyətləri üzrə tədqiqindən sonra bu cümlələrin tərifinin aşağıdakı şəkildə verilməsini də bitkin və doğru hesab edirik:Bu və ya digər dərəcədə sual intonasiya olan, əsasən cavab almaq üçün, bəzən emosional tərzdə hökm ifadə etmək, bəzən də müəyyən iş görülməsinə təhrik etmək məqsədi ilə işlədilən cümlələrə sual cümləsi deyilir.

Sual kateqoriyası dilçilikdə mübarizə doğuran bir sahəsidir. İndiyə qədər hələ sual cümlələrinin yaranması, növlərə ayrılması, təsnifat prinsipləri, onların intonasiya xüsusiyyətləri tam dəqiq edilməmişdir. Bu barədə müxtəlif mülahizələr, fikirlər, noqteyi-nəzəriyyələr mövcuddur.

Əsas hissə. Sual cümlələri müəyyən cavab almaq üçün müəyyən informasiya əldə etmək məqsədi ilə işlədilir. Belə ki, sual ilk növbədə məlum olmayanı öyrənmək, başqalarından cavab almaq məqsədi daşıyır. Sual cümlələrinin işlədilməsində məqsəd həmişə eynidir: danışana məlum olmayan şey və hadisələri, hal, hərəkət, əlamət və s. müəyyən etmək. Demək, sual cümlələri bilmədiklərimizi öyrənmək və ya təxmini bildiklərimizi dəqiqləşdirmək məqsədi ilə işlədilir.

Abdullayev Ə.L., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili kitabında qeyd edirlər ki, sual cümlələrinin biri-digərindən həm qrammatik, həm də intonasiya, aksent-melodik struktur baxımından fərqlənir. Sual cümləsinin yaranmasında intonasiya çox üstünlüyə malikdir. Sual cümlələrinin özünəməxsus xüsusi sual intonasiyası olur. Bu intonasiya sual cümlələrini başqa cümlə növlərindən ayıran əsas vasitələrdəndir. Sözlər və qrammatik kateqoriyalar ünsiyyət vasitəsi üçün nitq prosesində fikir ifadə edən cümləni ayrı-ayrı komponentlərindəndir. Nitq prosesindəki cümlənin daimi və çox vacib komponentlərindən biri olan intonasiya, cümlədən ayrı müstəqil şəkildə mövcud deyildir. Dilçi alim F.Veysəlov "Alman dilinin fonetikası" kitabında intonasiyadan danışarkən bildirir ki, intonasiyasız cümlə olmadığı kimi, cümləsiz də intonasiya mövcud deyildir. Cümlələrdə yürüdülən məqsəddən asılı olaraq cümlənin tələffüz xüsusiyyətləri, aksent-melodik strukturun, bütövlükdə onun intonasiyası da dəyişir" (1, s. 123-146).

Belə ki, hər bir cümlə məqsəddən asılı olaraq özünəməxsus intonasiyaya – deyiliş, xüsusiyyətinə, aksent-melodik qəlibə malikdir. Danışanın məqsədi və münasibəti intonasiyanın əsasıdır. İntonasiya isə, öz növbəsində, məqsədin, münasibətin, göstəricisi, müəyyənləşdiricisidir.

Danışan öz nitqindəki cümlələri hansı münasibətlə, məqsədlə dediyini dinləyiciyə çatdırmaq üçün cümləni müəyyən aksent-melodik modellə ifadə etməli olur. Əgər cümlələr arasında intonasiya, aksent-melodik baxımdan fərq olmasaydı, dinləyici müxtəlif məqsədlə deyilmiş eyni leksik quruluşlu "Yağış yağır?" cümləsi arasında heç bir fərq qoyula bilməzdi. Odur ki, cümlənin bu cəhətdən fərqlənməsində, onların kommunikativ növlərə ayrılmasında, eləcə də sual cümlələrinin özlərinin kommunikativ növlərə bölgüsündə intonasiyanın çox böyük rolu vardır. İntonasiya bir çox hallarda sual cümləsinin əmələ gəlməsində yeganə vasitə kimi çıxış edir Göründüyü kimi, sual cümlələri məzmunca zəngin, özünəməxsus intonasiya çaları olan kommunikativ bir növdür.

Fransız dilçi alimi Ş.Balli sual cümlələrinin kommunikativ funksiyasından danışarkən qeyd edir ki, sualı da kommunikasiya hesab etmək lazımdır, çünki o, danışanın fikrində olan müəyyən təsəvvürlərin əlaqəsini təşkil edən müşahidələrdən biridir. Danışan öz müsahibələrindən bu əlaqənin həqiqiliyi haqqında təsdiq və ya inkar cavab gözləyir. Sual cümləsi insan təfəkkürünü genişləndirən üsullardan biridir. Bu cümlələrdə məqsəd olur ki, özünə yönəldilmiş nitqdə cavab almaq istəyir. Ünsiyyət prosesində qarşıya qoyulmuş məqsəd baxımından suallar müxtəlif olur. Sual bəzən ifadə edilən fikrə bütövlükdə, bəzən onun bir hissəsinə aid olur. Bir Sıra hallarda sual iki fikirdən hansının həqiqətə uyöun olmasını müəyyənləşdirmək məqsədi ilə verilir. Bəzən isə sual cavab almaq üçün işlənir. Müasir dilçilik ədəbiyyatında sual cümlələrinin bir-biri ilə sıx əlaqədar olaraq 3 əsas xüsusiyyətə görə təsnif etmək olar.1.Sual cümlələri qrammatik cəhətdən quruluşuna görə;2.Sual cümlələrinin ifadə məqsədinə görə;3.Sual cümlələrinin ümumi xarakterinə görə.

"Sual cümlələrinin qrammatik quruluşu dedikdə, bir sual cümlənin əmələ gətirilməsində ilk növbədə elə qrammatik vasitələrə əsaslanmağı nəzərdə tuturuq ki, bunlarsız sual cümləsi qurmaq mümkün deyildir. Azərbaycan dilində sual əmələ gətirən belə vasitələr bir qism sual cümlələrində sintaktik-morfoloji, bəzilərində isə yalnız üsuldan ibarətdir" (2, s. 164).

Dilimizdə işlənən bütün sual cümlələri sintaktik cəhətdən quruluşuna görə ya əvəzlikli, ya da əvəzliksiz olur. Bu cəhətdən dilimizdə başqa növ sual cümlələri mövcud deyildir. Əvəzlikli sual cümlələrində cümlə üzvlərindən biri, bəzən də bir neçəsi məlum olmur. Sualı verən alınacaq cavabla naməlum üzvü müəyyənləşdirir. Sualın mərkəzi belə cümlələrdə sual əvəzliyi və

24 Azərbaycan Texniki Universiteti."Xarici dillər"kafedrasının baş müəllimi

25 Azərbaycan Dövlət Pedağoji Universiteti. "Xarici dillər"kafedrasının müəllimi. aybenizludmila @com.ru

ya sual zərfliyi ilə ifadə olunmuş cümlə üzvündə özünü göstərir. Əvəzlikisz sual cümlələrində məntiqi vurğunun yeri sabit deyil, yəni hər dəfə konkret cümlənin ifadə məqsədindən asılı olaraq, o, istənilən cümlə üzvü üzərinə düşə bilər.
2. Sual cümlələrinin ifadə məqsədinə görə növləri: Sual cümlələrinin ifadə məqsədi dedikdə, sual cümləsi vasitəsilə danışan kimdənsə cavab gözləyib, nəyi isə müəyyənləşdirməyi, emosional tərzdə hər hansı bir məlumatı təsdiq və inkar etməklə hökm verməyi, müsahibi bir iş görməyə təhrik etməyini nəzərdə tuturuq. İfadə məqsədinə görə sual cümlələri dörd əsas yarımqrupa bölünür.
1) Ümumi suallar (question totale); 2) Xüsusi suallar (Question partielle) 3) Alternativ suallar (Question alternative)4) Ritorik suallar (Question ritorique) Bütövlükdə cümləyə aid olan "bəli" (oui) və "xeyir" (non) cavabları tələb edən sullara ümumi suallar deyilir. Bu tip sual cümlələrində sual intonasiyası əsas vasitə kimi iştirak edir. Məsələn: Siz bu adamı tanıyırsınız?
Fransız dilində bu növ sualların ifadə vasitəsi olan cümlələri, bir qayda olaraq köməkçi və ya yarımköməkçi fellə, ya da modal fellə başlayır. Məsələn: T'es-tu bien amuse hier Hər iki dildə bu növ sual cümlələrnə xas olan müstəsna xüsusiyyət ondan ibarətdir ki, istər müasir fransız dilində, istərsə də Azərbaycan dilində ümumi sual cümlələri cümlənin ümumi məzmununa aid olur və "bəli" və ya "xeyr" sözləri ilə cavab verilir. 2) Cümlənin hər hansı bir üzvünə aid olan suallar xüsusi suallar deyilir, Bu qəbildən olan sual cümlələri adətən ya 1) sual əvəzliyi, ya da 2) sual zərfi ilə başlanır. Hər iki dildə çüşahidə edək: Məsələn, fransız dilində: Qui est-ce qui pu vous reconter ça? Azərbaycan dilində: Nə üçün mənə əvvəlcədən ac olduğunuzu demirdiniz? 3) İki fikirdən birini müəyyənləşdirmək məqsədi ilə işlədilən suallar alternativ suallar deyilir. Alternativ sual öz bağlayıcısı ilə bir-birinə bağlanan iki və daha çox ümumi sualdan ibarət olur.Məsələn, Azərbaycan dilində. Sən bu qərəzli mövqeyindən əl çəkəcəksən, ya yox? (3, s. 16).
Fransız dilində: Vas-tu, oui onu non?
Alternativ sualın quruluşu ümumi suallara oxşar olsa da, onlar da xüsusi suallar kimi tam cavab tələb edir. Vas-tu, oui ou non?
4) Cavab almaq üçün deyil, müraciət olunan şəxsi əmin etmək üçün işlədilən suallar ritorik suallar deyilir. Ən çox bədii ədəbiyyatda istifadə olunan sulaın bu növünə müqayisə olunan hər iki dildə rast gəlirik.
Fransız dilində: Meler I'argent aux sentiments n'est-ce pas horrible? Azərbaycan dilində: Belə yerdə, belə vaxtda da yuxu gələr?
3. Sual cümləsinin ümumi xarakterinə görə növləri. Sual cümləsinin ümumi xarakteri dedikdə sualın ilk dəfə verilə bilməsi ilə yanaşı, təkrar şəkildə verilə bilməsi nəzərdə tutulur.
Təkrar sual cümlələri Azərbaycan dilində daha geniş yayılmışdır. C.Axunov "Azərbaycan dilində sual cümlələri" monoqrafiyasında təkrar sual cümlələri onlarar xas olan xüsusiyyətlərinə görə üç növə ayırır.
1. Xüsusi təkrar sual (Danışan özü öz sualını təkrar edir).
2. Nidalı təkrar sual (Müsahib danışanın bayaq dediyini ona təkrar etdirir).
3. Təkrar sorğulu sual (Müsahib danışanın əvvəldə dediyini ona təkrar edir).
Qeyd etmək lazımdır ki, fransız dilində də təkrar sualların bir sıra maraqlı xüsusiyyətlər artıq öyrənilmişdir. Azərbaycan dilində isə zaqda C.Axunova qədər xüsusi tədqiqat işi aparılmışdır.
Nəticə. Beləliklə, söylədiklərimizi yekunlaşdıraraq belə qərara gəlirik ki, müqayisə olunan müasir fransız və Azərbaycan dillərində sual cümlələrinin bir çox oxşar xüsusiyyətləri vardır. Hər iki dildə bu növ sual cümlələrinə xas olan başlıca xüsusiyyət ondan ibarətdir ki, onlar adətən iki ümumi sualdan ibarət olur. Bu sual cümlələri "yaxud" bağlayıcısı ilə əlaqələndirilir: birinci hissədə qalxan, ikinci hissədə isə duşən ton işlədilir.
Alternativ suallar həmişə müsahibdən tam cavab tələb edir. Bu sual cümlələrinin bəzlərinin xəbərləri eyni sözün iki dəfə təkrarından ibarət olur, bunlardan biri təsdiq, digəri isə inkarda işlənir İstər müasir fransız dilində, istərsə də Azərbaycan dilində bəzi hallarda sual cümlələri əsas məqsədindən – cavab almaq məqsədindən kənara çıxır. Hər iki dildə ritorik suallar forma xüsusiyyətlərinə görə sual cümlələrindən ibarətdirsə, lakin onlar məzmunca təsdiq və ya inkar hökmü bildirilər. Belə sual cümlələrinə "cavab tələb etməyən sual"da deyilir.
Beləliklə, sual cümlələrinin təsnifatından aydın olur ki, bu cümlələr öz mahiyyətinə görə həqiqətən çoxcəhətli, olduqca əhatəli və dinamikk kommunikativ növdür.

Ədəbiyyat:

1) Abdullayev Ə.L., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. Bakı, 1998, s.123-146
2) Axundov C.M. Azərbaycan dilində sual cümlələri. Bakı, 1999, s. 164
3) Dauzat A. La langue française d'aujourd'hui. P., 1908. p. 16

Açar sözlər: kommunikativ növ (funksiya), xüsusi suallar, ritorik suallar, alternativ suallar, intonasiya
Key words: communicative type function, constituent questions, rhetorical questions, disjunctive questions, intonation
Ключевые слова: функция коммуникативного типа, учредительные вопросы, риторические вопросы, разделительные вопросы, интонация

Similar features of the interrogative sentence in Modern French and Azerbaijani languages

Summary

The scientific paper prsents theoretical and partical study of the interrogative sentence of Modern French and Azernaijani lanuguages along

with detalied description of their similar and distinctive features. The sentences with certain degree of intonation basically used to get answer to the question and sometimes for the imperative expression in Açar sözlər: kommunikativ növ (funksiya), xüsusi suallar, ritorik suallar, alternativ anemotional way or to induce an interlocutor for certain action are called the interrogative sentences

Вопросительные предложения на современном французском и Азербайджанском языках
их сходные и различные признаки
Резюме

В научной статье представлено теоретическое и партикулярное исследование вопросительного предложения современного французского и азербайджанского языков, а также подробное описание их сходных и отличительных черт.Предложения с определенной степенью интонации, используемые в основном для получения ответа на вопрос, а иногда и для императивного выражения альтернативно-эмоциональный способ или для побуждения собеседника к определенному действию, называются вопросительные предложения.

Rəyçi: dosent Xatirə Məmmədova

Kəmalə Şaleh qızı Vəliyeva26

MÜASİR İNGİLİS DİLİNDƏ MÜXTƏLİF ZƏRF MƏNALI PAREMİOLOJİ VAHİDLƏRİN LİNQVİSTİK TƏHLİLİ

Giriş. Bütün dillərdə kalka olunmuş My home is my castle atalar sözünü yada salmaq kifayətdir ki, İngilis dilinin paremioloji sistemində "ev" konseptinin nə qədər əhəmiyyətli olduğu aydın olsun. Bu paremiya universal səciyyə daşıyır və "ev" konseptinin əsas koqnitiv əlamətlərini sistem şəklində təqdim edir. İngilis dilində mövcud olan, An Englishman 's house is his castle atalar sözünə nəzər yetirək.

Abbasov A.Q. "İngiliscə–Azərbaycanca atalar sözləri və zərb-məsəllər lüğəti" kitabında yazır: "Burada etnosun adı çəkilir, və beləliklə də atalar sözünün mənsubiyyəti bilinir. Digər tərəfdən, etnonimin işlənməsi ifadə olunan fikirlə adresat arasında bir məsafə yaradır. Yəni etnonimsiz variant universal səciyyə daşıyır və hər bir insan tərəfindən təbii bir hissə bildirən ifadə kimi qəbul oluna bilər, yəni ümumiyyətlə insan üçün onun evi bir qaladır" (1, s. 472).

Etnonim parcemiyaya xüsusi status verir, yəni hamı üçün yox, yalnız ingilis üçün ev qaladır. Maraqlıdır ki, bu fərq koqnitiv səciyyə daşıyır, ingilis mentaliteti haqqında tarixi-mədəni informasiya verir. İş orasındadır ki, digər xalqlar da istəyərdi ki, evləri qala olsun, lakin bu nə tarixən, nə də ki, müasir dövrdə mümkün olmur. İngilislər isə bunu reallaşdıra bilmişdir.

Həmidov İ.H. "Azərbaycanca-rusca atalar sözləri lüğəti" kitabında qeyd edir: "Ingilis dilində home və house komponentləri formal baxımdan da yəni sırf rəmzi olaraq da işlənir. Məsələn, bring an old house on one 's head. Deyimin mənası "işə düşmək", "fəlakət baş vermək" kimi izah olunur. Əlbəttə, ilk baxışdan burada "ev" konseptinin paremioloji mənaya heç bir dəxli yoxdur (2, s. 287).

Əsas hissə. Cast (drive yaxud hunt) somebody out house and home. Gördüyümüz kimi, burada müəyyən tavtologiya müşahidə olunur. "Ev" mənasını bildirən iki söz, həm house, həm home sözləri işlənir.

Bu cür tavtologiya ifadənin emosional-ekspressiv gücünü artırır. Mənası "kimisə evdən, yurddan rədd etmək"-dir. Göstərilən hər iki söz rəmzi olaraq "yüksək dəyər" bildirir. İngilis dilində name not a halter (rope) in his house that hanged himself ifadəsi sırf paremioloji semantikaya malikdir.

Bu ingilis atalar sözünün Azərbaycan qarşılığı kimi xəstə yanında ölüm-itimdən danışmazlar paremiyasını göstərmək olar. İ.Həmidovun lüğətində xəstə yanında ölüm–itimdən danışmazlar paremiyasının rus dili qarşılığı kimi e dome noeeıuennoeo o eepeeke He eoeopam deyimi göstərilir. Görüdüyümüz kimi, həmin bu rus dili atalar sözü ingilis paremiyasına da tamamilə uyğun gəlir. Məsələn, Kuninin lüğətində bu rus ifadəsi name not a halter (rope) in his house that hanged himself paremiyasmm qarşılığı kimi göstərilir.

Belə bir fərziyyə də mümkündür ki, xəstəlik ümumiyyətlə tez-tez rast gəlinən adi haldır, ona görə də Azərbaycan ifadəsinin eksplisit semantikası daha güclüdür. Əksinə, ingilis və rus atalar sözlərində intihar kimi (və konkret növü kimi) nadir hadisə əks olunur, paremioloji semantikanın ifadəsi üçün əsas rolu oynayır.

Həmmüəlliflər Abbasov A., Aliyeva M., Mustafaeva Y., Aliyev İ., Pashayeva P. "English Russian proverbal entries" kitablarında yazırlar: "Bu səbəbdən, fikrimizcə, ingilis və rus paremiyalarında məcazi məna daha güclü ifadə olunur.

Eyni zamanda hər üç paremiya klassik atalar sözüdür və bu keyfiyyətdə həm hərfi, həm də məcazi məna ifadə edir: "Those who live in glass houses should not throw stones" atalar sözündə "şüşə ev" obrazı diqqəti cəlb edir. Atalar sözünün əsasını təşkil edən obraz öz qeyri-standart səciyyəsi ilə maraqlıdır.

Hərfi olaraq ifadənin mənası belədir: "şüşə evdə yaşayan daş atmalıdır". İlk baxışdan "şüşə" "sınmaqla" korelasiya olunur. Ona görə də "şüşə" "daşla" tutmur, bir yerə sığmır. Əslində isə ifadənin mənası daha-mürəkkəbdir. Şüşə evdə yaşayanın həyatı göz qabağındadır. Burada göz qabağında olmaq əslində "qəbahətə" malik olmaq deməkdir. Daş atmaq isə "öz şüşə evinə" yox, özgəsinə olmaz. Çünki qəbahətə malik olan özgəsinə daş atmaz (3, s. 581).

Mənaların kəsişən sxemlə yaranması paremiyanın semantikasını bir növ paradoksal edir. Əslində isə paremiyanın strukturu şəffafdır. "Daşı qaldırarsan atasan, öz şüşədən olan evin sınar". Burada "ev" konsepti rəmzi olaraq "insanın özün", "insanın qəlbin" bildirir.

Fiziki məkan ruhi məkanı bildirir. "Ev" məkanının aliliyi haqqında təsəvvür All is soon ready in an orderly house paremiyasında özünü göstərir. Əslində ingilis şüuru üçün universal sınantika olan "evin yüksəkliyi və yüksək dəyəri" "ev" konsepti ilə bağlı bütün atalar sözlərində özünü büruzə verir. All is soon ready in an orderly house atalar sözündə "evin aliliyi" ilə bərabər həyatda müvəffəqiyyət qazanmaq haqqında təsəvvürlər də öz əksini tapır. Hərfi mənası "Səliqə-səhmanlı evdə hər şey tezliklə öz qaydasına düşər" kimi izah olunan bu paremiyada bir neçə aforistik mənalar üzə çıxarıla bilər.

Ən maraqlı cəhət isə evin–ailənin inkişafı və həyat problemlərini həll etməsi evin-məkanın səliqəsi ilə üzvi şəkildə bağlanır. Yəni "səliqə–səhman" konsepti olduğu kimi və hərfi mənada başa düşülməlidir. Söhbət ondan gedir ki, ailə üzvləri evlərini həmişə səliqəli saxlamağa öyrəniblərsə, onların bütün problemləri vaxtı–vaxtında mütləq həll olunacaq.

Prof. K.Abdullayev: "Azərb.dili sintaksisinin nəzəri problemləri" əsərində yazır: "Xalq mentalitetinin zənginliyi və dərinliyi isə özünü insan yaşadığı məkanın səliqəsini bilavasitə onların taleyi ilə bağlamasında göstərir. Doğrudan da bu fikir çox dərindir. İlk baxışdan elə gəlir ki, bu iki hadisə, yəni evin səliqəsi və həyatdakı uğurlar, heç cürə bir-birilə bağlı deyil. Əslində isə burada dərin və məntiqi əlaqə var. Evini, yaşadığı məkanı, daima səliqədə saxlayan insanlar həyatda da hər bir problemini vaxtında və "səliqəli" həll edirlər (4, s. 246).

---

26 Azərbaycan Dövlət Dəniz Akademiyası. "İngilis dili" kafedrasının baş müəllimi. kvelieva64@com.ru

By the street of 'By and by' one arrives at the house of 'Never' atalar sözünün hərfi mənası "nə vaxtsa küçəsi ilə gedən kəs heç zaman evinə gəlib çıxar" kimi verilə bilər. Paremioloji mənası A. Abbasovun lüğətində "Bu günün işini sabaha qoymazlar" kimi müəyyən edilir. Əlbəttə, "burada" konsepti, demək olar ki, paremioloji semantikanin təskilində iştirak etmir "küçə" konsepti kimi o da yalnız rəmzi və assosiativ səciyyə daşıyır. Lakin, buna baxmayaraq, çox dərin implisit səviyyədə "ev" konseptinin "dayanacaq, mahiyyət", "quruluş", "əldə olunan əsil mənfəət" kimi semantik göstəriciləri büruzə edir. A.Abbasov to carry coals to Newcastle ifadəsində verir. Fikrimizcə, bu ifadə paremiya deyil. Bunun bir neçə səbəbini göstərmək olar. Birincisi, to carry coals to Newcastle ifadəsi heç də bütöv bir fikir deyil.

Əlbəttə, hər bir dil vahidinin əsasında fikir görmək olar, əgər söhbət söz və ondan daha mürəkkəb vahidlərdən gedirsə. Bizi maraqlandıran məqamda fikir bütöv məntiqi hökmə bərabər olmalıdır. Burada isə o yoxdur. İkincisi, to carry coals to Newcastle ifadəsi müstəqil əhatəyə malikdir: kimsə (şəxs semantikalı isim) Nyukasla kömür aparır. Deməli, burada frazeoloji vahidlə rastlaşırıq. Lakin to carry coals to Newcastle frazeoloji vahidi çox asanlıqla həqiqi paremioloji vahidə çevrilə bilər. Məsələn, Nyukasla kömür aparmazlar, bu axmaqlıqdır.

Gördüyümüz kimi, burada artıq məntiqi hökm ifadə olunur, göstəriş var və beləliklə də paremioloji semantika reallaşır. Lakin bu Nyukasla kömür aparmazlar, bu axmaqlıqdır ifadəsi Nyukasla kömür aparır (kimsə) frazeoloji vahidinin süni (biz yaratdığımız) transformudur.

Birincisi, iki ailəyə (iki kişiyə) qadın da xidmət edə bilər. Daha mücərrəd məna ümumiyyətlə ikili "siyasət"-lə bağlıdır. Məsələn, rus dilində cnpyra zıвyx rocnon frazeoloji vahidi işlənir. Məlum olduğu kimi, ifadə İncildən gəlir və İsa peyğəmbərin çağırışlarını əks edir. Konkret olaraq burada söhbət insanın yalnız Allaha qulluq etmək zəruriyyətindən gedir.

A.Abbasovun lüğətində çox maraqlı bir paremiya qeydə alınır ki, bunun mənası son dərəcə mücərrəddir. The darkest place is under the candlestick atalar sözünün hərfi mənası lüğətdə verildiyi kimi "Ən qaranlıq yer şamdanın kökü olur. Şam dibinə işıq salmaz". Paremioloji məna əvəzinə müəllif digər bir atalar sözünü göstərir: "Öz gözündə qılı görməyib,başqasının gözündə tükü seçir". Əlbəttə, bu mənanın motivasiyası bəllidir, yəni paremiyanın quruluşu şəffafdır. Yəni şam hər yana işıq saçır özünün dibindən başqa.

Lakin digər bir mənanın da motivasiyası var. Məsələn, hamıya kömək edir, özünü isə unudur. Hətta üçüncü bir məna da situativ olaraq reallaşa bilər. Məsələn, "hamının işini görür, öz işləri isə tökülüb qalır". Nəhayət, "şamın dibi" rəmzi olaraq evi də bildirə bilər, çünki dib, kök, özəl "əsas məkan deməkdir.

Nəticə. Beləliklə, qeyd etdiyimiz kimi, eyni aforistik sxem müxtəlif danışıq situasiyalarında fəallaşa bilir. Məsələn, "öz evindəkini (şamın dibi) gizli saxlayır, ətrafi isə işıqlandırır (yəni hər şeyi ağardır)". Burada, gördüyümüz kimi, "ev' 'konseptinin ifadəsi "doğma məkanın" xüsusi adı ilə bilavasitə təqdim olunur. A. Abbasov göstərir ki, "burada ingilislərin milli xarakterindən bəhs edilir", lakin ən maraqlı informasiya verilmir, yəni paremiyanın tərkibini təşkil edən konseptlərin ingilislərin milli xarakterləri ilə necə bağlı olduğu göstərilmir. Əslində isə "qadın" konseptinin cənnətlə və xüsusən də "nökərlərin" "məhşərlə" bağlılığı çox maraqlı və əhəmiyyətlidir. Əlbəttə, konseptlərin şəffaflığı mülahizələr etməyə imkan verir. Məsələn, qadınla İngiltərədə istədiklərini edirlər, atları həddindən artıq işlədirlər, nökərlər isə daima nəzərət altındadırlar və s. Burada isə konkret və xüsusi nominasiyalar iştirak edir. Məsələn, My home is my castle ifadəsində home sözü hamıya aiddir. İngilis paremiyası olaraq ingilis mentalitetini əks edir, lakin hamıya aiddir və hamının, millətindən asılı olmayaraq bütün insanların, ev haqqındakı fikrini ifadə edir. England is the paradise of women, the hell of horses, and the purgatory of servants paremiyası isə eksplisit və diskursiv şəkildə İngiltərə haqqındadır.

Ədəbiyyat:

1. Abbasov A.Q. İngiliscə-Azərbaycanca atalar sözləri və zərb-məsəllər lüğəti. Bakı: Turan evi, 2009, 472 s.
2. Həmidov İ.H. Azərbaycanca-rusca atalar sözləri lüğəti. Bakı: OKA Ofset, 2004, 287 s.
3. Abbasov A., Aliyeva M., Mustafaeva Y., Aliyev İ., Pashayeva P. English-Russian proverbal entries. Baku: Bakı Universiteti, 2013, 581 s.
4. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 1999, 246 s.

Açar sözlər: konsept, paremioloji vahid, mentalitet, koqnitiv səciyyə, İngilis dili
Key words: consept, paremiological units, mentality, cognitive character, English
Ключевые слова: концепт, паремиологическая единица, менталитет, когнитивные характеристики, английский язык

Linguistic analysis of paremiological units with different shell meanings in modern english

Summary

In the given article we observe the reflection of "space consept" in English paremeological system. In this article mainly shows the semantic analys of different cofnitive signs of space consept in the proverbs. According to the given examples clear to us that deep analysis have been done. As the result of these analysis, is clearly seen the importance of "home" consept in English paremeological system. At the same time has been given Azeri and Russian equivalents of paremeological units that have been used in the article.

Лингвистический анализ паремиологических единиц с разным оболочным значением в современном английском языке

Резюме

В данной статье мы наблюдаем отражение понятия «пространство» в англоязычной паремеологической системе. В статье в основном показан семантический анализ различных коннитивных признаков концепта пространства в пословицах.
По приведенным примерам нам ясно, что проведен глубокий анализ. В результате такого анализа отчетливо видна значимость концепта «дом» в англоязычной паремеологической системе. В то же время даны азербайджанские и русские эквиваленты паремеологических единиц, использованных в статье.

Rəyçi: filologiya elmləri doktoru, professor Bahar Cəfərova

Emiliya Vəli qızı Qasımova27

İNGİLİS DİLİNDƏ SKANDİNAVİYA MƏNŞƏLİ SÖZLƏRİN ETİMOLOJİ VƏ TİPOLOJİ XÜSUSİYYƏTLƏRİ

Giriş. Tarixi inkişaf prosesində hər bir dil müxtəlif dəyişmələrə məruz qalır. Dəyişmələr dilin ayrı-ayrı səviyyələrində özünü göstərir. Lakin ilkin dəyişmələr özünü bilavasitə dilin lüğət tərkibində büruzə verir. Dil tarixinin öyrənilməsi dilin mövcud olduğu müxtəlif dövrlərdə onda baş verən dəyişmələrin ümumi mənzərəsini açmağa imkan verir. B.Abbasova "Söz alma hadisəsinin əsasları" adlı əsərində yazır: "Dilin lüğət tərkibindəki alınmalar həm alınma mənbəyinə, həm də alınma dövrünə görə fərqləndirilir. Müasir ingilis dilində müxtəlif dillərdən alınmalar vardır. İngilis dilindəki alınmaları beş əsas qrupda birləşdirmək olar:

1) kelt dilindən alınmalar;
2) latın dilindən aınmalar (ümumiyyətlə latın alınmalarının üç qatı göstərilir. I qat bizim eradan əvvələ təsadüf edib bizim eranın VI əsrinə qədər bir dövrü əhatə edir, II qat V-VI əsrlərə, xristianlığın İngiltərədə yayıldığı dövrə aid edilir. III qat intibah dövrü ilə əlaqədar XV-XVI əsrlərdə ingilis dilinə keçmiş latın sözləridir);
3) skandinav dillərindən alınmalar;
4) qədim fransız (XII-XV əsrlər) və yeni fransız (XVI əsrdən sonra) dilindən alınmalar;
5) başqa dillərdən (yunan, italyan, holland, ispan, rus, alman, fars və s. alınmalar (1, s. 145-148).

Müasir ingilis dilində alınmalar sayca həm çoxluğu, həm də mənbə müxtəlifliyi ilə seçilir. Bu dildə dünyanın təqribən 50 dilindən alınma sözlər vardır. Bu sözlər müasir ingilis dilinin lüğət tərkibinin, demək olar ki, 70%-ni təşkil edir. Qeyd olunan alınma sözlər ingilis dilinə müxtəlif dövrlərdə müxtəlif tarixi mərhələlərdə keçmişdir. Hər bir dövr özünə görə tarixi, sosial, iqtisadi, mədəni əlaqələri əhatə edir. Dil elementlərinin qeyri-müntəzəm inkişafı haqqında ümumi qanuna görə dilin daha vacib elementləri təsirə tez məruz qalır. Dildə belə elementlər dilin lüğət tərkibinə daxil olan sözlərdir. Dilin qrammatikası isə kənar təsirə qarşı davamlıdır. Bu və ya digər dilin təsiri tarixi səbəblərlə- müharibələr,ərazinin işğalı, səyahət,ticarət və s. ilə əlaqədardır. Bütün bu hadisələr dillərarası əlaqələri sürətləndirir. Yeni alınma sözlərin intensivliyinin artması müxtəlif dövrlərdə fərqlidir. Konkret tarixi şəraitdən asılı olaraq alınma sözlərin sayı artır, ya da azalır. Bir dilin digərinə təsiri dil amili ilə bağlıdır. Qarşılıqlı əlaqədə olan dillərin yaxınlığı, yaxud uzaqlığı bu məsələdə əhəmiyyətli rol oynayır. Yaxın və qohum dillərin bir-birinə təsiri həmişə daha güclü və intensiv olur. Lakin dilin tarixi inkişaf prosesində dillərarası əlaqədə qohum dillər arasındakı əlaqə çox vaxt dominant səviyyədə olmur. Nəticədə müxtəlif sistemli, yaxud qohum olmayan dillər arasındakı əlaqə ön plana keçir. İngilis dili də müxtəlif dillərlə qarşılıqlı əlaqədə olmuşdur. Bu əlaqələr ingilis dilinə təsir etmiş və bu dildə öz izini saxlamışdır.

Əsas hissə. Latın dilindəki alınma sözlərin müəyyən hissəsi bu və ya başqa fonetik cilddə,qrammatik quruluşda və mənada bir çox dillərdə rast gəldiyindən internasional sözlər cərgəsində yer tutur. İnternasional sözlərin əsas hissəsi latın mənşəlidir. Müasir elmlərin çoxunda latın mənşəli olan alınmalara obliqation, constitution, alibi, microscope, modern, laboratory, proqramm, system, socializm, communism, climatik, raqius, tradition və s. misal ola bilər. Haugen "The analysis of linguistic borrowings" adlı kitabında qeyd edir: "VII əsrdə skandinavların Britaniya adalarına hücumları artmış və 1017-ci ildə İngiltərə Danimarka krallığına tabe edilir. Bu dövrdə həm Danimarka, həm də ingilis xalqları ictimai və iqtisadi cəhətdən eyni səviyyədə idilər. Onların dilləri də qohum dillər ailəsinə mənsub idi" (2, p. 18-20).

Skandinav dillərindən qədim ingilis dilinə keçən sözlər mənşəcə dilin özünə aid sözləri sıxışdıraraq sıradan çıxarmış, bəzi sözlər isə semantik dəyişmələrə uğramışdır. Danimarka və ingilis dillərinin yaxınlığı semantik alınmaların sayının daha çox artmasına elecə də onların semantik dəyişməyə məruz qalmasına səbəb olmuşdur. Saitlərdən əvvəl (sk) samit birləşməsi də bu dövrə aiddir. Qeyd olunan birləşmə skandinav alınmalarının müəyyənləşdirilməsində xüsusi rol oynayır.Bununla yanaşı, qeyd etmək lazımdır ki, (sk) birləşməsi yalnız skandinav sözlərinə şamil edilməmişdir.Birləşmə başqa dillərdən alınmalardan da özünü göstərir: squire (fr), sceptic (yun). 1066-cı ildə İngiltərədə normanların hakimiyyəti qərarlaşır. Bu isə ingilis dilinə fransız dilinin təsir göstərməsinə yol açır. Sonralar ingilis dili ölkədə hegemon mövqeye keçendə fransız dilindən alınma siyasi terminlərin böyük əksəriyyəti dildə qalır. Beləliklə, fransız-ingilis dil əlaqədərinin bu dövründə ictimai-siyasi sahədə fransız alınmalarının daha çox olması müşahidə edilir. Məsələn, feodal münasibətlərlə bağlı sözlər: feodal,baron, vassal, lieqe, chvalry. Belə sözlərdən bir qismi sonralar daha ümumi məna kəsb etmişlər. Məsələn, obey, serve, noble, qlory, command, danqer.

İngilis dilində işlənən titulların böyük əksərriyyəti kinq, queen, earl, lord, lady istisna olmaqla norman-fransız mənşəlidir. Dövlət idarəçiliyi ilə bağlı (people, nation, government, curt) pul münasibətlərini ifadə edən money, property sözləri də fransız mənşəlidir. Ailə münasibətləri bildirən parnet, spouse, cousin, uncle, niece sözləri də həmin qəbildəndir.

Galperin I.R. Stylistic. Moscow: Higher School, 1997.əsərində yazır ki:"Onu da qeyd etmək lazımdır ki, o dövrün fransız dili özü alınmalardan xali deyildi. Bu dildə alman alınmaları müəyyən çəkiyə malik olmuşdur. İngilis dilində yer almış blank, blanket, blue, coat, danse, qarden, gay, pocket, ticket kimi sözlər alman mənşəli olub fransız dili vasitəsilə ingilis dilinə keçmişdir" (3, p. 123-140).

Normand işğalı dövründə fransız dili ingilis dili ilə müqayisədə hegemon mövqe tutmuşdur. Sarayda, feodal əyanları arasında, dövlət müəssələrində, məktəblərdə fransız dili əsas yazılı dil kimi istifadə olunmuşdur. Ona görə də fransız dilindən keçən

27 Filologiya üzrə fəlsəfə doktoru . Azərbaycan Dövlət İqtisad Universitetinin "Xarici dillər" kafedrasının baş müəllimi. emiliyakasimova@mail.ru

leksik vahidlər bu dildən istifadə edənlərin həyat tərzini, fəaliyyətini, marağını ifadə edən sözlərdir: action-hərəkət, aqruable-razı, beauty-gözəllik, carpenter-dülgər, duke-hersoq və s. Fransız dilindən alınma sözlərin müəyyən qismi zaman keçdikcə ümumişlək leksik laya keçmişdir: face-üz, sifət, gay-şən, hour-saat, ink-mürəkkəb, joy-sevinc, letter-məktub, money-pul və s. Fransızcadan ingilis dilinə olduqca çox söz keçmişdir. Onların müəyyən hissəsi murəkkəb sözdüzəltmə quruluşlu olmuşdur.Bununla da, fransız dili ingilis dilinin sözdüzəltmə sisteminə güclü təsir göstərmişdir. Fransız dilinə məxsus alınmaların tərkibindəki sözdüzəldici ünsürlər sonradan ingilis dilində istifadə edilmişdir. Məsələn,accestable-yolverilən sözündən –able- , difference, excelence, evidence tipli sözlərdən –ence- ünsürlərinin ingilis dilinin sözdüzəltmə sistemində tətbiqini tapmışdır. Fransız sözlərinin ingilis dilinə keçməsi prosesi müasir dövrdə də davam edir. Yəni keçən sözlər siyasət, idman və asudə vaxtın təşkili sahələrinə aid olur. Müasir ingilis dilinin lüğət tərkibinin üçdə biri roman mənşəli olmasına baxmayaraq bu dil german dili kimi özünəməxsusluğunu saxlamışdır. Г.Б.Антрушина, О.ВАфанасьева, Н.Н.Морозова Лексикология английского яэыка kitabında müəlliflər əsaslı şəkildə yazırlar ki,"Fransız dili vasitəsilə ingilis dilinə keçmiş latın sözləri də az deyildir. Bu dil xarici amillərlə bağlı olmuşdur. Məlumdur ki, XIII əsrin sonlarında və XV əsrin əvvəl rində İngiltərədə kapitalist istehsal üsulu inkişaf etməyə başlayır. Bu dövr ölkədə ingilis dilinin milli dil səviyyəsinə qaldırılması ilə də seçilir. İntibah dövründə yeni ingilis dili formalaşır. Dövrün elmi və bədii əsərləri yalnız ingilis dilində qələmə alınır.Lakin intibah dövrü antik mədəniyyətə pozitiv münasibəti ilə diqqəti cəlb edir. Ona görə də yeni ingilis dilinə latın , yunan dillərindən sözlər keçməyə başlayır. İngilis dilində olan latın alınmalarının üçüncü layı məhz bu dövrdə bağlıdır. Lakin bu alınmalar artıq şifahi nitqə, danışıq dili ilə deyil, yazılı dillə keçir. İngilis dilində fəlsəfə, hüquq, tibb terminologiyası da məhz bu cür alınmalar əsasında formalaşmışdır. Yazılı dilə keçən sözlər daha çox terminoloji səciyyəli olmuş, abstrakt anlayışları bildirmişdir. Məsələn, basis, area, crisis, idea, ratio, stimulus. Eyni zamanda fel və sifətlərin də ingilis dilinə keçməsi qeydə alınır. Operate, cultivate, educate, admit, permit, affect, senior. Junior, minor, interior, exterior və s. (4, s. 166-169).

Yunan dilindən alınmış sözlər və sözdüzəltmə vasitələri dünyanın bir çox dillərində, o cümlədən ingilis dilində terminoloji leksikada geniş istifadə olunur, onlar internasional səciyyə daşıyır. İngilis dilindəki latın alınmalarının böyük əksəriyyəti birbaşa deyil, fransız dili vasitəsilə alınmalardır.

XV-XVI əsrlərdə ingilis dilinə latın və yunan dillərindən başqa italyan, ispan və holland dillərindən xeyli söz kecmişdir. Lakin bu dillərdən alınmış sözlər sayca azdır və onlar mədəni, eləcə də ticarət əlaqələrinin nəticəsidir. XVII əsrin ortalarında ingilis-fransız dil əlaqələri yenidən guclənmişdir. Bu dövr ingilis dili üçün yeni fransız alınmaları ilə səciyyəvidir. Sonralar XIX əsrdə fransız dilindən daha çox texniki terminlər alınmışdır.

İngilis dilinin özünün çoxəsrlik tarixində bir çox dillərlə qarşılıqlı əlaqədə olmuş. Həmin dillərdən söz almışdır. Alınma sözlərin dildə artması çoxlu dubletlərin yaranmasına səbəb olmuşdur.

Dilə yeni söz alınmasının əsas səbəbləri dilin leksikasında baş verən bir sıra yenilikləri və dil sistemlərində bir çox dəyişmələri doğuran səbəblərə uyğun gəlir. Başqa xalqlara məxsus anlayışların əxz edilməsində dilin özündə yeni adın yaranması üçün zəngin daxili imkan olmasına baxmayaraq sözün başqa dildən alınması üstün tutulur. Başqa dildən alınan hazır materialı dilin öz qanunlarına uyğun şəkildə dəyişdirib mənimsəmək resipirent dildə yeni sözün yaranmasından daha asandır. İngilis dilinə keçmiş alınma sözlərin dildə qəbul olunmasının səbəblərindən biri kimi yuxarıda göstərilən səbəb haqqında danişmaq olar. Məlumdur ki, Britaniya adalarında German tayfalarının – Anqlar, Sakslar və Yutların hələ məskunlaşmadığı dövrdə bu tayfalar ilə Romalılar arasında ticarət əlaqələri mövcud olmuşdur. Bu səbəbdən onlar Romalı tacirlərdən ticari anlayışlarla bağlı, o cümlədən onlar üçün yeni anlayışları adlandırmaq üçün külli miqdarda söz almışlar. Bu sözlər Roma mədəniyyətini əxz etdirir və latın mənşəli sözlərdir. Bu cür alınmaların ingilis dilində tarixi daha qədim hesab olunur və bu sözlər Latın dilindən ingilis dilinə keçmiş sözlərin birinci səviyyəsini formalaşdırır (1, s. 145-148).

Bu sözlər, əsasən, şifahi formada qəbul olunurdu və bu səbəbdən də sözdəki hərflərin sayı daha az olurdu. Məsələn: vvine (Latın vinum), pepper (Latın piper), pear (latın pirum), cheese (Latın caseus), butter (Latın butyrum), etc.

Bu ilk səviyyəya aid olan sözlərin digər bir qismi isə, 400 ildən artıq Roma imperiyasının əsarəri altında olan Britaniya adalarına V əsrdə german tayfalarının gəlişindən sonra ingilis dilinə keçmiş Latın mənşəli sözlər hesab olunur. Bu alınmalar Romalıların quruculuq və tikinti işləri ilə əlaqədar işlətdikləri sözlərdir. Məsələn: street (Latın strata vita), port (Latın piper), vvall (Latın vallum), camp (Latın campus), etc. Coğrafi yer adlarından isə,muasir ingilis dilinə chester (Latın castrum), sonluğu ilə bitən adlar məhz bu dövrdə alınmışdır (2, s. 18-20). Məsələn: Manchester, Gloucester, Lancaster, etc. Latın dilindən resipient dil olaraq İngilis dilinə keçmiş sözlərin ikinci səviyyəsini bütün ingilislərin xristianlığı qəbul etdiyi bir dövrdə, yəni VI-VII əsrlərdə alınmış sözlər yaradır. Dilə yeni idea və anlayışların gəlməsi məhz bu dövrdə dilə yeni sözlərin keçməsi də səbəb olmuşdur. Bu tip alınmalara aşağıdakılar daxildir: angel, bishop, candle, monk, priest, saint, etc.

Qalperin Latın mənşəli alınmaların bu səviyyəsini aşağıdakı kimi qruplaşdırır:

1. Ev təsərrüfatında işlənən əşyaları ifadə edən sözlər: anchor (Latın ancora), box (Latın buxus), butter (Latın butyrum), chalk (Latın calcum), dish (Latın discus), kettle (Latın catillus), etc.
2. Geyim əşyaları ifadə edən sözlər: cap (Latın cappa), sock (Latın soccus), etc.
3. Uzunluq və çəki vahidlərinin ifadə edən sözlər: circle (Latın circulus), mile (Latın millia), pound (Latın pondo), inch (Latın incia) etc.
4. Heyvan, quş və balıq adları bildirən sözlər: ass (Latın asinus),camel (Latın camelus), peacock (Latın pavo), turtle (Latın turtur) etc.

Xüsusi adları nəzərə almasaq, bu dövrdə ingilis dilinə Latın dilindən təxminən 400-450 söz daxil olmuşdur (3, p. 123-140). Bu cür alınmalara aşağıdakıları aid etmək olar: lexicon, myth, petal, sympaty, etc. Bu dövrdə həmçinin klassik Latın dili va-

sitəsilə athlete, drama, gymnastics; fransız.dili vasitəsilə astronomy, dialect, geograpy, geometry, idiom, theatre, tragedy, etc. kimi sözlər də ingilis dilinə daxil oldu.hər hansı bir dildə yunan elementlərinin nə dərəcədə geniş yayıldığını anlamaq üçün hər hansısa bir elm sahəsinin hətta müəyyən qolunda bu dildən alınmış sözlərin hansı tezlikdə işləndiyini müşahidə etmək kifayətdir. Aşağıdakı söz və terminləri ingilis dilçiliyi yunan dilinə borcludur; analysis, antonym, archaism, chorus, democracy, dialogue, epilogue, etymology, euphemism, neologism, epos, gymnastics, homonym, hyperbole, lexicology, metaphor, metonymy, polysemy, physics, philology, philosophy, rhythm, synonym, scheme, scene, tragedy, prologue etc.

Nəticə. Məlumdur ki,german tayfaları anqlar, sakslar,yutlar V əsrdə Britaniya adalarına yürüş edərkən yerli xalqla – kelt tayfaları ilə qarşılaşdılar.. Bu prosesin davamli surətdə inkişafi aşagidaki üç istiqamətdə nəticələndi:

1) skandinavizmlər anglo-sakson mənşəli sözləri lügət tərkibində sixişdirib çixardi: 2) skandinavizmlər anglo-sakson mənşəli sözlərin rəqabətinə davam gətirə bilmədi: Buna görə də bu dildən ingilis dilinə keçən sözlər əsasən gündəlik həyatda işlənən sözlərdir.

Beləliklə, aparılan tədqiqatlardan aydın olur ki, ingilis dilinin lügət tərkibi sözlərin mənşəinə görə müxtəliflik təşkil edir. İngilis dili öz tarixi inkişaf prosesində külli miqdarda alınma söz qəbul etsə də, bu dil öz xarakterik xüsusyyətlərini qoruyub saxlaya bilmişdir.

Ədəbiyyat

1. Abbasova B. Söz alma hadisəsinin əsasları. Bakı, 1995, səh:145-148.
2. Haugen. The analysis of linguistic borrowings. New York, 1956, page:18-20.
3. Galperin I.R. Stylistic. Moscow: Higher School, 1997, page:123-140
4. Антрушина Г.Б., Афанасьева О.В., Морозова Н.Н. Лексикология английского яэыка. с166-169.

Açar sözlər: İngilis dili, dil əlaqələri, lüğət tərkibi, alınma söz, semantika
Ключевые слова: английский язык, языковые связи, лексика,заимствованное слова, семантика
Key words: English, language relations, vocabulary, derivation, semantics

Этимология и типологические особенности скандинавской лексики в английском языке

Резюме

В данной статье рассматривается появление эаимствованных слов в английском яэыке с исторической точки эрения. Иэвестно, что основная причина для эаимствования новых слов – это появление новых понятий в словарном эапасе яэыка. В принятии нового понятия для соэдания новых В VII веке нападения скандинавов на Британские острова усилились, а в 1017 г.Англия подчиняется Королевству Дании. В этот период и датский, и британский народы находились в равном положении в социальном и экономическом отношении. Их язык также принадлежал к семье родственных языков. Слова от скандинавского до древнеанглийского принадлежат самому языку в нем вытеснены слова, а некоторые слова претерпели семантические изменения.

Etymology and typological features of Scandinavian vocabulary in English

Summary

The given article speaks about the relative connection of acient English and borrowed words from Scandinavian and other western-European languages used in its vocabulary content.In the 7th century, Scandinavian attacks on the British Isles increased, and in 1017 England is subject to the Kingdom of Denmark. During this period, both the Danish and British peoples were on an equal footing socially and economically. Their language also belonged to the family of related languages. Words from Scandinavian to Old English belong to the language itself it has suppressed words, and some words have undergone semantic changes.

RƏYÇİ: filologiya üzrə fəlsəfə doktoru, dosent Nuriyyə Rzayeva

Kəmalə Sabir qızı Hüseynova, İrada Zahir qızı Vəliyeva28

MÜASİR DÖVRDƏ MULTİKULTUREALİZM MÜNASİBƏTLƏRİNDƏ TƏRCÜMƏ SƏNƏTİNIN ROLU VƏ ƏHƏMİYYƏTİ

(İngilis və Azərbaycan dilləri materiallarına əsaslanaraq)

Giriş. Məlumdur ki, tərcüməçi şəxsi motivlərə xidmət etmir, sosial sifarişin ondan tələb etdiyi, cəmiyyətin sifariş etdiyi motivlə hərəkət edir. Rus dilçi alimi A.F.Şiryayevin: fikrincə, tərcüməçi öz fəaliyyəti zamanı şəxsi motivə söykənən tələbatdan çıxış etmir, əksinə onun fəaliyyəti sosial xarakterlidir (1, s. 29).

Bəllidir ki, tərcümə insan fəaliyyətinin qədim bir növüdür. İnsan cəmiyyəti təşəkkül tapandan və insanlar arasında dil müxtəlifliyi yaranandan tərcümə və yaxud tərcüməçilik fəaliyyəti də meydana gəlmişdir.

Qeyd etdiyimiz kimi, tərcümə fəaliyyəti, xüsusilə ötən əsrin sonlarında və iyirmi birinci əsrin əvvəllərində dünyada baş verən ictimai-siyasi dəyişikliklərdən sonra daha da aktuallaşmış, ona qarşı tələbat çoxalmışdır. Elmi-texniki tərəqqinin həyatın müxtəlif sahələrinə güclü təsir etdiyi bir dövrdə elm, mədəniyyət, texnika sahəsində beynəlxalq əməkdaşlıq da güclənmişdir.

Dünyada baş verən misilsiz dəyişikliklər ölkələr və yeni dövlətlər arasında görünməmiş əlaqələrin, müxtəlif dilli cəmiyyət və xalqlarm bir-biri ilə münasibətlərinin inkişafina güclü təkan vermişdir. Belə bir şəraitdə tərcümənin rolunun artmasını görməmək mümkün deyil. Məhz bu baxımdan tərcümə xalqların və dövlətlərin iqtisadi, siyasi-ictimai, elmi, mədəni-kütləvi və s. münasibətlərinin tərəqqisinə xidmət göstərən bir vasitəyə çevrilmişdir. M.Nağısoylu "Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti" əsərində yazır: "İngilis və Azərbaycan dilləri morfoloji qurumuna görə müxtəlif, fərqli dillərdir: ingilis dili flektiv, Azerbaycan dili isə aqqlütinativ quruluşlu dillərdir. Təbii ki, bu, tərcümə prosesində çətinliklərə səbəb olur. Bu çətinliklər tərcümədə morfoloji transformasiyalar vasitəsilə aradan qaldırılır. Bu məqalədə tərcümə prosesində artikl, kəmiyyət kateqoriyası və nitq hissələrinin transformasiyası nəzərdən keçiriləcəkdir" (2, s. 14-28). İngilis dilində artikl mövcuddur.

Düzdür, bu dildə artikl, məsələn, alman və fransız dillərində olduğu kimi mühüm rol oynamır, lakin, hər halda, bir sıra vəzifələr (funksiyalar), o cümlədən müəyyənlik və qeyri-müəyyənliyi bildirmək üçün ingilis dilinde a artikli qeyri-müəyyənlik, the artikli isə müəyyənlik bildirir; məsələn: Give me a book «Mənə kitab (hər hansı bir kitab) ver» deməkdirsə, Give me the book "Mənə, kitabı ver: Mənə bu (o, həmin) kitabı ver" deməkdir. Birinci halda qeyri-müəyyənlik kitabdan, hər hansı bir kitabdan söhbət gedirsə, ikinci halda adresat və adresanta məlum olan kitabdan söhbət gedir.

Azərbaycan dilində artikl yoxdur, lakin Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik anlayışı mövcuddur və ingilis dilindən edilən tərcümələrdə bu nəzərə alınmalıdır.

Rus dilində də müəyyənlik və qeyri-müəyyənlik anlayışı mövcuddur, lakin ingilis dilindən tərcümələrdə bu məsələ Azərbaycan dilinə tərcümədəki kimi mühüm əhəmiyyətə malik devildir. Məsələn, yuxarıda verilmiş hər iki ingilis cümləsini «Дай мне ту книгу», «Дай мне ету книгу», «Дай мне какую-нибудъ книгу» və «Дай мне книгу» kimi tərcümə etdikdə tərcümənin «qrammatikasına» heç bir ziyan dəymir. İngilis dilindən Azərbaycan dilinə, eləcə də Azərbaycan dilindən ingilis dilinə edilən tərcümələrdə «mətnin qrammatikasını» düzgün, adekvat çatdırmaq üçün müəyyənlik və qeyri-müəyyənlik anlayışını mütləq ifadə etmək lazımdır.İngilis dilindən Azərbaycan dilinə edilən tərcümələrdə artiklin mənası müxtəlif vasitələrlə leksik və qrammatik vasitələrlə, söz sırası ilə ifadə edilir, həm də bu zaman müxtəlif transformasiya üsullarından istifadə edilir: forma dəyişikliyi edilə bilər.

Əsas hissə. Azərbaycan dilində artikl kateqoriyası mövcud olmadığı üçün ingilis dilindən tərcümədə artikli əvəz edən leksik vahid artırıla bilər, ingilis dilində artikl müəyyən məna yükü daşımadıqda tərcümədə o buraxıla bilər. Deməli, ingilis dilində Azərbaycan dilinə tərcümədə artiklə münasibətində üç transformasiya üsulundan istifadə etmək olar: əvəzetmə, artırma və buraxma (ötürmə).

a) Qeyri-müəyyənlik artikli. İngilis dilindən qeyri-müəyyənlik anlayışını ifadə etmək üçün a artikli işlədilir. Bu artikl ingilis dilində, əsasən, təsnifləyici funksiya yerinə yetirir: o, əşyanın fərdi səciyyəvi xüsusiyyət və əlamətlərindən asılı olmayaraq əşyanın müəyyən əşyalar sinfinə daxil olduğunu göstərir. Bir sıra halda qeyri-müəyyənlik artikli öz mənasına görə some və any qeyri-müəyyən əvəzliklərinin mənasına yaxınlaşır.

b) Bu zaman tərcümədə artiklin mənasını mütləq vermək lazımdır. Məsələn: From the anxious depth within her there reawakened the suspicion that the people errand her-mother, father, sister. entangled in a conspiracy «Onun qəlbinin tərəddüdlü dərinliklərində yenə belə bir şübhə oyandı ki, onun ətrafindakılar anası da, atası da, bacısı da hansısa sui-qəsddə iştirak edirlər».

Son had ad unreal feeling as if he were passing through the scene in a book (O.Galswarthy). «Conda belə bir qeyri-real hiss oyandı, sanki o, romandan hansısa səhnəni yaşayır».

Bəzən ingilis dilində qeyri-müəyyənlik artikli özünün ilkin one «bir» mənasında işlənir. Belə məqamda artiklin mənası uyğun lekseman artırılması ilə tərcümə edilir. Məsələn:Yet H.Y. (Wells) had not an enemy on earth (Y.B.Shaw) «Lakin Herbertin dünyada heç bir düşməni yox idi».Bəzən qeyri-müəyyənlik artikli söyləmin semantikasını əhəmiyyətli dərəcədə dəyişir. Aşağıdakı iki cümləni müqayisə et:

1) Michael grinned. "You both had a nerve" (Q.Galsworthy). «Maykl güldü», «Hər ikiniz çox həyasızsınız ha».

2) They call it a pact suicide - I couldn't. I haven't the nerve (G.Green). «Bu ikiqat özünəqəsd adlanır. – Mən bacarmaram. Mənim cürətim çatmaz».

---

28 Azərbaycan Texniki Universitetinin "Xarici dillər" kafedrasının baş müəllimləri. kamalairada@com.ru

c) Müəyyənlik artikli. İngilis dilində müəyyənliyi bildirmək üçün the artikli işlədilir. Bu artikl məhdudlaşdırıcı funksiya yerinə yetirir. Elmi ədəbiyyatda göstərilir ki, the artikla əşyalar sinfindən əşyanı ayırır, onu özünəbənzərlərdən təcrid edir, konkretləşdirir. Bu artikl işarə əvəzliyindən yaranmışdır və bəzən özünün ilkin işarə əvəzliyi mənasını yerinə yetirir.
If he remembered anything, it was the fainty capriciousness with which the gold-haired brown-eyed girl had throated (Q.Galsworthy) «Əgər o, nəyi isə başa düşürdüsə, bu da yalnız qızılı saçlı, qonuz gözlü qızın ona müraciət edərkən dəcəl duruşu idi». Ə.Rəsulov "Tərcümə nəzəriyyəsi müstəvisində İngilis və Azərbaycan dillərinin müqayisəli xüsusiyyətləri məqaləsində yazır: "Tərcümədə nitq hissələrinin əvəzlənməsi morfoloji transformasiyanın ən geniş yayılmış növüdür. Nitq hissələrinin bu cür əvəzləmməsi ingilis və Azərbaycan dilinin müxtəlif qrammatik quruluş tipinə aid olması və sözlərin işlənməsi və birləşməsinin müxtəlif normalarda olmasından irəli gəlir" (3, s. 66-72).
Belə transformasiya ən çox özünü isimlərdə göstərir. Məlum olduğu kimi, ingilis dilində bir sıra isimlər feillərlə omonim fonetik tərkibə malikdir. Belə isimlərin işləndiyi cümlələri Azərbaycan dilinə tərcümə etdikdə isimlər felə transformasiya olunur. Məsələn:You give me food and drink and I'll tell you how to sail the ship (R.L.Stevenson) «Sən məni yedizdirəcək və icizdirəcəksən və mən sənə gəmini necə idarə etməyi göstərəcəyəm».
Bəzi ingilis dili isimləri isə Azərbaycan dilinə tərcümədə feili isimlərlə və ya məsdərdə transformasiya olunur. Məsələn:Should she go to the airport for a showdown with mal, as she had considered caroler (A Hailey) «Qız əvvəlcə qərara aldığı kimi, mənimlə danışmaq üçün aeroporta getsinmi?"
Tərcümədə isimlərin başqa nitq hissələrinə transformasiyası məsələsi Azərbaycan dilində araşdırılmamışdır. Rus dilçiliyində N.N.Nesterenko C.Golsiorsinin "Forsaydlar haqqında saqu" əsərinin ingilis dilindən rus dilinə edilmiş tərcüməsi əsasında isimlerin başqa nitq hissələrinə transformasiyası məsələsini geniş surətdə araşdırmışdır. O yazır ki, tərcümədə isimlərin başqa nitq hissələri ilə əvəzlənməsi geniş yayılmışdır. Əsərin rus dilinə tərcüməsini orijinalla müqayisə edərək o qeyd edir ki, ingilis dilinda kökü feil olan sifətlərdən əmələ gəlmiş isimlər rus dilində (isimlərdən əlavə) feil, feili sifət, sifət nitq hissələri ilə əvəz edilmişdir. Tərcümədə transformasiya hadisəsi özünü ən çox əvəzliklərdə göstərir. Məlum olduğu kimi, ingilis dilində üçüncü şəxs təkdə əvəzliyin üç tipi vardır.
Dilşünas alim A.V.Fyodorovun fikrincə, tərcümənin məqsədi xarici dili bilməyən oxucuya, dinləyiciyə rast gəldiyi mətnlərdə, şifahi nitqdə başa düşmədiyi söz və ifadələri izah etmək, onları yaxından tanış etməkdir.
Digər dilşünas alim Y.İ. Reçker tərcüməyə aşağıdakı kimi tərif vermişdir: «Tərcümə məzmun və üslubu saxlamaqla əslin dəqiq və düzgün verilməsidir. Bununla da tərcümə ilə nəql bir-birindən fərqlənir. Məzmun və üslubun tərcümə olunan dilin əsasında qorunub saxlanması tərcümə üçün ən vacib amildir».
Məşhur tərcüməçi A.D.Şveytser tərcüməni dillər və mədəniyyətlər arasındakı kommunikasiyada bir istiqamətli və iki fazalı proses adlandırır və bu prosesdə tərcümə nəticəsində ilkin mətndən ikinci mətn doğulur. Həmin ikinci mətn birinci mətni və yaxud sözü əvəz edir. Belə bir ümumiləşdirici fikir vardır: tərcümə eyni dildə danışmayan insanlar arasında ünsiyyət yaratmaq tələbatından doğur. F.Vəlixnov "Azərbaycanda tərcümə tarixi" kitabında qeyd edir: "Deyilənləri ümumiləşdirsək, tərcümənin kompleks proses olması qənaətinə gəlmiş olarıq.Bizim fikrimizcə, əsildə (orijinalda) olan fikrin düzgün və dəqiq verilməsi və ya ötürülməsi zamanı təkcə sözün və ya ifadənin qarşılıqlı variantını tapmaq kifayət deyildir. Burada tərcüməçi həm də həmin söz və ifadələrin qrammatik, orfoqrafik, fonetik, qrafik, leksik-semantik əlamətlərinə diqqət yetirməli, mənbə dilin üslubi xüsusiyyətlərini də nəzərə almalıdır" (4, s. 114-120).
Tərcümə dəqiq və dolğun ifadəni sevir, bir dildən başqa dilə ötürülən fikri, ifadəni, sözü tərcümə edilən dilin bütün normalarına uyğunlaşdırmaq tərcümənin nə qədər çətin proses olduğunu göstərir.
Bu qəbildən yanaşsaq, son illər mətbuat dilində yer alan çoxsaylı yeni termin-söz və ifadələrin mənimsənməsi və alınması prosesində, onlarm yeni məna çalarlarının meydana çıxmasında tərcümənin birbaşa rolu var və məhz buna görə də tədqiqat işində tərcüməyə üstünlük verilmişdir. Dilçi alimlərdən bir qrupu bu fikirdədir ki, qəzetlərin dilində rast gəlinən əcnəbi termin-sözlərin tərcüməsi zamanı məzmunun müəyyən mənada saxlanması vacibdir. S.Barxudarova görə, ümumiyyətlə, «tərcümə təkcə orijinalda verilən mətnin üzünün köçürülməsi demək deyil, o, həm də orijinalm necə ötürülməsi deməkdir»).
Yazılı tərcümədə mətnin məzmunu daha çox informasiyalı olur. Mətndaxili termin-sözlərin tərcüməsi prosesində biz iki mərhələ müəyyən edirik:
- Yeni termin-sözün mətn daxilində mənasının izahı;
- Mənanın tərcümə vasitəsilə ötürülməsi
Fikrimizcə, ikinci mərhələ sırf texniki məsələdir, bu məsələni tərcüməyə müvafiq gələn metodlarla həll etmək olar. «Mətn» anlayışı dedikdə biz nəyi nəzərdə tuturuq? Şərti olaraq mənbə dildəki mətndə verilən termin-söz və ifadələri daha yaxşı anlamaq üçün mətni iki növə bölürük:
- Dar çərçivəli mətn-mikromətn.
- Geniş həcmli mətn-makromətn.
İngilis mənşəli yeni termin-söz və ifadələr neologizmlərdən (burada yeni anlayış nəzərdə tutulur) fərqli olaraq bir qayda olaraq mənbə dildəki mövcud söz və morfemlərin bazasında yaranır. Bu söz və morfemlərin təhlili tərcüməçiyə termin-sözlərin mənasının izahında ciddi kömək göstərə bilər. Bunun üçün ingilis dilinin sözdüzəltmə xüsusiyyətlərini bilmək vacibdir. Biz bu barədə alınmaların mənimsənmə səviyyələri bölməsində ətrafllı danışmışıq. Lakin bu məsələ ilə bağlı təkcə bunu əlavə etmək istərdik: ingilis dilinin sözdüzəltmə xüsusiyyətlərindən biri də dildə mövcud olan yeni alınma termin-sözə əlavə məna verilməsidir.

Nəticə. Beləliklə, ingilis dilinin köməkçi dil vasitələri ilə "albalı və gilas" arasında olan fərqi,yaxud "göy rəng və mavi rəng" arasında dəqiqləşdirmək olar. Ancaq belə bir diferensiasiya növünə ehtiyac olmayan halda ingilis dili oxucunun sərəncamına semantiki bölünməyən "cherry, blue" verir. Belə ki, azərbaycan dilindən ingilis dilinə "əl" tərcümə olunan zaman hər dəfə "arm" and "hand" arasında seçim etmək lazımdır. Məs: O, əlində kitab tutmuşdur cümləsində "hand" sözünün istifadəsini tələb edir. Lakin "O, əlində (qucağında) uşaq tutmuşdur" cümləsi isə "arm" sözünün istifadəsini tələb edir. "O əlindən yaralanışdır" belə tərcümə oluna bilər – He was wounded in the arm.
Tərcümə üçün çoxmənalılıq kimi, belə hal o mənada, çətinlik törədir ki, semantik cəhətdən diferensial olmayan sözün verilməsi zamanı,mümkün olan uyğunluqlar arasında seçim aparmaq lazımdır.

Ədəbiyyat

1. A.F.Şiryayev: Введение в языкознание. Ленинград: Наука, 2009, с. 29
2. Nağısoylu M. Orta əsrlərdə Azərbaycan tərcümə sənəti. Bakı, 2000, s.14-28
3. Rəsulov Ə. Tərcümə nəzəriyyəsi müstəvisində İngilis və Azərbaycan dillərinin müqayisəli xüsusiyyətləri. Bakı, 2007, s. 66-72
4. Vəlixnov F. Azərbaycanda tərcüsmə tarixi. Bakı, 199, s. 114-120

Açar sözlər: İngilis dili, tərcümə, xalqlar və dövlətlər, tərcümə fəaliyyəti, əks-tərcümə
Key words: English, translation, peoples, states, activities of the translation, contrary translation
Ключевые слова: английский язык, перевод, народы и государства, переводческая деятельность, обратный перевод

THE ROLE AND IMPORTANCE OF THE ART OF TRANSLATION IN THE RELATIONSHIP OF MULTICULTURALISM IN THE MODERN AGE

Summary

Translation has always played an important role in the historical development of peoples and countries, in the progress of cultures and languages. Translation services are still used in our century, and today translation has become almost as important as one of the means of communication that brings people, their cultures, economic and social lives together. Translation also serves as a means of international cooperation between countries and states.
The article analyses the morphological transformation in the process of translation from English to Azerbaijani,also analyses transformation of article and parts of speech,also investigates the cathegory of cantity in the English and Azerbaijan language.

РОЛЬ И ЗНАЧЕНИЕ ИСКУССТВА ПЕРЕВОДА В ОТНОШЕНИИ МУЛЬТИКУЛЬТУРНОСТИ В СОВРЕМЕННОЕ ВРЕМЯ

Резюме

Перевод всегда играл важную роль в историческом развитии народов и стран, в прогрессе культур и языков. Переводческие услуги все еще используются в нашем веке, и сегодня перевод стал почти таким же важным, как одно из средств коммуникации, которое объединяет людей, их культуры, экономическую и социальную жизнь.
Перевод также служит средством международного сотрудничества между странами и государствами.
В статье анализируется морфологическая трансформация в процессе перевода с английского на азербайджанский язык, также анализируется трансформация артикля и частей речи.

RƏYÇİ: filologiya elmləri doktoru, dosent Yusif Süleymanov

Aysu Məhəmmədəli qızı Hüseynli29, Rəfiq Cəfər oğlu Cəfərov30

ÜMUMDİLÇİLİK SİSTEMİNDƏ DİALEKTİZMLƏRİN DİLİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU HAQQINDA

(İngilis və Azərbaycan dilləri materialları əsasında)

Giriş. Dil ona olan tələbatı yerinə yetirmək və insanlar arasında ünsiyyət vasitəsi olmasını qoruyub saxlamaq üçün öz daxilində daim yenilənmələrlə müşahidə olunur. Ədəbi dilin formalaşmasında bir sıra faktorlar əhəmiyyət daşıyır ki, bunlardan da birinci olaraq dialekt faktorunu qeyd etmək olar. Ədəbi dil daim dialektlərlə üzvi şəkildə əlaqəli olur. Dialektlər adəbi dilin zənginləşməsinda mühüm əhəmiyyət daşıyır. Belə ki, ədəbi dil inkişaf etdikcə ona lazım olan sözləri əldə etmək üçün daim dialektlərdən faydalanır və özünü zənginləşdirir. Ədəbi dili dialektsiz təsəvvür etmək qeyri-mümkündür. Dil, tarixi hadisə olduğu üçün onun daxilində dəyişikliklər baş veir. Dəyişiklik dedikdə bunun dilin tam olaraq yeni formaya keçməsi kimi başa düşülməsi düz olmaz. Zamanla dildə olan bir norma öz yerini digər bir normaya verir. Bu proses zamanı dialekt faktoru xüsusi rol oynayır. Hər bir ədəbi dilin əsas qida mənbəyi dialektlərdir. Ədəbi dildə norma anlayışı seçmə əməliyyatının aparılması üçün dildə olan variantların olması ilə əlaqəlidir. Əgər variantlar mövcud deyilsə, o zaman hər hansı bir normadan söhbət açmağa ehtiyac qalmır. Norma problemi o halda meydana gəlir ki, dil sistemində eyni hadisənin istifadəçisi olan variantlar mövcud olsun. Dildə bu variantlılığın əsas mənbəyi kimi dialektlər çıxış edir.

Əsas hissə: İngilis dili, demək olar ki, bütün ölkələrdə tədris olunur. Onun beynəlxalq səviyyədə işlədilməsi bir dil kimi ən çox tələb olunan tədris fəninə çevirmişdir. Əlbətdə, ingilis dili dünyaya yayıldıqca həm leksik tərkibi artır həmdə dialektlərə bölünür. Bu gün sizlərə İngilis dilində olan bütün dialektlərin siyahısını təqdim edirik.

Bildiyiniz kimi, ingilis dilinin çoxlu dialektləri mövcuddur. Bunun səbəbi olaraq Britaniya imperiyasının öz ərazisinin genişləndirilməsi və ABŞ dövlətinin dünyada olan nüfuzu göstərilə bilər.

Dünyada ingilis dilinin ən geniş yayılmış dialekti – britan dialekti, ikinci yerdə isə — amerikan dialektidir.

Dünya əhalisinin İngilis dilini doğma dil kimi danışan 70%-i ABŞ-da yaşadığı üçün, tədricən məhs bu dialekt (amerikan) dünyaya yayılaraq öz dominantlığını alır və əksər tədris ocağlarında tədris olunur.

İngiltərə dialekti:

Kokni (Cockney) — Londonda istifadə olunan və qədim olan dialektdir. Skauz — Liverpul əhalisinin dialekti;Cordi — Nortumberlənd əhalisinin dialekti; Şərqi İngiltərə Birminqhəm (Brummy, Brummie); Kornval (Cornwall); Kamberlənd (Cumberland)

Mərkəzi Kamberlənd (Central Cumberland)Devonşir (Devonshire)Şərqi Devonşir (East Devonshire) Dorset (Dorset)

Təmiz Yorkşir (Craven Yorkshire); Şimali Yorkşir (North Yorkshire)

Şeffild (Sheffield Yorkshire): Qərbi Yorkşir (West Yorkshire)

Şotlandiya, Uels və İrlandiya dialektləri

Şotlandiya Düzü (Lowland Scottish) — bu dialekt hətda ayrıca dil kimi də götürülür.

Edinburq (Edinburgh) — Şotlandiya Düzü (Lowland Scottish) dialektinin bir növüdür.

Amerika ingiliscəsi; Afro-amerika ingiliscəsi; Çikano; Standart Amerika dialekti

Şimalşərq dialektləri (Northeastern dialects); Boston dialekti; Vermont dialekti

Dialektlərdən danışarkən onların normasız mövcud olmasını demək yalnış olar. Dialektlərin də özünəməxsus normaları vardır. Ünsiyyətin anlaşıqli olması üçün ədəbi dildə olduğu kimi, dialektlərdə də normalar vardır. Demək olmaz ki, dialekt üçün norma xarakterik deyil. Normal, maneəsiz anlaşılan ünsiyyətin mümkünlüyü üçün dialektlərdə də norma mövcüddur, lakin ədəbi dil normasından fərqli olarq, bunlar ənənə ilə qorunur, şüurlu surətdə seçilmir və yazıya alınmır. Ədəbi dili dialektdən fərqləndirən cəhətlərdən biri də, onun normalarının şüurlu olaraq seçilməsidir. Yazı meydana gəldikdən sonra ədəbi dilin normaları sabitləşməyə başlamış və yazı vasitasilə qörünüb saxlanılmışdır. Belə demək olar ki, yazının meydana gəlməsinden sonra dialektlərlə ədəbi dil arasında olan nisbi sərhəd getdikcə möhkəmlənməyə başlamışdır.

M.Cəfərzadə "Azərbaycan dilinin dialekt sintaksisi" əsərində yazır: "Ədəbi dilin formalaşmasında müəyyən bir dialekt əsas baza kimi çixiş edir. Lakin bu o anlama gəlmir ki, həmin dialektlə ədəbi dil tam olaraq eyni mazmun daşıyır. Bu haqda danışarkan M.Cəfərzadə bunu aşağıdakı kimi geyd etmişdir: "Bu linqvistik yox, ictimai-siyasi xarakterli şəraitdən aslidir, yəni ədəbi dilin yarandığı anda xalqın mədəni və ictimai-siyasi həyatında aparıcı rolu hansı dialektin nümayəndələrinin oynamasından asılıdır.Ədəbi dil normaları xalqın ümumi istifadəsi üçün tam anlaşıqli bir formada yaradılır. Əgər burada hansısa bir dialektin üstünlüynə yol verilərsə, digər qrup insanlar bu dialekt faktlarını anlaması üçün çətinliklər yaranacaqdır. Ədəbi dilin formalaşmasında mərkəz dialekt faktorunun asas rola malik olması fikrini M.Cəfərzadə sonra qeyd edir: "Ədəbi dilin əsasında durmaq ruhunda mübarizədə mədəni-iqtisadi baxımdan yüksək olan rayonun dialekti qalib gəlir" (1, s .47). Fərqli dövrlərdə ədəbi dilin əsasını başqa-başqa dialektlər təşkil edə bilər. Lakin taixi şəraitin dəyişməsi ilə bagli olaraq ədəbi dilin əsasını təşkil edən mərkəzi dialekt də dəyişir. Azərbaycan ədəbi dilinin formalamasında da bu fikirlər mövcuddur. "Azərbaycan ədəbi dili XIII-XIV əsrlərdə Şirvan dialektinə, XV-XVII əsrlərdə Təbriz dialektinə, XVIII əsrdə Qarabag dialektinə, XIX-XX əsrlərdə isə bütün dil nümayəndələrinin daxil olduğu Bakı şəhəri əhalisinin danisigina istinad etmişdir. Bu

29 Azərbaycan Dillər Universiteti. Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsi nəzdində."Xarici dillər" kafedrasının müəllimi. aysuhüseynli@mail.ru

30 Azərbaycan Texniki Universiteti."Humanitar fənnlər"kafedrası. Filologiya üzrə fəlsəfə doktoru, dosent ceferovrefig@com.ru

heç də Azərbaycan ədəbi dilinin müəyyən zaman çərçivəsində tam olaraq yalnız bir dialektin əsasında faliyyət göstərməsi və normaların hmin dialekt əsasında mövcud olması demak deyildir. Ədəbi dil öz normalarini yazıda möhkəmləndirir və qoruyur. Əgər ədəbi dil yazıda öz əksini tapmazsa, dildaxili və dilxarici təsirlərin davamlı təsirinə məruz qalaraq tez-tez dəyişikliklərə məruz qalacaq va ünsiyyət üçün çətinliklər yaratmış olacaqdır. "Ədəbi dildə sabitliyin təmin olunması normativ xüsusiyyətlərin yazıya alnması ilə mümkündür. Belə ki, ədəbi dil normasi nə qədər sabit olsa da, tarixi kateqoriya olduğu üçün dəyişir ədəbi dildə normanın möhkəmlənməsi və hamı üçün vacibliyi prinsipinin təmin edilməsində yazınun rolu əvəzsizdir. " Bu nümunələrin yazıya köçməsi də ədəbi dilin qərb dialekti əsasında inkişafina təkan vermişdir. Normalar öz əksini yazıda tapdıqca daha da möhkəmlənmayə başlamışdır. Məsələn:

Dost dostun yolunda düşər ziyana, İgid gərək tab gətirə dayana. M. P. Vaqif

Qatar-gatar olub qalxıb havaya, Nə çıxıbsız asimana, durnalar! M. V. Vidadi

Azərbaycan ədəbi dilinin dialekt əsasında formalaşma fikrini əsaslanaraq demak olar ki, müasir Azərbaycan ədəbi dilinin formalaşmasında Bakı-Şamaxı dialekti mərkəz mövqeyində durmuşdur. XIX cü əsrdə paytaxtın Şamaxı şəhəri olması və Şamaxı zəlzələsindən sonra paytaxtın Baki şəhərinə köçməsi bu işdə iqtisadi mərkəz kimi Bakı şəhərinin rolunu artırmışdır. Buna görə də, bütün dialektlərə mənsub insanlarn bura axin ilə Bakı şəhəri dialektlərin cəmləsməsi mərkəzinə çevrilmişdir.

Ə.Dəmirçizadə "Azərbaycan dili orfoepiyasının əsasları" kitabında yazır: "Bununla yanaşı Bakı ictimai-siyasi mərkəzə çevrilərək ədəbi dilin yeni mərhələsinin formalaşması üçün şərait yaratmışdır. Bu dövrdə mətbuatın inkişafi ədəbi dilin normalarının sabitləşməsinə kömək etmişdir. Mətbuatın yaranması ilə dialektlərdən gələn norma variantları üzərində seçmə əməliyyatı genişlənmiş və münasib variant yazıya gətirlərək daha da möhkmlənmişdir.Ədəbi dilimizin Bakı dialekti əsasında formalaşmasına müxtəlif yanaşmalar vardır. Ə.Dəmirçizadə bu haqda yazarkən fikrini belə qeyd etmişdir: "Milli ədəbi dilimiz Şamaxı-Baki dialekti əsasında formalaşıb..., Şamaxı-Bakı dilaekti ətrafinda təmərküzləşərək hər bir dialekt bu prosesə müəyyən pay verib və inkişaf edən milli dili zənginləşdirib.Lakin bu fikri tam olaraq dəstəkləməyən alimlər də olmuşdur. Onalnn fikrincə ədəbi dilimiz Baki dialekti əsasında formalaşmamışdır. Həmin dövrdə Bakıda mərkəzləşmə olduğundan bura toplaşan əhali öz dialektlərini buraya gətirmiş və burada bütün dialektlər üzərində seçmə əməliyyatı apardiqdan sonra norma səviyyəsinə salınmışdır" (2, s. 35).

Azərbaycan dialektləri qərb, şərq, şimal va cənub qrupu olmaqla dörd yerə ayrılır. Quba, Şamaxı, Bakı, Muğan və Lənkəran dialektləri; şarq qrupuna Qazax, Qarabağ, Gəncə dialektləri qarb qrupuna; Şəki və Zaqatala-Qax dialektləri- şimal qrupuna; Naxçıvan, Ordubad, İrəvan dialektləri isə qərb qrupuna daxildir. Hər bir qrupun özünəməxsüs fonetik, leksik, qrammatik xüsusiyyətləri vardır və onların formalaşmasında mühüm ahəmiyyət daşıyırlar. Har bir qrupun özünəməxsus xüsusiyyatləri ədəbi dilin normlarının formalaşmasına xidmət edir. Onlar hamisi ədəbi dilin zənginləşməsinə eyni işi görmüş olurlar

E.Əzizov "Azərbaycan dilinin tarixi dialektologiyası" kitabında qeyd edir: "Ədəbi dilin zənginləşməsində onun leksik tərkibidə mühüm əhəmiyyətli dəyişiliklər, yeniliklər özünü dilin lüğət tərkibində göstəətrir. Dilin lügət tərkibi çox dəyişikliyə məruz qalır. Cəmiyyətin inkişafi ilə əlaqədar olaraq dilin lügət tərkibi də əsaslı dəyişikliyə məruz qalır. Dilin lüğat tərkibi onun fonetik va qrammatik normalarına nisbətən onun tərkibina daxil olan sözlərin bura qəbulunu heç də kor-korana deyil, onun leksemləri müəyyən normalarla tənzimlənir. Bu proses zamanı dilin qrammatik, fonetik normaları olduğu kimi ədəbi dilə qəbul olunan sözləri dilin dxili qanunları ilə uyğunlaşdıraraq işlədirlər və onlardan dil üçün faydalı olanlarınını dilə qəbul edirlər və onlar norma hüququ qazanmış olurlar. Bu zaman dila lazım olmayanları seçmə əməliyyatından sonra dildən kanarda saxlayırlar" (3, s. 178). Dilin lüğət tərkibinin zənginləşməsi iki yolla; a)dilin daxili imkanları hesabına, və b) alınmalar hesabına zənginləşdirlər. Ədəbi dilin dildaxili imkanlar hesbina zənginləşımə yollarından biri də onun dialektlərin ədəbi dillə əlaqəli olması ilə bağlıdır

M.İslamov "Azərbaycan dilinin Nuxa dialekti" əsərində qeyd edir ki, "Dialektlərdən ədəbi dilə gələn sözlərin böyük bir qismi alınma terminlər vasitəsilə gələn sözlər olsa da, əsasən dialektlər vasitəsilə elmi dilə daxil olmuşdur. Bu prosesdə Həsən bəy Zərdabinin faliyyətini xüsusi qeyd etmək lazımdır. Onun təsis etdiyi "Əkinçi" qəzetinin səhifələrində çoxlu sayda terminlər dialektlərdən ədəbi dilə gəlmişdir: Məs: yatalaq, yağışölçən, tullama, soyuq yer və s. (4, s. 164). Məlumdur ki, dildə işlənən ədatlar nitq zamanı ayrı-ayrı sözlərin və ya bütöv cümlənin təsir gücünü artırmaq məqsədilə işlədilir. Əgər nitqimizdən ədatları çıxarsaq, cümlənin məzmunu qalar, amma məna zəifləyər, canlılıq, obrazlılıq itər. Məs.: "Artıq iş-güc vaxtıdır", "Mən də elə sən deyəni deyirəm", "Mən ki gözəl deyildim", "Gəlsənə bizə gedək" cümlələrindən artıq, elə, ki, "gəl" sözünə bitişik "sənə" ədatlarını işlətməsək, "İş-güc vaxtıdır", "Mən də sən deyəni deyirəm", "Mən gözəl deyildim", "Gəl bizə gedək" cümlələri elə əvvəlki məzmunda qalmış olacaq. Lakin ədatların cümlədə işlənməsi nitqin daha da səlistləşməsinə, fikrin daha dəqiq ifadə olunmasına, dinləyiciyə daha tez, ekspressivlik cəhətdən effektli çatmasına kömək edir

Termin yaradıcılığında dilaektlərin əhəmiyyətindən danışarkən Ə.Ə.Orucov belə qeyd edir: "Termin yaradıcılığında dilekt leksikasını ifadə edərkən üstünlüyü nəzərdə tutulmuş təsərrüfat sahəsi cəhətdən səciyyəvi olan rayonun dialektinə vermək lazımdır" (5, s. 13).

Nəticə. Səməd Mənsurun bir beytinə şeirlərində bizim dövrümüzdə yaşamış şairin işlətdiyi zövqi-səfa, darifəna, misrəi-naz, rəhmətini ziyadə eylə, qəbr içrə, lütflə fəraz et kimi söz və söz birləşmələri müasir gənclərə heç də tam aydın deyildir. XX əsrdə qəzəl janrında özünə böyük nüfuz qazandıran Ə.Vahidin şeirləri, demək olar ki, onunla bir dövrdə yaşamış S.Mənsurun bir misrası ilə daha çox diqqəti cəlb edir. "Naz et mənə, ey sevgili canan, mənə naz et" misrası həm anlaşıqlığına görə, həm də ağıla və qulağa xoş təsir göstərən parlaq, bəlkə də müdrik fikir kimi şeiri əsl sənət nümunəsinə çevirmişdir.

Elm, təhsil ağlı, istedadı, müdrikliyi cilalayıb ona fikri dərinlik versə də, oxucuları, dinləyiciləri cəlb etmək məqamında gözlənilməz ifadə tərzi, söz oyunu, epitetlər insana böyük zövq verir.
Dialektlərlə ədəbi dil sintaktik quruluş cəhatdan bir-birinə yaxın olduğundan burada variantlar az sayda mövcuddur, dildə seçmə əməliyyatına və normaların dəyişməsinə səbəb olur. Azərbaycan dili dialektlərində sintaktik cəhətdən böyük bir fərq mövcud deyildir. Lakin bununla yanaşı, müəyyən sintaktik fərqlilik özünü göstərməkdədir. Bu cəhətdən dialektlərdə olan təyini söz birləşmələrində ədəbi dillə müqayisədə müəyyən fərqlər özünü göstərir.
ƏDƏBİYYAT:
1. Cəfərzadə M. Azərbaycan dilinin dialekt sintaksisi. Bakı, nəşr. səh 47
2. Dəmirçizadə Ə. Azərb. dili orfoepiyasının əsasları. Bakı: Maarif, 1969, səh. 35
3. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyasi. Dialekt sisteminin təşəkkülü və inkişafi. Bakı: BDU, s. 178.
4. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: AM EA, 1968, s. 164
5. Orucov Ə.Ə. Termin yaradıcılığında dialekt leksikası. Bakı, Maarif, s. 13

Açar sözlər: ədəbi dil, norma, dialekt, fonetik norma, leksik norma, sintaktik norma
Ключевые слова: Литературный язык, нормы, диалект, фонетическая норма, лексическая норма, синтаксическая норма
Key words: Literary norms, norms, phonetic norm, lexic norm, syntactic norms

О роли диалектики в общеязыковой системе в обогащении языкового состава

Резюме

В статье рассказывается об описании литературного языка и фактора диалекта в формировании литературного языка. Такжезатронута тема, как проведен процесс выбора между диалектами и литературным языком.
В статье помимо вышеуказанного ещё рассмотрено историческая путь Азербайджанская диалектологию. Без исключение точный, западный, южный или северный диалекты имеет важную значение для нормативы литературного языка. Диалекты постоянно играют важную роль в развитии литературного языка.

On the role of dıalectıcs ın the general language system ın enrıchıng the language composıtıon

Summary

The influence of a dialect factorin the formation of literary language. disputed in the article. Also how the choise process among dialects aliteracy language must be carried is considered.
Beside phonetic, lexic departments of dialects, the syntactic one is also touched. In the formation of the literar. Language, talked about the four dialect of our language and their particularities In addition to these, the historical way of Azerbaijan dialectology has been examined.

Rəyçi: Filologiya elmləri doktoru, dosent Yusif Süleymanov

Nuriyyə Əsgər qızı Rzayeva31

MÜASİR İNGİLİS DİLİNDƏ FEİLİN INFINITIVE FORMASI VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI

Giriş. İngilis dilində feili birləşmələrin növləri geniş və rəngarəngdir. Əsas hissəsi feil olan bu birləşmələrin quruluşu müəyyən dərəcədə feilin xüsusiyyətlərindən onun təsirli ya təsirsiz olmasından asılıdır.

İngilis dilində feili birləşmələrin əsas iki növü var:

1) ikinci elementi feil olan (feilin şəxsiz formaları - məsdər, cerund, feili sifət);

2) ikinci tərəfi fel olmayan feli birləşmələr. Birinci növ feli birləşmələr ikinci növ feili birləşmələrə nisbətən daha çox işlənir. Onlardan biri məsdər tərkibləridir. Məsdərdən əvvəl işlənərək, məsdərlə sintaktik əlaqəyə girən sözlər məsdər tərkibləri adlanır və onlar sadə cümlənin tərkib hissəsi olaraq, onun mürəkkəb bir üzvü vəzifəsində işlənir.

Rodinov A.F. "Variants in current English Grammar" kitabında yazır: "Məsdər tərkibləri mənalarına görə budaq cümlələrə çox yaxındır və bu yaxınlığın nəticəsidir ki, məsdər tərkibləri çox vaxt Azərbaycan dilində budaq cümlə kimi izah edilmişdir.Lakin budaq cümlənin və tərkiblərin tədqiqi göstərdi ki, budaq cümlə ilə tərkib iki ayrı-ayrı sintaktik kateqoriyadır. Bunlar olsa olsa bəzi hallarda bir-birinin sintaktik sinonimi hesab edilə bilər. Yəni eyni bir fikiri müxtəlif sintaktik formalarla - ya içərisində tərkib olan sadə cümlə ilə, ya da tərkibində budaq cümlə olan mürəkkəb cümlə ilə ifadə etmək olar. Məsələn: I saw Helen say something to her sister cümləsini I saw that Helen said something to her sister şəklində vermək olar. Hər iki halda cümlənin mənası dəyişmir. Yəni Mən Helenin bacısına nəsə dediyini eşitdim. Mən eşitdim ki, Helen bacısına nəsə dedi. Məsdər tərkibləri iki sözdən ibarət olub, cümləyə bir sintaktik vahid kimi daxil olan xüsusi birləşmələrdir (1, p. 41-48).

Əsas hissə. Birləşmənin birinci tərəfi şəxs və ya əşya bildirir, ikinci tərəfi isə həmin şəxs və əşya haqqında məlumat verir. Belə birləşmələr ona görə xüsusi birləşmələr adlanır ki, məsdərlə başqa sözlərin əlaqələnməsindən əmələ gələn bir çox birləşmələr də var, lakin bu birləşmələrdə məsdərin subyekti olmur. Özünün ayrıca subyekti olan birləşmələr məsdər tərkibləri özünün ayrıca subyekti olmayan başqa sözlərə məsdərin əlaqəsindən əmələ gələn birləşmələr isə məsdər birləşmələri adlanır.

1) Mothers never allow their children to play with matches

Müasir ingilis dilində işlədilən tamamlıq-məsdər tərkibi Azərbaycan dilinə ya (1) feili isim və ya məsdər tərkibi, ya da (2) tamamlıq budaq cümləsi vasitəsilə tərcümə olunur. Məsələn: I saw the boy play in the yard - (1) Mən oğlanın həyətdə oynamasını (oynamağını) gördüm. (2) Mən gördüm ki, oğlan həyətdə oynayır.

Mübtəda-məsdər tərkibi (The Subjective Infinitive Construction)

Müasir ingilis dilində bəzən cümlə ümumi halda olan isim (yaxud adlıq halda olan əvəzlik) məsdərlə sıx sintaktik əlaqəyə girərək tərkib yaradır.

Məsələn; The girl (she) was seen to study.Bu tərkib cümlədə sintaktik vahid kimi çıxış edir və mürəkkəb mübtəda funksiyası daşıyır.

Mübtəda məsdər tərkibi dildə mövcud olan bir qrup feillərlə həmişə məhcul növdə işlənir. Bunlar aşağıdakılardır:1) hissi qavrayışı ifadə edən to see, to hear, to feel və s. They were seen to descend the hilli; 2) əqli fəaliyyət ifadə edən to know, to think, to consider, to suppose, to believe və s. He was known to be a well-known writer 1) to say, to report fellər ilə, məsələn: The tourists are said to arrive at down

2)to be likely, to be certain, to be sure fellər ilə məsələn He is sure to return soon

They are likely to marry; Alice Machein. "Reference Guide to English." məqaləsində yazır: "Müasir ingilis dilində işlənən mübtəda - məsdər tərkibi Azərbaycan dilinə adətən (1) təsirlik halında isim (yaxud əvəzlik) və feli sifət, yaxud (2) yiyəlik halında isim (yaxud əvəzlik) və təsirlik halında olan feili sifət vasitəsilə tərcümə edilir. Bu halda cümlənin mübtədası qeyri-müəyyən şəxsli olur (2, p. 66-72). Məsələn: The children (they) were seen to play in the garden

Uşaqları (onları) bağda oynayan gördülər. Uşaqların (onları) bağda oynadığını gördülər. For sözönlü məsdər tərkibləri (The For-to-Infinitive Construction);Bu tərkib ümumi halda olan isim (yaxud obyekt halda olan şəxs əvəzliyi) və məsdərdən ibarət olur. Bu tərkibi səciyyələndirən əsas xüsusiyyət ondan ibarətdir ki, onun qarşısında həmişə "for" sözönü işlədilir. Buna görə də ona sözönlü məsdər tərkibləri deyilir.

Məsələn: It is necessary for Jane(her) to learn the English languages properly. Bu tərkib cümlədə bir sintaktik vahid kimi çıxış edir və aşağıda sintaktik funksiyalarda işlənir. Mürəkkəb mübtəda məsələn: For you to work as an interpreter is necessary It is necessary for you to work as an interpreter

1) mürəkkəb predikativ, məsələn: The best thing will be for you to find a job

2) mürəkkəb tamamlıq, məsələn: Everybody waited for the head of the family to speak first

3) mürəkkəb təyin funksiyasında, məsələn: This is a book for you to read and to remember 5) mürəkkəb zərflik, məsələn: I stepped aside for him to pass

For sözönlü məsdər tərkibi Azərbaycan dilinə ya (1) sözbirləşməsi, ya da (2) budaq cümlə vasitəsilə tərcümə edilir. Məsələn: For you to go into details is not necessary; Sizin məsələnin təfərrüatına getməyiniz vacib deyil (Vacib deyil ki, siz məsələnin təfarrüatma gedəsiniz)

---

31 Filologiya üzrə fəlsəfə doktoru. Azərbaycan Texniki Universiteti. "Xarici dillər"kafedrasının dosenti.nuriyarzaeva@com.ru

Mütəxəssislər qeyd edirlər ki, xəbər həm birinci, həmdə ikinci(dübarə) ola bilər. Birinci xəbər mübtəda kimi verilmiş əşyanı xarakterizə edir, ikinci xəbər isə mübtəda kimi verilmiş əşyanı bilavasitə deyil, yəni başqa şəxslərin fikiri ilə, qavrayışları ilə xarakterizə edir.
Məsələn: 1) He knows it - birinci dərəcəli xəbər O bunu bilir
2) He is said to know it (ikinci xəbər) Deyirlər ki, o, bunu bilir.
Daha sonra dilçi alimlər qeyd edirlər ki, (ikinci) dübarə xəbər daha cox sözbirləşməsi ilə ifadə olunur. Bu sözbirləşməsinin birinci elementi xəbər formasında olan (predikativ formada) feil məchul növdə hər hansı bir şəxsin fikrini, təsəvvürünü, təsirini bildirir. İkinci element isə məsdər və ya feili sifət, bəzəndə başqa nitq hissəsi xəbərin əsas məzmununu ifadə edir. Müasir ingilis dilində komponentləri mübtəda ilə xəbərin daxili əlaqəsi kimi başa düşülən məsdər tərkibləri aşağıdakılardır:
1) Tamamlıq. Tamamlıq-məsdər tərkibi (The objective-with-the-Infinitive Construction);
2) mübtəda-məsdər tərkibi (The objective-with-the-Infinitive Construction Subjective Infinitive Construction);
3) for sözönlü məsdər tərkibi (The For-to-Infinitive Construction);
Bu tərkiblərin hər üçüdə hərəkət və onun subyekti haqqında məlumat olur. Baxmayaraq ki, tərkiblərin tərəfləri arasındakı əlaqə mübtəda və xəbər əlaqəsinə oxşayır, lakin bu tərkibdə nə mübtəda, nə də xəbər vardır, çünki ikinci tərəfi feilin şəxsiz forması ilə ifadə olunmuşdur ki, o da ancaq ikinci xəbər vəzifəsində işlənir. Tərkibin subyektini mübtəda kimi isim və ya əvəzliklə ifadə olunmasına baxmayaraq, o cümlənin mübtədası ilə eynilik təşkil etmir.
Məsələn, I want you to answer this question cümləsi ilə I want to answer this question cümləsini müqayisə etsək, görmək olar ki, birinci cümlədə feilin şəxsli formasi ilə ifadə olunmuş xəbərin mübtədasi "I" "to answer" məsdərinin subyekti isə "you" əvəzliyidir. İkinci cümlədə isə "I" əvəzliyi həm felin şəxsli formasi olan "want" feilinə, həm də "to answer" məsdərinə aiddir. Ona görə də birinci cümlədə "to answer" məsdəri həmin quruluşun bir hissəsi olub "you" əvzliyi ilə birlikdə tərkib üzvü kimi çıxış edir. İkinci cümlədəki "to answer" məsdəri isə tərkib əmələ gətirmir. Bunu nöqteyi nəzərdən keçirdikdə, qeyd edirik ki, o, özünün ayrica subyekti olan məsdərin əmələ gətirdikləri xüsusi birləşmələr, yəni predikativ birləşmələr əsasən budaq cümlələrlə sinonim kimi işlədilir.
Məsələnin mahiyyətinə keçməzdən əvvəl biz "tərkib" və "məsdərtərkibi" terminlərini bir daha genişləndirmək istərdik. M.Adilov, Z.Verdiyeva, F.Ağayeva "İzahlı dilçilik terminləri" lüğətində həmin terminlərə belə tərif verirlər. "Tərkib dilin qrammatik qanunları əsasında nitqdə birləşmələr şəklində təzahür edən sintaktik vahiddir.
"Məsdər tərkibi" məsdərə aid olub, ondan əvvəl gələn sözlərə bu məsdərin birləşməsindən ibarət konstruksiyadır.
Müasir ingilis dilində aşagidaki məsdər tərkibləri var:
1. Tamamlıq-məsdər tərkibi (He objective with the Infinitive construction)
2. Mübtəda məsdər tərkibi (He subjectiv Infinitive construction)
3. For sözünün məsdər tərkibi (The For-to Infinitive construction)
II. Tamamlıq- məsdər tərkibi və onun Azərbaycan dilində qarşılığı
Obyekt hal və məsdər tərkibi yaxud "üç elementli quruluş kimi adlandırılan bu feili birləşmə əvvələr əbədi kitab dili üçün səciyyəvi sayılırdı.
Lakin sonralar məsdər və onunla olan birləşmələr üzərində aparılan bir çox tədqiqatlar göstərdi ki, bu birləşmələr təkcə ədəbi dildə deyil, danışıq dilində də çox geniş işlənməkdədir.
R.B.Xlebnikova özünün məsdər birləşmələrini əmələ gəlməsi və inkişafına həsr etdiyi tədqiqatında yazır: Belə hesab etməyə əsas vardır ki, akkuzativin məsdərlə sonrakı inkişafi onun ədəbi dil xüsusiyyətindən, danışıq dili xəttinə keçid istiqamətində olacaqdır.
B.H.Jiqaldo, İ.P.İvanova, L.L.İofiq "Современный Английский язык»" kitabında göstərirlər ki, mürəkkəb tamamlıq funksiyasında feilin şəxsiz formaları ilə olan tərkiblər çıxış edə bilər. Məsdər və feili sifət tərkibləri eyni feillərlə işlənə bilir. Lakin mürəkkəb tamamlıq funksiyasında məsdər tərkibləri daha çox işlənir (3, c. 123).
H.A.Kobrina məsdərlə işlənən bütün tərkiblərin hamısını"Predicative Construction with the Iufimitive" başlığı altında izah edir, tamamlıq funksiyasında işlənən bu tərkibə isə "Obyective with the Infinitive Constrution" deyir, mürəkkəb mübtəda funksiyasında çıxış edən məsdər tərkiblərindən danışılır.
M.Qanşina, P.Vasilivskaya tamamlıq məsdər tərkibini "Accusative with the Infinitive", "for" sözlü məsdər tərkibini isə "Construction with the subject of the Infinitive introduced by for phrases adlandırırlar.
Tamamlıq məsdər tərkibindən danışarkən onlar məsdəri ikinci dərəcəli predikat, ismi əvəzliyi isə ikinci dərəcəli subyekt adlandırırlar. Bizcə prof. O.Musayevin "İngilis dilinin qramatikası" kitabında işlədilmiş terminlər tamamlıq-məsdər tərkibi, mübtəda məsdər tərkibi və "for" sözönü məsdər tərkibləri həm sintaktik, həm də semantik baxımdan daha məqsədəuyğundur.
Müasir ingilis dilində bəzi təsirli feillərdən sonra ümumi halda olan isim (yaxud obyekt halda olan əvəzlik) və məsdərdən ibarət olan birləşmə işlədilir və bu növ birləşmələrə "tamamlıq məsdər tərkibi" (the objevtive with the Infinitive construction) deyilir. Məsələn:" I saw Jane (her) enter the room" (4, s. 134-138).
Məlumdur ki, Azərbaycan Respublikası dünya dövlətləri arasında iqtisadi, siyasi, elmi – mədəni əlaqələrini genişləndirir. Hər bir ashədə xüsusən ordu quruculuğumuzun inkişafında xarici dillərə, ələ xüsus, ingilis dilinə böyük ehtiyac duyulur. Xarici dillərin tədrisi vətənimiz üçün strateji əhəmiyyət kəsb edən dövlət məsələsidir. Azərbaycan dövləti müstəqil siyasəti yeridən beynəlxalq təşkilatlad təmsil olunur. Beynəlxalq səviyyədə siyasət yeritmək, ideoloji mübarizəyə hazır olmaq, respublikamız ətrafinda yaradıla bilən informasiya blokadasını aradan qaldırmaq baxımından xarici dilləri yüksək səviyyədə bilən

milli kadrlərın hazırlığı, vətən uğrunda döyüşlərdə silaha sarılmaq qədər vacibdir. Hər bir dildə, o cümlədən xarici dillərdə lazımi səviyyədə danışmaqdan ötrü dillərin müxtəlif aspektlərini mükəmməl bilmək lazımdır.
İngilis dili uzun illərdir ki, Azərbaycanın ali və orta məktəblərində tədris olunur. Bu dildə radio və televiziya verilişləri aparılmaqla yanaşı, müxtəlif səpgili monoqrafiyalar və vəasitlər çap olunur. Son zamanlar ingilis dilnə respublikamızda ehtiyac və maraq güclənmişdir. Bu da Azərbaycan respublikasının dövlət müstəqilliyi qazanması ilə əlaqədardır. Müstəqil dövlət kimi, onun qarşısında xarici dövlətlərlə beynəlxalq təşkilatlarla birbaşa ünsiyyətdə olmaq, onlarla müxtəlif xarakterli ticarət, iqtisadi və diplomatik əlaqə saxlamaq və xalq mənafeyinə uyğun işlər görmək vəzifələri durur. Belə bir dövrdə respublikamızda xarici dilləri, xüsusilə ingilis, rus, alman, fransız və s. dillərini mükəmməl bilən, ingilisdilli hər hansı bir ölkə və ya ölkə ölkə daxilindəki əyalətlərdə dilin işlənmə özünəməxsusluğumdan incəliklər ilə baş çıxarmağı bacaran mütəxəssislərə, diplomatlara və digər adamlarına, informasiya işçiləri və jurnalistlərə böyük ehtiyac duyulmaqdır. Bu baxımdan ingilis dili ölkəmizdə yalnız xarici dil kimi deyil, diplomatiya dili, siyasət dili, işgüzar əlaqədar dili kimi başa düşülür.
Bu tərkibdə işlədilən isim (yaxud əvəzlik ilə məsdər arasındakı münasibət cümələnin mübtədası ilə xəbəri arasındakı münasibəti xatırladır. Buna görə də həmin tərkibə isim, yaxud əvəzliyi ikinci dərəcəli mübtəda (a secondary subject) məsdər isə ikinci dərəcəli xəbər (a secundary preducate) adlandırmaq olar.
Nəticə. Beləliklə, qeyd etdiyimiz kimi, tamamlıq məsdər tərkibində mövcud olan iki komponent bir-biri ilə sıx əlaqəyə girir və sintaktik vahid tamamlıq olur.
Həmin tamamlıq tərkibdə ifadə edildiyinə görə onu mürəkkəb tamamlıq adlandırırlar. Dilçi alimlərin əksəriyyəti obyekt hal və məsdər tərkibinin hissi qavrayış, əqli fəaliyyət, arzu-niyyət, hiss-həyəcan, əmr və icazə, bəyan etmək, məlumat vermək, məcburiyyət mənası ifadə edən feillərlə işlənməsini qeyd edirlər.
Yuxarıda verilmiş cümlələrdəki məsdər birləşmələri Azerbaycan dilinə məsdər tərkibləri kimi tərcümə edilir. Lakin ingilis dilində bəzi feillər vardir ki, bu feillərdən sonra gələn obyekt ona aid olan hərəkəti ifadə edən məsdər işlənir və həmin obyekt (isim və ya əvəzlik ondan sonra gələn məsdərlə birlikdə xəbər vəzifəsini görən feilin şəxsiz formasıı ilə tamamliq vəzifəsini görür.
Ədəbiyyat
1. Rodinov.A.F. Variants in current English Grammar. Moscow 1981. p.41-48
2. Alice Machein. Reference Guide to English. Washington, 1996.p.66 -72
3. Jiqaldo B.H., İvanova İ.P., İofiq L.L. "Современный Английский язык". c. 123
4. Musayev O.İ. ingilis dilinin qrammatikası. Bakı, 1996, s. 134-138.

Açar sözlər: İngilis dili, feil, məsdər tərkibləri, Azərbaycan dili, cerund
Key words: English, verb, infinitive, Azerbaijani, cerund
Ключевые слова: английский язык, глагол, инфинитив, азербайджанский язык, cerund

INFINITIVE FORM OF THE VERB IN MODERN ENGLISH AND ITS METHODS OF EXPRESSION IN AZERBAIJANI LANGUAGE

Summary

In modern English, the infinitive is as follows:
1) The objective-with-the-Infinitive Construction;
2) The Subjective Infinitive Construction;
3) The For-to-Infinitive Construction;
A compound consisting of a noun in the general case (or a pronoun in the object case) and an infinitive is called a complete infinitive. The two components of this composition are closely related and act as a complex completene

ИНФИНИТИВНАЯ ФОРМА ГЛАГЛА В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ И СПОСОБЫ ЕЕ ВЫРАЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Резюме

В современном английском языке инфинитив выглядит следующим образом:
1) Объективная конструкция с инфинитивом;
2) Субъективная инфинитивная конструкция;
3) конструкция For-to-Infinitive;
Соединение, состоящее из существительного в общем падеже (или местоимения в объектном падеже) и инфинитива, называется полным инфинитивом. Два компонента этой композиции тесно связаны между собой и действуют как комплексный комплекс.

Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, b\m Mehdixanlı Kəmalə

Lalə Aslan qızı Hüseynova32

İNGİLİS DİLİNİN BÖYÜK BRİTANİYA VARİANTI İLƏ AMERİKA VARİANTI ARASINDA FƏRQLİ VƏ OXŞAR CƏHƏTLƏRİ

Giriş. Hazırda bildiyimiz kimi ingilis dili ən geniş yayılmış dillərdən biridir. İngilis dili Hind-Avropa dillərinin german dillərinə aiddir. Dildə qrammatik mənanın analitik yolla ifadə edilməsi üstünlük təşkil edir. İngilis dilinin əlifbası VII əsrə təsadüf edir və latın qrafikasına əsaslanır. Bu dildə ilk dəfə olaraq orta əsrlərin əvvələrində İngiltərədə danışmağa başlamışlar. İngilis dili leksik tərkibinə görə dünyada ən zəngin dildir. Dilin lüğət tərkibinin demək olar ki, çox hissəsini digər dünya dillərindən alınmış sözlər təşkil edir. Təxminən 370 milyondan çox insan ingilis dilindən ana dili kimi istifadə edir. Bu dil çin və ispan dillərindən sonra üçüncü yeri tutur. İngilis dili bir çox dünya dövlətlərində xarici dil kimi tədris olunmaqdadır. Belə geniş vüsət aldığına görə ingilis dili müasir eranın "dünya dili" ("world language", "lingua franca") hesab edilməkdədir. Nicholson, Margaret; (1957). "A Dictionary of American-English Usage Based on Fowler's Modern English Usage". Signet, by arrangement with Oxford University Press məcmuəsində deyilir: "Ingilis dilinin bir çox variantları mövcuddur. Bura Briyaniya variantını, Amerika variantını, Kanada variantı, Yeni Zelandiya variantı, Hind variantı, Avstraliya aborigen variantını və s. misal göstərmək olar. Bütün bu variantlar standart ingilis dilinə əsaslansalar da onlar arasında həm fonetik, həm qrammatik, həm də leksik fərqlər mövcuddur. Bu məqaləmizdə biz ingilis dilinin iki variantı – Britaniya varinatı ilə Amerika variantı arasındakı fərqlər haqqında söhbət açacağıq (1, s. 155-160).

Əsas hissə. İngilis dilinin bu iki variantı arasında fərqlilik özünü əsasən məgalənin əsas hissəsindəki kimi göstərir:

1. Sözlərin tələffüzü arasındakı fərqlilik – Bu fərqlilik əsasən sait və samit səslərin tələffüzü ilə bağlıdır. Birtaniya və Amerika variantlarında bəzi sözlərdə sait və samit səslər fərqli cür tələffüz edilir, bəzi sözlər intonasiya baxımından bir-birindən fərqlənir, bəzi sözlərdə isə vurğu fərqli-fərqli hecalara düşür. Məs.: schedule (cədvəl) sözü Britaniya variantında [Ş] səsi ilə başlayır, lakin Amerika variantında isə bu söz [sk] kimi tələffüz edilir; ensue (irəli gəlmək, nəticəsi olmaq) sözü Britaniya variantında [insju:], Amerika variantında isə [insu:] kimi tələffüz edilir; iron (dəmir, ütü, ütüləmək) sözü Britaniya variantında [aıən], Amerika variantında isə [aıərn], kimi oxunur; premier (baş nazir; ilk, əvvəl, birinci) sözü Britaniya variantında [premıə], Amerika variantında isə [prı:mıə] kimi tələffüz olunur. Toupee sözündə vurğu Briyaniya variantında birinci hecaya ['tu:peı], Amerika variantında isə ikinci hecaya [tu:'peı] düşür. İslam (islam) sözü Britaniya varinatında [ız'la:m], Amerika variantında isə ['isla:m] kimi tələffüz olunur. Bu zaman biz həm səslər arasındakı fərqi, həm də hecalardakı vurğu fərqini aydın görə bilirik. Fog (duman) sözünü tələffüz edərkən Britaniya variantında qısa [o] səsi, Amerika variantında isə uzun [o] səsi eşidilir. Toss (atmaq, tullamaq) sözünü tələffüz edərkən də eyni fərqlə rastlaşırıq, yəni Britaniya variantında bu söz [tos], Amerika variantında isə [to:s] kimi oxunur. Cafe (kafe) sözünü tələffüz edərkən Britaniya variantında vurğu birinci hecaya ['kəefeı], Amerika variantında isə vurğu ikinci hecaya [kəe'feı] düşür. Oxford Learner's Pocket Dictionary New Edition, Oxford University Press 1999 jurnalında qeyd olunur: "Amerika ingiliscəsi (American English) siyasi Amerika tarixinin ən mühüm tərkib hissəsidir. Belə ki, Amerika Birləşmiş Ştatlarında danışılan ingilis dilinin variant "Amerika ingilis dilisi" adlanır. "Variant və müxtəliflik" termini bir sıra səbəblərə görə daha münasib hesab olunur. ABŞ-da danışılan bu dilin etimoloji nöqteyi-nəzərdən regional variantlıq hesab olunmasına baxmayaraq, heç bir vəchlə dialect adlandırıla bilməz, çünki bu dil "Standard Amerika dili" adlandırılan ədəbi normalara uyğun formaya malikdir (2, s. 123-145).

Beləliklə, verilmiş tərifə müvafiq olaraq bildirmək olar ki, dialektlər, əsasən, ədəbiformaya malik deyil və Amerika ingilis dilinin (American English) ədəbi normalara uyğun formaya malik olduğu faktorunu nəzərə alaraq, əminlikləonundialect olmadığı fikrini təsdiq edə bilərik.

"Amerikanizm anlamı"- Amerika Birləşmiş Ştatlarında danışılan ingilis dilinə xas xüsusiyyətləri özündə cəmləşdirən söz və ya sabit söz birləşməsi kimi müəyyən oluna bilər. amerika xalqının ingilis dilinə olan ilk və ən böyük töhfəsi Şimali Amerika heyvanlarını və bitkilərini adlandırmaq ehtiyacında özünü biruzə Verdi. Müxtəlif illərdə -1608 və 1612-ci illərdə, ingilis dilindən alınmış "corn" (taxıl) və "catfish" (dəniz pişiyi) kimi yeni sözlər və 1609, 1613-cü illərdə alınmış "raccoon" (yenot) və "moose" (Amerika sığını) kimi digər sözlər Hindlilər tərəfindən danışılan dillərdən alınaraq, dilin lüğət tərkibinə keçmişdir. Belə ki, 3. Jespersen, Otto. Growth and Structure of the English Language. 10th ed. Oxford: Basil Blackwell, 1982.müəllif fikrini belə izah edir: "İngilis dilinin Amerika variant" Standart İngilis dilindən (Standart English) tələffüzdə, bir sıra cüzi qrammatik xüsusiyyətlərdə və ən başılcası lüğət tərkibində fərqlənir. Dilin tarixi araşdırılan zaman, diqqəti cəlb edən ən mühüm faktorlardan biri Amerika ingilis dilisinin (Amerikan English) meydana çıxmasının ilk kaloniyaların yarandığı dövrə, əsasən 17-ci əsrə təsadüf etməsidir (3, s. 44-54).

Kaloniyalar inkişaf etdikcə, ABŞ-da danışılan ingilis dilinin inkişafı prosesini daha da sürətləndirirdi. Bu təsir özünü bir sıra əlamətdar hadisələrdə biruzə Verdi. Belə ki, 1621-ci ildə "Şükranlıq bayramı" (Thanksgiving Day- ABŞ-da və həmçinin, Kanada da qeyd olunur), 1636-cı ildə "Dövlət məktəbinin açılışı" (Publich school), 1696-cı ildə "Məzun günü" (Alumnus) və 1676-cı ildə müstəmləkəçilərin ön sərhədi dəyişdirməsi (The Frontier) bu əlamətlər sırasında yerini almış ən bariz nümunələrdir. 18-ci əsr, əsasən, 1736-cı il "Milli Dirçəliş" (Awakening) və 1789-cu il "Mühacir Köçü" (İmmigrant Migration) kimi hadisələrlə səciyyələnir. 19-cu əsrdə isə, əsasən, 1838-ci ildə "yeni texnologiya üsulu" və 1883-cü ildə "İlk Göydələnlər" meydana çıxdı.

32 Azərbaycan Tibb Universiteti. "Xarici dillər"kafedrasının baş müəllimi. lalakuseynova@gmail.com

Greenough, James Bradstreet, and George Lyman Kittredge. Words and Their Ways in English Speech. Boston: Beacon Press, 1962. müəlliflər yazırlar: "Amerikalılar, əsasən, 1916-cı ildə "İnsan zəkasını qiymətləndirən intellekt testləri"ni (İQ) həyata keçirdilər və 1985-ci ildə raket təlimi üzrə seçilmiş alimlər (Rocket scientists) üçün yüksək təhsil imkanı yaratdılar.Belə ki, 20-ci əsr bir sıra xüsusiyyətlərlə səciyyələnir. 20-ci əsrin sonlarında – təxminən, 1980-ci ildə yeni sözlərin və məfhumların meydana çıxması ilə dilin lüğət tərkibi daha da zənginləşdi (4, s. 44).

"Etik İnvestisiya" və "Daxili bazar" kimi yeni anlayışlar ortaya çıxdı. "Ödəniş" sözü "plastik" sözü ilə əvəz olunmağa başladı. Məsələn, (kredit kartlar, bankamatik kartlar və s.). Bundan əlavə, kifayət qədər mühüm əhəmiyyət daşıyan fiqurlardan biri olan "Yuppie" termini də dilin lüğət fonduna daxil oldu. "Yuppie" -20-ci əsrdə gənc, çevik, yüksək gəlirli 25-30 yaşlı biznes nümayəndələrinə işarə edən mühüm bir model hesab olunurdu. Daha sonra, "mobil telefon" (mobile phone) və "laptop" (laptop or plamtop) kimi yeni sözləri misal gətirmək olar.

Wh+sait (o hərfindən başqa) birləşməsi [w] səsini verir, amma Amerika variantında isə bu birləşmə [hw] kimi tələffüz edilir. Məs.:

Britaniya variant		Amerika variantı
While	[waıl]	[hwaıl]
Whisper	['wıspə]	['hwıspə]
White	[waıt]	[hwaıt]

2. Söz ehtiyatı arasındakı fərqlilik-İngilis dilinin Britaniya varinatı ilə Amerika varinatı arasında olan fərqlərdən digəri hər iki variantın lüğət tərkibi arasında olan fərqlilikdir. Bu o deməkdir ki, eyni mənaya malik olan bir söz Britaniya varinatında bir cür, Amerika variantında isə tamam başqa bir versiyada öz əksini tapmışdır. Məs.:

3. Britaniya variant	Amerika variantı
Flat	apartment
Luggage	baggage
Corporation	Company
Autumn	fall
gas	gaz
Cross-roads	intersection
Ground floor	1st floor
Post	mail
Cinema	movie
Football	soccer
Time-table	schedule
Underground	subway
Pavement	sidewalk
Chemist's	drugstore
Store	shop

Sözlərin yazılışı arasındakı fərqlilik –İngilis dilinin Britaniya variantı ilə Amerika variantı arasında fərq sözlərin yazılışında özünü büruzə verir. Birtaniya ingiliscəsi digər dillərdən, məsələn, latın, yunan, fransız və s. dillərdən aldığı bütün sözləri olduğu kimi saxlayır. Lakin Amerikalılar isə alınma sözlərin hamısını öz dillərinin yazı və tələffüz qaydalarına əsasən dəyişməyə üstünlük verirlər. Ona görə də alınma sözlərin yazılışında bəzi fərqlər meydana çıxır. Ortaya çıxan fərqləri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Britaniya variantında –re sonluğu ilə bitən sözlər Amerika varinatında –er sonluğu ilə bitir. Məs.:

Britaniya variantı (-re)	Amerika variantı (er)
Centre	center
Theatre	theater
Litre	liter
Metre	meter
Kilometre	kilometer
Lustre	luster
Amphitheatre	amphitheater
Sombre	somber və s.

Yalnız fransız dilindən alınmış sözlər heç bir dəyişikliyə uğramır və hər iki variantda eyni yazılış formasında malikdirlər. Məs.: acre, massacre, mediocre, ogre, genre, cadre və s.

b) Britaniya varinatında –our sonluğu ilə bitən sözlər Amerika varinatında –or sonluğu ilə yazılır, yəni sonluqdakı u hərfi düşür. Məs.:

Britaniya variantı (-our)	Amerika variantı (-or)
Colour	color
Humour	humor
Labour	labor

Neighbour	neighbor
Favourite	favorite

c) Britaniya ingiliscəsində elə fellər vardır ki, onlar bəzi mənbələrdə -ize, bəzi mənbələrdə isə -ise sonluğu ilə göstərilir. Bu fellərin iki cür yazılış qaydası var. Amerika ingiliscəsində isə belə sözlər –ize sonluğu ilə yazılır. Yalnız yunan dilindən alınma sözlər bu cür dəyişikliyə uğrayır.

Məs.:

Britaniya variantı (-ize or -ise)	Amerika variantı (-ize)
Apologize or apologise	apologigize
Organize or organise	organize

Ədəbiyyat:

1. Nicholson, Margaret; (1957). "A Dictionary of American-English Usage Based on Fowler's Modern English Usage". Signet, by arrangement with Oxford University Press.p.155-160
2. Oxford Learner's Pocket Dictionary New Edition, Oxford University Press 1999 p.123-145.
3. Jespersen, Otto. Growth and Structure of the English Language. 10th ed. Oxford: Basil Blackwell, 1982. p. 44-54.
4. Greenough, James Bradstreet, and George Lyman Kittredge. Words and Their Ways in English Speech. Boston: Beacon Press, 1962. p. 66.

Açar sözlər: fərq, Britaniya variantı, Amerika variantı, orfoqrafiya, tələffüz, vurğu, heca, qrammatik quruluş

Key words: difference, British variant, American variant, orthography, pronunciation, stress, syllable, grammatical struktur

Ключевые слова: различие, Британский вариант, Американский вариант, орфография, произношение, ударение, слог, грамматический структур

America with the british version of the english language differences and similarity between options

Summary

The difference between the spelling of words - the difference between the British version of the English language and the American version is reflected in the spelling of words.

British English is derived from other languages, such as Latin, Greek, French, and so on. keeps all the words it receives from the languages as they are. However, Americans prefer to change all the borrowed words according to the rules of writing and pronunciation of their language.

Therefore, there are some differences in the spelling of derived words. The differences can be grouped as follows: In the British version, words ending in -re end in American, ending in -er. Eg: British version (-re) American version (er) Center center Theater theater.

Америка с британской версией английского языка сходства и различия

Резюме

Разница между написанием слов — разница между британской версией английского языка и американской версией отражается в написании слов.

Британский английский является производным от других языков, таких слкак латынь, греческий, французский и так далее. сохраняет все ова, которые он получает из языков, как они есть.

Однако американцы предпочитают менять все заимствованные слова по правилам написания и произношения своего языка. Поэтому существуют некоторые различия в написании производных слов.

Различия можно сгруппировать следующим образом: В британской версии слова, оканчивающиеся на -re, в американском заканчиваются на -er. Например: Британская версия (-re) Американская версия (er)

Rəyçi: filologiya elmləri doktoru, dosent Bahar Cəfərova

Qənirə Allahverdiyeva, Mehriban Muradova33

DİLÇİLİKDƏ KONVERSİYA HADİSƏSİ VƏ İNGİLİS DİLİNDƏ NEOLOGİZMLƏRİN YARADILMASI ÜSULLARI

Giriş: Arxaizmlərə əks olaraq neologizmlər dilə müasir dövrdə daxil olan və ya yenicə daxil olan yeni sözlərdir. Onlara münasibətdə dildə yaranan sözlərin neologizmlərə aidiliyini müəyyən edən xronoloji səddin çəkilməsində müəyyənlik yoxdur. Dil tarixi bu termindən ayrı-ayrı tarixi dövrlərdə lüğət tərkibinin zənginləşməsilə xarakterizə edərək istifadə edir. Stilistik münasibətdə neologizmlər üçün sözün yeniliyinin danışanlar tərəfindən nə dərəcədə mənimsənildiyi, bizə yaxşı məlum olan adət etdiyimiz sözoərin fonunda qeyri-adiliyi ön plana çəkilir.

Qasımov M.Ş. "Azərbaycan dili terminologiyasının əsasları" kitabında yazır: "Geniş, mənişətdə, eləcə də qəzet və radioverlişlərdə gündəlik işlənən sözlər tez bir zamanda öz yeniliyini itirir və "yaz qrupu olmayan" sözlərin əsas hissəsinə qarışır. Onların ifadə etdiyi əşyaların yaxın dövrlərdə yaranması haqqında xatirə hələ də onların yaxın onilliklərdə onların dilə daxil olması haqqında bəzi təsəvvürləri saxlayır: bus, trollesbus, radio, TV-program, TT və s. Xüsusi terminologiya, elm və istehsalatın ayrı-ayrı sahələrində uzun müddət mövcud olmasına baxmayaraq çox hallarda yalnız mütəxəssislərə və ancaq tədricən geniş dairələrə məlum olur (1, s. 186).

Bununla əlaqədar, bu və ya digər termin geniş işlənərsə, çox hallarda onun yeni söz oduğu və ya dair ixtisaslı işlənmədən ümumişlək dilə keçən sözün çoxdan mövcud olduğu qeyri-müəyyən qalır. Buna görə də yenidən yaranan terminlər xüsusi terminologiyanın geniş dairəsinə qarışır, elmi və işgüzar üslub xarakteri alır. Onların yeniliyi, istisna hallarda, zəif mənimsənilir. Məsələn, XX əsrin ikinci yarısında istifadəyə daxil olan akrilin, aspirin, steptosid, vitamin kimi dərman maddələri adlarının əvvəllər işlənən antipirin (1891), atropin (1847), qlükoza (1875) sözləri ilə müqayisədə elə də böyük yeniliyi nəzərə çarpmır.

Əsas kurs: İnversiyanın derivasiya yolu ilə yeni sözlərin düzəldilməsi metodu kimi aktivliyi aşağı düşmüş və sözdüzəltmənin digər növlərindən geri qalmışdır. Aparılan tədqiqatların nəticələrinə əsasən, konversiya olunmuş vahidlər neologizmlərin ümumi sayının 3%-ni təşkil edir.

Əsas model kimi yeni terminlərin böyük hissəsini yaradan N → V modeli olmaqda davam edir: to hack-stroke, to lesion, to polyrapz və s. İsimlərin böyük hissəsi mürəkkəb isimlərdən yaranır soft-dock sözündən yaranan to soft-dock sözü mexaniki üsulların köməyi olmadan orbital stansiyanın birləşməsi; carpool sözündən yaranan to carpool sözü işə, mağazalara və s. gedərkən maşının növbə ilə sürülməsi; red-line sözündən yaranan to red-line sözü borc, sığorta vasitəsilə mülkiyyətin sahiblərinə verilməsinə etiraz yolu ilə şəhərin ayrı-ayrı rayonlarının hüquqlarının tapdalanması.

Dilin inkişafının əvvəlki mərhələlərində olduğu kimi fellərdən isimlərin yaradılması hal-hazırda daha az məhsuldardır. Məlum olduğu kimi, bu, ingilis dilində isimlərin affiksasiya yolu ilə fellərdən çox asanlıqla yaranması ilə əlaqədardır.

N.Ə.Tağızdə "Dildə sözalma prosesi haqqında" adlı məqaləsində yazır: "İnversiya edilmiş isimlər arasında qoşmalarla işlənən fellərdən yaranma tendensiyası güclənir, məsələn: to rip-off – oğurlamaq felindən yaranan rip-off – oğurluq sözü; workaround (kosmonavtika termini) – uğursuz uçuş hadında alternativ metod; give-back, flowback, passalong, buy-off yeni isimlərin çox hissəsi konversiya yolu ilə sifətlərdən düzəlr, məsələn: collectihles – kolleksiya toplamağa aid olan, əsasən qədim və ya nadir əşyalar; cool – özünənəzarət, təmkinlikli sözlər çox hallarda to lose one′s cool, to keep one′s cool ifadələrində işlənir" (2, s. 125-134).

İsimlərin ~ic sonluğu ilə olan sifətlərdən yaranması xüsusilə məhsuldardır, məsələn: acrylic, transuranic, tricyclic. Bu modeldən tibdə geniş istifadə olunur: autistic, atigmatic, İgeriatric, prepsychotic. Bütün bu vahidlər alcoholic, fanatic, critic kimi məşhur sözlərlə analogiya üzrə yaranmışdır.

Affiksal və mürəkkəb neologizmlər kimi, yeni konversiya olunmuş törəmələr üçün çoxkomponentli strukturlara meyillilik xarakterikdir. Beləliklə, isimlər fel ifadələrindən düzələ bilər, məsələn: work-to-rule – fəhlələrin əmək müqaviləsinin bütün müddəalarına riyaət etmək tələbə ilə çıxışı, nümayişi.

Çoxkomponentliliyin analoji tendensiyası yeni konversiya olunmuş sifətlər arasında müşahidə olunur: cents-off – düşmüş, f enmiş (qiymət haqqında) (işlənmədə amerika fariantı ilə məhdudlaşdırılmışdır).

Barnhartün lüğətində prefiks və yarımprefiklərdən düzələn sifətlərin nadir modelləri qeyd olunmuşdur. Məsələn: hyper – həyəcanlanmış, emosional; maxi – böyük ölçülü bir şey.

Dünya xəritəsində yeni sektor olan kompüter texnologiyası dil xəritəsində kompüter terminlərinin ayrıca yeni semantik sahəsi şəklində qeyd olunmuşdur: CNC (computer numerical control) – kompüterin köməyilə məhsulların hesablanmasına nəzarət; computer monitoring – müxtəlif təşkilatlarda işçilərin, terminallarda işləyənlərin işinə nəzarət edən kompüter sistemi; electronic mail – kompüterdə yığılan və qəbul edən kompüterə telefonla göndərilən məktub; spread shoot – kompüter proqramı.

Keçən əsrin 80-ci illərində kompüter vasitəsilə müxtəlif fəaliyyət növlərinə yeni adlar vermək üçün praqmatik tələbatı teleyarımaffiksi ilə sözdüzəldici partlayışa səbəb olmuşdur: telepost – evdə kompüterin yerləşdiyi yer; teletext – fərdi kompüterlərin televiziya ekranlarına informasyianın ötürülməsini təmin edən kompüter sistemi kimi sözlər yaranmışdır.

Dilin aktiv nominativ proseslərdə olan son dərəcə mühüm praqmatik ünsürlərindən biri olan peşəkar differensasiyası kompüter sahəsində işləyənlərin özünəməxsus jarqonunun yaranmasına səbəb olmuşdur. Buna misal olaraq, brainbox –

33 Azərbaycan Texniki Universiteti. "Xarici Dillər" kafedrasının baş müəllimləri. mehribanqanira@gmai.ru

kompüter, glitch – proqramda gözlənilməz nasazlıq tipli yeni vahidlər işlənmədə kompüterlə məşğul olanlar arasında qeyri-rəsmi danışıq sərhədləri ilə məhdudlaşdırılmışdır.
Dünya xəritəsində nisbətən daha yeni bir sektor – kosmonavtika sektoru yaranmışdır. İngilis dili sistemi özünəməxsum şəkildə fəaliyyət təcrübəsinin yeni fraqmentinin ayrılmasına reaksiya vermişdir. O, rus dilindən yeni leksik vahidlər almışdır (lunokhod, planetokhod, sputnik) və bununla da ingilis dilinin leksik xəritəsində yaranan boşluqlar doldurulmuşdur. Bir müddət keç-dikdən sonra ingilis dilinin özünəməxsus olan kosmonavtika terminləri yaranmışdır: spacelab, spaceplane, spacefaring (seafaring sözü ilə analogiyaya əsasən).
Son onilliklərdə ABŞ-ın kosmik tədqiqatları dairəsi ilə məhdudlaşan slenq vahidəlri yaranır: chicuken-soup – Marsda metabolik fəaliyyəti aşkar etmək məqsədilə eksperimentlərdə istifadə edilən amin turşuları, vitamin və s. məhlulu. Kosmik sahədə slenqlərin yaranmasında, peşəkar parametrdən əlavə sözün praqmatikliyinin əsasını təşkil edən ərazi ünsürü iştirak edir. Bu tip bütün vahid işlənmədə amerika variantı ilə məhdudlaşmışdır.
Mənfi sosial təcrübənin nisbətən yeni fraqmenti kimi leksik sistem çərçivəsində həyata qarşı normativ partlayışa səbəb olan narkomaniyanı hesab etmək olar.
Məlumdur ki, dilin leksikası ikili təbiətə malikdir: nüvə və çevrə. Dilin leksik nüvəsi ilk növbədə şəxsiyyətə keçir. Onun tərkibinə (qeyri-terminoloji) isim, fel və digər nitq hissələrinin əsas mənaları daxil olur. Nüvədən asılı olan leksik çevrə (periferiya) mədəniyyətin bütöv dil mənzərəsini təşkil edir.
Narkomaniya sahəsində işlənən yeni normativ vahidlərin narkotik maddələrdən istifadə edənlər və narkotik satıcıları tərəfindən işlənmədə məhdudlaşdırılmasına baxmayaraq, onlar kütləvi informasiya vasitələrinin köməyilə narkomaniya ilə mübarizənin geniş işıqlandırılması ilə əlaqədar geniş kütləyə malik olur. Narkotik vasitələrin satışının qeyri-qanuni olması ilə əlaqədar bu fəaliyyət sahəsi ilə məşğul olan şəxslər öz işlərini məxfiləşdirmək üçün yeni sözlər yaratmağa məcbur idilər.
XX əsrin son iki yarım onillikləri ərzində ingilis dilində narkomaniya ilə əlaqədar yeni sinonimik sıra və antonimik cütlər yaradan 50-yə yaxın söz meydan çıxmışdır. Məsələn, təkcə marixuananın evfemik ifadəsi üçün öz əsas semantikasna görə netral olan bir sıra sözlər işlənir: grass, pot, hash, herb, smoke, Acapiuco, gold, stuff. Narkotiv vasitələrə aludə olanları adlandırmaq üçün növbəti sinonimik sıra meydana gəlmişdir: head, smack-head, pull-head, freak, grass-hopper. Narkotikdən istifadə ilə bağlı olan hərəkətləri adlandırmaq üçün to blrw, to blowsmoke – narkotik vasitəni nəfəsinə çəkmək, to hit, to shoot – narkotik maddəni dama yeritmək, vurmaq felləri işlənir. Narkotik maddələrin qəbulunun nəticəsini təsvir etmək üçün dirty, spaced, zonked – narkoti maddələrdən istifadə edən, narkotik maddələrin təsiri altında olan adamı ifadə etməkü çün işlənir.
Dünya xəritəsində yeni sektorların ayrılmasından əlavə artıq mövcud olanların genişlənməsi baş verir. Buna müvafiq olaraq, leksik xəritədə artıq mövud olan dövlətlər daxilində yeni coğrafi məntəqəlr meydana gəlir.
Keçən əsrin 60-cı illərində qərb incəsənətini bürüyən eksperiment keçirmək prosesi linqvistik xəritədə yeni smonimlik sıralar yeni terminlər kimi kodlaşdırılan yeni növ və istiqamətlərin yaranmasına səbəb olmuşdur. Məsələn: minimal art, mini@malism, rejected art, reduktivism, ABC art – rəng və formalı elementar tərkib hissələrə bölmək və sadələşdirmək sənəti; soft art – yumşaq materiallardan istifadə olunan sənət; luminal art – işıq effektlərindən istifadə olunan sənət; op-art (optical art) – optik effektlərdən istifadə olunan sənət; pop-art – populyar sənət kimi yeni terminlər meydana gəlmişdir.
70-ci illərdə bu sektorrun sonrakı genişlənməsi baş vermişdir. Rəsm yaradıcılığında sənət əsərini yaradarkən rəssamın şüurunda və alt-şüurunda baş verən prosesləri xüsusilə nəzərə çarpdıran yeni istiqamətin meydana çıxması ilə əlaqədar bu istiqaməti əks etdirən bir neçə sinonimik termin yaranmışdır: conceptual art, process art, anitifonn art, impossible art. 80-ci illərdə computer art – kompüterlərdən istifadə etmək sənəti termini meydana çıxmışdır.
Müxtəlif növ qorxu və xəstəlik qorxuların dildə yunan mənşəli phobia – qorxu və phobe – qorxu hissi keçirən adam sözlərinin mürəkkəb sözlərin ikinci komponenti kimi aktivləşdirilməsi yolu ilə möhkəmləndirilmişdir. Bu sözlər morfemləşmiş və yarımaffiks statusu almışdır. Məsələn: acrophobia – yüksəklik, hündürlük qorxusu – acrophobe – yüksəklikdən, hündürlükdən qorxan adam; americanophobe – ABŞ-la münasibətdə qorxu keçirən adam; technophobe – texniki yeniliklərdən qorxan adam. Agoraphobia lüğətlərdə açıq sahədən qorxma xəstəliyi kimi müəyyən olunan bu termin son illər öz mənasını genişlənmiş və əsas komponenti tanış olmayan şəraitdə olmaqla əlaqədar parnika olan bütün fobiyaların kompleksini təşkil edəe psixi pozuntunu adlandırır: açıq sahələrdən, göl və okeanlardan, köopü və tunellərdən qorxma, kütlədən, mağazalardan və teatrlərdən qorxma və s.
N.Məmmədov "Alınma terminlər" əsərində yazır: "Məlum olduğu kimi, qədim ingilis dilində man sözünün müasir ingilis dilində olduğu kimi iki mənası var idi (insan və kişi) – qədim ingilis dilində bu heç bir narahatlıq yaratmırdı, belə ki, bu sözlə yanaşı cinsi münasibətdə fərqlənən bir neçə söz mövcud idi: wer (waepman) – yaşlı kişi və wif (wifman) – yaşlı qadın. Tədricən wif və wifman sözləri wife və woman sözlərinə çevrilmişdir, eyni zamanda wer və weapman sözləri ingilis dilinin orta dövründə dildən çıxmışdır. Man sözünün ikili mənası ilkin olaraq digər german dilləri üçün də xarakterik olmuşdur, lakin tədricən insan mənasının köçürülməsi üçün bu dillərdə törəmə vahidlər yaranmışdır, məsələn: alman və holland dillərində – Mench sözü, isveç dilində maniska, niderland dilində manneske, Feminist hərəkatının nəticəsi kimi və ənənəvi cameraman, fireman, policeman, mailman sözlərinin əvəzinə tərcümədəki çətinliyi aradan qaldırmaq üçün 70-ci illərdə ingilis dilində camera operator, firefigher, law-enforcement və ya police-ojficer sözləri meydana çıxmışdır. Müraciətlərdə, titullarda kişi və qadın cinsi arasında uyğunluğun bərabərləşdirilməsi məqsədilə man sözü person sözü ilə əvəz olunur: chairpenson, Congressperson, spokesperson. Businessmen sözü çox hallarda businesspeople sözü ilə əvəz olunur. Hətta kilsədə də mankind sözü people sözü ilə əvəz olunur" (3, s. 314).

Nəticə. Qadın cinsli kontekslərdə man sözünü woman sözü ilə əvəz etmək tendensiyası müşahidə olunur. Buna uyğun olaraq, one′s own man ifadəsindən son söz woman sözü ilə əvəz olunu. Məsələn: Thank heaven I have graduated from the girl who can′t say no! I′m my own woman now.
Eyni zamanda bəzi qadın sonluqlu sbzlər neytral sözlərlə əvəz olunur. belə ki, stewardess və housewife sözlərinin əvəzinə dildə flight attendant və homemaker sözləri yaranmışdır. Lakin, K.Barnhart və digər leksikoqraflar master/mistress, hero/heroine, duke/duchess kimi kişi və qadın cütlərinin dildən heç vaxt itməyəcəyini hesab edir.
Ladies and Gentlemen salamlaşmasını Gentlepeople və ya Gentleperosons ilə əvəz etmək təklifi ingilis dilində danışanların çoxu tərəfindən istehza ilə qarşılanmışdır.
Demək olar ki, standart işlənməyə daxil olan və onda möhkəmlənən yeganə söz chairperson (chairman sözünün əvəzinə) termindir. Bu termin 70-ci illərdə akademik mühitdə cins baxımından kafedra müdiri, dekan vəzifələrini adlandırmaq üçün neytral terminin axtarışı ilə əlaqədar coşqun mübahisəyə səbəb olmuşdur. Hal-hazırda bu mübahisə sakitləşmişdir. Əgər söhbət kişi cinsinin nümayəndəsindən gedirsə, chairman termini işlənir, əgər söhbət qadın haqqında gedirsə-chairperson, daha az chairwoman işlənir. Amerika variantında cirnsdən asılı olmayaraq ixtisar olunmuş chair formasından geniş istifadə olunur.

ƏDƏBİYYAT:

1. Qasımov M.Ş. Azərbaycan dili terminologiyasının əsasları. Bakı: Elm, 1967, 186 s.
2. Tağızdə N.Ə. Dildə sözalma prosesi haqqında // AMEA, İ.Nəsimi adına Dilçilik İnstitutu. Tədqiqlər. Bakı, 2003. səh:125-134
3. Məmmədov N. Alınma terminlər. Bakı: Elm, 1997, 314 s.

Açar sözlər: İngilis dili, neologizmlər, Azərbaycan dili, təsnifat, dil tarixi, arxaizmlər
Key words: English, neologizm, Azerbaijani, classification, history of the language, archaism
Key words: English, neologizm, Azerbaijani, classification, history of the language, archaism

Conversion event in linguistics and methods of creating neologisms in english

Summary

The article speaks about the classification of neologisms formed in English at the second part of XX century, their comparative characteristics with Azerbaijani, also their roles and meanings in the simple and compound sentens.
The article deals with grammatical specialties of some neologisms and the usage of them on the English and the Azerbaijani language. The article deals with the usage of the neologisms, also it trains thermes and their apparences in English.

Конверсионное событие в лингвистике и способы создания неологизмов в английском языке

Резюме

В статье говорится о классификации неологизмов, образовавшихся в английском языке во второй половине XX века, их сравнительной характеристике с азербайджанскими, а также их роли и значениях в простых и сложных предложениях.
В статье рассматриваются грамматические особенности некоторых неологизмов и их употребление в английском и азербайджанском языках. В статье рассматривается употребление неологизмов, а также обучаются термы и их проявления в английском языке.

Rəyçi: dosent Natella Axundzadə

Pakizə Daməd qızı Məmmədzadə34

İNGİLİS DİLİNİN KANADA VARİANTININ ONOMASTİKASINDA ALINMA SÖZLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Giriş. İngilis dilinin Kanada variantının formalaşması uzun və mürəkkəb bir yol keçmişdir. İlk avropalılar ölkə ərazilərində məskunlaşmazdan əvvəl, burada müxtəlif dillərdə danışan tayfalar yaşayırdılar. Daha sonralar məhz bu hindu dili Kanada variantının leksikasının mənbələrindən biri oldu.

Kanada ingiliscəsində ən əhəmiyyətli yeri başqa dillərdən alınma sözlər tutur. Biz bu məqalədə ingilis dilinin Kanada variantına başqa dillərdən alınan sözləri nəzərdən keçirəcəyik.

Baugh A.A. "History of the English language" kitabında müəllif yazır: "İngilis dilinin Kanada variantında hindu mənşəli xeyli yer adları vardır. «Kanadizmlər lüğəti»ndəki məlumata görə ölkənin adı olan Kanada da hindu mənşəli addır. Lakin bu ad birbaşa hindulardan deyil, fransız dili vasitəsilə alınmışdır. Lüğətin məlumatına agörə Kanada irokez hindularının dilindəki «kənd», «camaat» sözündəndir" (1, s. 34-42).

Əsas hissə. Ölkənin bir çox başqa yer adları da hindu mənşəlidir. Avropalılar gəlməmişdən əvvəl mövcud olmuş hindu adlarının bir hissəsi azacıq fonetik dəyişməyə məruz qalsa da, bəziləri isə dəyişməz qalmışdır. Onların bir qismini nəzərdən keçirək:

Saskatchewan – vilayət adı olub eyni adlı çaydan törəmişdir, bu ərazidə yaşayan Kree adlı tayfa həmin çayı kisiskatch ewani sipi – iti axan çay adlandırırdı.

Manitoda – Kree tayfasının dilindəki manitobau sözündəndir. Mənası ruhların körfəzi deməkdir. Bu, çayın gurultulu səsi ilə bağlı olmuşdur. Kree tayfasının inamına görə, çayın gurultusu, ruhların baraban çalması ilə bağlıdır.

Ontarion – Huron adlı hindu tayfasına məxsusdur. Güman edildiyinə görə həmin tayfanın dilindəki gözəl göl mənalı ontarion və yaxud parıldayan və ya gözəl su mənalı kandarion sözündəndir.

Quebec – yerli tayfa bu adı Kebek şəklində bu şəhərin yerləşdiyi əraziyə aid etmişlər. Mənası Alqonguin hindularının dilində ensiz keçid və yaxud körfəzdir. Cape Diamond ətrafında oradan keçən çayın ensizləşməsi ilə əlaqədar yaranmışdır.

Yukon – əvvəlcə çay adını bildirmişdir. Loucheux hindularının dilindəki Lo Yukun – böyük çay sözündəndir.

Nunavit – əvvəlcə ərazinin adını ifadə etmişdir. İnuktitut hindularının dilində bizim torpaq mənasını bildirir.

Barnder M. The Englishhing of French Words məqaləsində müəllif yazır « Bir sıra Kanada şəhərlərinin adları yerli tayfaların adından törəmişdir.

Chiliwack (Britich Columbia) – yerli xalqın (chihi-kway uhk) adındandır. Güman edildiyinə görə onun mənası yuxarıya doğru geri qayıdandır. Bu ad Fraser Piver çayının mənsəbinə köçmüş adamların geriyə evlərinə döndüyünü göstərir.

Ottawa – bu ad alqonyuin hindularının dilindəki adawe – ticarət etmək sözündəndir. Bu ad çay üzərində ticarətə nəzarət edən xalqa verilmiş addır.

Toronto – güman edildiyinə görə, «görüş yeri» mənasında işlənmiş Huron hindularının sözündən əmələ gəlmişdir. Yerli xalq ticarət aparmaq və ov etmək üçün bu yerə yığışarmışlar (2, s. 88-96).

Chibougamau – Kree tayfasının dilində çayın daraldığı yer mənasında işlənən sözdəndir.

Chicoutimi – montagnais mənşəli bu ad shkoutimeou sözündəndir. Onun mənası dərin suyun sonudur.

Gaspe – güman olunduğuna görə, Markmaq tayfasının dilindəndir. Son və ya üç mənasında işlənib onların ərazisinin şimal hüdudunu bildirmişdir.

Listiguj – mikmaq dilindəki lustagooch sözündəndir. Onun təxmini mənası beş qollu çaydır.

Rimouski – bu, mikmaq və yaxud maliseet tayfasının dilindən olub moose torpağı deməkdir. Güman edildiyinə görə, bu ərazinin ov yeri olduğu ilə əlaqədardır.

Oromocto – Maliset hindu tayfasının dilindəki welamooktook «yaxşı çay» sözündən əmələ gəlmişdir.

Baddeck – güman edildiyinə görə, Mikmaq tayfasının dilindəki petekook «arxadakı torpaq» sözündəndir.

Musyuodobit – Mikmaq tayfasının dilindəki mooskudobooywek sözündən olduğu güman edilir.

Shuöenacadie – Mikmaq mənşəli sequbunakaolik kartof bitən yer sözündəndir.

Tiktoyaktuk – İnuit tayfasının dilindəki tuktu caribou maralı və yaktuk oxşayır sözlərindəndir. Sözün ümumi mənası caribou-ya oxşayan maraldır.

Pangnirtung – inuktitut tayfasının dilindəki caribou maralının yeri sözündən yaranmışdır.

Brook G.History of the English language. New-Jerse Oamiac əsərində müəllif yazır: – Eskimos dilindəki ingilis dilinin Amerika və Kanada variantına daxil olmuş bu söz heyvan dərisindən hazırlanmış böyük qayığı bildirir. Kanada variantında bu söz comiak şəklində işlənir. İngilis dilinin Kanada variantlarına daxil olmuş kayak – yüngül qayıq da eskimos dilindən alınmışdır (3, s. 123-128).

Region əhalisinin tarixi məşğuliyyətindən bəhs edən mənbələrdə comiak və kayak haqqında məlumat verilir:

A considerable amount of evidence of transitory historic occupation was found in the area: tent rings, a variety of foxz traps and meat cache markers and kayak rests. The comiaks were made of walrus or bearded sealskins and they also had sealskin kayaks. Eskimos dilindən alınmış attigi sözü içərisi dəridən olan köynək mənasında işlənir. Yenə də həmin dildən alınmış kuletuk sözü dəridən düzəldilmiş jaket mənasında işlənir.

---

34 Azərbaycan Texniki Universiteti. "Xarici dillər"kafedrasının baş müəllimi. pakizamammadzade@rambler.ru

Eskimos dilindən alınmış parka sözü də dəridən hazırlanmış geyim növünü bildirir:
His weatherbeaten face was thu color of old sealskin, but his tagged attigi couldin′t disguise his blue eyes.
The hood of his yellow parka was rimmed wite blue-white frost.
Xizək mənasında işlənən komatik və toboggan sözləri də eskimos dilindən alınmışdır. Onların fərqi ondadır ki, komatik əl ilə dartılan xizəkdir, toboggan isə itlər tərəfindən dartılır:
The dog sled, or komatik, has replaced the bycicle for Northern cubs.
They shipped me the mountain in a toboggan.
Brook G.History of the English language. New-Jerse автор пишет: «Hindu dilindən alınma sözlərin bəziləri kalka yolu ilə daxil olmuşdur. Məsələn, ABŞ vətəndaşını ifadə edən Long Knife şindu mənşəli alqonkinlərin dilindəki eyni mənalı keechchi sözündəndir. Onun mənası böyük, uzun bıçaqdır.
Bu alınmaların bəziləri ingilis dilində semantik inkişafa məruz qalaraq, törəmə mənalarda işlənməkdədir. Misal üçün, eskimos dilindən ingilis dilinin Kanada və Amerika variantlarına daxil olmuş kayak yalnız yüngül qayıq mənasında işlənməyib. Kayak yarışı mənasında da işlənir: kayak marathon (4, s. 36).
Toboggan ismində konvensiya yolu ilə ingilis dilində to toboggan – xizəkdə sürüşmək feili əmələ gəlir və onun iştirakı ilə mürəkkəb söz yaranır: toboggan – slide – tobogganla sürüşmək üçün dağ.
Toboggan feil funksiyasında frazeoloji ifadə kimi də rastlanır (qiymətin kəsikin olaraq düşməsi): prices tobogganed – qiymətlər kəskin düşmüşdür.
Aborigen dillərindən ingilis dilinə daxil olmuş bir çox başqa sözlərin də fonetik və semantik assimilyasiyaya məruz qalması halları geniş müşahidə olunur.
Beləliklə, ingilis dilinin Kanada variantındakı hindu mənşəli sözlər ölkənin yerli əhalisi olan hinduların adət və ənənələrini, məişətini, təbiətini, bitki və heyvanat aləmini əks etdirir. Müasir kanadalılar bir çox irq və millətləri özündə birləşdirən bir xalqdır. Onların arasında avropalılar, yerli hindular və eskimoslar vardır. Avropa mənşəli kanadalılar dilinə görə iki əsas qrupa bölünür: ingilisdilli və farnsızdilli kanadalılar.
Смирницкий А.И. Лексикология английского языка: автор пишет: «Kanadada ingilis dilinin tarixi XVIII əsrdən başlayır. İngilis dilinin Kanada varniantı daha çox Amernika variantına yaxındır ki, bu da kanadalıların ABŞ mətbuat, radio və televiziyasından daim istifadə etmək ləri və əhalinin sıx qarşılıqlı əlaqələri ilə bağlı olmuşdur. Lakin bununla belə ingilis dilinin Kanada variantının bir qrup özünəməxsus xüsusiyyətləri də vardır. Bu xüsusiyyətlər Kanada variantında ölkənin özünəməxsus heyvanat və bitki aləmi ilə bağlı xeyli sözlərin olması, Kanadaya gəlmiş immiqrantların ana dillərinə məxsus sözlərin Kanada ingiliscəsinə daxil olması, yerli hindu və eskimos dillərindən alınmış sözlər ilə bağlıdır» (5, s. 55-62).
İngilis dilinin Kanada variantına məxsus fərqli xüsusiyyətləri U.Alvis, G.Allekn, G.Stori, D.Homilton, K.Din və başqa tədqiqatçıların əsərlərində əks olunur. Onların tədqiqatlarında əsil kanadizmlər, yəni yalnız Kanada variantında işlənən sözlər Kanada mənşəli olub, həmçinin ingilis dilinin başqa variantlarına da daxil olmuş sözlər və s. qrup sözlər fərqləndirilir. Həmin tədqiqatlarda həmçinin ingilis dilinin Kanada variantına başqa dillərdən alınmış sözlər də müxtəlif həcmdə təsvir olunmuşdur.
Alınma sözlərin Kanada variantına daxil olmasının iki əsas mənbəyindən biri yerli hindu və eskimosların dilləri, digəri isə neçə yüz illər ərzində Avropadan gəlmə immiqrantların ana dilləri idi. Bundan başqa, alınma sözlər həm Kanada ingiliscəsinin lüğət tərkibinə daxil olmuş, həm də ölkənin onomastikasında öz əksini tapmışdır.
Alınma sözlərin böyük bir qrupu fransız mənşəlidir. Bu onunla əlaqədardır ki, Kanada əhalisinin bir hissəsini Kvebek vilayətində məskunlaşmış faransızdilli əhali təşkil edir.
Kanada variantında daxil olmuş fransız dillərin çoxu e (ee) şəkilçiləri ilə bitir: brule – yanmış meşə; saqamite – ət və ya balıqlı bulyon və ya sup və s. Bəzən fransız sözləri Kanada ingiliscəsində fonetik assimilyasiyaya məruz qalmışdır. Assimilyasiyaya uğramış sözlərin arasında euse şəkilçisi ilə bitən sözlər də vardır. Məsələn, fameuse – payızın sonunda yetişən alma iki cür tələffüz olunur [fəmu:z], [fəmə:z].
İngilis dilinin Kanada variantında ey şəkilçisi ilə bitən sözlər də assimilyasiyaya məruz qalmışdır. Eu hərf birləşməsi Kanada variantında [u:] kimi tələffüz olunur. Məsələn: Kvebek konservative partiyası ilə bağlı olan bleu sözü [blu:] tələffüz olunur.
Bəzən fransız alınma sözlərinin fonetik assimilyasiyası özünü vurğuda da göstərir. Misal üçün, vurğusu son hecada olan barbate sözü Kanada ingiliscəsində belə assimilyasiyaya məruz qalır: vurgu ingilis dilində olduğu kimi birinci hecaya düşür.
Guignolee sözü fransız dilində bu mənalarla işlənir: petruşka, kukla teatrı və s.
İngilis dilində vurğu dəyişməsi ilə guignolee gənclərin şən görünüşlü paltar geyinib mahnı oxuya-oxuya gəzinmək adətini bildirir.

Bundan başqa, Dil Nümunələri Proyekti (The Language Samples Project) Kanada İngiliscəsində, bir qayda olaraq (ae) səsi ilə tələffüz olunan alınma sözlərin siyahısını təşkil etmişdir. Belə sözlərə, Natasha, Tania, pecan, Fiat, Mazda, Lada, bravo, saga, və s. sözləri misal göstərmək olar. Lakin, Bach, Luatemala Kamikaze, karate, garbanzo kimi sözlər [a] səsi ilə tələffüz olunur. Bu sözlərdə [a] əvəzinə ae səsini işlətmək daha əlverişlidir. Onlar yeni alınma sözlərlə qarşılaşdırdıqda onları [ae] səsi ilə tələffüz etməyə davam edirlər.
İngilis dili Kanada variantındakı yad mənşəli sözlərin bir qrupu coğrayi adlarda əks olunur. Ölkədə böyük sayda fransız və aborigen mənşəli yer adları da vardır.

Kanada İngilis dilinin bu xüsusiyyəti belə bir hipoteza yaradır. Çarles Boberq yuxarıda qeyd olunan mənbəyə nəzərən düşünmür. Bunun səbəbi sadəcə bir şey ola bilər ki, Kanada İngilis dili bu sözlərin tələffüzünün əsası kimi onların

əlyazmasından istifadə edir. Kanada və Amerika sait sistemində mövcud fərqli konfiqyrasiyalar bu sualın cavabı ola bilər. Belə ki, Şimal şəhərlərində Sait Dəyişməsi və Kanada Sait dəyişməsi [ae] səsinin tələffüzü fərqli istiqamətdə aparırlar. Nəticədə stock sözünün amerikan tələffüzünü ilə stack sözünün kanada tələffüzü, demək ki, eynidir. Yəni, amerikan [a] saiti ilə kanada [ae] saiti eyni səslərdir.

İngilis dili Kanada variantına daxil olmuş fransız və aborigen mənşəli sözlər mənaca rəngarəngdir. Onlar ölkə həyatının müxtəlif sahələrinə aiddir. Bu sözlər aborigenlərin maddi və mənəvi mədəniyyətini əks etdirir.

Kanadada İngilis və ya Fransız dilini öyrənmək üçün ən yaxşı məktəb axtarırsınızsa, doğru yerdəsiniz.

Nəticə. Beləliklə, ingilis dili Kanada variantının onomastikasının formalaşmasında bu kimi amilərin rolu böyük olmuşdur. Məqsədlərinizdən asılı olmayaraq hədəflərinizə çatmağınıza kömək edəcəyik. Hədəfiniz ümumi, akademik, iş və ya imtahan məqsədləri üçün İngilis və ya Fransız dilini öyrənmək olsun, oraya getməyinizə kömək edəcəyik.

Fərqli rejimlərdə bütün səviyyələr üçün çox sayda kurslarımız var. Bir başlanğıc və ya müəyyən bir sahədə dil bacarıqlarını mükəmməlləşdirmək istəyən bir tələbə olmağınızdan asılı olmayaraq, müəllimlərimiz bu öyrənmə macərası ilə sizi dəstəkləyəcəklər.

ƏDƏBİYYAT

1) Baugh A.A. History of the English language, London, 1959, p. 34-42
2) Barnder M. The Englishhing of French Words. Oxsford, 1921, p. 88-96
3) Brook G. History of the English language. New-Jerse, 1957, p. 123-128
4) Арнольд И.В. Лексикология современногоо английского языка. М., 1955, стр: 36
5) Смирницкий А.И. Лексикология английского языка. М., 1956, с. 55-62

Açar sözlər: onamastika, leksik-semantik, ingilis dili, inkişaf, varyant

Key words: onamastics, lexical-semantic, English, development, variant

Ключевые слова: онамастика, лексико-семантический, английский язык, развитие, вариант

İngilis dilinin Kanada variantının onomastikasında alınma sözlərin leksik-semantik xüsusiyyətləri

Summary

The article is about the loan words used in onomastics of Canada. These words are noted and given brief information about each of them in the article.

Canadian English has appeared on a number of factors. Canadian English was first determined by a number of immigrants settled from the northern part of the United States. Because of the geographical proximity of the two countries and the influence on each others histories, economic systcms, international policies and television media Canadian English continus to be formulated by American English.

Лексико-семантические особенности слов, полученных в ономастике английского варианта Канады

Резюме

В статье речь идет о заимствованных словах, используемых в ономастике Канады. Эти слова отмечены и даны краткие сведения о каждом из них в статье. Канадский английский появился по ряду причин. Канадский английский был впервые определен рядом иммигрантов, поселившихся из северной части Соединенных Штатов. Из-за географической близости двух стран и влияния друг на друга истории, экономических систем, международной политики и телевизионных СМИ канадский английский продолжает формироваться американским английским языком.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Gülarə Teymurova

Şəfiqə Kərəm qızı Əliyeva, Nigar Xalid qızı Həşənova35

İNGİLİS DİLİNDƏ BƏDİİ MƏTNİN ƏDƏBİYYATŞÜNASLİQ VƏ DİLÇİLİK BAXİMİNDAN TƏDQİQİ

Giriş. Dilçilik sözdən bəhs edən əhatəli elm olduğu uçun poetikaya da dilçiliyin tərkib hissəsi kimi baxmaq lazimdir. Üslubiyyatın belə kəskin tərzdə iki hissəyə ayrilmasi bir tərəfdən tədqiqat obyektini kompleks şəkildə qavranilmasina mane olur, digər tərəfdən isə dar peşə məhduiyyəyinə gətirib çixarir. Bədii mətnin tədqiqini yalniz ədəbiyyatşünaslığın işi hesab etmək, başqa cür desek, yalnız bu əsərlərdəki ideya-məzmun cəhətini əsas götürmək, konseptual informasiyaları linqvistik ifadəsinə məhəl qoymamaq məzmun və forma arasındakı dialektik vəhdəti unutmaq demək olardi. Belə ki, bədii əsərin ideyasından, məzmun vüsətindən asili olmayaraq o müəyyən forma qəlibində, dil işarələrində reallaşır. Buna görə də bədii əsərin linqvistik tədqiqindən imtina etmək praktik olaraq mümkun deyil.

Əgər ədəbiyyatşünas sənət əsərinin bədii dəyərini, estetik məqsədini öyrənirsə, dilçi bu dəyər və məqsədin hansı fonemlərin, morfomlərin, sintaktik konstruksiyaların əsasında yarandığını təhlil edir. R.A.Budaqovun dediyi kimi, ədəbiyyatşünaslar və dilçilər müxtəlif mövqelerden və müxtəlif məqsədlərlə eyni bir problemi tədqiq edirlər.Bədii mətnin ədəbiyyatşünaslıq və dilçilik baxımindan tədqiqi six əlaqə və vəhdətdə aparılmalıdır. M.Qorkinin ədəbiyyatın ilkin ünsürü adlandırdığı sözun əsaslı təhlili almadan əsərin bədii dəyərini və ideya zənginliyini duymaq mümkün deyildir. Bədii əsərin şərhi metodikasının sirlərinə istər dilçilər, istərsə də ədəbiyyatşünaslar bələd olmalıdır.Belə ki, bədii əsərin anlaşılması üçün nə dar linqvistik biliklər, nə də yalnız intuisiyalara əsaslanan mühakimlər kifayət eder. A.İ.Ertel Puşkinin «Я помню чудное мгновенье» şeiri üzərində bu iki təhlil növü arasındakı fərqi obrazlı şəkildə belə ifadə edir: Şeiri birinci dəfə oxudum. Qəlbim səslər. əlçatmaz arzular, gözəl hisslər, sakit xəyallara doldu. Birdən elə bil hansı şeytansa pıçıldadı: gəl bunun üstündə təhlil aparaq. Birinci cümlə я помню чубное Мгновенье. Hanı mübteda? Hanı xəbər? Yazmağa başladım. Pyesin həyatı gözəlliyi itdi. Yerində hərflər, formalar, şərtliklər qaldı. Göründüyü kimi, bədii əsərin dilinin tədqiqi yalnız ədəbiyyatşünaslığa meyl etdiyi təbqirdə gah poetik dil nəzəriyyəsi, gah da üslubiyyat üçün bazaya çevrilir.Liqvistik tədqiqata cəlb olunduqda isə dilçi sirf qrammatik termin və kateqoriyalar çərçivəsində qapanıb qalır, atomizm təhlükəsi yaranır. Belə bir təhlükədən duydyğu üçündür ki, V.A.Qofman yaziçıları dilçilərdə sıx kontaktk səsləyir. Yazıçı fikri həmişə dilçi fikri ilə müəyyən əlaqədə işlənmişdir. Bizim dövrümüzdə belə bir əlaqə demək olar ki, yoxdur. Yazıçılar sanki bununla maraqlanmır, dilçilər isə bədii dilin gündəlik məsələlərini praktik mühakiməsi səviyəsində alçalmırlar. Bundan həm ədəbiyyat, həm də dilçilik itirir.Müəllif dili məsələləri üzərində yaziçilar, tənqidçilər və dilçilər əlbir işləməlidirlər.

L.Şpitçer də bədii dilin tədqiqini həm dilçilərin, həm də ədəbiyyatşünasların ovçuluq edə biləcəyi neytral zonaya çevirməyi təklif edir. Bu və ya digər müşahidəni ilk dəfə hansı tərəfin başlanmasının heç bir əhəmiyyəti yoxdur. Bu qədər çətinliklə barışmış düşmən qardaşları bir də ayirmağa dəyərmi? Dilçiliklə ədəbiyyatşünaslıq arasında körpü rolu oynayan kompleks filoloji elmin mətn dilçiliyinin yaranması bədii mətinin tədqiqi ilə bağlı ziddiyətlərə son qoydu.

Əslində hələ A.A.Potebnya və onun ardıcıllaarı dili, bədii əsərin dili haqqinda elmin əsaslarını götürmüş, V.V.Vinoqradov 1929-cu ildə yazdığı Əbədi nəsr haqqında adlı əsərində əsrin sonu, əsrin əvvəllərində Avropa və rus dilçiliyindəki yeni meylləri nəzərə alaraq bu qənaətə gəlmişdir ki, bədii nitqin tətbiqi nə üslubiyyatın, nə də poetikanın çərçivəsinə sığmır. Dialektik üslubiyyat bu rola yaramır. Sənət əsəri isə heç də poetik olmur. Beləliklə, Vinoqradov hələ keçən əsrin 30-cu illərində bədii əsərlərin dilini tədqiq eden ayrıcı bir elmin yaranmasını təkidlə tələb edirdi. Hazirda bu elm özü ümumi mətn nəzəriyyəsi, mətn qrammatikası və mətn üslubiyyatına bölünür.

Abdullayev S. "Müasir İngilis və Azərbaycan dillərində bədii mətnin təhlili" məqaləsində yazır: "Bütün bu fənnləri birləşdirən ümumi cəhət onların dilin estetik funksiyasının qanunauyğunluqlarını kommunikatif funksiya ilə əlaqədə öyrənməsidir. Hissədən tam gedən birinci yol təbiri caisə linqvistik analizin xarici aspektini təşkil edir. Burada bir mətnin dil vahidləri digər mətnlərin, hətta milli dilin elementləri ilə qarşılaşdırılır. Linqvistik analizin daxili aspekti adlanan ikinci yolda yalnız bir mətnin daxilindəki dil elementləri qarşılıqlı nisbət və asılılığından nəzərdən keçirilir. Bu iki yol bir – birinə zidd olmayıb, əksinə, ayrılmaz surətdə birləşir.Mətn dilçiliyi elmi özünün bütün mürəkkəb obyektinin tam dərk olunması üçün əhələ yeni metodlar işləyib hazırlamalı, dilçilər bədii mətnin tədqiqi ilə bağlı problemlərə daha da yaxınlaşmalıdır. (1, s. 123).

Beləliklə, aydın olur ki, ozünün bütün mürəkkəbliyinə və çoxcəhətliliyinə baxmayaaraq bədii mətn linqvistik təhlilin obyekti ola bilər. Bunun cox sadə bir izahı var: dil sistem şəklində ifadə olunmamiş mətn şəklində, eləcə də bədii mətn şəklindədirsə, ifadə olunmuş şüurdur. Sistem mətnlə dialektik əlaqədardır: hər bir mətndə dil sistemi nümayiş etdirdiyi kimi, dil sistemində hədsiz mətn ehtiyatı var. Biz dilə məhz müxtəlif mətn donlarında təsadüf edirik. Dilçinin vəzifəsi dil sistemini bu əsasda tədqiq etmək, bu və ya digər məzmunun, ideyanın hansı dil vasitəsinin köməyi ilə ifadə olunduğunu öyrənməkdir. Bədii ədəbiyyat incəsənətin digər növləri ilə sıx əlaqədə olub onlarla vahid bir tamda, xalq, yaxud geniş mənada bəşər mədəniyyəti sistemində birləşir. Lakin bədii ədəbiyyatın tikinti materialı rolunu oynayan dil insanın idrak fəaliyyətinin nəticəsi olub özündə xalqın çoxəsrlik təcrübəsinin birləşdirdiyindən incəsənətin digər növlərinə nisbətdə ədəbiyyat gerçək aləmin inikasındakı fövqəladə gücü ilə seçilir. İncəsənətin hər bir növü gerçəkləşdirdiyinin xüsusi növ inikasıdır, obrazlı təfəkkürüdür. İnikas isə mahiyyət etibarı ilə inikas olunan cisimlə bağlıdır. Bu səbəbdəndir ki, gerçək

35 Azərbaycan Texniki Universiteti. "Xarici dillər"kafedrasının baş müəllimləri. shafianigar@mail.ru

aləmin inikası özünün ən parlaq ifadəsini elmdə tapır. Musayev O.İ. (Türksevər) "İngilis dilinin qrammatikası" kitabında qeyd edir: "Elmi tədqiqatlardan məqsəd tədqiq olunan cismin özünə tam adekvat olan inikasını almaq olduğundan burada subyektiv amil cüzi rol oynayır. Sənət isə, əksinə cisimlərin sadəcə əksi (surəti) olmayıb, müəllifin pisixi, ruhi aləmi ilə bağlı elementləri də əhatə etdiyindən subyektiv amillə sıx bağlıdır. Hər cür elmi fəaliyyətdən fərqli olaraq sənət gerçəkliyin maddi aləmə deyil, insana, onun mənəvi aləminə münasibətdə öyrənir. Bədii ədəbiyyatda bu ikiqat kodlaşma xarakteri daşiyir:1)maddi aləmin, daha dəqiq desək, onun inikasının poetik kodlaşması (simvolik; bədii təsvir); 2) dil kodlaşması" (2, s. 94).

Bu ekstralinqvistik amillər bədii ədəbiyyatda məzmunun ifadəsinə xidmət edən vasitə və formalara təsir etməyə bilməz. Gerçəkliyin obrazlı inikası məhz dil vasitəsi ilə mümkün olur. Bədii obrazlı ədəbiyyatın dili arasındakı əlaqə cox möhkəm və daimidir. Bədii mətndə dil vasitələri fərdləşmiş ekspressiv, çoxcəhətli yaradıcı cəhətdən təşkil olunmuş səciyyə daşıyib insanın mənəvi aləminə kompleks təsir göstərir. Bədii mətnin hər bir elementi əlavə funksional yük, ekstetik funksiya daşıdığından, sözün mənası onun nominativ əşyavi mənası ilə məhdudlaşmayıb yeni çalarlar kəsb edir. Bədii ədəbiyyatda ümumi ədəbi dilin estetik funksiyasına sanki ikinci bir estetik funksiya əhatə olunur. O cox zaman müəllifin dil manerasının köməyi ilə ümumi qəbul etdiyi normaların sərhəddini keçir və sirf dil elementləri fərdi üslub elementlərinə çevrilir. R.A.Budaqov ədəbi dilin estetik funksiyanın ümumi, yaxud birinci dərəcələri estetik funksiya adlandırır, bədii ədəbiyyatın dilinin estetik funksiyasina isə müəllifin estetik funksiyası, yaxud ikinci dərəcəli estetik funksiya adı verilir. Göründüyü kimi, bədii ədəbiyyatı sferasında dil yalnız kommunikasiya vasitəsi olmaqla qalmır, o həm də oxocuya estetik təsir göstərir, eyni zamanda həm kommunikativ, həm də estetik funksiya yerinə yetirir.

Bədii əsərdə sözün mənası heç vaxt sirf nominativ məna ilə məhdudlaşmayıb yeni, əlavə mənalar qazanır. Bu fakt onunla izah olunur ki , bədii əsərdə söz və ifadələr yalnız gerçəkliklə deyil, həm də bir – biri ilə münasibətidir. Bədii əsər bütövlükdə tərkibindəki sözlərin müstəqim və ənənəvi köçürmə mənasında deyə biləcəyindən çox söz deyir. Bu isə bəzi tədqiqatçılara onun mahiyyətini şişirtməyə , onu digər mətnlərə qarşı qoymağa əsəs verir. Təsadüfi deyildir ki, akademik N.Mart və onun ardıcılları dilin sinfi nəzəriyyəsi prinsipini irəli sürür, ədəbiyyatın dilini hakim dil elan edirdilər.

Nuriyeva S.T. "Bədii mətn və poetika" əsərində yazır: "Göründüyü kimi, bədii mətnlə bağlı mübahisəli məsələlər bədii üslubun digər funksional münasibəti ilə bilavasitə bağlıdır. Bədii mətn istər daşıdığı məlumatın xarakteri, istərsə də onun təşkili forması etbarı ilə digər mətnlərdən seçilir. Bu fərqləndirici xüsusiyyətlətin hansının əsas götürülməsindən asılı olaraq bədii mətn müxtəlif şəkildə xarakterizə olunur. Bəzən onu bəzəkli ifadə tərzi adlandırırlar. Doğrudur, dilin müəyyən mərhələlərində dəbii dilin belə xüsusiyyəti olmuşdur ki, bundan da fikirlə onun ifadə tərzi arasındakı səddi doldurmaq üçün istifadə edilmişdir. C.Məmmədquluzadə rus ədəbiyyatı timsalında bu meyli kəskin təndiq ederək yazırdı:Rusun qədim yaziçıları yazı yazanda belə kəlmə və ibarələr tapıb işlədirdilər ki, xoruz səsi eşitməmiş olsun derjavinin şerini indi də adam oxuyanda elə bilir ki, guya bu sözlər göydən düşüblər. Amma... puşkinlər, jukovskilər dili lap xarab elədilər, elə sözlər yazdılar ki, kəndlilər də başa duşdülər" (3, s. 66-69).

Həqiqətən də, əədəbiyyat tarixində elə dövrlər olmuşdur ki, sadə el dilində yazmaq az qala istedadsızlıq hesab edilmişdir. Məsələn: alman klassizminin nümayəndələri yalnız yazılı ədəbi dilin ehtiyatları ilə kifayətlənib, nəinki xüsusi leksikanın, hətta şifahi dilin söz və ifadələrinin qrammatik forma və konstruksiyalarının işlənməsindən imtina edirlər.

Mətnin üslubi profili dil vasitələrinin struktur-dil statusu ilə deyil, onun işlənməsi, mətnin quruluşundakı rolu, mətndəki əhəmiyyəti ilə müəyyən olunur. Dil vasitələrinin üslubi potensiyası mətnin quruluşunda reallaşmır. Eyni bir vasitə müəllif nitq tiplərinin: elmi, publisist, rəsmiəməli bədii, məişət mətnlərinin üslubi tonallığının göstəricisi kimi cixiş edə bilər.

Əlbəttə, yazıçının dili - üslubi vasitələri seçməklə azaddır. Lakin bu azadlıq hüdudsuz deyil. Şair, yazıçı dilin imkanlarını göstərir. Özü də təkcə estetik, ifadəli imkanlarını deyil, həm də qrammatik, üslubi imkanlarını, ənənəvi ədəbi normalar yeni məzmuna uyğun gəlmədikdə onlar cəsarətli və şüurlu bir tərzdə bu normaları pozular. Lakin bu heç də bədii dilin tam sərbəstlik, qayda qanunsuz azadlıq sahəsi olması demək deyil. Sənətkar geniş arsenalından seçdiyi sil vasitələrini mövcud dil normaları çərçivəsində işlətmələridir.

R.A.Budaqovun fikrincə yazıçının dilin ən müxtəlif üslubi laylarından seçib götürdüyü heterogen elementlər bir sərkərdənin əmri ilə hərəkət edən əsgərlər kimi vahidə tabe olmalıdır. İntizamsizlıq ordunu döyüş meydanında məhvə məhkum etdiyi kimi, bu elementlərin bədii üslubun şərtlərinə tam tabe olmaması bədii mətni nizamsız söz yığınına bənzədir danışiq intonasiya, dialekt sözlər , sirf xalq dilinin sintaktik konstruksiyaları bədii üslubda özünə məxsus şəkildə yenidən işlənir: usta əli, sənətkar nəzarəti daima hiss olunmur. V.V.İvanov iddia edir ki, yazıçının dil üzərindəki işi hər hansı fikrin ifadəsi üçün mümkün olan vasitələrdən ən yaxşısını seçməkdir. Burada ən yaxşı deyərkən nəyin nəzərdə tutulduğu aydın deyil. Dil norması problemi bədii ədəbiyyata tamamilə ozünəməxsus şəkildə həll olunur. Bir tərəfdən dahi yazıçılar öz sənətkar qüdrətləri ilə əbədi normalar yaradır, digər tərəfdən isə məhz onlar bu normaları pozur, onu daima hərəkətə sovq edirlər. Məsələn, Qoqol həmişə dil normalarını pozur, eyni zamanda rus dilini ruhuna yad olan pozuntulara qarşı mübarizə aparırdı. Obyektiv və subyektiv faktorların üzvü vəhdəti bədii mətnin mahiyyətinin qavranılmasını çətinləşdirən amillərdəndir.

B.Yeqorov belə bir fakta əsas tutur ki, oxucunun şəxsi təcrübəsindən kənarda bədii əsərin dərk edilməsi ağılasığılmazdır.
V.V.Vinaqrodov isə bədii nitqin tədqiqində obyektiv faktorun rolunu inkar etməsə də, göstərir ki, obyektiv faktoru, yeni bədii mətnin özünü nəzərdən qaçirmaq olmaz.
Bədii nitqin kommunikativ funksiyasının tədqiqində J.N.Tinyanovun belə bir fikri də cox maraqlıdır ki, bədii nitq öz saysız –hesabsız çalarlıqları ilə şifahi nitqdən nə qədər uzaq olsa da, son nəticədə yenə hər kitab danışan şəxsə çevrilir, şifahi nitq kimi oxucuya müraciət edib ondan cavab tələb edir.
Nəticə. Bədii dillə bağlı mübahisəli məsələlərdən biri də bədii dilin ümumxalq ədədi dilinə münasibəti məsələsidir. Hələ də filalogiyada bədii dillə ədəbi dillə ədəbi dili eyniləşdirmək, ədəbi dilin tədqiqində ayrı-ayrı bədii əsərlərə biləvasitə mənbə kimi müraciət etmək cəhdlərinə təsadüf olunur. Qeyd etmək lazımdır ki, bu naturalizmdən qalma bir meyldir. Əsrin 40-ci illərinə qədər ədəbi dil deyərkən kitab nitqi, ədəbi-bədii əsərlərin dili başa düşülür, bədii əsərin dilinin hər şeydən əvvəl sənətkarın fərdi üslub süzgəcindən keçirdiyini nəzərdə almırdılar. Qeyd etmək lazımdır ki, bu naturalizmdən qalma bir meyldir. Əsrin 40-ci illərinə qədər ədəbi dil deyərkən kitab nitqi, ədəbi -bədii əsərlərin dili başa düşülür, bədii əsərin dilinin hər şeydən əvvəl sənətkarın fərdi üslub süzgəcindən keçirdiyini nəzərə almırdılar.

Ədəbiyyat

1. Abdullayev S. Müasir İngilis və Azərbaycan dillərində bədii mətnin təhlili. Bakı, s. 123
2. Musayev O.İ. (Türksevər) . İngilis dilinin qrammatikası. Bakı, 2007, s. 94
3. Nuriyeva S.T. Bədii mətn və poetika. Bakı, 2012, səh: 66-69

Açar sözlər: bədii mətn, İngilis dili, dilçilik, ədəbiyyat, inkişaf, təhlil
Key words: literary text, English, linguistics, literature, development
Ключевые слова: художественный текст, английский язык, языкознание, литература, развитие, анализ

Literary criticism of art text in English an Research from linguistic care

Summary

Fiction is closely related to other types of art and is integrated with them into a single whole, nation, or system of human culture in the broadest sense. However, language, which plays the role of a building material of fiction, is the result of human cognitive activity and combines centuries of experience of the people, so literature is distinguished from other types of art by its extraordinary power in the real world.

Литературная критика художественного текста на английском языке и исследование лингвистической помощи

Резюме

Художественная литература тесно связана с другими видами искусства и интегрируется с ними в единое целое, нацию или систему общечеловеческой культуры в самом широком смысле. Однако язык, играющий роль строительного материала художественной литературы, является результатом познавательной деятельности человека и сочетает в себе многовековой опыт народа, поэтому литература отличается от других видов искусства своей необычайной силой в реальном мире.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova

Şəfiqə Qurban qızı Heydərova, Sevinc Əli qızı Hacıyeva36

İNGİLİS DİLİNDƏ SEMANTİK KORRELYASİYA ALINMA SÖZ PROBLEMİ VƏ LEKSİK CÜTLÜKLƏR HAQQIDA

Giriş hissə: İstənilən müxtəlifsistemli dillər, o cümlədən, ingilis və Azərbaycan dilləri arasında müşahidə edilən leksik yanaşma hadisənin məntiqi davamı kimi sistem-daxili semantik paralellik situasiyası meydana çıxır. Belə ki, interleksemlərin ortaya qoyduğu terminoloji leksika və ümumişlək sözlər, bu sözləri mənimsəmiş dilin leksik sistemində yer alan digər leksemlərlə semantik korrelyantlıq situasiayasını yaradırlar. Həmin korrelyantlıq situasiyasının əmələ gətirdiyi semantik paralelliyin dəyərləndirilməsi məsələsində yekdilliyin hökm sürdüyünü söyləmək olmaz.

A.Axundov "İngilis və Azərb. dillərində modallıq kateqoriası" kitabında yazır:

"Xatırladaq ki, dubletik vəziyyətinin sinonimiya hadisəsinə aidliyi məsələsində ən fərqli və demək olar ki, bir-birini istisna edən yanaşmalar mövcuddur. Birinci qrup dilçilərin nümayiş etdirdiyi yanaşmaya görə, dubletlik hadisəsini sinonimiyadan kənar araşdırmaq doğru deyil. İkinci qrup mütəxəssislərin ortaya qoyduğu yanaşmaya görə isə, belə yanaşma sözləri "sinonimliyin əsas əlamətlərini əks etdirmədikləri üçün sinonim hesab etmək düzgün deyil" (1, s. 12).

Bu mənada, mövcud yanaşmalardakı ziddiyyətlərin ümumi anlayışın (sinonimiyanın mahiyyətinin) dərkinə xidmət etmədiyini düşünən D.N.Şmelyovun fikirlərini xatırlatmaq yerinə düşərdi. Dilçi yazır: "Bunu (yəni sinonimiya ilə bağlı fikir ziddiyyətlərinin mövcudluğunu elə anlamaq lazım deyil ki, dildə hər hansı "əsil" sinonimya mövcuddur. Dilçilər isə, sadəcə olaraq, onun (həmin "əsl sinonimiyanın") adekvat təyinləndirilməsinə bu və ya digər səviyyədə yaxınlaşmağa müvəffəq olurlar. Əslində isə dildə müxtəlif semantik yaxınlaşma növləri (kursiv- D.N.Şmelyovundur.) mövcuddur və onlar sinonimlərin fərqli şəkildə qruplaşdırılıb təyinləndirilməsində öz əksini tapırlar". Semantik yaxınlaşma növləri sırasında, təqdim edilən tədqiqat baxımından, marağa səbəb olan xüsusi semantik yaxınlıq növü kimi dubletliyi qeyd etmək olar. Əslində, burada yuxarıda adları çəkilən birinci qrup tədqiqatçıların da tam haqlı olaraq, bildirdiyi kimi, semantik yaxınlıqdan deyil, tam semantik eyniyyətdən söhbət gedir ki, bu da onları fərqli semasioloji söz qrupları kimi səciyyələndirməyə imkan verir.

X.İmanov "Azərbaycan və inglis dillərində ədatlar" əsərində öz fikrini belə izah edir: "Belə ki, bəzi hallarda "əsasən terminologiyada müşahidə edilən (məsələn, linqvist-dilçi) və mənaların tam şəkildə üst-üstə düşməsi ilə səciyyələnən mütləq (absolyut) sinonimiya" hadisəsi çərçivəsində nəzərdən keçirilən dubletlik situasiyası "terminologiyada alınmaların leksik-funksional paralelliyi" nəzərdən keçirilir" (2, s. 123-138). Sonuncu yanaşmanın tərəfdarları terminin alınma termin sayəsində elmi mətnə, işgüzar sənədə və s. bu kimi mətn nümunələrinin ümumi mətninə heç bir xələl gətirilmədən, əlavə yozuma, məna interpretasiyasına imkan tapmadan tam şəkildə əvəzlənə bilməsi hadisəsini semantik paralellər olaraq səciyyələndirirlər. Belə ki, onlara görə və konkret olaraq, S.Sadıqovaya görə, "sinonimlər yaxın və eyni mənanı bildirən sözlərdir. Paralellər isə eyni məfhumun müxtəlif sözlərlə ifadəsinin xüsusi növləridir. "Leksik məna eynidirsə, sinonimlikdə heç bir üslubi varlıqdan və ya emossional-ekspressiv fərqdən söhbət gedə bilməz" və sinonimlərdən fərqli olaraq, "dubletlər dominantlıqdan məhrumdurlar, formaca müxtəlif olsalar da, semantik və üslubi cəhətdən fərqlənmirlər". Düşünürük ki, təqdim edilən yanaşma dubletliyin bir sistemdaxili semantik paralellik hadisəsi kimi mahiyyətini tam dolğun şəkildə açıqlamış olur və onun sinomiya hadisəsindən fərqli təbiətə malik olması fikrini birmənalı şəkildə əsaslandırır.

Maraqlıdır ki, sistemdaxili semantik paralelliyi təcəssüm etdirən dubletlərin sinonimiya hadisəsinə münasibəti bu semasioloji qrupla bağlı olan yeganə nəzəri problem deyil. Belə ki, bəzi dilçilik ədəbiyyatlarında dubletlik situasiyasının neqativ və ya pozitiv planda dəyərləndirilməsi məsələsi ilə bağlı ən fərqli fikirləri səsləndirməkdədir. Ən maraqlısı isə odur ki, hətta bu məsələdə yekdil olan, yəni dubletliyi sinonimiyadan kənar xüsusi növ semantik korrelyasiya hadisəsi kimi nəzərdən keçirən dilçilər arasında da qeyd edilən problemə aid fikir müxtəlifliyi hökm sürür.

Belə ki, A.Qurbanov ona görə xarici dildən lazımsız olan leksik mənuimsəmə sayəsində ortaya çıxmış sinonim müvazilik vəziyyətlərini (məsələn: səksən-həştad dubletliyinin) təhlili çərçivəsində edir ki, "dildə müəyyən anlayışı eynilə bildirən söz ola-ola, bəzən başqa dildən həmin anlayışı eynilə bildirən başqa bir söz alınması" və "dillərin bu cür bir-birinə qarşılıqlı təsirini mənfi hal hesab edilməlidir". Bu məsələyə terminoloji sinonimiya çərçivəsində toxunan M.Qasımov yazır: "Terminologiyada sinonimlərin olması zərərlidir. Əgər ümumi ədəbi dildə sinonimiya təbii bir hal hesab edilirsə, yaxud onun üslubi rəngarənliyini dəyişirsə, nitqə incə fərdi kalorit verirsə, terminologiyada dubletlər belə bir xassəyə malik deyildir". "terminologiyada paralel şəkildə işlənən terminlərin olması işarələrin seçilməsi prosesinin axıra çatdırılmadığını, terminoloji sistemin hələ qaydaya düşmədiyini göstərən amillərdən biri" kimi səciyyələndirən və onun (terminoloji paralelliyin) "elmi dili ağırlaşdırdığını" önə sürən S.Sadıqova məsləni daha obyektiv nöqteyi-nəzərdən dəyərləndirir. Dilçi yazır: "Terminologiyada paralellik qüsurlu hal sayılsa da, onun mövcudluq faktını inkar etmək qeyri-mümkündür.... Terminologiyada paralellik, əslində, terminoloji sistemin formalaşması dövrün tələbi ilə meydana çıxır və nəticədə müəyyən dövrdə müsbət hadisə kimin qiymətləndirilməlidir. Göründüyü kimi, dilçi alim özlüyündə terminologiyada sinonimiyanın müsbət hal kimi qiymətləndirilməsinin etirafi fonunda, paralellik vəziyyətinin müəyyən zaman kəsiyində dilin öz daxili tələbatının nəticəsi olduğunu da diqqətdən kənarda qoymur və bu məsələdə həqiqətin bir-birini inkar edən yanaşmalarda deyil, həmin yanaşmaların tam obyektiv dərki nəticəsində meydana çıxan ortaq və tam adekvat məxrəcində olduğunu əyani

36 Azərbaycan Texniki Universiteti. "Xarici dillər" kafedrasının baş müəllimləri. shafigasevin@com.ru

şəkildə təsdiqləmiş olur. Xatırladaq ki, digər bir qrup alimlər "dubletlərdən nitqdə tavtalogiyaya yol verməmək məqsədi ilə istifadə olunduğunu" önə sürməklə, dubletlik hadisəsinin müsbət aspektlərinə diqqət çəkmişdir.
Semantik paralellik hadisəsini formalaşma mərhələsinə görə, təxminən iki qrup daxilində fərqləndirmək olar:
1. Alınma sözün işarələdiyi məfhumun nominasiyasına xidmət edən leksik vahidin mövcudluğu şəraitində yaranan semantik paralellik;
2. Alınma sözün işarələdiyi məfhumun nominasiyasına xidmət edən leksik vahidin qeyri-mövcudluğu şəraitində nənimsənilən və zamanla qarşılığının meydana gəlməsi sayəsində yaranan semantik paralellik.
Alınma sözün işarələndiyi məfhumun nominasiyasına xidmət edən leksik vahidin mövcudluğu şəraitində yaranan semantik paralellik halları birincinin (alınma sözün) iki halda olması mümkün olur. a) alınma sözün aid olduğu dilin intensiv leksik interferensiya cəhdləri qarşısında loyallığın nəticəsi kimi; b) interleksem kimi aktiv işləkliyi səbəbiylə müvazi işləkliyin məqsədə müvafiqliyinin nəticəsi kimi.
Alınma sözün aid olduğu dilin intensiv leksik interferensiya cəhdləri qarşısında loyallığın nəticəsi kimi meydana çıxan semantik paralellik situasiyası əsasən uzunmüddətli aktiv-proksimal, aktiv-distal bilinqvizm situasiyalarında mümkün olur. Bilinqvizimin növlərinə görə təsnifatlandırılmasını aparmış T.A.Bertaqayevin bölgüsünə əsasən məlumdur ki, aktiv bilinqvizm hər hansı bir cəmiyyətin daşıyıcısı olduğu dildən başqa, ikinci bir dilə normal ünsiyyət qura biləcək səviyyədə bələd olması ilə səciyyələnir. Distal bilinqvizm situasiyası isə onun qarşılığlı olan prosksimal bilinqvizmdən fərqli olaraq, ikinci dilin əsas ünsiyyət vasitəsi olan dilə dərin təsiri ilə səciyyələnmir. Bu növ ikidillilikdə qarşılıqlı və ya təktərəfli interferensiya faktları, əsasən leksik sistemlə məhdudlaşır. Onu da xüsusi olaarq qeyd edək ki, digər növ bilinqvistik situaisya (yəni proksimal bilinqvizim) dilin qrammatik sisteminə daha dərin nüfuz etməsi ilə səciyyələnir ki, bu da daha çox dil ittifaqı situaisyası və ya yüksək intensivliyi ilə seçilən ikidillilik şəraiti üçün xarakterikdir. Xatırladaq ki, sonuncu məqam ingilis dilinin qrammatik sistemində özünü aydın şəkildə biruzə vermişdir. Belə ki, ingilis dili 1066-cı il Norman istilasından sonra ciddi şəkildə qrammatik "sadələşmə", daha dəqiq desək, desintetikasiya (desintetikləşmə) mərhələsini keçmişdir və nəticədə müasir analitik-flektiv quruluşunu əldə etmiş olmuüdur.
Azərbaycan dilinə gəlincə, dilimizin aktiv-distal bilinqvistik ortam təşkil etdiyi ikidillilik şəraitinin "iştirakçısı" olan ikinci dillər tam fərqli tipoloji quruluşa malik olduğu üçün dilimizin qrammatik sisteminin dərin qatlarına nüfuz edə bilməmişdir. Bundan fərqli olaraq, dilimizin leksik sistemi ərəb, fars və rus dillərindən alınmalarla və eləcə də həmin dillərin tranzitliyi vasitəsilə digər dillərdən alınmalarla zənginləşmişdir. Məsələn, assosiativlik-birləşdirmə, kommunikativlik-yerdəyişmə, distributivlik-paylaşma, xarakter-xasiyyət; xasiyyətnamə-xarakteristika, dəftərxana-konselyariya; generativ-törədici.
İngilis dilində ikidillik şəraitində mənimsəniliş çox sayda alınmalar mövcuddur: chauffeur "şofer, sürücü", champagne "şampan", machine "maşın".
Sonuncu qrup nümunələr özlüyündə interleksemləri təcəssüm etdirir. İnterleksemlər beynəlmiləl terminləri və məhdud qrup ümumişlək xarakterli sözləri əhatə edir. S.Sadıqovanın qeyd etdiyi kimi, "beynəlmiləl termin" anlayışı altında dilçilikdə ümumi semantikaya malik, orfoqrafik cəhətdən yaxın olan, beynəlmiləl əhəmiyyətli anlayışları ifadə edən, dünyanın bir çox dillərində işlənilən terminlər nəzərdə tutulur. Dilçinin tam haqlı olaraq, qeyd etdiyi kimi, beynəlmiləl terminologiyada ortaq istifadə, özlüyündə, aparıcı və həlledici məqamı təşkil etsə də, həmin qrup leksik inventarın müəyyən fonomorfoloji, orfoqrafik və semantik fərqliliklərdən məhrum olmadığını da inkar etmək olmaz. Bununla belə, onu da diqqətdən kənara qoymaq olmaz ki, Azərbaycan və ingilis dillərinin leksik sistemində, xüsusilə də terminoloji inventarında paralellizm faktlarının meydana çıxmasında beynalxalq terminoloji standartlaşma təşəbbüsləri heç də sonuncu rol oynamamışdır. Belə ki, L.K.Qraudina və Y.N.Şiryayevin qeyd etdiyi kimi, təkcə XX əsrin 80-ci illərində dünya üzrə 15 mindən artıq milli terminoloji standartlaşma komissiyaları mövcud idi ki, onlardan da 200-ü Beynalxalq Standartlaşma Təşkilatında qeydiyyatdan keçmişlər və bir o qədəri də SEV ("Qarşılıqlı yardım və əməkdaşlıq təşkilatı") tərəfindən tanınmışdır. Başqa sözlə desək, ötən əsrin sonlarına yaxın təxminən 400 təşkilat milli terminoloji sistemlər arasındakı əməkdaşlığa əsaslanaraq, ortaq standartlaşma modellərinin axtarışı və tətbiqi ilə məşğul olunurdu.
Təqdim olunan nümunələrdən də göründüyü kimi, bu hallarda həm sistemdaxili, həm də sistemlərarası leksis paralelizm situasiyalarını təsbit edilməsi mümkündür. Belə ki, həmin situasiyalar da konkret bir dil sistemi çərçivəsində gerçəkləşən və dilin daxili inkşaf qanunauyğunluqları ilə şərtlənən müvazilik situasiyalarından söhbət gedir. Lakin onu qeyd etmək lazımdır ki, bu kimi faktların meydana gəlməsində ekstralinqvistik faktların da iştirak payının olması həmin dil faktlarını maraqlı dil innovasiyaları sırasına aid edir.
Nə üçün " təkrar alınma"?. Belə ki, artıq söylədiyimiz kimi, kino və sinema sözləri eyni mənbədən şaxələnmədir. Yunan dilində kino hərəkət edirəm deməkdir. Sinema sözü isə yunan dilindəki bu leksemin latınlaşmış, yəni latın dilinin fonetik sisteminə adaptasiya olunmuş variantıdır. Müqayisə üçün deyək ki, kinema , kinematos hərəkət mənasını ifadə edir və V.Aslanov "Azərbaycan dilinin tarixinə dair tədqiqlər" əsərində yazır: Bu sözün ixtisar edilmiş şəkildə film mənasında istifadəsini dilin qənaət prinsipi ilə izah edir. Maraqlıdır ki, ədəbi dildə mövqeləri möhkəmlənmiş və ixtisar edilməmiş variantın fonetik tərkibinin təhlili burada variantla bənzərliyi ortaya qoyur.: kinematoqraf – sinematoqraf, kinematoqrafik – sinematoqrafik (3, s. 271).
Variantlılıqdan törəmiş olan bu debletlilik bizim üçün ona görə maraqlıdır ki, həmin dublet cütündən biri ingilsi dili ilə tam dublet paralelizmini , digəri isə qismən dəyişiklik nümayiş etdirən natamam paralelizmi nümayiş etdirir. Məsələn: Asian cinema refers to the film industries and films producted in the continent of Asia, and is also sometimes known as Eastern cinema.

Y.Rəhimov, T.Hidayyətzadə "İngilis dilinin praktik qrammatikası" kitabında qeyd edir: "Bu kimi leksik paralelizmlər, ingilis dilinin leksikologiyası və qrammatikasını diaxronik aspektdə tədqiq etmiş mütəxəssislərin bildirdiyi kimi, bütövlükdə, ingilis dilinin leksik inventarının zənginləşməsi və qrammatik sisteminin formalaşmasında mühüm rol oynamışlar.İngilis dilinin dialect rəngarəngliyinin nətəicəsi kimi, meydana çıxan paralelizm situasiyalarının kütləviliyi ingilis ədəbi dilinin mövqelərinin möhkəmlənməsi ilə azaltmağa başladığı məlumdur (4, s. 66).

Nəticə. Beləliklə, dilimizdəki etimoloji dubletlərdən bəhs edərkən V. Aslanovun tədqiqatlarında diqqətə alınan bir çox faktların, o cümlədən, kiçik-küçük, cocuq-çocuq və cüyüx-cınqılı-dınqılı-cıqqılı/dıqqılı, habelə dırnaq /dırmaq/gırmaq/cırnaq-caynaq, eləcə də çevri-/devri - evir-/əyir-/dövrə -yörə və bununla bərabər, yumru/yumruq/yumupda/tumurcuq və s. bu kimi paralelliklərin eyni kökün fonosemantik təkamülündən törəyən etimoloji dubletlər olduğunu da qeyd etmək istərdik. Azərbaycan dilinin tarixi leksikologiyasına, habelə morfonologiyasına dair araşdırmalarda dilimizdəki etimoloji dublet törəmələrin formalaşması üçün həm anlaut mövqeyindəki konsonant səslərin, eləcə də auslaut mövqeyindəki samitlərin variativliyinin mühüm rol oynadığı qeyd edilir. Sonuncular bəzi hallarda ilkin köklə üzvlənməyə məruz qalmayaraq şəkildə birləşən fel köklərinin növ kateqoriya formatlı söz formalarıdır. Belə ki, Q.Batırovun Azərbaycan dilindəki fellərin fonosemantik inkişafına həsr edilmiş araşdırmasından bəlli olur ki, dilimizdə uzan-, azut-, dait-, dağıl-, gödəl- və s. kimi feil köklərinin konsonantı kimi başa düşülür.

ƏDƏBİYYAT

1. Axundov A. İngilis və Azərb. dillərində modallıq kateqoriası. Bakı: Elm, s. 12
2. İmanov X. Azərbaycan və inglis dillərində ədatlar. Bakı: Maarif, s. 123-138.
3. Aslanov V. Azərbaycan dilinin tarixinə dair tədqiqlər. Bakı: Maarif, s .271.
4. Rəhimov Y., T.Hidayyətzadə İngilis dilinin praktik qrammatikası. Bakı, 1966, s. 66

Açar sözlər: Azərbaycan və ingilis dilləri, dublet və semantik korrelyasiya, paralellik
Key words: Azerbaijani and Engilish Languages, Doublet and Semantic correlation, parallelism
Ключевые слова: Азербайджанский и английский языки, дублетность и семантическая корреляция, параллели

SEMANTIC CORRELATION IN ENGLISH ABOUT THE WORD PROBLEM AND LEXICAL PARENTS

Summary

Parallels are special types of expression of the same concept in different words. "If the lexical meaning is the same, there can be no stylistic presence or emotional-expressive difference in synonymy" and, unlike synonyms, "doublets are devoid of dominance and, although different in form, do not differ semantically or stylistically". We think that the presented approach fully explains the essence of doublet as a phenomenon of semantic parallelism within a system and unequivocally substantiates the idea that it has a different nature from the phenomenon of synomy.

СЕМАНТИЧЕСКОЕ СООТНОШЕНИЕ В АНГЛИЙСКОМ ЯЗЫКЕ ПРОБЛЕМА СЛОВА И ЛЕКСИЧЕСКИЕ ПАРАЛЛЕЛИ

Резюме

Параллели – это особые виды выражения одного и того же понятия разными словами. «При одинаковом лексическом значении не может быть ни стилистического присутствия, ни эмоционально-экспрессивного различия в синонимии» и, в отличие от синонимов, «дуплеты лишены доминантности и, хотя и различны по форме, но не различаются ни семантически, ни стилистически». Мы считаем, что представленный подход полностью объясняет сущность дублета как феномена семантического параллелизма внутри системы и однозначно обосновывает мысль о том, что он имеет иную природу, чем феномен синонимии.

Rəyçi: Pedaqoji elmlər namizədi, professor Tamilla Hüseynova

Sevinc Ağadin qızı Bağırova37

ELLİPTİK CÜMLƏLƏRİN LEKSİK-SEMANTİK VƏ STRUKTUR XÜSUSİYYƏTLƏRİ
(İngilis və Azərbaycan dilləri materialları əsasında)

Giriş. Bu məqalə elliptik söyləmlərin struktur-semantik xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir. Məqalədə ellipsis anlayışına yanaşmaların sistemləşdirilməsi təqdim edilmişdir. Ellipsis təbiətinə görə mürəkkəb hadisə kimi təbii dilin sintaktik sistemində xüsusi yer tutur. Məqalədə elliptik cümlə probleminin həll edilməsi sintaksis elminin ən aktual məsələlərindən biri hesab edilir. Müəllif qeyd edir ki, elliptik cümlələrin öyrənilməsində ən mühüm məsələ-lərdən biri onların struktur və semantik planlarda tamlığı və natamamlığı məsələsidir. Məqalədə həm də elliptik cümlələrin əsasən şifahi dialoji nitq üçün xarakterik olduğu qeyd edilir. Yarım-çıq (formal cəhətdən yarımçıq, lakin mənası kontekst, situasiya və ya intonasiya vasitəsilə təmin edilən cümlələr) və elliptik cümlələr arasındakı fərqlərdən danışılır.

Məqalədə göstərilir ki, elliptik cümlələr müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik cəhəti kontekstdə xatırlanmayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olmamasıdır. Elliptik cümlələr replika və dialoqlara xas olan, bir yaxud bir neçə üzvü çatışmayan, kontekstdə tam cüttərkibli cümlələrə uyğun gələn natamam cümlələr kimi təsvir edilir.Onların çatışmayan üzvləri kontekst və situasiyadan bərpa edilə bilir. Kommunikativ-semantik strukturun formalaşmasına şifahi nitqin baş verdiyi mühitin, jestlərin, nitqin tempinin, intonosiyanın və digər amillərin təsiri olduğundan əsasən yarımçıq cümlələrdən istifadə olunur.

Qeyri formallıq, səmimi ünsiyyət kimi amillər ifadələrə qənaət etməyə, mənanı anlamq üçün yetərli olan ifadələrin istifadə olunmasına imkan verir.Bu səbəblə ellipsisin öyrənilməsi bütün müasir dillərdə baş verən ünsiyyət vasitələrinə qənaət proseslərini anlamaq üçün kifayətdir.

Əsas hissə. Müasir dilçilikdə təktərkibli cümlələrin statusuna dair fərqli fikirlər hökm sürür. Bu fikirlər arasında ortaq məqam ondan ibarətdir ki, təktərkibli cümlələr tərkibində feilin şəxsli forması olmayan cümlələrdir. A.A.Şaxmatova görə, "yarımçıq cümlələr bu və ya digər üzvün buraxıldığı halda özünə yer alır (1, s. 156). Elliptik cümlələri tam cümlələrin struktur variantı kimi şərh edən A.A.Şaxmatovun fikrincə, "qrammatik baxımdan təktərkibli cümlələrin mahiyyəti subyekt və predikatın birləşməsi cümlənin bir üzvündə özünə uyğunluq tapmasından ibarətdir". A.M.Peşkovski isə öz tədqiqatlarında elliptik cümlələri "yarımçıq cümlələr" kimi nəzərdən keçirir və onları "bir və ya bir neçə üzvü çatışmayan" cümlələrə aid edir. Müəllifin fikrincə,"ikinci dərəcəli üzvləri olmayan cümlələr yarmçıq cümlələrdir" (2, c. 450). Elliptik cümlələri müstəqil cümlə kimi şərh edən V.V.Vinoqradov yazırdı ki, "ellip-tik və ya yarımçıq cümlələr" müstəqil strukturlar olmaqla yanaşı, həm də tamtərkibli cümlələr kimi kommunikativ funksiya yerinə yetirir. Onun fikrincə, "elliptik cümlələr danışıq dili cümlələrinin özünəməxsus tipikləşmiş for-malarıdır, onların xüsusi struktur tipləri özlüyündə tam cümlələrin normasının posulmasını təmsil etmir" (3, s. 29). Qeyd edək ki, xüsusi sintaktik hadisə olan ellipsis zamanı semantik strukturun elementlərindən biri söyləmin üst qatında ifadə olunmur. Halbuki elliptik konstruksiyaları linqvistik baxımdan nəzərdən keçirərkən onu struktur-qrammatik və məna vahidi kimi təqdim etmək mümkündür. Elliptik cümlələrin struktur-semantik təşkili məna yarımçıqlığı və onun yerinin doldurulması üsulları baxımından araşdırılır. Bu cür yarımçıqlığın yerinin dolumunun mənbəyi dialoq və danışığın konsituasiyası ola bilər. Elliptik cümlələrin formalaşmasında linqvistik kon-tekstlə müqayisədə konsituasiyanın təsiri daha güclüdür.

Göründüyü kimi, linqvistik kontekst elliptik cümlələrin struktur-semantik tərtibinə təsir edən amillərdən biridir. Elliptik söyləm gerçəklik situasiyasının hər hansı bir elementinin nomi-nasiya vasitəsi kimi çıxış edir. Elliptik cümlələrin semantik strukturunun formalaşması onların tipikləşmiş ünsiyyət situasiyasına daxil olması nəticəsində baş verir. Bu cür cümlələr özlərinin spesifik struktur sxemlərilə konsituativ linqvistik vahidlər kimi çıxış edirlər. Danışıqda elliptik cümlələr dildənkənar gerçəklik situasiyası ilə bağlılıq nümayiş etdirir, onların semantikası kommunikativ, situativ-istiqamətli, üstəlik mürəkkəb xarakter daşıyır. Ellipsisin müəyyənləşdirilməsində kontekst və situasiyanın həlledici rolunu nəzərdən keçirən Ş.Balli yazırdı ki, "biz ellipsisi situasiyanı "prezentasiya edən" deyktik elementlərin və ya konteksti "reprezentasiya" edən anaforik elementlərin "düşünülməsi" kimi nəzərdən keşirməkdə israrlıyıq" (4, s. 383). Oxşar fikri qeyd edən V.Q.Admoninin fikrincə, "bəzi hallarda kontekst və ya situasiya cümləni "yüngülləşdirə" bilirlər və bununla da onun tərkibinə müvafiq birləşmə formalarının birbaşa daxil edilməsindən yan keçməyə imkan verir, bu forma isə özünün real məna dolumunu situasiya və ya kontekstdən alır. Qərb, xüsusən də ingilis dilçiliyində tərkibində feilin şəxsli formasının olmadığı, lakin bu-nunla belə onların tam məzmuna malik olmalarında və buna görə də cümlələrin ekvivalenti kimi çıxış edən bilən cümlələrdən bəhs edilir. Bəzi Qərb qrammatistləri, məsələn, V.L.Çeyf təktərkibli cümlələri müstəqil cümlələr kimi fərqləndirmir. Ç.Fris isə öz növbəsində təktərkibli cümlələrin mövcudluğunu qəbul edir: "təktərkibli cümlələrin iki növü vardır: onlar ya müəyyən mübtəda və ya xəbərdən, ya da bir sözdə cəmləşdirilmiş mübtəda və ya xəbər ideyasını təmsil edən sözdən ibarət olurlar". Linqvistik mənbələrdə yarımçıq cümlələrə münasibətdə ortaq cəhət onların istənilən dildə monoloji, dialoji təzahür formalarından asılı olmayaraq danışıq dili üçün səciyyəvi olmasından ibarətdir. G.O.Kerm elliptik cümlələrdən bəhs edərkən onları struktur baxımdan tam, lakin tərkibində feili olmayan cümlələr kimi izah edir. Fikrini əsaslandırmaq üçün isə o, feilsiz əmr cümlələrinin müsal göstərir. Məsələn, Hat soff!; Your passport, please! B.Blekston isə bu tip cümlələri üslubi vasitələr kimi müəyyənləşdirir və onlara danışıda daha çox rast gəlindiyini qeyd edir. Müəllif buraya nida cümlələrini - What a hot day! və inkarlıq bildirən sözün bütöv cümləni əvəz edə bildiyi inkarlıq bildirən cavabları aid edir.

---

37 Filologiya üzrə fəlsəfə doktoru. Azərbaycan Dövlət İqtisad Universiteti. "Xarici dillər" kafedrasının müəllimi.sevincbagirova@com.ru

İ.F.Vardula görə, "sıfır sintaksemlər təkcə məzmuna deyil, həm də ifadəyə malik olmurlar. Sıfır ifadələrin özünəməxsusluğu ondan ibarətdir ki, onlarda "akustik xüsusiyyətlərin məcmusu sıfıra bərabərdir, lakin onlar da özlərini eksplisit kimi, yəni maddi ifadə olunmuş kimi aparırlar. Maraqlı məqam ondan ibarətdir ki, İ.F.Vardul sıfır və ellipsis anlayışlarını fərqləndirməyə cəhd edir: "ellipsiyaya uğramış üzvdən fərqli olaraq, sıfır üzv kontekst və situa-siyadan asılı deyildir.
H.Poutsuma isə elliptik cümlələrə mübtəda və ya xəbəri olmayan cümlələri aid edir və onlar, onun fikrincə, "kontekstdən bərpa edilə bilməz". Müəllif elliptik cümlələrin beş növünü müəyyən edir: faktı təsdiq edən, məsələn, /No pains, no gains//, emosiya ifadə edənlər, məsələn, All right!, sual, məsələn, What about her?), ritorik sual və nidalar, məsələn, One knows the value of freedom, what then?, əmr cümlələri, məsələn, Your passport, please.
Burada daha bir məqama diqqət yetirmək istərdik ki, yarımçıq (formal cəhətdən yarımçıq, lakin mənası kontekst, situasiya və ya intonasiya vasitəsilə təmin edilən cümlələr) və elliptik cümlələr arasında müəyyən aşkar fərqlər mövcuddur. Hələ birvax-tlar H.Svit yazırdı ki, "elliptik cümlələr müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik cəhəti kontekstdə xatırlan-mayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olma-masıdır".
A.İ.Smirnitski isə elliptik cümlələr dedikdə, quruluş elementləri – sözönülər, artikllər, bağlayıcılar, köməkçi feillərin olmadığı cümlələri nəzərdə tutur.
Ümumiyyətlə, danışıq üçün səciyyəvi olan elliptik cümlələr ikinci həmsöhbətin danışığında məna baxımından yarımçıq ol-ması ilə xarakterizə edilə bilər. Bu səpkili cümlələr semantik cəhətdən tam, struktur cəhətdən isə yarımçıq olan cümlələrdir. Elliptik cümlələrin strukturunda xəbər olmur və bu da həmin cümlələrə sürətlilik, şiddətlilik, intensivlik, gərginlik çaları verir. "Ellipsis ifadəsini tapmayan, amma tapması mümkün olan linqvistik dəyər" (kimi qiymətləndirən K.M.Abdullayevin fikrincə, "elliptiklik ideyası əslində sintaktik vahidin dəyərə malik yoxluğunun üzərində qurulur və məhz belə bir yoxluq el-lipsisli komponentləri, ya da başqa sözlə desək, sıfır üzvlü komponentləri başqa komponentlərlə daha sıx bağlayır". Cümlə daxilində ellipsis hadisəsinin baş verməsi heç də həmin konstruksiyada fikrin yarımçıqlığı anlamında qəbul edilməməlidir, çünki belə cümlələrdə istənilən bir üzv ellipsisə yalnız o şəraitdə uğrayır ki, cümlənin özündən və ya mətndən onun bərpası mümkün olsun. K.M.Abdullayev hesab edir ki, "ellipsisləşmə dolayısı ilə cümlə quruluşunda danışanın, infor-masiya verənin əvvəlcədən nəzərdə tutduğu modelin təqdim edilməsinə xidmət edir. Beləliklə, ellipsisli cümlə quruluşunu yalnız formal baxımdan deformasiyaya uğramış kimi qəbul etmək olar. Əslində bu deformasiyaya uğramış quruluş informasiya qəbul edənin dil şüurunda gizlənmiş tam təsəvvürüdür". Cümlənin insan fikrinin subyektiv xüsusiyyətlərinə şərtlənmiş ellip-sisi dilin ən geniş ya-yılmış hadisələrinə aiddir. F.Y.Veysəllinin fikrincə, "elliptik cümlələrə - Haraya? - Evə (gedirəm), Evə - Hə(əvəzinə). Bu cümlələr qrammatik cəhətdən tam formalaşmadığına görə onlara parselyativ və ya parazitiv cümlələr də deyilir".
A.Y.Məmmədov ellipsis hadisəsini tədqiq edərkən onun kontekst və konsituasiya ilə bağlı aşağıdakı növlərini fərqləndirmişdir: "1) dialoqda ellipsis; 2) anaforik konstruksiyalarda ellipsis; 3) yarımçıq cümlələrdə ellipsis".
İngilis dilində feilsiz əmr cümlələri adi məişəşət danışığında geniş işlənməkdədir. Tərki-bində feil olmayan bu söyləmlər adətən isimlərdən ibarət olur. Bu söyləmlər xüsusi intonasiya ilə müşayiət olunur. Məsələn, Silence!, The salt, please!, Hats off!, Quite!, Out!, Out with it!
Əlavə edək ki, linqvistik mənbələrdə feilsiz söyləmlər qrammatik cəhətdən "qüsurlu" hesab edilir, çünki onlara bir əsas hissə xasdır. Bina görə də onlar tamtərkibli cümlənin elementlərinə parçalana bilmir. İngilis dilindəki əmr cümlələri dinləyəndə qəti əmr, təklif və ya dəvət təsiri yaradır. Feilisiz əmr cümlələrinin baş üzvünün morfoloji təbiətindən asılı olaraq aşağıdakı tiplər üzrə təsnif edilə bilər.
Substantiv əmr cümlələri (bu zaman cümlənin baş üzvü isimlə ifadə olunur). Məsələn, Tea!; Tea at once!; And some brandy immediately!; /Blore, a taxi for Miss Dinny//; /Two beers for us out here//; /Not word about this,» he said, and laid an index finger against his lips//.sözönü ilə təqdim edilmiş substantiv cümlələr. Bu tip cümlələrdə sözönü isimdən əvvəl gəlir və birlikdə cümlənin baş üzvü kimi çıxış edirlər. Məsələn, Out of the way there! /Shouted the captain// ¡They're on the match! ¡They're coming up the drive!
Məlumdur ki, feilsiz əmr cümlələrinin hamısı üçün ümumi cəhət onların kontekst (konsi-tuasiya) və danışıq situasiyası ilə sıx bağlılığıdır ki, məhz bunun sayəsində onlar kommunikativ cəhətdən funksionallıq qazana bilirlər. Özlərinin qrammatik naqisliyinə görə bu tip söyləmlər ellipsis, sıfır üzvlü cümlə adlandırılan nitq strukturlarına yaxındır. Lakin qeyri-predikatıv söyləmləri ellipsislərlə eyniləşdirmək məqsədəuyğun deyildir, çünki elliptik cümlələr danışıqda müəyyən konnotativ şəraitdə meydana çıxır. Məsələn, Here! və ya Quickly. Halbuki, qeyri-predikatıv söyləmlər informasiyanın ixtisarının konnotativ nəticəsi deyil, qeydə alınmış qrammatik normadır və buna görə də ellipsisə bərabər tutula bilməz. O.Musayev bu tip cümlələri yarımçıq cümlələr kimi izah edir. Onun fikrincə, "... ingilis dilində də bəzən, xüsusən şifahi nitqdə cümlə üzvlərindən biri və ya bir neçəsi buraxılıq, işlədilmir; ünsiyyət baxımından ona ehtiyac hiss olunmur". Daha sonra müəllif yarımçıq cümlələr adlandırdığı bu cümlələrin mübtədadan, xəbərdən, tamamlıqdan, zərflikdən və bir də modal sözlərdən ibarət olmaqla 5 növünü göstərir. Müəllif mübtədadan ibarət olan yarımçıq cümlələrə (təktərkibli) nümunələr verir. O.Musayev həm də təktərkibli və yarımçıq cümlələrin fərqləndirilməsinə də münasibətini bildirir. Onun fikrincə, "...yarımçıq cümlədə buraxılmış üzv asanlıqla bərpa edilə bildiyi halda, təktərkibli cümlələrdə heç bir üzv buraxılmadığına görə, onu bərpa etmək mümkün olmur".
Nəticə. Beləliklə, ellipsis dialoji nitqi xarakterizə edən əsas vasitələrə aiddir. Ellipsisin dialoji ünsiyyətdə müntəzəm istifadə edilməsi təkcə normativliyini deyil, həm də həmin vasitənin qanunauyğun və məqsədəuyğun olmasını sübut edir.

Ellipsisdə dialoji nitqin əsas məziyyəti – fuksiyanın mənasının strukturun mənasının üzərində üstünlüyünə meyil" özünü büruzə verir. Ellipsisin köməyilə informasiya cərgəsi daha dəqiq qurulur, mənanın detallaşmasına yardım edən sinonim əvəzetmələr vasitəsilə həmin informasiya cərgəsinin dəyişməsi baş verir".

Ədəbiyyat

Шахматов А.А. Синтаксис русского языка. С.т-Петербург: Изд. ЛКИ, 2007, с.156
Пешковский А.М. Русский синтаксис в научном освещении. М., 2001, 450 с.
Виноградов В.В. Некоторые задачи изучения синтаксиса простого предложения, с. 3-29
Балли Ш. Общая лингвистика и вопросы французского языка. M.URSS, 2001, 383 с.

Ключевые слова: предложение, неполные предложения, структура, конситуация, контекст, высказывание, модель предложения, эллиптические предложения
Key words: sentence, incomplete sentences, structure, consituation, context, utterance, sentence model, elliptical sent

Структурно-семантические особенности эллиптических высказываний

Резюме

Данная статья посвящена вопросам изучения структурно-семантические особеннос-тей эллиптических предложений. В ней представлена систематизация подходов относительно статуса понятия эллипсиса. Эллипсис, как сложное по своей природе явление, занимает особое место в синтаксической системе естественного языка. В статье подчеркивается, что решение проблемы эллиптических предложений является одной из важнейших задач синтаксической науки. Автором отмечается, что при изучении эллиптических предложений одной из важных задач является определение их полноты или неполноты в структурном и семантическом отношениях.

Structural and semantic features of Elliptical expressions

Summary

The article focuses on the study of structural and semantic features of Elliptical sentences. It provides the systematization of approaches concerning the status of ellipsis. Ellipsis is of a complex nature and has been particularly significant for the syntactic system of natural language. In the article it is stressed that dealing with the issue of elliptical sentences is a major challenge for Syntax. It is submitted that defining structural and semantic completeness or incompleteness of elliptical sentences is one of the priority tasks for research of elliptica sentence.

Rəyçi: filologia elmləri doktoru, dosent Yusif Süleymanov

Günel Tehran qızı Quliyeva38

ƏDƏBİ İNGİLİS DİLİNİN TƏLƏFFÜZ ÜSLUBLARI

Dil cəmiyyətin varlığı, onun təşəkkülü və inkişafı üçün çox zəruri olan vasitədir. Cəmiyyətdə dilin başlıca rolu onun ünsiyyət vasitəsi olmasıdır. Dil təfəkkürün ifadə vasitəsi olmaqla yanaşı ictimai hadisədir. Dil daima bu və ya digər ictimai hadisələrlə əlaqəlidir. Dilin ən əsas başlıca səciyyəvi cəhəti ondan ibarətdir ki, o yalnız bir neçə ilin deyil, uzun bir tarixi inkişaf yolunun məhsuludur. Dil cəmiyyət, ictimaiyyət daxilində formalaşan bir vasitədir. Dili yaradan xalqdır və buna görə də hər hansı bir dilin inkiafı xalqın taleyi ilə vəhdət təşkil edir [1].

Hər bir xalqa məxsus ədəbi dil çox uzun tarixi inkişaf mərhələləri keçərək və müxtəlif təsirlərə məruz qalaraq milli dil statusunu qazanmışdır. Təbii olaraq ədəbi dil anlayışı haqqında müxtəlif dilçi alimlərin fərqli fikirləri mövcuddur. Bir çox dilçi alimlərin fikirlərinə əsasən ədəbi dil anlayışı yalnız düzgün yazı normaları çərçivəsində formalaşan dildir. Bu cür fikirlərə qarşılıq olaraq Dəmirçizadə özünün linqvistik əsərlərinin birində qeyd edir: "Bəziləri ədəbi dil dedikdə ancaq yazılı dili anlamışlar, şifahi ədəbi dilin ola biləcəyini ağıllarına belə gətirməmişlər. Buna görə də ədəbi dil və onun inkişafı dedikdə, ancaq yazılı ədəbiyyatın, yazılı sənədlərin, nəhayət, kitabların dilinin tədqiq etməkdən uzağa getməmişlər. belə anlayış nəticəsində "yazısı olmayan xalqların ədəbi dili olmaz" kimi yalnış anlayış meydana çıxmış, yaxud bu və ya digər xalqın ədəbi dilinin başlanğıcı həmin xalqın yazıya malik olduğu dövrdən hesab edilmişdir [2].

Nümunə olaraq qeyd edə bilərik ki, V.V.Vinoqradov, A.S.Çikobava və başqa dilçilər şifahi poeziyanın, xalq ədəbiyyatı nümunələrinin dilini ədəbi dil hesab etməmişlər. Bu cür mübahisəli fikirlərdən belə bir nəticəyə gəlmək olar ki, ədəbi dil anlayışı dilçilikdə düşünüldüyü qədər aydın şəkildə izahını tapmamışdır. Lakin ümumi bir fikirlə razılaşmaq olar ki, ədəbi dil dedikdə onun yazı və ya şifahi formada hər hansı bir dilin işlənmiş, cilalanmış, leksik, qrammatik və fonetik normalara cavab verən və formalaşdırılmış variantı nəzərdə tutulur.

Onu da qeyd etmək yerinə düşərdi ki, hər bir xalqın ədəbi dili onun tarixi inkişafının və təkamülünün nəticəsi kimi qiymətləndirilir. Tarixi inkişafın müəyyən mərhələsində ölkənin müxtəlif bölgələrində danışılan dialektlərdən biri milli dil kimi başqaları üzərində üstünlük qazanaraq ünsiyyət vasitəsinə çevrilir. Buna səbəb ölkədə yaranan iqtisadi, siyasi, sosial, ictimai, mədəni amilləri göstərmək olar. Bu prosesin nəticəsi olaraq ünsiyyət zamanı istifadə olunan dialektlərdən biri ölkənin dövlət dilinə çevrilir.

İngiltərənin milli dili London dialekti əsasında yaranmışdır. Bu vaxt London sürətlə genişlənmiş və onun coğrafi şəraiti və digər amillər Londonun ölkənin mərkəzinə çevrilməsinə səbəb olmuşdur. XIV əsrdə London İngiltərənin ictimai, siyasi, mədəni, təhsil, mərkəzi olmaqla paytaxt statusu qazanmış və London milli dilinin formalaşması prosesi onun ədəbi tələffüzünün yaranması ilə müşaiyət edilmişdir.

Ədəbi ingilis dilinin spesifik xüsusiyyətləri onun fonetik strukturu, leksik materialı və qrammatik qanunları ilə xarakterizə edilir. Ədəbi ingilis dilində danışan adam kifayət qədər leksik materialdan, qrammatik qanunlardan və düzgün tələffüz normalarından istifadə edir. Belə adamların nitqi rəvan, səlis və aydın olmaqla yanaşı anlaşıqlı və məntiqli qəbul edilir. Bu halda danışan savadlı və düzgün danışan şəxs kimi tanınır və onun dili "ədəbi dil" hesab edilir.

Ədəbi ingilis dili özünün ümumi xüsusiyyətləri ilə diqqəti cəlb etsə də, o, heç də statik deyildir, müəyyən dəyişmələri mümkün edir. Bəzən eyni səsin və ya sözün müxtəlif şəkildə tələffüz edilməsinə rast gəlinir. Tələffüz daima dəyişir, yenilənir. Bəzi sözlər nitqdən uzaqlaşır, yeniləri meydana çıxır. Belə ki, orta əsrlərdə nitq prosesində istifadə olunan bir neçə səslər müasir ingilis dilində işlənmir. Bəzən isə eyni sözlərin fərqli-fərqli insanlar tərəfindən müxtəlif formalarda və müxtəlif şəraitlərdə, vəziyyətdən asılı olaraq tələffüz edildiyinin şahidi oluruq. Bu cür hallar canlı danışıq dilində müxtəlif üslubların yaranmasına səbəb olur. Məsələn, məhkəmə prosesində prokuror və ya məhkəmə hakiminin nitq üslubu onların yaxın adamları ilə ünsiyyət qurarkən istifadə etdiyi nitq üslubundan təbii olaraq fərqlənir. Hətta eyni şəraitdə müxtəlif peşəyə malik olan insanların nitq üslubunda çox vaxt fərqlilik müşahidə etmək olur. Söz və cümlələrin müxtəlif tərzdə tələffüz edilməsi "tələffüz üslubu" kimi qəbul edilir. Tələffüz üslublarının özünəməxsus xüsusiyyətləri vardır ki, bunlar müxtəlif dillərdə fərqlidir. İngilis və Azərbaycan dillərinin tələffüz üslublarının göstəriciləri fərqli ola bilər. İngilis fonetistlərindən D.Counz tələffüz üslublarının özünəməxsus təhlil edərək tələffüz üslublarını sürətli formal üslub, aramlı danışıq üslubu, geniş kütləyə müraciət olunan təbii üslub, qəbul edilimiş səhnə üslubu, ifaçılıqda qəbul edilmiş üslublar kimi hissələrə bölür.

Qeyd etmək yerinə düşərdi ki, bir çoxları tələffüz üslubları ilə ədəbi üslubları qarışdırır. Belə ki, bədii üslub roman, hekayə, şeir, poema, qəzet, jurnal və s.üslublarını nəzərdə tutduğu halda, tələffüz üslubları canlı danışıq dilini nəzərdə tutur.

Tələffüz üslublarının xüsusiyyətləri, bir qayda olaraq, canlı danışıqda sözlərin aydın, səlis və düzgün tələffüzünü, sözlərin qüvvətli və ya zəif deyilməsini, şifahi danışıqda bütün fonetik hadisələrə düzgün əməl olunmasını nəzərdə tutur.

L.V.Şerba tələffüz üslubunun əsas prinsipi kimi danışığın səlistliyinin dərəcəsini qeyd edir. Onun fikrincə, bu prinsipə əsasən tələffüz üslubunun iki növünü qeyd etmək olar: 1. Tam üslub; 2. Danışıq üslubu

Tam üslub danışıqda sözlərin tam formada və aramla tələffüzünü nəzərdə tutur. Bu halda sözlərdəki sait və samitlərin düzgün tələffüz edilməsi, heç bir səs düşümü və təsadüfi assimilyasiyaya uğramasına yol verilmir. Bu halda aksent və intonasiya hadisələri qaydasında və yerli-yerində işlənilir. Bir çoz tələffüz üslublarında, məsələn mahnı ifaçılığında, radio və televiziya verilişlərində xəbərlərin oxunuşunda hər bir tələffüz olunan söz düzgün vurğu ilə və aydın şəkildə tələffüz edilir. Eyni zamanda dövlət əhəmiyyətli sərəncamların və fərmanların oxunuşu da tam üslubda verilir.

---

38 Odlar Yurdu Universiteti. quliyeva-2022@inbox.ru

Danışıq üslubu özünün sürəti və ehtiyatsızlığı ilə tam üslubdan fərqlənir. İngilis və Azərbaycan dillərində tələffüz üslublarının özünəməxsus xüsusiyyətləri vardır. Xarici dili öyrənərkən tam üslubla yanaşı danışıq üslubları ilə tanış olmaq lazımdır. Məşhur dilçi alim L.V.Şerbaya görə danışıq üslubunun iki variantı var: 1. Ehtiyatlı danışıq üslubu; 2. Ehtiyatsız danışıq üslubu.

Ehtiyatsız danışıq üslubu ehtiyatlı danışıq üslubundan bir çox cəhətləri ilə fərqlənir. Belə ki, ehtiyatsız danışıq üslubunda lüzumsuz danışıq üslublarından, təsadüfi assimiliyasiya hallarından istifadə edilir.

İngilis dilinin öyrənilməsində ilk növbədə sözlərin tam formada tələffüz üslubuna yiyələnmək lazımdır. Daha sonra isə ehtiyatlı danışıq üslubu ilə tanışlıq mümkündür. Hər iki tələffüz üslubunun göstəricilərini bilmək canlı danışıq dilində ünsiyyətə girmək imkanını artırır.

İngilis ədəbi dili iki formada- yazılı və şifahi formada təşəkkül tapmışıdır. Dilin hər iki forması bir-biri ilə sıx şəkildə əlaqəlidir və biri digərindən təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Dil ünsiyyət vasitəsi kimi yalnız şifahi formada deyil, eləcə də yazılı formada fəaliyyət göstərir. Dilin yazılı formasının yaranması və inkişaf etməsi haqqında biliyə malik olmağın praktik olduğu kimi, nəzəri əhəmiyyəti də vardır. Odur ki, fonetikanın əsas məqsədlərindən biri də dildə işlənən nitq səslərinin və onun yazıda ifadə forması olan hərf və qrafemlər arasında mövcud olan əlaqəni öyrənmək və təhlil etməkdir. Şifahi danışığın əsaslandığı qrafik ifadə prinsiplərini öyrənmək və şifahi danışıqda ondan istifadə etmək bacarığına yiyələnmək üçün müəyyən qanunların təsbit edilməsinin dilçilik baxımdan böyük əhəmiyyəti vardır. İngilis dilinə məxsus orfoepik və orfoqrafik qaydalara yiyələnmək heç də asan iş deyildir. Oxu və yazı qaydalarına yiyələnmək hətta ingilislərin özləri üçün də çətinlik törədir. İngilis dilinin yazılı formasının şifahi formada tələffüzü çox çətinlik törədir. Belə ki, yazılı dilin formalaşması bir neçə prinsipə əsaslanır ki, bunlardan da ən az istifadə olunan prinsip fonetik prinsipdir. Bəzi dilçi alimlərin fikrincə, yazılı dilin fonetik prinsipə əsasən təşəkkül tapması yazıda hər bir hərfin şifahi danışıqda bir səsə uyğun gəlməsindədir. Məhz bu səbəbdən ingilis dilində "pit, fat, set, let" sözlərinin qrafikası fonetik prinsipə əsaslanır.

Fonoloji baxımdan fonetik prinsipin bu şəkildə əsaslandırılması düzgün qəbul edilə bilməz, çünki dildə bu qəbildən olan sözlərin sayı çox azdır. Sözün yazılışında qrafikanın şifahi nitqin ifadə forması kimi az təsadüf edilir. Belə ki, bir çox hallarda səslərin hərfbirləşmələrində və ya əksinə hərfbirləşmələrinin şifahi danışıqda ifadəsi öz əksini tapmır.

Hərflər şifahi danışıqda olan nitq səslərinin (allophonların) ifadə forması deyil, yalnız bir neçə variantın əsası olan fonemin ifadə vasitəsi olduğu üçün, demək olmasz ki, məsələn, "left" və ya "felt" sözlərinin yazılışı fonetik prinsipə əsaslanır. Odur ki, yazılı nitqdə hər bir fonemin özünün ifadə vasitəsindən danışmaq daha düzgün olardı. Belə bir ifadə vasitəsi müasir dilçilikdə qrafem adlanır. Qrafem bir qayda olaraq orta mötərizə işarəsi içərisində qeyd edilir. Hər bir dildə fonemlərin qrafik olaraq yaratdığı sistem qrafem sistemi adlanır.

Funkisonal baxımdan qrafemlər fonemlərə bənzəyir. Fonemlər kimi, qrafmelərin də iki funksiyası mövcuddur.

1. Yaradıcı funksiya
2. Fərqləndirici funksiya

Dildə mövcud olan leksik vahidlərin fərqləndirilməsində qrafemlərin rolu böyükdür və bu çox vaxt simvolik prinsip kimi qəbul olunur.

Qeyd etmək lazımdır ki, dildə fonetik dəyişmələr qrafik dəyişmələrdən daha tez-tez baş verir. Odur ki, başqa prinsiplər fonetik prinsipdən daha çox orfoepiyada istifadə edilir. Bu nöqteyi-nəzərdən fonetik prinsip ədəbi dilin yazılı formasında istifadə edilə bilməz. Belə ki, eyniz söz ölkənin müxtəlif bölgələrində müxtəlif şəkildə tələffüz edilir. Yazılı nitq fonetik prinsipə əsaslanmış olsaydı, bir sözün bir neçə yazılış formalarına ehtiyac duyulardı və bu da ədəbi dil üçün normal hal hesab edilə bilməz. Əks halda yazılı dilin dialekt formaları meydana çıxardı.

Fərqləndirmə prinsipi isə homofonları fərqləndirmək üçün istifadə olunur. Avropa dillərində bu prinsip müstəqil bir prinsip kimi qəbul edilə bilməz. Çünki bu prinsip tarixi ənənəyə əsaslanır. Müxtəlif dillərdən alınmış sözlərin etimologiyası imkan vermir ki, bu sözlərin yazılışında fonetik prinsipdən istifadə edilsin. Müxtəlif dillərdən alınmış fonetik cəhətdən eynilik təşkil edən sözlərin yazılışında tarixi ənənəyə əsaslanması məcburidir. Belə ki, eyni tərkibə malik olan sözlər blue və blew, meet və meat, sea və see yazılışda tarixi prinsipə əsaslanır.

Bu baxımdan ingilis dilinin orfoqrafiyası çox mürəkkəb və çoxcəhətlidir. İngilis dilinin yazılı forması daha çox tarixi prinsipə əsaslanır. Fonetik prinsipdən o vaxxt istifadə edilə bilər ki, bir səs bir həriflə ifadə edilmiş olsun və ya tələffüz zamanı ortaya çıxan bir hərf oxunmasın. Bu baxımdan müasir ingilis dilinin yazılı formasından fərqli olaraq qədim ingilis dilinin yazılı forması foentik prinsipə əsaslanır. Tarixi inkişaf prosesində ingilis dilinin samit fonemlər sistemi isə tamamilə dəyişikliyə məruz qalmışıdır. XII-XIV əsrlərdə Anqlo-Frenç tayfalarının nisbətən təsirindən müəyyən yeniliklər edilmişdir. Onlar ingilis dilinin yazılış qaydalarına bəzi fransız dilinə məxsus qaydaları tətbiq etmişlər. XVI əsrdə ingilis dilinin orfoqrafiyasını təkmilləşdirmək üçün müəyyən dəyişiliklər edilmişdir. Latın, norman-fransız və fransız dillərindən alınmış sözlərin yazılışı ingilis dilində müxtəlif formaların yaranmasına səbəb olmuşdur. Buna görə də ingilis dilinin yazılış qaydalarında tarixi prinsip əsas rol oynayır.

İngilis dilinin yazı qaydalarının inkişafında morfoloji prinsipin də yeri vardır. Belə ki, qaydalı feillərin keçmiş zaman formasının morfoloji ifadəsi "ed" formasında qəbul edilmişdir. İsmin cəm halının və indiki qeyri-müəyyən zaman forması, üçüncü şəxs təkdə "s, es" sonluqları qəbul edilmişdir. Bu morfemlər [s,z,ız] kimi tələffüz edilsə də, yazıda eyni qrafemlərlə verilir. Və yaxud "the" müəyyənlik artiklinin yazıda müxtəlif formalarına rast gəlmək olar.

İstifadə olunmuş ədəbiyyat

1. Bayramov A., Məhərrəmov Z., İsgəndərzadə M. "Azərbaycan dili və mədəniyyəti", Bakı: 2015

2. Dəmirçizadə Ə. "Azərbaycan ədəbi dilinin üslubiyyatı, Bakı: Azərtərinəşr, 1962
3. Şerba L.V. Xarici dilləri necə öyrənmək olar, Moskva,1929
4. Daniel Jones "The Pronunciation of English", Cambridge.

Açar sözlər: ədəbi dil, tələffüz normaları, üslub, fonetik prinsip
Key words: literary language, pronounciation norms, style, phonetical principle
Ключевые слова: литературный язык, нормы произношения, стиль, фонетический принцип

Pronunciation norms of literary English

Summary

The article deals with the origin of the literary English language, the process of historical development and pronunciation methods of the English language. Extensive research of the pronunciation patterns in the teaching process of the English language is of great importance in the modern times. One of the main responsibilities of a language teacher is to adhere to the correct pronunciation norms while teaching any foreign language.
In the article is explained in detail the ways and methods of mastering the correct pronunciation norms in the form of examples. In addition to discussing the features of the pronunciation methods in the researched work, the explanation of the differences between the full style and the converational style is also widely discussed. Researching the pronunciation normsof the Azerbaijani language and the English language in a comparative way forms the main part of the article.

Произносительные нормы литературного английского языка

Резюме

В статье рассматривается происхождение литературного английского языка, процесс исторического развития и способы произношения. Обширные исследования моделей произношения при обучении английскому языку имеют большое значение в наше время. Одной из основных обязанностей преподавателя иностранных языков является соблюдение норм правильного произношения при обучении любому иностранному языку. В статье подробно разъясняются способы и методы усвоения норм правильного произношения в виде примеров. Помимо обсуждения особенностей стилей произношения в исследовательской работе широкое место отводится и объяснению различий между полным стилем и стилем говорения. Сравнительное изучение произносительных норм азербайджанского языка и произносительных норм английского языка составляет основное содержание статье.

Rəyçi: f.f.d., dos. S.Abdurəhmanova

Nigar Xalid qızı Həsənova, Gülnarə Ədhəm qızı İsmayılova39

İNGİLİS DİLİNDƏ FEİLİN XƏBƏR ŞƏKLİNİN GRAMMATİK ZAMAN FORMALARI VƏ ONUN AZƏRBAYCA DİLİNDƏ İŞLƏNMƏSİNƏ DAİR

Giriş. Şəkilçilərin işlənib-işlənməməsinə görə feilin xəbər şəklinin özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə seçilir. Türk dillərinin hamısında olduğu kimi, Azərbaycan dilində də xəbər şəklini başqa şəkilçilərdən fərqləndirəcək xüsusi şəkilçilər yoxdur.Yəni özünəməxsus elə bir şəkilçi yoxdur ki, məsələn, feilin, vacib, lazım, arzu, şərt və s. Şəkillərindəki kimi, xəbər şəklini formal cəhətdən yanaşanlar, bəlkə də onun cəhətinə əsaslanirlar.Lakin feil şəkillərinin ümumi vəzifəsi, yəni hərəkətin gerçəkliyə münasibəti baxımından xəbər şəklinin müstəqil varlığına nəinki şübhə qalmır, əksinə, o başqa şəkillərdən öz genişliyi və zənginliyi ilə tamamilə fərqlənir.Digər tərəfdən, feil şəkillərinin varlığını şərtləndirən qalan iki xüsusiyyətin,zaman və şəxsi, xüsusən zaman şəkillərinin işlənməsinə görə də xəbər şəkli başqa şəkillərə nisbətən üstünlük təşkil edir. Daha doğrusu, feil şəkilləri içərisində yalnız xəbər şəkli qrammatik zaman əlamətlərini özündə birləşdirir. Feilin bu şəklinin ümumi məzmunu zaman və şəxs anlayışları ilə daha çox bağlı olduğu üçün xüsusi şəkilçiyə ehtiyac qalmır.

English grammar. M.Ganshina. N.Vasilyevskaya adlı müəlliflər əsərlərində qeyd edirlər: "Çünki xəbər şəklində hər hansı bir iş, hal və hərəkətin icrası müəyyən şəxs tərəfindən xəbər verir. Bunun üçün isə zaman şəxs şəkilçiləri vardır. Deməli, zaman və şəxs şəkilciləri vardır. Deməli, zaman və şəxs şəkilçiləri xəbər şəklinin modallıq semantikasını bütünlüklə ifadə etdiklərinə görə başqa əlamətlərə ehtiyac qalmır. İrəlidə deyilənlərdən aydın olur ki, feilin xəbər şəkli bütövlüklə zaman və şəxs anlayışları ilə bağlıdır" (1, s. 34-38).

Əsas hissə: İngilis və Azərbaycan dillərində xəbər şəkli real iş bildirir.Başqa sözlə desək, işin keçmiş, indiki və gələckdə icra olunub-olunmamasını göstərir.Bu və ya digər işin ümumi zamanın müxtəlif anlarinda icrası isə dildə qrammatik zaman kateqoriyasının varlığını şərtləndirir.

Qrammatik zaman obyektiv zamanın dildə ifadə Vasitəsidir.Lakin məlumdur ki, obyektiv zaman şüurdan asılı olmayaraq mövcud olduğu kimi, onun başlanğıcı və sonuda yoxdur. Bir sözlə, obyektiv zaman öz-özlüyündə hissələrə bölünür.O ardıcıl davam eden tam şəkildədir.

Lakin baş vermiş hər hansı bir hərəkət obyektiv zamanın mütləq müəyyən bir nöqtəsinə, anına aid olur.Obyektiv zamandan fərqli olaraq, qrammatik zaman şüurla, onun gerçəkliyi əks etdirmə dərəcəsi və inkişaf səviyyələri ilə bağlıdır, bununla əlaqədar olaraq bütün dünya xalqları üçün ümumi olan obyekt zaman bu xalqlarin müxtəlig ictimai, iqtisadi və mədəni,bir sözlə özünəməxsus inkişafi ilə bağlı, onların dilində də müxtəlif səviyyədə və müxtəlig formalarda ifadə olunur.

Bu baxımdan İngilis və Azərbaycan dilinin obyektiv zamanı ifadə etmək üçün özünəməxsus üsul formaları vardır ki, bunlar da qrammatik zamanı vardır ki, bunlarda qrammatik zamanı özündə birləşdirir.İşin, hadisənin,obyektiv zamanın müxtəlig anlarında baş verməsindən asılı olaraq qrammatik zamanın keçmiş, indikin və gələcək kimi növləri meydana çıxır.

Bu növlər içərisində idiki zaman meyar müəyyənləşdiricisi sərhəd kimi qəbul edilir, keçmiş və gələcək zamanlardan varlığını şərtləşdirir. Söz söyləninən vaxta ocra olunan iş, hal və hərəkət, indiki, söz söylənən vaxtdan icra olunan iş,hal və hərəkət indiki, söylənən vaxtdan icra olunan iş, hal və hərəkət gələcək, söz söylənən vaxtdan qabaq icra edilmiş iş,hal və ya hərəkət isə keçmiş zaman adlanır. Feil zamanlarının morfologiyadakı yeri qəti olmalıdır.

English grammar in USE. Murphy (advanced) toplusunda yazılır: "Feil zamanlarinin qrammatikada dəqiq müəyyənləşdirilməsi həm onların öyrənilməsi, həm də lüzumsuz tərarı aradan qaldırır.The Indicative Mood (xəbər şəkil) hər hansı bir iş, hal, hərəkətin müəyyən zamanda, müəyyən şəxs tərəfindən icra olunması haqqında xəbər verir. Yəni şəklinin semantikası, əsasən zaman və şəxs kateqoriyaları ilə bağlıdır. Bu kateqoriyalardan ikincisi, xəbər şəkli ilə bərabər, feilin başqa şəkillərində özünü görsədir. Feil zamanları qrammatik kateqoriya kimi yalnız xəbər şəkli ilə bağlıdır. Belə ki zaman şəkliçisi qəbul etmiş feillər xəbər şəkli dairəsindən kənara çıxa bilmir. Ümumiyyətlə, xəbər şəkli feilin başqa şəkillərinə nisbətən qrammatik cəhətdən tam diferensiallaşmışdır (2, s. 123).

Butun turk dillerində olduğu kimi azərbaycan dilində feil zamanlarının üç növü haqqında heç bir fikir ayrılığı özünü göstərmir.

İgilis dilində konkret dil faktları əsasında feil zamanları aşağıdakı şəkildə təsnif olunur:The present İdefinite Tense Form – İndiki qeyri- müəyyən zaman forması.

Bu zaman forması hal-hərəkətin indiki qeyri müəyyən bir anda baş verdiyini bildirir.

Ex: we go to school every day.

1) zaman əsasən adət, vərdiş halina düşmüş, həmişə baş verən, təkrar olunan hərəkətləri ifadə edir.Məs:It snows in winter- Qışda qar yağır.

2) İndiki zaman real bir fakt kimi hərflərin işlənməsi ilə səciyyələnir.

Məs: He often tells me interestig stories.

3) İndiki zaman və şərt budaq cümlələrində hərəkət gələcəyə aid olduqda işlədilir.

Belə halda budaq cümlə ən cox if, when, before, as soon as ilə başlayır.

İf he comes- Əgər o gəlsə;When they return- onlar qayıdanda

When I see him- Mən onu görəndə;İndiki zamanın şəkli əlaməti.İndiki zaman fel əsasında-ır- ir- ur- ür; - yır- yir- yur- yür şəkilçisinin əlavəsilə düzəlir.

---

39 Azərbaycan Texniki Universiteti. "Xarici dillər"kafedrasının baş müəllimləri.nigargulya@com.ru

Ex: I come, he goes, she smiles;İndiki zaman aşağıdaki şəxs şəkilçilərinin qəbul edir: birinci şəxsin təkində -am- əm: alıram, gəlirəm; cəmində - ıq- ik- uq- ük:
Məs: alırıq,gəlirik; ikinci şəxsin təkində -san- sən məs: alırsan, gəlirsiniz. Üçüncü şəxsin təkinin şəxs şəkilçisi yoxdur. Məs: alır, gəlir, durur,gülür.
O.Musayev: "İngilis dilinin grammatikası" (B., 1986) dərsliyində müəllif yazır: "Azərbaycan dilindən fərqli olaraq ingilis dilində indiki zaman tək bir zamanla deyil 4 zamanla səcyyələnir.
1) The present İndefinite Tense Form;2) The present Continuous Tense Form
3) The present Perfekt Tense Form;4) The present perfekt Continuous Tense Form
The present Continuous – un aşağıdakı işlənmə halları var (3, s. 66-69).
1. Şəxsə xas olan səciyyəvi xüsusiyyəyləri ifadə edərkən: (Constantly – elə hey zərfi ilə);She iz constantly laughing – Oelə hey gülür
2. Hərəkətin danışılan anda ifadə olunduğunu bildirir.;Is it raining? Raining?
It is raining.
3. Davamlı hərəkətin müəyyən bir müddətdə icra olunduğunu: Bu zaman this winter; this summer və s. işlədilir.Ex: we are learig English Grammar this summer.Bu yay biz ingilis dilinin qrammatikasını öyrənirik.
Azərbaycan dilində də davamlı indiki zaman var. O, iş hal və ya hərəkətin söz söylənən vaxtdan əvvəl başlanıb davam etdiyini bildirir.Ex: Tikintidə hidrotexnika getdikcə üstünlük qazanmaqdadır.(Ə.Sadiq)
4. The present perfekt Tense Form – indiki bitmiş zaman forması aşağıdakı hallarda işlədilir.
1) Keçmişdə icra olan və nəticəsi indiki anla bağlı olan, göz qabağında olan hərəkətləri.I have read thiz book –Mən bu kitabı oxumuşam (danışan və dinləyici ücün kitabın nə vaxt oxunduğu vacib deyildir. Vacib olan odur ki, kitab artəq oxunmamışdır.)
2) İndicə baş vermiş hərəkətləri ifadə etmək ücün. Belə halda " just " zərfi işlənir.
İngilis dilində konkret dil faktları arasında fel zamanlarə aşağıdakı şəkildə təsnif olunur.The present Indefinite Tens From – İndiki qeyri – müəyyən zaman forması.
Bu zaman forması hal – hərəkətin indiki qeyri müəyyən bir anda baş verdiyini bildirir.Ex: we go to scool every day
3. İndi zaman əsasən, adət vərdiş halına düşmüş, həmişə baş verən, təkrar olunan hərəkətləri ifadə edir.
It snows in winter – Qışda qaqr yağır.
4. İndiki zaman real bir fakt kimi zərflərin işlənməsi ilə səciyyələnir.
He often trlls me interesting stories.
5. İndiki zaman və şərt budaq cümlələrində hərəkət gələcəyə aid olduqda işlədilir. Bele halda budaq cümlə ən cox if, when, befone, as soon as ilə başlayır.
If he comes – Əgər o gəlsə
When they return – Onlar qayıdanda
When I see him – Mən onu görəndə
6. Arzu şəkli
Feilin xəbər şəkli müasir Azərbaycan dilində olduğu kimi, müasir ingilis dilində də icra halın real gakt, həqiqət olduğunu bildirir.
Məsələn:
Went to the institute yesterday
Mən dünən inustuta getdim
Feilin xəbər şəkli həyata keçirilməsi, icrası mümkün olan şərtləri ifadə etmək üçün də işlədilir.
Məsələn:
If it rains we shall not dr to the forest.
Əgər yağış yağsa biz meşəyə getməyəcəyik.
İsmixan Rəhimov İngilis dilinin praktiki qrammatikası kitabında qeyd olunur: "Feilin xəbər şəkli müasir İngilis və Azərbaycan dillərində geniş miqyasda işlənir. Hər iki dildə xəbər şəkli qrammatik mənasındakı xüsusi cəhətə görə doğru olaraq qrammatika kitablarında zaman kateqoriyası kimi şərh edilir (4, s. 88-09).
Feilin xəbər şəklini digər şəkillərdən gərqləndirən başləca xüsusiyyət odurki, o real iş bildirir.
Xəbər şəkli öz işlənmə yerinə görə çox zəngindir. Xəbər şəkli hərəkətin indiki, keçməş, gələcək zamanda icra olunub olunmamasını göstərir..Bu və ya digər işin ümumi zamanin müxtəlif anlarında icrası ilə dildə qrammatik zaman kateqoriyasının varlığını şərtləndirir. Qrammatik zaman obyrktiv zamanını dildə ifadə vasitəsidir.
Nəticə: Yuxarıda deyildiyi kimi, xəbər şəklində hər hansı bir iş, hal, hərəkətin müəyyən zamanda, müəyyən şəxs tərəfindən icra olunması haqqında xəbər verir. Yəni xəbər şəklinin modallıq semantikası, əsasən zaman və şəxs kateqoriyaları ilə bağlıdır.
İngilis dilində zaman və şəxs münasibətləri müxtəlif analitik morfemler (ani, is, are, have, has, sshall, will, was, were.) vasitəsilə həyata keçirilir.
- Undersit it is quite imposible for me to take your place.
- You will be king for a day.
-Ihave never felt safet in may life.

- Remember welle all I am doing to tell you.

Azərbaycan dili isə şəkilçili dil olduğundan hərəkətin indiyə, keçmişə, gələcəyə aid olması qrammatik morfemler vasitəsilə reallaşır. Belə ki, Azərbaycan dilində

Ir,- ir,- ur,-ür,-acaq,-əcək,-yacaq,-yəcək,-mış,-miş,-muş,-müş,-dı,-di,-du,-dü və s. Kimi zaman bildirən qrammatik şəkilçilər var.

Məsələn:

- Mərə, oğuzdan bir böyük atlı gəldi.
- Dədə Yediyar kimi usta aşıq o sazı çala bilmir, indi sən çalacaqsan?
- Xəyal Şah İsmayıl elə çulğamışdı ki, yuxusu bir əppək olub qaqlxmışdı göyə.

Göstərilən cümlələrdaən belə bir qənaətə gəlmək olar ki, İngilis və Azərbaycan dillərində feilin xəbər şəkli konkret dil faktlarına əsaslanaraq hərəkətin indiyə, keçmiş və gələcəyə aid olduğunu göstərir və feilin digər şəkilləri üçün bünövrə rolunu oynayır.

ƏDƏBİYYAT:

1. English grammar. M.Ganshina, N.Vasilyevskaya. p: 34-38
2. English grammar in USE. Murphy (advanced). p. 123
3. Musayev O. İngilis dilinin grammatikası. Bakı: Maarif, 1986, s. 66-69
4. İsmixan Rəhimov İngilis dilinin praktiki qrammatikası. s. 88-96

Açar sözlər: etimoloji dubletlər, sistemdaxidi paralellər, semantik differensiallaşma
Key words: lexic paralelism, etymological dublets, intersystem parallels, semantic differenciation
Ключевые слова: этимологические дублеты, внутрисистемные параллели, семантическая дифференциация

On grammar term forms of verb news ın englısh and theır processıng ın azerbaıjanı language

Summary

In English and Azerbaijani, a news image represents real work. In other words, it indicates whether the work has been done in the past, present, or future. Grammatical tense is a means of expressing objective tense in language.

However, it is known that objective tense does not have a beginning or end, as it does regardless of consciousness. In short, objective time is itself divided into parts.

О грамматических термоформах глагола в английском языке и их использованиев азербайджанском языке

Резюме

На английском и азербайджанском языке новостное изображение представляет реальную работу. Другими словами, это указывает, была ли работа выполнена в прошлом, настоящем или будущем. Грамматическое время – это средство выражения предметного времени в языке.

Однако известно, что предметное время не имеет ни начала, ни конца, как оно есть вне зависимости от сознания. Короче говоря, объективное время само разделено на части.

Rəyçi: pedaqoji elmlər namizədi, professor Tamilla Hüseynova

Leyla Kamran qızı Məmmədova40

Ə.CƏFƏRZADƏNİN "ELDƏN-ELƏ" ROMANINDA FƏDAKAR QADIN VƏ QAYĞIKEŞ ANA OBRAZLARI

Görkəmli yazıçı, ədəbiyyatşünas və ictimai xadim Əzizə Cəfərzadə Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus qələmi, əsrarəngiz yaradıcılıq yolu ilə seçilən sənətkarlardandır. 16 yaşından ədəbi fəaliyyətə başlayan yazıçının tarixi roman janrında qələmə alınmış əsərləri nəsr tariximizə bu janrı yenidən bəxş etmişdir. Əbədiyaşar sənətkarın yaradıcılığına həm də müasir həyatla səsləşən povestlər, hekayə və nağıllar da daxildir.

"Eldən-elə" romanı ədibin tarixi gerçəklik və bədii həqiqətləri özündə əks etdirən əsərlərindən biridir. 1992-ci ildə qələmə alınan bu romanı Ə.Cəfərzadə atası Məhəmməd Cəfər oğluna və coğrafiyaşünas alim Nurəddin Kərimovun əziz xatirəsinə ithaf edir. Bu əsər "Xoş gördük, səyyah" adlı povestin daha mükəmməl variantıdır. "Eldən-elə" romanında görkəmli Azərbaycan alimi və səyyahı Zeynalabdin Şirvaninin həyatından bəhs edilir. Bədii təsvirlərin canlılığı və həyatiliyilə seçilən bu əsərin əvvəlində Zeynalabdin Şirvaninin uşaqlıq illəri, sonrakı hissələrdə isə səyyahın bütün ömür yolu bədiiləşdirilərək təqdim edilir. Belə ki, alimin İran, Türkiyə, Hindistan, Pakistan, Orta Asiya, ərəb ölkələrinə səyahətlərini yazıçı real boyalarla əks etdirir. Məhz əhvalatların canlılığı və cərəyan edən hadisələrin reallığı əsərin təsir gücünü daha da artırır.

"Uşaqlıq", "Gənclik" və "Kamillik" başlıqlı üç hissədən ibarət romanda həyat faktları bədiiləşdirilir, yazıçı qələmi ilə cilalanaraq oxucusuna təqdim edilir. Müəllif burada yeri gəldikcə adət-ənənələri, məişət mərasimlərini də cərəyan edən əhvalatlara uyğun şəkildə, əsərin ruhuna xələl gətirmədən göstərir. Bu barədə Ə.Cəfəzadə irsinin tədqiqi ilə məşğul olan Gülsümxanım Hasilova yazır: "Ə.Cəfərzadənin romanlarındakı xalq məişəti, mərasimlərinin geniş konteksti burada sadəcə yazıçının mənsub olduğu xalqın adət-ənənə, inam, etiqadları çərçivəsində qalmır. Bütün müsəlman Şərqinin məişəti, etnoqrafiya, mentaliteti onun əsərlərində başlıca maşahidə obyekti kimi seçilir" (3, s.141).

"Eldən-elə" romanında qadın hüquqsuzluğu, cəhalət və uçuruma aparan fanatizmin tənqidi nəzəri cəlb edir. Məlum olduğu üzrə M.F.Axundzadə, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və başqaları qadın məsələsi ilə bağlı dəyərli fikirlər söyləmiş, tədqiqatlar aparmışlar. Bu xüsusda həssas olan Y.V.Çəmənzəminli xalqın intibahı yolunda iş görməyə, mübarizə aparmağa səsləyərək "Camaatımızın cəhalətdə qalmağına baxıb ah çəkincə, yaxşı deyilmi onun səbəbini axtarıb mübarizə edək" - deyirdi.

"Müsəlman arvadının sərgüzəşti", "Toy", "Divanə", "Dərdli Züleyxa", "Qumarbazın arvadı", "Cümə axşamı" və s. hekayələr, o cümlədən qadın probleminə dair məqalələri, həmçinin xatirələrində də olan əhvalat və fikirlər, tanıdığı Qarabağ qadınlarının durumu ilə sıx vəhdətdə verilir. Y.V.Çəmənzəminli hər zaman qətiyyətlə bildirirdi ki, qadın anadır, qadın tərbiyəçidir, qadın azadlığı, mədəni və mənəvi tərəqqisi, ümumiyyətlə, millətin gələcəyi üçün mühüm şərtdir.

"Eldən-elə" romanında təqdim edilən Şirinbəyim, Soltanbikə, Telizər, Reyhan obrazları nəinki cəmiyyətdə, ailədə də heç bir hüquqa malik deyillər. Nağıl qəhrəmanlarını xatırladan, yeddi qardaşın bir bacısı Şirinbəyim romanın əvvəlində şən, qəhqəhələr çəkən, gözəl bayatılar söyləyən, həyat dolu bir qız kimi təqdim edilir. O, qardaşlarını canından artıq sevir: "Qardaşları üçün ürəyi tiril-tiril titrərdi. "Nardanxatını" yeddi qardaşına bənzədirdi. "Harda dara düşsəm, yeddisi də başımın üstün olar. Namxuda – maşAllah, hərəsi bir Rüstəm pəhləvandır.Yeddi yox, bircəsi dadıma çatsa o da bəsimdi" (2, s.8).

Şən, zarafatcıl bu qızın arzularına son qoyan və onu bilmədiyi zülmətə yuvarlayan isə amansız adət-ənənələr olur. Təəssüf ki, hələ də bəzi yerlərdə özünü biruzə verən, dövrün bəlasına çevrilən, qız uşaqlarına əşya kimi yanaşma Şirinbəyimin də ən ülvi arzularına son qoyur. Atası onun və ailə üzvlərinin rəyini soruşmadan, nə istədiklərinə məhəl qoymadan bircəcik qızını tanımadığı Axund Kərbəlayı İsgəndərə övrət edir. Hətta qızına belə bir İmanlı cavanın elçi düşməsi ilə fəxr də edir: "Sizi neyşə get-gələ salım? Bizdə arvad ağzı aramaq adəti yoxdu. Oğlanlarım cavandı, hərəsinin ağzından bir avaz gəlir. Onların məsləhətiynən oturub-duran deyiləm. Dayıları... Yox, elə heç kim məniynən şərik qız böyütməyib. Elə əhli müsəlman oğulun qayınatası olmadığı özümə şərəf billəm. Allah ulduzlarını barışdırsın, yarıyanlardan olsunlar" (2, s.9).

Həyatı boyunca valideynlərinin üzünə ağ olmayan Şirinbəyim, ömür-gün yoldaşı seçimində də etiraz etməyə cürəti çatmır. Şübhəsiz ki, buna onun böyüdüyü mühit, aldığı tərbiyə mane olur. Uşaq vaxtından ailədə, qohum-əqrəba arasında eşitdiyi "Ata-anaya asi olmaq ən böyük günahdır" sözləri onun beyninə həkk olunub. Həzrət Məhəmməd əleyhissəlamın söylədiyi kimi: "Allah-taala üç adama lənət edər: ata-anasından üz çevirənə, ərlə-arvadın arasını vurub sonra arvada sahib çıxana, bir-birinə qəzəblənsinlər və paxıllıq etsinlər deyə möminlərin arasında dedi-qodu yayana" (8, s.17).

Şirinbəyimin abır-həyası, ailəsinin adını öz şəxsi istəklərindən üstün tutması oxucuda bu obraza qarşı məhəbbət oyadır. Bu xüsusiyyət Ə.Cəfərzadə yaradıcılığının gənc nəslin tərbiyəsində bir təlim-tərbiyə rolu oynamasına da dəlalət edir. Bədii ədəbiyyatın bu xüsusda əhəmiyyəti haqqında görkəmli ədəbiyyatşünas alim Mir Cəlal Paşayev yazır: "İctimai tərbiyədə, gənc nəslin ictimai-siyasi həyata, mübarizələrə kamil yetişdirilməsində, qabaqcıl ideyaların geniş kütlələr arasında tez və geniş yayılmasında bədii ədəbiyyatın əhəmiyyəti və inkanları çox böyükdür" (6, s.68).

Romanın əvvəlində həyat eşqilə coşub-daşan Şirinbəyim sonrarı mərhələlərdə fədakar qadın və qayğıkeş anaya çevrilir. Bu sətirlər fikrimizi aydın izah edir: "Şən, oynaq nəğmələr, şeriyyət aşiqi Şirinbəyimlə əri kimi bir-birinə yabançı ikinci bir

40 AMEA Folklor İnstitutu, Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent

cütün dünyaya gəldiyini Adəmdən bəri heç təsəvvür etmək olmazdı. Əgər beş yaşlı Zeynalabdinlə, təzəcə süddən ayırdığı iki yaşlı Məhəmmədəli olmasaydı, elə onda, yalçın Şirvandan ayrılmamış Şirinbəyim atası ilə qardaşlarının ayağına düşər, "kəbinim halal-canım azad" deyərdi" (2, s.13).

Fədakar və qayğıkeş ana kimi Şirinbəyim bizə "Kitabi-Dədə Qorqud" dastanlarında olan Burla xatunu, "Koroğlu" da Nigarı, "Alı xan və Pəri xanım" da Pəri xanımı, "Aşıq Qərib" də isə Qəribin anasını xatırladır. Bu xüsusiyyət həm də dastan ənənələrinin, folklordan gələn adət-ənənələrin təcəssümü idi. Ailə şərəfi uğrunda Burla xatunun canını əsirgəməməsi, Pəri xanımın isə namusu uğrunda hətta gözlərinin önündə iki oğlunun başının kəsilməsinə razı olması oxucunu riqqətə gətirir. Dastanlarımızdakı qadın qəhrəmanlarının bu fədakarlığı Şirinbəyim obrazında başqa tərzdə göz önündə canlanır. O, ailə şərəfi və iki övladının xatirinə dirigözlü cəhənnəmin orta göbəyində yanmağa hazır olur.

"Eldən-elə" romanında başqa qadın obrazları da diqqətimizi cəlb edir. Fədakarlığı ilə yadda qalan digər obrazlar Şirinbəyimin qardaşı arvadı Soltanbikə və onun bacısı Reyhandır. Bu qadınlar da hüquqsuzdur.Onların söhbətində bunun bir daha şahidi oluruq:

"Soltanbikəni fikir götürmüşdü:

-Baş tutsa, yaxşı şeydi. Amma sonra Məşədi həm sizinən qanlı-pıçaq olacaq, həm də bu işdə mənim barmağım olmağını bilib hələkimi kəsəcək.

-Aaaa... neynəyəcək sənə Məşədi Səməndər? İntahası bir beş-altı qapaz ilişdirəcək. Biz arvadları Allah elə döyülməkçin yaradıb. Bir də istəyən ərin qapazı arvada tumardı..." (2, s.50).

Romanda Soltanbikə ərindən çəkinsə də, Şirinbəyim kimi hadisələrə etinasız yanaşa bilmir. O, göz görə-görə qızı Telizəri sevdiyindən ayırıb, üzünü görmədiyi, uşaq vaxtı göbəkkəsməsi olan Zeynalabdinə getməsinə var qüvvəsi ilə mane olur. Hələ o dövrdə qızının istəklisi ilə münasibətləri aydınlaşdıran , sonra da onların qoşulub qaçmasına şərait yaradan fədakar ana, bu işlərin hamısını ərindən xəbərsiz edir. Soltanbikə obrazı bizə M.F.Axundzadənin qadın obrazlarını yada salır. Ən çox da "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli şah-caduküni-məşhur" komediyasındakı Şəhrəbanu xanımı göz önünə gətirir. Şəhrəbanu xanım da qızı Şərəfnisənin xoşbəxt gələcəyi naminə, qarşısına çıxan bütün maneələrlə mübarizə aparır. Öz aləmində isə buna həqiqətən cadunun köməyiilə çatmasına inanır. Şəhrəbanu xanım qızının nişanlısı olan Şahbaz bəyin Parisə gedib, firəng qızları ilə qalmasından ehtiyat edərək həyat yoldaşı Hatəmxan ağanın arxasından işlər çevirir. Bisavad və cahil ana yeganə qurtuluş yolunu caduda, cadugərlə iş birliyində görür. Sonda da öz əməlinə haqq qazandıran bu obrazın dediyi sözlər o dövr qadınlarının cəhalətdən hələ də ayılmadıqlarını, kor-koranə fala, caduya inanmaqlarını sübut edir: "Bəli bundan sonra bu təəccüb odur ki, kişilər həmişə bizə deyirlər: caduya, pitiyə inanmayın! Necə inanmamaq olur ki, adam gözü ilə belə işlər görür?" (7, s.60).

Müqayisə edilən hər iki ana , Soltanbikə və Şəhrəbanu xanım qızlarının xoşbəxtliyi, gələcək həyatı naminə bütün təhlükələrə sinə gəlib, bu yolda canlarının bahasına da olsa qalib gəlməyə çalışırlar və buna təsadüf nəticəsində də olsa nail olurlar. Bəhs edilən fədakar ana obrazları yaddaşımıza həkk olunan Həzrəti Məhəmmədin məşhur bir hədisini yada salır. Hədisdə deyilir: "Bir nəfər rəsulAllahın yanına gəlib soruşdu: Ya peyğəmbər mən kimə daha çox yaxşılıq etməliyəm? Cavab verdi: "Anana", o adam soruşdu: "Sonra kimə? Peyğəmbər buyurdu: "Anana". Həmin adam yenə soruşdu: "Sonra kimə? Peyğəmbər yenə: "Anana" – dedi. O adam bir də: "Bəs sonra kimə" – soruşduqda, Rəsuli - əkrəm buyurdu; "Sonra atana" (8, s.9).

Romandakı Telizər və Reyhan da yaddaqalan obrazlardır. Hər iki obraz qətiyyətli olmaları, fikirlərindən daşınmamaları ilə seçilirlər. Telizərin könül verdiyinə qoşulub qaçması, əlbəttə sevgisinə sadiqliyindən irəli gəlir. Bu addımı atmaqda ona anası Soltanbikə və xalası Reyhan yardım edir.Yaxınlarının onun arxasında durması və bu işi dəstəkləmələri Telizəri bu addımı atmağa daha da ürəkləndirir. Reyhan obrazı qarşımıza çıxan ilk andan kələkləri ilə yadda qalır. O, həyat yoldaşından çəkinsə də bacısının dərdinə əlac etməyə çalışır və çıxış yolunu da Telizərin sevdiyi ilə qoşulub qaçmasında görür. Şirin dilinə salıb bacısını da yoldan çıxarır və bu işin xeyirlə bitməsinə onu var gücü ilə inandırmağa çalışır.: "Allah səni yandırmamışdam, sən məni yandırdın. Bəsdi axı! Çarığında əsirgəyən patavasında çıxar. Sən iş gör, heç nə əsirgəmə balançın, Allah da əsirgəməz. Canım canı dərdindən, yalvarar qanlısına! Canım dərdindən, nə gəlir əlindən onu da elə! Gəlməyəni də elə. Təki balan gözündən uzaq getməsin" (2, s.51). Onun bu sözləri, qətiyyətlə çıxışı Soltanbikədə də bir ümid yaradır və bu işə razılıq verməyə vadar edir.

qarğışları onun vəziyyətinə və xarakterinin müəyyən cəhətlərinə uyğun seçir.... Həm də ədib lazım gəldikdə xalq arasında işlənən bir növ ənənəvi qarğışları bir az dəyişir, obrazın konkret vəziyyətinə uyğunlaşdırır" (6, 295). "Şikayət" hekayəsindəki Axund "ortancıl" arvadı ilə söhbətində zəmanədən şikayətlənərək "səbəbkarlar"ı belə qarğışlayır: "Evin yıxılsın qəzet yazan! Balaların qırılsın uşkola açan! Gorun od ilə dolsun tiyatır binası qoyan" (2,168). Beləliklə, yazıçı qarğış edən şəxsin nadanlığını, məhdud dünyagörüşünü və mühafizəkarlığını ortaya qoymuş olur. "Haqq Mövcud" əsərində isə Məşədi Əkbər pristava təşəkkür edib deyir: "Allah sizi bu camaatın üstündən əskik eləməsin" (2,274). Burada ədib Məşədi Əkbərin dediyi alqışla onun pristava yaltaqlandığını göstərir. "Mirzə Səfər" hekayəsində Həsən ağanın bədxahlıqla etdiiyi "məsləhətə" Mirzə Səfər belə cavab verir: "Ağa, məsləhətinizçox gözəldir, ömrünüz uzun olsun, siz həmişə mənim uşaqlarımın qeydinə qalıbsınız. Onlar ancaq sizin kölgənizdə oxuyub dərsi tamam ediblər. Çox razıyam sizdən. Üç il bundan qabaq uşaqlar haqqında etdiyiniz yaxşılıq indi də mənim yadımdan çıxmır" (6, 169). Əslində, bu, kinayəli "alqış"dır, dolayısı ilə söyüşdür. Çünki əsərin məzmunundan məlum olur ki, üç il ondan əvvəl Həsən ağa Mirzə Səfərin uşaqlarınınoxumasına maneə yaratmışdı.

Qeyd etmək lazımdır ki, "hikmətli sözlərdən istifadə yazıçının əsərlərinin təsir qüvvəsini, məna dəyərini artırmış, surətləri tipikləşdirmiş, obrazların dilini fərdiləşdirmişdir. Həmçinin belə ifadələr ədibin dilinin rəvan, axıcı, koloritli olmasına da böyük təsir etmişdir" (7, 112).

Ə. Haqverdiyevinhekayələrində yuxugörmə, ürəyə damma, qarabasma,ləqəb, ayama qoyma və s. bu kimi folklora xas xüsusiyyətlərə də rast gəlmək mümkündür. Müəllif el ədəbiyyatının bayatı, xalq mahnısı, laylavə başqa bu kimi qədim janrlarına da əsərlərində geniş yer vermişdir. "Qaban" hekayəsində dar ağacından asıldığı vaxt Əbdülkərimin dilindən belə bir bayatı səslənir:

Mən aşiq gülə-gülə,
Gül əkdim gülə-gülə.
Evimi düşmən yıxdı
Üzümə gülə-gülə (2,301)

Ə. Haqverdiyev bədii nəsrində mifologizmlərdən də bacarıqla istifadə etmişdir.Ədibin yaradıcılığındamifologizmlər sabit simvolika kimi özünü daha çox rənglərdə göstərmişdir. Ən qədim dövrlərdən bu günə qədər rənglər, onların müxtəlif rəmzi mənaları insanların psixoloji ovqatını, mənəvi dünyasının mənzərəsini, gündəlik ömür yaşantılarını ifadə etmək vasitəsinə çevrilmişdir.Ağ, qara, göy, sarı və qırmızı rənglər əcdadlarımızın təfəkkürü, bədii düşüncəsi üçün də səciyyəvi olmuşdur. Yazıçı xüsusilə "Röya", "Müsibət", "Mirzə Səfər", "Şeyx Şəban", "Haqq mövcud" kimi hekayələrində qəhrəmanın mənəviyyatını, psixologiyasını, həyatda tutduğu mövqeyi bildirmək üçün, bəzi məqamlarda isə gərginliyin və ovqatın açılması məqsədilə rənglərə müraciət etmişdir. "Mirzə Səfər" hekayəsində dövrünün zülmət qaranlığında əqidə saflığı, böyüklüyü ilə ağ işıq kimi yanan Mirzə Səfəri yazıçı əsərin əvvəlində belə təqdim edir. "Ağ çuxalı, ağ arxalıqlı, ikiüzlü buxara dərisindən papaq, şişman göbəyi üzərində gümüş kəmərli Mirzə Səfəri hamı tanıyırdı" (2,275). Bununla yazıçı öz qəhrəmanı haqqnda oxucuda müəyyən təsəvvür yaradır. Aydındır ki, ağ rəng saflıq, ilkinlik, sevinc və xoşbəxtlik əlaməti kimi bilinməklə yanaşı, qədim etnik təfəkkürümüzdə hüzn, matəm əlaməti də sayılır. Əsərin əvvəlində ağ geyimdə verilən Mirzə Səfərin gələcək aqibəti ağ rəngin məhz qədim təfəkkürdəki mənası ilə bağlıdır. O, özü bir ağ gün görmür, amma uşaqlarının xoşbəxtliyi onun özünə də səadət gətirir. Bu rəng Mirzə Səfərin taleyində matəm rəngidirsə, övladlarına münasibətdə sevinc rəmzidir.

Ə. Haqverdiyevin folklora bağlılığının əsasında elmi cəhətlə yanaşı, ciddi siyasi-ictimai, psixoloji-mənəvi amillərdə mühüm rol oynamışdır. Bu, bir tərəfdən xalqın kamil və zəngin yaradıcılığı ilə bağlıdırsa, digər tərəfdən millətin soy kökü, tarixi yaddaşı, ənənələri ilə bağlı məqamları canlandıraraq yaşatması ilə əlaqədardır. Ədibin zəngin yaradıcılığı, rəngarəng obrazları, əsərlərinin məna və fikir dərinliyi, dilinin sadəliyi, axıcılığı və milli koloriti onun həmişə böyük maraq və mütaliə obyekti olmasını təmin etmişdir. Heç təsadüfi deyildir ki, o, yaradıcılığının bir sıra keyfiyyətlərinə görə "dünyanın böyük ədiblərilə: Çexovlar, Mopassanlar, Çek Londonlar, Mark Tvenlərlə yanaşı dura bilən" (8,178) bir sənətkar kimi dəyərləndirilmişdir.

Fikrimizcə, mənən və ruhən xalqa bağlı olan, onun həyatını, adət-ənənəsini, tarixini və mədəniyyətini dərindən bilən Əbdürrəhim bəy Haqverdiyev,sözün əsl mənasında xalqının yazıçısı olaraq misilsiz xidmət göstərmiş, milli dəyərlərimizin qorunmasında əvəzsiz rol oynamışdır.

Ədəbiyyat:

1. M.Məmmədov. Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı.
2. Bakı, Nurlan, 2008
3. Haqverdiyev Ə. Seçilmiş əsərləri. Bakı, Lider, 2005
4. Mütəllimov T. XX əsr Azərbaycan ədəbiyyatında ədəbi məktəblər. Bakı. ADU nəşriyyatı, 1978
5. Mir Cəlal Paşayev,F. Hüseynov XX əsr Azərbaycan ədəbiyyatı.Bakı, "Maarif", 1982
6. Mütəllimov T. Əbdürrəhim bəy Haqverdiyevin poetikası. Bakı, Yazıçı, 1988.
7. Xəlilov N. Xalq təfəkkürü, sənətkar qüdrəti. "Elm və Həyat" nəşriyyatı, Bakı, 1996
8. Mir Cəlal. Klassiklər və müasirlər. Bakı, 1973
9. Məmmədov K. Əbdürrəhim bəy Haqverdiyev. Bakı, "Gənclik", 1970.

Xülasə

Ə.Haqverdiyev Azərbaycan ədəbiyyatının və mədəniyyətinin görkəmli nümayəndəsidir. Müəllif əsərlərində çar üsul-idarəsi və qayda-qanunlarına, ətalət və nadanlığa qarşı çıxmış, doğma xalqının, ümumən müsəlman Şərqinin milli intibahı, mədəni-iqtisadi tərəqqisi üçün çalışmışdır.

Əbdürrəhim bəyin istər bədii nəsri, istərsə də dramaturji fəaliyyəti ədəbiyyatımızın qızıl fonduna daxil olmuş, bir sənət məktəbi kimi dəyərləndirilmişdir. Ə.Haqverdiyev xalq ədəbiyyatı xəzinəsindən ustalıqla bəhrələrək onu orijinal tərzdə davam və inkişaf etdirmişdir. Bu keyfiyyəti müəllifin xüsusən nəsr əsərlərində izləmək mümkündür. Yazıçının bədii nəsrində xalqın tarixi, adət-ənənələri, məişəti və milli koloriti ustalıqla canlandırılmış, xalq ədəbiyyatı nümunələrindən geniş istifadə olunmuşdur.
Açar sözlər: Nəsr, tədqiqatçı, milli kolorit, tipikləşdirmə, fərdiləşdirmə.

Резюме

А.Хаквердиев и народное творчество

А. Хаквердиев один из видных писателей, который обширно описал в своих произведениях историю народа, обычаи, хорошо показал быт , его дух, национальный колорит, уделив большое место устному народному творчеству, искустно используя фольклор в повестях и рассказах.
Какхудожественное таки драматургическое наследие писателя вошли в золотой фонд нашей литературы, и по сей день считается школой творчества.
Ключевые слова: творчество, художественная проза, история, драматург, сатирический

Summary

Folk literature and culture in artistic prose.

Hagverdiev was an outstanding writer in Azerbaijani literature and culture. He worked against injustice of his time. His Works helps muslim east on cultural- economic improvment.
Artistic activities of our writer support today's literature art-school.That's why his style of falk literature are unforgettable.History of nation his traditions, culture, domestic searched very deeply and his work he used it very productively and his works he gave much attention to it. He was such kind of writer. His name writed on folk literature of Azerbaijan forever.
Key words: literature, artistic prose, story, playwright, satirical

RƏYÇİ: dos. E.Vəliyeva

Vaqif Allahverdiyev44

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA ANA DİLİMİZİN SAFLIĞI UĞRUNDA MÜBARİZƏ MOTİVLƏRİ

Bəxtiyar Vahabzadə müasir Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqeyi ilə seçilən, zəngin ilhamı, yazı manerasının fərdiliyi ilə, yaradıcılıq dünyasının möhtəşəmliyi ilə fərqlənən sənətkardır.

B.Vahabzadə ana dilimizin inkişafı yolunda daim mübarizə aparan, bu yöndə həmişə ciddi sənətkar və vətənpərvər ziyalı mövqeyi sərgiləyən şair olmuşdur. O, həm nəzəri, həm də bədii əsərlərində, həmçinin sənət və ədəbiyyatla əlaqədar olan məruzə və çıxışlarında doğma dilimizin saflığını qoruyub saxlamaq, onu daha da zənginləşdirmək istiqamətində görülən tədbirlərə xüsusi önəm verilməsini təbliğ etmiş və bu məsələlərə ciddi diqqət yetirmişdir.

B.Vahabzadə təsvir etdiyi predmet və hadisəni təbii halında verdiyinə görə onun bədii əsərlərində hikmətli xalq sözlərinin, frazeloji birləşmələrin, xalq dilinin qaynar çeşməsindən su içən idiom və aforizimlərin işlədilməsində məxsusi təbiilik müşahidə olunur. Bu səbəbdən də onun poeziyasında istifadə olunan söz və söz birləşmələri konkret bədii mətləbin canlı, sərrast, rəvan və dolğun ifadəsinə xidmət edir.

B.Vahabzadənin leksikonu həm xalq danışıq dilindəki sözlərin təravəti, həm də ictimai həyatın inkişafi ilə əlaqadar yaranan istilahlar hesabına zənginləşmişdir. Onun lirikasında Azərbaycan dilinə münasibət tamamilə yeni birb aspektdə, obrazlı təfəkkürün özünəməxsus çalar və rəngarəngliyində, orjinal epitet, metafora, təşbeh və digər üslubi vasitələrin yüksək poetik imkanları ilə inikas edən bədii sözün məharətlə işlənməsində, tərənnümündə üzə çıxır. Onun dil haqqında düşüncələri ədəbi nəzəri fikrin ən kamil nümunələridir. Bu ədəbi fikirlər, poetik qənaətlər isə şairin fərdi duyğularının mənəvi ailəminin özünüifadəçisi olan lirik qəhramanın, lirik "mən"in dilə olan təəssübündə təzahür olunur. Lirik qəhramanın bu dilin saflığı, təmizliyi uğrunda mübarizə aparması, bu dili yad dillərin məngənəsindən xilas etmək cəhdləri dəyərli vətandaşlıq keyfiyyətidir. Şairi, yəni lirik qəhramanı öz doğma dilinə xor baxanlar, ana dilində danışmağı özünə yaraşdırmayanlar hiddətləndirir.

Lirik – publisistik başlanğıcın üstünlüyü hiss olunan "Ana dili" şeiri şairin poetikistedadının, bədii qüdrətinin bir unikal xüsusiyyəti kimi təzahür edən həqiqi vətəndaşlıq keyfiyyətinin inikasıdır.

Bu dil- bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dilbir birimizə əhdi- peymanımızdır.
Bu dil, tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil, əcdadımızın bizə qoyub getdiyi.
Ən qiymətli misrasıdır, onu gözlərimiz tək,
Qoruyub nəsillərə biz də hədiyyə verək. (2-113)

Bu səmimi bədii- publisistik düşüncələri, mühakimələri şeirin sonrakı misralarında ana dilinin mənəvi özəyinin, mənbələrinin obrazlı detallarla, yüksək poetik həyacanla ifadəsi ümümiləşdirir.

B. Vahabzadə şeirdə ana dilini geniş tarixi kontekstdə, poetik məzmunda mənalandıraraq, hər bir dilin mənsub olduğu xalqın varlığını, həmçinin tarixi və mənəvi yaddaşının qoruyucusu olduğunu diqqətə çatdırır. Ana dili xalqın həm ünsiyyət forması, həm tarixi, həm dünyagörüşü, həm də milli mənliyin təsdiqi faktıdır. Şair şeirin ideya mündəricəsini inkişaf etdirərək bədii- publisistik dillə poetik informasiyanı çatdırır:

Millətlərə, xalqlara xalqımızın adından,
Məhəbbət dastanları yaradıldı bu dildə.
Moskvada Puşkinə heykəl qoyulan zaman
Ona abidə qoydu bu dil də Şirvani də. (2-115)

Bu tarixi və real əlamətləri bədii mətnə daxil etməklə şair ciddi və önəmli mövzu olan ana dilini çılpaq, predmetsiz publisist formada deyil, konkret tarixi aspektdə mənalandırmağa nail olmuş, həm də bu əlamətlərlə lirikada vətandaşlıq duyğularının və fikirlərinin ideya təhlilini dərinləşdirmişdir. B. Vahabzadə dilinin önəmli xüsusiyyətlərindən biri və başlıcası onun qrammatik dəqiqliyi və sərrastlığıdır, həmçinin bundan sonra bu dilin bədii zənginliyi, poetik və əlvanlığı böyük önəm kəsb edir. Bəxtiyarın dilə yanaşmasındakı ciddiyyət göstərir ki, o, xalq dilinin təcrübəsi çərçivəsində, bədii məntiqin tələbi daxilində normalara riayyət edir, həmçinin qafiyəyə görə sözün təbii sırasına xələl gətirmir, sözün fonetik sərhəddini aşmır, söz oyunbazlığından uzaq durur. Şair heç zaman müstəqim mənanı məcazi mənaya qarşı qoymur, həm də bədiiliyi normallığa alternativ götürmür. Təbiilik və dəqiqlik Bəxtiyarın poetik dilinin əsas atributlarındandır.

Ömrün payız fəsli sıxdı əlimi,
Yoxsa qocalıram mən yavaş – yavaş.
Payızda yarpağa xal düşən kimi,
Düşür saçlarıma dən yavaş – yavaş.

Emosionallığı ilə seçilən bu bədii mətn yığcam informasiya ilə yüklənmiş düzgün qrammatik ölçülərdən ibarət cümlələrdir. Nəsr cümləsinə məxsus üzvlərin sıralanması, həmçinin şəkilçilərin fonetik tutumu bu poetik nümunədə qrammatik normalara uyğundur. Başqa bir poetik parçaya diqqət edək.

---

44 ADPU-nun Ağcabədi filialının dosenti

Hərdən töküb önümə
Köhnə şəkillərimi,
Mən yadıma salıram
O ötən illərimi.
Bu şəkillər, şəkillər,
Köhnə xatirələrin
Min nəğməli səsidir.
Yaşadığım anların
Kağızlar üzərində
Əks olunan kölgəsidir. (2-136)

Bu bədii nümunədə danışıq üslubuna məxsus təbiiliyi ilə diqqət çəkir, həm də danışıq-ünsiyyət dili ilə yaranan obrazlılığın poetik gözəllik yartdığını görürük.

Əşyanı poetikləşdirmək Bəxtiyar yaradıcılığının üslubi məziyyətlərindəndir. Bu məxsusi üslubla dəyərli ailə - məişət və sevgi şeirləri yazdığı kimi , həm də əhəmiyyəti ilə seçilən ictimai – siyasi , siyasi – poetik nümunələr də yaratmışdır.

B.Vahabzadə oxucusunu seyrçilikdən uzaqlaşdırır və ona hadisələrin məğzini anlamağa, həyatın mahiyyətinə varmağa kömək edir. Fəlsəfi düşüncə konstektində insanı "özünün özündən" öyrənməyə səsləyir, həyatda səhv etməyi labüdlük faktı kimi təbii qarşılayır, həm də səhvin mahiyyətini anlamağı önəmli hesab edir. Bədii nümunəyə baxaq:

Yıxılmağın cəbrini
Yerimək unutdurur.
Yıxılıb öyrənirik
Ayaq üstə durmağı...

Və ya:

Bir təzə fənd öyrənir
Yıxılanda pəhləvan...

Yaxud:

Danışıq öyrənirik
Dil topuk çala-çala... (2-124)

B.Vahabzadə üslubunun önəmli əlaməti kimi bu misralarda həyat haqqında fəlsəfi düşüncələr bədii-poetik ifadəsini tapmışdır. Maraqlı faktdır ki, burada bədii nitqin içindəki fəlsəfi anlayışlar məharətlə məğzinə uyğun indeksləşdirilmişdir. Fəlsəfi məzmunun poetik mənaya inikası şairin bir çox şeirlərində öz uğurlu həllini tapmışdır. Fəlsəfənin məlum inikarı inkar qanunu "Qaliley" şeirinin məzmununda poetik mahiyyət kəsb etmişdir.

Dedi:-Yer fırlanır...
İnanmadılar.
Onlar ona güldü, o da onlara.

Antoqonist mahiyyətli bu gülüşlər ulu həqiqətin dərkinə rəvac verir, həm də bədii-fəlsəfi mahiyyət elmi-fəlsəfi dəyəri aydınlaçdırır.Burada fikirin məcazlarla ifadəsi məzmunun elmiliyinə xidmət edir.Şair özünəməxsus üslubla fikrin, düşüncənin fəlsəfi qatlarını məharətlə açır.

O dedi:-fırlanır, fırlanacaq yer,
Buna gülsəniz də, gülməsəniz də.
Yerdən dərs götürüb ölənə qədər
Məgər furlanmırıq həyatda bizdə. (2-161)

B. Vahabzadənin əsərlərində geniş işlənən, həmsəbəb və nəticə bildirən ifadələr, həm də bədii- fəlsəfi mahiyyəti ilə seçilən fikirlər şairin dilinin zənginliyin və fəallığının göstəricisidir.

Səbəb və nəticə dialektikasının şeirin mahiyyətinə, bədii mündəricisinə verdiyi poetik əlvanlıq şairin sənətkarlıq xüsusiyyətlərinin yüksək təzahürü kimi çıxış edir.

Sevirəm nifrətin lap son həddini-
O, sevgi doğacaq!..
Sevirəm ölümün də məşəqqətini-
Ədalət doğacaq. (2-165)

Misralarda ifadə olunmuş fikirlərin həyatiliyi, təbiliyi, həmçinin poetik mətləbinbədii-fəlsəfi mükəmməlliklə, sərgilənməsi şairin doğma dilin bədii və fəlsəfi imkanlarını dərindən anlamasıdır.B.Vahabzadə fəlsəfi kateqoriyaların bədii düşüncə müstəvisində yeni mənalar, poetik gözəlliklər yaratmasına vəsilə olan söz ustasıdır.Əksikliklərin vəhdəti fəlsəfi müstəvisindən əksikliklərin təmasını poetik müstəviyə inikas etdirmək qüdrətini şairin fərdi sənətkarlıq məharəti kimi dəyərləndirməmək mümkün deyil. Bu konteksdə şairin "Piyada- sərnişin", "Nida- sual", "Bir anın içində dəyişir həyat", "Bəm-zil", "Sinif- həyat", " Aclardan toxlara" , "Bulaq başında susuzluq", "Biri varmış, biri yoxmuş",və s. şeirlərində dialektik əksikliklərin doğma dildə poetik məzmunda inikasını görürük. Şairin bədii qüdrətinin gücü ondadır ki, o, həyatın, dialektikanın fəlsəfi məzmununu poetik məzmuna çevirərək doğma dilin məna, məcaz sərhədlərini genişləndirir.Şeirin bədii-fəlsəfi ümumiləşdirməsi şairin bədii təfəkkürünün genişliyini, zənginliyini və orjinallığını sübut edir.

Biri təkər üstə gətirildisə,

Birini gətirən ayaqlar oldu
Biri bu mənzildə kirədar isə,
Biri bu mənzildə sahibkar oldu. (2-168)
Şairin bədii dilindəki antonimləri həyat və fikir əksikliklərinin, təzadlarının poetik əks-sədası kimi səciyyələndirmək olar. B. Vahabzadə yaradıcılığının məxsusi xüsusiyyətləri sirasında onun şair fərdiyyətinin önəmli cəhətlərindən biri də təzadların vəhdətindən yüksək bədii siqlətə malik poetik nümunələr yaratmasıdır.
Böyüyür çox zaman böyük ürəklər,
Kiçik daxmalarda, dar daxmalarda.
"Saray-daxma" şeirindəki nümunə kimi təqdim etdiyimiz misralar fikrimizi bədii fakt olaraq əyaniləşdirir.
B. Vahabzadənin cəmiyyətə və təbiətə özünəməxsus fəlsəfi mühakimə ilə yanaşması və bunun nəticəsində bədii substansiyanın dərinliyinə vara bilməsi onun zəngin poetik dilində aforizmlər silsiləsinin üzə çıxmasına vəsilə olur. Şairin dilindəı aforizm zənginliyi ədəbi-bədii fakta analitik –fəlsəfi prizmadan yanaşma ilə əlaqadardır. Onun aforizmləri şifahi xalq ədəbiyyatının və klassiklərmizin hikmətli kəlamları kimi dərin mənaya malikdir.
... Dağsansa, sən danma təpəni, düzü,
Bu darkönüllülük nə verər bizə?
... Bircə ondan razıyam ki,
Özümdən narazıyam. (2-196)
Bəllidir ki, dilimizin ən mürəkkəb ifadə formalarından biri də hikmətli sözlər və aforizmlərdir. Bu birləşmələrin ifadə etdiyi məna idiomlardan, atalar sözü və məsələlərdən dərin olmaqla bərabər, həmdə xalq arasında geniş yayılmışdır. Bədii ədəbiyyatda ən çox işlənən tərkiblər bunlardır. Poetik sözə, bədii sənətə hakim olan B.Vahabzadəyaradıcılığında aforizm və hikmətli sözlərdən geniş istifadə
edilmişdir.
Güllə yarasına nə var,tez gedər,
Getməz söz yarası, eyham yarası. (2-121)
Şair məlum xalq ifadələrindəki məzmunu saxlayaraq, onu sənətkarlıqla hikmətli söz şəklinə salır və bədii mətndə ustalıqla işlədir. Bəxtiyarın yaratdığı aforizmlər yüksək poetik ifadə formasına malik olduğu kimi, həmdə ictimaisiyasi məzmun baxımdan da dərin məna daşıyır.
Şair bədii əsərlərində neçə- neçə aforizm yaratmışdır. O, sözün, ifadənin yüksək poetik gücünə nə qədər diqqət yetirsə də, yenə də üstünlüyü mənaya, məzmuna verir. Dərin, ağıllı məzmun hesabına çox vaxt şeirin ayrı-ayrı misra, beyt və bəndləri xalqın yaddaşına əbədi həkk olur, beləliklə də xalq yaradıcılığına qayıdır. Qeyd etmək lazımdır ki, şairin yaratdığı bütün obrazlı ifadələrə xalq dilinin, xalq yaradıcılığının ahəngi və təravəti hopmuşdur. Əgər B. Vahabzadə xalq nitqini bütün incəliyi ilə, dərindən bilməsə idi, onun bu istiqamətdəki yaradıcılıq təşəbbüsləri belə mükəmməl nəticələr hasil edə bilməzdi. Çünki istənilən sənətkar istedadın dərəcəsindən aslı olmayaraq, meydana çıxardığı poetik inciləri yalnız xalq təfəkkürü sayəsində ərsəyə gətirir. B. Vahabzadənin əsərlərindəki hikmətli sözlərdə, aforizmlərdə dərin mənanı dərk etmək üçün çox fikirləşmək lazım gəlmir, çünki bunlarda müdrik , ecazkar bir sadəlik, aydınlıq mövcuddur.
Şair xalq dilinin canlı elementlərindən özünəməxsus şəkildə ifadə edir.B.Vahabzadənin bədii nitqi ədəbi dildə sabitləşmiş lüğət materialı əsasında qurulub.
Şair üslubu neologizim yaratmağa can atmır. Onun istedadı bədii mətləbi gərəkli dolğunluqda ifadə etmək üçün mövcud lüğətlə kifayətlənir.Bəxtiyarın dilində diqqəti cəlb edən xüsusiyyətlərdən biri də ədəbi dildə yaranan yeni milli sözləri öz əsərlərində işlədərək, onların təbliğinə yardım göstərməsidir. Məsələn, "istiqamət" sözünü yön sözü ilə misrada əvəzlənməsini görürük.
"Şeirin sənin amalına yol, fikrinə yöndür"
Şair sözün xalq dilindəki mənalarına vaqif olduğu üçün çox mənalılıqdan, omonimlərdən, təzadlardan məharətlə yararlanır.Sənətkarlıq məharəti ondadır ki, bütün məna və formalar bacarıqlı bədii məqsədə istiqamətləndirilir.
Poetikanın bütün məsələlərinə və eləcə də dilin poetik imkanlarına, şeiriyyət sirlərinə, bir sözlə, poetik sənətkarlığın başlıca problemlərinə bədii əsərin məzmunu, ideyası, mündəricə və mahiyyəti ilə sıx əlaqədə, ayrılmaz vəhdətdə, habelə şairin obrazlı təfəkkür sisitemi ilə rabitədə baxmaq lazımdır. Çün ki hər bir şairin şeirində onun poetik sənətkarlığı, yaratdığı poetik formalar, həyatın bu və ya digər şəklidə bədii təzahürü ilə yanaşı, onun səciyyəsi, şəxsiyyəti, insanlığa və təbiətə olan fərdi münasibətləri də dolğun şəkildə əks olunmalıdır.
B.Vahabzadənin dili bədii keyfiyyətləri ilə seçilən, özünəməxsus poetik- fəlsəfi zənginliyə, dolğunluğa malikdir.Onun poeziyası dərin və aydın məntiqi ilə, həmçinin yüksək bədii məziyyətləri ilə ana dilimizin zənginləşməsinə xidmət edir.
Müasir şeirimizdə Azərbaycan dilinin ahəngdarlığını, söz əlvanlığını, dolğunluğunu , şirinliyini saxlayan xalq ədəbiyyatının zərif, incə məlahətli söz komponentlərindən yüksək zövqlə bəhrələnən şair, bu məziyyətləri çağdaş həyatın, müasir təfəkkürün səviyyəsinə uyğun inkişaf etdirərək daha da zənginləşdirmişdir.Bəllidir ki, B.Vahabzadə poetik dünyamızın Füzuli, Vaqif, S.Vurğun, Aşıq Ələsgər, Şəhriyar kimi möhtəşəm və dahi ədəbi korifeylərin ardıcılıdır.
O, sözü məharətlə oynadaraq parlaq bəlli təzadlar yaradır , fikrin poetik məğzinidərinləşdirir və fəlsəfi ümumiləşdirmələr səviyyəsinə qaldıraraq, oxucuda böyük sevinc və mənəvi estetik duyğular oyadır.
Bəzən nalə çəkib tökər göz yaşı,
Həmişə özümlə durar yanaşı.

Özümün hakimi, sözümün başı,
Eşqimin, arzumun qulu fikirlər.(2 – 264)

Görkəmli dilçi alim T.Hacıyev B.Vahabzadənin bədii dilinin özəllikləri ilə əlaqədar yazdığı məqalədə, ümumiyyətlə dilin ünsiyyət funkisyası ilə yanaşı onun bədii-fəlsəfi mahiyyətinə də diqqət yetirir.Dəyərli alim dili insanı kimi səciyyələndirərək, onun da düşüncəli, fikirli olduğunu və buna görə insan düşünməyə vadar etdiyini qeyd edir.O , xalqın istedadının mənəvi sərvət kimi onun dilində suxurlaşaraq, külçə halında min illər boyu nəsildə-nəsilə ötürüldüyünü yazır. B.Vahabzadə yaradıcılığının bu aspektdən təhlil edən alim, bədii-zehni təfəkkürümüzün genişlənməsində, mənəvi koloritimizin artmasında, həmçinin dilimizin saflığının qorunmasında Bəxtiyar Vahabzadənin poeziyasını yüksək qiymətləndirir.

Ədəbiyyat siyahısı:

1. Y.Qarayev , Ş.Salmanov. Poeziyanın kamilliyi. Bakı , Yazıçı, 1985.
2. B.Vahabzadə. Seçilmiş əsərləri iki cilddə, 1 –ci cild Bakı, Öndər nəşriyyatı, 2004.
3. Müasir Azərbaycan ədəbiyyatı. Dərslik, Bakı, 2007.
4. Əliyev İfrat. B.Vahabzadənin lirikası. Bakı, Yazıçı, 1983.
5. Vaqif Zaurlu . Poeziyanın inkişaf yolları. Bakı, Ozan, 1997.
6. Vaqif Allahverdiyev. B.Vahabzadə yaradıcılığında milli özünü dərkin bədii – fəlsəfi ifadəsi. Bakı , Yazıçı, 2011.
7. Hacıyeva Maarifə . Müdriklik çeşməsi. Bakı, Yazıçı, 1984.
8. Hacıyev Tofiq. Şerimiz, nəsrimiz, ədəbi dilimiz, Bakı, Yazıçı, 1990.
9. Açar Sözlər: Poeziya, Ana dili, saflıq, şeir, bədii, poetik, şair, dil, söz, qorumaq.

Xülasə

B.Vahabzadənin poeziyası obrazlı düşüncə, bədii təsvir və ifadə əlvanlığı, həmçinin zamanla səsləşən mövzuların seçimi və onların yüksək poetik səviyyədə işlənməsi baxımından böyük ədəbi hadisədir. B.Vahabzadə ana dilimizin inkişafı yolunda daim mübarizə aparan , bu yolda həmişə ciddi sənətkar və vətənpərvər ziyalı mövqeyi sərgiləyən şairdir. İstər bədii, istərsə də elmi nəzəri məruzə və çıxışlarında doğma dilimizin saflığını qoruyub saxlamaq, onu daha da zənginləşdirmək istiqamətində görülən tədbirlərə xüsusi önəm verilməsini təbliğ etmiş və bu məsələlərə ciddi diqqət yetirmişdir.

B.Vahabzadənin dili bədii keyfiyyətləri ilə seçilən, özünəməxsus poetik – fəlsəfi zənginliyə, dolğunluğa malikdir. Onun poeziyası dərin və aydın məntiqi ilə, həmçinin yüksək bədii məziyyətləri ilə ana dilimizin zənginləşməsinə xidmət edir.

Summary

B.Vahabzadeh's poetry is a great literary event in terms of figurative thinking, variety of artistic description and expression, as well as the choice of themes that resonate with time and their development at a high poetic level. B.Vahabzadeh is a poet who constantly strives for the development of our native language, always showing a serious artist and patriotic intellectual position on this path. In both artistic and scientific theoretical reports and speeches, he advocated the importance of maintaining the purity of our native language, the measures taken to further enrich it, and paid serious attention to these issues.

B.Vahabzadeh's language has its own poetic-philosophical richness and fullness, distinguished by its artistic qualities. His poetry, with its deep and clear logic, as well as its high artistic merits, serves to enrich our native language.

Резюме

Поэзия Б.Вахабзаде - большое литературное событие с точки зрения образного мышления, разнообразия художественного описания и выражения, а также выбора резонирующих со временем тем и их развития на высоком поэтическом уровне. Б.Вагабзаде – поэт, который постоянно стремится к развитию родного языка, всегда проявляя на этом пути серьезную художественную и патриотическую интеллектуальную позицию. Как в художественных, так и в научно-теоретических докладах и выступлениях он отстаивал важность сохранения чистоты родного языка, принимаемые меры по его дальнейшему обогащению, уделял этим вопросам серьезное внимание.

Язык Б.Вахабзаде обладает поэтико-философским богатством и наполненностью, отличается художественными качествами. Его поэзия своей глубокой и ясной логикой, а также высокими художественными достоинствами служит обогащению нашего родного языка.

RƏYÇİ: dos. E.Vəliyeva

Исмаилова Сона Тариел кызы 45

ИСЛАМСКИЙ ВОСТОК В ТВОРЧЕСТВЕ ПОЭТОВ-СИМВОЛИСТОВ

(на основе творчества К.Д. Бальмонта и Эллиса)

Восток испокон веков привлекал внимание русских писателей и мыслителей своей экзотичностью, неизведанностью, разнообразными обычаями и традициями. В творчестве многих русскиххудожников слова можно встретить описание «отца ужасов» Сфинкса (И.С. Тургенев «Сфинкс», В.Я. Брюсов «Загадка Сфинкса»), традиционные восточные образы соловья и розы (В. К. Кюхельбекер «Смерть Байрона»), целые поэтические сборники, посвященные восточным странам (Н.С. Гумилев «Египет», «Китайские стихи»), стихотворения, воодушевленные поэмами Низами, газелями Хафиза (В. Хлебников «Медлум и Лейли», Н.С. Гумилев «Дитя Аллаха»). Однако особое место в творчестве русскиххудожников слова занималИсламский Восток.

Как известно, в 610 году сорокалетний Мухаммед(570-632) объявил себя посланником (رسول –расуль) и пророком (نبي - наби), после чего стал проповедовать в Мекке монотеистическую религию, которую назвал Ислам(الإسلام – покорность воле Бога) – самая молодой религия мира, зародившееся в VII веке в Западной Аравии (Мекке). Каждая монотеистическая религия имеет свою священную книгу: христианство Библию, иудаизм Тору. Священным же писанием мусульман является Коран (القرآن – «аль-Куръан»).

Интерес к Исламу, в русской литературе начал зарождаться еще в середине XIвека. В это время на славянские языки стали переводиться богословские сочинения византийских летописцев, например, «Хроники» Георгия Амартола (IXвек), включавшие в себя некоторые сведения о судьбе пророка Мухаммеда (570-632).

Писатели и богословы того времени не были знакомы с полным текстом Корана, так как целиком он был переведен лишь в петровскую эпоху, в 1716 году под названием «Алкоран о Магомете, или Закон турецкий». До сегодняшнего дня доподлинно неизвестно, кто же является автором перевода. Он был сделан не с подлинника на арабском языке, а с французского перевода Андре дю Рие.Первым же переводом Корана непосредственно с арабского языка, выполненным востоковедом, был перевод Д.Н. Богуславского, сделанный в 1871 году.

«Конечной инстанцией любого разумного человека является Ислам» эту фразу приписывают одному из самых великих классиков русской и мировой литературы Льву Николаевичу Толстому. Думаю, поэтому и принято считать, что апогеем интереса русских писателей к мусульманскому востоку является именно XIX век. В эту эпоху вдохновленный переводом М. И. Веревкина («Книга Аль-Коран аравлянина Магомета, который в шестом столетии выдал оную за ниспосланную к нему с небес, себя же последним и величайшим из пророков Божиих» 1790 год) А.С. Пушкин написал свой великий цикл «Подражания Корану» (1824), состоящий из девяти переложений коранических сур.

Как и в XIX веке, так и на рубеже XIX-XXвеков интерес к Священному Писанию Ислама не угасал. Начало нового века – переходная пора была пропитана декадентскими настроениями. Новая веха в мировоззрении русских мастеров пера была насыщена пессимизмом, связанным с переломным моментом, кризисом культуры. Писатели XXвека обращались к теме мусульманского востока по разным причинам: одни старались приобщиться к мусульманским духовным ценностям и пытались таким образом понять исламскую культуру, другие мечтали черпать духовную силу из тем, связанных с Исламом, да и в целом с востоком, чтобы поддержать то явление, которое они считали «уставшей» и «декадентской» европейской культурой, а третьи видели возможность особого «синтеза» исламской поэтики с русским искусством.

Вдохновлялись Исламом и изучали Коран многие представители модернистских течений, в том числе и поэты-символисты. В 1905-1909 годах Коран заинтересовал представителя старшей плеяды поэтов-символистов К. Д. Бальмонта (1867-1942). Этот интерес вылился в целый цикл переложений «Коран» (1909), увидевший свет в журнале «Русская мысль». К. Бальмонт написал двенадцать переложений коранических сур.

Открывающее цикл стихотворение «Клянусь» является переложением сотой суры Писания под названием «Мчащиеся», посвященной теме Судного дня. Прослеживая последовательность стихов, можно заметить: символист начинает писать о скакунах, разящих стан врагов, как это описано в суре. Однако к концу стихотворения происходит отхождение от исходной темы, и автор пишет «Алла всеподобен. Его возвещать я могу. // Внимайте, Пророк говорит». [4,89]Поэт советует всем читающим внимать слова Пророка, так как из его уст исходит правда. Из этих строк уже можно понять, как русский поэт-символист относился к Корану и написанному в нем. Тема Судного дня своеобразно изображена К. Бальмонтом. Он пишет, что «Кто враг Откровенья, узнает, как жарко врагу» [Там же, 89], однако не упоминает одну из главных строк суры – «поистине, Господь их в тот день о них осведомлен» [7,688], говорящей о том, что Аллаху все известно о каждом человеке и что каждый в Судный день ответит перед ним.

Судный день описан во многих сурах Священного Писания Ислама. Одной из таких глав является сто первая «Бичевание». В цикле поэта-символиста сура получила название «Удар». Деление загробного мира на Рай («И для того, чьи добрые деянья перевесят, // Жизнь уготована в прекрасном Рае, // Где он найдет блаженство и покой» [Там же, 688]) и Ад («рва бездонного» [Там же,688]), горящий слепящим пламенем – всё это обрисовано в главе.

---

45 магистрант БГУ

Неизвестно, делал ли К. Бальмонт эти переводы с оригинала Корана, то есть с арабского языка, или же пользовался русским переводом, однако смысл суры поэтом был впитан верно.
Автор пишет:
И деяния взвесятся на верных весах,
И что видел во сне, узрят все наяву.
Тот, кто знал, где ходил, будет в
пышных садах.
Кто в зданиях спал, тот проснется во
рву. [4,90]
Пятьдесят пятая сура Корана под названием «Милосердный» стала
основой для одноименного переложения. В этом стихотворении К. Бальмонт почти в точности передает содержания суры. Данная глава рассказывает о деяниях Аллаха:
Милосердный. - Он научил Корану,
сотворил человека,
научил его изъясняться.
Солнце и луна - по сроку. [6,409]
К. Бальмонт почти так же начинает свое стихотворение:
Он, милосердный, научил
Путеводящему Корану,
Лазурь наполнил блеском сил.
Дал к тучам восходить туману.
Идёт и солнце и луна. [4,89]
«Старшего» символиста интересовали суры с почти одинаковым содержанием, так как не только стихотворение «Милосердный», но и стихотворение «О, пророк», написанное на основе суры «Завернувшийся», описывает нравоучения и деяния Аллаха, говорит о его могуществе. В стихотворении «Милосердный» поэт пишет: «Владыка двух восходов Он, // Владыка яркий двух закатов» [Там же,90], почти такие же строчки можно встретить и в стихотворении «О, пророк»: «Он Востока есть царь и Заката, // Пред Ним расцвечается мгла». [4,91]
За основу стихотворения «Не позабудь» поэт взял третью суру «Семейство Имрана». Это одна из самых длинных сур, состоящая из двухсот аятов.В этом стихотворении автор говорит о предназначении Корана, но в своем понимании, интерпретируя слова в Писании по-своему:
Не позабудь: Коран – остереженье,
Он указание, куда и как идти.
В его строках – всегда внушенье,
И означение пути. [4,92]
Из выше перечисленного можно сделать вывод, что, прочитав эту главу, К. Бальмонт отбросил часть, о которой пишет И.В. Порохова: «пророки иудейские, христианские и мусульманские исходят из одних родов, так как мать Иоанна Крестителя (араб. Йахйа) Елисавета была двоюродной сестрой Марии (араб. Марйам), матери Иисуса Христа (араб. Иса)» [7,63-64]. Видимо, его не интересовали такие исторические факты. Он обращал внимание лишь на учение, приводящее человека в последний час светлым.
Также можно отметить своеобразную манеру поэта при написании данного цикла. В некоторые сурах, таких, как деканская сура № 100 «Мчащиеся», на основе которой написано первое стихотворение цикла «Клянусь», или сура № 101 «Поражающий», являющееся основой для стихотворения «Удар», последовательность аятовне нарушена. Однако, если рассмотреть переложение «О, Пророк» (сура № 73 «Завернувшийся»), можно заметить, что автор пропускает некоторые аяты:

Но чтением стройным Корана	(Айат 4: или прибавь к этому и читай Коран чтением).
Молись, как проходит ночь.	(Айат 6: Ведь вставание ночью — оно сильнее по действию ипрямее по речи.)
Повторяй имя Господа Бога,	(Айат 8: И поминай имя Господа твоего и устремись к Нему всем устремлением.) [6,448]
Алла, Алла, Алла [4,91]	

В некоторых стихотворениях цикла можно заметить смешение поэтом сур разных периодов, например, «Не позабудь»: первое четверостишие произведения мединская сура № 3 «Семейство Имрана», второе – мекканская сура № 80 «Нахмурился», третье – мекканская сура № 85 «Башни». Такое же смешение есть и в переложении «Аль-Хотама». Кроме вышеперечисленных переложений в цикл входят также «Великая весть» (сура № 78 «Весть»), «Дым» (сура № 44 «Дым»), «Богачи» (сура № 83 «Обвешивающие») и другие.
Данный цикл говорит о серьезной заинтересованности поэта не только поэтической формой сур, но и интересом к религиозному содержанию Корана. Хоть и в творчестве К. Бальмонта Коран больше не нашел свое отражение, однако данный цикл стал попыткой русского символиста постичь исламскую религию. –

Коранические мотивы нашли отражение и в творчестве «младосимволиста» Льва Львовича Кобылинского (1879—1947), прославившегося под псевдонимом Эллис. В ранний период своего творчества Эллис увлекается антропософией, немецкой философией и Кораном, видимо, это было связано с духовными исканиями молодого поэта. Нельзя сказать, что коранические мотивы вылились в целый цикл оригинальных стихотворений или же переложений, вышедших из-под пера символиста, но несмотря на это в 1911 году в своем первом оригинальном сборнике «Stigmata» автор написал несколько стихотворений под влиянием священной книге Ислама.

Так как Эллис был представителем плеяды «младший» символистов, тяготеющих к апокалиптическим настроениям, он не мог пройти мимо суры, посвященной теме Судного Дня. Этот эсхатологический мотив Конца света, приобретающего характер космической катастрофы. Данным мотивом пронизано стихотворение «День облекающий (Из Корана)». У Эллиса мотив Судного Дня переплетен с мотивом неизбежной смерти, воплощенным в образе ангела Азраил:

но близок трубный день... И страшно-лучезарен
уж к миру близится печальный Азраил. [4,106].

В Коране об ангеле смерти (Азраиле) говорится: «Скажи: «Ангел смерти, которому вы поручены, умертвит вас, а затем вы будете возвращены к своему Господу» [7, 512].

Одним из эпизодов Судного дня является то, что к каждому человеку будут приставлены два ангела, один из них будет вести его к месту величайшего сбора для отчета и не позволит ему сбежать. Эллис заимствовал образ ангела-погонщика, но русский поэт назвал его «стражем»: «и душу каждую постигнет темный страж» [4,106].

Согласно вероучению Ислама, одним из признаков грядущего Конца света станет появление существа под именем «Даббат аль-ард» («земной зверь»). В Коране говорится: «Когда же свершится над ними Слово, Мы выведем к ним из земли животное, которое скажет им, что люди не были убеждены в Наших знамениях» [7, 271]. По преданию, вместе с этим звероподобным существом «Даббат аль-ард» появятся жезл пророка Мусы (Моисея) и перстень с печаткой пророка Сулеймана (Соломона). Эллис обращается к образу «Деаббат аль-ард», о котором в хадисах (изречениях пророка Мухаммеда) говорится как о существе, наделенном сверхъестественными способностями, однако ни Коран, ни хадисы не сообщают о том, как оно будет выглядеть. Вот как художественно описан этот «земной зверь» у поэта:

И пробужден трубой, к нам выйдет из мечети
зверь с головой быка, лохматой грудью льва
и шеей страуса, в рогов оленьих сети
оденется его бычачья голова.
Мыча, он каждого настигнет на пути,
помчится бешено, чтоб по словам закона
в миг Моисеев жезл с печатью Соломона
к престолу Судии послушно донести. [4,106].

В последнем четверостишии стихотворения Эллиса находим описание райских наслаждений. В картине Рая у Эллиса преломляются такие коранические мотивы и образы, как вечно льющийся, неиссякаемый божественный свет и райские сады: «возлягут меж чинар божественного сада» [Там же, 106].

Перу Эллиса также принадлежат стихотворения «Исторгающий», эпиграфом к стихотворению поэт выбрал три первые строки из 79-й суры «Вырывающие» (1. Клянусь исторгающими насильственно,
2. Удаляющими осторожно,
3. Плавающими по воздуху!.." [4,107])

Главной темойсуры является актуальная тема Падшего Ангела. Однако Эллис, одухотворенный этой темой, написал оригинальное стихотворение. Из суры взят только образ Падшего Ангела, которого поэт-символист называл «Ангел черный».

Перу Кобылинского-Эллиса относится стихотворение под названием «Ночь Алькадра» (1911). Уже из названия видно, что автор написал данное произведение под впечатлением коранической суры, связанной со святой ночью Аль-Кадра (97-я «Могущество»).

Поэт в эпиграфе дает информацию о суре, что говорит о знании автора истории Корана и его глав: «Коран, Глава XCVII // Дана в Мекке. - 5 стихов.» [4,109]

Если сравнивать его поэтическое переложение этой суры с переводом Прохоровой:

1. Мы низвели Коран в святую ночь Алькадра.	1.Мы повелели снизойти Корану в ночь Аль Кадра.
2. Кто изъяснит тебе, что значит ночь Алькадра	2. Как изъяснить тебе, что значит «ночь Аль Кадра»?
3. Несчетных месяцев длиннее ночь Алькадра.	3. Дороже тысячи (бесплодных) месяцев она!

4. И Дух и Ангелы нисходят в ночь Алькадра. [4,109]	4. В ночь эту ангелы и Дух (Святой) Нисходят с неба с Божьего соизволенья. [7,686]

Можно сделать вывод, что стихотворение «Ночь Алькадра» достаточно точный поэтический перевод суры, вышедший из-под пера поэта-символиста.

Коранические мотивы выделились в творчестве Эллиса не только переложениями, нои оригинальными произведениями, навеянными кораническими мотивами. Одним из таких самобытных произведений, наряду со стихотворением «Исторгающий», – «Смерть бедуина. В нем автор умело использует традиционные восточные образы «караван», «шакал», «бедуин», «хиджаб».

Можно утверждать, что именно духовные искания на раннем этапе творчества привели Эллиса к изучению Корана. Хоть эта заинтересованность мало отразилась на поэтическом творчестве поэта, но и этих произведений достаточно, чтобы сделать вывод: Л. Кобылинский оценил исламскую культуру через призму своего индивидуального взгляда и отразил его в поэтической форме.

Исламский восток лапидарно отразился в поэтическом творчестве символистов,но несмотря на это, он сыграл значительную роль в формировании русской ориенталистики.

Списокиспользованнойлитературы

1. Бальмонт К.Д. Полное собрание стихов в 10 томах. Том первый. — Москва: Скорпион, 1914. – 234 с.
2. Бальмонт, К. Д. Ясень. Видение Древа. — Москва: Епишева О. В., 2015. – 263 с.
3. Эллис. Лев Львович Кобылинский. Стихотворения. – Томск: Водолей, 1996. – 215 с.
4. Взаимопроникновение культур: Коран в русской поэзии / [авт.-сост. Ю.А. Гаврилов, А.Г. Шевченко; отв. ред. М.П. Мчедлов]; Ин-т социологии РАН. - Москва: Наука, 2006. - 181 с.
5. Климович Л.М. Книга о Коране, его происхождении и мифологии. – Москва: Политиздат, 1986. - 270 с.
6. Коран. Перевод и комментарии И. Ю. Крачковского. Москва: 1963. – 483 с.
7. Коран. Перевод смыслов и комментарии Иман Валерии Пороховой. Москва: Рипол Классик, 2010. – 800 с.

Резюме

В представленной статье рассматриваются произведения, сочиненные под влиянием исламской культуры и религии, в творчестве представителей символистского течения. Данная тематика отразилась лишь в поэтическом творчестве К.Д. Бальмонта и Эллиса, чьи циклы, в которые входят не только стихотворения, навеянные кораническими образами и мотивами, но и почти точные переводы, являются предметом исследования. Проанализирована структура, синтаксис произведений; сделана попытка выявить взгляд поэтов на Коран.

Ключевые слова: Восток, символизм, К. Бальмонт, Эллис, Коран, Серебряный век.

Summary

The presented article examines works composed under the influence of Islamic culture and religion in the work of representatives of the symbolist movement. This topic was reflected only in the poetic work of K.D. Balmont and Ellis, whose cycles, which include not only poems inspired by Quranic images and motifs, but also almost accurate translations, are the subject of research. The structure, syntax of the works were analyzed; an attempt was made to reveal the poets' view of the Qur'an/

Key words: East, symbolism, K. Balmont, Ellis, Qur'an, Silver Age

RƏYÇİ: dos. L. ƏLƏKBƏROVA

Əliyeva Simuzər Əliyulla qızı1

MİRZƏ ƏLƏKBƏR SABİRİN YARADICILIĞINDA UŞAQ DÜNYASININ BƏDİİ TƏQDİMİ

Azəraycan uşaq ədəbiyyatının təşəkkül və inkişaf dövrü XIX əsrin son illərindən başlayaraq zəngin bir yaradıcılıq nümunələrinə çevrilmişdir.

Azərbaycan uşaq ədəbiyyatı nümunələri şifahi xalq ədəbiyyatı,klassik poeziyamızın ənənə-lərindən bəhrələnmiş və müasir dövrdə də buna sadiq qalmaqdadır.

XIX əsrin sonlarından başlayaraq Azərbaycan ədəbiyyatı mədəni və pedaqoji mühitində baş vermiş irəliləyişlər sözsüz ki,uşaq ədəbiyyatında da öz uğurlarını göstərmiıdir.Bu dövrdən başlayan uşaq ədəbiyyatı sahəsində yazıb yaradan ziyalılarımızın sıraları artmaqdadır.XIXəsrin sonu,XX əsrin əvvəllərində yaşayıb-yaradan maarifpərvər ziyalılarımız- S.M.Qənizadə, S.S.Axundov,A.Şaiq, A.Səhhət, M.Ə.Sabir kimi sənətkarlarımız öz yaradıcılıqlarında uşaqların, gənc nəslin təlim - tərbiyəsini inkişafına təkan verən mövzulara müraciət etmişlər.

Bu sənətkarlardan biri olan mütərəqqi Azərbaycan pedaqoji fikrinin inkişafında mühüm xidmətləri olan M.Ə.Sabir maarif, məktəb, gənc nəslin təlim və tərbiyəsi məsələləri ilə sıx surətdə bağlı olan şəxsiyyətlərdəndir. Sabir yaradıcılığında vətən övladının təhsili və tərbiyəsi məsələlərinə geniş yer verilmişdir.

M.Ə.Sabir sözün əsl mənasında xalq müəllimi olmuşdur. O bir müddət Şamaxıda məktəb açmış, ömrünün son günlərinə kimi müəllimlik etmişdir. Sabir eyni zamanda uşaqların sevimlisi idi. O heç vaxt öz balaca oxucularını yaddan çıxarmamış, onlar üçün nəğmələr, mənzum hekayələr, təmsillər yaratmışdır.

Uşaq üçün yazılmış şeirlər Sabir yaradıcılığında mühüm yer tutur. Sabirin bu tipli şeirlərində vətənə, doğma xalqa məhəbbət, elmə, məktəbə çağırış motivləri çox güclü idi. Lakin o, uşaq dünyasına birdən-birə uşaqların gözü ilə yox, satiranın aynasından baxmışdır.Öz oğlunun məktəbə getməsinə imkan verməyən ata fəxrlə oğlunun dünən küçədə qoca bir saili (dilənçi qadını) vurduğunu danışır:

Durmuq idim küçədə, bir də nə gördüm haman,
Ağrısını aldığın Feyzi gəlir lar piyan,
Çatcaq vurub bir qoca saili qusdurdu qan,
Gözlərinə döndüyüm sanki bir aslan imiş!
Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş!(3)

Ata oğlu ilə fəxr edir: On beş yaşı olanda lap Rüstəm-Zal kimi qəhrəmanlıqlar göstərəcək. Həyat həqiqətlərinin carçısı olan Sabirin uşaqlar üçün yazdığı nəğmələrdə incə bir romantika, gələcəyə səmimi inam çox güclü idi.

Lakin bütün bunları nəzərə almasaq, Sabir uşaq ədəbiyyatı sahəsində yazıb- yaratmağın çətinliyini və məsuliyyətini dərk etmiş, uşaqların dəqiq, həssas oxucu olduğunu yaxşı başa düşmüşdü. O, belə hesab edirdi ki, nədən yazmaq hələ əsas şərt deyil, ən başlıcası həm də necə yazmaq, uşağın qəlbinə, onun sirli-soraqlı dünyasına nüfuz etmək, zövqünü oxşamaq bacarığıdır. Onun uşaqlar üçün yazdığı nəğmələrdə sənətkarlıq, dilin sadəliyi, aydınlığı, təbiiliyi, uşaq psixologiyasına uyğunluğu və xəlqiliyi ilə seçilir.

Bizim uşaq şeirləri yazan sənətkarlarımızın əksəriyyəti əlinə qələm alanda birinci növbədə vətən övladının taleyini, xoşbəxtliyini düşünmüş və bunu gətirib məktəbə, xalq maarifinə bağlamışdır. Bu xüsusiyyət həm Sabirdə, həm Şaiqdə, həm də R.Əfəndiyevdə müşahidə olunur. Heç də təsadüfi deyil ki, M.Ə.Sabirin birinci şərqisi «Məktəbə tərqib (çığırış)» adlanır. Bu uşaq şeiri Sabirin ən çox oxunan əsərlərindən biridir və belə səpkili şərqilər Sabir yaradıcılığında silsilə təşkil edir. 1907-ci ildə yazılan bu nəğmədə məktəbə çağırış, elmə həvəs hissinin təbliği çox güclüdür.

Mənim bağım, baharım,
Fikri ziyalı oğlum!
Məktəb zamanı gəldi,
Dur, yaraşıqlbı oğlum!
Ey gözüm, ey canım,
Get məktəbə cavanım!

Diqqət etsək, şeirdə bir qədər romantiklik var- Bütün mütərəqqi ziyalılarımız kimi Sabir də arzu edirdi ki, onun vətəni savadlı, mədəni cəhətdən inkişaf etmiş bir ölkə olsun. Sabir bir müəllim kimi böyük arzularla, xülyalarla yaşayırdı: Azərbaycan mədəni bir ölkə olsun! Bu mədəni ölkədə yaxşı məktəblər olsun, tərtəmiz geyinmiş balacalar qoy o məktəbdə quş kimi səssəsə versinlər. Hər səhər qoy valideynlər öz uşaqlarını sevə-sevə, əzizləyə-əzizləyə yuxudan oyatsınlar, mal-qara otarmağa yox, məktəbə göndərsinlər.

Sonra Sabir məktəbin xüsusiyyətlərini sadalayır:

Məktəbdə var şərafət,
Dəftərdə var lətafət,
Cari olur qələmdən,
Şirin-şirin hekayət-
Ey gözüm, ey canım,

1ADPU, Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının əməkdaşı, filoligiya üzrə fəlsəfə doktoru

Get məktəbə cavanım!
Sabir bu şeirdə həm müəllim, həm də ata kimi uşaqlara nəsihət edir, öyüd verir:
Elm öyrən, imtahan ver,
Öz fəzlini nişan ver,
Qədrin bil elmü-fəzlin,
Elmin yolunda can ver,
Ey gözüm, ey canım,
Get məktəbə cavanım!
Şeirdə dilin rəngarəng bədii formalarından uşağa yaxın olan, onun təfəkkür tərzinə daha münasibi seçilib məharətlə istifadə olunmuşdur.Diqqət etsək, Sabirin bu şeiri ilə A.Şaiqin «Oyan, oğlum!» (1907) və «Məktəbdə» (1907) şeirlərin arasında nə qədər yaxınlıq, ideya cəhətdən səsləşmə var. Şərqilərin yazılma tarixləri arasındakı günlərin sayı da barmaqlba sayılacaq qədərdir. Bu da onunla izah oluna bilər ki, həmin dövrdə məktəb, maarif sahəsində xalq üçün konkret iş görülməmişdi. Bu ağırlığı da birinci hiss edən, çiyinlərinə götürən, bu sahədə ideal qardaşları olan, əgər belə demək olarsa, böyük sənət korifeylərimiz Sabir və Şaiq olmuşdur.
Sələflərindən fərqli olaraq M.Ə.Sabir uşaq şərqilərində məktəb, maarif, elmlə bağlı məsələlərə geniş yer vermişdir. «Başlanğıc tamın yarısıdır» (Pifaqor). Sabirin də bu ruhlu şərqiləri əvəzsiz idi və bunu sonradan görülən işlərin yarısına bərabər tutmaq olardı.
Sabirin dərin məna kəsb edən şərqilərindən biri də «Elmə tərqib» adlanır. Bu nəğmə «Hophopnamə»nin inqilabdan əvvəlki çaplarında yoxdur, sonrakı nəşrlərdə isə «illəri məlum olmayan uşaq şeirləri» bölməsində getmişdir. Şərqinin çox maraqlı, həm də dolaşıq bir tarixçəsi var.
1907-ci il avqustun 17-də Şamaxı ziyalıları N.Vəzirovun «Müsibəti- Fəxrəddin» faciəsini tamaşaya qoyurlar və bildiyimiz kimi, bu şərqi tamaşanın pərdələri arasında oxunur. Tanınmış Şamaxı ziyalılarından Ə.Mustafayev sonradan tamaşa haqqında öz xatirələrini yazarkən nədənsə bəzi faktları nəzərdən qaçırmış və yaxud dolaşıq salmışdır. Professor R.Məmmədov xatirəyə tamam başqa cəhətdən yanaşmış, faktların düzgün təhlilini belə vermişdir.
Şeirin «Yağışdan çıxdıq, yağmura düşdük» komediyası ilə heç bir əlaqəsi yoxdur.
Tamaşa göstərilən zaman, yəni 1907-ci ildə Sabir məktəbdə müəllim olmamışdır. Sabirə müəllimlik hüququ yalnız 1908-ci ildə verilmişdir. «Elmə tərqib» «Müsibəti-Fəxrəddin»in pərdələri arasında oxunmuşdur.(1)
Elmin izzəti payidar olur,
Cəhlin nikbəti canşikar olur;
Hər kəs elm oxur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.
Oxuyun, əzizlər, oxumaq zəmanıdır!
Oxumaq hər adəmin ədəbi nişanıdır!
Sidq ilə əl-ələ çatmasaq biz,
Qəfləti bir tərəf atmasaq biz,
Bizdə hərgiz səadət olurmu?
Səbqət etməkdə qüdrət olurmu?
Sənətkarın yaşayıb-yaratdığı dövrdə «Dəbistan» (1906-1908), «Rəhbər» (1906-1907), «Məktəb» (1911-1920) kimi mütərəqqi mətbuat orqanları müəllimlərin dünyagörüşündə, fəaliyyətində böyük rol oynamışdır. Belə ki, Sabirin məsləkdaşları olan A.Şaiq, A.Səhhət, R.Əfəndiyev kimi maarif, təhsil, pedaqoji sahədə çalışanlar tərəqqiyə, milliyyətə, yüksəlişə dair fikirlər ifadə olunan əsərlər yaratmışlar. Uşaqlar, məktəblilər, yeniyetmələr üçün yazılmış bu əsərlər dinləyicilərdə xoş təəssürat, xoş əhval-ruhiyyə yaradır. Balacalara estetik zövq verir.
İnqilabdan əvvəl S.Ə.Şirvaninin, Q.Zakirin bəzi təmsil və şeirlərini nəzərə almasaq, uşaq mütaliəsi üçün demək olar ki, heç bir şey yox idi. Azərbaycan uşaqlarının səviyyəsinə, təbiətinə uyğun, maraqlarını oxşayan sistemli bir ədəbiyyat yaratmaq lazım idi. Maarifçi-pedaqoq şairlərimiz bu boşluğu doldurmaq üçün müxtəlif janrlarda - təmsil, mənzum və mənsur hekayə, nəğmə janrlarında əsərlər yazmağa başladılar.
Bu dövrdə yaranan uşaq üeirlərinin böyük bir qismi daha çox təbiətlə, heyvanlarla bağlıdır. Bu tipli uşaq şeirlərində ilk diqqəti cəlb edən xüsusiyyət onların xəlqi ruhda olmasıdır. Bu şərqilərdə şifahi xalq ədəbiyyat motivləri aydınca hiss olunur. Bu da, hər şeydən əvvəl, şagirdləri öz günyagbrüşlərinə uyğun bir tərzdə nitqlərini inkişaf etdirmək, onları gündəlik təmasda olduqları heyvanlarla, quşlarla, təbiət hadisələri ilə əyani şəkildə tanış etmək; ikinci molla nəsrəddinçilərin dil saflığı uğranda apardıqları mübarizənin davamı idi.
Sabir istedadının ən parlaq və ən canlı ifadəsi, mövzusu xalq ədəbiyyatından alınmış, bu gün də öz bədii dəyərini itirməyən, dillər əzbəri olan şərqilərindən biri də «Uşaq və buz»dur. Şeir 1907-ci ildə yazılmış və «Birinci il» dərsliyində sap edilmişdir. Bu şeirdə hər söz, hər ifadə öz balaca oxucusu ilə sanki dil açıb danışır. Bu şeirdə qış fəsli ilə əlaqədar kiçik bir hadisə təsvir olunur. Balaca bir uşaq dərsə gedəndə ayağı sürüşür və üzü üstə yerə dəyir. Lakinr o sarsılmır, ağlamır- Ayağa durur və buzu ittiham etməyə başlayır. Onun bütün «nöqsanlanrı» üzünə deyir:
Sən nə yamansan, a buz,
Adam yıxansan, a buz.

Şeirdə buz alleqorik bir obrazdır. O, uşağın dediklərini sakit bir tərzdə dinləyir. Uşaq da bir şey edə bilmir, qəzəblənir və qəzəbini cilovlaya bilmir: yaz gələr, gün çıxar, onda sənin aqibətini görərik.

Əriyib suya dönərsən,
Axıb çaya gedərsən.

Bir anlığa uşaq dünyagörüşünün sərhədlərindən kənara çıxan və bu uşağın mömin olmasını və yaxud anasını gözümüz önünə gətirək: mömin ata bu halı adi bir vəziyyət kimi qarşılayacaqdı və deyəcəkdi ki, allah, sənə çox şükür, bu bəladan da yaxşı qurtardıq və durub yoluna davam edəcəkdi, nəzir verəcəkdi ki, onu bir xətər toxunmadı. Cəmi 44 sözdən ibarət olan bu nəğmədə Sabir uşaq dünyagörüşündə böyük bir aləm yaradır. O demək istəyir ki, yıxıldın, inildəmə, ağlama, əcdadın kimi Allahdan kömək diləmə. Qalx və ittiham et!M.Ə.Sabirin «Yaz günləri» şeiri təbiət təsvirinə həsr olunub. Kiçik həcmli bu şərqidə daxili süjet, yüksək emosionallıq var. Baharın gəlişi, yaz günləri şərqidə belə təsvir olunur.

Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri,
Dağda ərit qarları,
Bağda ərit qarları

Çaylar daşıb sel olsun,
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun,
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək.

Bu şeir həcmcə kiçik olsada, baharın gəlişindən sonra təbiətdə baş verən dəyişikliklər balaca oxucunun gözləri qarşısında böyük bir aləm yaradır.

Bütün bunları yekunlaşdıraraq belə nəticəyə gələ bilərik ki, uşaq ədəbiyyatı Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsidir. Bu ədəbiyyat uşaqların və gənclərin təlim-tərbiyəsində qüdrətli bir vasitə olub, balacalarımızın ekstetik zövqünün formalaşmasına güclü təsir edən bir ədəbiyyatdır.

İndi müasir uşaq ədəbiyyatı daha geniş auditoriyanı əhatə edir. Bu ədəbiyyatı yalnız uşaqlar deyil, böyüklər, valideynlər, tərbiyəçilər, müəllimlər və başqa ixtisas sahibləri də həvəslə mütaliə edirlər. Bunlar müasir uşaq yazıçılarının məsuliyyətini qat-qat artırır. Onları uşaq həyatı, uşaq psixologiyasını daha dərindən öyrənməyə təhrik edir.

Təsadüfi deyil ki, bizim uşaq ədəbiyyatının beşiyi başında M.Ə.Sabir, A.Səhhət, A.Şaiq kimi qüdrətli sənətkarlarımız dayanmış, onların nəcib ənənələri isə görkəmli Azərbaycan yazarları tərəfindən inkişaf etdirilib zənginləşdirilmişdir. Sevindirici haldır ki, indi uşaqlarımızın sevə-sevə oxuduqları gözəl sənətkarlar vardır.

Azərbaycan uşaq poeziyası 1960-cı illərdə yenri inkişaf mərhələsinə, daha ciddi axtarışlar dövrünə qədəm qoymuşdur. Bu dövrdə uşaq şeirini müxtəlif nəsillərin nümayəndələri təmsil etmişlər. Hələ ilk mədəni və quruculuq illərində ədəbiyyata gələn, uzun illər bu ədəbiyyatın önündə gedən M.Rzaquluzadə, M.Seyidzadə, M.Dilbazi, Ə.Cəmil, N.Rəfibəyli, R.Rza kimi söz ustalarımız zəngin mündəricəli lirik şeir, nəğmə və poemalar yazmışlar.

Bu gün də uşaq ədəbiyyatının sükanı etibarlı əllərdədir. Onların davamçıları olan S.Vurğun, M.Dilbazi, Ə.Cəmil, M.Rzaquluzadə, R.Rza, X.Əlibəyli, T.Elçin, T.Mütəllibov, Ə.Kərim, İ.Tapdıq, N.Ziya kimi sənətkarların əsərləri indi də sevilə-sevilə oxunur, müxtəlif təhsil ocaqlarında tədris edilir. Hazırki dövrdə Z.Xəlil, Q.İsabəyli, R.Yusifoğlu, R.Yusifqızı, Ə.Quluzadə, S.Nuruqızı və digər yazarlarımız müasir uşaq ədəbiyyatımızın inkişafında böyük işlər görürlər. Yeni-yeni əsərlərlə öz kiçik oxucularını sevindirirlər.

Bu gün bizim uşaq yazıçılarımızın əsərləri artıq Azərbaycan sərhədlərinin hüdudlarından kənarda da sevilə-sevilə oxunmaqdadır. Bu isə Azərbaycan ədəbiyyatının necə bir zənginliyə malik olmasının bariz nümunəsidir.

Ədəbiyyat

1. Məmmədov M. Sabir və məktəb. Bakı, 1968.
2. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1984.
3. Sabir M.Ə. Hophopnamə. Bakı, 1980.
4. Z.Xəlil, Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı, 2011.
5. Köçərli F. Balacalara hədiyyə. Bakı, 1982.
6. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim, 2015.
7. Məmmədova Ş. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. I, II, III cildlər. Bakı, 2018.

8. Acar sözlər: uşaq ədəbiyyatı,inkişaf,dövr,sənətkar,yaradıcılıq,ziyalı,təhsil,tərbiyə,sıx surətdə,motiv.
9. Ключевые слова: детская литература, развитие, период, художник, творчество, интеллектуал, образование, воспитание, интенсивно, мотив.
10. Key words:cild literature, development, period,creator,creativity , education, upbringing, intensively, motive.

XÜLASƏ

«Mirzə Ələkbər Sabirin yaradıcılığında uşaq dünyasının bədii təqdimi» adlanan məqalədə Azərbaycan ədəbiyyatının bir qolu olan uşaq ədəbiyyatı, onun inkişafı haqqında qısa məlumat verilir. Məqalədə uşaq ədəbiyyatının ən geniş yayılmış janrlarından biri olan şərqilərdən söz açılır.

XIX əsrin sonu-XX əsrin əvvəllərində tətbiq olunmağa başlayan şərqilərə bəzi maarifpərvər ziyalılarımızın müxtəlif mövqedən yanaşmaları göstərilir. Məqalədə bu janrla bağlı tədqiqat aparan alimlərin adları çəkilir. Uşaq ədəbiyyatının tarixi ilə bağlı məlumatda şifahi xalq ədəbiyyatı nümunələri içərisində uşaq şeirləri xüsusi yer tutur. Məqalədə uşaqlar tərəfindən indi də oxunan şifahi xalq ədəbiyyatında uşaq şeirlərindən müxtəlif nümunələr verilir. Həmşinin Sabirlə yanaşı uşaq ədəbiyyatının qüdrətli yaradıcıları olan S.S.Axundov, A.Səhhət, A.Şaiq, R.Əfəndiyev kimi sənətkarların adları çəkilir. Onların

uşaqlar üçün yazdıqları əsərlərin maarifçilik ideyaları, təhsil, təlim-tərbiyədə böyük rol oynadığı qeyd olunur.Məqalədə M.Ə.Sabirin təhsil, tərbiyə ilə bağlı, təbiət hadisələrinə həsr olunmuş şərqilər təhlil olunur, onlardan nümunələr verilir.
Sonda uşaq ədəbiyyatının XIX əsrin sonu-XX əsrin əvvəllərindən başlayaraq inqilabdan sonrakı 40-60-cı illərdəki və müstəqillik dövründəki uşaq yazarlarının adları qeyd edilmişdir. Müasir uşaq ədəbiyyatımızın davamçıları olan Zahid Xəlil, Qəşəm İsabəyli, Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Ələmdar Quluzadə, Sevinc Nuruqızının adları çəkilmişdir.

Литературное представление детского мира в творчестве М.А.Сабира

РЕЗЮМЕ

В статье подназванием «Литературное представление детского мира в творчестве М.А.Сабира» дается краткая информация о детской литературе, отрасли азербайджанской литературы и ее развитии. В статье рассматривается восточный жанр, один из самых распространенных жанров детской литературы.
С разных точек зрения показаны подходы некоторых наших просвещенных интеллектуалов к Востоку, которые стали применяться в конце XIX - начале XX веков. В статье названы такие ученые, как Г.Намазов, А.Гаджиев, Н.Гасымова, А.Мирахмадов, М.Мамедов, А.Азизов, Дж.Ахмедов, занимающиеся исследованиями в этом жанре.Стихотворение занимают особое место в сведениях об истории Востока среди образцов устной народной литературы. В статье приведены примеры лирических стихов и восточных жанров в устной народной литературе, которые до сих пор читают дети. В этих примерах мы видим детский оптимизм, детскую терпимость и трудолюбие неграмотных детей того времени.Наряду с Сабиром в статье «Литературное представление детского мира в творчестве М.А.Сабира» упоминаются такие мощные творцы детской литературы. Отмечается, что их произведения для детей играют важную роль в просветительских идеях, обучении и воспитании.В статье анализируется история образования, воспитания М.А.Сабира, природные явления и приводятся их примеры.
В конце были названы имена детских писателей детской литературы конца XIX - начала XX века, в 40-60-е годы после революции и в период независимости. Были упомянуты имена продолжателей нашей современной детской литературы Захид Халил, Гашам Исабейли, Рафиг Юсифоглу, Рейхан Юсифгызы, Аламдар Гулузаде, Севиндж Нуругызы.

Literary presentation of the child’s world in the creativity of M.A.Sabir.

SUMMARY

The article,which was named "Literary presentation of the child’s world in the creativity of M.A.Sabir " provides brief information about children literature, the branch of Azerbaijani literature and its development. The article deals with the oriental genre, one of the most common genres of children literature.
From different points of view, the approaches of some of our enlightened intellectuals to the East, which began to be applied in the late XIX and early XX centuries, are shown. The article names such scientists as G.Namazov, A.Hajiyev, N.Gasimova, A.Mirahmadov, M.Mamedov, A.Azizov, J.Ahmedov, who are engaged in research in this genre.
Child’s poems occupy a special place in the information about the history of the East among the samples of oral folk literature. The article provides examples of lyric songs and oriental genres in oral folk literature, which are still read by children. In these examples, we see the childish optimism, childish tolerance and hard work of illiterate children of that time.
Along with Sabir, the article “Literary presentation of the child’s world in the creativity of M.A.Sabir ” mentions such powerful creators of children's literature. It is noted that their works for children play an important role in educational ideas, education and upbringing.At the end, the names of children's writers of children's literature of the late XIX - early XX centuries, in the 40-60s after the revolution and in the period of independence were named. The names of the successors of our modern children's literature Zahid Khalil, Gasham Isabeyli, Rafig Yusifoglu, Reyhan Yusifgyzy, Alamdar Guluzade, Sevinj Nurugyzy were mentioned.

RƏYÇİ: dos. E.Vəliyeva

Əflatun Baxşəliyev46

SƏMƏD VURĞUNUN BƏDİİ YARADICILIĞINDA TÜRK XALQLARI MÖVZUSU

Xalq şairi Səməd Vurğun özünün bədii yaradıcılığında Türk xalqlarının ədəbiyyatı, mədəniyyəti, eləcə də bədii şəxsiyyətləri haqqında söhbət açmışdır. Səməd Vurğun yaradıcılığına belə bir rakursdan yanaşdıqda bu problemi iki aspektdə araşdırıb işıqlandırmaq daha məqsədəuyğundur:

1.Səməd Vurğunun Türk xalqlarının ədəbi simalarından bəhrələnərək, bu əsərlərin təsiri ilə onlara şeir həsr etməsi;

2.Birbaşa Türk xalqları şairlərinə şeirlər yazması.

Belə ki, Səməd Vurğun Tofiq Fikrətin, Mehmet Əminin, Yurdaqulunun, Rza Tofiqin, Əbdülhəq Hamidin yaradıcılığına böyük maraq göstərmişdir. O, Tofiq Fikrətin "Fərda" əsərinin təsiri ilə "Bayramqabağı", "Göydən yerə" şeirinin təsiri ilə eyniadlı şeirini, Namiq Kamalın təsiri ilə "Dilican dərəsi", Nazim Hikmətin "Moskva Heraklidi düşünür" şeirinin təsiri ilə "Hərəkət" şeirini yazır və onu Nazim Hikmətə həsr edir. Həmçinin Azərbaycan şairinin Tofiq Fikrətə "Fikrətin rəsmi qarşısında" adlı şeir həsr etməsi də məlumdur:

Bu bizim sənət aşiqi canlı sənətdir,
Xəyalı, duyğusu, zövqü böyük həqiqətdir.
Bütün bədaiyə malik bir səhni-xilqətdir,
Bu bizim sənət aşiqi dühayi fikrətdir. (1)

Səməd vurğun eyni zamanda Tofiq Fikrətin yolunu təqib etdiyini oxucusunun diqqət və nəzərinə çatdırır:

...O zaman Fikrəti təqib edərək,
Və yaxud dağları düm-düz gedərək,
Oxuyub keçmişə lənət yaşaram,
Toxunub göylərə bir gün coşaram.
Məni məhv etsə də fikrim, ələmim,
Yazacaq "Hamleti" coşqun qələmim. (2)

Səməd Vurğun 1948-ci ildə "Şairin həyatı" adlı avtobioqrafik bir mənzum dramı da yazmışdır. Əsərdəki eloğlu surəti şairin öz obrazıdır. Əsərdə təsvir olunur ki, şairin əlində Əbdülhəq Hamidin portreti səhnəyə daxil olur. Əlbəttə, bu da Səməd Vurğuna şairin böyük təsiri olduğunu, ona mənən və ruhən necə bağlandığını göstərir.

Səməd Vurğun 1937-ci ildə Qazax şair aşığı Cambul Cabayevə (şairin 95 illiyi münasibətilə) şeir də həsr etmişdir.Səməd Vurğunun Qazaxıstanın xalq akını Cambula yüksək və xüsusi bir məhəbbət bəslədiyindəndir ki, Azərbaycan şairi "Movzoley" və "Bayram qabağı" şeirlərində də Cambulu böyük məhəbbətlə xatırlamışdır. Şairin türk xalqlarına, onun ədəbi simalarına olan böyüklüyünün nəticəsidir ki, məhz sənətkar başqa mövzuda yazanda belə, o müəllifləri yada salır, onları yüksək sevgi hissi ilə xatırlayır. "Bayram qabağı" və "Movzoley" şeirlərində olduğu kimi. Səməd Vurğunun "Bayram qabağı" şeirinə bir nəzər salaq:

Enin yerə saf ulduzlar,
Halqa vurun dörd yanımda.
Al günəşin istisi var,
Mənim təmiz vicdanımda.
Bizim şanlı dünyamızda,
Nə ağa var nədə ki, qul
Qazaxıstan çöllərində
Şeir yazır qoca Cambul. (9)

Və yaxud "Movzoley" şeirinə bir nəzər salaq:

Azərbaycan düzlərinin,
Min bir ceyran oylağında.
Gürcüstanın gülşənindən,
Dağıstanın yaylağından.
At belində qılınc vuran,
Türkmənistan ellərindən,
Dəniz kimi çöl işləməz,
Qazaxıstan çöllərindən.
Lenin, Sənin tərifini
Aşıqlar da salır saza.
Bükükbelli qoca Cambul,
Gəlir şeir yaza-yaza. (10)

Əlbəttə, bu poetik nümunələr məhz Səməd Vurğunun qoca Cambulu dönə-dönə xatırlaması Qazaxıstanın xalq şairinə və aşığına olan hüdudsuz bir sevginin parlaq nümunəsidir. Eləcə də şairin türk xalqlarına olan qardaşlığının rəmzi xüsusiyyəti kimi təqdirəlayiqdir.

---

46 Filologiya üzrə fəlsəfə doktoru, dosent

Səməd Vurğun bilavasitə "Şeirimizin ağsaqqalı" şeirini Qazaxıstan xalq şairi Cambul Cabayevə ithaf etmişdir. Şeirdə həmçinin Cambulun öz şəxsi taleyi, Qazax xalqlarının taleyi ilə vəhdətdə verilmişdir:

Tamburunu çaldıqca sən,
Susdu bülbül, dindi çəmən.
Bir zamanlar nə sən, nə mən,
Şad görmədim dostu yarı.

Bu şeirin ayrı-ayrı bənd və misralarında eyni soy-kökdən olan xalqlarımızın mənəvi birliyi öz bədii əksini tapmışdır:

Qanad verib dağa-daşa,
Ana yurdun havaları

Və yaxud:

Tambur ilə telli sazı,
Qabaqlaşıb çalaq barı.

Müəllif tamburla sazı bir-birinə qovuşdurmaqla xalqımızla qazax xalqının arasında müəyyən bir doğmalıq və yaxınlıq görür. Bu şeir eləcə də ruhi qohumluğun təntənəsi kimi səslənir və Səməd Vurğunun Qazax şairinin ağsaqqalından mənən bəhrələndiyini, təkcə zövq almadığını, ruhən qidalandığını görürük.

Porf. Q.Qasımzadə yazırdı: "Səməd Vurğun Qazaxıstanın Kocaman akını "Şeirimizin ağsaqqalı" adlandırır və bununla da qardaş xalqların eyni poeziyaları arasında ayrı seçkilik qoymadığını, Sovet torpağında şöhrət, söz sənətkarlarının milli və dini mənsubiyyətindən asılı olmayaraq, ümumi poeziyamızın iftixarına çevrildiyini səmimiyyətlə bildirmiş olur. Bir tərəfdən də şeirin ayrı-ayrı bəndlərində, misralarında ("bəylər içdi aknımızı, səhraların oğlu, qızı", "tamburunun simi qoşa bir taxtadır başdan-başa" və s.) qazax xalqına aid bəzi milli xüsusiyyətlər, yerli kolorit nəzərə çarpdırılır." Bu misralarda şair həmçinin ümumxalq ruhunun xalq sənətinin bir-birinə doğmalığını, bu ülfətin xoşbəxtlik timsalı kimi səslənməsini də tərənnüm və vəsf etmişdir. Təsadüfi deyildir ki, prof. Q.Qasımzadə bu xüsusda da belə yazır: "Belə mənalı yaradıcılıq yolu göstərir ki, yaşadığı torpağa qocaman bir palıd ağacı kimi kök atan, öz xalqının mənəviyyatından qidalanan sənətkar necə böyük bəşəri duyğular ifadəçisi ola bilər. Səməd Vurğun sənətini əbədi yaşadacaq amillərdən başlıcası bu aşkar həqiqətdir".(8,30-45)

Səməd Vurğun "şeirimizin ağsaqqalı" dedikdə Cambulu yalnız qazax xalqının deyil, eləcə də Azərbaycan şeirinin də ağsaqqalı adlandıraraq öz xalqına bu şairi təqdim edir və daha yaxından tanıdır. Ona görə ki, axı Cambul da Azərbaycan xalqına və sənətklarlarına beləcə yaxın idi. Bu şeirin məzmununda bu iki xalqın dostluğu daha qabarıq poetik lövhələrdə əks olunması yüksək bədii cizgilərlə nəzərə çarpmaqdadır. Səməd Vurğunun bir çox tanınmış şair və şəxsiyyətlər içərisində seçilən ən sanballı bir poetik nümunə məhz "Şeirimizin ağsaqqalı" şeiridir. Şeirdə obrazlı ifadələr zənginliyi, bədii ifadə vasitələrinin bolluğu bu şeirə xüsusi bir məna və estetik gözəllik bəxş edir. Bu şeirin dilindəki axıcılıq və rəvanlıq, eləcə də, dilin yüyrək olması bu poeziya nümunəsini xalqa daha yaxın edir, istər şeiri, istərsə də müəllifini hər iki xalqın oxucularına sevdirir. Həmçinin şeirin bədii siqlətini və çəkisini birə-min artıraraq onu daha sanballı edir:

Şeir yazmaq şərəf oldu,
Şeirin indi sədəf oldu.
Durna kimi səf-səf oldu,
Sinəmizin söz qatarı.
Sevgi dildə şüar olsun
Vəfasıza çox ar olsun
Vurğun deyər qoy var olsun
İnsanlığın ilk baharı. (11)

Bu poetik nümunədə fərəh dolu misralarla yanaşı, şairin gecə kimi qara günləri də öz xalqının acı taleyi ilə qoşa verilir. Xalqın haqqına girən bəylərin ağ kımız içdiyini, yağ içində böyrək kimi yaşamalarını Səməd Vurğun emosianal misralarla qələmə alaraq, öz oxucusunu bir qədər də mütəssir edir, onun qəlbini sözün qüdrətiylə yaralayır:

Bəylər içdi ağ kımızı,
Qurdular yedi haqqımızı
Səhraların oğlu, qızı,
Bir görmədi dünya varı
Gecə qara, günün qara,
Batdı gözün çuxurlara .
Qaranlığı yara-yara,
Sən can atdın günə sarı.
Keçən keçdi, olan oldu,
Yaman günün ömrü soldu.
Səni gördüm sinəm doldu,
Demə çəkdim bizim tarı. (11, s.266)

Müəllif eləcə də şeirdə dərin kontrastlar yaradaraq öz oxucusunu təzadlar aləminə dəvət edir. Bununla da şair, onu fərəhləndirdiyi kimi, kədərləndirə də bilir. Lakin şeirin uğurlu cəhətlərindən biri də, odur ki, şeir nikbin bir sonluqla bitir. Şair bu şeirdə yaman günün ömrü az olar prinsipi ilə gedir. Səkkizlik ölçüsündə qələmə alınmış bu şeir xalq şeirinin gəraylı janrına daha çox uyğun gəlir. Xalq ruhundan axıb gələn bir sıra çalarlar, bu şeir nümunəsini xalq şeirinə bir daha

yaxınlaşdırır. Odur ki, bu şeir məhz öz keyfiyyətlərinə görə daha tez əzbərlənməklə yanaşı, istər uşağın, istərsə də böyüyün dilində əzbərə çevrilmişdir. "Şeirimizin ağsaqqalı" şeiri Azərbaycan xalqı ilə Qazax xalqı arasındakı ədəbi-mədəni birliyin mənəviyyat körpüsüdür. Yuxarıda qeyd etdiyimiz kimi 1997-ci il mart ayının 6-da Respublika Sarayında Səməd Vurğunun 90 illiyi qeyd olunmuşdur. Azərbaycanın görkəmli prezidenti Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə yubiley tədbirinin keçirildiyi ərəfədə hörmətli prezidentimiz şairin övladları ilə, həyat yoldaşı ilə Səməd Vurğunun məzarını ziyarət etmişdir.
Azərbaycan oxucularının şüuruna və qəlbinə öz poetik qüdrətilə daxil olan Səməd Vurğun, demək olar ki, hələ gənc yaşlarından, yaradıcılığının təzə-təzə çiçəkləndiyi bir dövrdə türk xalqlarına, onun poeziyasına bağlanan bir şair olmuşdur.
Poeziyada mübarizlik və mərdlik simvolu olan Tatar şairi Musa Cəlilin Hitler faşizminə qarşı müharibə cəbhələrində igidliklə həlak olmasının on illiyi münasibəti ilə şairin vətəni Kazanda keçirilən yığıncaqda S.Vurğun SSRİ Yazıçıları İttifaqı adından nitq söyləmişdir. Həmin nitqin mətni "Mənim şair dostum, şair qardaşım" adı altında "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmuşdur. O Musa Cəlili Tatar xalqının şərəfi və iftixarı hesab etmişdir. O, bu xüsusda belə yazırdı: "Yüksək kommunizm ideallarının, partiyamızın və xalqımızın arzu və istəklərinin tərənnümçüsü olan Musa Cəlil nəinki özünün böyük poeziyası ilə, həm də ümumi xoşbəxtliyimiz yolunda, gələcək nəsillərin xoşbəxtliyi yolunda tökülən qanı ilə əbədiyyətə qovuşmuş, ölməzlik vəsiqəsi almışdır".(3)
Səməd Vurğun, yaradıcılığındakı qəhrəmanlığın, coşqun vətənpərvərlik hisslərinin tərənnümünə görə Musa Cəlili dünya ədəbiyyatının ən qabaqcıl nümayəndələrindən biri saymışdır: "Dünya və dünya ədəbiyyatı öz adlarını solmaz şöhrətlə əbədiləşdirən bir çox şairlər tanıyır. Lakin Musa Cəlil kimi həm ölməz əsərləri, həm də qəhrəmancasına ölümü ilə öz adlarını əbədiləşdirən igid şairlər bir o qədər də çox deyildir. Belələrindən yalnız bunları göstərmək olar: Böyük Bayron, Macarıstanın xalq şairi Petefi, qəhrəman Yulins Fuçiq və nəhayət, Musa Cəlil." (3)
Səməd Vurğun Tatar xalqının ədəbiyyatına və poeziyasına çox həssaslıqla yanaşaraq, onu qardaşlıq və dostluq poeziyası kimi dəyərləndirdi. Göründüyü kimi şairin yaradıcılığında qardaş Tatar ədəbiyyatının, sənətkarlarını tərənnüm etmək müəllifin əsas yaradıcılıq prinsiplərindən biri idi. Şairin Musa Cəlilə həsr etdiyi "Mənim şair dostum, şair qardaşım" şeiri daha maraqlıdır. Səmimi və lirik bir poetik nümunə olan bu şeirdə şair Musa Cəlilə riqqət dolu bir ürəklə müraciət edir:

Mənim şair dostum, şair qardaşım,
Vüqarın böyükdür, uca dağ kimi.
Sənin hünərinlə mənim də başım,
Ucaldı göylərə bir bayraq kimi.
Necə sərhəd aşır, el gəzir şeir,
Yurd salır neçə min ürəkdə, canda.
Sənə oğlum deyir, öz balam deyir,
Mənim ana yurdum Azərbaycan da.(5)

Təsadüfi deyildir ki, Səməd Vurğun Musa Cəlilin şeirlərini hətta tatar dilində oxuyur, bu şeirləri əzbərdən söyləməyi çox sevirdi. Odur ki, bu şeir Tatar şairinə Səməd Vurğunun, eləcə də Azərbaycan ictimaiyyətinin sonsuz rəğbət və məhəbbətinin tərənnümü idi. Səməd Vurğunun bu yerdə poetik ucalığı, mənəvi kamilliyi bir daha üzə çıxır.
1954-cü ildə Səməd Vurğun Kazanda Musa Cəlilin yubileyində etdiyi çıxışda demişdir: "Bu gün sizə vəd etmək istəyirəm ki, yaşımın ötməsinə baxmayaraq, onun bu kitabını özüm azərbaycan dilinə tərcümə edəcəyəm". (4) Əlbəttə, bu qarşılıqlı ədəbi əlaqələr mərkəzində yalnız bir amil dururdu. Xalq şairi Səməd Vurğunun qardaş türk xalqları ədəbiyyatından, onu yaradan mötəbər yarlarından öyrənmək və nə isə əxz etmək . Bunu da mənəvi və ruhi yaxınlığın timsalına çevirmək Azərbaycan xalqının öz doğma şairi bildiyi Musa Cəlilə həsr etdiyi şeirdə Səməd Vurğunun da "mənim şair dostum, şair qardaşım" deməsində çox haqlı idi. Bu, əlbəttə, türkçülüyümüzün, qardaşlığımızın bir gurultulu simfoniyasıdır. Keçmişimizə, ulu tariximizə boylanmağımızın poetik bir tərənəsidir. Eyni zamanda turançılığın və türkçülüyün əyilməyən uca dağ kimi enməz olan vüqarının böyüklüyü və əzəmətidir. Bu bayraq kimi şairin başının ucalığı da məhz bu dostluğun, bu qardaşlığın təntənəsidir, müstəqillik bayrağının bu qardaşlığın, bu birliyin səmasında dalğalanmasıdır. Şair şeirdə onu da qeyd edir ki, bu sərhədləri bu iki xalqın arasında heç cür səd çəkə bilməz, mane ola bilməz, çünki bu şeir əgər ürəkdə, canda bir mənəvi körpü olarsa.

O günkü üstunü cəlladlar aldı,
Günahsız töküldü müqəddəs qanın.
Bizim dərdimizdir, yarımçıq qaldı,
Sənin söz dastanın, həyat dastanın.
Biz səni sevirdik, canla, ürəklə,
Çünki sən ürəklə sevirdin bizi.
Çalardın sazında min bir diləklə,
Bizim eşqimizi, iradəmizi.
Qardaş, səni ürəklə sevirdin bizi.
Yarandın, yaşadın şanlı bir gündə,
Sözün ulduz-ulduz, çiçək-çiçəkdir.
Xatirən daima torpaq üstündə,
Yaşıl bir ot kimi göyərcəkdir.(5)

Yuxarda nümunə göstərdiyimiz bu poetik parçada imperializm dünyasında şairin nahaq tökülən, lakin vətən yolunda töküldüyünə, axdığına görə müqəddəs olan qanından söz açır. Şair bu dərdi öz xalqının dərdi, yarımçıq qalan həyat dastanı hesab edir. Şair Musa Cəlilə müraciət edərək, ürəklə, canla Azərbaycan xalqının şairi sevdiyini göstərir və bunun köklərini Musa Cəlilin Azərbaycan xalqına olan sevgidə axtarıb tapır. Musa Cəlilin öz şeir rübabında bizim eşqimizi, diləklərimizi ifadə etməsindən söz açır ki, bu da qardaşlığın bir rəmzi kimi səsləndiyini bildirərək: "Qardaş, sən ürəklə sevirdin bizi" – deyir. Şeirin sonrakı bəndlərində bu ülfətin və qardaşlığın sarsılmazlığı daha aydın bir şəkildə öz çılpaqlığı ilə nümayiş olunur:

Sənin qəlbin kimi safdır, dümağdır,
Vətən göylərinin ağ ulduzları.
Adına nəğmələr oxuyacaqdır,
İdil yılğasının Tatar qızları.(5)

Musa Cəlil yaradıcılıq prinsipi etibarı ilə lirik şairdir. Onun poeziyası Tatar poeziyasının zirvəsidir, desək, əlbəttə, səhv etmərik.

Alman faşistləri o zaman Sovetlər Birliyi üzərinə müharibəyə qalxdıqda Tatarıstan vətəndaşları kimi şair mübariz döyüşçü Musa Cəlildə, həm də öz mübariz və döyüşkən ruhlu şeirləri ilə almanlarla döyüşə qalxmışdır. Bunun da təsiri heç də şairin göstəridiyi qəhrəmanlıq və şücaətdən az olmamışdır. Qələbəyə inam, düşmənə nifrət, xalqlar dostluğu və vətənpərvərlik ideya mündəricəli şeirləri ilə döyüş meydanlarında mərdi-mərdanə çıxış edərək, eləcə də xalqlar dostluğunu tərənnüm etmişdir.

Musa Cəlil əsir düşmüş, bir il "Moabid" zindanında qalmış, 1944-cü ilin yanvar ayında Tatar xalqının böyük oğlu Musa Cəlil edam olunmuşdur. Şair Musa Cəlil cismən vətəni Kazana dönə bilməsə də, onun "Moabid" zindanında yazdığı şeirlər, nəğmələr vətənə qayıtdı. Mübariz şair, həmin şeirlərini yazdığı dəftərdə onu tapan şəxs üçün belə bir vəsiyyət etmişdir: "Sən ey tatar dilini bilən və bu dəftərçəni oxuyacaq dostum! Bunu Tatar xalqının tanıdığı şair Musa Cəlil yazmışdır. Onu ölüm cəzasına məhkum edəcəklər. O, öləcək. Lakin onun zindanda yazdığı 115 şeir qalacaq. Əgər, bu dəftərçə sənin əlinə düşsə səliqə ilə, diqqətlə üzünü köçür, onu qoru və müharibədən sonra Kazan şəhərinə xəbər ver, onları Tatar xalqının həlak olmuş şairinin son şeirləri kimi çap etdir. Bu mənim vəsiyyətimdir. Musa Cəlil dekabr, 1943."

Məhz bu dəftərçədəki şeirlər sonralar Musa Cəlilə böyük dünya şöhrəti qazandırmışdır. Bu 1941-ci il iyunun 22-də "Vətənin keşiyində" adlı şeirində:

Bilsin ana torpaq, eşitsin vətən,
Müsəlləh əsgərəm mən də bu gündən.
Bu gün bir süngüdür əlimdə qələm,
Mənim bayrağıma göz dikir aləm.

deyən S.Vurğunun da Musa Cəlilin şeirlərinə böyük məhəbbət oyatmışdır. Yuxarıda qeyd etdiyimiz kimi Səməd Vurğun eləcə Musa Cəlilin bir çox mübariz və mərdlik hissləri ilə dolu olan vətənpərvərlik ruhlu şeirlərini tatar dilində əzbərdən deyirmiş. Bu şerlərdən birinin iki bəndini Azərbaycan dilində təqdim etmək yəqin ki, çox maraqlı olar:

Sevgilim nə zaman desələr sənə,
"O yollarda qaldı, büküldü dizi",
İnanma əzizim, inanma mənə,
İnanan dostlarım deməz bu sözü.

Desələr Musanın nə zaman sənə
Düşmən gülləsiylə vuruldu gözü,
İnanma, əzizim! Qəlbində mənə,
Sevgisi olanlar deməz bu sözü.

Bu poetik nümunə orijinalda daha musiqili və ahəngdar səslənir:

Sina minnən xəbər kiterselər
Ul eqilqan arip diseler
Sin işanma, beqirem
Mondi püzne duslar əyitməc, yakın kürseler,
Sina minnən xəbər kiterseler,
"Musa inde ülqəm"
-Diseler, sin işanma, bəqirem!
Mondi süzne duslar əyitməc sine söyseler.

Onu da qeyd etmək zəruriyyəti yaranır ki, Kazandakı o çıxışına böyük coşqu ilə nitq söyləyərək, o zaman üçün böyük cəsarət tələb edən bir iş görür. Özünə xas olan qürurla Musa Cəlilin əziz xatirəsinə həsr etdiyi şeiri azərbaycan dilində oxuyur. Amansız bolşevik rejminin türk xalqlarına qarşı qəddarcasına münasibət bəslədiyi bir dövrdə bu cür cəsarət yalnız böyük Səməd Vurğun edə bilərdi və o fürsətdən istifadə edərkən "Böyük şərəflə" şeirini doğma dilində oxudu. Elə bu səbəbdən də Səməd Vurğunun həmin şeiri Musa Cəlilin vətəni Tatarıstanda böyük maraqla qarşılanmışdır. Ə.Davudov şeiri tatar dilinə tərücmə etmiş və az müddətdən sonra 1954-cü ildə Kazanda çıxan "Sovet ədəbiyyatı" jurnalında dərc etdirmişdir. Sonralar 1957-ci ildə bu şeir "Kızıl tan" (Kızıl şəhər) qəzetində yenidən çap olunmuşdur.

Azərbaycanda şairin həmin nitqinin səs yazısı qorunub saxlanılsada, uzun illər mətbuatda dərc olunmamışdır. Yalnız 1996-cı ildə Musa Cəlilin anadan olmasının 60 illiyi münasibətilə ilk dəfə "Ədəbiyyat və incəsənət" qəzeti şairin "Mənim şair dostum, şair qardaşım" adlı nitqini və azərbaycan dilində söylədiyi həmin adlı məşhur şeirini lentdən köçürərək dərc etmişdir. Üç gün sonra isə bu nitqi və şeiri Bakıda rus dilində nəşr edilən "Bakı fəhləsi", "Bakınski raboçi" qəzeti öz səhifələrində şairin həmin nitqindən bir hissəsini dərc etmişdir. Bu şeir onun sonralar çap edilən kitablarında "Musu Cəlilə" adı ilə daxil edilmişdir. Bu şeir bu günümüzdə, əlbəttə, ümumtürk birliyinin simfoniyasi kimi istər Azərbaycanda, istərsə də Tatarıstandan da həmişə böyük əzəmətlə və çılğın nidalarla səslənməkdədir. Bu da Azərbaycan xalqının Tatar xalqı ilə arasındakı su keçməz mənəvi əlaqələrin vəhdətinin, birliyinin enməzliyi, ucalığı və böyüklüyüdür.

Ədəbiyyat:

1. Araslı H. Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı. Azərbaycan ədəbiyyatı: tarix və problemləri. B., "Gənclik", 1998
2. Seyidov Y. Şairin dərdi. B., "Azərbaycan", nəşriyyatı, 1996.
3. Səməd Vurğun. Mənim şair dostum, şair qardaşım. "Ədəbiyyat və incəsənət" qəzeti, B., 12 fevral 1966.
4. Səməd Vurğun. Musa Cəlilə. Tərcümə edəni Ə.Davıdov. "Sovet ədəbiyyatı" jurnalı, 1954, №4.
5. Səməd Vurğun. Musa Cəlilə // Səməd Vurğun. Seçilmiş əsərləri. Büş cilddə, II c. Tərtib edəni Aslan Salmansoy, redaktoru Aybəniz Vurğunqızı. Bakı, "Şərq-Qərb", 2005.
6. Səməd Vurğun. Musa Cəlilə. Tərcümə edəni Ə.Davıdov. Kazan, "Kızıl tan" qəzeti, Qazan, 1957, 6 iyun.
7. Səməd Vurğun. Əsərləri. 6 cilddə, VI cild. Bakı, "Elm", 1972.
8. Qasımzadə Q. Səməd Vurğun yaradıcılığında beynəlmiləlçilik. Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. Ədəbiyyat məcmuəsi, XI cild. B., Azərbaycan EA nəşriyyatı, 1957, s.30-45
9. Səməd Vurğun. Seçilmiş əsərləri, Icild. "Bayramqabağı" şeiri, Azərbaycan EA nəşriyyatı, 1960, s.279
10. Səməd Vurğun. Seçilmiş əsərləri, IIcild. "Mavzoley" şeiri. Azərbaycan EA nəşriyyatı, 1960, s.18
11. Səməd Vurğun. Seçilmiş əsərləri, Icild. "Şeirimizin ağsaqqalı" şeiri. Azərbaycan EA nəşriyyatı, 1960, s.266

Açar sözlər: mövzu, bədii, ədəbi, yaradıcılıq, şair

Ключевые слова: тема, художественный, литературный, творчество, поэт

Key words: theme, literary, creativity, poet, poetry

РЕЗЮМЕ

Тема тюркских народов в творчестве Самеда Вургуна

В статье «Тема тюркских народов в творчестве Самеда Вургуна» анализируется образы поэтов тюркских народов, созданные С.Вургуном. Автор освещает творения поэта с двух аспектов. Он анализирует стихи Самеда Вургуна, посвященные тюркским поэтам, впечатлившись их произведениями, а также образы тех поэтов, созданные С.Вургуном в своих проихведениях. Автор подчёркивает любовь к тюркским народам духовное родство С.Вургуна с представителями тюркоязычной поэзии. Исследователь анализирует стихи С.Вургуна, посвященные Тофику Фикрету, Назыму Хикмету, подчёркиват большую любовь С.Вургуна, с которой он создал эти стихотворения, впечатления, которые произвели на поэта их произведения. Автор также подчёркивает упоминание С.Вургуном тюркских поэтов в самых разных стихотворениях, написанных на другие темы. Исследователь приводит в пример стихотворения «Мавзолей» и «Перед праздником». В статье также анализируется стихотворение С.Вургуна «Аксакал нашей поэзии», посвящённое казахскому поэту-акыну Джамбулу Джабаеву, говорится о поэтических особенностях этого произведения.

В статье также представлен глубокий научный анализ стихотворения «Мой друг, мой брат поэт», посвященного татарскому поэту Муса Джамилу. Автор подчёркивает, чтоС.Вургун высоко ценил творчество Муса Джамила воспевающего героизм и патриотизм народа, и считал его одним из передовых представителей мировой поэзии, а также чуткое восприятие С.Вургуном поэзии татарского народа. С.Вургун называл татарскую поэзию поэзией дружбы и братство.

Summary

"The theme of Turkish people in the literary activity of Samad Vurgun"

In the article "The theme of Turkish people in the literary activity of Samad Vurgun" the scientific researcher deals about the character of the poets of Turkish people created in the creative work of Samad Vurgun. The scholar illuminates the activity of Samad Vurgun from the point of two aspects. In this article is shown that Samad Vurgun influenced from Turkish poets and dedicated them poems and used them as literary image in his literary activity. At the same time, the author of the article notes that such kind of poems are written from the love of Samad Vurgun to the poets of Turkish people. In this article the scholar mentions the poems of Samad Vurgun dedicated to Tofig Fikrat and Nazim Hikmat, and notes that these poems were created by the influence of Turkish poets. At the same time the author notes that, in the other poems written by Samad Vurgun he remembers Turkish poets. In the article the author also shows his poems named "Movzoley" and "Bayram-gabaghi" as a pattern. Here the author spoke about the poem of Samad Vurgun "The adviser of our poem" dedicated to poet of Kazakh Jambul Jabayev and gave its scientific analysis, and showed its poetical peculiarities.

In the article the author also gives the deep, analytical analysis of this poem "My poet friend, my poet brother" dedicated to Tatar poet Musa Jalil. He rightly shows that, as the feeling of sense of the bravery and enthusiasm in the literary activity of Samad Vurgun, Musa Jalil is considered one of the most precious representatives of the world literature. At the same time, in this article the author noted that Samad Vurgun was very sensitive to the poetry of Tatar people, and he named this poetry of brotherhood and friendship.

Rəyçi: Dos. l.. ƏLƏKBƏROVA

İsmət Allahverdi qızı Cəfərova47

SAMUEL RİÇARDSON İNGİLİS SENTİMENTALİST NƏSRİNİN BANİSİ KİMİ

Maarifçilik dövrünün görkəmli ingilis yazıçısı Samuel Riçardson öz əsərləri ilə roman janrında sentimentalizm cərəyanının formalaşmasına verdiyi tövhələrlə novatorluq yükünü çiyinlərində daşıyan öncüllərdən biridir. XVIII əsr ingilis ədəbiyyatının janr xüsusiyyətlərini tətqiq edən alimlərin bir qrupu Samuel Riçardsonun romanlarındakı janr yeniliklərinin İntibah dövrü ədəbiyyatı ənənələri ilə üzvü surətdə bağlı olduğunu qeyd edirlər. Yazıçının 1740 –cı ildə "Pamela; or, Virtue Rewarded", 1748- ci ildə "Clarissa: Or the History of a Young Lady"və 1753- cü ildə "The History of Sir Charles Grandison" romanları nəşr olunmuşdu. [1,s 240-241] Təəssüf ki, Samuel Riçardsonun son romanının nəşrindən 270 ilə yaxın vaxt keçsədə yazıçının bədii metodu ilə bağlı bəzi suallar hələ də həllini tapmamış qalır. Tədqiqatçıların bir qismi onu XVIII əsrin realistlərindən biri kimi təqdim edir. Lorens Stern, Oliver Qoldsmit, Henri Makkenzi kimi yazıçıların yazı üslubunda bu və ya başqa dərəcədə Samuel Riçardsonun təsiri hiss olunduğundandigər qism tədqiqatçılar onu sentimentalizmin sələfi adlandırırlar. Tədqiqatçıların üçüncü qismi isə Samuel Riçardsonu sentimentalist cərəyanın təşəbbüskarı kimi qəbul edirlər. Tənqidçilər Daniel Defonu maarifçi realist romanın atası hesab edirlər.Yetkin maarifçilik dövründə onun davamçıları Samuel Riçardson, Henri Fildinq və Tobias Smollet Avropada "şəxsi həyat epos"nun inkişafında iki son dərəcə mühüm xəttin mənbəyində dayanırlar. Samuel Riçardsonun fərdin daxili aləmini araşdıran epistolyar romanlarının nəşrini sentimentalist roman janrının miladı kimi qeyd etmək olar; Henri Fildinqin "nəsrdə komik epos"u və Tobias Smolletin satirik təsvirləri qəhrəmanın "sərgərdanlıqlarının" süjet sxemindən istifadə edərək və Migel de Servantesin ənənələrinə əsaslanaraq "böyük yol romanı" adlanan janrın yolunu açır.

İngiltərədə yetkin Maarifçiliyin başlanğıcı Samuel Riçardsonun yaradıcılığı ilə bağlıdır. Samuel Riçardsonun həyatı xüsusi ilə qeyd olunması lazım gələn və ya mühüm əhəmiyyət kəsb edəcək hadisələrlə zəngin deyildi. Derbişirli bir dülgərin oğlu olan Samuel Riçardson məktəbi bitirdikdən sonra Londona gəlib, mətbəələrin birində işə düzəlir. Ömrünün sonuna qədər mətbəəçiliklə məşğul olan Samuel Riçardson sakit və kataklizmlərdən uzaq bir ömür yolu keçərək şagirdlikdən müəssisə sahibinə və nəhayət nəşriyyat gildiyasının rəhbəri səviyyəsinə qədər yüksəlir.

Samuel Riçardson öz yaradıcılığına bir çox tənqidçilərin bir növü rəğbət hissi ilə qeyd etdikləri kimi gənc yaşlarında başlamayıb. Yazıçı "Pamela; or, Virtue Rewarded" adlı romanını yazmağa başlayarkən yaşı artıq əllini ötmüşdü. Kitabın iki cilddən ibarət olan birinci hissəsi 1740-cı ildə nəşr olunur, həmçinin iki cilddən ibarət olan ikinci hissəsi isə bir ildən sonra işiq üzü görür. Romanın süjeti mərhum sahibəsi və himayədarının oğlu cənab B. tərəfindən iffətinə qəsd edilən gənc Pamela Endryusun tərbiyəvi hekayəsidir; rəzil məqsədinə çatmaq üçün yalandan, böhtandan, hədə-qorxudan və rüşvətdən istifadə etməkdən çəkinməyən mülkədar, nəhayət, Pamelanın əxlaqi saflığı, ağlı və mülayimliyi qarşısında o qədər ovsunlanır ki, sinfi maneələri göz ardı edərək qulluqçusuna qanuni arvadı olmağı təklif edir.

Roman əsasən Pamelanın valideynlərinə yazdığı məktublar əsasında tərtib olunmuşdur. Məktublarlar formasında yazılmış roman müəllifə qəhrəmanın mənəvi dünyasını, gənc mülkədarla münasibətlərinin ən çətin dönəmlərini dərin psixoloji əminliklə açmağa imkan verir. Süjet toqquşmasının psixoloji və sosial-etik aspektləri bir-biri ilə sıx şəkildə çulğaşırlar: Pamela və cənab B. müxtəlif sosial təbəqələrin nümayəndələri və əks mənəvi prinsiplərin daşıyıcıları kimi bir-biri ilə qarşı-qarşıya gəlirlər. Romanda "el adəti" məziyyətlər aristokratik təqdimatlarla müqayisədə üstünlük təşkil edir.

Buna baxmayaraq zadəgan soyluların azğınlığını və özbaşınalığını pisləyən, xalq içərisindən çıxan qızın yüksək mənəvi keyfiyyətlərini uca tutan "Pamela; or, Virtue Rewarded" əsərinin müəllifi müasir cəmiyyətin kasta əxlaqına müdaxilə etmək istəmir. İnsanlar arasındakı bərabərlik ideyasını qəbul etməyən müəllif "ictimai fərqlərə, ümumən, hörmət edilməlidir" fikrini qəhrəmanının dili ilə bir daha təsdiqləyir.

Samuel Riçardsonun Pamelanın dili ilə bəyan etdiyi barışçıllıq təbliği onun irəli sürdüyü azadlıq idealı və şəxsiyyətin ruhən müstəqil olması düşüncəsinin təsirlilik dərəcisini xeyli azaltmış olur. Bu təsir Pamelanın mülkün əzmkar və dindar sahibəsi kimi təsvir olunduğu romanın ikinci hissəsində daha aydın nəzərə çarpır.

Romanın ikinci hissəsi nəşr olunanda qəhrəmanın xarakterinin düşüncələrində dərin iz buraxdığı oxucular Pamelanın məktublarındakı bu uyğunsuzluqlardan xeyli mütəəssir olmuşlar. Yazılma səbəbi haqqında dəqiq məlumatımız olmayan Henri Fildinqin "An Apology for the Life of Mrs. Shamela Andrews" əsərində yazıçı Samuel Riçardsonun qəhrəmanı Pamelaya zidd mövqe tutan həcv xarakterli Şamela surətini yaradaraq müqayisəyə gəlməz fırıldaqçı və uzaqgörənliyi olmayan zəngin aristokratı aldadıb onunla evlənməyə cəhd edən qadın obrazı yaratmışdı. Qəhrəmanın adı olan Şamelanın dilimizdə "qüsur, eyib,bihəya" anlamları verən ingiliscə "shame" sözü ilə eyni köklü olmasını qeyd etmək yerinə düşər. Uzun illər boyu Samuel Riçardsonla Henri Fildinq arasında davam edən ədəbi polemikanın başlamasına səbəb olan "The History of the Adventures of Joseph Andrews and his Friend, Mr. Abraham Adams" əsərinin səhifələrində də Pamelaya rəqib olan mülkədarın təkəbbürlü və bədxasiyyət arvadı Şamela ilə rastlaşırıq.

Samuel Riçardsonun ilk kitabının ədəbiyyatın sonrakı inkişafına verdiyi tövhəni qiymətləndirmək üçün münasib ifadələrin tapılması sözün əsl mənasında çətinlik törədir. "Pamela; or, Virtue Rewarded"əsərinin müəllifi gündəlik, zahirən diqqət çəkməyən hadisələrdə nə qədər poetika və dramatizmin olduğunu, kasıb kəndli qızı olan təvazökar xidmətçinin yaşantılarında da nə qədər nəciblik və dərinlik gizləndiyini göstərə bilmişdir. Romanın bütün bədii quruluşu ilə zəif uzlaşan

---

47 "Naxçıvan" Universiteti.Xarici Dillər kafedrasının baş müəllimi. e-mail:ismetceferova6@gmail.com

ictimai iyerarxiyanın qanuniliyi haqqında yazıçının mühafizəkar və didaktik mülahizələrinin əksinə olaraq XVIII əsr demokratik fikri "Pamela; or, Virtue Rewarded" əsərinin ruhundakı sosial bərabərlik dərsini qəbul etdi.
Məlumdur ki, İntibah dövründə çapın yaranması kitab biliyinin yayılmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Oxucu kütləsinin genişlənməsində savadlılıq səviyyəsinin yüksəlməsinin də mühüm rolü olmuşdur. Kommersiya uğuru axtarışında olan naşirlər və yazıçılar oxucunun diqqət mərkəzində olmağa çalışırdılar. Artıq oxucu istər naşir istərsə də yazıçı üçün rəyi diqqətdən kənarda qalmamalı olan ünsiyyət tərəfdaşı kimi qəbul olunmağa başlayır.
Əgər XVI əsrdə çap olunmuş kitabların alıcıları daha çox orta təbəqənin nümayəndələri ilə məhdudlaşırdısa, XVIII əsrdə oxucu kütləsinin böyük qismini təşkil edən qadınların hesabına kitab alıcılarının dairəsi xeyli genişləndi. Eyni zamanda, müəlliflərin potensial oxucunu intriqaya salmaq və ya maraqlandırmaq istəyi roman mətnlərində çox vaxt öz əksini tapırdı.
Çox vaxt yazıçılar məşhur müəlliflərin populyar əsərləri ilə öz yaradıcılıqları arasında hər hansı bir səviyyədə əlaqənin olmasını göstərməyə cəhd edirdilər. Bu cür bədii "kəşflər" arasında heç də az olmayan ehtimalla uğurla nəticələnən, potensial oxucu ilə yaradıcı dialoq qurmaq cəhdləri mühüm yer tutur. Əvvəlki dövrlərdə olduğu kimi maarifçilik dövründə də yazıçılar tərəfindən oxucu qiymətləndirməsinə böyük əhəmiyyət verilmişdi. Onların əsərlərində çox vaxt naşirlərin hər cür ön sözlərinə, şərhlərə, məşhur mətnlərə iqtibas edici istinadlara yer verilməsi aydın görünür. Marifçilik dövründə Avropanın müxtəlif ölkələrindəki görkəmli yazıçıların qazandıqları uğur səviyyəsi çox fərqli olmasa da bu uğurları əldə etmək üçün istifadə etdikləri ədəbi fəndlər xeyli fərqlənirdi.
Samuel Riçardsonun Pamela haqqında yazdığı ilk romanında bu ədəbi fəndlərdən olan izah oyunu, məsləhət oyunu kimi fəndlərdən sanki bütün imkanları tükəndirəcək dərəcədə son həddə istifadə edilir. O, əsərinə əvvəlcədən müəyyən həcm verərək onun üzərində bəzi dramatikləşdirmə fəndlərindən istifadə edir: kiçik həcmdə olan Pamelanın məktubuna geniş ön söz yazır, sonra isə əlyazma şəklində olan bir anonim məktubdan istifadə edərək Pamelanın məktublarına nəşriyyatın da qəbul edəcəyi bir münasibət bildirir. Beləliklə, Samuel Riçardson romanının oxucu kütləsi arasında necə qarşılanacağını sanki əvvəlcədən təxmin etmiş olur.Məsələn "Dear Sir, I have had inexpressible Pleasure in the Perusal of your Pamela. It intirely answers the Character you give of it in your Preface. "[2, s.23] - Hörmətli cənab, Pamellanızı oxumaqdan ifadə olunmaz həzz aldım. Ön sözünüzdə verdiyiniz xarakterə tamamilə cavab verir.– sitatı buna bariz nümunədir.
Əsərin müvəffəqiyyəti ölçüyə gəlməz idi. Yazıçılar və ictimai xadimlər, hörmətli burjua nümayəndələri və kübar xanımlar, keşişlər və adi insanlar əsəri böyük şövqlə oxuyurdular. Yazıldığı vaxtdan keçən bir il ərzində əsər beş dəfə nəşr olundu və qısa müddətdə bütün Avropa ədəbi mühitini fəth etdi.
Məlum məsələdir ki, sənət əsərlərinin reputasiyası, taleyi tədricən formalaşır. "Pamela; or, Virtue Rewarded" romanı nəşr olunan zaman müxtəlif oxucular tərəfindən fərqli qarşılandı. Beləliklə, S. Riçardsonun müasiri ingilis tərcüməçi və şairi Naytli Çetvuda görə, İngiltərədə bütün kitablar bir yerdə yanası olsa elə etmək lazımdır ki "Pamela; or, Virtue Rewarded " İncilin yanında qorunub saxlanmış olsun. [3,s.59]
Eyni zamanda Londonun məşhur din xadimlərindən olan doktor Slokok Pamelanın birbaşa kilsənin minbərdən oxunmasını tövsiyə etdi. [4,s.18] Anlaşılması qəribə olsada, Fransada Samuel Riçardsonun bu romanın tərcüməsi 1900-cü ilə qədər qadağan olunmuş kitablar siyahısında qaldı. [5,s.21]
1740-cı ilin noyabrında populyar tarixçənin üçüncü nəşrindən sonra 1741-ci ildə bir-birinin ardınca ortaya çıxan bir sıra parodiyalar "Pamela; or, Virtue Rewarded" əsərinin nə qədər populyar olmasının özünəməxsus əks sədasıdır.Henri Fildinqdən başqa "Pamela; or, Virtue Rewarded" əsərinə parodiya yazan, adlarının və yazdığı əsərlərin adlarını qeyd etməyə xüsusi lüzum görmədiyimiz bir çoxmüəlliflər Samuel Riçardsonun əsərinin sujetinə diaqonal zidd şəkildə yanaşaraq yüksək əxlaqlı qızın onu aldatmağa çalışan sahibi ilə qarşıdurmasını canlandırmışlar.
Samuel Riçardsonun ikinci romanı olan "Clarissa: Or the History of a Young Lady" daha böyük uğur qazandı. Samuel Riçardsonun yaratdığı əsərləri məzmun dərinliyi, psixologizm və dramatik güc baxımından sıralandıqda bu sırada ilk yeri qazanan "Clarissa: Or the History of a Young Lady" romanıdır. Orta səviyyəli oxucu belə "Pamela; or, Virtue Rewarded" romanını yazandan keçən səkkiz il müddətində Samuel Riçardsonun bir yazıçı kimi necə formalaşdığının və yazı üslubunu nə qədər kamilləşdirdiyinin şahidi olur. Bu inkişaf "Pamela; or, Virtue Rewarded" romanı ilə "Clarissa: Or the History of a Young Lady" romanın yazı üslublarını müqayisə etdikdə daha aydın nəzərə çarpır. "Clarissa: Or the History of a Young Lady" əsərində qəhrəmanın ətrafında cərəyan edən hadisələr "Pamela; or, Virtue Rewarded" romanında olduğu kimi təkcə onun öz məktublarından deyil, həm də öz xarakteri, hadisələrə öz baxış bucağı, özünəməxsus yazı üslubu olan qohumlarının, dostlarının və tanışlarının məktublarından istifadə etməklə qəhrəmanın daha mükəmməl portretini yaratmaqla yanaşı özünün epistolyar texnikasını zənginləşdirmiş və romanın strukturunu isə xeyli mürəkkəbləşdirmiş olur.
Varlı ailənin qızı olan Klarissa atasının iradəsinin ziddinə olaraq nifrət etdiyi xəsis Soamsla evlənməkdən qəti şəkildə imtina edir. Klarissanın babasından aldığı miras qardaşı və bacısında ona qarşı gizli qısqanclıq hissi oyatmaqla, aşkar nəzərə çarpmayan ailə daxili münaqişələrin körüklənməsinə səbəb olur. Münaqişənin səbəbini müəyyən etməyə ehtiyac yoxdur. Klarissanın bir neçə məktubunda təkrarlanan "…the love of money be the root of all evil" ifadəsi bütün pisliklərin kökünün pul sevgisi olmasını bir daha təsdiqləyir. [6,s.211]
Ailənin zülmündən ümidsizliyə qapılan Klarissa evdən qaçmaqla öz taleyini cazibədar zadəgan Robert Lovlasa həvalə etmək qərarına gəlir. Robert Lovlas Klarissanın məramına adekvat münasibət göstərməyərək onun etibarından sui-istifadə edir və yuxu dərmanı istifadə etməklə ona qarşı zorakılığa əl atır.
Nümunəvi olan hər hansı ideologiya və ya adət -ənənəyə söykənməyən əxlaqı və əsl-nəsəbli qohum-əqrəbasının təkidləri ona qanuni nikahı münasib hesab edir. Lakin Klarissa hisslərinin ona günah sayılacaq əməlləri icra etməklə ölüm arasında

seçim etmək məcburiyyətində qaldığından ikinciyə üstünlük verir və bununla da oxucunun düşüncəsində mənəvi cəhətdən qalib gəlmiş kimi qalır.Əxlaq normalarına sığmayan əməllərinin yaratdığı vicdan əzabının rahatlıq vermədiyi Lovlas İngiltərəni tərk edir və tezliklə Klarissanın əmisi oğlunun əli ilə dueldə ölür.

Samuel Riçardsonun 1753-cü ildə nəşr olunan yeddi cildlik "The History of Sir Charles Grandison" romanının qəhrəmanı bir növü Lovlasa antitez, eyni zamanda yüksək mənəviyyatlı və təqlid ediləsi mümkün olan "yaxşı insan" nümunəsi kimi düşünülmüşdür.S. Riçardson "The History of Sir Charles Grandison" romanında nümunəvi kişi obrazı yaradaraq, puritan mentaliteti hüdudlarından kənara çıxır, ümummilli əxlaqi ənənəyə söykənən istiqamət götürür.

S. Riçardsonun son romanı "The History of Sir Charles Grandison", "Pamela; or, Virtue Rewarded" və "Clarissa: Or the History of a Young Lady" romanlarından fərqli olaraq, iki mərkəzi personaj arasında kəskin dramatik konflikt üzərində qurulmayıb, bütöv bir sosial mühitin, problemləri və taleləri eyni dərəcədə oxucuları da maraqlandıran kifayət qədər böyük personajlar dairəsinin həyatının təsviri üzərində qurulub. Konfliktlər dramatik kəskinliyini itirərək mənəvi-psixoloji baxımdan daha rəngarəng və daha çox mənaçalarlı olurlar. Baş qəhrəman obrazı centlmenin yeni sosial idealını təcəssüm etdirməli idi və onu yaradarkən yazıçı özünün müasirləri olan filosof və ilahiyyatçıların əxlaq normalarının sosial effektivliyinə köklənmə ilə bağlı fikirlərini rəhbər tutdu. [7,s.296] S. Riçardsonun son romanında şəxsiyyətin yeni klassisist anlayışının irəli sürdüyü həyat yaradan proses kimi əxlaqi başlanğıcın təsiri altında personajların təkmilləşməsi prosesi diqqətə layiqdir. İndi S. Riçardson əmindir ki, məhz bu yol dinin və əxlaqın tələblərinə uyğundur və eyni zamanda insana yer üzündə xoşbəxtlik tapmaq və əbədi həyatda xoşbəxtliyə layiq olmaq üçün maksimum imkan yaradır.

Ser Çarlz Qrandison oxucuya gənclik illərindən öz xarakteri üzərində işləyərək vəzifə borcunun tələblərinin spontan icrasına vərdiş edənədək ağlını kamilləşdirən, duyğularını ucalaşdıran, hər yerdə ağlın dəlillərini və ədalət anlayışını rəhbər tutmağa cəhd edən ideal qəhrəman kimi təqdim olunur.

Romanın digər qəhrəmanlarının cəlbediciliyi və cazibəsi məhz təbii temperament, ruhun kortəbii, şüursuz hərəkətləri ilə onların can atdıqları mükəmməl şəxsi inkişaf idealı arasındakı uyğunsuzluq və qopma ilə bağlıdır. Məhz bu qopma mənəvi həyatı dinamik şəkildə təsvir etməyə imkan verir və obrazın tutumluluğunu və psixoloji yeknəsəklikdən uzaqlığını müəyyən edir. Yuxarıda qeyd etdiyimiz fikirlərə aydınlıq gətirmək üçün əsərin əsas personajlarını xarakterizə edən qabarıq xüsusiyyətlər haqqında qısaca məlumat vermək məqsədəuyğundur.

Ser Çarlzın aşiqi, Çarlzın Avropa səfəri zamanı dostunun bacısı olan zadəgan italyan qadını ilə az qala evləndiyini öyrənməsinə baxmayaraq məftunedici və şən Harriet Bayron hələ də özünü müəyyən öhdəliklərə bağlı hesab edir; Ser Çarlzın bacısı sakit Karolina Çarlz səyahətdə olub ailənin sərvətini israf edərkən, qızlarını qapalı saxlayan, Karolinaya cehiz verməkdən imtina edən atasının zülmünə həlimliklə dözür və nişanlısının evindən imtina edir; Atasının bacısına qarşı olan rəftarını görən dikbaş və ekstravaqant xarakterli kiçik Şarlotta Anderson adlı bir kapitanla gizli yazışmalara başlayır və onun razılığı olmadan evlənməyəcəyinə söz verərkən qəribə də olsa müəyyən edir ki, məktublar kapitanın əvəzindən daha savadlı və daha nəcib bir şəxs tərəfindən yazılır; Ser Çarlzın əmisi Lord M. hər gün məşuqəsi ilə savaşıb –söyüşürsə də müəyyən məbləğ ödəniş etmək məcburiyyəti üzündən və puluna heyfi gəldiyindən ondan ayrıla bilmir; nəcib Klementina della Porreta başqa dinə sitayiş edən bir insana olan bədbəxt sevgisi ilə mübarizə edərkən az qala ağlını itirmək həddinə gəlib çatır. Bu və ya romanın digər koloritli personajları zaman- zaman oxucunun diqqətini gah komik, gah da tragik problemləri ilə cəlb etsə də sonda hər şey baş qəhrəmanın sayəsində uğurla yekunlaşır.

Yuxarıda qeyd etdiyimiz fikirləri yekunlaşdırarkən belə qənaətə gəlmək mümkündür ki, Samuel Riçardsonun romanlarının dünyası həm sosial, həm də məkan baxımından məhduddur. Fərdin mənəvi həyatının bütün mürəkkəbliyi və zənginliyi ilə yaxından öyrənilməsi, əlçatmaz səviyyədə dayanan H. Fieldinq və T. Smolletin həll etməyə çalışdığı digər daha geniş əxlaqi, fəlsəfi və sosial problemləri Samuel Riçardson dar varlıq sferasına, orada hökmranlıq edən iman, əxlaq və vicdan ideyalarına müstəsna diqqət yetirməklə onların vasitəsilə dünyanın əsas xüsusiyyətlərini və qanunauyğunluqlarını "Pamela; or, Virtue Rewarded", "Clarissa: Or the History of a Young Lady" və romanı "The History of Sir Charles Grandison" qəhrəmanları arasında intim münasibətlərin kiçik dünyasında əks etdirməyə çalışır.

Ədəbiyyat

1. 1.Kinkead-Weekes M, "Defoe and Richardson - Novelists of the City," in Dryden to Johnson, ed. Roger Lonsdale (London: Barrie & Jenkins, 1971), 240-241.
2. Richardson S. Pamela. Fielding H. Shamela. – N.Y., Scarborough, Ontario, Lnd., 1980. – P.23.
3. Dobson A. Samuel Richardson. (1902) – June 2, 2008– P.59.
4. Brophy E.B. Samuel Richardson. (Twayne's English Authors Series) – Boston (Mass.), 1987. – P.18.
5. Skilton D. The English Novel: Defoe to the Victorians. – July 1, 1977– P.21.
6. Richardson S. Clarissa, Or, the History of a Young Lady, by the Editor of Pamela. Richardson. - August 19, 2017 (Volume 1, letter 32) P.211
7. Gordon I.R.F. A Preface to Pope. Routledge, 2017. 296 p.

Açar sözlər:Samuel Riçardson, epistolyar roman, "Pamela", "Clarissa", fəzilət, qadın psixologiyası

Key words:Samuel Richardson, epistolary novel, "Pamela", "Clarissa",virtue, women psychology

Ключевые слова:Сэмюэл Ричардсон, эпистолярный роман, «Памела», «Кларисса», добродетель, женская психология

Samuel Riçardson ingilis sentimentalist nəsrinin banisi kimi

Xülasə

Qərbi Avropa ədəbiyyatında sentimentalizm XVIII əsrdə yaranmış ədəbi cərəyandır. Bu cərəyan ən dolğun ifadəsini İngiltərədə, S.Riçardson, L.Sternin romanlarında tapmışdır. Samuel Riçardson XVIII əsrin ən məşhur ingilis romançılarından biridir və onun əsərləri Britaniyada və hətta Avropada ədəbi dairələrə də təsir göstərmişdir. S. Riçardsonun insan,

xüsusən də qadın psixologiyasını bilməsi və adi insanların emosional problemlərindən xəbərdar olması onun romanlarını çox oxunaqlı edib. S. Riçardson hamı tərəfindən epistolyar romanın ixtiraçısı hesab olunur. Məşhur epistolyar romançı kimi o, üç məşhur epistolyar roman yazmışdır: "Pamela; or, Virtue Rewarded", "Clarissa: Or the History of a Young Lady" and "The History of Sir Charles Grandison". Üç əsərindən biri olan "Clarissa: Or the History of a Young Lady" ümumiyyətlə tənqidçilər tərəfindən ən yüksək qiymətləndirilir. Onun uzun və mahiyətcə didaktik olan əsərləri L.Stern və ya D. Defo kimi romançıların zamansızlığına malik deyil.

Samuel Richardson as the founder of English sentimentalist prose

Summary

Sentimentalism in Western European literature is a literary trend that emerged in the 18th century. This trend received its most complete expression in England, in the novels of S. Richardson, L. Sterne. Samuel Richardson is one of the most famous English novelists in the 18th century, and his works has also impacted literary circles in Britain and even in Europe. S. Richardson's knowledge of human, particularly female psychology and his awareness of the emotional problems of common people made his novels highly readable. S. Richardson is widely considered to be the inventor of the epistolary novel. As a famous epistolary novelist, he wrote three famous epistolary novels: "Pamela; or, Virtue Rewarded", "Clarissa: Or the History of a Young Lady" and "The History of Sir Charles Grandison". Of the three, "Clarissa: Or the History of a Young Lady" has generally been the most highly regarded by critics. His works, long and often didactic, do not possess the timelessness of such novelists as L.Sterne or D. Defoe.

Сэмюэл Ричардсон как основоположник английской сентиментальной прозы

Резюме

Сентиментализм в западноевропейской литературе — литературное течение, возникшее в 18 в. Наиболее полное выражение это направление получило в Англии, в романах С. Ричардсона, Л. Стерна. Сэмюэл Ричардсон — один из самых известных английских писателей 18 века, и его произведения также оказали влияние на литературные круги Великобритании и даже Европы. Знание С. Ричардсоном человеческой, особенно женской психологии, его понимание эмоциональных проблем простых людей сделали его романы очень читабельными. С. Ричардсон широко известен как изобретатель эпистолярного романа. Как известный эпистолярный писатель, он написал три знаменитых эпистолярных романа: «Памела; или «Награда за добродетель», «Кларисса: или история молодой леди» и «История сэра Чарльза Грандисона». Из этих трех «Кларисса, или история молодой леди» вообще была наиболее высоко оценена критиками. Его произведения, длинные и часто дидактические, не обладают вневременностью таких романистов, как Л.Стерн или Д.Дефо.

RƏYÇİ: dos. S.Abbasova

Kəmalə Nurulla qızı Nəcəfova48

TÜRK XALQLARI ƏDƏBİYYATINDA TÜRK DİLİ UĞRUNDA MÜBARİZƏ

Hər bir etnosun tarixi onun öz mövcudluğunu və varlığını qoruyub saxlamaq uğrunda amansız mübarizələrdə keçir. Bütün hallarda etnoslar yalnız fiziki deyil, həm də varlığını qorumaq uğrunda mübarizə aparır. Mübarizə vasitələri arasında etnik özünəməxsusluğu təşkil edən faktorlar, o cümlədən ədəbiyyat və mədəniyyət faktoru mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, türk etnosu başqa etnosun içində ərimədən öz adət və ənənlərini qoruyub saxlamaqla islam dinini qəbul etdi.

İslamdan öncə müxtəlif dinlər türklər arasında yayğın bir halda idi. İslam ordularıyla təmasa girmədən öncə türklər zərdüşt, buddist, manixeizm və qismən xristian dinində idilər. İslam istilasından sonra bir çox oğuz boyları dinlərini dəyişdirərək müsəlman oldular. Hicrətin IV yüzilliyindən sonra türk dünyası tamamilə islam təsiri altına girdi və islamlaşdı. Türklər öz adətlərini islamiyyətdən sonra belə eynən mühafizə etdilər. Öz inanclarına islami bir rəng verdilər və onun pərdəsinə büründülər. Bu arada islam dünyasında ən çox gözə çarpan təsəvvüf hərəkatı idi (6,3).

İslam dininin yaranması yalnız dünyanın siyai-dini mənzərəsini dəyişdirmədi, eyni zamanda bir çox xalqların, o cümlədən türk xalqlarının inkişafının sonrakı mərhələsinə, etnik-milli mövcudluğuna, müstəqil dövlət quruculuğu sahəsindəki fəaliyyətinə, həyat və düşüncə tərzinə, mentalitetinə və s. xüsusi təsir göstərdi. İslam dini yaranandan sonra bir sıra xalqlar kimi, əksər türk xalqları da islami etiqadı, dini inamları seçdilər. İlkin mərhələdə necə yayılmasından asılı olmayaraq, sonradan islam türk etnosu üçün yalnız imana çevrilmədi, eyni zamanda etnik-milli özünəməxsusluqların vacib atributlarından biri oldu və təbii ki, etnik-milli ədəbiyyat və mədəniyyət inkişafında islami dəyərlərə daha çox istinad etməyə başladı.

Dünyanın müxtəlif yerlərində yüzillərdən bəri öz mədəniyyətləri və ənənələriylə yaşayan müxtəlif mədəni millətlər islamiyyətə girincə, islamiyyətin də onlara təsir etməsi labüd idi. Müsəlmanlar arasında təsəvvüf cərəyanı yaranıb yayıldıqdan sonra bunun ədəbiyyata təsir göstərməməsi mümkün deyildi. Belə bir zamanda türk sufiliyi XI-XII əsrlərdə təşəkkül tapdı və onun ən görkəmli nümayəndəsi Türküstanın Sayram şəhərində göz açmış Əhməd Yəsəvi oldu. İslam dəyərlərini türk mədəniyyəti dəyərləri ilə birləşdirərək türkçülüyə xidmət etmiş Əhməd Yəsəvi ilk türk sufi şairi, türk sufi ədəbiyyatının yaradıcılarındandır. Yəsəvinin sufi ideyalarını türk dilində yazmasının etnik və ictimai-siyasi baxımdan tarixi əhəmiyyəti böyükdür. O, ilk türk sufi təriqətinin də əsasını qoydu, islam kontekstində türkün yolunu (təriqət yolunu) müəyyən etdi. Beləliklə, sufilik türklər yaşayan bütün ərazilərə yayıldı.

Ə.Yəsəvi öz hikmətlərini türkcə söyləməklə türkcəni daha yüksəkliklərə qaldırmağa çalışmışdır. Fars dilini bilməsinə baxmayaraq, türk dilinə üstünlük vermiş, farscanın meydan aldığı dövrdə türkcənin imkanlarını yüksək qiymətləndirmişdir. Onun "Divani-hikmət" əsəri bütün türk ədəbiyyatında yeni bir "təsəvvüfi xalq şeiri" dövrü açmışdır. Hikmətlərində iki əsas element nəzərə çarpır: islam, yəni dini-sufiyanə məzmun və milli, yəni əski xalq ədəbiyyatından alınan forma. Ə.Yəsəvi mənzumələrinin çoxunu xalq arasında çox sevilən və xalq ədəbiyyatında daha çox işlədilən 7 və 12 hecalı şeir şəklində yazmışdır. Ə.Yəsəvi gözəl türkcəsi və könüldən gələn ifadələriylə ondan sonra gələn təsəvvüf şairlərinə nümunə oldu. Ə.Yəsəvinin hikmətlərinin təsiriylə türkcə şeirlər yazmağa başladılar. Hikmətlərində başdan-başa kamil insan məsələsi və təsəvvüf cərəyanı daxilində insanın mənəvi cəhətdən pillə-pillə kamilləşməsinin təbliği "Divani-hikmət"i təsəvvüf ədəbiyyatının öyrənilməsində müstəsna qaynaqlardan birinə çevirmişdir.

Ə.Yəsəvinin qurduğu ilk türk sufi təriqəti- yəsəviyyə özündən sonra gələn digər təriqətlərə də meydan açmış, bektaşiyyə, heydəriyyə, nəqşbəndiyyə və s. kimi təriqətlərin yaranmasına rəvac vermişdir. Ə.Yəsəvinin sufilik mərhələlərinin izah olunduğu "Fəqrnamə" risaləsi yəsəviyyə qaydalarının məcmusudur.

Ə.Yəsəvinin əsərləri islami və fəlsəfi dəyərlər baxımından mühüm əhəmiyyət kəsb edir. Təsəvvüf tarixində əsərləri və irfani həyatı ilə böyük maraq doğurmuş Yəsəvi dünya təsəvvüf tarixində çox böyük iz qoymuşdur.

Türklər islam dinini qəbul etdikdən sonra əzəmətli islam dövlətləri təşkil etmişlər. İslam dinini ilk dəfə qəbul edən Orta Asiyada Qaraxanilər dövləti olmuşdur. Qaraxanilər islam dinini qəbul etməklə yanaşı, türk adət və ənənələrinə də bağlı qalıb, ilk islami türk mədəniyyəti əsərlərinin yaranmasına yardım etdilər. Onların zamanında "Qutadqu-bilik" (Yusif Balasaqunlu)və "Divanü-lüğət-it-türk" (Mahmud Kaşğarlı) əsərləri yaranmışdır.

Türk ziyalıları islam dininə deyil, islam dini pərdəsi altında türk etnosunun ərəbləşdirilməsi və ya farslaşdırılması siyasətinə qarşı qələmlə və sözlə mübarizə aparmışlar. Bu baxımdan türkçülük tarixində etnik varlığın qoruyucusu kimi M.Kaşğarlının həyatı və elmi fəaliyyəti böyük örnəkdir.

M.Kaşğarlı ilk dəfə olaraq türk tayfalarının və xalqlarının adlarını, türk dünyasının xəritəsini, türk folklorunun, şeirlərinin, nəsr nümunələrinin, atalar sözlərinin, türk dilləri arasında müqayisəli təhlilini, türk dillərinin qrammatikasını izah edir. Möhtəşəm türk dövlətlərinin hakimiyyəti zamanında türk dilinin öyrənilməsinin vacibliyini əsaslandırmağı bacarır: "Türklərin oxlarından qoruna bilmək üçün onların yolunu tutmaq hər bir ağıllı adama layiq və münasibdir. Dərdini söyləmək və türklərin könlünü fəth etmək üçün onların dilində danışmaqdan başqa yol yoxdur" (3; Ic.,54).

M.Kaşğarlı "Divanü-lüğət-it-türk" əsərinin əvvəlində bu fundamental əsərin yazılmasının əsas səbəbləri, ərəblərə türk dilini öyrətmək cəhdinin səbəbləri barədə məlumat verir, ərəblərə türk dilini öyrətmək məqsədini gerçəkləşdirmək naminə Məhəmməd peyğəmbərə istinad edir: "And içərək deyirəm ki, mən bunu Buxaranın mötəbər imamlarının birindən və nişapurlu başqa bir imamdan şəxsən eşitmişəm. Onlar ikisi də sənəd-sübutla bildirirdi ki, peyğəmbərimiz qiyamətin

---

48 BDU-nun dosenti

əlamətlərini, axır zamanın fitnə-fəsadlarını və oğuz türklərinin ortaya çıxacağını söylədiyi vaxt "Türk dilini öyrənin, çünki onlar üçün uzun sürəcək hökmranlıq vardır" deyə buyurmuşdur. Vəbalı söyləyənlərin boynuna, bu hədis doğru isə, türk dilini öyrənmək çox vacib işdir, əgər bu söz doğru deyilsə, o zaman türk dilini öyrənməyi ağıl əmr edir" (3; Ic., 55).
M.Kaşğarinin "Divani-lüğətit-türk" əsəri etnik varlıq və mövcudluq uğrunda məqsədyönlü və sistematik mübarizənin ilk və əvəzsiz nümunələrindən biridir.
Türk xalqları ədəbiyyatında türk dili uğrunda mübarizə ənənəsini qoyanlardan biri də Yusif Balasaqunlu oldu. "Qutadqu bilik" əsəri hansı səbəbdən və hansı zərurətdən yaraandı? Yusif Balasaqunlunun yaşadığı dövrdə fars dili poeziya dili kimi türklər arasında geniş yayılmaqla yanaşı, dövlət işlərində də fars dilinə üstünlük verilirdi. Türk dili bədii yaradıcılıq, xüsusən poeziya və dövlət quruculuğu sahəsində ardıcıl şəkildə işlənmədiyinə görə passivləşmişdi. Məhz bu dövrdə Y.Balasaqunlunun ədəbi-mədəni, ictimai-siyasi əhəmiyyətinə görə əvəzsiz olan türk dilində "Qutadqu bilik" əsəri meydana çıxdı.
Yusif Balasaqunluya qədər türk müəllifi tərəfindən türk dilində, türklər haqqında, türk dövlətinə aid yazılan başqa əsər bizə məlum deyil. Yusif Balasaqunlu öz əsərində türklərə idarəçiliyə, yaxud xoşbəxtliyə, bilik qazanmağa gedən yolları göstərir.
Y.Balasaqunlu türk dövlətinin ədalət məcəlləsini müəyyənləşdirir, cəmiyyəti idarə qaydalarının əsasları haqqında fikir yürüdür, hökmdarın və dövlət adamlarının özünə də, cəmiyyətə də xeyir gətirə biləcək bilik sahibi olması zərurətini ortalığa atırdı. Dövləti və cəmiyyəti idarə etmək qaydalarını Nizamülmülk də yazmışdı. Onun "Siyasətnamə"si türk hökmdarlarına fars dilində ağıl və hikmət, siyasət öyrədən məşhur əsərdir. Amma türk hökmdarına türk dilində ilk hikmətli kitabı Y.Balasaqunlu vermişdir (2, s. 193).
Əsərin Türk "Şahnamə"si adlandırılması və Ə.Firdovsinin əsəri ilə eyni vəzndə yazılması türk dilinin yaradıcılıq imkanlarını ortaya qoydu. Türk dilinin də "Şahnamə" səviyyəsində, məhz əruz vəznində əsər yaratmaga qadirliyini sübuta yetirdi. Y.Balasaqunlunun türk hökmdarlarına dövləti türk törələri arasında idarə etmələri üçün zəruri prinsipləri türk dilində yazması və əruzu ilk dəfə türk dilinə tətbiq etməsi və s. türkçülük ideologiyasının formalaşmasında mühüm mərhələ idi.
Ə.Yəsəvi, M. Kaşğarlı, Y.Balasaqunlu irsindəki türkçülk ideologiyasının ifadəsi ənənəsi Y.Əmrə yaradıcılığında davam etdirilir. Sufi şairi Y.Əmrənin sufi əsərlərini türk dilində yazıb yaratması, türk xalq şeiri vəzninin formalarından istifadə etməsi bu ənənənin davamı idi. Orta əsrlərdə bədii yaradıcılıqda sufi ideyaların təbliği etnik-milli maraq və mənafelərin qorunması siyasətinin tərkib hissəsi idi. Bu dövrdə xüsusilə şair Yunus Əmrə sufi əsərlərini türk dilində yazıb yaratmaqla xalq arasında seçildi.
Əhməd Yəsəvidən sonra ən böyük sufi şairi Yunus Əmrə olmuşdur. Ə.Yəsəvidən sonra türk dünyasında sufi dərviş kimi Yunus Əmrə tanındı. İslamiyyəti qəbul edən türklər arasında ozanların yerini indi dərvişlər tutmuşdu. F.Köprülü sufi dərvişlərini baxşılarla bağlayır: "Xalq şair-muiqişünasları, hətta hekayəçiləri saya biləcəyimiz baxşıların bir qismi dərvişdir. Onların üzərindən əsrlər keçdikcə, xatirələri daima böyüyərək və əfsanəvi bir şəkil alaraq sonrakı nəsillərə keçər: Osmanlı türkləri arasında altı əsrdən bəri yaşayan Yunus Əmrə ilə, Orta Asiyada və qırğızlar arasında səkkiz əsrdən bəri xatirəsi hörmətlə saxlanan Əhməd Yəsəvi, sonra XIX əsrdə türkmənlər arasında böyük bir şöhrət qazanan Məxtumqulu islamiyyətdən öncəki əski türk rahib-şairlərinin islamlaşmış bir şəklindən başqa bir şey deyildir. İslamiyyətdən sonra vücuda gələn təsəvvüfi şeir, xalqa məxsus bir mahiyyətdə və tıpkı əski baxşıların milli şeirləri şəkil və tərzində vücuda gəlmişdir (5, s. 67).
Y.Əmrə böyük irfani məfhum və əqidələrini sadə türk dilində xalqın başa düşəcəyi şəkildə şeir dilində bəyan etmiş və Anadolu təsəvvüf şeirində yeni bir dövr açmışdır. Anadolu türklərindən olan Y.Əmrə şeirlərini xalqın dili ilə demiş və xalqı təmsil etmişdir. Böyük sufi şairi irfani görüşlərini yaymaq üçün sadə, anlaşıqlı, həm də canlı xalq ləhcəsində yazması ilə özündən sonrakı şairlərə böyük təsir göstərmişdir.
M. Kaşğari və Y.Balasaqunlu ənənələrini daha sonra Əlişir Nəvai (1441-1501) davam etdirdi. Bu sahədə ən böyük xidməti Ə.Nəvainin ilk dəfə türk dilində "Xəmsə" yaratması oldu. Bununla da türk təfəkkürünün və türk dilinin "Xəmsə" kimi möhtəşəm sənət nümunəsi yaratmağa qadirliyini bir daha sübuta yetirdi. O, türk dilinin gücünün "Xəmsə" zirvəsini də fəth eməyə qadirliyini sübuta yetirdi, amma bununla kifayətlənmədi; bunun təsdiqini elmi əsəri ilə tamamladı: "Mühakimətül-lüğəteyn". Onun "Mühakimətül-lüğəteyn" əsəri türkçülüyün proqram əsəri idi. Əsərdə fars xalqını və dilini qətiyyən aşağılamadan şairin iki dilin müqayisəsi ilə istənilən mətləbin, problemin və fikrin poetik ifadəsində türk dilinin imkanının fars dilindən daha geniş olması elmi cəhətdən əsaslandırılır. 1499-cu ildə yazdığı bu əsərlə fars dilini yüksək dil hesab edənlərə qarşı çıxır. Nəvai hər iki dilin bilicisi kimi türk dilinin üstünlüyünü, zənginliyini onunla əsaslandırır ki, "türk sözlərini yaradanlar çox incə çalarları nəzərdə tutmuşlar", "çünki türk sözlərini yaradanlar uzun zamanlardan bəri öz nitqlərini daima kamilləşdirmiş və xüsusi anlayışların ifadəsi üçün elə sözlər yaratmışlar ki, bunları təcrübəli adam izah eləməsə başa düşmək olmaz" (4, s. 52).
Şairin sufi şeirlərinin böyük qismini türk dilində yazması Ə.Yəsəvi və Y.Əmrə ənənəsinin davamı demək idi.
Türkmən ədəbiyyatında milli ideologiyanın daşıyıcısı Məxdumqulu Fəraqi (1733-1798) idi. Etnik şüurun bazasında milli şüur Məxdumqulu yaradıcılığında xüsusi anlam qazandı. Türkmən anlayışı onun poeziyasında türk məfhumuna qarşı qoyulmadan ön plana keçirildi.
Məxdumqulu Türküstanda Əhməd Yəsəvinin təmsilçisidir, -deyə bilərik. Onun şeirlərində Yunus Əmrə təsirinə baxılsa, XVIII yüzillikdə Türkmənistanda yaşayan Ə.Yəsəvi və Y.Əmrənin ardıcıllarından olduğu görünür.
Türkmən birliyi məsələsi vətənpərvər bir şair və ziyalı kimi Məxdumqulunu daim narahat etmiş və düşündürmüşdür. Şaiin yaşadığı mürəkkəb və keşməkeşli dönəmdə boylar arasında birlik məsələsi çox aktual idi. Nadir şahın Orta Asiya,

Əfqanıstan və Hindistana səfərləri, bölgənin özündə özbəklərin taxt qovğaları, başqırdların, kalmıkların bu olaylara müdaxiləsi, türkmənlərin pərakəndəliyi, bir-birlərinə dəstəkdən daha ziyadə köstək olmaları, çəkişmələri böyük xaos yaradır, rusların Orta Asiyaya hərbi yürüşləri vəziyyəti daha da gərginləşdirirdi. Bütün bunları ürək ağrısı ilə müşahidə edən Məxdumqulu türkmənləri vahid siyasi yelpazədə birləşdirməyin tərəfdarı kimi çıxış etmiş, bunun qeyri-mümkün olduğunu gördükdə öz sənəti ilə qardaş boylar arasında mənəvi birlik yaratmağa çalışmışdır (1, s. 147).

Türk xalqları tarix səhnəsində üzərinə düşən çətin işlərin öhdəsindən gəlmişlər. Onların varisləri olan müasir türk dövlətləri dünya ölkələri içərisində söz sahibi olmaq imkanına malikdirlər. Türk xalqları müasir dövrdə də türklüyün qüruruna sığınaraq öz milli varlıqlarını böyük əzm və iradə ilə bütün sahələrdə, eləcə də ədəbiyyatda təzahür etdirməkdədirlər. Bu iradənin arxasında ulu babalarımzın böyük məhəbbətlə qoruduqları milli və mənəvi dəyərlər durur.

Ədəbiyyat

1. Əskər R.Türk xalqları ədəbiyyatı oçerkləri. Bakı: MBM, 2011, 320s.
2.Xəlilov P.Türk xalqları və şərqi slavyanların ədəbiyyatı. Bakı: Maarif, 1994, 432s.
3. Kaşğari M. Divanü-lüğət-it-türk: 4 cilddə. \tərcümə edən: R.Əskər\. Bakı: Ozan,I c.-2006, 512 s., II c.-2006, 400 s., III c.-2006, 400 s., IV c.-2006, 752 s.
4.Nəvai Ə. Mühakimətül-lüğəteyn. Bakı: Yurd, 1999, 64s.
5.Köprülü F. Edebiyat araştırmaları. Ankara: Türk tarih kurumu basımevi, 1999, 472s.
6.Tökin F.H. İslam tarikatleri. İstanbul: Sıralar matbaası, (yılsız), 48s.

Ключевые слова:этнос, тюркский язык, тюркизм, традиция, борьба
Keywords:ethnos, Turkish language, Turkism, tradition, struggle

Борьба за тюркский язык в литературе тюркских народов

Резюме

История каждого этноса проходит через непримиримую борьбу за сохранение своего существования и существования. Среди средств борьбы важное значение имеет литературно-культурный фактор.

Караханиды, впервые принявшие ислам, остались приверженными тюркским традициям и создали первые произведения исламской тюркской культуры - «Гугадгу-билик» (Ю. Баласагунлу) и «Дивани-лугатит-тюрк» (М.Кашгари). Они заложили основу традиции борьбы за турецкий язык. Турецкая интеллигенция перьями и словом боролась с политикой арабизации или персизации тюркского этноса под видом ислама, а не ислама. Первый турецкий суфийский поэт, написавший суфийские идеи на турецком языке, А. Есеви, также пытался возвысить турецкий язык. После А.Есевисуфийский поэт Ю.Эмре писал и создавал суфийские произведения на турецком языке как продолжение этой традиции. Традиции М.Кашгари и Ю.Баласагунлу продолжил Алишер Навои. Величайшей заслугой в этой области было создание А.Навои впервые «Хамсы» на турецком языке. В статье также упоминается наследие Махдумгулу, одного из последователей этой традиции, носителя национальной идеологии в туркменской литературе.

The struggle for the Turkish language in the literature of the Turkish peoples

Summary

The history of each ethnos goes through a relentless struggle to preserve its existence and existence. Among the means of struggle, the literary and cultural factor is important.

The Karakhanids, who converted to Islam for the first time, remained attached to the Turkic traditions and created the first works of Islamic Turkic culture - "Gutadgu-bilik" (Y.Balasagunlu) and "Divani-lugatit-turk" (M.Kashgari). They laid the foundation of the tradition of fighting for the Turkish language. Turkish intellectuals fought with pens and words against the policy of Arabization or Persianization of the Turkic ethnos under the guise of Islam, not Islam. The first Turkish Sufi poet to write Sufi ideas in Turkish, A.Yesevi, also tried to elevate the Turkish language. After A.Yesevi, the Sufi poet Y. Emre wrote and created Sufi works in Turkish as a continuation of this tradition. The traditions of M.Kashgari and Y.Balasagunlu were continued by AlisherNavai. The greatest service in this field was A.Navai's creation of "Khamsa" in Turkish for the first time. The article also mentions the legacy of Makhdumgulu, one of the followers of this tradition, the bearer of national ideology in Turkmen literature.

RƏYÇİ: dos. E.Vəliyeva

Zeynalova Aygün Nadir qızı49

MƏN SÖZ CADUGƏRİYƏM...

Azərbaycan xalqının böyük mütəfəkkir şairi Nizami Gəncəvi dünya ədəbiyyatının korifeylərindən biridir. Onun yaradıcılıq irsi dünya bədii mədəniyyət xəzinəsini dahiyanə əsərlərlə zənginləşdirmişdir. Nizami "Xəmsə"sinə daxil olan poemalar özündə Şərq poeziyasının ən yüksək nailiyyətlərini, zəngin şifahi xalq ədəbiyyatı ənənələrini cəmləşdirmişdir. Bu poemalar Yaxın və Orta Şərq ədəbiyyatı və incəsənətinin inkişafına böyük təsir göstərmişdir.`

Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin zəngin irsinə diqqət və məhəbbətin doqquz yüz ilə yaxın bir tarixi vardır. Bu irs yüksək ümumbəşəri ideyalarla zəngin bir irsdir. Onunla təkcə şairlər, ədəbiyyatçılar deyil, filosoflar, tarixçilər, etnoqraflar və başqa sənət sahibləri də maraqlanmışlar.

Azərbaycan xalqının ədəbi taleyində Nizami Gəncəvi xüsusi yer tutur. Hər bir xalqın görkəmli şair və yazıçıları vardır, Nizami isə bütün bəşəriyyətə məxsus olan dünya şöhrətli bir şairdir. Onun kitabları müxtəlif xalqların dillərinə tərcümə olunub, poemalarının motivləri əsasında bir çox əsərlər yaranmışdır.

Dahi Azərbaycan şairi və mütəfəkkiri olan Nizami Gəncəvi dünya ədəbiyyatına yeni fikirlər, ideyalar gətirmiş, təkrarolunmaz əsərləri ilə şərq poeziyasını forma və məzmunca zənginləşdirmişdir. Onun yaradıcılığı dünya ədəbiyyatı tarixində yeni bir mərhələ, tarixi dövr və müdriklik zirvəsidir.

Yazılı mənbələrdə Nizaminin həyatına dair məlumatlar az olsa da, şairin əsərlərindən onun şəxsiyyəti, mənəvi aləmi haqqında ətraflı məlumat almaq mümkündür. Şair özü də "Xəmsə"sində bir neçə yerdə bildirir ki, oxucu onun əsərlərini oxuyan vaxt "Nizaminin hüzurunu", mənəvi aləmini "sözlərin arasında" görə bilər:

"Hər kəs məni görmək istəsə, canımın məğzini bu qabıqda görə bilər", "O kəs ki, hər beytdə sənə bir sirr açа, o, səndən necə gizli qala bilər!" ("Xosrov və Şirin") (7, 7)

Nizami Gəncəvi yaradıcılığı çoxşaxəlidir. Onun əsərləri içərisində "Xəmsə"nin xüsusi yeri vardır. Şairin yaradıcılığını araşdırarkən G.Pənah və S.Əhmədli "Azərbaycan ədəbiyyatı məsələləri" kitabında "Xəmsə"yə xüsusi yer ayırmışlar: "Nizaminin Xəmsə"si ümumtürk dünyasının şah əsərlərindəndir. Bu əsərdə dərin fəlsəfi fikirlər, hikmətli ifadələr yaşayır. Fəlsəfi fikir bədii yaradıcılığımızla, söz sənətimizlə sıx bağlı olub. Söz ustalarımızın hikmətləri dildən-dilə keçərək bu gün də öz dəyərini saxlamışdır. Nizami yaradıcılığı Azərbaycan ədəbiyyatına yeni bir nəfəs gətirdi. Onun 5 böyük əsəri özündə birləşdirən "Xəmsə"si ona hələ sağlığında dünya şöhrəti qazandırmışdır. Əminliklə demək olar ki, N.Gəncəvi dünya poeziyasının şedevrlərini yaratmışdı. Oğlu Məhəmmədə şeir yazmağı məsləhət görməyərək yazırdı:

Şeirdən ucalıq umma dünyada,
Çünki Nizamiylə qurtardı o da.

Deyildiyi kimi, "Xəmsə" 5 poemadan-kitabdan ibarətdir. Yuxarıda qeyd etdiyimiz "Azərbaycan ədəbiyyatı məsələləri" əsərində müəlliflər yazırlar ki, Nizaminin "Xəmsə"si Şərq ədəbiyyatı tarixində bir ilk idi. "Sirlər xəzinəsi" bura daxil olan I kitab idi. Bu poema müxtəlif məzmunlu 20 hekayətdən ibarətdir. Demək olar ki, bunların hamısında xeyirxahlıq etmək, düzgün yolla getmək, zülm etməmək kimi fikirlər qırmızı xətlə keçir. Bu əsərlə o, insanları haqqa, ədalətə çağırır, xeyirxahlığın, düzgünlüyün qələbə çalacağına inandırır, onların ürəyində xoşbəxt olmağa ümid çırağı yandırır, onları heç vaxt zülmə, zalıma baş əyməməyə çağırıb. Şairi düşündürən, narahat edən problemlər onun əsərlərində öz əksini tapmışdır. Xüsusilə "Xəmsə"də bu fikri təsdiq edən parçalar çoxdur. Nizami dövrünün ziddiyyətlərinə, yaralarına biganə qalmamışdır. Onu düşündürən, narahat edən ən böyük problemlərdən biri xalq ilə dövlət, varlı ilə kasıb, işçi və müftəxor arasındakı ziddiyyət idi. "Sultan Səncər və qarı" hekayətində zalım padşahı qarının dili ilə ifşa edir:

Ey şah! Dadə çatmasan, olurkən qəlbim kabab,
Qiyamətin günündə çəkilər səndən hesab.
Ah, səndə nə ədalət, nə mərhəmət görürəm,
Mən səndə sonsuz zülüm və əziyyət görürəm.

Rəiyyətə hər zaman kömək etməli padşah,
Səndən xarlıqdır gələn bizə, ol bundan agah.
Bir hünər deyil almaq yetimlərin malını,
Buna mərdlik deməzlər, düşün işin dalını.

"Kərpickəsən kişinin dastanı"nda isə əlinin zəhməti ilə dolanan qocanın zəhmətə xor baxan dikbaş cavana verdiyi cavab çox ibrətamizdir:

Qoca dedi: "Cavansan, belə cahillik etmə!
Əl çək acı sözlərdən, mənə ağıl öyrətmə!
Qocalar kərpic kəsər, son günləri yaşıyar,
Əsirlər də hər zaman yük çəkər, yük daşıyar.

Onunçun öyrətdim ki, əlimi bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə.
Mən bir kəsə deyiləm xəznədən ötrü möhtac,

---

49 Milli Aviasiya akademiyası. Baş müəllim

Əlimin zəhmətilə toxdur gözüm deyil ac.
"Nuşirəvan və bayquşların söhbəti" hekayətində zalım və bacarıqsız bir hökmdarın ölkəni xaraba qoymağından danışılır. Öz qoşunu ilə ova çıxan padşah xaraba bir kəndə gəlib çıxır. Kəndin xarabalığında iki bayquş ulayırdı. Padşah vəzirdən bu ulamanın hər hansı bir məna verib-vermədiyini soruşdu.Ağıllı vəzir dedi ki, əgər ibrət almaq istəsən onun mənasını deyərəm:
Boş-boşuna oxumur gördüyünüz bu quşlar,
Onların arasında bir kəbin söhbəti var...
Deyir ki: "Biz olmarıq sənlə qohum artıq,
Mənə verməsən belə bir neçə xarabalıq".

O biri quş deyir ki: "Vaz keç, mənə dil tökmə,
Padşahın zülmünü gör, yetər, qəm-qüssə çəkmə.
Əgər padşah bu isə, onun sayəsində sən,
Yüz min belə xaraba kənd alacaqsan məndən.
Bu sözlər padşahı yandırıb-yaxdı, elə bil yuxudan oyandı. Fikirləşdi ki, həyətlər toyuq-cücə əvəzinə bayquşlarla doludur. Tanrı mənə bu var-dövləti, mal-mülkü ona görə verib ki, ədalətli olum, pis iş görməyim, xalqın qayğısına qalım, qurub-yaradım. Mən isə bu dünyaya uyaraq qəbiri, qiyaməti unutmuşam. Nuşirəvan şah gördüyü işlərdən tövbə edərək ölkəni ədalətlə idarə etməyə başlayır:
Qalmadı bu ölkədə zülmündən zərrə əsər
Nuşirəvan çox adil oldu ölənə qədər.
Bu gün o yoxdursa da bu vəfasız dünyada,
Xalqı onu hörmətlə gətirir daim yada.
Xalq yazıçısı M.İbrahimov Nizami yaradıcılığını araşdıraraq yazırdı: "Nizami Gəncəvi sözə böyük qiymət verərək, onu dünya sirlərinə sahib olmağın bir açarı hesab edirdi. Yazanda elə sözlər seçməlisən ki, onun qarşısında qızıl belə qiymətdən düşsün. Yaxşı söz insan yaddaşına həkk olunan sözdür. Bunun üçün o samballı olmalı, həqiqəti əks etdirməlidir."
Məhəmməd Füzuli də öz sələfi Nizami kimi sözə böyük dəyər vermişdir:
Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən saılıdır, necə ki, cism ilə can.
Böyük şair sözü ilahidən, ərşdən gələn bir nemət, hədiyyə kimi təqdim edirdi:
Sözə xor baxmaq olmaz, hər bir söz,
Ərşdəndir gəlib hədiyyə bizə,
Qəlbimiz meyl edir həmişə ona,
Çünki söz nazil oldu qəlbimizə.
M.Abdullayeva özünün "Klassik poeziya: ezoterik xəzinə" adlı əsərində N.Gəncəvinin söz dünyasını araşdıraraq yazır ki, qələmə aldığı hər bir beytdə Nizami özünün gizli məqsədini-sirrini gizlədib və mənadan başı çıxanlar orada şairin məqsədini görə bilərlər:
Hər bir örtülü bizə bəllidir,
Xızır deyən kimi orada Xızır hazırdır.
Bu mənzuməni oxuyan vaxt Nizaminin
Hüzurunu sözün arasından taparsan.
O kəs ki, hər beytdə sənə bir sirr açar,
(O,) səndən necə gizli qala bilər?
Yüz ildən sonra soruşsan ki, o haradadır,
Hər beytdən səs gələr: "Budur o!"
İpək qurdu kimi mən öz içimlə
Bir yarpaq yesəm, ipək bağışlaram. (Filoloji tərcümə)
Alimlərin fikirinə görə bütün kainat kosmik kod vasitəsi ilə yazılmış məlumatdır. Dahi sənətkarlar, söz ustaları isə bu kodu, şifrəni açıb onu bədii sözə çevirirlər. İlk baxışdan adi görünən sözlər, əslində dərin, mistik sirlər, gizli informasiyalar daşıyır.
Bu əfsunkar, bakirə sözləri
Çətin ki, düşüncə yolu ilə meydana gətirmək ola. (3,39)
Nizami Gəncəvi sözlərə məcazi məna verməyi "sözün zülfünün ucunu burmaq" adlandıraraq göstərir ki, bu işi yalnız nəzm əsərlərində etmək mümkündür. Həqiqi mənalı sözləri məcazi mənalarda işlədərək orada dərin batini mənalar yerləşdirmək olar:
Doğru (söz) tapdığım hər pərdədə
Sözün zülfünün ucunu burmağa başladım.
Əgər doğru sözlərdədoğruluq istəyirsənsə,
Onda onlara nəzm zinəti vermək yaramaz. (Filoloji tərcümə)
Sözlərdə gizli mənalar yerləşdirməklə - sözün zülfünün ucunu burmaqla şeirin zinəti artır. Əgər bütün sözlərin zinətini azaltsa, yəni sözləri həqiqi mənasında işlətsə, Nizami dünyanı fəth edən şahın dastanını bir vərəqdə yerləşdirə bilər:
Şeir zinətini ondan azaltsam,

Onu bir neçə beytdə yazaram.
Dünyanı fəth edən şahin tutduqlarını
Bir vərəqlə tamamlaya bilərəm. (Filoloji tərcümə)(3, 64)
Hər hansı bir alət əsil ustanın əlində olanda xaruqələr yaradır. Əsil şairin aləti isə onun sözüdür, daha doğrusu sözlə işləmək bacarığıdır. Bu mənada Nizami özünü söz ustası, söz cadugəri adlandırır:
Mən söz cadugəriyəm, tazə, köhnə hər nə var,
Mənim məftunum olar, mənim heyranım olar!

Bütün sehrbazları mat qoyur sehrim mənim!
Mələkləri aldadan əfsundu şerim mənim.

Gəncəm-Babilim mənim Harutu yandırmada,
Ən uzaq ulduzları Zöhrəm nurlandırmada.

Duz-çörəyim bilirəm öz cadugər şeirimi,
Halal sehrim sındırır harutun hər sehrini.

Ürəyin şəklidir Nizaminin sözləri,
Mənim halal sehrimlə daim canlı, dipdiri!
"Sirlər xəzinəsi" əsərinin "Ölçülü sözün ölçüsüz sözdən üstünlüyü" hekayətində Nizami Gəncəvinin sözə necə böyük qiymət verməyinin şahidi oluruq. O bu hekayətdə danışarkən sözləri ölçüb-biçməyi tövsiyə edir. Belə olan halda deyilən sözlər, fikirlər gözəlləşər və dinləyənlərin ürəyincə olar. Belə sözlər xəzinəyə tapılan bir açardır:
Ölçülüb-biçilməmiş dağınıq sözlər belə
Sözsə...zərgər yanında bənzər gövhərə, lələ.

Ölçülüb-biçilərsə incə fikir, incə söz,
Nə qədər gözəlləşər, olar ürəyincə söz.

Kim ki sözə söz qoşub tapar haqqın səsini,
Sözlə iki aləmin açar xəzinəsini.
Dahi şairimiz sözü dünyanın ən böyük sərvəti sayır. Sözü dünyanın ən gözəl bəzəyi, incisi kimi təsvir edir. Sözün ecazkar qüdrətindən danışan şair, söz söyləyənləri, alimləri həmişə böyük ehtiramla yad edir: "elə natiqlər ki, dilləri atəş, heyrandı onlara səmada günəş; alim, uzaqgörən hikmət ərbabı" kimi ifadələrlə, obrazlı şəkildə tərənnüm edirdi:
Söz bayraqdan daha çox əldə eyləyər zəfər,
Qılıncdan daha artıq fəth eyləyər ölkələr.
Şair "Sirlər xəzinəsi" poemasında sözün qüdrətinə ayrıca bir fəsil ayırmışdır.
Doğan hər fikir, xəyal, buna heç şübhə olmaz,
Etdi söz quşlarının qanadlarında pərvaz.
Yeniliklər törədən bu qoca kainatda,
Sözdən kəskin və incəbir şey tapılmaz hətta.
Düşüncənin əvvəli, bütün sonların sonu,
Sözdür, yadında saxla, unutma əsla bunu. (6,93)
Nizami Gəncəvi qeyb sirləri haqqında danışmağa həmsöhbət tapmamasından, insanların maddi dünyanın problemlərindən başqa heç bir şeylə maraqlanmamalarından şikayət edərək yazırdı: "Ağzı mismarla bağlamaq daha yaxşıdır// Nəinki danışıb sözləri (havayı) yandırmaq. // Nə danışım, ey məni eşitməyən insan. // Sənin qulağın ancaq yatmaq, yemək sözlərinə yönəlib. // Sən hardan biləsən ki, mənim sənətim nədir, // Və təbili mən özüm öz qapımda çalıram. // Məndə çoxlu qiymətli mətahlar var, // İstəyən olmasa, üzə çıxarmaram. // İnci müştərilərinin gözü sədəf kimi bağlıdır, // Belə kasadlıqla mal satmaq düzgün deyil. // Belə bir qiymətli gövhərim olduğu üçün // Mənim gövhər tanıyana və sevənə ehtiyacım var // Ruzigardan belə bir dinləyici istəyirəm ki, // Mənə dərs verənin sirrini ona açım." (3, 39)
Nizamidə həyat eşqi çox güclü olmuşdur. O, qəzəllərində dəfələrlə bu barədə yazmışdır: "Heç nə yaşamaqdan gözəl sayılmaz". Lakin ömür müvəqqəti olsa da, Nizamiyə görə insan öz gözəl əməllərilə əbədi ömür qazanıb, əbədiyyətə qovuşa bilər. Bu da insanlığa xidmət etmək, ömrü mənalı keçirib, özündən bir yadigar, xoş xatirə qoymaqla mümkündür. Nizamiyə görə xoşbəxt olmaq üçün qəlbini Tanrıya verməlisən, Tanrı xəzinəsini arayıb tapmalısan:
Ver qəlbini Tanrıya-xoşbəxt olmaq istəsən,
Eşqin özü şahlıqdır, elə bil taxt üstəsən.
Soruş:-Harda qaldı din, təriqət qaldı harda?
Dəyanət getdi əldən, əmanət qaldı harda?
Hansı könüllərdə ki, dindən od var, əsər var,
İkinci dünyadan da xəbər tutmuşlar onlar.

Səmimi dindar olan Nizami yalançı dindarlara, din ilə alver edənlərə həmişə kəskin nifrət bəsləmiş və onların ikiüzlülüyünü xalqa tanıtdırmağa çalışmışdır. O. "Divan"ında:-Belələri dilənçi kimi hərdən Allahı yada salır, şəhərin şeyxi isə xalqı ovlamaq üçün tor qurub ovçu kimi pusquda gizlənmişdir; İbadət ondan ibarət deyil ki, alnını yerə dayayasan. Səcdəni şeytan da çox etmişdir. "Sirlər xəzinəsi"ndə isə:-Ziyarət, ibadət yükünü tamaşa üçün daşıyırlar. Fikirləşəndə alver, pul qazanmaq xatirinə fikirləşirlər-deyə yazırdı.

Nizami Gəncəvinin əsərləri ilə daha dərindən tanış olduqca onun necə bir dahi sənətkar olduğuna bir daha əmin olursan. Şairin bizə gəlib çatan bütün əsərləri xalqın malına çevrilmişdir. Onun ölməz poemaları tükənməz yaradıcı ilham mənbəyi olmaqda davam edir. Tədqiqiatçıların fikrinə görə XIII əsrin ikinci yarısından başlayaraq XIX əsrin sonlarına qədər Yaxın və Orta Şərqin müxtəlif millətlərindən olan 125 şairi Nizami "Xəmsə"sinin təsiri ilə "Xəmsə"lər, "Fərhad və Şirin"lər, "Leyli və Məcnun"lar, "Yeddi gözəl"lər və s. yazmışlar. Onların sırasında Əmir Xosrov Dəhləvi, Əlişir Nəvai, Əbdürrəhman Cami, Füzuli kimi söz ustaları da olmuşdur. Nizami irsi daha geniş miqyasda öyrənildikcə onun yeni tədqiqatçıları və tərcüməçiləri yetişdi, onun haqqında dəyərli monoqrafiyalar yazıldı. (7, 16)

Nizami böyük yaradıcılıq əməllərinə, bəşərin səadəti və gələcəyi haqqında ölməz fikirlərinə görə alimlər tərəfindən yüksək qiymətləndirilmişdir. Y.E.Bertels şairi Şekspirlə müqayisə edərək onu "dünyanın ən böyük adamları cərgəsinə mənsub olan" bir şəxiyyət, Krımski isə "dünya ədəbiyyatının fəxri, bəzəyi" adlandırmışdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1.Səfərli Ə. Müdriklik zirvəsi. N.Gəncəvi-850, B, BDU,1992
2.Azərbaycan ədəbiyyatı məsələləri. G.Pənah, S.Əhmədli, B-2014
3.Abdullayeva M. Klassik poeziya: ezoterik xəzinə, B-2009
4.Gəncəvi N. Sirlər xəzinəsi, B-1981
5.Gəncəvi N. İsgəndərnamə, B-1983
6.Hacıyeva İ. Nitq mədəniyyəti, B-2014
7.Nizami G. "Xəmsə" motivləri, B-1990

XÜLASƏ

Mən söz cadugəriyəm...

Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin zəngin irsinə diqqət və məhəbbətin doqquz yüz ilə yaxın bir tarixi vardır. Bu irs yüksək ümumbəşəri ideyalarla zəngin bir irsdir. Onunla təkcə şairlər, ədəbiyyatçılar deyil, filosoflar, tarixçilər, etnoqraflar və başqa sənət sahibləri də maraqlanmışlar.

Azərbaycan xalqının ədəbi taleyində Nizami Gəncəvi xüsusi yer tutur. Hər bir xalqın görkəmli şair və yazıçıları vardır, Nizami isə bütün bəşəriyyətə məxsus olan dünya şöhrətli bir şairdir.

Açar sözlər: böyük mütəfəkkir, zəngin irs, dünya şöhrətli şair, klassik poeziya.

РЕЗЮМЕ

Я волшебник слова…

Внимание и любовь к творческому наследию азербайджанского поэта и мыслителя Низами Гянджеви имеют уже почти девятивековую историю. Этим наследием интересовались не только поэты, литературоведы, но и философы, историки, этнографы и др.

В литературной жизни азербайджанского народа Низами Гянджеви занимает особое место. У каждого народа есть свои выдающиесяпоэты и писатели, но Низами принадлежит всему человечеству.

Ключевые слова: великий мыслитель, богатое наследие, поэт с мировой славой, классическая поэзия.

Rəyçi: dos. Xəlili Ə.M.

Məmmədova Tinatin İsabalı qızı50

AŞIQ HÜSEYN SARACLININ DASTAN REPERTUARI

Giriş. Azərbaycan aşıq sənətinin ən qədim mühitlərindən olan Borçalı aşıq mühitinin özünəməxsus oxu-halacat, saz ifaçılıq, dastan repertuarı vardır. Azərbaycan aşıq sənətinin tərkib hissəsi olan Borçalı aşıq mühitinin təmsil olunduğu bölgənin siyasi, mədəni, ictimai, coğrafi regional özəllikləri vardır.

Borçalı elində türk ruhu, ruhunun saflığı, duruluğu və ucalığı başlıca milli-mənəvi dəyərə çevrilmişdir. Bütün bunlar Borçalı aşıq sənətinin özünəməxsus janlı və qaynar bir mühit səviyyəsinə qalxmasına gətirib çıxarmışdır.

Aşıq sənəti xalqın tarixi taleyindən ayrılmaz bir sənətdir. O, folklor hadisəsi olmaq etibarilə həmin folkloru daşıyan xalqın mənəviyyatının ifadəsidir. Borçalı aşıqlarının yaradıcılığında güney aşıqlarına məxsus çalarlar hiss edilir. Borçalılar təbiətən saza-sözə bağlıdırlar, ona görə bu məkanda söz ovqatlı, saz yatımlı lirika həmişə inkişafda olub. Borçalı aşıq yaradıcılığı əsasən XIX və XX yüzilin ilk iki onilliyində daha geniş inkişaf edib.

Borçalının sazlı-sözlü ellərində yaranıb inkişaf edən lirika öz bədii vüsətiylə ön mövqedə dayanıb. XX əsr Borçalı aşıq mühitində, müasir ustad aşıqlar içərisində iki zirvə olmuş olur. Bunlardan biri haqqında danışdığımız Aşıq Hüseyn Saraclı o birisi isə Aşıq Əmrahdır.

Aşıq Hüseyn Saraclı sənəti daim diqqət mərkəzində olmuş, haqqında elmi-ədəbi, publisist yazılar yazılmış, adi filmlərdə, videoteka yaddaşlarına köçmüşdür. O, Azərbaycan və Borçalı dastançılığının 60-80-ci illərindəki ən aparıcı nümayəndələrindən biri olmuşdur. Repertuarında otuzdan yuxarı dastan daşımışdır. Dastan ifaçılığında xüsusi qabiliyyətə, məclis duyumuna, yüksək vokal - aktyorluq keyfiyyətlərinə və s. malik idi. O, özü də bir sıra dastan-hekayələr müəllifidir. Burada incə bir məqam ayrıca qeyd olunmalıdır.

Xüsusi dastançılıq qabiliyyətinə malik Aşıq Hüseyn Saraclı ifa etdiyi dastanlara əlavələrdən, impravizasiyalardan heç vaxt imtina etməmişdir. Bu isə bir sıra mübahisələrin yaranmasına səbəb olmuşdur. Aşıq Hüseyn Saraclı eşitdiyi əhvalatları, hamının unutduğu əski dastan və rəvayətləri danışmağa, onların yeni-yeni məzmun, şeir, bədii lövhələrlə zənginləşdirməyi sevərdi. Bu baxımdan əslində unudulmuş, sıradan çıxmış əhvalatlar, rəvayətlər və s. Sarajclının improvizasiyalarında yeni dastanlara çevrilirdilər. Bu Saraclı dastançılığının özəl bir xassəsidir və onun ustad sənətkar olmasından soraq verir. Bu baxımdan onun repertuarındakı «Cahangirin nağılı», «Aşıq Qaranın və Xəstə Həsənin deyişməsi», «Qaçaq Kərim», «Mehdi bəyin nağılı», «Burcalı və gürcü qızı», «Salman bəyin nağılı», «Koroğlunun «Ağ şəhərə» səfəri» və s. kimi dastanları örnək göstərmək olar.

Borçalının ağır eli Saraclı Şenniyi mahalın hər ürəkdə yeri olan bir kəndi olub. Toyları qara zurnasız, məclisləri sazsız keçməyib. Borçalının özündə də adıbəlli aşıqları, saz şairləri, dərin bilgili gözüaçıq dərvişləri var idi. Qaçaqanlı şair Ağacan, Faxralı şair Nəbi, Quşçu Aşiq İbrahim, Aşıq Xındı Məmməd, Dolu Aşıq Əbzər, Aşıq Əmrah və saymaqla qurtarmayan neçə-neçə sənət pərvanələri at oynadırdı. Belə tələtümlü sənət azmanlarının dövründə sənətə qədəm basmağa başladı Hüseyn Saraclı.

İlk dəfə öz həmkəndlisi Aşıq İsmayılın çırağı olmuş, sazın-sözün qüdrətilə tanışlığa da buradan başlamışdı. Sonra zəmanəsinin ünlü ustadı Aşıq Quşçu İbrahim (1895-1912) ustadlıq eləyib Hüseyn Saraclıya Quşçu İbrahimdən sənət dərsi alan gənc Hüseyn bu ustadın yaradıcılığındakı forma xüsusiyyətlərini, sənətkarlıq sirlərini çox gözəl mənimsəmişdir.

Hüseyn Saraclı Borçalı tək bir ağır mahalın adına layiq sənətkar olmağa çalışırdı həmişə. Buna görə də axtarışlardan, tapıntılardan doymaq bilmirdi. Bu minvalla dövrünün böyük saz şairi olan Faxrali şair Nəbiyə, və aşıq Sarvan Bayrama üz tutdu. Şair Nəbidən də çox bəhrələndi.

Doğru-dürüst təhsil görməyən az bir savadı olan Hüseyn Saraclı hafizəsinin gücünə, yaddaşının möhkəmliyinə və özünün əzminə, ifadəsinə güvənərək addımladı və hər addımında da özü olmağı bacardı.

Dilinin zənginliyi, minillərdən üzübəri gələn durum, qırım, səsindəki çəkicilik, üzünün Dədə ozanlara çəkən görkü, bığını buraraq meydanda vargəl eləməsi bizə özümüzü, özəlliyimizə daha çox sərgilədir.

Borçalıda Dədə Qorquddan üzü bu yana və buradan da üzü sabahlara doğru gedən bir özəllik var. Bu da meydanda tək aşıq, tək saz olmasıdır. Sənətkarla sazın vəhdəti hər ikisinə doğru-dürüst ulaşmağa yardımçı olur. Dinləyici aşığın nə demək istədiyini anladığı kimi, sazın da nə demək istədiyini anlamalıdır. Sənətkar əsl ustad olduğunu isbatlamalı olsa həm saz çalmasını, həm sazı bütün çalarlarına-ahənginə – çiyninə uyğun oxumasını və həm də dastan söyləməsini sübut etməlidir. Borçalıda bu isə çox önəm verilir.

Məhz Aşıq Hüseyn Saraclı da sənət meydanında öz ustadlıq möhürünü sənətin bütün yönlərində tam əminliklə vuran sənətkarlardandır. Əslində bu əlamətlərlə yanaşı aşığın məclislərdə özünü aparmaq üsulu, davranış tərzi, ədəb-ərkan sahibi olması əsas meyarlardan biridir. Hər kəlmələr söyləyən bir aşıq-ozan özünü yüngülsaqqal aparsa, saza, sözə, məjlisə və özünə hörmətsizlik kimi düşünülər və məclisdən uzaqlaşdırılar. Aşıq Hüseyn Saraclı da sənət meydanında öz ustadlıq möhürünü sənətin bütün yönlərində tam əminliklə vuran sənətkarlardandır.

Aşıq H. Saraclı sənət meydanında at oynatdığı 50-55 illik bir zaman kəsiyində ustadlığın bütün şərtlərinə uya-uya getdi; geyimi-takımı, səliqəsi, davranışı, ədab-ərkanı, böyük-kiçik, münasibətlərinə sayqı, ləhcəsindən şirinlik, şux zarafatlar, danışdığı qaravəllilərdən mərifət və daha nələr. Hər şey nə qədər yerli yerindəydi. Bəzi gərgin dastan səhnələrindəki hədisələrə elə bir

---

50 AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, fil.f.d., dosent.

şux deyim və ya lətifə əlavə eləyərdi ki, məjlis əhli bir anda yeni bir ab-havaya köklənərdi. Hüseyn Saraclı dastan aşığıydı. Onun söylədiyi dastanların şirinliyi, şəhdi-şirəsi ayrı bir aləmiydi.
«Cahangirin nağılı», «Qul Qaram və kosxa Hasan», «Mehdi bəyin nağılı», «Aşıq Şenniyin dastanı olan və ilk dəfə ondan eşitdiyiz», «Salman bəy və Dürrəfil» dastanı, «Yaralı Mahmud», «Koroğlunun Ağ Şəhərə səfəri», «Zərnigar xanımın Çənlibelə gətirilməsi» və neçə-neçə belə dastanlar onun söylədiyi dillər əzbəri olan dastanlarıydı.
«Aşıq Ələsgərin Gəncə səfəri», Hüseyn Saraclının Göyçədə ustadın qəbrini ziyarət etdikdən sonra bulduğu və ilk dəfə özünün ellərə yaydığı ən şirin dastanlarmızdandır.
Hüseyn Saraclı xalq ozanıydı. El ağsaqqalıydı, sağlığında heykəlləşən sənətkarıydı. Özünün bir sözü varıydı, deyərdi: «Aşıqlıq yüzdürsə, oğul, yarı böl-əllisi saz, söz sənətkarlıq biliksə, qalan əllisi mərifətdir. El aşığı uşaxnan-uşax, böyühnən-böyük olmalıdır» (2,5). Bütün dedikləri elə onun özünə aid idi.
Yerişində-duruşunda, davranışında, dastan söyləməsində özü olduğu kimi, çaldığı saz havalarında da özüydü həmişə.
Azərbaycan aşıq sənətinin kökü qədim türk ozan yaradıcılığından gələn çox zən-
gin bir tarixi vardır. Və bu sənətin əsas özəlliklərindən biri də budur ki, bütün tarix boyu qazanılmış təcrübəni yaşatmağa çalış mış, zamanzaman nə qədər müasirləşsə də, kökdən gələn tipoloji keyfiyyətləri qoruyub saxlamışdır. Əlamət-dar cəhətdir ki, Azərbaycan aşıq sənəti XX əsrə ayrı ayrı regional məktəblər handa gəlib çıxmaqla fərqli xüsusiyyətlər nümay iş etdirmiş, ancaq həmin fərqlər də heç aman sənətin genotipini inkar etmək iddiasında olacaq qədər dərinləşməmişdir. İlk nö vbədə istedadlı, ustad yanında yetişmiş (və özü də ustad səviyyəsinə yüksəlmiş) sənətkarların yaradıcılığı (və şəxsiyyəti) tims alın-
da aydın görmək olur ki, müxtəlif aşıq sənəti məktəblərini təmsil etsələr də, onlar çox dərin qatlardan gələn eyni mənbədən qi da-
lanmışeyni irfan bulağının gözündən su içmişlər...Borçalı mühitinin (və məktəbinin) yetirməsi olan Aşıq Hüsyn Saraclı heç ş übhə-siz, bir məktəbin (və mühitin) hüdudlarına sığmayan, ümumən Azərbaycan aşıq sənəti-
nin tarixində görkəmli yer tutan zirvə-sənətkardır.
Doğma Borçalıya bütün ruhu ilə bağlı olan ustadın XX əsrin ortalarından başlayaraq türkcənin anlaşıldığı (və saza-
sözə dəyər verildiyi) hər mahalda Türkiyədən Türküstana
geniş şöhrət qazanması da təsadüfi deyil... Həm gözəl saz ifası, həm özünəməxsus məahətli səsi, həm də təsirli sözü ilə dədəb aba-
dan gələn yaradıcılıq ənənəsini nəinki bütün mükəmməlliyi ilə davam etdirmiş, eyni zamanda, aşıq sənətinin bu gün yaşama-
sı, yeni tarixi şəraitin ideyaestetik tələblərinə cavab verməsi üçün zəruri "reformasiya-
lar" da aparmışdır ki, bunun ən mühüm şərti (və təzahürü) aşığın xalqla, cəmiyyətlə həmişəsıx ünsiyyəti, məclislərin xarakteri nə uyğun təbii (və səmimi)"improvizasiyalar"ı olmuşdur... Geniş etnoqafik dünyagörüşü, vətənpərvərliyi, humanizmi, fitri ist edaddan gələn enerjisi (və el arasında qazandığı böyük hörmətdən, nüfuzdan doğulan özünə-əminliyi!) Aşıq Hüseyn Sara-
clıya hər cür imkan verirdi ki, sənət meydanında ürəyi istə-yən kimi cövlan eləsin...

Əlimə alınca sədəfli sazı
Sanki səfərlərə atlanıram mən.
Gah Koroğlu kimi nərə çəkirəm,
Gah da Kərəm kimi odlanıram mən.

Arzular ürəkdə qol-qanad atar,
Nəğməli sinəmdə yüz dastan yatar.
Elə ki sevinər, murada çatar,
Sevincə bürünüb şadlanıram mən.

Əzəldən bir dadlı dilə vurğunam,
Sazımda səslənən telə vurğunam.
Bu əziz obaya, elə vurğunam,
Hüseyn Saraclı adlanıram mən. (1, 10

Ustad sənətkarın elə nəsihətamiz kəlamları var ki, ümumən klassik aşıq təfəkkürünün metafizikasına, ədəbərkan fəlsəfəsinə d ayanmaqla yanaşı, dövrümüzün həyat prin-siplərini, insanlıq meyarlarını müəyyənləşdirmək
baxımdan olduqca aktual səslənir:

Halal tut mayanı hər zaman, oğul,
Haramlıqla dövlət, mal olmaz-olmaz.
Əyər əyri baxsan özgə malına,
Boş qalar pətəyin, bal olmaz-olmaz.

İbrət götür Saraclının sözündən,
Namərdlər tez düşər xalqın gözündən.
Pəhləvan olsan da demə özündən,
Hər güləşən Rüstəm-Zal olmaz-olmaz. (1, 12)

Bu gün bir sıra möhtəşəm xalq dastanlarının yüksək peşəkarlıqla (və son dərəcə istedadlı virtuozluqla!) ifa örnəklərininlent yazılarının mövcudluğu üçün Aşıq Hüseyn Saraclının müqəddəs ruhuna minnətdarıq...
Hüseyn Saraclının ünsiyyətcilliyinin göstəricisidir ki, müasiri olan sənətkarların çoxu ilə əlaqə saxlamış, şeirləşmiş, yaradıcılıq dostluğu eləmişdir... Və maraqlıdır ki,"deyişdi"yi söz adamları içərisində həm şifahi, həm də yazılı ədəbiyyatın müxtəlif nəsil-lərindən olan nümayəndələrinə təsadüf etmək mümkündür.
Aşıq ola, telli sazı sinəsinə ala, könlü yüz yerdən qanad açıb pərvazlana, ancaq bu dünyanın göz oxşayan gözəllərini görməyə!..Hüseyn Saraclının gözəlləmələri yalnız klas-sik poeziyanın mükəmməlliyi ilə deyil,həm də xəfif duzu-məzəsi ilə seçilir...
Aşıq Hüseyn Saraçlı, sözün əsl mənasında, yaradıcı aşıq-sənətkar idi. O, təkcə gözəl saz çalıb-oxuması və nəğmələr, şeirlər qoşması ilə deyil, həm də yeni saz havaları və dastanlar yaratmaqda, eləcə də həmin havaları ifa etməkdə və dastan danışmaqda da Azərbaycan aşıq sənətində əvəzsiz idi. Aşıq Hüseyn Saraçlı «Qızıl dastan», «Kərəm Burcoğlu» dastanlarını, «Bağdat dubeyti», «Qürbəti-Kərəm» və s. saz havalarını yaradıb. «Koroğlu» dastanının «Zərnişan xanımın Çənlibelə gətirilməsi» və «Bolu bəy və qoç Koroğlu» qolları ilk dəfə məhz Aşıq Hüseyn Saraçlı söyləməsində qələmə alınıb (1, 15-17).
Görkəmli Xalq şairimiz, tanınmış professor Bəxtiyar Vahabzadə yazır:«Bir neçə dəfə Aşıq Hüseyn Saraçlının söylədiyi dastanları dinləmişəm. Xüsusən Aşıq Ələsgərin Gəncə səfərini ustad aşıq elə bədii və obrazlı danışır ki, vəziyyət teatr tamaşası kimi gözümüzün qarşısında canlanır. Elə bil gözəl bir operaya baxırsan. Bu operanın rejissoru da o özüdür, dirijoru da, ifaçısı da, müşayiət edəni də. Eyni zamanda o, həm libretto müəllifidir, həm də bəstəkar. Məsələnin əsl tərəfi aşığın danışığındakı deyim tərzindəki təbiilik və səmimilik, şirinlik və gözəllikdir. Onun dilindəki «Bizi borana qırdırma», «A çıran keçsin», «Ağzı qırqovullu gəlmisən», «Yel vurub yengələr oynayır», «Ağzımı boza vermə» kimi xalq deyimləri təbii olduğu qədər obrazlı, obrazlı olduğu üçün də dəqiqdir ,təsirlidir» (5, 20). Bu «Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya»-ya qədəm qoyan gündən şifahi xalq ədəbiyyatımızın söz xəzinəsinə öz töhfəsini bəxş edən Aşıq Hüseyn Saraçlı yüzlərlə şeir, qoşma, təcnis, gəraylı, müxəmməs, dodaqdəyməz, qıfılbənd və onlarla dastanın müəllifidir.
Hüseyn Saraçlı aşıq yaradıcılığında geniş yayılmış dastan janrına da həmişə böyük maraq göstərmişdir. O, yaxşı bilirdi ki, toy nişan məclislərində, ağır el yığnaqlarında xalqın bədii zövqünü oxşamaq, onun tarixi qəhrəmanlarından, ulu keçmişindən söhbət açmaq üçün dastan söyləmək daha uğurlu yoldur. Buna görə də, Hüseyn Saraçlı qədimdən bəri olan qəhrəmanlıq və məhəbbət dastanlarımızı - «Əsli və Kərəm», «Koroğlu», «Yusif və Züleyxa», «Qaçaq Nəbi» və s.-ni dərindən mənimsəmiş, onların məqaləsində çox doğru olaraq qeyd edildiyi kimi, dastan danışmaqda, məclis aparmaqda Aşıq Hüseyn Saraçlı bənzərsiz sənətkar idi. O, elə güclü sənətkar idi ki, bildiyi dastanları heç vaxt olduğu kimi danışmazdı. Həmişə dastanın dilini şirinləşdirməyə çalışar, hətta yeri gələndə bəzən ona gözəl əlavələr də edərdi. Biz onun «Əsli-Kərəm» dastanına dəfələrlə qulaq asmışıq. O, dastanda Kərəm yanğısından danışarkən əlavə edərdi ki: Deməzsənmi bir gün Kərəmə deyirlər, sən haqq aşığısan, elə oxu ki, göydə gedən durna sənin ahından dayansın və qanadından bir lələk salsın. Kərəm götürüb elə qəmli və yanıqlı hava oxuyur ki, o saat durna dayanır və onun qanadından bir lələk düşür. Aşıq Hüseyn Saraçlı «Koroğlu», «Qaçaq Nəbi» və başqa dastanları danışanda da uyarlı əlavələr edərdi. Bax, Aşıq Hüseyn Saraçlı belə yaradıcı sənətkar idi. O, nəinki özünəqədərki dastanların mahir ifaçısı idi, həm də dastan yazan sənətkar idi. Bunu ustadın kitabında özünə yer tapmış dastan və əhvalatlar da («Zərnişan xanımın Çənlibelə gətirilməsi», «Gürcü qızınnan Qaçaq Kərəm», «Aşıq Şenniyin Borçalı səfəri», «Mehdi bəyin dastanı», «Cahangirnən Mələksima dastanı», «Şair Ağacanın Ərzurum səfəri», «Aşıq Ələsgərin səfəri», «Aşıq Ələhvərnən şəyirdi Aşıq Qara əhvalatı») sübut edir. Onu da əlavə edək ki, Aşıq Hüseyn Bozalqanlı demişkən, dastan danışmaq, məclis aparmaq Aşıq Hüseyn Saraçlı boyuna biçilmişdi...
Ustad sənətkar təkcə klassik aşıq poeziyasının ifaçısı deyildi, o, həm də bir çox gözəl, oynaq, axıcı, təsirli qoşmalar, gəraylılar, müxəmməslər müəllifi idi. O, bu Zirvəyə heç də asanlıqla nail olmadığını, bu Zirvəyə qalxan yolların, xüsusilə də sənət və zəhmət yollarının çətin, mürəkkəb və müxtəlifliyini öz şeirlərində dönə-dönə vurğulayır:

Saraçlıyam, yaralarım bitişər.
Can bağında şux bülbüllər ötüşər.
Bir gün gedib Yaradana yetişər,
Sənət yolu, zəhmət yolu, tər yolu.

Ustad Aşıq Hüseyn Saraçlının şəninə sonralar yüzlərlə şeirlər yazıldı, nəğmələr qoşuldu, dastanlar yarandı… Hamısının da mövzusu, dəst-xətti, üslubu müxtəlif olsa da, ünvanı bir idi. Həmin ünvan isə… Ustad Aşıq Hüseyn Saraçlı idi…

Ədəbiyyat

1. Aşıq Hüseyn Saraçlı. Şeirlər, söyləmələr, Bakı, Yazıçı, 1992, 208 s.
2. Borçalı.M. Aşıq Hüseyn Saraçlı və onun Yaylaq səfəri. Bakı, "Borçalı", 2011, 72 s
3. Qasımlı M. Ozan-Aşıq sənəti, Bakı, Uğur, 2011, 304 s.
4. Məmmədova T. Borçalı aşıq mühiti, Bakı, Elm, 1999, 168 s.
5. Vahabzadə B. Vətən ocağının istisi. Bakı, Gənclik, 1982, 75 s.
6. Z.Yaqub. Hüseyn. Saraçlı dastanı, Bakı, Pedaqogika, 2007, 227 s.

Xülasə

Tanınmış saz və mənzum ustadı Aşıq Hüseyn Saraclı XX əsr Azərbaycan aşıq sənətinin ən parlaq nümayəndələrindən biridir. O, əsl mənada Azərbaycan aşıq sənətinin misilsiz yaradıcısı olub, sazda "Qızıl dastan", "Kərəm Bürcoğlu" dastanlarını, "Bağdad Dübeyti", "Qürbəti-Kərəm" və s. mahnıları ifa edib. Çənlibel", "Bolu" "Koroğlu" dastanından Bəy və Qoç Koroğlu". Aşıq Hüseyn Saraclı yüzlərlə misra, qoşma, təcnis, gəraylı, müxəmməs, dodaqdeyməz, qıfılbənd və onlarla dastanı ilə şifahi xalq yaradıcılığının şifahi xəzinəsinə töhfələr vermişdir. "Çeşmə" (1980), "Dan ulduzu" (1987, 1989, 1990),

"Məclis aşıq Pəri" (Aşıq. Xalq şairləri (Bakı, 1991)) şeirləri ədəbi məcmuələrdə, "Azərbaycan" jurnalında və bir sıra dövri nəşrlərdə, xüsusən də "Gürcüstan" və "Bolnisi" qəzetlərində əsərləri dərc olunmuşdur.
Açar sözlər: Dastan, XX əsr, aşıq sənəti, Hüseyn Saraclı, söz sənəti, folklor

Эпический репертуар Ашига Хусейна Сараджли

Резюме

Признанный мастер-устад саза и стиха Ашуг Гусейн Сараджлы – один из ярких представителей ашугского искусства Азербайджана XX века. Он был в истинном смысле непревзойдённым творцом азербайджанского ашугского искусства, исполняя на сазе сочинённые дастаны «Золотой дастан», «Керем Бурджоглу», песни «Багдадский дубейти», «Гурбети-Керем» и др. Им также впервые исполнены главы «Прибытие Зарнишан ханум в Ченлибел» и «Болу бей и гоч Короглу» из дастана «Короглу». Ашуг Гусейн Сараджлы внёс свой вклад в словесную сокровищницу устного народного творчества сотнями стихов, гошма, теджнисов, герайлы, мухаммасов, додагдеймезов, гыфылбендов и десятками дастанов. Его стихи «Чешме» (1980), «Дан улдузу» (1987, 1989, 1990), «Меджлис ашуга Пери» (Ашуги. Поэты народа (Баку, 1991) печатались в литературных сборниках, журнале «Азербайджан и ряде периодических органов печати, в частности в газетах «Грузия» и «Болниси».
Ключевые слова: Дастан, XX аср, ашугское искусство, Гусейн Сараджлы, искусство слова, фольклор.

The epic repertoire of Ashig Huseyn Sarajli

Summary

One of the most popular representatives of Azerbaijani Ashig art in the XX century is a prominent master Ashig Huseyn Sarajli. Ashig Huseyn Sarajli was a creative ashig-artisan literally. He was a substitute in the Azerbaijani ashig art. Ashig Huseyn Sarajli created saz songs such as "Gold Saga", "Karam Burcoglu" sagas, "Baghdad Semai" and "Gurbati Karam". The branches, "Being Brought of Zarnishan Khanum to Chanlibel" and "Bolu Bey and Courageous Koroglu" of the saga Koroglu for the first time were written thanks to his narration. Ashig Huseyn Sarajli favored a contribution to the word treasury of folklore and is the author of hundreds of poems, qoshma, tajines, garayli, muxammas, dodagdeymez, gifilbend, and dozens of sagas. His poems were published in the literary journals "Fount" (1980), "Morning Star" (1987, 1989, 1990), "Ashig Peri Majlisi", (Ashigs. Folk Poets" (Baku, 1991), in the "Azerbaijan" journal and some periodical press organs, especially in the "Georgia" and "Bolnisy" newspapers.
Keywords: Epic, XX century, ashug art, Huseyn Sarajli, word art, folklore.

RƏYTÇİ: dos. L.Ələkbərova

Ülkər Azad qızı Nəbiyeva51

GÖYÇƏ AŞIQ MƏKTƏBİNİN ZİRVƏSİ - AŞIQ ƏLƏSGƏRİN POETİK DÜNYASI

Aşıq sənəti və aşıq poeziyası ağız ədəbiyyatının tərkib hissəsi olub xalqımızın ictimai və bədii estetik fikir və mədəniyyət tarixində şərəfli yol tutmuş, əvəzsiz nüfuza və ehtirama sahib olmuşdur.Aşıq sənətinin təkamül dövrü Səfəvi hakimiyyətinin Şah İsmayıl dövründəki ideyalardan-milli özünəməxsusluqdan, türk xalq sufizminə məxsus ideyalardan tədricən uzaqlaşması, başqa sözlə, milli və dini ideoloji zəminin getdikcə tənəzzülə uğraması prosesi ilə şərtlənir (3, s. 165).

XIX yüzillikdən başlayaraq aşıq poeziyasında yeni istiqamət yaranmış, Aşıq Alı, Aşıq Musa, Məhəmməd Hüseyn və b. kimi sənətkarlar yazıb-yaratmışlar. Aşıq poeziyası, xüsusən də bu sənətin zirvəsi sayılan Aşıq Ələsgər yaradıcılığı mənəvi –estetik idealların tərənnümçüsüdür. "Yüksək təbə, aşıqlıq məharətinə malik Aşıq Ələsgər Göyçə aşıq sənətini yeni mərhələyə yüksəltmiş, onu forma, məzmun, şəkli cəhətdən genişləndirmiş və zənginləşdirmişdir. Aşıq Ələsgər özünəqədərki aşıq ənənələrini təqlidçilik, təsvirçilik, məhdud tərənnümçülük səviyyəsindən yüksək milli-mənəvi, əxlaqi dəyərləri əks etdirən sənətkarlıq cəhətdən kamil mərhələyə yetirə bilmişdir. O, XVII- XVIII əsr aşıq yaradıcılığında baş verən intibahı, azad, müstəqil düşüncəni, qabaqcıl baxışları-zülm, istibdad dünyasına, ədalətsizliyə etirazını, dünyanın psixoloji durumunu, insanın hiss və həyacanını, iç aləmini poeziyaya gətirmiş, şeirlərində görən, duyan, düşünən,sevən insanın mükəmməl bədii obrazınıcanlandırmışdır" (4, s. 229).

Aşıq Ələsgər bu düşüncə ilə həm özündən əvvəlki sənətkarların bədii yaradıcılığından bəhrələnmiş, həm də özündən sonra yetişən aşıqların sənət dünyasına təsir göstərmişdir. Onun yaradıcılığında realizm yeni mərhələyə qalxmış, yeni keyfiyyətlər qazanmışdır. Bu böyük sənətkar klassik ədəbiyyat qaynaqlarına da istinad etmiş, bir yenilikçi, novator kimi aşıq sənətini realist ideyalarla daha da zənginləşdirmişdir.

Aşıq Ələsgər yaradıcılığı zəmanəsinin zəruri tələblərini əks etdirmiş, onun poeziyası zəngin və dolğundur. Aşığın yaradıcılığında ictimai- siyasi, fəlsəfi, əxlaqi dəyərlərin tərənnümü ilə yanaşı, bəşəri məhəbbət motivlərinin də geniş yer alması diqqəti cəlb edir.Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi olan Ələsgəraşıq poeziyasının ənənələrini inkişaf etdirməklə yanaşı, klassik ədəbiyyatın bəzi qanunlarını-tipikləşdirmə, bədii ümumiləşdirmə və s. kimi dəyərləri də bədii irsində əks etdirmişdir.

Aşıq Ələsgər 1821- ci ildə Göyçə mahalının Ağkilsə kəndində dünyaya gəlmiş, kiçik yaşlarından saza-sözə maraq göstərmiş, təsirli qoşmalar yaratmışdır. O, Azərbaycanı və Qafqazı qarış-qarış gəzmiş, toy məclislərində, bayramlarda xalqla birgə olmuşdur. Aşıq hələ cavan yaşlarından - təqribən 18 yaşından saz çalmağa başlamışdır. Həyatın ilk zərbəsini də gənc Ələsgər sevdiyi qızın-Səhnəbanının zorla başqasına ərə verilməsilə almışdır. Bu nakam məhəbbətdən sonra, deyilənə görə o, 40 yaşına qədər ailə qurmamışdır. Aşığn 40 yaşından sonra Anaxanım adlı xanımla ailə qurması və ömrünün sonuna qədər onunla olması barədə məlumatlar vardır.Aşıq Ələsgərin Səhnəbanıya həsr etdiyi qoşma və gəraylılar əsasında "Ələsgər və Səhnəbanı" dastanı da yaranmışdır.

Ələsgər Göyçə aşığı Aşıq Alının şəyirdi olmuş, aşıq sənətinin sirlərinə yiyələnmiş, ədəb və mərifət qaydalarını öyrənmiş, məclislərdə aşıqlara üstün gəlmişdir. Hətta bəzi məlumatlara görə, şəyirdlik dövrü başa çatandan sonra Aşıq Alı Ələsgərlə deyişmiş, bilərəkdən ona məğlub olmuş, sazını da şəyirdinə bağışlamaq istəmişdir. Amma Ələsgər "Bir şəyird ki, ustadına kəm baxa, onun gözlərinə qan damar–damar" deməklə bu mükafatdan imtina etmiş və " Ağ damar-damar" təcnisini bədahətən söyləmişdir. Bəllidir ki, Aşıq Əsəd, Aşıq Cavan kimi aşıqlar Aşıq Ələsgərin şəyirdi olmuşlar. "Aşıq hər rast gələni deyil, ağıllı, mərifətli, hafizəli, boy-buxun və sir-sifətcə yaraşıqlı, yaxşı səsi olan cavanlardan şəyirdliyə götürər, onları kamil bir aşıq səviyyəsinə çatdırmayınca yanından ayrılıb, müstəqil aşıqlıq eləmələrinə icazə verməzmiş" (2, s. 22) . Aşıq şəyirdlərinə "mərifət elmində dolu", "oturub-durmaqda ədəbin bilən", "xalqa həqiqətdən mətləb qandıran", "danışdığı sözün qiymətin bilən", "şeytanı öldürüb nəfsin yandıran", "el içində pak oturub, pak duran", "dalısınca xoş sədalı" olmağı tövsiyə edirdi.

Aşıq Ələsgərin təhsilsiz olmasına baxmayaraq onun güclü hafizəsi olmuşdur. Onu həyatda görənlərin söylədiyinə görə, o, zəmanəsinin sayılıb –seçilən, bilikli adamları ilə yaxın olmuş, hətta tarixi, dini kitabları oxutdurub dinləmişdir. Aşıq Talıbın Ələsgər haqqında söylədiyi xatirələrində hətta onun Qurani-Kərimi əzbər bilməsi xüsusi vurğulanmışdır (2, s. 23).

Tanınmış aşıq təqribən 105 il ömür sürmüş, həyatı boyu gördüyü, şahid olduğu hadisələrlə bağlı qoşmalar yaratmışdır ki, bu nümunələrin məzmunu müxtəlifdir. Aşıq Ələsgərin bədii irsində qoşma və gözəlləmələrin, ustadnamələrin, dodaqdəyməz təcnislərin və s. xüsusi yeri, məzmunu vardır. Ələsgərin yaradıcılığı bu günə qədər kifayət qədər araşdırılmışdır. Bu tədqiqatlarda o, ustad sənətkar və şair kimi təqdim olunur. Tədqiqatçı Hüseyn İsmayılov aşığın şeirlərində doğru olaraq üç dini- ruhani qaynağın vəhdətini belə göstərir:

1. Türk xalq sufizmi. Kökləri ilə türk Tanrıçılığına bağlanır və ondan qaynaqlanır. Bu qaynağın reallaşdığı poetik düşüncə qatı Ələsgər şeirində sufi dünyagörüşün əsasını, arxetipini təşkil edir.
2. Türk sufizmi. Ələvilik, əhli- həqq təriqəti. Ələvi və Bəktaşi şeiri.
3. İslam və onun müqəddəs kitabı "Qurani-Kərim"(3, s.224)

Ələsgərin poeziyasında Tanrıçı ata obrazı belə ifadə olunur:

Yaxşı hörmət ilə, təmiz ad ilə,
Mən dolandım bütün Qafqaz elini.

---

51 Filologiya elmləri doktoru, professor əvəzi. Bakı Dövlət Universiteti.ulker.azadqizi@mail.ru

Pirə ata dedim, cavana qardaş
Ana, bacı bildim qızı, gəlini... (2, s. 145)
Ələsgər şeirinin sufi simvolikasında ilahi eşq, gözəlin tərənnümü real həyatla bağlı olub Tanrı səviyyəsində təqdim olunur:
Axşam-sabah, çeşmə, sənin başına
Bilirsənmi, necə canlar dolanır?
Büllür buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır... (2, s. 65)
Aşıq Ələsgər vətəninə, elinə- obasına bağlı olan, ülvi duyğuları tərənnüm edən söz ustadıdır. Aşığın "Köynəyinə", "Öldürür" və s. adlı ilk şeilərindən "Dolansın", "Müşgünaz" və sadalanan son şeirlərinə qədər gəzəlin vəsfi, məhəbbət mövzusu geniş yer tutur. Aşığın məhəbbət fədailərinə münasibəti yaradıcılığlnda bədii təzahürünü belə ifadə edir:
Ələsgərəm, mən deyirdim
Pərvanə əfsanə yanır.
Eşqdən bir od düşüb
Cismimə, mərdanə yanır.
Deyirəm, danışıram...
Dönürəm hər yana, yanır.
Ürəyim bir Kərəmə,
Bir Şeyx Sənana yanır.
Qəlbdən yas tuturam
Məcnuna, Fərhada bu gün... (2, s. 27).
Aşıq Ələsgərin yaradıcılığında qoşma, gəraylı, təcnis, müxəmməs, divani və s. şeir şəkillərinə və onların müxtəlif tiplərinə rast gəlmək olar. Aşığın bədii irsi mövzu müxtəlifliyi baxımından zəngin və əhatəlidir. Onun poeziyasında vətən və vətənpərvərlik, təbiət gözəllikləri, saf məhəbbət, dövrün ictimai quruluşuna münasibət, haqsızlıq və ədalətsizliyə narazılıq və s. motivlər üstünlük təşkil edir. Aşiğin "Çəkirsən " qoşmasında zəmanədən şikayət motivi diqqəti cəlb edir:
Müxənnət zamana, bimürvət fələk
Şamı şübhə, sübhü şama çəkirsən.
Ləhzədə açırsan min cürə kələk,
Gah pozursan,gah nizama çəkirsən...
Cox həsrətlər görmür öz kimsəsini
Vəya döndərirsən şadlıq bəhsini
Tərəqqi-tənəzzül kəmənçəsini
Gah zilləyib, gah da bəmə çəkirsən... (2, s. 56)
Aşığın "Başa- baş" çığalı təcnisində saf hisslər belə ifadə olunur:
A bimürvət, həsrətini çəkməkdən,
İllər ilə xəstə düşdüm başa- baş.
Mən aşığam başa- baş,
Oxu dərsin başa-baş
Eşqindən səməndərəm,
Oda yandım başa-baş...
"Can "deyənə "can" deginən mərdana,
Baş qoyanın qoy yolunda başa-baş... (2, s. 185)
Ələsgərin "Gəlmədi" gəraylısında məhəbbət mövzusu əsas yer tutur:
Yaralandım yar əlindən
Gözlədim yarı, gəlmədi.
Məxmər köynək, qızıl kəmər...
Heç bizə sarı gəlmədi... (2, s. 252)
Aşıq poeziyasında gözəllərin tərifiböyük yer tutur. Klassik şeir ənənələrinə uyğun olaraq aşığın yaradıcılığındabədii təsvir vasitələrinə-bənzətmələrə, epitetlərə və s. geniş yer verilir. Onun şeirlərində gözəllərin xarici görünüşü, üz cizgiləri, baxışı, duruşu və s. bu aspektdən diqqəti cəlb edir:
Yanağı qırmızı, buxağı ağdı
Çırağban eyləyib ağı qırmızı
Ala gözlərinə gözüm sataşdı
Əridi ürəyimin yağı qırmızı

Qüdrətdən çəkilib qaməti-şahbaz
Mərnus dizlik geyib , çəpgəni ətlaz.
Buxaq düymələnib kağızdan bəyaz
Mərcan düzüb boyunbağı qırmızı... (2, s. 108)

Ələsgər yaradıcılılığında düzlük, dürüstlük, saflıq, xeyirxahlıq, səxavətlilik və s. Kimi mənəvi-əxlaqi dəyərlərinsanın ali keyfiyyətləri kontekstində dəyərləndirilir:
Səxavətsiz dövlət , bilin,
Barsız ağacdı dünyada;
Nəfi yox, zəhməti çox,
Sel gəlir, afat aparır... (2, s. 30)
yaxud
Əyləşəndə ağır əyləş,
Danışanda az danış;
Eşidənlər əhsən desin
Sana hər yandan , gədə!.... (2, s. 31),
yaxud
Kəsb eylə özünə halaldan maya,
Zinakar , haramxor yetişməz baya.... (2, s. 32)
yaxud
Sövdə qıl haqq ilə, əl çək haramdan
Halaldan mətləbin al, qoca bəxtim... (2, s. 32)
Aşığın məhşur "Görmədim" müxənnəsində hakim təbəqələri, qazıları, namərd insanları kəskin ifşa edərək yazır:

Bifəfanın, müxənnəsin, nakəsin
Doğru sözün, düz ilqarın görmədim!
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim...

Ələsgər,elmində olma nabələd
Doğru söylə, sözün çıxmasın qələt,
Şahiddəiman yox,bəydə ədalət
Qazıların düz bazarın görmədim.... (1, s. 98).
Aşıq Ələsgər həm də aşıq poeziyasında çətin sayılan dodaqadəyməz şeir şəklinə də müraciət etmiş, dodaqdəyməz təcnis,cığalı təcnis, müstəzad təcnis, müxəmməsvə s. ustası sayılmışdır. Hətta aşığın dodaqdəyməz təcnis ustası olmasına dair rəvayətlər də danışılır. Göstərilir ki, "guya Aşıq Ələsgər öz ustadı Aşıq Alı ilə üç gün deyişmişdir. Deyişmənin son mərhələsində o, bir neçə dodaqdəyməz təcnis söyləmiş və Aşıq Alı bu təcnislərə qabaq deyə bilmədiyinə görə, məğlub olmuşdur. Bu rəvayətindüzgün olub- olmaması haqqında dəqiq fikir söyləmək bir qədər çətindir. Lakin bir həqiqət inkare-dilməzdir ki, Aşıq Ələsgərin dodaqdəyməzləri təkrarolunmaz sənət nümunəsidir (6, s. 121). Ələsgərin "Çata-çat" dodaqdəyməz təcnisinə diqqət yetirsək, onun ustad sənətkarlığı bir daha təsdiqlənir:
El yeridi, yalqız qaldın səhrada,
Çək əstərin, çal şatığın çata-çat.
Hərcayılar səni saldı irağa
Həsrət əlin yar əlinə çata-çat.

Qışda dağlar ağ geyinər, yaz qara,
Sağ dəstinlə ağ kağıza yaz qara
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat.... (1, s. 180).
Bu misralarda aşıq nadan və hərcayıların fitnə- fəsadlarına görə yara həsrətindənvə təbiət təsvirindən sözaçır.
Ümumilikdə, Aşıq Ələsgər yaradıcılığnda insan həyatının, təbiət lövhələrinin bədii təsviri dolğun canlı dillə təsvir olunur, təmiz, saf duyğular tərənnüm olunur:
Axşam, sabah çeşmə sənin başında,
Bilirsənmi necə canlar dolanır?
Billur buxaq, alma yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır... (2, s. 65)
Yaxud "Düşdü" rədifli qoşmasında aşıq real kənd həyatını və kənd gözəlini poetik formada təsvir edir:

Çərçənbə günündə, çeçmə başında

Gözüm bir alagöz xanıma düşdü
Atdı müjgan oxun, keçdi sinəmdən
Nazı- qəmzələri qanıma düşdü.İ

İşarət eylədim dərdimi bildi
Həm çox gözəl idi, həm əhli dildi.
Başını buladı, gözündən güldü

Güləndə qadası canıma düşdü.

Ələsgərəm, hər elmdən halıyam
Gözəl, sən təbibsən, mən yaralıyam.
Dedi: "Nişanlıyam, özgə malıyam"
Sındı qol-qanadım yanıma düşdü... (1, s. 72).

Təqdirəlayiq haldır ki, 18 favral 2021- ci il tarixində Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustad Aşıq Ələsgərin anadan olmasının 200 illiyinin tamam olması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır. Sərəncama əsasən respublikamızın elm və tədris ocaqlarında mütəmadi olaraq tədbirlər keçirilməkdədir. Aşıq Ələsgər aşıq sənətinin ənənələrini poetik qəlib və modellər əsasında daha da zənginləşdirmiş, bu sənətdə "haqq aşığı" Ələsgər "sazı sinəsinə sıxıb bədahətən şeirlər deyər, həmsöhbət olduğu insanların fikrini oxuyar, baş verəcək hadisələri əvvəlcədən xəbər verərdi". Hətta el arasında Ələsgərə yuxuda badə verilməsi haqqında söz- söhbətlər isə bitib - tükənməz, xalq onu "haqq aşığı" çağırardı (7).

Aşıq Ələsgər yaradıcılığı təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında şifahi və yazılı ədəbiyyatın öyrənilməsi,el sənətkarlarının bədii irsinin tədqiqi baxımından da önəmlidir. Dədə Ələsgər yaradıcılığının əsas istiqamətlərinin dərindən araşrdırılması, aşıq sənəti ənənələrinin və ustad el sənətkarının poetik dünyasının sirlərinin mənimsənilməsi bütün türk dünyası üçün vacib və əhəmiyyətlidir.

ƏDƏBİYYAT:

1. Aşıqlar. (Tərtib edəni S.Axundov, red. H.Araslı). Bakı: Azərnəşr, 1957
2. Aşıq Ələsgər. Əsərləri, dastan-rəvayətlər, xatirələr. (Toplayıb tərt. edəni, ön sözün və qeydlərin müəllifi İslam Ələsgər). Bakı: Şərq-Qərb, 1999, 578 s.
3. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2002, 404 s.
4. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004, 312 s.
5. Paşayev S. Azərbaycan folkloru və aşıq yaradıcılığı. Bakı: Azərb. Dövlət Universiteti, 1989, 88 s.
6. Vəliyev V. Qaynar söz çeşməsi. Bakı: Yazıçı, 1981, 151 s.
7. İnternet resursları:
8. Aşıq Ələsgər möcüzəsi –Mədəniyyət qəz. / https//medeniyyet. Az.pape.news

Açar sözlər: Aşıq sənəti, Aşıq Ələsgər, poeziya, xalq yaradıcılığı, poetik təsəvvürlər, aşıq şeiri, klassik ədəbiyyat

Ключевые слова:Ашыгское творчество, Ашыг Алескер, поэзия, народное творчество, поэтические представления, ашыгский стих, классическая литература

Keywords:Ashig creativity, AshigAlaskar, poetry, folk art, poetic performances, ashig verse, classical literature

Göyçə aşıq məktəbinin zirvəsi - Aşıq Ələsgərin poetik dünyası

Xülasə

Göyçə aşıq sənətinin zirvəsi sayılan Aşıq Ələsgər aşıq poeziyazını daha da inkişaf etdirmiş, onu yeni ideya və sözün geniş deyim və məna çalarlarını aşıqlamış, müxtəlif şeir şəkillərində yüksək sənətkarlıq məharəti nümayiş etdirmişdir. Aşıq Ələsgər həm lirik şeirin yaradıcısı kimi danışıq dilinin zəngin poetik imkanlarını üzə çıxarmağa nail olmuş, həm də fitri istedadı ilə təbiət lirikasını, məhəbbət duyğularını fəlsəfi- didaktik şeilərində əhatə etmişdir.

Aşıq Ələsgər qoşmanın, gəraylının, təcnisin, müxəmməsin və onların müxtəlif tiplərinin yaradıcısıdır. Bu şeir şəkillərində aşığın real həyat lövhələri, zəmanədən şikayət motivləri, insanın ülvi hissləri, gözəllərin təsviri, vətənə bağlılıq, vətənin gözəlliklərinin təsviri və s. məharətlə təqdim olunmuşdur.

Aşıq Ələsgər həm özündən əvvəlki sənətkarların bədii yaradıcılığından bəhrələnmiş, həm də özündən sonra yetişən aşıqların sənət dünyasına təsir göstərmişdir. Onun yaradıcılığında Göyçə aşıq məktəbi yeni mərhələyə yüksəlmiş, aşıq sənəti realist ideyalarla daha da zənginləşmişdir.

Поэтический мир Ашыга Алескера-вершины Гекчинской ашыгской школы

Резюме

Ашыг Алескер, который считается вершиной ашыгского искусства Гейча, развил ашыгскую поэзию, осветил ее новыми идеями и широкими смысловыми оттенками, продемонстрировал высокое мастерство в различных формах поэзии. Как создатель лирической поэзии Ашыг Алескер сумел раскрыть богатый поэтический потенциал разговорной речи и своим врожденным талантом он охватил лиризм природы и чувства любви в своих философских и дидактических стихах.

Ашыг Алескер - создатель герайлы, таджниса, мухаммаса и различных их типов. В этих произведениях умело описаны реальные жизненные принципы ашыга, мотивы жалоб на время, возвышенные переживания человека, описание красот, привязанность к родине и т. д.

Ашыг Алескер извлек пользу из художественного творчества своих предшественников, а также оказал влияние на художественный мир ашыгов, выросшихпосле него. В его творчестве ашыгская школа Гейча вышла на новый этап, а ашыгское искусство обогатилось реалистическими идеями.

The poetic world of AshygAlasker-summits of the GokchiAshig school Summary

Summary

Ashig Alasgar, who is considered the pinnacle of the Ashig art of Goych, developed the Ashig poetry, illuminated it with new ideas and broad semantic shades, demonstrated high skill in various forms of poetry. As the creator of lyric poetry, AshigAlaskar was able to reveal the rich poetic potential of colloquial speech and with his innate talent he embraced the lyricism of nature and feelings of love in his philosophical and didactic poems. Ashig Alesker is the creator of gerayla, tajnis, muhammas and their various types. These works skillfully describe the real life principles of the ashig, the motives of complaints about the time, the sublime experiences of a person, the description of beauties, attachment to the homeland, etc.

Ashig Alesker benefited from the artistic creativity of his predecessors, and also influenced the artistic world of the Ashygs who grew up after him. In his work, the Ashig school of Goych entered a new stage, and the Ashig art was enriched with realistic ideas.

RƏYÇİ: dos. S.Abbasova

Jalə Cəbrayıl qızı Allahverdiyeva52

İngİlİs və AmerİKa ədəbİyyatında romantİzm

Giriş. "Romantizm" anlayışının tərifi. "Romantizm" sözü barokko, romantizm, simvolizm və s. kimi əlaqəli bədii sistemlərdə həyata keçirilən yaradıcılıq növünü müəyyən edə bilər. Romantizmin yüksək emosionallığı, ekzotik və fantastika kultu, reallığın dinamizmini, insan ehtiraslarının uyğunsuzluğunu çatdıran bədii vasitələrdən istifadəsi ilə seçilən bir üslub olması barədə geniş yayılmış fikir var.

Romantik dünyagörüşünün əsasında "romantik ikili dünya" – idealla reallıq arasında dərin uçurum hissi dayanır. Eyni zamanda, romantiklər klassiklərlə müqayisədə həm ideal, həm də reallığı yeni şəkildə başa düşürlər. Klassiklər üçün ideal konkretdir və həyata keçirmək üçün əlçatandır. Romantiklər üçün ideal əbədi, sonsuz, gözəl, mükəmməl, lakin sirli və çox vaxt əlçatmazdır. Gerçəklik isə əksinə keçicidir, məhduddur, konkretdir, və eybəcərdir.

Romantizm dünya mədəniyyətində xüsusilə 18-ci əsrin sonu - 19-cu əsrin birinci yarısında Avropada və Şimali Amerikada intensiv inkişaf edən ən mühüm istiqamətlərdən biri kimi görünür.

İngiltərə və Amerika romantizmindəki fərqlər. Amerika romantizminin milli xüsusiyyətlərini tədqiq edərkən çox vacib bir cəhəti nəzərə almaq lazımdır: onun Avropa ölkələrinin və hər şeydən əvvəl İngiltərənin romantizmi ilə qarşılıqlı əlaqəsi.

Amerika İngiltərə ilə tarixi, dili, mədəniyyəti ilə bağlı idi. İngilis ədəbiyyatı isə Amerika ədəbiyyatının formalaşmasına zəmin yaratmışdır. Burjua tərəqqisinin modeli kimi İngiltərə XIX əsrdə digər ölkələrlə müqayisə üçün etalon sayılırdı.

İngiltərə ilə Amerika arasındakı ictimai-siyasi fərq əsasən bu ölkələrdə romantizmin inkişafının xüsusiyyətlərini izah edir. İngiltərədə sənayenin inkişaf səviyyəsi və sinfi ziddiyyətlərin dərinliyi burjuaziya ilə proletariat arasındakı antaqonist münaqişəni kəskin şəkildə ortaya qoydu; ingilis cəmiyyətində feodal elementlər əsasən xarici ənənəvi forma kimi qorunub saxlanılırdı.

İngiltərədə romantizmin əsasları William Blake (1757-1827) tərəfindən qoyuldu, lakin daha geniş tanınmanı romantizm sonradan əldə etdi. William Wordsworth, Samuel Taylor Coleridge, Robert Southey, Scott-dan sonra məşhur ingilis şairləri Bayron və Shelley ədəbiyyata öz töhfəsini qoyurlar.

İngilis ədəbiyyatında romantik tarixçiliyin xarakteri çoxəsrlik inkişaf etmiş sivilizasiyanın və sabit ənənələrin mövcudluğu faktı ilə müəyyən edilirdi. İngilis romantikləri idealları keçmişdə tapmağa çalışırdılar. Burjua normalarının rədd edilməsi orta əsrlər, qotik dəyərlərin ideallaşdırılması ilə müşayiət olunurdu.

İngilis romantikləri sənaye tərəqqisinin mənfi tərəfini - sosial bərabərsizliyin dərinləşməsini görürdülər və tez-tez maşın sivilizasiyasının kəskin tənqidi ilə çıxış edirdilər (məsələn, dəmir yolunu qəbul etmirdilər). Amerikalı romantiklərin isə bu problemə ikimənalı yanaşması var idi. R.V.Emerson, 31 dekabr 1843-cü ildə Karlayla yazdığı məktubda dəmir yollarının tikintisinin meşələri məhv etdiyini və insanların məsafələri piyada keçmələrinin daha düzgün olduğunu qeyd etdi, lakin o, belə bir iddia ilə də çıxış etdi: "Bu, səyahətdəki sürətdir, şübhəsiz ki, geniş əraziləri ilə Amerika üçün çox əhəmiyyətli bir ixtiradır"7.

İngilislər üçün onların çoxəsrlik tarixi, amerikalılar üçün isə onların mədəniyyətinin formalaşması vacib idi. F.Engels yazırdı ki, Amerikada "yolunu kəsən heç bir orta əsr xarabalığı yoxdur" [4, s. 132]. Amerikanın gənc dövlət olaraq İngiltərə kimi tarixi və mədəni ənənələri olmadığından Amerikada romantik tarixçiliyin meyllərindən biri də milli adət-ənənələrin və tarixi birliklərin yetərsizliyi fikri oldu.

İngilis romantikləri mədəni irsdən milli-tarixi simvolları və obrazları artıq məlum, tanınmış, təsbit edilmiş şəkildə istifadə edirdilər; amerikan romantikləri isə ilk dəfə olaraq milli-tarixi obrazlar və simvollar yaratmalı, öz mifologiyasını yaratmalı oldular. Pionerlərin həyat həqiqətləri, hind əfsanələri, hind adları, həmçinin zəncilərin həyatı və zənci folklorunun motivləri milli obrazlılıq kimi çıxış edirdi. Amerika romantikləri keçmiş haqqında tarixi romanlar yaratmağa çalışırdılar.

Artıq uzun müddətdir ki, Avropa ölkələrində yayılan romantik hərəkat Amerikaya iyirmi illik gecikmə ilə gəldi. Romantizmin yaranması üçün ilkin şərtlər burada yalnız 1820-ci illərdə - böhran və qeyri-müəyyənlik, ümidlər və məyusluğun tarixi anında formalaşdı.

Romantizm ABŞ ədəbiyyatında Şimal və Cənub arasında vətəndaş müharibəsinə qədər aparıcı istiqamət olaraq qalırdı.

Bütün inkişafi boyu ABŞ-da romantizm müəyyən təkamül yolu keçmişdir. 19-cu əsrin 20-ci illərinin əvvəllərindən romantik yazıçıların böyük bir qrupu millətin yeni formalaşmış özünüdərkinin tələbatı olan orijinal Amerika ədəbiyyatının təşəbbüskarları kimi çıxış edirdilər.

ABŞ-da romantik nativizmin qabaqcılları Washington Irving və J.Fenimore Cooper idilər. Onilliyin sonunda milli ədəbiyyat artıq şübhəsiz nailiyyətləri ilə məşhurlaşırdı ki, onların arasında Washington Irving-in "Sketchbook" (1820), W.C. Bryant-ın "The poems", həmçinin J.Fenimore Cooper-in "Leatherstocking Tales" adlanan pentalogiyasının üç romanı - "The Pioneers" (1823), "The Last of the Mohicans" (1826), və "The Prairie" (1827) misal gətirmək olar.

Amerikalı romantiklərin çıxışları nə qədər tənqidi olsa da, əsərləri nə qədər faciəli olsa da, onlarda çox vaxtı Amerikaya və onun böyük imkanlarına inanclar əks olunur. "Eskizlər Kitabı"na (1819-1820) daxil edilmiş "Amerika haqqında İngilis yazıçılarının fikirləri" oçerkində V. İrvinq yazırdı ki, Amerika "dövlət xadimləri və mütəfəkkirlər üçün ibrətamiz və dərin mənalı bir dərs olan dünyanın ən böyük siyasi çevrilişlərindən birinin yenicə baş verdiyi bir ölkə idi" [8, s. 19].

Amerika romantizmində gülüş bəzən bir çox ingilis romantiklərinin əsərlərindəkindən daha sərbəst səslənirdi. Nümunə olaraq V. İrvinq və D. Rassel Louellin yumor və satirasını göstərmək olar. Tarixi inkişafi boyu canlı yumor və satira ilə seçilən

---

52 Odlar Yurdu Universiteti. A.jale888@mail.ru

ingilis ədəbiyyatında romantizm dövründə acı, qəzəb, nifrət və ümidsizlik hissləri üstünlük təşkil edirdi; satira, ironiya, sarkazm hələ də güclü idilər, lakin yumor və gülüş nisbətən boğuq səslənməyə başlayırdı. Bu, ümumi tendensiyadır, baxmayaraq ki, onunla üst-üstə düşməyən əsərlər var idi.
ABŞ romantiklərinin milli xarakter haqqında təsəvvürləri əsasən Adəm haqqında mifin şərhi ilə müəyyən edilirdi. C.Kuper "The Pathfinder" əsərində Natty Bampo personajının "günaha düşmədən əvvəl Adəmə bənzədilə biləcəyini" yazdı. Köhnə Dünyadan fərqli yeni sivilizasiyaya yol açan qəhrəman mühacirlər böyük imkanlar, naməlum macəralar və ümidverici nailiyyətlərlə üzləşmiş günahsız Adəmlə assosiasiya edilirdilər. Cəmiyyətdən kənarda yaşamağa başlayan və azadlığa alışmış pioner daha sonra sivilizasiya ilə qarşılaşır və bu qarşılaşma dramatik olur.
Natti Bamponun obrazı pionerlərin ən yaxşı cəhətlərinin təcəssümüdür və bu qəhrəman bütün real, dünyəvi görünüşü ilə müəllifin idealının ifadəsi idi! Ümumilikdə isə pionerlər icması fərdi prinsiplər üzərində qurulmuşdu. Şəxsiyyət özünü millət kimi hiss edir, öz daxilində icma fenomenini daşıyırdı. Əgər Avropa romantizmində müharibə edən tərəflərin qüvvələri faciəvi şəkildə qeyri-bərabər - tiran cəmiyyətə qarşı tənha insan idisə, ABŞ romantizmində ilahi mənbə daşıyan suveren şəxsiyyət, sanki, cəmiyyətin bərabər rəqibi idi.
Romantizmin xüsusiyyətlərindən biri də təbiət ünsürləri ilə insan varlığının daimi əlaqələndirilməsidir. İnsan və təbiətin, sənət və təbiətin vəhdətini H.V.Lonqfellov "Hiawatha mahnıları"nda gözəl çatdırıb.
ABŞ-da romantiklərin yaradıcılığında fərd və cəmiyyət arasındakı ziddiyyət daha çox fəlsəfi mənalı, mahiyyət etibarilə anti-burjua "insan və təbiət" mövzusu ilə ifadə olunur. ABŞ-ın romantikləri Amerikanın təbiəti ilə Amerikanın milli xarakteri arasında üzvi əlaqəni dərk edərək, öz ölkələrinin təbiətini sərbəst şəkildə təsvir edirdilər.
İrvinq İngiltərənin özlüyündə sənət əsərini xatırladan və mahiyyətcə təsvir üçün hazır predmet olan mənzərəli təbiətini qeyd edirdi. İngiltərənin təbiəti "şəkil" kimidir, "mədəni" təbiətdir, məskunlaşmış təbiət; Amerikada isə "vəhşi təbiətdir". Nathaniel Hawthorne yazırdı: "İngiltərənin ram təbiəti ilə Amerikanın vəhşi, barbar təbiəti arasında təsvirolunmaz fərq var". İngilis təbiətində "onun gözəl və mənzərəli yerləri panorama yaratmır, onları qiymətləndirmək üçün onlara diqqətlə və yaxından baxmaq lazımdır" [7, s. 134, 563].
İrvinq və Kuperin əsərlərindəki özünəməxsus Amerika mənzərəsi milli kimliyi təsdiqləyən vasitələrdən birinə çevrilir. Romantizmə xas olan təbiətə maraq ABŞ ədəbiyyatında onun lirik təsvirinə deyil, epik təsvirə cəlb edilməsində özünü göstərir. Mənzərə gənc ölkənin epik hekayəsində zəruri komponent kimi çıxış edir.
Təbiət təkcə romantik bir qəhrəmanın ruhunun təcəssümü kimi deyil, həm də insanın nəhəngə, pəhləvana çevrildiyi nəhəng, genişmiqyaslı, təbii mühit kimi çıxış edir.
Amerika Birləşmiş Ştatlarının romantiklərində panoramik mənzərədə əhəmiyyətli yer dəniz kimi ucsuz-bucaqsız meşələrə verilir. Bu görüntü Amerikanın geniş, kəşf edilməmiş ərazilərinin romantik simvolu kimi çıxış edir. Amerika qəhrəmanı tez-tez meşə fonunda təsvir olunur. Natti Bampo meşədə yaşayır, Thoreau-nun "Walden, or Life in the Woods" kitabının qəhrəmanı həyatın mənasını tapmaq üçün cəmiyyəti tərk edərək meşəyə gedir. Emerson öz "Təbiət" essesində yazırdı: "Meşələrdə əbədi gənclik yatır... Meşələrdə biz ağıl və imana qayıdırıq" [5, s. 181].
İngilis və Amerika ədəbiyyatında təbiətin romantik təsvirində dəniz mövzusu çox əhəmiyyətlidir. İngiltərə böyük dəniz qüvvələrinə malik idi; Amerikanın taleyi onun sahillərini yuyan iki okeandan ayrılmazdır. Lakin İngiltərənin və Amerikanın romantik ədəbiyyatında dəniz mövzusu eyni qaydada açıqlanmır. Bayron üçün dəniz azadlığın, azadlıq mübarizəsinin simvoludur ("Çayld Haroldun ziyarəti" poemasının dördüncü mahnısı, 1809-1817). Melvil üçün dəniz kainatın modeli, müasir həyatın simvoludur.
ABŞ yazıçıları təkcə insanla təbiətin vəhdətini deyil, həm də onların qarşıdurmasını göstəriblər. ABŞ-ın romantizmində, xüsusən də Kuperin yaradıcılığında təbiətin vəhşi qüvvələrinin təzahürlərinə maraq açıq şəkildə görünür. İnsan hər dəqiqə təhlükəyə məruz qalır. O, təkcə özünün deyil, başqalarının da həyatını xilas etməyə hazır olan qəhrəman olmalıdır. Təbiətin qüvvələrinə müqavimət göstərmək bir növ insan borcuna çevrilir.
Amerika romantizminin xüsusiyyətləri orijinal janrlar sistemində də özünü göstərdi. Romantik hekayə formaları üçün böyük əhəmiyyət kəsb edən 17-18-ci əsrlərdə ABŞ ədəbiyyatının inkişafında ümumiyyətlə mühüm rol oynayan "səyahət" janrı idi. Sanki o, Amerikanın mədəni və milli simasını kəşf edib təsbit edirdi, yeni torpaqlar axtarmaq ideyasını təsdiqləyirdi, pionerlərin əzmkarlığını və cəsarətini poetik şəkildə təsvir edirdi. 19-cu əsr ədəbiyyatında da "səyahət" süjet motivi təkmilləşir. Bir çox romantik roman və novellaların, hekayə və poemaların - İrvinq, Kuper, Lonqfellov, Po, Melvilin əsərlərinin quruluşu səyahətə, yeni yerlərə köçərkən macəralara əsaslanırdı. Sərhəd öz müstəsna şəraiti və yaşayış şəraitinin sərtliyi və kobudluğu ilə bir çox romantik mövzuların mənbəyi idi. Səyahət janrına folklor elementləri, əfsanələr, yumoristik hekayələr də daxildir.
ABŞ ədəbiyyatında səyahət janrı tez-tez avtobioqrafiya janrı ilə birləşib. 18-ci əsrdən bəri zənci müəlliflər tərəfindən yaradılmış avtobioqrafiya janrına səyahət də daxil idi. 19-cu əsrdə, romantizm dövründə o, "qul povesti" (slave narrative) adını aldı və özünəməxsus xüsusiyyətlər qazandı. ABŞ ədəbiyyatına xas olan bu janr Amerikanın sosial həyatının ən ağrılı məsələsinə birbaşa cavab idi [3, s. 19]. "Qaçaq qul Vilyam Qraymsın həyatı" (1825) kimi faktlara əsaslanan "qul povesti" azadlıq və insan ləyaqətinin axtarışı barədə romantik nağıl idi. Köləliyə Qarşı Etiraz Müstəqillik Bəyannaməsinin Prinsiplərinə olan optimist inamla uyğunlaşırdı.
Bir sıra Avropa ölkələrinin mədəni həyatında tənqidi realizmin hökm sürdüyü bir dövrdə mövcud olan Amerika romantizmi XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Avropa üçün xarakterik olan romantizm olaraq qala bilməzdi. Amerika ədəbiyyatında romantik və realistik başlanğıcların bir-birinə nüfuz etməsi, romantizmdən tənqidi realizmə keçidin, məsələn, V.Skottun yaradıcılığında daha əvvəl baş verdiyi ingilis ədəbiyyatından daha aydın və güclü idi. Təbii ki, bütün hallarda ro-

mantizm tənqidi realizmin mülkünə çevriləcək bir çox estetik prinsipləri əvvəlcədən müəyyən etmişdir. Amerika ədəbiyyatının sonrakı inkişafında da romantik başlanğıc öz əhəmiyyətini saxlayacaqdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Аникин Г.В.: Романтизм в США и Англии: некоторые аспекты сравнительного анализа. М., 1995, с. 118
2. Засурский Я.Н. Романтические традиции американской литературы XIX века и современность. М., 1964, с. 131.
3. Ирвинг В. Путевые очерки и картины. М., 1879, с 19.
4. Купер Д.Ф. Избр. соч., т. 2, с. 132
5. Николюкин А.: Эстетика американского романтизма, 1977. с. 181
6. https://en.wikipedia.org/wiki/American_literature
7. Hawthorne N. The English Notebooks. N. Y.; L., 1941, p. 134, 563
8. William K.J. They Also Spoke. Nashville, 1970, p. 234

Açar sözlər: romantizm, ikili dünya, barokko, simvolizm
Keywords: romanticism, dual world, baroque, symbolism
Ключевые слова: романтизм, двойной мир, барокко, символизм

Romantıcısm ın englısh and amerıcan lıterature

Abstract

The article discusses the meaning of the word "romanticism" as a literary direction and the history and evolution of romanticism in England and the United States. Romanticism is a style characterized by high emotionality, dynamism of reality and incompatibility of human passions. At the heart of the romantic worldview is "romantic double world" - a deep gap between ideal and reality. Romanticism seems to be one of the most significant trends in world culture, which developed especially intensively at the end of the 18th - the first half of the 19th century in Europe and North America.

The foundations of romanticism in England were laid by William Blake, but romanticism received recognition much later. After William Wordsworth, Samuel Taylor Coleridge, Robert Southey, and Scott, the famous English poets Byron and Shelley contributed to literature.

For a long time now, the romantic movement that has been spreading in European countries has come to America with a delay of twenty years.

By the end of the decade, national literature was already known for its undoubted achievements, including Washington Irving's "Sketchbook", W.C. Bryant's "The Poems", as well as three novels by

J. Fenimore Cooper in his pentalogy called "Leatherstocking Tales" - "The Pioneers", "The Last of the Mohicans", and "The Prairie".

Романтизм в Английской и Американской литературе

Резюме

В статье рассматривается значение слова «романтизм» как литературного направления, а также история и эволюция романтизма в Англии и США. Романтизм — стиль, характеризующийся высокой эмоциональностью, динамизмом реальности и несовместимостью человеческих страстей. В основе романтического мировоззрения лежит «романтический двойной мир» — глубокая пропасть между идеалом и действительностью. Романтизм представляется одним из наиболее значительных направлений мировой культуры, особенно интенсивно развившимся в конце XVIII - первой половине XIX века в Европе и Северной Америке.

Основы романтизма в Англии были заложены Уильямом Блейком, но признание романтизм получил гораздо позже. После Уильяма Вордсворта, Сэмюэля Тейлора Кольриджа, Роберта Саути и Скотта в литературу внесли свой вклад известные английские поэты Байрон и Шелли.

Первопроходцами романтического нативизма в США были Вашингтон Ирвинг и Дж. Фенимор Купер. К концу десятилетия национальная литература уже была известна своими несомненными достижениями, среди которых «Записная книжка» Вашингтона Ирвинга, «Стихотворения» У.К. Брайанта, а также три романа Дж. Фенимора Купера в пенталогии под названием «Пенталогия о Кожаном Чулке» — «Пионеры», «Последний из могикан» и «Прерия».

RƏYÇİ: dos.L.Ələkbərova

Məmmədova Svetlana Əliabbas qızı53

AZƏRBAYCAN NAĞILLARI SMOMPK MƏCMUƏSİNDƏ

Giriş.XIX əsrdə ümumən Azərbaycan folklorunun toplanması və nəşrində ən əsaslı mənbələrdən biri SMOMPK(Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza) məcmuəsidir. Əvvəllər təsadüfi təşəbbüslərə əsaslanan toplayıcılıq işi SMOMPK məcmuəsində artıq kütləvilik prinsipinə əsaslandı. Burada toplanan nağıllar rus dilində olsa da, tərcümə zamanı müəyyən qüsurlara yer verilsə də sonralar buradakı materiallardan bir çox məşhur yazıçıların kitablarında yer almışdır. Buna misal olaraq H.Zeynallının "Azərbaycan atalar sözü", "Azərbaycan tapmacaları", A.V.Baqrinin "Azərbaycanın və qonşu ölkələrin folkloru", A.V.Baqri və H.Zeynallının "Azərbaycan türk nağılları" kitablarını göstərə bilərik (6, 9). SMOMPK məcmuəsində ilk əvvəllər yazıya alınan ilk nümunələrlə sonrakı buraxılışlarda yazıya alınan nümunələr arasında müəyyən qədər fərq vardır. Bu fərq həm nağılların həcminə, həm də təhkiyə üslubuna görədir. Bunun səbəbi isə həm nağılları toplayanların qeyri-millət olmaları, həm də bu addımın ilk təşəbbüs olması idi.

SMOMPK məcmuəsini nəşr edən QafqazTədris Dairəsi İdarəsi folklor materiallarının toplanmasına xüsusi fikir vermişdir. Azərbaycan folklor örnəkləri toplunun əsasən aşağıdakı buraxılışlarında yer almışdır:

– İnanclar, sınamalar (5-ci, 17-ci, 20-ci buraxılışlar).

– Atalar sözləri və məsəllər (1-ci, 9-cu, 13-cü, 34-cü buraxılışlar).

– Tapmacalar (1-ci, 13-cü, 18-ci buraxılışlar).

– Əfsanə və rəvayətər (2-ci, 7-ci, 9-cu, 11-ci, 13-cü, 14- cü, 17-ci, 18-cü, 21-ci, 26-ci, 32-ci, 34-cü, 42-ci buraxılışlar).

– Bayatılar, ağılar, şikəstələr, laylalar, beşik nəğmələri, vəsfi-hallar, sayaçı nəğmələri, holavarlar (18-ci, 20-ci, 41-ci buraxılışlar).

– Lətifələr (9-cu, 26-ci, 29-cu buraxılışlar). – Aşıq şeirləri (2-ci, 13-cü, 41-ci, 42-ci buraxılışlar). – Dastanlar (13-cü, 19-cu buraxılışlar).

– Mərasim folkloru (9-cu, 18-ci buraxılışlar).

– Uşaq folkloru: laylalar, sanamalar, uşaq nəğmələri, şeirlər, uşaq oyunları, uşaq nağılları, heyvanlardan bəhs edən nağıllar (9-cu, 13-cü, 14-cü, 19-cu, 20-ci, 35-ci buraxılışlar).

– Xalq mahnıları (18-ci, 42-ci buraxılışlar).

– Sehrli nağıllar, məişət nağılları və heyvanlardan bəhs edən nağıllar (3-cü, 6-cı, 7-ci, 9-cu, 13-cü, 19-cu, 20-ci, 21-ci, 26-cı, 35-cı, 42-cı buraxılışlar) (6,7).

Təbii ki, burada toplanan materiallarla folklorumuz kifayətlənmir. Bu məcmuədə toplanan folklor materiallarının çoxluq hissəsini nağıllar, xüsusi ilə sehirli nağıllar təşkil edir.Azərbaycan şifahi xalq ədəbiyyatının epik növünün bir qolu olan nağıllar özündə arxaik təsəvvürlər sistemini saxlayır. Xalq yaradıcılığının məhsulu olan nağıllar özündə bir neçə spesifik xüsusiyyətləri birləşdirir. Prof.A.M.Nəbiyev yazır ki, "Sehirli nağıllar sehirli süjetlər üzərində qurulur, sehirli obrazlar burada əsas rol oynayır. Bütün sehirli nağıl qəhrəmanları son anda qarşılarına çıxan ən qorxunc qüvvələrə qalib gəlib məqsədə çatırlar. İnsanın kamalı, ağlı, dərrakəsi, yenilməzliyi və qorxmazlığı onun əlindən tutub irəliyə, məqsədə qovuşmağa doğru aparır. Lakin burada sehrkar qüvvələr qarşısında, əslində aciz qalan insana kömək edən də yenə insan əqli, onun qüdrətli fantaziyası, biliyin və kamalın qüdrətindən törəyən insan əməlidir" (2, 3).

Azərbaycan folklorunun toplanması və nəşrində əvəzsiz rolu olan SMOMPK məcmuəsi özündə bir sıra nöqsanları da əks etdirir.Bu haqqda Abbas Hacıyev yazır: "Burada nağılların tərcüməsi zamanı milli koloritə, dilin incəlik və sadəliyinə, ideya və məqsəd aydınlığına, forma bütövlüyünə fikir verilmirdi.Bayatı, sayaçı sözləri, tapmaca, nəğmə və məsəllərin tərcüməsi ilə yanaşı, onların orijinalları da veriliridi, nağılların isə yalnız tərcüməsi nəşr olunurdu. Bundan başqa, təhriflər nağıl toplayanların təcrübəsizliyindən, tərcüməçilik vərdişlərinin ya az, ya da heç olmamasından, müxtəlif zümrələrə mənsub olan adamların belə ciddi işə girişməsindən, senzuranın sərt tələblərindən, nağılların ictimai motivlərini günün tələblətinə uyğunlaşdırmaq meyllərindən irəli gəlirdi. Odur ki, məcmuədə gedən "Məlik Məmməd və Məlik Cümşüd", "Əvil Qasım və Əvil Məmməd", "Şah Rüstəm", "Şah Qəmbər", "Şah İsmayıl" nağılları yararsız hala salınmış, onlarda bir sıra epizodlar ixtisar edilmişdir"(7, 122-125).

Məcmuə yalnız zəngin janr və mövzu çeşidləri ilə əhatələnən folklor nümunələrindən ibarət olmayıb, bir sıra- Goranboy, Naxçıvan, Şəki, Qəbələ, Yelizavetpol, Bakı, Lənkəran, Şamaxıvə.s kimi bölgələrdən toplanan nümunələr ilə regionun tarixi-mədəni coğrafiyasını da əks etdirir. V.V.Propp qeyd edir ki, "Sehirli nağılların strukturunun öyrənilməsi bu nağılların öz arasında sıx qohumluğun olduğunu göstərir. Bu qohumluq o dərəcədə sıxdır ki, bir sujeti digərindən dəqiq ayırmaq mümkün olmur. Bu da öz növbəsində iki çox vacib nəticəyə gətirib çıxarır. Birincisi: heç bir sehirli sujet digərindən ayrı tədqiq oluna bilməz, ikincisi isə: heç bir sehirli nağıl motivi onu bütövlüyə münasibətdə öyrənmədən araşdırıla bilməz"(10, 19). Buna misal olaraq məcmuənin III buraxılışında Salahlı kənd müəllimi B.VeniaminovSalahlı kəndinin coğrafi, etnoqrafik təsvirini vermiş və orada "Məlik Məmməd və Məlik Cümşüd", "Avil Kasım və Avil Mamed" nağıllarını yazıya almışdır. "Avil Kasım və Avil Mamed" nağılının adı çox güman ki, "Əvil-Qasım və Əvil Məmməd"dir. Nağılın belə səhv adlanmasının səbəbi isə onun qeyri-azərbaycanlı tərəfindən toplanmasıdır. Nağılı oxuyarkən onun bir qədər Məlikməmməd nağılı ilə yaxından səsləşdiyini görürük. Ortaq cəhət kimi övladsızlıq motivini, alma yeməklə övlad əldə etmə motivini göstərə bilərik. Alma yeyərək övlad əldə etmə motivi, yəni, möcüzəli doğuluş motivi Azərbaycan xalq

---

53 AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, fil.f.d., dosent.

nağıllarına xas xüsusiyyət olmaqla yanaşı bir çox dünya xalqlarının folklorunda da rast gəlinən hadisədir. Nağılı oxuduqca burada baş verən hadisələrə digər nağıllarda rast gəldiyimizi görürük. Məsələn, nağılın bir hissəsində deyilir: "Nərman hirslənmiş halda özünü bilmədən baş götürüb getdi. Bu vaxt Əvil Qasım Nərmanın otağının qapısını açdı. Bu otaqda yel atı vardı. Əvil Qasım ata minib qızıl bulağa girdi, atı ilə bərabər özü də qızılla örtüldü. O elə bu halda Şah Mərdin vilayətinə yola düşdü. Əvil Qasım mənzilbaşına çathaçatda at dil açıb ondan təvəqqe etdi ki, onu sərbəst buraxsın. O onun quyruğundan bir neçə tük çəkib atı buraxanda dedi ki, nə vaxt onu çağırsa, o saat yanında hazır olsun" (6, 45). Bu mənzərəyə "Simurq quşu" nağılında, ruslarda isə «Сивко-Бурко» nağılında rast gəlirik.

VI buraxılışda biz A.Zaxarovun topladığı 10 Azərbaycan nağılına rast gəlirik. Məcmuənin bu sayında dərc olunan "Vicdanlı tacir və kələkbaz tacir", Taledən qaçmaq olmaz" adlı nağıllarda Allaha, taleyə inam əks olunur. N.Seyidov bunu belə izah edir: "Şamaxı məktəb müəllimi A.Zaxarov məcmuənin VI buraxılışında "Vicdanlı tacir və kələkbaz tacir" nağılını dərviş Mustafadan eşidib yazmışdır. Bu nağılda iki tacirinin necə qazanc əldə etməsindən danışılır. Göründüyü üzrə, nağılda iştirak edən əsas surətlərin hər ikisi yuxarı sinif nümayəndələridir. Mövzu isə tacirin dövlət qazanması məsələsidir. Tacirlərdən biri «Allah yolundan» uzaqlaşır, ikincisi isə «Allahın köməyi» ilə dövlət qazanır. Burada dinin təsiri özünü göstərir ki, bu da təsadüfi deyildir. Çünki nağılı söyləyən dərvişdir" (5, 55). "Vicdanlı tacir və kələkbaz tacir" nağılı rus dilində yazılsa da Azərbaycan dilində işlənən bəzi sözlər tərcümə olunmadan verilmişdir. «Allah», «Salam əleyküm», «Pərvərdigar», «şeytan», «üç aşıq»,«kişmiş» və s.

"Taledən qaçmaq olmaz" nağılında isə tale kitabında yoxsul çobanın xəstə qızı ilə evlənəcəyini öyrənən bir şəhzadədən bəhs olunur. İlk əvvəllər bu xəbərlə razılaşmayan şahzadə qızı öldürmək məqsədilə onun evinə gedir. Lakin qızı öldürmək əvəzinə sağaldır. Sağalan qız dönüb gözəllər gözəli bir qadın olur. Şahzadə daha sonra qızla ailə həyatı qurur. Tale kitabında yazılanların yerinə yetdiyini gördükdən sonra alın yazısına inanmağa başlayır. Nağılda dilimizə aid bəzi frologizmlər hərfi tərcümə olunmuşdur: «Царевич сидел на лошади шайтана»-«cin atına minmişdi», «Крепко держал за ворот рубашки старика»-«Qocanın yaxasından bərk yapışmışdı», « Прелестная, молодая девушка, которая будто говорила солнцу: « Ты не выходи, я уже вышла» - «Qız elə gözəl idi ki günə deyirdi sən çıxma, mən çıxım»(9, 90-93).

VI buraxılışa daxil olan "Zalım ögey ana" və ya "Zalım analıq" nağılı bir çox xalqlar arasında yayılmış məşhur bir nağıldır. Bu nağılın gedişatı müxtəlif xalqlarda fərqli məzmunda verilsə də sujet xətti demək olar ki, eyni olur. Sonda ögey ana məğlub olur, ögey qız nağılın sonunda düçar olduğu qaranlıqdan şah arvadı olaraq çıxır. Analıq və onun qızı isə məhv olur. Dünya xalqlarının folklorunda geniş yayılmış bu janrda adətən ögey qız obrazına sehirli qüvvələr tərəfindən kömək gəlir. Y.M.Meletinski belə vurğulayır: "Bu tip nağıllarda baş qəhrəman olan qovulmuş ögey qıza sehirli heyvanlar, gah da ananın hədiyyəsi olan və ya məzarının üstündə tapılan sehirli əşyalar köməkçi ola bilər- gözəl paltar, incə ayaqqabı və s. Kuklalar xüsusilə maraq doğurur, qız onları yedirtməli, kukla isə ona kömək etməlidir. Ümumiyyətlə, qovulmuş ögey qız motivi – sosial cəhətdən fağırı, kasıbı idealizə etmə formalarından biridir" (8, 161-212).

Buraya daxil olan "Şahsevənli Hacının iti" nağılı müzakirələrə səbəb olur. Tərcüməmətninin həcminin əvvəlki mətnlərdən dəfələrlə kiçik olması onun nağıl olub-olmaması haqqında ilk sualı yaradır. Tərcüməçi mətnin sonunda belə bir qeyd yazır: "Perevod s tatarskoqo". Bu yazını Səhər Orucova belə izah edir: "A.zaxarovun təqdim etdiyi "Şahsevənli Hacının iti" tərcümə mətni XIX əsrin böyük Azərbaycan şairi S.Ə.Şirvaninin hamıya yaxşı məlum olan, "Köpəyə ehsan" satira-mənzuməsi ilə tamamilə eynidir və bizə elə gəlir ki, A.Zsaxarov S.Ə.Şirvaninin bu mənzuməsini alaraqnəsr formasında rusca dəqiq tərcümə etmiş və buna görə də mətnin başlığından sonra belə bir qeyd etməli olmuşdur (11, 10).

SMOMPK məcmuəsinə daxil olan nağıllar digər millətlərin nümayəndələrinin dilindən yazıya alındığı üçün müəyyən təhriflərin olmağı qaçınılmazdır. Lakin bunu da qeyd etmək lazımdır ki, bizim ziyalılarımızda vaxtıilə nağıl toplamaqda çətinlik çəkmişdilər. Bu səbəbdəndir ki, Yusif Vəzir Çəmənzəminli "Nağıllarımızı necə toplamalı" adlı bir yazısında belə qeyd edir: "Nağılın xalq ədəbiyyatına məxsus olmasına baxamayaraq, xalqın hər bir fərdi onu bilmir. Əslən ona aşina olan şəxslər tək-təkdir. Bunları toplamaq və bunlara ehtiyatla yanaşmaq, nağıl toplayanın məharətinə bağlıdır. Ələksər nağıla və bütün xalq ədəbiyyatına vaqif olanlar arvadlardır. Arvadların da içində hamısı yox, yalnız xalqın işinə yarayan və onunla həmişə təmasda olanlar bilirlər. Xalqa yaxın olan məşşatələr, ağıçılar, yengələrdir. Ürkütmədən, təşvişə salmadan bunlara yanaşıldıqda böyük bir mənbə kəşf edilmiş olar" (1, 280-281). Y.V.Çəmənzəminlinin burada "ürkütmədən, təşvişə salmadan yanaşılmaq" deməyinin səbəbi budur ki, özünün də qeyd etdiyi kimi nağıl bilən əsas, aparıcı qüvvələr qadınlar idi və o dövrdəqadınlara naməhrəm kişilərin yaxınlaşması, onlarla həmsöhbət olması qeyri-mümkün idi.

SMOMPK məcmuəsinin VII buraxılışında məşhur nağıllardan biri olan "Ovçu Pirim" nağılı yer alır. A.Kalaşev tərəfindən toplanan bu nağılda baş qəhrəman Ovçu Pirimdən başqa ilanlar şahı, onun qızı, qızın sevgilisi, qurdlar, köpəklər, xoruz kimi köməkçi heyvan obrazları verilir. Nağılda ilanın şah olması, onun hətta tüpürcəyinin də sehirə malik olması "Ovçu Pirim" nağılının totemizm dövründən qaldığına işarədir. İlanla bağlı totemist görüşlərə başqa nağıllarda "İki ilanın nağılı", "İlanla Pərizadənin nağılı", "Gülzar və qara ilan" və s. rast gəlirik. SMOMPK məcmuəsinin XVII buraxılışında "Dünya dili" adlı ingiloy rəvayəti "Ovçu Pirim" ilə eyni məzmundadır.

Məcmuənin XIX – 1894-cü il buraxılışındabir sıra nağıllar vardır ki, onlar "erməni nağılları" başlığı altında çap olunmuşdur. Halbuki bu nağılların bəzisi bir neçə buraxılış bundan öncə Azərbaycan nağılları başlığı altında çap olunmuşdur. Bu nağıllara "Şahzadə və qurbağa", "Ana və qız", "Əvvəl nökər, sonra şah", "Rüstəm-Gül", "Xətrinə insan toxunanın Allah dadına çatar", "Nazlı və onun yeddi qardaşı", "Rüstəm və Fatma", "Mürgü-Güli-Xəndan quşu haqqında", "Qorxaq", "Div və şəhzadə" nağılları aiddir. A.Ağababayev tərəfindən toplanan və rus dilinə tərcümə olunan «О питце Мурги-Гюли-Хандан» nağılı fərqliliyi ilə seçilir. Bu nağıl Məlikməmmədin möcüzəli quşu axtarması ilə başlayır. O gülü

axtararkən bahadırlıq yuxusuna gedir. Burada diqqətimizi çəkən əsas məqam yuxuyagetmə motividir. Bu motiv əksər nağıl və dastanlarımıza xas olan xüsusiyyətdir. Yuxudan oyanan Məlikməmməd qarşısında böyük, bədheybət, qanadlı bir div görür. Yenə "Div" surəti nağıllarımızda geniş yayılmış, şər qüvvələrin təmsilçisi olan bir obrazdır. Sonda div Məlikməmmədə məğlub olur, ona tükündən bir qədər qoparıb verir ki, köməyə ehtiyacı olanbda tükü yandırsın və div dərhal gəlsin. Yuxarıda da qeyd etdiyimiz kimi tük yandırmaq da nağıllarımızda ənənəvi bir gedişatdır. "Simurq quşu" "Əvil-Qasım və Əvil Məmməd" nağılında da eyni mənzərə ilə qarşılaşırıq. Nağılın sonuna vardıqda bəzi hissələrin ənənəvidən fərqləndiyini görürük. Məsələn, Məlikməmməd şahla görüşdükdən sonra ona kömək edəcəyini söyləyir. Beləliklə, o, dənizdə insanları qırıb batıran polad əli sındırır. Polad əli sındıqdan sonra dənizdən çıxan quş cildinə girmiş Pəri qızı bu polad əlin içində divin canının yerləşdiyini söyləyir. Nağıllarımızda ənənəvi olaraq divin canı şüşənin içindəki quşda verilir. Prof.M.Təhmasib yazır ki, "Nağılda divin gəlməsinin göyün guruldaması, yerin titrəməsi, ildırım çaxması və s. ilə verilməsi bu əcaib sifətin günəşə düşmən olan təbiət hadisələri ilə nə qədər əlaqəli olduğunu göstərir. Daha doğrusu, bütün bunlar divin günəşə düşmən, təbiət hadisələrinin animizmə əsaslanan "insanlaşdırılmış", "canlandırılmış" bədii ifadəsindən ibarət əsatiri bir surət olduğunu sübut edir (3, 29).Burada isə divin canı polad əlin içində təsvir olunmuşdur. Başqa bir nümunə daha: Mürgü-Güli-Xəndan quşunu tapmaq üçün Məlikməmməd Çalağan kömək edir. Ənənəvi nağıllarımızda isə bu ya Zümrüd, ya da Simurq quşu olur. Bu nağılda Məlikməmməd Çalağanın balasını ilandan xilas edir. Ənənəvi nağıllarımızda ilan obrazının yerini əjdaha obrazı tutur. Belə fərqliliklərin olmasının səbəbi kimi nağıl yazıya alınarkən mətnin rus dilinə çevrilməsi zamanı yaranan çətinliyi misal göstərə bilərik.

SMOMPK məcmuəsində "Koroğlu", "Alı xan-Pəri xanım", "Şah İsmayıl", "Novruz" kimi nağıllara da rast gəlirik. Bu nağıllar bəzən dastan sujetləri ilə səsləşdiyi üçün dastanlarla səhv salınır. "Koroğlu", "Alı xan və Pəri xanım" nağılları dastan sujetləri ilə səsləşsə də, onlara dastan demək düzgün olmaz. Çünki dastanın özünəməxsus giriş və sohn hissələri mövcuddur. Belə ki, dastan ustadnamə ilə başlayır, duvaqqapma ilə bitir. Nağılların bəziləri isə qaravəlli ilə başlayır. SMOMPK məcmuəsində çap olunan bu nağıllarda isə bunların heç birinə rast gəlmirik.

İlk öncə Şah İsmayıl dastanına nəzər yetirək. Məcmuənin buraxılışlarında bəzi nağıllar əsasən nəsrlə təqdim olunmuş, sonra aralarına şeir parçaları verilmişdir. BU nağılda məcmuənin III buraxılışında Azərbaycan nağılı kimi, VII buraxılışında isə erməni nağılı kimi verilmişdir. Sözsüz ki hər ikisi arasında müəyyən fərqlər vardır. Lakin VII buraxılışdakı nağılı oxuduqca onun bizə məlum olan dastana daha yaxın olduğunu aydın görürük (11, 131-137). Şah İsmayıl" nağılında İsmayılın gözlərinin çıxarılması ayrı-ayrı variantlarda başqa cür təzahür edilib. Onun gözlərini bəzən qarğa, bəzən, məlaikələr, bəzən isə göyərçinlər sağaldır. Özündə bir neçə motivi- övladsızlıq motivini, alma yeyərək övladədəetmə motivini, gözəl qıza ovda rast gəlmə motivini, baş qəhrəmanın gözünün çıxarılması motivini və s. əks etdirməsi nəticəsində bu nağıl sonralar bir çox aşıqların repertuarında dastana çevrilmişdir.

SMOMPK məcmuəsində yer alan digər nağıllardan biri də "Alı xan" nağılıdır. Bu nağılda ənənəvi olaraq Hacı Səidin övlad arzusu ilə başlayır. Bunun üçün on dəfə Həcc ziyarətində olduqdan sonra bir gün məsciddən çıxarkən bir oğlan uşağı tapır və adını Tapdıq qoyur. Bu uşağı övladlığa götürdükdən sonra Hacı Səidin iki övladı dünyaya gəlir. Bir müddət keçdikdən sonra iki qarı Tapdığa sirrin üstün açır və ona Pəri ilə evlənib, Hacı Səidin var-dövlətinə yiyələnməyi söyləyirlər. Bu fikir Tapdığın beyninə batır və Hacı Səid Həccdə olarkən bu istəyini Pəri xanıma bildirir. Lakin Pəri xanım buna etiraz edib, onu itəliyəndə Tapdıq yaralanır. Bu zaman Hacı Səid Həccdən qayıdır. Qorxuya düşən Tapdıq Hacı Səidinqabağına gedərək Pəri xanım haqqında nalayiq sözlər, uydurma fikirlər söyləyir. Hacı Səid Tapdığa inanıb digər oğlu Əhmədə əmr edir ki, bacısı Pərini öldürsün.Əhmədin bacısına yazığı gəldiyi üçün onu öldürmür, əvəzinə bir keçi kəsib bacısının köynəyini onun qanına bulayır.Bundan sonra Alı xan adlı oğlan yuxuda badə içərək Pəri xanımı görür. Eyni yuxunu Pəri xanımda görür. Bunlar bir-birilərinə vurulur. Çox axtardıqdan sonra Alı xan Pəri xanımı tapır və evlənirlər. Sonda Pəri xanım atasının yanına gedir çıxır, əhvalatı olduğu kimi nəql edir. Tapdığın üstünə od töküb yandırırlar. Alı xanla Pəri xanıma isə toy edirlər (6, 45). Yuxarıda da qeyd etdiyimiz kimi SMOMPK məcmuəsində toplanan folklor nümunələri qeyri-millət nümayəndələri tərəfindən yazılmışdır. İlk dəfə olaraq toplunun 1892-ci ilində nəşr olunmuş 13-cü buraxılışında yer almış folklor nümunələri azərbaycan söyləyicilərinin dilindən toplanmışdır. Bu məcmuə sayəsində biz, burada toplanan folklor mətnlərinin bu günədək keçdiyi yolu, siyasi və iqtisadi mühitin ona etdiyi təsirləri də izləmək imaknı əldə edirik.Topluda erməni folklor materiallarına geniş yer verilmişsə də, "Erməni xalq filologiyası" adı altında təqdim edilən örnəklərin böyük əksəriyyəti Azərbaycan folklorunun müxtəlif janrlarını təmsil etməkdədir. Belə ki, toplunun 2-ci, 5-ci, 7-ci, 13-cü, 24-cü, 28-ci və s. buraxılışlarında erməni iqtibasçılığının, plagiatçılığının nə qədər uzun tarixi olduğunu göstərən faktlar vardır (6, 9).Bütün hallarda içərisində var olan nöqsanlara baxmayaraq SMOMPK məcmuəsi XIX əsrdə Azərbaycan nağıllarının ən çox nəşr edildiyi mənbə kimi əvəzsizdir.

ƏDƏBİYYAT

1. Çəmənzəminli Y.V. Əsərləri: 3cilddə. III cild. Bakı, Avrasiya Press, 2005, 439 s.
2. Nəbiyev A.M. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı, Elm, 2006, 648s
3. Təhmasib M.H. Məqalələr. Bakı, Elm, 2005, 218 s.
4. Orucova S. Azərbaycan Folklorunun toplanma, tərcümə və nəşr problemləri. (QƏXTMT-SMOMPK materialları əsasında). Bak, Elm və Təhsil, 2012, 535 s.
5. Seyidov N.X. Azərbaycan nağılları haqqında. // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. I kitab. Bakıp, Azərb SSR EA nəşriyyatı, 1961, s.52-118
6. SMOMPK: Azərbaycan folkloru materialları. Icild. Bakı, Elm və təhsil, 2018, 232 s.
7. Гаджиев А.М. Тифлисская литературная среда и азербайджанское устное народное творчество // Литературный Азердбайджан, 1966, №4, с.122-124
8. Мелетинский Е.М. Герой волшебной сказки. Москва, Издательсва восточной литературы, 1958, 263 с.
9. Народные сказки закавказских татар / собиратель Захаров А. // СМОМПК, VIвыпуск, Тифлис, 1888, II отдел, с 77-156.
10. Пропп В.Я. Исторические корни волшебной сказки. Ленинград, Издательсва ЛГУ, 1986, 365 с.
11. СМОМПК, VII выпуск, 1889

Xülasə

Məqalə XIX əsrdə SMOMPK məcmuəsinin müxtəlif nəşrlərində çap olunmuş Azərbaycan nağıllarının tədqiqinə həsr edilmişdir. Burada bu nağılların qısa xülasəsi, eləcə də tədqiq olunan nağıllarda rast gəlinən qeyri-adi doğuluş, kiçik qardaş, ögey ana, ögey qız motivləri verilir. Bu məcmuədə toplanmış folklor materialının əksəriyyətini nağıllar, xüsusən də sehirli nağıllar təşkil edir. SMOMPK məcmuəsində qeydə alınan ilk nümunələrlə sonrakı nəşrlərdə qeydə alınan nümunələr arasında müəyyən fərq var. Bu fərq həm nağılların uzunluğu, həm də təhkiyə üslubu ilə bağlıdır. SMOMPK toplusuna daxil olan nağıllar başqa xalqların dilində yazıldığından müəyyən təhriflər qaçınılmazdır. SMOMPK-da çap olunmuş bu folklor nümunələrindəki səhvlərin həm subyektiv, həm də obyektiv səbəbləri vardır.

Subyektiv səbəblər kimi məcmuənin nəşrində erməni və ermənipərəst rus ziyalılarının iştirakını, çox vaxt folklorumuzun ermənilər tərəfindən mənimsənilməsini, Azərbaycan xalqının həyatının, məişətinin təhrif edilməsini, Azərbaycan sözlərinin rus sözləri ilə əvəz olunmasını göstərə bilərik. Obyektiv səbəblər kimi isə toplayıcının qeyri-millət nümayəndəsi olması, söyləyicinin çox vaxt düz seçilməməsi, qeyri-dəqiq tərcümənin olması, folklorumuza qarşı nabələdliyi və s. göstərə bilərik.

Açar sözlər: SMOMPK, XIX əsr, nağıl, söyləyici, sehirli nağıllar, möcüzəli doğuluş motivi

Азербайджанские сказки в сборнике СМОМПК

РЕЗЮМЕ

Статья, посвящена исследованию Азербайджанских сказок, опубликованных в различных выпусках СМОМПК в XIX веке. Здесь дается краткое содержание этих сказок, а также говорится о мотивах необычного рождения, младшего брата, мачехи, падчерицы, встречающихся в изучаемых сказках. Большинство фольклерных материалов, собранных в этом сборнике, составляют сказки, особенно волшебные сказки. Есть некоторая разница между первыми образцами, записанными в сборнике СМОМПК, и образцами, записанными в более поздних изданиях. Это различие связано как с объемом сказок, так и со стилем повествования.Поскольку сказки, вошедшие в сборник СМОМПК, написаны на языке других народов, определенные искажения неизбежны.Существуют как субъективные, так и объективные причины ошибок в этих образцах фольклура, опубликованных в СМОМПК.

В качестве субъективных причин можно указать на участие в издании журнала армянской и проармянско-настроенной российской интеллигенции, нередко на присвоение армянами нашего фольклера, искажение быта азербайджанского народа, замену азербайджанских слов на Русские слова. Объективные причины в том, что собиратель не национальность, диктор часто выбран не правильно, есть неточный перевод.

Ключевые слова:СМОМПК, XIX века, сказки, сказитель, волшебные сказки, мотивы чудесного рождения.

Azerbaijani fairy tales in the SMOMPK collection

Summary

The article is devoted to the study of Azerbaijani fairy tales published in various editions of the SMOMPK in the XIX century. Here is a brief content of these tales, as well as the motives of unusual birth, little brother, step-motherand step-daughter found in the studied fairy tales. Most of the folklore material collected in this collection is fairy tales, especially magical tales. There is a difference between the first samples recorded in the SMOMPK collection and the samples recorded in later editions. This difference is due to both the length of the tales and the style of the story. Certain distortions are inevitable, as the tales included in the SMOMPK collection are written in the languages of other peoples. There are both subjective and objective reasons for the errors in these examples of folklore published in SMOMPK.

For subjective reasons, we can point to the participation of Armenian and pro-Armenian Russian intellectuals in the publication of the magazine, often the misappropriation of our folklore by Armenians, the distortion of the life of the Azerbaijani people, the replacement of Azerbaijani words with Russian words. The objective reasons are that the collector is a non-national, the speaker is often not chosen correctly, there is an inaccurate translation, he is not against our folklore and so on. we can show.

Keywords:SMOMPK, XIX century, fairy tale, storyteller, magic tales, miraculous birth motif.

RƏYÇİ: dos. S.Abbasova

Sonaxanım Qurban qızı İmamova54

AZƏRBAYCANIN BÖYÜK TARİXİ ŞƏXSİYYƏTİ, GÖRKƏMLİ İCTİMAİ XADİMİ VƏ ŞAİRİ ŞAH İSMAYIL XƏTAİNİN HƏYAT VƏ YARADICILIĞI

Ya bir yol seç, ya bir yol tap, ya da yoldan çəkil!
Şah İsmayıl Xətai

Giriş. Şah İsmayıl Xətai 1487-ci il iyun ayının 23-də Ərdəbil şəhərində anadan olmuşdur. Qızılbaşlıq adı ilə tanınan Səfəviyyə cərəyanı burada formalaşmış, Şərqin bir çox ölkələrinə yayılmışdır. Buraya inamla gələn sufilər, müridlər İsmayılın babası, Şeyx Cüneydə, atası Şeyx Heydərə arxa olmuş, onlara yeni bir dövlətin bünövrəsini qoymağa yaxından kömək etmişlər. Anası Aləmşah bəyim Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı idi. Lakin Ağqoyunluların Səfəvilərlə münasibəti sabit qalmır, Səfəvilərin günü-gündən artan qüdrəti onları qorxuya salırdı. Şeyx Heydər qəddarlıqla öldürülür, arvadı Aləmşah bəyim isə iki öğlu - İbrahim və balaca İsmayılla bərabər həbsxanaya salınır. Ağqoyunlu hökmdarı Sultan Yaqubun öldrülməsindən sonra hakimiyyət uğrunda gedən mübarizədə Rüstəm mirzə Səfəvilərdən istifadə etmək məqsədi ilə Şeyx Heydərin ailəsını həbsdən azad edir. Öz səhvlərini sonradan anlayan ağqoyunlular İsmayıl və ailəsini bir daha ələ keçirə bilmirlər. Şah İsmayıl Gilan hakimi Həsən xanın himayəsi altında Lələ Hüseyn bəy tərəfindən tərbiyə edilir, bir dövlət xadimi kimi yetişdirilir. Yeni qurulacaq dövlətin adının Səfəvilər olması İsmayılın ulu babalarından olan, el arasında Şeyx Səfi adlandırılan Şeyx Səfiəddin Ərdəbilinin (1252-1335) adından götürülmüşdür.

Əsas hissə. 1499-cu ildə İsmayıl və onun tərəfdarları hakimiyyəti ələ almağa qərar verirlər. Ağqoyunlular arasında hakimiyyət uğrunda gedən döyüşlər bunun üçün ən yaxşı şərait idi. İsmayıl və onun tərəfdarları bu əlverişli şəraiti dəyərləndirərək 70 nəfərdən ibarət bir dəstə ilə Ərdəbilə döğru hərəkət edirlər. Yolboyu onlara qacar, zülqədar, əfşar tayfalarından olan çoxlu adam qatılır. Onlar Ərdəbilə daxil olaraq, Şeyx Səfi məqbərəsini ziyarət edir, gələcək planları haqqında söhbətlər aparırlar. İsmayılın başçılıq etdiyi əsas dəstə Gəncə, Qarabağ və Göyçə gölü istiqamətində hərəkət edirlər. Qızılbaş dəstələrinin Ərzincana toplanması, İsmayılın tərəfdarlarının onun yanına axışıb gəlməsinə səbəb olur. 1500-cü ildə İsmayıl yeddi minlik ordu ilə Şirvanşah Fərrux Yasarın iyirmi min atlı, altı min piyada ordusu ilə Şamaxı yaxınlığında Cabanü düzündə qarşılaşır. Fərrux Yasar məğlub olur və Buğurd qalaçasına qaçmaq istəyir. O, yolda Lələ Hüseyn bəyin yaxın adamları tərəfindən tutulub öldürülür. Bu qələbədən sonra İsmayılın ordusu Bakı üzərinə yeriyir.

Orxan Əhmədov "Şah İsmayıl Xətai haqqında bir neçə söz" məqaləsində yazır:" Şirvanşahların paytaxtı Bakı şəhəri tutulmaqla yanaşı Şirvan xəzinəsi də ələ keçirilir. İsmayıl bundan sonra ordusu ilə Şamaxıya qayıdaraq Buğurd, Gülüstan və Surxab qalalarını ələ keçirməyə hazırlaşır. Gülüstan qalasının mühasirəsi zamanı Ağqoyunlu Əlvənd Mirzənin Culfaya hücum etmə xəbəri İsmayılı geri qayıtmağa vadar edir. Ağqoyunluların müxtəlif istiqamətlərdə hərəkət edən dəstələri qızılbaşlar tərəfindən məğlub edilir (1, s. 66-69).

Əlvənd Mirzə ilə İsmayıl arasında əsas döyüş Naxçıvan yaxınlığındakı Şərur düzündə baş verir. Əlvənd Mirzənin ordusunda Venesiyalıların köməyi ilə top və tüfənglərin olmasına baxmayaraq onlar məğlub olurlar. Əlvənd Mirzə kiçik bir dəstə ilə canını qurtarıb Ərzincana qaçır. Ağqoyunluların birinci qolunun məğlub olduğu bu şöhrətli qələbədən sonra İsmayıl Təbriz istiqamətində yol alır. 1501-ci ilin payızında Təbrizə daxil olan Ismayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olan Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. O, burada özünü şah elan edirək Səfəvilər dövlətinin əsasını qoyur, adına xütbə oxunur. Bir müddət sonra Şah İsmayıl Səfəvilər dövlətinin sərhədlərini genişləndirir. 1503-cü ildə Mazandaran, 1504-cü ildə Yəzd, Kirman, Fars, Kaşan, 1506-cı ildə Mərəş, Diyarbəkir, 1508-ci ildə Bağdad da daxil olmaqla bütün İraq Səfəvilər xanədanlığına qatılır. O, Bağdadda olduğu müddətdə ziyarətgahlara böyük qayğı göstərir, bir çox quldurluqla məşğul olan dəstələri məhv edir.

Bilindiyi kimi, Teymurilər dövründə Azərbaycanın bir çox elm və mədəniyyət xadimləri, sənətkarları Səmərqənd, Herat və Buxara şəhərlərinə sürgün edilmişdi. Səfəvilərin Şeybanilər üzərində qələbəsi onların övladlarının ata-baba yurdlarına qayıtmasına şərait yaratdı.

Şeybani xan Xorasan və Heratı işğal etdikdən sonra Şah İsmayıla təhqir və hədə-qorxularla dolu qərəzli məktublar göndərir. İki dəfə Şeybani xanın sarayına elçilər göndərərək münasibətləri qaydaya salmağa çalışan Şah İsmayıl bu alicənablığı qorxaqlıq kimi qiymətləndirən xanla dinc yolla əlaqələri qaydaya salmağın mükün olmadığını anlayır. Şah İsmayıl 1510-cu ildə Şeybani xana bir məktub yazıb, Məşhədə ziyarətə gəlməyə hazırlaşdığını bildirir və sürətlə Xorasan istiqamətində irəliləyir. Qızılbaşların bu ani yürüşünün xəbərini alan Şeybani xan Mərv qalasına sığınır. İsmayıl hərbi hiylə işlədərək geri qayıtmaq üçün ordusuna əmr verdiyinə Şeybaniləri inandırır. Qaladan çıxan Şeybani xan qəfil hücum edən qızılbaşlara məğlub olur və öldürülür. Xorasan və Heratdan başlamış Bədəxşan, Kabil və Qəndəhara qədər böyük bir ərazi Səfəvilərin hakimiyyətinə qatılır. Herat Səfəvilərin ikinci mühüm mərkəzinə çevrilir. İsmayılın oğlu Təhmasib Herat mərkəz olmaqla Mərkəzi Asiyaya vali təyin edilir.

"Səfəvilərin sürətli inkişafı, qısa bir müddətdə bölgənin ən güclü dövlətinə çevrilməsi, qızılbaş idealogiyasının qonşu dövlətlərin, eləcə də osmanlıların idarəsində olan ölkələrin əhalisi arasında geniş yayılmasına səbəb olur. Şah İsmayıl hələ Səfəvilərin ilk çağlarından Çaldıran döyüşünün başlanmasına qədər, Osmanlılarla ehtiyatla davranmışdır. Osmanlı sultanı Bəyazidin ilk əvvəl səfəvilərə düşmən münasibət bəsləməsinə baxmayaraq sonralar İsmayılla aralarında xoş münasibətlər yaranmışdır" (2, s. 4-18).

---

54 Azərbaycan Texniki Universiteti. Humanitar fənnlər" kafedrasının baş müəllimi. sonaxanum@mail.ru

Bu Osmanlıların 1504-cü ildə Səfəvilər dövlətini tanıması ilə sübut olunur. Bu dövrlərdə Trabzon hakimi olan Yavuz ləqəbli Səlim, Sultan Bəyazidin Şah İsmayılla münasibətinə xor baxırdı. Sultan Səlim 1512-ci ildə hakimiyyət başına keçən kimi ölkəsini daxilən möhkəmləndirməyə başladı. O geniş kütlənin etirazlarına baxmayaraq, qızılbaşların siyahısını tutdurub, qırx mindən çoxunu edam etdirib, ibrət almaq üçün bəzi qızılbaşlara qızmar dəmirlə damğa vurdurur. Bundan sonra isə din nümayəndələrini toplatdırıb qızılbaşlar əlehinə fitva verdirir. Bu hazırlıqdan sonra Sultan Səlimin iki yüz minlik əsgəri silah və ağır səhra topları ilə silahlanmış ordusu Səfəvilər üzərinə yürüşə başlayır (2, s. 14-18).

Çaldıran yaxınlığında düşərgə salan Osmanlı ordusu üzərinə gecənin qaranlıq çağında qəfil hücum etmək təklifinə Şah İsmayıl "mən karvan basan quldur deyiləm" cavabı ilə etiraz edir. Nəhayət günün aydınlanan vaxtında iki möhtəşəm türk ordusu qarşılaşır. Döyüş üç gün davam edir. Xüsusi rəşadət göstərən İsmayılın və sərkərdələrinin cəsarətlə vuruşmasına baxmayaraq döyüşdə osmanlılar qalib gəlir. Ağır yaralanan İsmayıl döyüş bölgəsindən uzaqlaşdırılır.

Çaldıran məğlubiyyətinin əsas səbəblərindən biri İsmayılın öz gücünə hədsiz inanması, özünü məğlubedilməz hesab etməsi, ağıllı məsləhətlərə qulaq asmaması və bir sıra taktiki səhvlərə yol verməsi ilə bağlıdır. Şah İsmayılın bu ilk məğlubiyyətinin ağır nəticələri tədricən özünü göstərir. Diyarbəkir, daha sonra Ərzincan Osmanlı torpaqlarına qatılır. Çaldıran məğlubiyyəti İsmayılı dərindən sarsıdır, bundan sonra o, bir daha özünə gələ bilmir. Çünki, bu məğlubiyyət adi bir məğlubiyyət deyildi. Bütün arzularının məhv olması demək idi.

Şah İsmayıl ölümündən bir qədər əvvəl yorğunluq hiss etdiyindən ova çıxmaq qərarına gəlir. Şəki mahalına gələn Şah İsmayıl Şahdağa ov etmək üçün hazırlaşdığında yerli adamlardan birinin yüksəkliyin onun sağlamlığına zərər gətirəcəyini bildirsə də, o buna əhəmiyyət vermir. Nəhayət ov zamanı onun səhhətində problemlər yaranır, özünü yaxşı hiss etməyən Şah İsmayıl dərhal Ərdəbilə qayıdır. Vəziyyətinin burada da yaxşılaşmaması ucbatından təcili Təbrizə yola düşürlər. Sərab yaxınlığında halı o qədər pisləşir ki, Manqutayda düşərgə salmalı olurlar. Bütün müdaxilələrə baxmayaraq hökmdarın həyatını xilas etmək mümkün olmur. Görkəmli dövlət xadimi 1524-cü ilin iyun ayının 23-də əbədiyyətə qovuşur. Sərkərdələri onun cəsədini Ərdəbilə gətirərək, babalarının yanında Şeyx Səfi məqbərəsində dəfn edirlər. Yerinə oğlu I Təhmasib keçdi.

Ömrünün 38 yaşında vəfat edən Şah İsmayıl Azərbaycanla bağlı arzularından və istəklərindən ayrılmalı olur. O, Azərbaycan - türk dilini dövlət dilinə çevirmiş, ölkənin siyasi, ictimai, iqtisadi və mədəni inkişafında inanılmaz dərəcədə böyük bir işlər görmüşdür. Azərbaycanın və İranın görkəmli dövlət xadimi, Səfəvilər Dövlətinin banisi və" Xətai" ləqəbi altında yazan tanınmış Azərbaycan şairi. Müasir Azərbaycanın milli dövlətçilik ənənələri məhz Azərbaycan dilini tarixdə ilk dəfə yeganə rəsmi dövlət dili səviyyəsinə yüksəldən Şah İsmayıldan başlanır.

Onun ölümü ilə bağlı qaynaqlarda belə bir qeyd vardır ki, Şah İsmayıl ölümündən bir qədər əvvəl ova çıxır. Şahdağda öz adamları ilə cərgə ovu təşkil edir. Ov şənliyi qurtarar-qurtarmaz o, ağır şəkildə xəstələnir və dərhal Ərdəbilə qayıdır. Burada da onun halı yaxşılaşmır. Tələsik Təbrizə yola düşürlər. Həkimlərin müalicəsi bir fayda vermir. Hökmdar şair 1524-cü ildə mayın 23-də vəfat edir. Cəsədini Ərdəbilə gətirib Şeyx Səfi türbəsinin yanında dəfn edirlər. . Şah İsmayıl az həyat sürməsinə baxmayaraq yalnız xeyirxah işlər görməyə can atmış, şərdən, pis əməllərdən uzaq bir insan olmuşdu.Şah İsmayıl Xətai 38 yaşında, həyatının, yaradıcılığının, arzularının ən qaynar bir çağında dünyadan köçür,yerinə oğlu I Təhmasib keçir. Şah İsmayılın yüksək hərbi istedadı haqqında K. Marks yazmışdır: «Səfəvilər xanədanının banisi Şah İsmayıl fateh idi. O, on dörd illik hakimiyyəti dövründə on dörd əyalət fəth etmişdir. Şah İsmayıl hələ uşaq yaşlarından şeir yazmağa başlamışdı. Şeirlərini elə aydın və nəsihətamiz tərzdə yazırdı ki, onu oxuyan hər bir kəs, hətta əhalinin ən savadsız təbəqəsi belə bu şeirləri oxuduqda nəsə öyrənir, özü üçün nəticə çıxarırdı. Xalqımızın görkəmli dövlət xadimi Şah İsmayıl ana dilinə hörmət edir və bu dildə yazan şairləri, ozonları sevir, onları himayə edirdi. Elə buna görə də, dilinə, vətəninə bağlı el şairləri, aşıqları da onu sevir və onun doğma dilinə, xalqına bağlılığını əsərlərində tərənnüm edirdilər. Şah İsmayıl Azərbaycan dilində təkcə gözəl şeirlərin, mükəmməl ədəbi abidə olan "Dəhnamə" ("On məktub") poemasının müəllifi deyildi. O, həm də dövlət fərmanları imzalayır və beləliklə, Azərbaycan dilini dövlət müstəvisinə, siyasi müstəviyə keçirmiş olurdu. O, yaxşı təhsil görmüşdü, şair və alimlərə himayədarlıq edirdi.

Şah İsmayılın öz xalqı qarşısında xidmətləri həm də ondan ibarətdir ki, o, Azərbaycan milli mədəniyyətinin inkişafı üçün əlverişli şərait yaratmışdır, onun hakimiyyətdə olduğu illər ölkənin orta əsrlər tarixində tərəqqi baxımından ən önəmli dövr sayılır. O, təkcə ana dilində yaradan şairləri, Azərbaycan alimlərini, incəsənət xadimlərini təşviq etmirdi, həm də bütövlükdə incəsənətin, elmin inkişafına himayədarlıq edirdi. Onun səyləri sayəsində Azərbaycan dili nəinki fars dilinin güclü təsirindən qurtardı, həm də sonrakı yüzilliklər boyu onu üstələdi. Elm, sənət xiridarı olan Şah İsmayılın sarayında yaradıcılıq üçün əlverişli şəraitdə, diqqət, qayğı, hörmətlə əhatə olunmuş mühitdə bir çox rəssam, istedadlı heykəltəraş, xəttat, musiqiçi yaşayırdı.

Nəticə. Beləliklə, Şah İsmayıl həmişə xalqının rifahı üçün çalışıb, qurduğu qüdrətli dövlətin daim çiçəklənməsi üçün əlindən gələni əsirgəməyib. Daima xalqın arasında olub və xalqının dərd-sərinə şərik olub. Hətta rəvayətə görə, Şah İsmayıl dərviş paltarı geyinib məmləkəti gəzib dolaşar və xalqın dərd-səri ilə maraqlanarmış. Şah İsmayılın apardığı müharibələr onun vahid Azərbaycan dövləti yaratmaq arzu və istəyindən irəli gəlirdi. O, Azərbaycan dilini dövlət və şeir dilinə çevirmiş, ölkənin siyasi, ictimai, iqtisadi və mədəni inkişafı üçün ölçüyəgəlməz dərəcədə bölük işlər görmüşdür.Abbasqulu Ağa Bakıxanov "Gülüstani İrəmdə" yazır: "… Hicri 930-cu ilin əvvəllərində (miladi 1524)… Şah İsmayıl vəfat etdi. O, mehribanlıqda dünyanı işıqlandıran və qəhrəmanlıqda düşməni yaxan, od məcazlı bir sultan idi (3, s. 116-123).

Qurmuş olduğu səltənətin mühüm işlərinə məşğul olmaqla yanaşı, Şah İsmayıl alimlərlə müsahib olub, şeir söyləməyə də macal tapırdı".Məs:

Qızıl gül, bağü bustanım, nə dersən?
Fəda olsun sənə canım, nə dersən?

Qərarü səbrü aramım tükəndi,
Kəsildi külli-fərmanım, nə dersən?

Əridi iliyim, qaldı sümüyüm,
Bu təni tərk edər canım, nə dersən?

Əgər yatsam min il torpaq içində
Dürüstdür əhdü peymanım, nə dersən?

Xətai can ilə çün səni sevdi,
Sevən ölsünmü, sultanım, nə dersən?

Azərbaycanda Xətai irsinin öyrənilməsi sovet hakimiyyəti illərindən başlanmışdır. Azərbaycanın tarixçi və ədəbiyyatşünas alimlərindən S. Mümtaz, H. Araslı, M. Quluzadə, Ə. Məmmədov, O. Əfəndiyev, M. Abbaslı kimi mütəxəssislərin bu yöndə apardıqları araşdırmalar və yürütdükləri mülahizələr xüsusilə diqqəti cəlb edir.

Ədəbiyyat:

1. Əhmədov O. "Şah İsmayıl Xətai haqqında bir neçə söz" Bakı, 2019 il səh: 66-69.
2 "Şah İsmayıl Xətainin həyat və yaradıcılığı" Abutruyent jurnalı. 2021 il səh:14-18.
3. Abbasqulu Ağa Bakıxanov "Gülüstani İrəm" 1878, səh: 116-123

Açar sözlər: Şah İsmayıl Xətai, Səfəvilər dövləti, şair, sərkərdə, inkişaf
Key words: Shah Ismail Khatai, Safavid state, poet, commander, development
Ключевые слова: шах Исмаил Хатаи, государство Сефевидов, поэт, полководец, развитие

About the great historical personality of azerbaijan, the life and creativity of the great public figure and poet shah Ismael Khatai

Summary

Shah Ismail Khatai is a great personality who left a deep mark on the history of Azerbaijan with his sword and pen. He laid the foundation for a single Azerbaijani state, raised the Azerbaijani language to the level of the state language, wrote lyrical and epic poems under the pseudonym khatai. Shah Ismail, a prominent statesman of our people, respects his mother tongue and loves and protects poets and ozons written in this language.

О великой исторической личности азербайджана, жизни и творчестве великого общественного деятеля и поэта Шаха Исмаила Хатая

Резюме

Шах Исмаил Хатаи – это великая личность, оста глубокий след в истории Азербайджана своим мечом и пером. Он заложил основу единого азербайджанского государства, поднял азербайджанский язык до уровня государственного, писал лирические и эпические стихотворения под псевдонимом Хатаи.
Шах Исмаил, видный государственный деятель нашего народа, уважает свой родной язык, любит и оберегает поэтов и озонов, написанных на этом языке.

Rəyçi: Mehdixanlı Kəmalə, filologiya üzrə fəlsəfə doktoru, dosent

Bağırova Tahirə Əbil qızı55

AŞIQ NABATIN SƏNƏT ŞƏCƏRƏSİ

Giriş.Azərbaycan aşıqlarının zəngin dastan repertuarı, yüz illər boyunca yaratdıqları poetik söz sərvəti, o cümlədən də aşıq şeirinin biçim və çeşid zənginliyi bu istiqamətə xüsusi diqqət yetirilməsini aşılayır. XX əsrin ilk onilliklərindən bu sənət elmi fəaliyyətin bir növü kimi diqqət mərkəzinə gətirilir. Bu aşıqların içində qadınların da rolu az deyil.

Aşıq Nabat 1914-cü ildə Şərur bölgəsinin Parçı kəndində anadan olmuş, anasını vaxtsız itirən aşıq, atasının və qardaşının himayəsində böyümüşdür. Gənclik illərində sevdiyi insanla ailə quraraq Dərələyəz elində yaşayan Nabat, cox keçmir ki, həyat yoldaşı ermənilər tərəfindən bir hücum nəticəsində öldürülür. Bu hadisə ilk dəfə ona seir yazmağa, söz söyləməyə səbəb olur:

Bilirsənmi, ay Ələyəz dağları,
Gəncliyimi səndə qoyub gəlmişəm
Əllərim xınalı,gözlərim yaşlı
Ilk eşqimi səndə qoyub gəlmişəm.

İyirmi yaşında dul qalan Nabat 1934-cü ildə Bərdə rayonuna qayıdır və orada məlahətli səsi ilə hər kəsin diqqətini cəlb edərək məclislərə gedir, şeirlər oxuyur. Burada məclisdə oxuduğu zaman Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musa ilə tanış olur, onunla birlikdə el məclislərində iştirak edə-edə saz-söz sənətinin sirlərinə dərindən yiyələnir. Ustad aşıqdan bir neçə xalq dastanı "Alı xan və Pəri xanım", "Abbas və Gülgəz", "Lətif şah", "Aşıq Qərib", "Leyli və Məcnun" dastanlarını öyrənir. Üç ildən sonra Aşıq Nabat 1937-ci ildə Yevlax şəhərinə köçərək, Borsulu Məzahirin aşıqlar dəstəsinə qoşulur.1938-ci ildə Aşıqların II qurultayına nümayəndə seçilir və beləliklə getdikcə ustad bir aşıq kimi tanımmağa başlayır.

1940-cı ilin may ayında Moskvada keçirilən ongünlükdə Azərbaycanın ədəbiyyat və incəsənət xadimlərindən – Aşıq Ələsgər Rzayev, Aşıq Teymur Hüseynov və Aşıq Nabat da var idi. Aşiq Nabat o günü belə xatırlayır: "Şair Səməd Vurğun yanımıza gəldi, repertuamızla maraqlandı. Sonra mənə 3 bəndli bir qoşma yazıb verdi və dedi: Aşıq Nabat bax xoşuna gəlsə,bu "Danışaq" qoşmasını Moskvada, Kremlin səhnəsində oxuyarsan"."Danışaq" şeirinə nəzər salaq:

Beləliklə Aşıq Nabat 26 yaşında olarkən xalq şairi Səməd Vurğunun ''Danışaq'' adlı qoşmasını ilk dəfə burada oxuyur. Bu səsin sorağı Kremlin səhnəsindən Azərbaycanın sədlərini aşmış olur. Aşıq Nabat Səməd Vurğunun sözlərindən xalqın alqışlarından güc alaraq özündə yeni şeirlər yazmaq həvəsinin baş verdiyini görür, şeir yazmağa marağı artır. Nabat deyir: "S.Vurğunun "Danışaq" qoşmasını tək qoymaq istəmirəm. Nabat öz "Danışaq" qoşmasını belə dilə gətirir.

"Əziz şair sən qələmlə mən sazla
Bu şad gündən xoş bahardan danışaq.
Min gül açıb Azərbaycan torpağı,
Tükənməyən arzulardan danışaq.
Gözəllikdə qənirsizdi bu diyar,
Sərvəti var, neməri var, varı var
Yurdumuzda əbədidir xoş bahar,
Aradakı düz ilqardan danışaq.
Gəz dağları, Muğana gəl, Milə gəl.
Telli sazım bəndə durma, zilə gəl.
Nabat deyər: Könlüm sən də dilə gəl,
Bu xoş gündə dostdan yardan danışaq."

Aşıq Nabat "Danışaq" adlı qoşmasını "irəvan çuxuru" saz havası üstündə oxuyur.Açıq Nabatın xalq şairi Səməd Vurğunla görüşü, onuin şeirini oxuması, "Danışaq№ qoşmasına cavab yazması ictimai aləmdə onun tanınmasına və şöhrət qazanmasına səbəb oldu.

Aşıq sənətinin çağdaş vəziyyətini, problemlərini elmi müstəvidə uğurla yaşadan görkəmli alim, professor, Əməkdar elm xadimi, Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı yazmışdı: "Aşıq sənətinin bədii-estetik enerjisi, onun mövcudluq, irəliyə daşınma gücü, potensiyası bütünlükdə xalqın etnomədəni sisteminin ümumi məzmunundan gəlir. Əski zamanlardan bu yana sənətin gəldiyi yol öz tarixi missiyası ilə xalqın iç dünyasını, tarixi dönəmlərini, istək və arzularını ifadəyə köklənmiş və zamanın keşməkeşlərini xalqla birgə addımlamışdır." (1.,4)

Şeirlərində Vətən mövzusu daha qabarıq vədolğun şəkildə əks olunmuş şair Budaq Təhməz aşığın keşmşkeşli həyatını əks etdirən "Aşıq Nabat" adlı lirik-romantik poema yazaraq kitabının da tərtibatçısı olmuşdur. A.Nabat şəxsiyyətinə və yaradıcılığına olan sevgisini poetik bir dildə, dərin məhəbbətlə əks etdirmişdir.Şairin diqqətini çəkən məqam isə Aşıq Nabatın vətənpərvərlik şeirləri idi. "Aşıq Nabat təkcə ifaçı aşıq olmamış, eyni zamanda, həm də yaradıcılıqla məşğul olmuşdur. Çox təəssüflər olsun ki, aşığın şeirləri sağlığında toplanmamış və çap olunmamışdır. İllər keçdikdən sonra Aşıq Nabatın 70 illiyi ərəfəsində gözəl ziyalı, qədirşünas insan olan AYB-nin üzvü, Məmməd Araz Mükafatı laureantı, şair-publisist Budaq Təhməz aşığın olduğu yerləri el-el, oba-oba gəzərək, böyük çətinliklər bahasına olsa da, onun irsinin çox kiçik bir hissəsini toplaya bilmişdir" (2)

---

55 AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, fil.f.d., dosent

Aşıq Nabatın şeirlərində yurd sevgisi, vətən həsrətli hisslər daha üstünlük təşkil edir. Bu da səbəbsiz deyil. Gənclik illərindən doğulduğu Şərur torpağından ayrı düşən bir aşıqdan bundan savayı, daha nə gözləmək olar ki.

Taleyin hökmüylə gələn qardaşlar,?
İtirmişəm, tapın ellərim mənim.
Çərxi-fələk saldı məni toruna,
Ağlamır, lal olub dillərim mənim.
"Yaxşıdır"
Qürbət eldə xan olunca,
Öz yerimdə qul yaxşıdır.

Şair öz ilhamının mayasını yalnız və yalnız Vətən torpağının qayasından, daşından, bərəkətli zəmisindən, coşqun suyundanalmışdır.Aşıq Nabat doğma elindən, obasından, Əyricəda-ğından, doğma Parçı kəndindən ayrılmasının səbəblərinibaşqa bir qoşmasında poetik bir dilləbeləmənalandırır.

İki gözüm, "Oğlan qala", "Qız qala",
Mən sizdən xəbərsizsizdən ayrıldım.
Ay Əyricədağım, a doğma Parçım,
Mən sizdən xəbərsizsizdən ayrıldım.
Üç gözəlin timsalıdır Siyaqut,
Arpa çayı, biri Sara, birintap?
Nuruyla bağlıdır qanlı hekayət,
Mən sizdən xəbərsizsizdən ayrıldım.
Nabat, yazda gəldim, düşdüm qışa mən
Qürbət eldədöndüm qərib quşa mən.
Qoymadılar gəzəm yarla qoşa mən,
Mən sizdənxəbərsizsizdən ayrıldım.

Nabat sanki bu qoşması ilənakam məhəbbətini əbədi-ləşdirir, ona bir söz abidəsi qoyur. O, doğma elindəqala bilmir çünki, qohum əqrabası onun müğənni olmasına, toylara getməsinəimkan vermir. Aşıq Nabat məcburiyyət qarşısında qalıb 1934-cü ildəmüğənnilər vəbəstəkarlar diyarı Qarabağa köçübgəlir...

O, bir müddət görkəmli müğənnilərimizdən Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov vətarzən Qurban Pirimovla bir yerdəmüğənnilik edir. 1937-ci ildə Yevlax şəhərinə köçür, burada Borsunlu Məzahirin aşıqlar dəstəsinə qoşulur. Sevdalı Həsən, Pərvanə Həsən, Aşıq Əsəd, Aşıq Saleh, Aşıq Teymur kimi gözəl aşıqlarla tanış olub, onlarla birlikdə Bərdə, Yevlax, Gəncə, Qazax, Göyçə digər bölgələrdə məclislərdə iştirak edərək mahir bir qadın aşığı kimi dillər əzbəri oldu. Aşıq Nabat getdikcə sənətdə püxtələşir.

"Aşıq sənətində yazıya almaya qədərki bütün dövrlərdə musiqini, şeiri, epik dastan yaradıcılığını, müxtəlif formalı xalq ədəbiyyatı nümunələrini yaddaşa həkk edib nəsil-nəsil yaşatmaq qanuna çevrildi. Bu, sənətin tələbindən doğan qanun idi. Çünki aşıq məclis aparanda xalq qarşısında saatlarla, bəzən bir neçə gün dalbadal çalıb oxumalı idi. Buna görə də istər-istəməz ifaçı aşıq ustadların yaratdığı yaxşı nə varsa əzbərdən bilməlidir. Aşığa bəzən məclislərdə bu və ya başqa şeiri, dastanı ifa etməyi sifariş verirlər. Aşıq bu sifarişi yerinə yetirə bilməsə, bir daha məclis keçirə bilməz. Mükəmməl qabiliyyətə, gözəl səsə və mahir ifaçılıq məharətinə malik olan sinədəftər ifaçı aşıqlara da ustad aşıq deyirlər. Hətta xalq onları canlı kitab adlandırır. Bu «canlı kitablar» yüzlərlə zəngin mündəricəli aşıq havalarını, çox mürəkkəb şəkilli aşıq şeirini, geniş məzmunlu dastanları, möhtəşəm «Koroğlu» eposunu bu günümüzə qədər yaşadıb gətiriblər" (3., 7).

Onun haqqında ön sözün müəllifi və toplayanı filologiya elmləri doktoru, professor Sədnik Paşa Pirsultanlı, redaktoru filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı,ilk dəfə "Aşıq Nabat" kitabı (2012) nəşr olunmuşdur ki, burada da aşığın tərcümeyi-halı, şeirləri və "Nabat və Musa" dastanı yer almışdır.

Kitabın girişində aşıq haqqında maraqlı qeydlər vardır. "Biz yazıda Nabatın şeirlərini misal gətirərək onu daha çox bütöv şəkildə verməyi məqsədəuyğun hesab edirik. Ondan ötrü ki, Nabatın şeirləri mətbuatda ilk dəfədir ki, geniş şəkildə işıq üzü görür. Nabatın yaradıcılığında Aşıq Bəstidə olduğu kimi, elə şeir nümunələrinə rast gəlirik ki, öz tipinə görə hansı şeir növünə daxil olduğunu çətin müəyyənləşdirmək olur. Lakin istər Bəstinin, istərsə də Nabatın qeyriadi görünən bu səpkili şeirləri deyim tərzinə görə çox oynaq və ürəyə yatımlı olur" (4., 15). Bu səpkili şeirlərdən bir nümunə:

Bilmirəm nəyə bənzədim,
Qəşəngsən, qəşəngsən, gözəl.
Oxşadıram, seçənmirəm,
Sən hansı çiçəksən, gözəl.
Yanaqların dağ laləsi,
Qıvrım saçlar qərənfildir.
Ceyran müşkün ondan alıb,
Gözlərin axar bulaq,
Dörd bir yanı dağ nanəsi,
Daşları boyun bağı,
Hər birin bir qızdan alıb.

Bulaqlar öz zümzüməsin,
Mən deyirəm sazdan alıb.

Aşıq Əsəd, Aşıq Musa, Borsunlu Məzahir, Pərvanə Həsən, Aşıq Teymur kimi ustadlar Nabat səsinə, sözünə vurğunluqlarını gizlətmirlər. Şirin ləhcəli ifasına və məlahətli məclis apardığına görə adını " Sona bülbül" qoyurlar. Aldığı təltiflər, mükafatlar, məclisiərdən yüksələn "əhsən" nidaları, alqışş sədaları onu zahiri bir təbəssüm bəxş etsə də əslində ilk gənclikgən sınan könül şüşəsi onun qəlbini qana döndərmiş bu yaralı göyərçini sazdan başqa ovudacaq bir şey yox idi.

Mən onu axtardım boranda-qarda?
Gözüm ağlar qaldı, canh intizarda,
Bir mənə söyləyin, görsəniz harda,
Çağırın, arayın yatan baxtımı.

Bəxtin, taleyin amansızlığı, Nabat könlündən qopan misralar:

Dörd bir yanım qaranlıqdı, adadı,
Fələk tutub qollarımdan budadı
Aman qoyma, o dəryada, sudadı,
Qərq olub dəryada batan baxtımı.

Aşıq Nabatın irsi ilə tanış olduqdan sonra belə qərara gəlirsən ki, onun yaradıcılığı xüsusi tədqiqata ehtiyac duyulur.

Ədəbiyyat

1. Məhərrəm Qasımlı, Mahmud Allahmanlı. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı, "Elm və təhsil", 2018, 220 səh.
2. Ələsgər Talıboğlu "Şərurdan başlanan yol:Aşıq Nabat kimdir?", https://strateq.az/edebiyyat/142575/s%C9%99rurdan-baslanan-yol.html , 15 Fevral, 2017.
3. QaraNamazov "Ustadaşıqlar…" 2015.- 7 may.- S.14.
4. Aşıq Nabat "Əldə xına gözdə yaş", Bakı 2012,

Xülasə

Ozan- aşıq sənəti Azərbaycanda ta qədimlərdən formalaşmağa başlamışdır. Aşıq sənəti –xalq mühitində yaranmış şifahi xalq yaradıcılığı musiqi formasıdır və təsir gücü, məşhur olması və kamilliyi baxımından analoqu olmayan bir təzahürdür. Bu, kiçik bir tamaşadır, burada musiqi, saz və müəllif-aşıq vəhdət təşkil edir.Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs, pantomima, teatr sənəti elementləri üzvi şəkildə birləşmişdir.Aşıq şeirinin janrları olan qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfilbəndlə yanaşı, qoşmanın təcnis, cığalı təcnis növlərindən ibarətdir. Tanınmış, görkəmli Azərbaycan aşıqlarından olan Aşıq Nabat da bu sənətdə öz sözünü demiş, sazla müşayiət etdiyi əsərlərlə qəlbləri fəth etmişdir.

Açar sözlər: ozan, aşıq, saz, söz, Nabat, aşıq havaları

Art genealogy of Ashig Nabat

SUMMARY

Ozan-ashug art has been formed in Azerbaijan since ancient times.Ashug art is a form of oral folk art created in the folk environment and is a unique manifestation in terms of influence, popularity and perfection. This is a small performance, where music, saz and author-ashug form a unity. In the art of ashug, the elements of music, poetry, prose, dance, pantomime, theatrical art are organically combined. In addition to the genres of ashug poetry, the couplet, gerayli, mukhammas, ustadname, locks, as well as the tajnis of the couplet, the jigali tajnis types. Ashig Nabat, one of the well-known Azerbaijani ashugs, also had his say in this art and conquered hearts with his musical accompaniment.

Keywords: Ozan, ashug, saz, soz, Nabat, ashug songs

Художественная генеалогия Ашига Набата

РЕЗЮМЕ

Озан-ашугское искусство формировалось в Азербайджане с древних времен.Ашугское искусство – это форма устного народного творчества, созданная в народной среде и являющаяся уникальным проявлением с точки зрения влияния, популярности и совершенства. Это небольшой спектакль, где музыка, саз и автор-ашуг составляют единство.В искусстве ашуга органично сочетаются элементы музыки, поэзии, прозы, танца, пантомимы, театрального искусства. Помимо жанров ашугской поэзии, двустишие, герайли, мухаммас, устаднаме, замки, а также таджны куплета, джигали тайнисные виды. Ашиг Набат, один из известных азербайджанских ашугов, также сказал свое слово в этом искусстве и покорил сердца своим музыкальным сопровождением.

Ключевые слова: озан, ашуг, саз, соз, набат, ашугские песни

RƏYÇİ: dos. L.Ələkbərova

Meybəliyeva Aybəniz Tələt qızı[56]

SOME ASPECTS OF DEVELOPING READING SKILLS

Due to the advent of foreign university, with their attractive courses and weight age which is given to the degrees of foreign university in the job market, importance of English has increased more than ever before.

Introduction of computer games and computer aided instruction, right from first standard are available in English medium schools. Hence more and more parents are attracted towards English medium schools. As a result majority of the children from middle class also learn in these schools and use English as their first language. Hence status of English is enhancing day by day.

We know it very well that teaching of any subject is a social and cultural activity. It is not so easy to teach any subject as it appears while teaching, a teacher has to keep in mind the aims and objectives of his subject. In other words we can say that teaching of any subject becomes much effective when the teacher is fully conscious of the aims and objectives of teaching of that subject. A good teacher thinks that his teaching should be effective. All of us know it very well that the basic principle of teaching is "know what you do and only do what you know ". Teaching requires certain directions. After all, success of teaching depends on the aims and objectives of teaching.

In teaching of English P.Gurrey writes "It is highly desirable to know exactly what one is hoping to achieve. If this can be clearly seen, then the best way of getting to work usually becomes evident. We ought, therefore, to consider carefully what we are trying to do when we are teaching English.

Many English as a second language. It is not always the medium of instruction for a majority of the students. It is an installment, a means for acquiring knowledge. The aim of teaching English is to help students to acquire practical command of English. - In other words, It means that students should be able to understand speak English, read and write English.

Attainment of a basic proficiency such as is required in natural language learning.

The development of language in to an instrument for abstract thought.

The teacher should keep in mind the aims of teaching English. The teacher should always emphasize on the aims of teaching of English. It will help to teach effectively. These objectives are to be set in line with the objectives mentioned in the syllabus guidelines of curriculum framework.

Objectives are delineated at two levels. At elementary level and. At secondary level.

Objectives of teaching English at Elementary level. Skill based subject , Hence at the Elementary level the objective of teaching English should be to develop all the four fundamental skills among them ie-LSRW Listening Speaking Reading and Writing.

This can be done by familiarizing the child with the spoken language by exposing them to the language in meaningful, interesting and real life situations through the mother tongue, signs, visuals, pictures, sketches, gestures, letters, words, single word questions and answers.

Slowly the exposure to the language should move- to enable them to read and write, besides listening and speaking. Hence the objectives of teaching English at Elementary level are to enable the students. To listen English with proper understanding To speak English correctly. Producing sounds with proper stress and intonation. To transform the silent written / printed language in to living speech. To enrich vocabulary through telling, re- telling, reading aloud. To read with ease. To follow the instructions given in the target language. To recite the small poems. To classify the words, nouns, action words, describing words adjectives, linkers. To write words simple meaningful sentences correctly.

Linguistics never differentiates between lower level and higher level objectives. It thinks all its four objectives - Listening, Speaking, Reading and Writing (LSRW) are to be realized at both the levels. To these linguistic objectives, literature adds two more. Creativity and Appreciation. These two objectives are purely higher level.

Linguistic and literary objectives are inter - linked with each other. They are not independent and inseparable from literature. It is true that literary objectives cannot be realised at the primary level. But we see that their seeds are sown in language teaching from elementary level that is from the very beginning.

Thus along with the attainment of basic proficiencies the development of abstract thoughts, creativity and appreciation must be the objectives of teaching English at secondary level.

An attempt is to be made to encourage the pupils in the two final years in a school to thus begin appreciation of literary forms of the English writings and the cultural enjoyment of the English language. The material thus presented should be suitably adapted to the needs of their course in a simple and suitable linguistic point of view.

At the close of school career an average pupil should be able to:

Understand and follow talks in English on general topics within the prescribed

vocabulary and sentence structures.

Talk freely within the range of language items and express suitably,

Read books and similar other material written in simplified English as per the

[56] *Bakı Dövlət Universiteti*

structures and vocabulary, and to follow easy books with detailed notes. This material should within their group.

Write correctly in English on familiar topics fit to be expressed within the range of the prescribed vocabulary and sentence structures.

Write creatively and independently on general topics.

Create wider reading interest.

Speak in a given situation (production skill) (fluency & accuracy in speaking & writing).

Develop study skill / reference skill.

Achieve greater proficiency.

These aims may also be described as reception and expression techniques. Reception means understanding spoken and written matter in a language like English, while expression stands for speaking and writing a language - English.

The Mechanics of Reading . Nature of Reading

In the context of language learning, reading means "reading and understanding". The general assumptions about the nature of reading are:

We need to read and decode individual letters in order to read words particularly at the early stages of reading. But if the context is clear, even partially illegible writing can be understood.

We do not necessarily need to read every word accurately in order to understand a text. We need to read enough words to understand the main meanings of the text, and can skip or pay less attention to ones that repeat previous information or are redundant.

If we understand all the words in a text, we are likely to understand the text, but we also need to have some previous knowledge of the subject matter and text-type. When reading a text, we use information given by the words interacting with our own world knowledge in order to access the meaning.

The more clearly the words are linked together to make coherent sense-units (phrases, sentences) and the more clearly sentences are linked together to make coherent paragraphs the easier the text will be to read.

However, to begin reading the learners of English must be aware of phonemes. Many beginner learners of English have to learn a totally new writing system very different from their LI.It is therefore useful to work on phonemic awareness. Learners are encouraged to hear and differentiate between the different sounds or phonemes of English which they will need to match with the letters or letter combinations that represent them. Various kinds of oral exercises are used to enable learners to listen to sounds and do various identification tasks.

Fluent Reading:

Once the learners have mastered basic reading comprehension, they move on to more sophisticated texts and tasks quickly, appropriately and skilfully. They are able to access the meaning of a text successfully and rapidly with minimum hesitation. Though a large "sight" vocabulary (lexical items the learner identifies and understands at a glance) is a primary requirement, learners also need plenty of successful reading experience through a wide range of texts read for a variety of purposes in order to foster fluent reading.

Characteristics of Fluent reading:

1. Language Level: The text is easy enough to be comprehensible to learners. Learners must be aware of 95 to 98%of the words from the text chosen for reading practice.
2. Content: The topic is accessible to learners. They know enough about it to be able to apply their own background knowledge. Pre-reading strategies or introductory texts can help prepare learners for the reading activity if they are unfamiliar with the content.
Proqramda, birinci gün və bütün dövr ərzində tələbələrə xatırladın ki, onlar kağız üzərində özlərini ifadə etmək üçün əllərindən gələni etməlidirlər. İfadələrinizi həqiqətən nəzərdə tutduğunuzu göstərən erkən tapşırıqlar haqqında şərhlərlə dəstəkləyin çünki tələbələriniz cavab verəcəklər. Dərslərinizdə mütəmadi olaraq qısa yazı işləri təyin edin. Mühazirə kursunun sürətini dəyişmək üçün tələbələrdən dərs zamanı bir neçə dəqiqə yazmağı xahiş edin. Sinifdaxili yazı, kənar yazı tapşırıqları və açıq suallarla imtahanların bir qədər qarışığı tələbələrə bacarıqlarını artırmaq üçün lazım olan təcrübəni verəcəkdir. Yazı prosesi boyunca təlimat verin. Tapşırığı etdikdən sonra konturların və qeydlərin dəyərini müzakirə edin, mövzunu necə seçmək və qısaltmağı izah edin, ilk layihəni müzakirə edin, plagiatı da müəyyənləşdirin. Tələbələrinizin hər yazısını oxumaq və qiymətləndirmək məcburiyyətində olduğunuzu hiss etməyin. Şagirdlərdən dərs zamanı bir-birlərinin işlərini təhlil etmələrini və ya kiçik qruplarda işlərini müzakirə etmələrini xahiş edin. Şagirdlər qiymət almaq üçün deyil, daha aydın düşünmək üçün yazdıqlarını öyrənəcəklər. Nəzərə alın ki, siz tələbələrin sənədlərini toplaya və onların işlərini gözdən keçirə bilərsiniz. Yazının tələbələrə mövzu haqqında daha çox məlumat əldə etməsinə kömək edə biləcəyi yollarla bağlı

[59] BSU

fikirlər toplayın. Təlimatların hazırlanmasını təmin etmək üçün intizamınıza kifayət qədər marağın olub olmadığına baxın. Tələbələr onlara müəyyən bir kurs və ya müəyyən bir fənn sahəsi üzrə sənədlərin necə yazılması barədə xüsusi təlimatlar verən paylama materiallarını müsbət qarşılayacaqlar. (3, 35-41)

Yaxşı yazı təcrübə və adekvat rəy tələb edir ki, bir çox müəllimlər bunu vurğulayır. Əslində, tələbələrəseçmə fənlər təklifedilə bilər. Seçim verildikdə, yazı təcrübəsinə ehtiyacı olan tələbələr yazı tələb etməyən fənləri seçirlər. Bundan əlavə, tələbələr nadir hallarda öz yazılarının keyfiyyətini qiymətləndirə bilirlər; adətən onlara işlərini necə qiymətləndirmək öyrədilmir və müəllimlərin onu qiymətləndirmək üçün istifadə etdikləri meyarlardan xəbərsizdirlər. Ona görə də kollec professorlarının gözləntilərini nəzərə almadan tələbələrin yazı problemlərini başa düşmək mümkün deyil (2, 21). İstər universitetdə, istərsə də kollecdə hər bir professor, tələbələrin savadlı olmasını gözləyir, çünki hər bir tələbənin artıq bu səviyyədə inkişafını güman edilir. Bəzi professorlar yazmağı öyrətməkdən uzaqlaşan tendensiya ilə bağlı problemi həll edirlər. Bəstəkarlıq müəllimi Mayls, J. deyir: "Biz bilirik ki, yaxşı yazmaq, yaxşı düşünmək kimi, "birdəfəlik" öyrədilə bilməz, bu, üzgüçülük kimi sadə bir bacarıq deyil; həqiqətən də, hətta üzgüçü də daha yaxşı və lap yaxşı olmaq üçün məşq edir" (3,88-89). Düşünmək ən mürəkkəb qabiliyyətlərdən biridir və yazmaq bunun sübutudur. Beləliklə, tələbələr üçüncü sinifdən səkkizinci sinifə, onuncu sinifdən ali məktəbə, kollec və ondan kənarda və fənndən fənnə bir çox mərhələdə yazı ilə bağlı köməyə ehtiyac duyurlar. Hər dəfə yeni düşüncə mərhələsi və yeni mövzu ortaya çıxdıqda, tələbələrin toplanmış qabiliyyətləri yeni materiala şüurlu şəkildə hərtərəfli uyğunlaşma tələb edir.

Digər tərəfdən, tələbələrin yazı yazarkən qarşıya qoyduğu bir çox problemlər var (4,76-79). Yazmaqda çətinlik çəkən şəxsdə aşağıdakı problemlərdən biri və ya bir neçəsi ola bilər:

Zəif əl yazısı/məntiqsiz yazı

Yazı vərəqindəki xətləri nəzərə almamaq
Çox kiçik və ya çox böyük yazmaq
Çox sadə və ya çox dolaşıq yazmaq
Yazılara vizual olaraq nəzər salmamaq
Hərfləri və ya rəqəmləri arxaya və ya tərs yazmaq
Böyük və kiçik hərfləri uyğun olmayan şəkildə qarışdırmaq

Zəif orfoqrafiya bacarıqları

Fonetik yazmaq və nümunələri bilməmək
Eyni sənəddə sözləri fərqli yazmaq
Orfoqrafiyada hərfləri tərsinə çevirmək

Çap edilmiş vərəqdə işi köçürmək və ya tamamlamaqda çətinlik

Lövhədən surət çıxarmaqda çətinlik çəkmək
Kitabdan və ya digər çap materialından köçürməkdə çətinlik çəkmək
Doldurulmuş boş iş vərəqlərini doldurmaqda çətinlik çəkmək

Uğurlu yazı öyrənənlər yazı istehsalına nəzarət etmək üçün zehni prosedurlardan istifadə edirlər. Biz bu zehni prosedurları yazı strategiyaları, texnikaları və ya yolları adlandırırıq. Beləliklə, bu cür yazı strategiyaları yazmaq haqqında düşünülmüş, diqqətli düşünmə və yaratma üsullarıdır. Şəraitdən asılı olaraq müəllim aşağıdakıları nəzərdə tuta bilər:

-şagirdlərin yazıları yaxşı düşünülməmişdir; onun aydın şəkildə təşkil edilməməsi;

- onun yaxşı sənədləşdirilməməsi və ya daha ətraflı və ya sübuta ehtiyacı olması; daha yaxşı redaktə edilməli olduğunu;

- daha uyğun bir tona ehtiyacı olduğunu; onun yazıldığı vəziyyətə daha yaxşı uyğunlaşdırılmalı olduğunu və ya sadəcə olaraq nə məna kəsb etməsindən asılı olmayaraq, onun "daha aydın" olması lazımdır (2, 23-28).

Tələbələrimizin müəllimlərin gzləntilərini qarşılayacaq qədər yaxşı yaza bilməməsinin səbəbləri çox və müxtəlifdir. Tələbələr məktəb təhsilindən sonra onlara tanış olmayan konvensiyalarla yeni janrlar yazmalıdırlar; konseptuallaşdırmaq çətin olan çoxsaylı auditoriya ilə məşğul olmalıdırlar; və onlar sənədlərin müxtəlif təşkilatlar və seçki dairələri arasında yayılma yolları və bu qrupların üzvlərinin sənədlərin tərtib edilməsinə töhfə vermə üsulları ilə üzləşməlidirlər. Bunun üçün onların yazı bacarıqları yaxşı olmalıdır.

Tələbənin ingiliscə yazı bacarıqlarınızı təkmilləşdirməyə kömək edəcək bəzi məsləhətlər:

1. *Bacardığınız qədər oxuyun* Dinləmənin danışma ilə sıx əlaqəli olduğunu söylədiyimiz kimi, oxumaq da yazı ilə sıx bağlıdır, ona görə də ingilis dilini yaxşılaşdırmaq üçün 1 nömrəli məsləhətimiz bacardıqca çox oxumaq olacaq!Bu, lüğətinizi, qrammatikanızı, cümlə quruluşunuzu təkmilləşdirməyə kömək edəcək və sizə fikirlərini çatdırmaq üçün bir çox müxtəlif yollar olduğunu göstərəcək.

2. *İngilis dili lüğətdən istifadəedin* Mənalarını aydınlaşdırmaq üçün sözlərə baxa və söz və ya ifadələri təkrarlamamaq üçün antonim və sinonimləri öyrənə biləcəksiniz ki, bu da ünsiyyət bacarıqlarınızı yaxşılaşdıracaq.

3. *Qrammatikanızı təkmilləşdirin* Qrammatikanı "öyrənməyə" ehtiyacınız olmasa da, qrammatika məşqləri üzərində işləsəniz, ingiliscə yazınız çox yaxşılaşacaq.Həm də unutmayın ki, qrammatika yazdığınız zaman danışdığınız zamandan daha vacibdir, çünki o, adətən daha formal və strukturlaşdırılmışdır.

4. *Yazmadan əvvəl və sonra orfoqrafiyanızı yoxlayın* Öz dilinizdə orfoqrafik səhvlərlə dolu bir şey oxuyanda necə hiss edirsiniz?Zəif orfoqrafiya oxumaq üçün maraqlı əsəri korlaya bilər və biz ümumiyyətlə yazdıqlarımızı başqalarının oxuması üçün yazırıq.

5. *İngilis dilində gündəlik tutun* Yazmağı gündəlik fəaliyyətə çevirmək üçün hər gün yazmağa davmedin.Bundan əlavə, siz "özünüzə yazırsınız" ki, bu da sizi azad və məmnun hiss etdirə bilər.Mürəkkəb cümlələr yazmağa ehtiyac yoxdur: onları istədiyiniz qədər sadə saxlaya bilərsiniz.
6. *Əsas cümlələrinizi daha mürəkkəb cümlələrə necə çevirməyi öyrənin* İngilis dilində beş əsas cümlə quruluşu var:
Subject – Verb (John studies; My friend is playing)
Subject – **Verb** – **Object** (I like apples; Mary reads novels)
Subject –**Verb** – **Adjective** (Jenny is happy; Linda is pretty)
Subject – **Verb** – **Adverb** (She speaks fluently; These flowers are everywhere)
Subject – **Verb** – **Noun** (My father was a chemist, You are a student)
7. *Paraqrafı necə təşkil etməyi öyrənin* İngilis dilində yazı bacarıqlarınızı təkmilləşdirməyin faydalı yolu, abzaslarınızı mövzu cümləsi ilə başlamaqdır: yəni nə haqqında yazacağınızı izah edən cümlə.Dəstəkləyici cümlələrlə davam edin: yəni mövzu haqqında daha çox məlumat verən cümlələr.Nəticə ilə bitirin: yəni ümumiyyətlə paraqrafin mətnində işlənmiş fikirlərin xülasəsidir.Səlis mətn mətni yaratmaq üçün fikirlər arasında əlaqələri siqnal etmək üçün paraqraflar arasında keçidlər etməyi öyrənin.
8. *Outline yazın* Çox sadə bir ingilis dilində yazıda belə, istədiyiniz mesajı aydın nizamlı şəkildə çatdırmaq üçün bir növ qeyd saxlamalısınız.Konturları yazmağın bir çox müxtəlif yolları var və bunların zehninizdəki şeyləri təşkil etməyinizlə çox əlaqəsi var.
9. *Yazdıqlarınızı kiminsə oxumasını təmin etməyə çalışın* Müəllim, repetitor, dil daşıyıcısı: dili mükəmməl bilən və həm qrammatika, həm də orfoqrafiya və abzas mətninizin təşkili ilə bağlı yol verdiyiniz səhvləri başa düşmək və düzəltməkdə sizə kömək edə bilən şəxs. İngilis dilində yazmaq həqiqətən dərhal əldə edə biləcəyiniz bir şey deyil, ancaq ağır, səmərəli iş və tədricən təkmilləşdirmə ilə mütləq ora çatmalısınız.Çox sadə cümlələr yazmağa başlayın və sonra daha mürəkkəb parçalar yazmaq üçün şans əldə edin. (1, 102-111)

Yuxarıda qeyd edilən məsləhətlərə diqqət yetirməklə yazı bacarıqlarını təkmilləşdərə bilərsiniz.

Ədəbiyyat

1. Bryan, L. H. Cooperative writing groups in community college. Journal of Adolescent & Adult Literacy, 40(3), 1996.
2. Cunningham, P., Hall, D., & Cunningham, J. Writing the four blocks way. Orlando, FL.2003.
3. Richards J. New Trends in the Teaching of Writing in ESL/ EFL.-California: Foreign Language Teaching and Research Press, 1998.
4. Strong, W. Coaching writing: The power of guided practice. Portsmouth, NH:.Heinemann. 2001.
5. Torrance, M., & Jeffrey, G. The Cognitive demands of writing: Processing capacity and working memory in text production. Amsterdam: Amsterdam University Press. 1999.

Xülasə

Bir çox tələbə məktəbdə oxuma və yazma bacarıqlarının çatışmazlığını gizlətməyi öyrənmişdir, buna görə də müəllimlərə tələbələr sənədləri təqdim edənə və ya imtahan verənə qədər onların zəif tərəflərini müəyyən etmək çox vaxt çətindir.Onlarda yazı nöqsanları göz qabağındadır.Bundan əlavə, yazı bacarığı təkcə tələbələrin performansına təsir etmir, həm də müəllimlərin İngilis dili tədrisində tətbiq etdikləri metod və üsulların effektivliyinə də təsir göstərir.Hər bir üsul bəzi tələbələr üçün faydalıdır, lakin digərlərində uğursuz olur, buna görə də yazı tədrisi daima davam etməlidir və müəllimlər tələbələrinin effektiv yazı bacarıqlarını inkişaf etdirməsini istəyirlərsə, digər strategiyaları nəzərə almalıdırlar. Yazı bacarıqlarının inkişafı üçün bəzi taktikalarda istifadə etmək və məsləhət almaq yazı işini daha dolğun və effektiv edər və oxucu üçün bu cansıxıcı yazı əvəzinə maraqlı bir oxu nümunəsi ola bilər.

Резюме

Многие ученики научились скрывать отсутствие навыков чтения и письма еще в школе, поэтому учителям часто бывает сложно выявить их слабые стороны до того, как ученики сдадут документы или сдадут экзамены. Недостатки их письма очевидны. Кроме того, навыки письма влияют не только на успеваемость учащихся, но и на эффективность методов и приемов, используемых учителями при обучении английскому языку. Каждый метод полезен для одних учащихся, но бесполезен для других, поэтому обучение письму должно продолжаться постоянно, а преподавателям следует рассмотреть другие стратегии, если они хотят, чтобы их ученики развили эффективные навыки письма. Использование некоторых тактик и получение советов по развитию навыков письма сделают ваше письмо более полным и эффективным, и оно может стать для читателя интересным примером чтения, а не скучным письмом.

Summary

Many students have learned to hide their lack of reading and writing skills at school, so it is often difficult for teachers to identify their weaknesses before students turn in documents or pass exams. The shortcomings of their writing are obvious. In addition, writing skills affect not only student achievement, but also the effectiveness of the methods and techniques used by teachers in teaching English. Each method is useful for some students but useless for others, so writing education must be ongoing and teachers should consider other strategies if they want their students to develop effective writing skills. Using some tactics and getting tips on developing your writing skills will make your writing more complete and effective, and it can be an interesting example of reading for the reader instead of boring writing.

Rəyçi: F.f.d. Seyidova Nigar Vaqif qızı

Mobil Aslanlı Huntürk

"KİTABİ-DƏDƏ QORQUD" EPOSUNDA OVÇULUQ CƏNGAVƏRLİK MEYARI KİMİ

Ta ən qədim dövrlərdən üzü bəri ovçuluq türklərin çox sevimli əyləncə və peşələrindən biri olmuşdur. Ovçuluq işi maraqlı bir məşğuliyyət vasitəsi kimi türklər üçün onların yalnız maddi-iqtisadi tələbatlarını ödəmək məqsədini güdmürdü. Məlum olduğu kimi bəşəriyyətə cahanşümul hökmdar-sərkərdələri və nizami ordusu ilə yaxşı tanınan türklər, dünyanın ən qəvi istilaçıların, qarı yağıların möhtəşəm həmlələrini asanlıqla dəf etmişdir. Bu danılmaz tarixi bir həqiqətdir ki, bəşəriyyətə böyük mədəniyyət gətirən bu xalq fiziki mədəniyyətə də xüsusi önəm vermişdir.

Bu xalqın yetişdirdiyi bir çox ünlü şəxsiyyətlərin qəhrəmanlıq şücaətləri, yenilməz fədakarlığı bilavasitə və bilavasitə onların fiziki mədəniyyət səviyyəsi ilə səciyyələnirdi. Ədəbiyyatımızda onun ayrı-ayrı klassiklərinin ədəbi qəhrəmanlarının hünər və rəşadətini, yenilməz fiziki-hərbi şücaətinin əsas meyarını, bilavasitə onların fiziki mədəniyyəti ilə əlaqələndirmişlər.

Mərdlik, igidlik, qəhrəmanlıq və sair kimi fiziki-iradi kimi keyfiyyətləri özündə ehtiva edən fiziki inkişaf, fiziki hazırlıq türklərin genetik xüsusiyyətlərinin başlıca əlavələri hesab olunubdur. Bu xalqın ən qədim yazılı abidələrində, o cümlədən qədim qəhrəmanlıq eposlarında, nağıl və dastanlarında türkün ən qorxunc alp ərənləri ən müdhiş vəhşi heyvanlarla əlbəyaxa döyüşlərdə belə qalib çıxmaları təsvir olunur.

Ovçuluq peşəsində səyyaddan (ovçudan) bol şikar (ov) etmək üçün iti görən, sayıq yatan, həssaslıq, diqqətlilik kimi psixoloji xüsusiyyətlərlə yanaşı, qaçmaq, hoppanmaq, dırmanmaq, üzmək, habelə sərrastlıq, çaparlıq və sair kimi fiziki-iradi keyfiyyətlər başlıca amillərdən hesab olunur. Müasir həyatımızda "idman ovçuluğu" kimi idman növləri arasına çox populyar olan həmin təsnifat məhz türklərə məxsus olduğu danılmaz bir həqiqətdir. Tarixi ədəbiyyatlara nəzər salsaq, elə bir türk hökmdarı, elə bir türk sərkərdəsi tapılmaz ki, o, həm də mahir bir ovçu kimi tanınmasın.

Türk xalqlarının tarixinə nəzər salsaq onun ən ünlü yenilməz xaqan və sərkərdələri ova daim dərin maraq göstərmişlər. Ov işi həmin qüdrətli hökmdarlar üçün boş əyləncə, yaxud asudə vaxtlarının, fəal istirahətlərinin mənalı təlimi deyildir. Mərd igidlərin çox sevimli peşəsi olan ov işi, ovçuluq türk ərəni üçün gələcək qorxmaz, dəyanətli və fədakar döyüşçülərin hazırlanması işinə xidmət edirdi. Çünki vahiməli vəhşi heyvanlarla üzləşmək, onlarla əlbəyaxa olmaq, şübhəsiz ki, hər bir adamdan mükəmməl fiziki inkişaf, fiziki möhkəmlik və iradi dözüm tələb edirdi. Odur ki, həmin fiziki-iradi keyfiyyətlərin qazanılması bilavasitə və bilavasitə planlı, sistemli və ardıcıl şəkildə fiziki təmrinlərə, müxtəlif tipli hərbi oyunlara, habelə bir sıra mütəhərrik və atlı oyunlara sıx bağlılıq sayəsində reallaşa bilərdi.

Qaynaqlarda qüdrətli türk hökmdar və sərkərdələrin çox böyük bir qismi, o cümlədən Mete, Atilla, Çingiz xan, Batı xan, Axsitan, Alp Arslan, Məlik şah, Əmir Teymur, İldırım Bayazid, Hüseyn Bayqara, Toxtamış, Babur şah, Uzun Həsən, Sultan Yavuz, Şah İsmayıl, Sultan Süleyman, Osmanlı İmperatoru Körpülü Mehmet Paşa (ovçu Mehmet), I Şah Abbas, Nadir şah, Qacar şah əsl səyyad kimi ovçuluğa dərin maraq göstərmiş, habelə ov işi onların bilavasitə hərbi məşqlərinin mühüm bir hissəsini təşkil edirdi. Belə ki, fiziki-hərbi təlim və əyləncələrlə bağlı həmin ənənələr "Kitabi-Dədə Qorqud" kimi türkün möhtəşəm qəhrəmanlıq dastanından qaynaqlanır. Dastanın "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"da oğuz elinin cahangir sərkərdəsi Qazan xanın məclisinə toplaşmış doxsan dəstə gənc, dağı dağ üstə qoymaq üçün işarə gözləyirlər. Qazan xan isə, alplığa, ərdəmliyə, hünərə və rəşadət göstərməyə can atan oğlu Uruzu ova aparıb onu ciddi təlimə cəlb etməyə can atır, oğlunun ov barədə xahişinə məmnun olub xoşallanan ata, üzünü məclis əhlinə tutub deyir: "A bəylər, Uruz yaxşı deyir. Siz yeyiniz-içiniz, söhbətinizi eləyin. Mən bu oğlanı götürüb ova gedim. Yeddi günlük azuqə ilə çıxaq. Ov atdığım yerləri, qılınc çalıb baş kəsdiyim yerləri göstərim. Kafir sərhədində Cızıqlara, Ağlağana, Göyçə dağa götürüb aparım. Sonra oğlana gərək olar, a bəylər!". Qonur atını çəkdirdi, mindi. Donu qaş-daşla bəzənmiş üç yüz igidi seçdi, öz dəstəsinə qoşdu, Uruz da qırx ala gözlü igidini özü ilə apardı. Qazan oğlunu götürüb uca dağlar üzərinə ova çıxdı. Ov ovladı, quş vurdu, sağın-keyik yıxdı. Hündür və gözəl göy çəmənlikdə çadır qurdu. Bir neçə gün bəylər eləcə yeyib-içdi" (2, 167).

Məlum tarixi bir həqiqətdir ki, oğuz türkləri başlıca olaraq yarımköçəri və oturaq həyat tərzi keçirmişlər. Odur ki, onlarda oturaqlığa və köçəriliyə məxsus təsərrüfat sahələri güclü tərəqqi etmişdir. Köçəriliklə bağlı oğuzların ov adətləri və ov mərasimləri diqqətimizi daha çox cəlb edir. Oğuzlar ova böyük əhəmiyyət vermiş, ov bir növ igidliyi, bacarığı yoxlamaq üçün məşq hesab etmişlər. Bu baxımdan dastanda ov və ovçuluq qəhrəmanların əsas əyləncə, istirahət, məşğuliyyət növüdür (4, 281-282). Abidənin boylarından göründüyü kimi, şölən, döyüş, ov səhnələri bir-birini tez-tez əvəz edir. Oğuzlarda ov mərasiminin ciddi qanun-qaydaları vardır və bu qanun-qaydalar dastanın qəhrəmanları tərəfindən qorunur.

"Dədə Qorqud" eposunda ov və ovçuluq kulturoloji adət olduğundan ilk ovun şərəfinə xüsusi mərasim təşkil olunur, bu halda ata artıq yetkinlik yaşına çatmış oğlunun hərbi bilik, bacarıq və vərdişini yoxlamaq məqsədi ilə onun şərəfinə ilk ov səhnəsi keçirir. Bu münasibətlə keçirilən ovda oğuz bəylərinin əksəriyyəti iştirak edir. "Həmin ovda ata oğula döyüşün sirlərini heyvanların üzərində öyrədir. O, oğlunun ox və kəmənd atmasına, at çapmasına, pusqu qurmasına, cəldliyinə, çevikliyinə və cəsarətinə tamaşa edir, onun bir döyüşçü kimi yetişməsini qiymətləndirir. Yetkin oğlanın ilk ov şərəfinə ümumtayfa şənliyi keçirilir" (4, 282). Bunun parlaq nümunəsi ilə biz I və II boyda qarşılaşırıq. I boyda Buğacın anası Ana xatun və IV boyda Uruzun anası Burla xatun oğlanlarının ilk ov mərasiminə xüsusi hazırlıq görürlər.

Ovçuluğa türk xalqlarının dərin istək və bağlılığı, bu xalqların həyatında cəsur ərənlərin ovçuluqla məşğuliyyəti, bir növ onların ayrılmaz həyat tərzinə çevrilmişdir. Biz bütün bunlar türklərin böyük mənəvi abidəsi olan "Kitabi-Dədə Qorqud"da daha geniş əksini tapır. Həmin adı çəkilən qəhrəmanlıq eposumuzun elə bir boyu tapılmaz ki, bu və ya digər şəkildə ovçuluqla bağlı bilgilərə toxunulmasın.

Dastandan bəlli olduğu kimi, oğuzlar ova daim böyük əhəmiyyət vermiş, ovu bir növ hünəri, igidliyi, fiziki bilik və bacarığı yoxlamaq üçün məşq hesab etmişlər. Bu baxımdan dastanda ov və ovçuluq qəhrəmanların əsas əyləncə, istirahət, məşğuliyyət növüdür. Abidənin boylarından göründüyü kimi, şölən, döyüş, ov səhnələri tez-tez, bir birini əvəz edir.

Oğuzlarda ov mərasiminin həm də çox ciddi qanun-qaydaları vardır və bu ənənə və rituallar dastanın qəhrəmanları tərəfindən qorunur.

Abidənin I boyunda görünür ki, ailənin böyüyü ata dura-dura, oğulun ova çıxması qadağandır. Dirsə xanın qırx namərd yoldaşı yalandan ona xəbər verirlər ki, bax: "Dirsə xan, sənin oğlun yerindən durdu, köksü gözəl böyük dağa çıxdı. Sən var ikən ov ovladı, quş quşladı" (2, 135) misalı buna ən bariz nümunədir. Bu etik əxlaqi normanın pozulması hətta ölümlə belə cəzalandırılır. Dirsə xanın oğlu Buğacın paxıllığını qırx yoldaşı çəkirdi. Belə ki, qırx namərd onun gücünə, adına, əqli və fiziki hünərinə həsəd aparırdı. Qırx namərdin fitnəsi ilə Dirsə xan oğlunu götürüb ova çıxır. Bu ov Buğacın ilk ovudur. Hələ o, ov adətinin ciddi qaydalarından xəbərsizdir. Buğac bu igidlərin sözü ilə keyikləri qovub gətirir atasının qarşısına və onu məharətli hərəkətləri ilə sevindirmək istəyir. Oğlunun bu davranışı Dirsə xanı qəzəbləndirir və oxu ilə oğlunu ölümcül yaralayır.

"Dədə Qorqud" eposunda ov və ovçuluq kuturoloji adət olduğundan ilk ovun şərəfinə xüsusi mərasim təşkil olunur. Bu halda ata artıq yetkinlik yaşına çatmış oğlunun hərbi biliyini yoxlamaq məqsədi ilə onun şərəfinə ilk ov səhnəsi keçirir. Bu münasibətlə keçirilən ovda oğuz bəylərinin əksəriyyəti iştirak edir. "Həmin ovda ata oğula döyüşün sirlərini heyvanların üzərində öyrədir. O, oğlunun ox və kəmənd atmasına, at çapmasına, pusqu qurmasına, cəldliyinə, çevikliyinə və cəsarətinə tamaşa edir, onun bir döyüşçü kimi yetişməsini qiymətləndirir. Yetkin oğlanın ilk ov şərəfinə ümumtayfa şənliyi keçirilir" (4, 282). Bunun parlaq nümunəsi ilə biz I və II boyda qarşılaşırıq. I boyda Buğacın anası Ana xatun və IV boyda Uruzun anası Burla xatun oğlancığının ilk ov mərasiminə xüsusi hazırlıq görür: Anası ona ilk dəfə özü ilə ova aparanda boyu uzun atdan ayqırlar, dəvədən buğra, qoyundan qoç qırdırdı. Oğlancığımın ilk ovudur (2, 136). Qanlı oğuz bəglərin toylayayım, -dedi" (2, 281).

Abidədə Dirsə xanın, Qazan xanın, Bəkilin ov səhnələri maraq doğurur. Qazan xan oğlu Uruzu götürüb ova çıxır. Ovçuluğun bütün sirləri ilə oğlunu hali edir. Oğuzlarda başqasının ovunu vurmaq, həmçinin yaralı heyvanı ovlamaq qadağan sayılır. Bütün bunlar bir daha türkün dərin və incə ruha malik xeyirxahlığından, humanizmindən irəli gəlir. Tanrı türkə ən böyük mənəvi-əxlaqi sərvətlər bəxş etmişdir. Bu da insanlığa xas olan ən böyük bəşəri dəyərlərdir. Onun da ən uca ali varlığı humanizmdir.

Türk sözünün etimoloji mənası bütün mənəvi-əxlaqi, iradi-fiziki keyfiyyətlərin ən dolğun ali anlamını özündə ehtiva edir. Odur ki, türk ərəni nə qədər güclü, dəyanətli, mətin və əzmkardırsa, o dərəcə də xeyirxah, nəcib, ali, ülvi hisslərə malik humanist bir qövmdür.

I boyda Dirsə xanın nökər və naibləri ağalarına oğlu Buğacın fəhm-fərasətini, onun cürətliliyini, artıq sərişteli səyyad kimi onun fiziki-iradi əlamətlərini heç də xoşniyyət vasitəsi kimi çatdırmamışlar. Lakin türklərin pozulmaz törəninə görə, onlar bütün tarix boyu övladlarını əqli, mənəvi cəhətdən, yetkin və kamil böyütmək istədiyi kimi, fiziki baxımdan da güclü, qüvvəli, mətn və əzmkar görmək arzusu ilə yaşayıblar.

Dastanda oğuz cahangirlərinin ən böyük arzu və diləyi xələflərinin qəhrəmanlıq ruhunda böyüdüb başa çatdırması idi. Hər bir türk ərəni evində böyütdüyü uşağı ilkin çağlardan fiziki əməyə, fiziki çalışmalara, mütəhərrikliyə alışdırmaqla onlarda fiziki yetkinliyin əsasını qoyurdu. Belə fiziki mümarisə və çalışmaların əsasında ovçuluq işi mühüm yer tuturdu. Odur ki, bir türk ailə kişisi ova gedərkən, hökmən yetkinlik yaşına çatan övladın da özü ilə aparmağı mütləq hesab edirdi. Həmin boyda da biz Dirsə xanın yeganə oğlunu qırx igidinə qatıb ova yollaması buna bariz nümunədir: "Dirsə xan sübh tezdən durdu. Oğlunu yanına salıb, öz qırx igidinin dəstəsinə qoşdu, ova çıxdı. Ov ovladılar, quş quşladılar" (2, 135).

Qədim mənəvi abidələrimiz və qəhrəmanlıq dastanlarımızdan tarixi bəlli cəng savaşlarından dövrümüzə qədər gəlib çatan qaynaqlara söykənərək bir daha qətiyyətlə bildiririk ki, türklərin qanında, ruhunda bir cəsarət, bir igidlik və fədakarlıq daim bulunmuşdur. Bəllidir ki, o dövrün yaşam mühitində istənilən türk tayfa və qövmlərinin qarşısında bir gələcək savaşı həmişə labüd olmuşdur. Yaşadıqları yurddan aralaşaraq daha məhsuldar torpaqlar mənimsəmək, zəngin sərvətlərə sahib olmaq, yaxud da özlərinə mənsub olanları qorumaq, müdafiə etmək üçün türklər öz övladlarını ilk çağlardan bu yönümdə, yəni onların fiziki və hərbi hazırlığına xüsusi önəm verirdilər. Gələcəkdə böyük zəfərlərin təməlinin ilk elementlərini, bilavasitə ovçuluq peşəsinə yiyələnməkdən başlayırdı. Qalın ormanlarda, xırçın qayalarda, sərt döngələrdə, ucsuz-bucaqsız qıpçaq çöllərində ox səyritmək, nizə tuşlamaq, kəmənd atmaq və sair kimi fiziki vərdişlər ovçulardan mükəmməl hazırlıq tələb edirdi. Qədim türk abidələrində alp ərənlərimizin yaşam tərzinin ayrılmaz bir hissəsinə çevrilmiş ovçuluqla bağlı bilgilərə yetərincə rast gəlirik: "...ov əsasən sürək yolu ilə, yəni dövrələmə üsulu ilə aparılırdı. Belə ovda bütün qəbilə iştirak edirdi. Həmin proses zamanı ovlanası heyvanları ovçuların üstünə qovmalı, sürəkçidən və ovçudan xüsusi məharət və təlim tələb edilirdi. Bu həm də qədim türk üçün, bir növ, ona görə faydalı idi ki, ov onu, bir növ, şücaətə hazırlayır, ona ani manevrlər etməyi öyrədirdi. Uğurlu ov qədim türkün əsas ərzağı olan ətlə təminat işini yoluna qoyurdu. Heç də təsadüfi deyildir ki, çin salnaməçisinin yazdığına görə qədim türklər hətta müharibə vaxtı belə ovla məşğul olurdular. Ev və ov heyvanlarının dərisindən paltar tikir və çadırlarının üstünü örtürdülər. Bundan başqa qədim türklər keçə və yun parça toxumağı da bacarırdılar (4, 242-243).

Dastanın "Salur Qazanın evinin yağmalandığı boy"u ilə başlanan ikinci boy da oğuz igidlərin çox sevimli məşğuliyyəti olan ovçuluqla başlayır. Bütün oğuz cahangirləri ətrafında cəmləndiyi Qazan xanın daim mücadilə üçün əmrini gözləyir. Həmişə olduğu kimi oğuz bəyləri yenə də qalın oğuzun dayağı, qaracağın qaplanı, Salur Qazanın doxsan otaqlı uca

evindəki ipək xalı döşəmənin üstündə ləziz yeməkləri qızıl qədəhlərdəki şərablarla nuş etdikdən sonra ova çıxmaq istəyirlər. "Ulaş oğlu Salur Qazan içdi-içdi, axırda şərabın təsiri başına vurdu. O qaba dizləri üstünə çökdü, dedi: "...sözümü dinləyin, səsimə səs verin, bəylər! Yata-yata yanımız ağrıdı. Dura-dura belimiz qurudu. Duraq gedək, a bəylər! Ov ovlayaq, quş vuraq, sığın-keyik yıxaq, qayıdıb otağımıza düşək: yeyib-içək, günümüzü xoş keçirək..." (2,140).

"Salur Qazanın dustaq olduğu və oğlu Uruzun onu xilas etdiyi boy"da oğuz igidlərinin ənənəvi ov yarışlarında iştirakına tez-tez rast gəlirik. Türk məişətində kamanlıq təkcə əmək aləti kimi deyil, həm də hərbi funksiya rolu oynadığı məlumdur. Yay-ox türklərinin ən çox istifadə etdiyi silah növlərindən biri olmuşdur. Mənbələrdə at belində əlində yay-ox, qollarında qızıl quş, şahin, tərlan, qırğı, şonqar, qaraquş, tiqun, humay, balaban, buf, bayilə, piru və sair kimi bir sıra ov üçün yararlı əl quşlarından, habelə tula, tazı heyvanlarından istifadə edərək quşu gözündən vuran mahir ovçuların, peşəkar səyyadların ov mərasimlərindəki ciddi yarışları məlumdur. Dastanda oğuz bəylərinin mütəmadi olaraq ov əyləncələri barədə yenə də oxuyuruq: "...Trabzon təkürü bəylər bəyi olan Qazan xana bir şahin göndərmişdi. Bir gecə yeyib-içib oturarkən şahinçi başıya dedi: "əyə, sabah şahinləri götür, xəlvətcə ova çıxaq!... Səhər erkən atlara minib ov yerinə getdilər. Bir sürü qaz gördülər. Qazan şahini buraxdı..." (2, 214).

Dastanda Qazan xan oğuz cəngavərlərinin döyüş əzmini qoruyub saxlamaq, onların ov zamanı sərrastlıq göstərməklə çoxlu ov ovlayıb geriyə qayıtmağa çağırmaqla, eyni zamanda bu igidlərin döyüş əzmini qoruyub saxlamağın vacibliyini də xatırladır.

Boyda göstərilir ki, Qazan xan oğlu Uruzu üç yüz igidlə birgə evinin keşiyində qoyub Dəli Dondaz, qardaşı Qaragünə, Şir Şəmsəddin, Beyrək, Yeynək kimi bir-birindən azman bahadırları, qaplan şücaətli alp ərənləri başına cəm eyləyib ova yollanırlar: "...Saymaq istəsəm, tükənən deyil; qalın oğuz bəyləri atlandılar. Böyük qoşun Ala dağa ova çıxdı" (2, 140).

"Kitabi-Dədə Qorqud" dastanından aydın olur ki, uşaqlıqdan igidliyə keçmə dövrü on beş, on altı yaş həddində baş verir. Bu yaş həddinə çatan oğlan mütləq bir hünər göstərməli və igid adını qazanmalıdır. Uşaqlıq dövründən alplıq dövrünə keçidlə bağlı adqoyma mərasiminin maraqlı örnəklərinə abidənin I, III, VIII boylarında rast gəlirik. Dastanda ad vermə baş kəsib qan tökməklə, hünər göstərən oğlanlara təqdim olunur. Dastanda adqoyma Qorqud Atanın funksiyasıdır. Yəni igidlərə adı vermək Qorqud Dədəyə həvalə edilmişdir. Dədə Qorqud igidlərə adı, hünər və şücaətlərinə uyğun olaraq qoyur. Bununla yanaşı Dədə Qorqud ad verdiyi igidlərin hünərlərini nəzərə çatdırmağı, onlara uğur-alqış diləməyi, atalarından bu ad qoyulanlara bəylik, taxt, yaşayış tələb etdiyini də unutmur.

Adqoyma mərasiminə ilk olaraq abidənin "Dirsə xan oğlu Buğac xan boyu"nda rast gəlmək mümkündür. Bu boyda nəql olunur ki, Bayandır xanın bir buğası və bir də buğrası var idi. Bayandır xan bir dəfə yazda, bir dəfə də payızda ağ meydanında bunları döyüşdürər, özü də oğuz bəyləri ilə tamaşa edib, əylərdi. Belə günlərin birində Dirsə xanın on beş yaşlı oğlu meydanda üç uşaqla aşıq-aşıq oynadıqları zaman buğanı oraya buraxırlar və uşaqlara qaçın xəbərdarlığı edirlər. Uşaqlar qaçsa da, Dirsə xanın oğlu yerindən tərpənmir, üstünə hücum edən buğa ilə döyüşüb, onu öldürür. Oğuz bəyləri oğlanda bu hünəri görüb, ona əhsən deyirlər və Dədə Qorqud bu oğlana ad qoyur.

Dədə Qorqud bu hünərə görə oğlana "Buğac" adını verir, həmçinin oğlana atasından bəylik və mal-mülk də alıb verir. "Bu ad oğlanın alplıq adıdır. Ad alan hər bir gənc artıq Oğuz cəmiyyətinin bərabərhüquqlu üzvünə çevrilir, həm də adına layiq yaşamalı olur". Hünərə görə adqoymanın bariz nümunəsinə "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda da rast gəlirik. Baybörə oğlu 16 yaşlı Bamsı tacirlərin üzərinə hücum edən yağılarla döyüşür, baş kəsib, qan tökür, yağıları öldürüb cəzalarına çatdırır, tacirləri və onların mallarını kafirlərdən xilas edir. Boz oğlanın bu qoçaqlığı Qalın Oğuza yayılır. Dədə Qorqud gəlib oğlana Beyrək adını verir. Yeniyetmələrin alplıq adı almaları şərəfi, münasibətilə, onların valideynləri ağır ziyafətlər təşkil edir, oğuz bəylərini qonaqlayardılar. Bu kimi yığıncaqlarda Dədə Qorqud ad qoyduğu igidlərə tərif deyib, xeyir-dua verir. Qorqud Dədə "Buğac" bəy "Boz Ayğırlı Bamsı Beyrək"lə yanaşı VIII boyda Aruz qocanın aslan yatağında böyümüş oğluna da "Basat" adını verir. Ad almış qəhrəmanlar adlarına uyğun hərəkət edir, ada layiq yaşayır. Bu igidlərin sonrakı həyatı qadasız, qovğasız, savaşsız keçmir. "O zamanlar bir oğlan baş kəsməsə, qan tökməsəydi ona ad qoyulmazdı. Baybörə bəyin də oğlu ova çıxdı. Ov ovlarkən atasının tövləsi gəldi. Onu əmiraxurbaşı qarşıladı, atdan endirdi, qonaq etdi" (2, 151).

Dastanın "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"da ovçuluqla bağlı bilgilərə geniş yer verilir. Oğuz elinin cahangir sərkərdəsi Qazan bəyin ovçuluğa meyli və istəyi eposda daha ətraflı təsvirini tapır. Boyda Qazan bəyin məclisinə toplanmış, bir-birindən ötkəm, cəsur, igid, şir biləkli doxsan dəstə gənc, oğlu Uruz, qardaşı Qaragünə və dayısı Aruza qızıl qədəhlərə dolu al şərabları nuş etdikdən sonra onlara ova çıxmaları təqdim olunur. Oxları yaylarında darıxmış bu oğuz cəngavərlərinin hər biri quşu dimdiyindən vuran, şikarın qulağını başına dikən bu səyyadlar ən ağır qovğa və savaşlarda da rəşadət göstərən hünərvər mərdlərdir. Uruz bəyin gözlənilməz təklifi bütün gənclərin sevincinə səbəb olması boyda belə təsvir olunur: "Qazan bəy əlini-əlinə vurub qah-qah güldü. Dedi: A bəylər, Uruz yaxşı deyir. Siz yeyiniz-içiniz söhbətinizi eləyin. Mən bu oğlanı götürüb ova gedim... Qazan oğlunu götürüb uca dağlar üzərinə ova çıxdı. Ov ovladı, quş vurdu. Sığın-keyik yıxdı. Hündür və gözəl göy çəmənlikdə çadır qurdu. Bir neçə gün bəylər eləcə yeyib-içdi (2, 167).

Həmin boyda diqqəti çəkən ən maraqlı məqamlardan biri Burla xatunun oğlancığının ilk ovunu necə bir sevinc və fərəhlə qutlamasının şahidi oluruq. İlk uğurlu ov tayfa üçün, el üçün o dərəcədə önəmli sayılırdı ki, böyük şənliyə, möhtəşəm törənə çevrilirdi. Bu uğurlama zamanı gənc ovçunun şəninə tərifler söylənər, xoş sözlər deyilər, saysız qoç və qurbanlsr kəsilər, qazan-qazan yeməklər bişirilər, oğuz igidləri əylənər, şadlanarmışlar. Oğlunun ilk ovdan uğurlu qayıtmasını zənn edən Burla xatun da məhz belə davranır: "Xan qızı Burla xatun Qazanın gəldiyini eşitdi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirdi. "Oğlancığımın ilk ovudur, ovu qanlı oğuz bəylərini sevindirib-şənləndirim!" -dedi (2, 170). Az

keçməmiş məlum olur ki, Uruz ovdan qayıtmamışdı. Türklər ov işinə o dərəcədə böyük önəm verərmişlər ki, bunu Qazan xanın yalnız bircə ifafəsində daha dərin mənasını buluruq: "Əzizim, oğul gəlsəydi səndən soruşardım? Qorxma, fikir eləmə, ovdadır. **Ovda qalan oğul üçün qəmlənmə!**.." (2, 172).

Dastanda oğuzun ən hünərli xanımlarının da fiziki-iradi yetkinliyi də önə çəkilir. Türkün mətin, əzmkar, ov işində fürsəti fövtə verməyən qız və qadınlarımız kişilərdən heç də geri qalmadıqları göstərilir. Eposun VII boyunda qoçaq, zirək, vüqarlı türk qızlarından biri olan Selcan xanımın füsünkar diyarımızın sıx ormanlarında, güllü-çiçəkli keçilməz dağların yamac və gədiklərində, yal və aşırımlarında mahir bir səyyad kimi ov qovması qeyd edilir. Boyda igid türk qızı Selcan xanımın Turanın əzəmətli xalqlarından olan Arqubeldə, Ala dağda özünün şahbaz Qazlıq atının tərkində peşəkar bir səyyad kimi ovçuluq məharəti belə təqdim edilir:

Qalxaraq yerimdən durardım,
Qarayallı Qazlıq atımı minərdim.
Atamın dik çadırından çıxardım,
Arqubeldə, Ala dağda ov ovlardım.
O yerlərdə sığın-keyik qovardım... (2, 191).

Digər icrası ən çətin və ən mürəkkəb fiziki təmrin və keyfiyyətlər tələb edən atçapmanın ovçuluqda əlahiddə rolu barədə də söhbət açılır. Dördnala qaçan, sanki qırğı kimi süzən yelqanadlı şahbaz atının tərkinə atılan türk ərənlərinin çaparlıq məharəti barədə xalq dastan və nağıllarımızda yetərincə bilgilər verilir. Qaynaq və mənbələrdə türk apl ərənlərinin, hətta başı üstə at çapmaları, çapa-çapa ayaq üstə durmaları kimi belə ağır və mürəkkəb fiziki vərdişlər böyük heyrət doğurarmış. Dağ gövdəli, çinar boylu, polad qollu türkün cəngavər ovladlarının, ən qorxunc, müdhiş yırtıcıların üstünə əliyalın getmələri barədə yetərincə bilgilər mövcuddur. Belə hünərvər oğullardan biri də adı çəkilən dastanımızın IX boyundakı Bəkil bəydir. Bəkil bəyin oğuzlar arasında ən məşhur səyyad kimi ad qazanıb, şöhrət tapması, onun bilavasitə olduqca hərtərəfli və yüksək fiziki bilik, bacarıq və vərdişinə söykənir.

Həmin boyda Bəkilin geniş ov təcrübəsinin, dəqiq və sərrast hədəfə ox sancmasının, bolluca ov etməsinin, eyni zamanda təbiətin mühafizəçisi kimi onun ahənginin pozulmaması qayğısına qalmasının da şahidi oluruq. Dastanda ekoloji tarazlığın saxlanılması haqqında Bəkilin dəyərli fikirləri onun ustad səyyad olduğunu bir daha təsdiqləyir. Dastanın II və IX boylarında ovun pozulması yasaqlığına, daha doğrusu, qadağanın qorunmasına əməl "Bəkil oğlu Əmranın boyu"nda qabarıq verilmişdir. Ovda ayağı sınmış Bəkil ovun pozulmaması üçün bunu heç kimə demədən, geriyə evinə qayıdır. II boyda bu baxımdan çox səciyvidir: "Ova hazırlıq üçün car çəkildi. Belə ki ov hazırlığı tamam oldu, kimi atını, kimi qılıncını, kimisi də yayını çəkib ox atmağını tərifləndi. Salur Qazan nə atını, nə özünü tərifləndi. Amma bəylərin hünərindən danışdı. Üç yüz altmış altı igid ova atlansa, keyik üzəri yürüş olsa, Bəkil yay qurmaz, ox atmazdı, elə yayı biləyindən çıxarıb, buğanın-sığının boynuna atardı, çəkib durğuzardı. Arıq olsa, qulağını dələrdi ki, ovda bəlli olsun. Amma kök olsa boğazlayıb kəsərdi. Bəylər qulağı dəlik keyik ovlayanda, bu Bəkilin nişan etdiyidir deyə, özünə göndərərdilər" (2, 202).

"Uşun qoca oğlu Səyrək boyu"nda qeyd edilir ki, ovçuluq işində fərasət və işgüzarlıq göstərən çətin və mürəkkəb şəraitdə bol ov etmək üçün səriştəli səyyadların arvadları ərlərinə bu işdə hünər göstərmələri üçün daim uğurlar diləyir, həm də onları buna sövq edirdilər. Məsələn, Bayandır xandan inciyərək alagözlü igidlərlə evinə kefsiz halda qayıdan Bəkil bəyə onun ağüzlü xanımı ilə "Sən gedəli, xanım, çılpaq qalan dağların ovlanmayıbdır. Ova atlan çıx könlün açılsın!" (51, 203) - deyə məsləhət verir. Xanımının ağıllı tədbirini bəyənən Bəkil bəy dərhal al ayğırı olan Qazlıq atını minib ova yollanır. Yay kirişini boynundan salıb keyik dalınca at salan Bəkilin qarşısına qəflətən acıqlı bir buğa çıxır. Daban-dabana buğanı təqib edən səyyad atı saxlaya bilməyin hündür bir sıldırımdan aşağı yuvarlanır və ayağını sındırır. Ovda ayağını sındıran Bəkil pəhləvan beş gün divanına çıxmır. Bundan xəbər tutan kafirlər onun elinə hücum edirlər. Bəkil oğlu İmran düşmən qarşısına çıxır. Döyüş meydanında hələ möhkəmlənməmiş, bərkdən boşdan çıxmamış, çətin sınaqlarla üzləşməmiş İmran çox böyük hünər göstərir.

Professor Mirəli Seyidov dastanın "Bəkil oğlu İmran boyundakı Bəkili Əkil-Bəkillə müqayisə edərək, əsərdə Bayandır xanın Bəkilin şərəfinə həmişə ənənəvi olaraq ov təşkil etməsini, onun ov-şikar əti ilə qonaqlanmasını, Qazan xandan inciyib evinə dönəndə belə Bəkilin fikrini dağıtmaq üçün yenidən ova getməsini, habelə digər detalları nəzərdən keçirərək onun ov əsarəti ilə əlaqədar olduğu qənaətinə gəlmişdir (4, 84).

Qeyd etdiyimiz kimi, türklər üçün ov peşəsinə vurğunluq o dərəcədə maraqlı və əyləncə vasitəsinə dönmüşdür ki, hətta qadınların da çox böyük bir qismi bu məşğuliyyətə böyük önəm verirdi. Bu elin xanımları bir mənalı olaraq öz məğrur igidlərini daim hünərə, rəşadətə, cəngavərliyə səsləmişlər. Belə qəhrəmanlıq işartılarının bir yolu da ovçuluqdan keçir. IX boyda oğuzun ən məşhur səyyadlarından sayılan Bəkilin arvadı öz ərini ova çıxmaq üçün onu ən mənalı sözlərlə həvəsləndirir. Sən gedəli, xanım, çılpaq uca dağların ovlanmayıbdır "ova atlan çıx, könlün açılsın!"

Həmin boyda buna oxşar çoxsaylı nümunələrdən biri ilə yenə rastlaşırıq: ov ovlayıb gəzərkən qabağına bir yaralı keyik çıxdı. Bəkil onun üstünə at saldı. Buğanın arxasından yetişdi. Yay kirişini boynuna atdı... ovçulardan ayrı düşən Bəkilin sinəbağısı sürüşüb boğazına keçdi. Yaşadığı sahəyə yaxınlaşdı. Oğlu İmran pəhləvan atasının qarşısına gəldi. Oğlan burada Bəkilin yoldaşlarını soruşub görək xanın nə söyləmişdir:

Qalxaraq yerindən durub gəldin,
Qara yallı gözəl Qazlıq atını mindin.
Yalçın uca dağların ətəyinə ova getdin...".
Oğul, ay oğul!

Qalxıb yerimdən durdum gəldim,
Uca dağların döşünə ova çıxdım... (2, 204).

Beləliklə, dastanda bütün oğuz elinin komandan sərkərdəsi Qazan xan oğuz cəngavərlərinin döyüş əzmini, cəsarətini qoruyub saxlamaq, onların ov zamanı sərrastlıq göstərmək, çoxlu ov ovlayıb geriyə qayıtmağa çağırmaqla, oğuzun bütün ərənlərinə səyyadlıq sənəti üçün çox önəmli olan fiziki bacarıq və vərdişlərin vacibliyini xatırladır.

Beləliklə, dastanda ovçuluqla bağlı fikir və mülahizələrdən belə qənaətə gəlinir ki, hər bir insan bu peşə sahəsini seçərkən ilk növbəddə:

- Fiziki baxımından mütənasib bədən, sağlam vücud, şax qədd-qamət, qüsursuz bədən quruluşu;
- Həmin şəxsin iti baxışlı, diqqətli və tədbirli, həssas, olduqca səbrli və inadkar, eyni zaman da dərin müşahidə qabiliyyətinə malik olmasını;
- Ovçuluğu peşə bilənin təbiəti duymasını, heyvanat aləmi barədə həm nəzəri, həm də praktik bilik, bacarıq və təsəvvür sahibi olmasını;
- Sərrast atıcılıq qabiliyyətli ovçunun çevik hərəkətli, təkidli, qətiyyətli, inadkar, fəndgir, cəld və diribaşlığını;
- Ovçunun qorxmaz, cəsur ürəkli, iti qaçışlı, dözümlü və tükənməz enerjili olmasını tələb edirdi.

Bütün bu fiziki-cismani xüsusiyyət və keyfiyyətlər, təbii ki, məqsədyönlü, sistemli və fasiləsiz fiziki tərbiyə nəticəsi kimi yaranıb formalaşa bilərdi. Deməli, oğuz elinin hünərvər igidləri hamılıqla belə bir hazırlıq nəticəsində yüksək fiziki inkişafa yiyələnməklə fiziki kamillik və mədəniyyət sahibi olmuş, həmçinin dövrünün peşəkar bir səyyadı kimi tanınmışdır.

Ədəbiyyat

1. Aslanlı M.İ. Dədə Qorqud eposunda fiziki tərbiyə mədəniyyəti. Bakı, BDU-nun nəşriyyatı, 2016.
2. Kitabi-Dədə Qorqud. Bakı, "Yazıçı", 1988.
3. Rəcəbli Ə.Ə. Qədim türk ərənləri. Bakı, "Vətən" nəşriyyatı, 2019.
4. Seyidov M.M. Azərbaycan Mifik təfəkkürünün qaynaqları. Bakı, "Yazıçı", 1983.

XÜLASƏ

Məqalədə dastanın ayrı-ayrı boylarında oğuz igidlərinin ən sevimli əyləncəsi olan ovçuluq sənəti və peşəsindən bəhs edilir.

Müəllif ovçuluq işində türkün cəngavər övladlarının hərbi təlimin formalaşmasında əlahiddə yer tutan müxtəlif fiziki təmrinlərin, müxtəlif silah növlərinin istifadə qaydaları və s. barədə məlumat verilir.

Açar sözlər: fiziki tərbiyə, fiziki yetkinlik, hərbi hazırlıq, ovçuluq, ov təlimi

IN THE EPOS "KITABI DEDE GORGUD" HUNTING IS AS CRIETERION OF BRAVENESS

SUMMARY

The present article deals with the favourite profession of hunting which was the lovely amusement of oghuz braves.

The author gives some information about using different kinds of weapons, formation of military and physical training and teaching them to brave Turkish sons and daughters.

Keywords: physical trainings, physical maturity, military training, hunting, hunting training

RƏYÇİ: dos. S.Abbasova

Saidə Şirzad qızı Mustafayeva[60]

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ MƏSƏLƏLƏRİ 1930-50-ci İLLƏRİN METODİK ƏSƏRLƏRİNDƏ

Qədim tarixə malik olan Azərbaycan dili və onun tədrisi çox çətin dövrlərdən keçərək müasir dövrümüzə qədər gəlib çatmışdır. Təbii ki, bu prosesdə şairlərimiz, yazıçılarımız tarixçilərimiz, dilçi və tədqiqatçılarımız önəmli rola sahibdirlər. Yaratdıqları sənət əsərlərində və yazılarında Ana dilinə olan sonsuz sevgiləri mükəmməl səviyyədə özünü göstərir.

Ümumilikdə, Azərbaycan dili, dilimizin tədrisi məsələsi aktual problem kimi hər bir dövrdə dilçilərin, ədəbiyyatçıların və metodis alimlərin əsərlərində ilk pillədə yer almışdır. Bu səbəbdən də Azərbaycan dili və onun tədrisi istiqamətində daima müxtəlif islahatlar aparılır. Həmin, 1999-cu ildən təhsil sistemində başlanan islahatların bu gün də davam etdiyini xüsusi şəkildə qeyd etmək lazımdır. Dövlətimiz müstəqilliyini bərpa etdikdən sonra həmin islahatların aparılmasında əsas məqsəd Azərbaycan təhsilinin Avropa təhsilinə inteqrasiya edilməsi idi. Bu sistemə Eyni zamanda da, təhsil dilimizin tədrisi milli maraqlar və dövlətçilik nöqteyi nəzərindən Azərbaycançılıq üzərində qurulurdu. Milli ruhlu şəxsiyyətin formalaşmasında isə Azərbaycan dilinin tədrisi vacib və önəmli bir hal idi. Firudin bəy Köçərlinin sözləri ilə desək, «Ana dili millətin mənəvi diriliyidir. .. Ananın südü bədənin mayəsi olduğu kimi, ana dili də ruhun qidasıdır» (8, s. 32).

Prof. B.Çobanzadə C.Məmmədzadə ilə birlikdə 1932-ci ildə yeni bir metodik vəsaitini, «Türk dilinin metodikası» adlı əsərini çap etdirir. Vəsait 48 səhifədən ibarət idi və pedaqoji texnikum və institut tələbləri üçün məlumat xarakteri daşıyırdı (9, s. 115). Əsərdə:

1. «Politexnik məktəblərdə dil dərslərinin mövqeyi və yeni dil proqramlarının əsasları».
2. «Savad tədrisi üsulları».
3. «İmla və onun tədris üsulları».
4. «Qiraət tədrisinin üsulu».
5. «Qramerin tədris üsulları».
6. «Dil müəlliminin sinifdənxaric işləri haqqında».
7. Türk dilinin qeyri-türk məktəblərində tədrisi sərlövhələri altında məqalələr şəklində izahlar verilmişdir.

Təhsilə kömək məqsədilə artıq metodik əsərlər də müntəzəm olaraq hazırlanır və çap edilirdi.

B.Çobanzadənin dilə, onun tədrisi metodikasına dair yazdığı əsərləri içərisində, yalnız, kitabları deyil, məqalələri də mühüm əhəmiyyət kəsb edir. Həmin məqalələrdən birini, «Türk dili sərflərinin ümumi qüsurları»nı xüsusi olraq qey etmək istəyirik. Məqalədə, ümumilikdə, Azərbaycan dilinin tədrisi ilə bağlı müxtəlif problemlərə toxunulur və onların həlli yolları izah edilir (6, s. 45). Həmin məqalədə dilin dərk edilməsi, öyrədilməsi, sevdirilməsi üsulları, dilin öyrədilməsində ailə və məktəb mühitlərinin rolu, sərf kitablarının yazılmasında əsas elmi − metodik cəhətlər kimi məsələlərdən bəhs olunur. Türk məktəblərinin dil dərslərində müəllimlərin sərf (qrammatika) kitablarındakı modellərə uyğun olaraq əvvəlcə qrammatik qaydaları mücərrəd surətdə anladaraq uşaqların hafizəsinə yerləşdirməsi, sonra isə onların yorğun beyinlərinə misalları, dəlilləri yerləşdirməsi qaydalarına etirazını bildirən müəllif belə bir təklif verir: «Sərf kitabları əslində belə qurulmalıdır: 1) misallar, lövhələr, materiallar; 2) təsniflər, nəticələr, qaydalar, təriflər» (4, s. 192).

Dilçi alim M.Qurbanovanın da qeyd etdiyi kimi, «…Şərqdə ilk dəfə olaraq Bəkir Çobanzadə türk dili və ədəbiyyatının tədrisi metodikası elminin əsasıı qoymuş, onun inkişaf yolunu müəyyənləşdirmiş, tədrisin təşkili, tüpkcə oxuyub-yazma qayda və qanunlarını, təhsildə terminologiya və s. metodika ilə birbaşa bağlı olan məsələləri tədqiq etmişdir» (7, s. 44).

Təhsilə kömək məqsədilə, artıq metodik əsərlər müntəzəm olaraq hazırlanır və çap edilirdi. Belə əsərlərdən biri Q.Ələkbərli, Y.Zeynalov Ə.Qafarlı və M.Ələkbərovun birlikdə 1942-ci ildə Bakıda çap etdirdikləri «İbtidai məktəbdə Azərbaycan dili metodikası» adlı kitab idi. Bu əsər pedaqoji məktəblər üçün yazılmış bir metodik vəsait idi və ibtidai məktəbdə dil metodikası məsələlərini geniş və aydın bir şəkildə sistemli olaraq əhatə edirdi. Vəsait mükəmməlliyi ilə seçilərək Azərbaycan Maarif Komissarlığı mükafatına layiq görülmüşdü.

Digər bir metodik vəsait isə Y.Zeynalovun 1946-cı ildə yazıb nəşr etdirdiyi «Hüsnxət təlimi» adlı əsər idi. Vəsait ibtidai məktəb müəllimlərinə kömək məqsədilə hazırlanmışdı.

Bu dövrdə orta məktəblərdə Azərbaycan dili tədrisi metodikasına dair əsərlərin hazırlanmasına da ehtiyac duyulurdu. Elə həmin məqsədlə də A.Abdullayev 1945-ci ildə «Orta məktəbdə Azərbaycan dili» adlı metodik vəsait yazıb çap etdirir.

Metodik vəsaitdə Azərbaycan dili tədrisi metodikasının elmi əsasları, onun əlaqədə olduğu elm sahələri haqqında məlumat verilir, orfoqrafiya, qrammatika (morfologiya və sintaksis), nitq inkişafı üzrə aparılacaq işlərin vasitə və yolları izah edilirdi (10, s. 8).

1950-ci ildə isə A.Abdullayev N.Hacıyev və İ.Əlizadə ilə birlikdə hazırladıqları ikinci bir metodik vəsaiti, «Orta məktəbdə Azərbaycan dili» adlı kitabı çap etdirirlər.

Əsərdə Azərbaycan dili fənnini tədris edən müəllim dərs zamanı nitq fəaliyyətinin iki ayrı cəhətləri üzərində ətraflı dayanmağa və həmin cəhətləri şagirdlərə dərk etdirməyə xüsusi diqqət yetirməlidir deyən Müəlliflər, onun məşğələlərdə

---

[60] Filologiya üzrə fəlsəfə doktoru, dosent Bakı Dövlət Universiteti

dilin danışıq səslərinə aid bəhsini, fonetikanı, dilin leksikasının zənginliyini, qrammatikanın iki , morfologiya və sintaksis kimi şöbələrini, dilin bədii təsvir vasitələrini (üslubiyyatı), rabitəli nitqi, nitqi yazılı şəkildə ifadə edən orfoqrafiya və durğu işarələri kimi vasitələri şagirdlərə mənimsədməli olduğu fikrini irəli sürürlər.

Azərbaycanın siyasi həyatında 50-ci illərdən başlayaraq mühüm dəyişiliklər baş verir. Stalinin ölümündən sonra bütün gücə sahib olan N.S.Xruşov şəxsiyyətə pərəstişi tənqid edir. 1956-cı il iyun ayının 30-da N.S.Xruşşovun israrı ilə «Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında» qərar verilir. Nəticədə Stalin rejiminə son qoyulur və müəyyən dərəcədə yumşalma başlanır. Azərbaycan rəhbərliyi də bu vəziyyətdən istifadə edir. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində olan İ.Mustafayev və bir çoxları millətin halını bacardıqları qədər normallaşdırmaq və onun itməkdə olan milli varlığını qorumaq üçün səylər edirdilər. İmam Mustafayev ana dilimizin rəsmi dövlət dili kimi tətbiqi uğrunda durmadan mübarizə aparmışdı. Kargüzarlıq işlərinin ana dilində aparılması uğrunda müxtəlif tədbirlər həyata keçirilmişdi.

Əsrin ortalarından özünü göstərən yumşalma mərhələsi dil siyasətində də müsbət nəticələrin yaranmasına və dilçilik tədqiqatlarının genişlənməsinə, yeni dilçilərin yetişməsinə səbəb oldu. XX əsrin 60-70-ci illərindən başlayaraq dilçiliyin müxtəlif sahələrində apardıqları araşdırmaların sayı artmağa başladı. Bu təsir özünü tədris sahəsində də göstərirdi. Dilçi-metodistlər Ana dilimizin tədris üsul və metodlarından bəhs edən əsərlər yazıb çap etdirirdilər. Lakin Dil siyasətindəki problemlər isə hələ də həllini tapmamışdı.

Azərbaycan SSR Ali Soveti rəyasət Heyətnin sədri M.İbrahimov 1956-ci il iyul ayının 20-də dil haqqında qərarı müzakirəyə göndərərək v həmin il Azərbaycan SSR Ali Sovetinin qərarı əsasında 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya Azərbaycan dilinin dövlət dili olması haqqında maddənin daxil edilməsi məəsələsini huəll edir. 24 iyul 1956-cı il tarixli qərarda dövlət dilimizin Azərbaycan dili olduğu deyilirdi. (2, s. 122-123).

Lakin Azərbaycan dilinin dövlət idarələrində, məhkəmədə, mədəniyyətdə, təhsildə, səhiyyədə geniş şəkildə istifadə olunması imkanları məhdudlaşdırılırdı. Bu da tədrisə də təsirsiz qalmırdı.

İctimai-siyasi xadim M.İbrahimov 1956-cı ilin sentyabr ayında kəskin məzmunu ilə seçilən «Azərbaryancan dili dövlət idarələrində» adlı məqaləsini yazaraq. «Kommunist» qəzetində nəşr etdirir. Azərbaycan rəhbərliyinin baxışlarını göstərən. məqaləsində müəllif yazırdı: «Respublikamızda Sovet hakimiyyətinin birinci on ili ərzində dövlət idarələrində Azərbaycan dilinin işlənməsinə xüsusi diqqət verilir və təhriflərin qarşısı alınırdı. Lakin təəssüflə demək lazımdır ki, son on beş-iyirmi ildə bu cəhətdən kobud təhriflərə yol verilmişdir» (5, s. 70).

Həmin dövrdə Azərbaycan dilində yazılan məktublara, ərizələrə laqeyd yanaşılırdı. Ana dilində olduğu üçüb bu məktub və ərizələrə ya cavab ana dilində yazılmırdı, ya da ümumiyyətlə cavablandırılmırdı. İdarə və təşkilatlarda Azərbaycan dilinə biganə münasibət var idi. Səbəb kimi isə maliyyə nazirliyi sahəsində ana dilinin çətinliyini və digər bu kimi problemlər göstərirdilər. Dövlət idarələrində aparılan kargüzarlıq işlərində, əslində sözdə ana dilindən istifadə olunurdu. Müracıət edən vətəndaş ya cavabsız qalır, ya da vətəndaşa rus dilində cavab verilirdi. Hansı ki, xalqların danışıq və yazı işlərini ana dilində aparmaq hər bir xalqın pozulmaz hüququ hesab olunurdu. Həmin qaydaların pozulmasını qəbul etməyən M.İbrahimov qəlbindən keçənləri bu şəkildə ifadə edirdi: «Bu hüquqa hörmət etmək hamının vətəndaşlıq borcudur» (5, s. 72).

Key words: multimedia, information, motivation, learning efficiency, the English language, Computer technologies
Açar sözlər: multimedia, informasiya, motivasiya, öyrənmə səmərəliliyi, ingilis dili, kompüter texnologiyası

Using multimedia in teaching english

Summary

Effectiveness of teaching is impossible without introducing new forms of organizing the process of studying. One of the main ways of realising this idea is using multimedia technologies.

This article deals with advantages of using multimedia technologies and the internet resources in teaching foreign languages at school. It describes the peculiarities of information perception in a multimedia format and effectiveness of multimedia technologies at the lessons of foreign languages. Using multimedia presentations gives teachers an opportunity to intensify the process of teaching English, to make it more visual and dynamic. The article gives the information about freguently used multimedia technologies.

İngilis dilinin tədrisində multimedia vasitələrindən istifadə edilməsi

Xülasə

Tədris prosesinin təşkilinin yeni formalarını tətbiq etmədən tədrisin səmərəliliyi mümkün deyil. Bu ideyanın həyata keçirilməsinin əsas yollarından biri multimedia texnologiyalarından istifadə etməkdir.

Bu məqalə məktəbdə xarici dillərin tədrisində multimedia texnologiyalarından və internet resurslarından istifadənin üstünlüklərindən bəhs edir. O, multimedia formatında informasiyanın qavranılmasının xüsusiyyətlərini və xarici dil dərslərində multimedia texnologiyalarının effektivliyini təsvir edir. Multimedia təqdimatlarından istifadə müəllimlərə ingilis dilinin tədrisi prosesini intensivləşdirmək, onu daha vizual və dinamik etmək imkanı verir.

Rəyçi: dosent Adilə Zeynalova

Вафа Шахзаде кызы Бунядова[72]

ПРИМЕНЕНИЕ СОПОСТАВИТЕЛЬНОГО АНАЛИЗА КАК СРЕДСТВА ИЗЛОЖЕНИЯ НОВОГО МАТЕРИАЛА В МЕТОДИКЕ ПРЕПОДАВАНИЯ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО

Аннотация. Статья посвящена определению роли сопоставительного анализа в процессе преподавания русского языка как иностранного. Одной из главных задач при обучении любого иностранного языка является подбор языкового материала. Данный материал должен соответствовать уровню владения языком учащихся. Определение уровня владения русским языком каждого студента проводится в рамках определенных стандартов ускорить процесс обучения, а также способствует активному усвоению языка. В процесс овладения русским языком как иностранным выделяются шест уровней: элементарный, базовый, первый, второй, третий, четвертый. Каждый из уровней имеет свои условия и требования к владельцу языка.

Вагнер, В.Н.: «Методика преподавания русского языка англоговорящим и франкоговорящим» В процессе обучения русскому языку как иностранному способы предоставления языкового материала главным образом определяются в соответствии с характером межъязыковых соотношений. В данном процессе главным вопросом является учитывать ли родной язык при обучении иностранному. Мнения лингвистов-методистов об этом вопросе разнятся. Учет особенностей родного языка и их полное исключение из данного процесса и стало решающим критерием для определения доминирующего метода обучения (1, с. 386).

При обучении языку важнейшим принципом является сознательность изучения языковых явлений, которая способствует усвоению необходимых явлений целевого языка. При подборе, обработке и подаче материала необходимо учесть национально-языковую ориентированность учащихся, в целях активного восприятия и усвоения учащимися иностранцами языковых явлений. В процессе компаративного анализа языкового материала изучаемого языка с родным языком учащихся сопоставление осуществляется в направлении от русского языка к изучаемому. В процессе сопоставительного анализа важную роль играет также культурологический аспект. Принадлежность учащегося к культуре различной с культурой носителей изучаемого языка. Проводимый в процессе обучения сопоставительный анализ даст возможность азербайджанским студентам лучше освоить язык, преподавателям же прогнозировать возможные искажения фонетических, морфологических и синтактических норм языка.

Ключевые слова: русский язык, иностранный язык, языковой материал, презентация, сравнительный анализ.

Основной курс. На современном этапе, где процесс глобализации возрастает с каждым днем, потребность изучении иностранных языков также растет. Традиция изучения иностранных языков берет свое начало со времен древности, когда владение иностранным языком являлось обязательным как в целях торговли, так и в целях духовного обогащения. Данная традиция продолжает существовать и активно развиваться и в эпоху информационно - коммуникативных технологий. Изучение иностранных языков включает в себя как языковедческий, так и страноведческий аспекты.

Восприятие того или иного языкового материала учащимся, напрямую зависит от его языковой компетентности. Для более активного усвоения изучаемого языка дидактический материал распределяется в соответствии с уровнем владения русским языком учащегося.

Гез, Н.И. «История зарубежной методики преподавания иностранных языков" Современной теории методики преподавания наиболее актуальным является вопрос об описании уровней владения языком, а также о создании лингвометодических моделей, соответствующих этим уровням. Данный вопрос приобрел особую актуальность в середине 80-х XX века. В научной литературе как правило под уровнями владения иностранным языком подразумевается степень оформления речевой компетентности на изучаемом языке в различных видах коммуникативной деятельности, который оформлен в пределах сферы употребления языка" (2, с. 256).

Перейдем к рассмотрению каждого уровня владения учащимися иностранным языком в отдельности.

Первым уровень владения русским языком как иностранным является так называемый базовый уровень. Данный уровень так же известен под названием – уровень минимальной коммуникативной достаточности (УМКД). Этот уровень рассчитан на владение учащимися русским языком на минимальном коммуникативном уровне, языковая компетенция которых базируется на лексике сферы повседневного бытового общения, в пределах определенных речевых ситуаций.

Второй уровень способствует грамотному пользованию студентов русским языком, а также дает возможность создать коммуникативную ситуацию в рамках повседневной, социально-культурной, официально-деловой и профессионально-ориентированной лексики. Овладение данным уровнем предусматривает владение учащимися русским языком в соответствии с уровнем «среднего» носителя данного языка, который использует язык в целях налаживания коммуникативных связей как в повседневной сфере, так и в сфере профессионального общения.

[72] Азербайджаский Архитектурно Строительный Университет.Кафедра "Иностранных Языков" Доктор философия по филологии,ст.преп. v.bunyadova@mail.ru

Третий уровень – уровень полного владения русским языком в качестве иностранного. На данном этапе студенты могут грамотно оформить свои мысли, свободно пользоваться русским языком в качестве средства коммуникации на всех сферах общения**.** Наконец последний **четвертый уровень** владения русским языком нерусскими студентами – это уровень владения языком на профессиональном уровне, когда уровень студентов приравнивается уровню владения русским языком носителями языка и им присваивается статус «идеального пользователя».

Таким образом, можно каждому уровню владения русского языка как иностранного дать следующее описание:

Первый уровень – уровень минимальной коммуникативной компетенции.

Второй уровень – уровень стартовой коммуникативной достаточности

Третий уровень – уровень насыщенности коммуникативных навыков и социально-культурной достаточности

Четвертый уровень – уровень коммуникативной и социальной насыщенности.

Лебединский С.И., Гербик Л. Ф. Л33 Методика преподавания русского языка как иностранного. «Студенты, изучающие русский язык в языковой среде лучше усваивают язык и активно вступают в коммуникативную деятельность, в сравнении со студентами, изучающими язык в неязыковой культуре. Различия между студентами первого и второго типа проявляются чаще коммуникативных сбоях, в языковых неточностях, нарушениях темпоральных качеств речи, нарушениях лексического содержания макро и микро контекстов" (3, с. 123).

Рассмотрим обучение русскому языку как иностранному в страноведческом аспекте. В данном случае обучение РКИ можно рассматривать в двух аспектах – обучение русскому языку как иностранному в языковой среде и вне языковой среды. Фактор культуры служит одним из важнейших отличительных черт между обучением иностранному языку в языковой среде и обучением вне языковой среды.

Как отмечает американская писательница Рита Мэй Браун: «Язык – это дорожная карта культуры. Он рассказывает, откуда пришел и куда идет его народ». Язык и культура тесно взаимосвязаны. Язык создает культуру, в то время как сам плетется из культуры. Придерживаясь данной точки зрения, кажется совершенно справедливым, включить культурологический аспект как обязательный элемент всодержательную подход обучения иностранному языку.

В данном случае под языковой культурой подразумевается среда людей, которые являются естественными носителями изучаемого языка и, тем самым, составляют коллектив носителей целевого языка. Поскольку целевым языком, в данной научной работе, рассматривается русский язык, то примером подобной языковой среды может послужить Россия, которая обладает материальной и духовной культурой, а методом – общение с русскими людьми, говорящими на русском языке как родном. Предполагаемы метод изучения языка, т.е. изучение языка в среде культуры, дает возможность непосредственного наблюдения и конситуации, под которой понимается внеречевая обстановка речи. Можно провести параллель между пониманием слова в текстев конситуации; при этом текстовый контекст дает понять, в каком именно значении употреблено то или иное слово, в то время как в условиях речевой ситуации у учащихся есть преимущество непосредственного наблюдения внеречевых условий речи.

Заключение:Особенно важным вопросом для студентов, изучающих иностранный язык в неязыковой ситуации является введение преподавателем языкового материала. Данный вопрос также остается действующим при обучении русскому языку как иностранному. В процессе преподавания русского языка в качестве иностранного больше всего национальна-языковая специфика проявляется при определении способов представления учащимся новой информации. При подборе, обработке и подаче материала необходимо учесть национально-языковую ориентированность учащихся, в целях активного восприятия и усвоения учащимися иностранцами языковых явлений, так как от правильного выбранного способа изложения языкового материала в первую очередь зависит успешность формирования у учащихся базовых знаний, новой внутренней языковой компетенции.

Лысакова И.П. Русский язык как иностранный. Методика обучения русскому языку. «Коммуникативный метод» возник в 60-70-е годы XX века. Он имеет теоретическое обоснование в трудах таких известных ученых. Коммуникативный метод основывается на нескольких принципах, в частности, на принципе функциональности. Теоретические и практические основы функциональности обучения лексике даются в работе В.С.Коростелева, где на примерах показаны необходимость создания мотивации при усвоении новой лексики, а также важность учета единства формы, значения лексических единиц (4, с. 44-48).

Лексические единицы языка являются исходным и необходимым строительным материалом, с помощью которых происходит речевая деятельность. Лексические единицы - это активная и пассивная лексика, где пассивный словарный запас человека превышает его активный запас. Лексические навыки бывают рецептивные и экспрессивные. Экспрессивные навыки это интуитивно правильное употребление слов в устной и письменной речи соответственно в различных ситуациях. Рецептиные лексические навыки -это понимание и восприятие на слух или при чтении. Лексику пассивного запаса нужно вводить

в устном рассказе. Надо раскрыть значения новых слов и объяснить их значения. Можно выполнить такие упражнения: выбрать в отдельных предложениях или в тексте слова определенного значения, перевод предложения с новыми словами на родной язык при чтении или со слуха.

Литература:

1. Вагнер, В.Н. Методика преподавания русского языка англоговорящим и франкоговорящим / В.Н. Вагнер. - М.: Книга по Требованию, 2001. – 386 с.
2. Гез, Н. И. История зарубежной методики преподавания иностранных языков / Н.И. Гез, Г.М. Фролова. – М. Акад, 2008. - 256 с.
3. Лебединский С.И., Гербик Л.Ф. Л33 Методика преподавания русского языка как иностранного.с.123.
4. Лысакова И.П. Русский язык как иностранный. Методика обучения русскому языку. Под ред. И.П. Лысаковой. - М., 2004. с: 44-48

Key words: Russian, foreign language, language material, presentation, comparative analysis
Açar sözlər: rus dili, xarici dil, dil materialı, təqdimat, müqayisəli təhlil

Application of comparative analysis as a means of presentation of new material in the methodology of teaching russian as a foreign language

Summary

The article is devoted to determining the role of comparative analysis in the process of teaching Russian as a foreign language. One of the main tasks in teaching any foreign language is the selection of language material.This material should correspond to the level of proficiency in the students' language.

Determining the level of proficiency in Russian of each student carried out within the framework of certain standards will accelerate the learning process also contribute to the active learning of the language. In the process of mastering Russian as a foreign language, there are six distinguished levels: elementary, basic, first, second, third, fourth issue vary.

Rus dilinin xarici dil kimi tədrisi metodologiyasında yeni materialın təqdim vasiti kimi müqayisəli təhlilin tətbiqi

Xülasə

Məqalə rus dilinin xarici dil kimi tədrisi prosesində müqayisəli təhlilin rolunun müəyyənləşdirilməsinə həsr edilmişdir. İstənilən xarici dilin tədrisində əsas vəzifələrdən biri dil materialının seçilməsidir. Bu material tələbələrin dilini bilmə səviyyəsinə uyğun olmalıdır. Müəyyən standartlar çərçivəsində həyata keçirilən hər bir şagirdin rus dilini bilmə səviyyəsinin müəyyən edilməsi tədris prosesini sürətləndirəcək, həm də dilin fəal öyrənilməsinə öz töhfəsini verəcək. Rus dilinin xarici dil kimi mənimsənilməsi prosesində altı fərqləndirici səviyyə var: ibtidai, əsas, birinci, ikinci, üçüncü,və dördüncü məsələ.

Rəyçi: pedağoji elmlər namizədi,dosent Elmira Ağahüseynova

Günel İlqar[73]

BLOGERLİK VƏTƏNDAŞ JURNALİSTİKASI KİMİ

GİRİŞ: İnsanlar daim öz düşündüklərini, hiss etdiklərini, xoşbəxtliklərini, eləcə də bədbinliklərini digərləri ilə bölüşmək üçün müxtəlif üsullara əl atırlar. Müasir dövrün təqdim etdiyi internet platformaları da onların duyğularını, düşündüklərini, özləri haqda müxtəlif məlumatları bir-iki deyil, yüzlərlə, minlərlə, milyonlarla insanla bölüşmələrinə imkan yaradır. Təsadüfi deyil ki, "web" və "log" sözlərinin birləşməsindən yaranan bloglar da gündəlik mənasını ifadə edir. Biz burada istənilən mövzu ilə bağlı istənilən məzmunda və həcmdə olan materialımızı yerləşdirir, blogların interaktivlik xüsusiyyətindən(oxucu ilə əlaqə) yararlanaraq onu müzakirə də edə bilirik. Elə ona görə də zamanla blogerliyin fashion(dəb), food(yemək), travel(səyahət) və s. kimi xeyli sayda növü formalaşıb. Bu sahədə bloq yazarları da durmadan artaraq, yeni mövzu dairələri yaradırlar. Blogerliyin geniş imkanlarının nəticəsidir ki,hazırda hər yaş kateqoriyasından olan bloq istifadəçisi ilə qarşılaşmaq mümkündür. Hətta 107 yaşlı Dagny Carlosson (100 yaşında beten mediada tanınan İsveçli dərzi) da bu platformadan öz rəqəmsal gündəliyi kimi istifadə edir. O, müxtəlif məlumatlar paylaşır, öz dostları ilə bu platforma vasitəsilə əlaqə saxlayır. Maraqlısı odur ki, yaşlı xanım bir gün səhifəsində yazı bölüşməsə, yaşının çox olduğu üçün izləyiciləri onun dünyasını dəyişdiyini düşünürlər.

Blogerlik və yeni media anlayışları, Azərbaycanda blogerlik fəaliyyəti tədqiqata cəlb olunub. "Bloq müəllifi jurnalistdirmi?" sualına cavab tapmağa çalışmışıq.

BLOQ NƏDİR?

Gündəlik deyiləndə çoxumuzun ağlına illlərlə xüsusi sevgi və diqqətlə hazırladığımız, xatirələrimizi onunla paylaşdığımız, gün ərzində başımıza gələn hadisələri, həyəcanları, sevincləri, eləcə də hüznlü məqamları qeyd etdiyimiz, mütləq bir açarı və evimizdə gizli yeri olan dəftər gəlir. Lakin məktubların e – poçtla əvəzləndiyi kimi gündəliklər də artıq öz yerini son dövrlərin əvəzolunmaz internet platforması - bloqlara verib. Həmin bloqlar ki, günümüzdə bizim istənilən sahə ilə bağlı informasiya tələbatımızı təmin etmək gücünə malikidir.

Blog anlayışını formalaşdıran amillər

Blog, ümumiyyətlə, aktualdan köhnəyə doğru sıralanmış yazı və şərhlərin nəşr olunduğu, veb əsaslı bir nəşri ifadə edər. Hər göndərinin sonunda yazarın adı və göndərdiyi zamanı ifadə edilir. Nəşr edənin seçiminə görə oxucular yazılara şərh edə bilərlər. Şərhlər blog mədəniyyətinin mühüm məqamlarındandır. Bu vasitə iləs yazarlar və oxucular arasında ünsiyyət təmin edilir. Əlavə olaraq geri izləmə (trackback) mexanizmilə müəyyən bir yazı haqqında yazılan digər yazıların təyin oluna bilməsi də mümkündür.

İlk bloglar əllə yazılıb aktuallaşarkən, bu gün bu iş üçün xüsusi yazılmış proqramlar istifadə edilməkdədir. Bu proqramlardan bəziləri bir blog xidməti təminedici saytın alt sahə adları olaraq yaradıla bilən, bəziləri isə istifadəçinin öz serverində qurub işlətməsi lazım olan proqramlardır.

Bloqlar internet istifadəçiləri arasında fikir, məlumat mubadiləsinin artmasında çox əhəmiyyətlidir. Düşüncələrlə yanaşı bəzi materialların və məlumatların yayılmasında da rol oynayır. Xaricdə bir çox siyasətçilər, dövlət adamları, müğənnilər və cəmiyyətin digər yüksək kateqoriyalarına daxil olan insanlar öz fikir və amallarını, gündəlik həyat tərzlərini öz sevdiklərinə çox vaxt bloqlar vasitəsilə bildirirlər. Daha sonra isə bloq sistemi formalaşaraq hər bir insana öz sözünü deməyə şərait yaratdı. O hər kəsə cəmiyyətdə çox fəal olmağa kömək edən vasitələrdən biridir. Bloqdakı yazıların necəliyi onu yazanın, yəni müəllifin maraq dairəsinə görə təşkil olunur. Yəni bloglarda hər sahə üzrə yazılar və maraqlı məlumat, materiallara rast gəlmək olar. Onlar əksər vaxtlarda şəxsi olaraq fəaliyyət göstərir, yəni bir tək müəllifə aid olur. Bəzən isə qrup şəklində, bir necə müəllif tərəfindən yazılar yazılır. Termin kimi blog (weblog) ilk dəfə 1997-ci ilin 17 dekabrında "Robot Visdom" (Robot Wisdom) adlı İnternet-gündəlikdə müəllif Corn Berger (Jorn Barger) tərəfindən işlədilmişdir. Müəllif "İnternet-gündəlik" sözünə analoji olaraq "logging the web" sözünün qısaltması olan "weblog" ifadəsini işlətmişdir. Bu söz ingilis dilindən tərcümədə "şəbəkədə gündəlik yaratmaq" mənasını ifadə edir. Termin 1999-cu ilin aprelində "Peterme" bloqunun yaradıcısı Piter Merholz (Peter Merholz) tərəfindən təhrif olundu və "we blog" – "biz bloq yaradırıq" kimi ifadə edildi. Bunun da nəticəsində "to blog" "bloq yaratmaq" ifadəsi yarandı və bu günkü bütün növ İnternet-gündəlikləri nəzərdə tutan ad – "blog" ifadəsi formalaşdı(4).

Yaxşı bir bloq bloqçuya (reportyora) imkan verir ki, ənənəvi xəbər dövriyyəsindən və formatından fərqli informasiyalar dərc etmək imkanı əlavə etməklə rəqabəti qazanıb öz fəaliyyətinidaha da genişləndirə bilsin. Bu həm də xəbər qurumunun oxucularla daha dərin əlaqəyə girməsi və insanların baxışlarının reportyorun bir hadisəni işıqlandırmasında hərəkətə gətirilməsi üçün yardım edir.

Ben Matzabof deyir: "Oxucular bizim

". O, USA Today üçün biznes səyahəti məsələləri ilə bağlı bloq aparır. Bu fikri isə ötən beş il ərzində bloqçu kimi nə öyrəndiyi haqqında suala cavab verərkən səsləndirib: "Çap versiyasında oxucularla ziddiyyət şəraitində olacağınızı duymaq asandır. Çünki adamlar burada ən kiçik yanlışı da tapa bilərlər. Ona görə də bir jurnalist kimi siz müdafiədəsiniz. Bloqdakı oxucular isə qapınızın zəngini çalıb sizə yardım edirlər. Onlar sənin yazının düzgün olmasını istəyirlər. …Oxucular bloqu tək bir müəllifin edə biləcəyindən daha qüvvətli etməyə yardımçı olurlar". (11)

Bivings Group şirkətinin 2006-cı ildə ki araşdırmalarına görə ABŞ-dakı hər 100 aparıcı gündəlik qəzetdən 80-nin veb-saytında heç olmasa bir reportyor bloqu vardı. Bu bloqlardan 67-də oxucular öz şərhlərini əlavə edə bilərlər.

[73] **Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müəllimi**

Bununla belə, sadəcə bloq qurmaq yetərli deyil. San Francisco Chronicle qəzetinin keçmiş redaktoru Bob Koutorn reportyor bloqları ilə bağlı bir zamanlar belə qeyd edirdi: "Mən elə bilirəm ki, qəzetlər üçün bloq düzəltmək getdikcə çətin olacaq. Çünki onların DNA-sı "biz danışırıq, siz qulaq asırsınız" rejimində sıxılmaqda davam edir" (10)

Müasir blog növləri və platformaları

Müxtəlif mövzularla bizi məlumatlandıran blog yazarları, əsasən, "wordpress" və "blogspot.com" saytlarına müraciət edirdilər. Lakin zaman keçdikcə baş verən sürətli inkişaf, dəyişikliklər özünü bloglarda da əks etdirdi ki, hazırda insanlar daha çox sosial şəbəkələrdən öz gündəlikləri kimi istifadə etməyə daha çox üstünlük verirlər. Bu yeniliklər təkcə platformalarda deyil, blog mövzularının növlərinin artmasında da özünü göstərdi. Müasir dövrdə tematik istiqamətlərinə görə xeyli sayda blog tiplərinə rast gəlmək mümkündür:

• Siyasi bloqlar. Siyasətə həsr olunan bu tip bloqları adətən, siyasi liderlər, müxtəlif partiya nümayəndələri və ploitologlar idarə edir.

• Təhsil. Dərs prosesinin və təhsilin müzakirə olunduğu bloqlar konkret təhsil ocaqlarına aid olur.

• İnformasiya. Analitik tutumlu bloqlarda dövrün aktual, diqqət çəkən müxtəlif problem və mövzularının müzakirə olunur.

• Səyahətə həsr edilmiş bloqlarda müəlliflər səyahət etdikləri ölkələr barəsində öz şəxsi təcrübələrini bölüşür, məsləhətlər verir, müxtəlif xalqların adət-ənənələrindən söz açırlar. Eyni zamanda gəzintiyə çıxdıqları bu bölgələrə rahat gedə bilmək üsullarından bəhs edirlər.

• Dəb. Bu tip bloqlarda müzakirə mövzusu moda aləmindəki yeniliklər, trendlər, dəb nümayişləri ilə bağlı olur. Burada professionalların,dəbə biganə olmayan insanların fikirlərini oxumaq, stilistlərin məsləhətlərinə nəzər salmaq fikirlərini oxumaq mümkündür.

• Sağlamlığa həsr olunmuş bloqlarda insan səhhətilə bağlı olan problemlər, qidalanma və dieta, fitnes, çəkini nəzarətdə saxlamaq kimi mövzulara rast gəlmək mümkündür.

• Musiqiyə aid olan bloqlar bu sahədə baş vermiş yeniliklərə, müxtəlif musiqi janrlarına aid məlumatları işqlandırır.

• İdman bloqları idman aləmindəki yeniliklərdən bəhs edir.

• Kino bloqlarda insanlar müxtəlif filmlər barəsində resenziyalar və tənqidi yazılar yerləşdirirlər.

• WEB- bu kateqoriya bloqlarda sırf texniki sferadakı yeniliklər, internetlə bağlı, veb-proqramlaşdırma kimi məsələlər ehtiva olunur.

Bloq müəlliflərijurnalistdirmi?

İnsanların tamasacı olmaqdan çıxıb müxbir olduğu, gördükləri bir hadisəsi öz imkanları ilə həvəskar olaraq çəkib nəşr etməsinə **vətəndaş jurnalistikası** deyilir(19.Səh: 24). Anlayış olaraq "yurddaş jurnalistikası", "xalq jurnalistikası", "iştirakçı jurnalistika", "demokratik jurnalistika", "partizan jurnalistikası" ya da "küçə jurnalistikası" olaraq da tanınır.

Sosial medianın ən böyük üstünlüklərindən biri "vətəndaş jurnalistikası" adı ilə illərlə dillərdə dolaşan anlayışı gerçəyə çevirməsidir. Sosial şəbəkələrdən əvvəl bu anlayışın qarşılığı "Sən bir şeylər çək, yaz, göndər. Biz baxaq. Münasib olsa, yayınlayarıq" şəklində idi. Buna görə də heç nə alınmadı. Halbuki, insanların cibindəki telefonlar belə az qala yayımkeyfiyyətində çəkiliş edə bilirdi. Texniki bir maneə yox idi. Sadəcə, düşüncə olaraq uyğunlaşma təmin edilmədi.

Xəbərçilər vətəndaşın xəbərə baxışını sevmədi, vətəndaş da uyğunlaşmanın zəhmətini üzərinə götürmədi.

Buna görə yeni bir dil, yeni bir dövr yarandı. Bu gün "vətəndaş" (ya da medianın sevdiyi terminlə: "Küçədəki adam") əlində HD qeyd edə bilən cihazları, tək basmaqla yazdığını, ya da çəkdiyini göndərə bildiyi asan istifadəli saytları və bilvasitə yoldan çata biləcəkləri yüz milyonlarla təqibçisiylə ən az nəhəng media quruluşları qədər güclüdür.

İctimai şəbəkələrin bir başqa əksnə görə olunması da bağlı olduqları təşkilatın içində bəzən quruluş, bəzən nəşr siyasətinə anonimləşən xəbərçilərin parlaması idi. Artıq ekran və qəzet üzlərinin hadisələr haqqındakı fikirləri ictimai şəbəkələrdəki hesabları üstündən doğrudan alına bilirdi. Üstəlik bu paylaşmalar çox daha dəqiq, dürüst, içdən, canlı və iştiraka açıq idi. Buna görə sosial şəbəkələrin ən məşhur, gündəm yaradan istifadəçiləri də medianın məşhur üzvləri oldu.Hər kəs xəbər və inkişaf haqqındakı şərhləri birbaşa qaynağından, "qulaq şəklədiyi" kəslərdən almaq istəyir.

Hər kəsdən, hər şeydən əvvəl və daha çox xəbərdar olan yeni media istifadəçiləri arxa çevirdiyi ənənəvi mediaya həmişə bir az daha üsyankar yanaşırlar.Məqsəd məlumata çatmaqdırsa, sosial medianın ənənəvi mediadan narazılığıyerinə düşmür. Çünki xəbərlərin çoxu yenə ənənəvi medianın sosial şəbəkələrdəki nümayəndələrindən alınır.

Bir blogun nə olduğunu başa düşmək üçün, xəbərlər və bunu edənlər haqqında düşünək. XIX və XX əsrlərdəki xəbər anlayışını müqayisə edək. 20-ci əsrdə xəbərlər peşəkar hazırlanmışdır. Hadisənin baş verdiyi zaman müxbir hekayəni yazdı, bir qrup tərəfindən nəzərdən keçirildi, radioda və ya qəzetdə nələr yayılacağını qərarını aldı.

Professional xəbərlər çox oxşar idi və mövzular demək olar ki, eyni idi. Yeni bir veb saytı blog, jurnalist və ya jurnalist olmaq istəyən hər kəs üçün pulsuz və ödənişli bir fürsət təmin etdi. Bloglar populyarlaşdıqca, milyonlarla yeni xəbər mənbəyi hər kəsi istədiyi xəbər növünə çatmağa imkan verdi.

Bloglar İnternetdə xəbərləri bölüşməyi asanlaşdırdı. Bill Klintonun şəxsi həyatından skandal yazan və bəyan edən bir blogger idi, hətta sənədli bir mövzu idi.

Fikri olan hər kəs bir blog yaratmaq və bir düyməni basmaqla bir neçə dəqiqə ərzində xəbərlərini paylaşa bilər.

Bloglar mütəşəkkil blog postlarının veb saytlarıdır. Blog yazarları yeni hekayəni dərc edərkən məqalələri xronoloji qaydada təşkil edilir. Yaxşı mövzu seçmək və mövzu ilə əlaqədar müntəzəm məzmun yaratmaq vacibdir.

Müəlliflik göstəricilərinə görə aşağdakı bloq növlərini göstərmək mümkündür:

1. Şəxsi bloq (personal, şəxsi). Bir nəfər tərəfindən, adətən bloqu yaradan müəllif tərəfindən idarə olunur;
2. Kollektiv və ya sosial bloq. Müəllif tərəfindən müəyyən edilmiş bir qrup şəxs və ya moderatorlar tərəfindən konkret qaydalarla idarə olnur;
3. Koorporariv bloq. Bir kompaniyanın əməkdaşları tərəfindən idarə olunur.

Blogerlərin bir çoxu jurnalist olmadığından, jurnalistlərlə eyni etik qaydalarına bağlı qalmaları gözlənilir. Ancaq məsuliyyət sahibi blogerlər ictimaiyyətə sözlərini təqdim etdiklərini, paylaşdıqlarını və bu səbəbdən oxuyucularına, haqqında yazdıqları insanlara və ümumi mənada ictimaiyyətə qarşı müəyyən etik məcburiyyətlər altında olduqlarının fərqinə varmalıdırlar. Məsələn, Azərbaycan Baş Prokurorluğunun məlumatında qeyd edilib ki, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan Aleksandr Lapsin Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaşayan digər şəxslərlə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında", "Pasportlar haqqında" Qanunların tələblərini kobud şəkildə pozmaqla Azərbaycanın mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda keçərək 2011-ci ilin aprel və 2012-ci ilin oktyabrında işğal olunmuş ərazilərə daxil olub, qanunsuz rejimin beynəlxalq səviyyədə təbliğ edilməsi məqsədilə internet sosial şəbəkəsində özünə məxsus "http//puerrtto.livejournal.com" səhifəsində səyahət etdiyi dövlətlər arasında Azərbaycan və Ermənistanla yanaşı, Dağlıq Qarabağı da müstəqil dövlət kimi qeyd etməklə, həmçinin 6 aprel və 29 iyun 2016-cı il tarixli müraciətlərində işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən rejimin "müstəqilliyini" dəstəkləməklə, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar edib. Bu artıq "şəffaf" blogerlik fəaliyyətindən uzaqlaşır. Bu baxımdan da müəyyən qaydaların tətbiq olunması istənilən halda müsbət qiymətləndirilə bilər. İnternet qəzetlərinin etik çərçivəsini pozan və CyberJournalist.net tərəfindən yaradılan etik qaydalar bu sahədə yeni bir təşəbbüs olaraq qiymətləndirilir.

Ümumiyyətlə virtual jurnalistlər sırasında yer alan bloqçunun bir neçə şərti əhatə edən etik qaydaları mövcuddur:

- Bloqçular məlumatı toplayarkən xəbəri yazarkən və məlumatı şərh edərkən dürüst və ədalətli olmalıdırlar;
- Heç vaxt plagiata yolv verməməlidir;
- Qaynaqları dəqiqləşdirməli əlaqə adreslərinin linklərini verməlidirlər; İctimaiyyətin mənbənin etibarlılığı ilə bağlı mümkün olduğu qədər çox məlumatlandırılma haqqı var;
- Bloqdakı istinadlar - başlıqlar, fotolar və digər bütün materiallar səhv təqdim edilməməlidir. Mövzu təhrif olunmamalıdır;
- Doğruluğunu dəqiqləşdirmədiyi məlumatı əsla yayımlamamalı və əgər mübahisəli bir məlumat varsa, şübhəli olduğunu açıq bəyan etməlidir;
- Fotonun məzmununun dəyişdirildiyi açıqlanmadıqca əsla dəyişiklik edilməməlidir. Görüntülərdəki dəyişikliklər ancaq texniki dəqiqləşmə məqsədi ilə qəbul edilə bilər. Montaj və foto illüstrasiyalar qeyd olunmalıdır.

Bloggerlik və yeni media(xəbərçilik) Son illərdə internetin bir xəbər qaynağı olaraq gücü mövzusunda qızğın mübahisələr getməktədir. Rəsmiləşdiyi ilk gündən bəri internet insanlara səsini azad şəkildə eşitdirmə şansı verən bir məcra olmaq xüsusiyyətilə ön plana çıxmışdır. Belə ki, bir media olaraq varlığı və təqdim etdiyi imkanlar bu günə xas bir şey olmamaqla bərabər dəyişikliyi asanlaşmış istifadəsi və axtarış proqramları vasitəsilə texniki zəncirlərdən qurtulmuş olmağıdır. Bir neçə il bundan öncə bir sayt sahibi olmaq üçün veb səhifələrinin yaradılması üçün istifadə edilən HTML dili haqqında, şəkil quraşdırma proqramları və hazırlanmış səhifələri sayta yerləşdirmək üçün FTP proqramları haqqında biliklər tələb edilirdi. Bu gün isə veb üzərində səsinizi eşitdirmək üçün qarşınıza çıxan qutulara bir neçə məlumat yerləşdirmək kifayət edir. Saytınız bir neçə kliklemə ilə hazır olur. Dizayn və proqramlaşdırma kimi problemlər artıq geridə qalmağa başlamışdır. Bu səbəbdən də, bu texnologiyaların istifadəsi asanlaşdıqca özünü ifadə etmək istəyən nə qədər insan olduğu ortaya çıxmaqdadır. ABŞ-da və Rusiyada bəzi bloqlara KİV şəhadətnaməsi təqdim edilir. Rusiyada ilk dəfə Livejournal.com saytının **ottenkiserogo.livejournal.com** səhifəsinin müəllifinə KİV şəhadətnaməsi təqdim olunmuşdur. Verilən lisenziyaya əsasən, bloqçu Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olan reklam və xəbərlərlə çıxış edə bilər https://az.wikipedia.org/wiki/Bloq - cite_note-4.

Bloqların KİV kimi qəbul olunması bir çox ölkələrdə KİV-ə olan təzyiqlərin bloqlara da olmasına səbəb olur. Bu məsələ Google və Mərkəzi Avropa Universitetinin təşkil etdiyi "Azadlıqda İnternet 2010" tədbirində (20-22 sentyabr, Budapeşt, Macarıstan) "Hökumət və bloqçular arasında siçan-pişik oyunu" başlığı altında geniş müzakirə olunub.

2000-ci ilin noyabr ayı müstəqil jurnalist Joş Marşalın Florida ştatında ABŞ prezidentliyinə keçirilmiş seçkilərin mübahisəli nəticələrinə qarşı "Florida böhranı" adı altında müzakirələrə həsr olunmuş "*Talkning Points Memo*" (Danışıqların qeydi) adlı bloqun istifadəyə verilməsi də bloqların siyasiləşməsinin başlanğıcı hesab olunur.

NƏTİCƏ: Əgər informasiya əldə edib onun yayılmasını gerçəkləşdirmək, ifadə azadlığını həyata keçirmək kontekstindən yanaşsaq, deyə bilərik ki, blogger jurnalistika fəaliyyətilə məşğuldur. Azərbaycan qanunvericiliyində, "KİV haqqında" qanunda əsas anlayışlar bölməsində kütləvi informasiya vasitəsi olaraq INTERNET termininin işlədilməsi tam olaraq buna hüquqi əsas verir.

Bloger və oxucu arasındakı münasibətlər də ənənəvi jurnalistikada olduğundan fərqlənir. Bu, nə qəzetçilərin oxucularla, nə də televiziya əməkdaşlarının tamaşaçılarla olan əlaqələrinə bənzəmir. Burada əlaqə daha fərdi və dinamikdir. Qəzetdə və televiziyada oxucular və ya tamaşaçılar diqtə edirsə, burada vəziyyət tamam başqadır. Çünki televiziya və qəzetdən fərqli olaraq bloq sırf yazara xidmət edir. Artıq blogerlər yeni mediada öz yerlərini tutmağa başlayırlar. Bu da bloqları bəzən sərfəli qazanc hədəfinə çevirir. KİV və EİV həmin insanlarla müqavilələr imzalayır, böyük şirkətlər təbliğat

işlərini bloqlara təklif edirlər. Bundan əlavə, bütün sayt və bloqlarda yığılan reytinq bu sayta marketinq və reklam investorlarını cəlb edir. Online reklam ucuz olmaqla yanaşı, həm də çox gəlirli sahədir.

Bloq dünyaya açılan yeni pəncərədir. Yeni medianın bu növü sərhədsiz, hüdudsuz, ideal azad jurnalistikanı təmsil etməkdədir. Azərbaycan da dünyaya inteqrasiya edən bir ölkə olaraq bu növ jurnalistikanın ölkəmizə ayaq açmaqda olan sürətinə hazır olmalıdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Aynur Bəşirli. Yeni media jurnalistikası.Bakı, 2017, 661 səh.
2. Gündüz O. Yeni media. Bakı, 2012, 52 səh.
3. Gündüz O.Jurnalistlər üçün informasiya texnologiyaları. Bakı, 2009, 101 səh.
4. Məmmədli C.Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Bakı, 2012, 614 səh.

XARİCİ ƏDƏBİYYAT

5. Bill Kovach and Tom Rosenstiel. The Elements of Journalism. 58səh.
6. McQuail. Mass Communication Theory. 2002, 534 səh.
7. Necmi Emel Dilmen. Yeni medya kavramı çerçevesinde internet günlükleri. Bloglar ve qazeteciliğe yansımaları. 122 səh
8. Reed, Adam. 2005. My Blog Is Me. Texts and Persons in Uk Online Journal Culture.220 səh.

İNTERNET RESURSLARI

9. az.wikipedia.org/wiki/Bloq
10.xeberler.az/new/details/%C2%ABbloqcu-jurnalist-deyil%C2%BB--4648.htm
11. xeberler.az/new/details/bloqcu-ne-vaxtdan-jurnalist-olub--4771.htm
12.jurnalistikadersleri.wordpress.com/2014/11/24/bloggerlik-nec%C9%99 yarandi/
13. technote.az/az/blog-nedir-blogger-kimdir

Keywords: "blogging as citizen journalism", "citizen journalism", "blogger", "new media", "modern era", "journalism

Ключевые слова: «блогинг как гражданская журналистика», «гражданская журналистика», «блогер», «новые медиа», «журналистика».

Açar sözlər: "blogerlik vətəndaş jurnalistikası kimi", "vətəndaş jurnalistikası", "bloger", "yeni media", " müasir dövr", "jurnalistika"

XÜLASƏ

Müasir dövrdə insanlar tərəfindən sevilən platformalardan biri də blogdur. Onu əlçatan edən əsas xüsusiyyəti isə demək olar ki, heç bir məhdudiyyətinin olmaması və yaşından, kimliyindən, milliyətindən, cinsindən asılı olmayaraq, hər kəsin istifadə edə bilməsidir. Burada istifadəçinin maraq dairəsində olan mövzularla bağlı izləyici toplayaraq onlara həm yazılı formada, həm rəsmlərdən istifadə edərək, həm də video formatlı materiallarla gündəlik məlumatları çatdırması mümkündür. Belə bir sual yarana bilər ki, niyə məhz gündəlik məlumatlar?!

Bu məqalədə əsas məqsəd də müasir dövrdə insanların həyatına ciddi şəkildə nüfuz edən bu yeni istiqaməti dərindən araşdırmaq və onun jurnalistika sahəsi ilə bağlılığını müəyyənləşdirməkdir. Çünki bu blogerlik insanlara özlərini jurnalist kimi sınamağa imkan yaradır. Lakin burada ən mühüm məqam isə bu fəaliyyətin həqiqətən də jurnalistikaya uyğun olub, olmamasıdır. Hazırda müxtəlif mövzuları əhatə edən xeyli sayda blog səhifəsi var. Vətəndaş jurnalisti kimi qiymətləndirilən blogerlər də bu platforma vasitəsilə öz fəaliyyətlərini daha peşəkar səviyyəyə çatdıra bilərlər.

SUMMARY

"One of the most popular platforms in modern times is the blog. The main feature that makes it accessible is that it has almost no restrictions and can be used by anyone, regardless of age, identity, nationality or gender. Here, the user can gather an audience on topics of interest and provide them with daily information, both in writing and using drawings, as well as video materials. The question may arise, why daily information ?!

The main purpose of this article is to study in depth this new direction, which has a serious impact on people's lives in modern times, and to determine its connection with the field of journalism. Because this blogging allows people to try themselves as a journalist. However, the most important point here is whether this activity is really suitable for journalism or not. There are currently many blog pages on various topics. Bloggers who are valued as citizen journalists can also take their work to a more professional level through this platform.

РЕЗЮМЕ

Одной из самых популярных площадок в наше время является блог. Основная особенность, которая делает его доступным, заключается в том, что он практически не имеет ограничений и может использоваться кем угодно, независимо от возраста, идентичности, национальности или пола. Здесь пользователь может собрать аудиторию по интересующим его темам и предоставить им ежедневную информацию, как в письменной форме, так и с помощью рисунков, а также видеоматериалов. Может возникнуть вопрос, а зачем ежедневная информация?!

Основной целью данной статьи является углубленное изучение этого нового направления, оказывающего серьезное влияние на жизнь людей в современности, и определение его связи со сферой журналистики. Потому что это ведение блога позволяет людям попробовать себя в роли журналиста. Однако самым важным моментом здесь является то, действительно ли эта деятельность подходит для журналистики или нет. В настоящее время существует множество страниц блога на различные темы. Блоггеры, которых ценят как гражданских журналистов, также могут вывести свою работу на более профессиональный уровень с помощью этой платформы.

RƏYÇİ: dos.E.Vəliyeva

Əntiqə Nazim qızı Quliyeva[74]

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCAN DİLİ

Azərbaycan dilinin tarixi olduqca qədimdir. Ümummilli lider Heydər Əliyevin 9 avqust 2001-ci il tarixdə imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanda deyilir: "Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün dilin hər hansı xalqda bir neçə minillik tarixi yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır" [3, s, 4].

Azərbaycan dili hazırkı inkişaf səviyyəsinə birdən-birə çatmamışdır. İlk dövrlərdə dilimizin lüğət tərkibi, qrammatik quruluşu bəsit olsa da, tarixən inkişaf nəticəsində dilimizin lüğət tərkibi zənginləşmiş və qrammatik quruluşu təkmilləşmişdir.

Azərbaycan dili dünya dilləri sırasında quruluşuna, ahəngdarlığına, zəngin üslubi keyfiyyətlərinə və digər cəhətlərinə görə fərqlənir. F.de Sössür yazır: "Alpın mənzərəsini təsvir edərkən ona Yur dağlarının eyni zamanda bir neçə zirvəsindən baxmaq mənasız olardı. Mənzərə bir nöqtədən görünməlidir. Dilə münasibətdə də belədir: müəyyən bir vəziyyətdən çıxış etmədən onu nə təsvir etmək, nə də istifadə etdiyi normaları müəyyənləşdirmək mümkün deyil. Dilin təkamülünü izləyən dilçi perspektivi qeyd edərək Yur dağlarının bir qurtaracağından o birinə hərəkət edən müşahidəçiyə oxşayır" [4, s, 5]. Bu fikirlər Azərbaycan dilinə də aid edilə bilər. Çünki Azərbaycan dili zənginliyi ilə hər bir müstəvidə böyükdür.

Sultan Məcid Qənizadə dilimizin bənzərsizliyini bu sözlərlə ifadə edir: "Həqiqətən, bu dil öz təbiətinə görə çox elastikdir və asanlıqla zərif üslubi formalara düşmə bacarığına malik olmaqla öz xüsusiyyətləri ilə fəxr edə bilər. Bu xüsusiyyətlər öz mahiyyətinə görə çox maraqlıdır... buradakı xüsusiyyətlərə bənzər hadisələrə hər hansı bir başqa dildə az təsadüf etmək olar" [3, s, 6].

Uzun müddət dilimiz yad təsirlərə məruz qalıb, lakin buna baxmayaraq, ana dilimiz belə çətin şəraitdə öz orijinallığına, lüğət tərkibinə və məna çalarlarının zənginliyinə görə müasir dünyanın inkişaf etmiş dilləri səviyyəsinə yüksələ bilmişdir. Hal-hazırda Azərbaycan dili 50 milyondan artıq azərbaycanlıya xidmət etməklə, bütün həyatımızı əhatə edən qabaqcıl dil səviyyəsindədir.

Ulu öndər Heydər Əliyev demişdir: "Hər bir Azərbaycan vətəndaşı öz ana dilini Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir" [3, s, 5].

Qloballaşma- beynəlxalq əhəmiyyətə malik müxtəlif siyasi, iqtisadi, mədəni amillərin ayrı-ayrı ölkələrin varlığına artan təsir prosesidir.

"Qloballaşma" anlayışı etimoloji cəhətdən "qlobus" (lat)- yəni yer kürəsi sözü ilə əlaqədardır. [1, s, 15]

Dünyanın bir sıra ölkələri kimi, prezident Heydər Əliyevin sözləri ilə desək, "Azərbaycan qloballaşmanın müsbət mənada inkişafına öz töhfəsini verir" [7, s. 11].

Qloballaşma prosesinin dünyadakı dillərə təsiri nəticəsində mövcud olan dillərin yarıdan çoxu yox olmaq təhlükəsindədir. Bu təhlükə ilk olaraq "Kiçik xalqların" dilləri üzərinə düşür. Bununla bağlı olaraq YUNESKO yox olmaq təhlükəsində olan dillərdə olan problemlərin aradan qaldırılma yollarını araşdırmağı qarşıya məqsəd qoymuşdur, çünki bu dillər az istifadə olunmağına baxmayaraq hər hansı mədəniyyətin təzahürlərini özündə əks etdirir. Məhz buna görə də YUNESKO-nun təşəbbüsü ilə 2000-ci ilin 21 fevralından etibarən hər il "Beynəlxalq ana dili günü" kimi qeyd edilir. Onu da qeyd etməliyik ki, Azərbaycan da bu təşəbbüsə qoşulmuşdur. Bu günün keçirilməsində əsas məqsəd dil və mədəniyyət müxtəlifliyinin müdafiəsi və qorunmasına nail olmaqdır. Alimlərimizin fikrinə görə qloballaşmanın inkişaf məntiqini duyaraq ona qoşulmaq yeganə düzgün seçimdir. "Planetimiz böyük kəndə, dövlətlər isə burada qonşulara çevrilir. Qloballaşma bağlı qapıları açır, millətlər, xalqlar, fərdlər, müxtəlif iqtisadiyyatlar və mədəniyyətlər arasında yeni şərait yaradır. Qloballaşma nəticəsində fəza daralır, zaman sürətlənir, bizim məkana bağlılığımız əlimizdən alınır" [1, s, 12].

Qloballaşmanın güclənməsi mədəni sahədə bir sıra problemlər yaradır. Belə ki, müasir dövrdə xalqlar arasında mədəni əlaqələrin inkişafı, xalqların yaxınlaşmasını zəruri edir. Bu isə azsaylı xalqların böyük xalqların mədəniyyətinin təsirində unudulmasına gətirib çıxarır.

Qloballaşma eyni zamanda millətlərin yaxınlaşması və bir-birinə qaynayıb-qarışmasıdır.Bu, milli mədəniyyəylərin inkişafı və onların özünəməxsusluğunun qorunması sahəsində olduqca önəmlidir.

Alimlərin məlumatına görə, qlobal kommunikasiya sistemlərinin təsiri ilə milli dillərin "çirklənməsi" və bir-birinə nüfuz etməsi nəticəsində mədəniyyətə qaba davranış, ünsiyyət formaları, pis vərdiş və yad dəb elementləri aşılanır. Hər bir dilin arxasında onun inkişafını əks etdirən mədəniyyət durur.

"Dünyada nə qədər dil varsa, o qədər də düşünmə tərzi mövcuddur. Hər hansı bir dilin məhv olması ilə dünya fərqli düşünmək, dərk etmək, yaşayıb fəaliyyət göstərmək və beləliklə də, hökmran mədəniyyətdən fərqlənmək imkanından məhrum olur" [3, s, 8].

Bu mövzu son dövrlərdə olduqca işləkdir, bu barədə xeyli tədqiqat əsərləri, məqalələr yazılıb. Bu proses təkcə iqtisadi sahəyə yox, həmçinin ictimai, siyasi, mədəni sahələrə də ciddi təsir göstərməkdədir. Son dövrlər qloballaşma prosesinin

---

[74] Bakı Dövlət Universitetinin magistrantı

dilimizə təsiri də özünü aydın şəkildə göstərir və bu da Azərbaycan dilinin inkişafı istiqamətində mühüm tədbirlər görülməsini zəruri edir. Milli varlığımız sayılan ana dilimizi qoruyub saxlamaq, inkişafına əngəl olan mənfi təsirləri aradan qaldırmaq, dünya dilləri sırasına nüfuzlu dil kimi yüksəltmək hər bir Azərbaycan vətəndaşının borcudur. Bununla bağlı ümummilli lider Heydər Əliyev tərəfindən mühüm əhəmiyyətə malik sənədlər: "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının təşkilinin təsdiq edilməsi haqqında" Sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərman imzalanmışdır.

Son dövrlərdə qarşımızda mühüm əhəmiyyətə malik nəhəng problem durur. Belə ki, son onillikdə qlobal kommunikasiya sistemlərinin təsiri altında bir çox Azərbaycan sözləri kütləvi informasiya vasitələrində, danışıq dilində, dövlət sənədlərində və s. yabancı sözlərlə əvəz olunmuşdur [3, s, 9].

Dilimizin qorunması, saflığının təmin olunması və inkişaf etdirilməsində terminologiya mühüm əhəmiyyətə malikdir. Əvvəllər Azərbaycanda terminoloji mühit nəzarətdə idi. Çünki tərcümə materiallarının sayı çox deyildi və tərcümə prosesinə ciddi şəkildə nəzarət mövcud idi. Lakin son dövrlərdə, internetin cəmiyyətin həyatına olduqca sürətli nüfuz etməsi, insanların müxtəlif bilik sahələrinə aid məlumatlardan istifadə etməsi terminoloji mühiti nəzarətdə saxlamaqda çətin məsələyə çevrilib.Qloballaşmanın dilə təsiri dilin leksik səviyyəsi ilə birbaşa əlaqəlidir. Leksikanın fəal və işlək bölmələrindən olan terminologiya qloballaşmanın təsiri ilə dəyişir, yeniləşir.

Son dövrlərdə, dildə alınma sözlərin də sayı artmaqdadır. Bu isə dilin inkişafına mənfi təsir göstərir. Müasir dövrdə informasiya texnologiyaları hər hansı məlumata yiyələnmək üçün olduqca əlverişlidir. Və buna görə də İnternet resursları zənginləşdirilməli, dilimizin, ədəbiyyatımızın, musiqimizin qorunması və inkişafı üçün yeni saytlar yaradılmalıdır. Yəni, tələbələr şagirdlər hər hansı məlumata yiyələnmək istədikdə yabancı saytlara deyil, ana dilində olan İnternet resurslarına müraciət etməli və dolğun informasiya əldə edə bilməlidirlər. Bunun üçün veb-saytlarda, e-dərsliklərdə, e-qəzetlərdə və s. yad sözləri müəyyənləşdirmək və onları milli sözlərimizlə əvəzləmək dilimizin inkişafında olduqca mühüm addımdır.

Əlavə olaraq, onu da qeyd edə bilərik ki, bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və başqa sahələrdə Azərbaycan ədəbi dil normalarına əməl edilməməsi başlıca problemlərdən biridir.

Bütün bu problemləri nəzərə alaraq, qloballaşma dövründə dilimizin qayğısına qalaraq, dilimizi yad təsirlərdən qoruyaraq onun inkişafına nail ola bilərik.

İstifadə olunmuş ədəbiyyat

1. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik, Bakı: Elm, 2004, 263 s.
2. Bayramov A., Məhərrəmov Z., İsgəndərzadə M. Azərbaycan dili və nitq mədəniyyəti (dərs vəsaiti). Bakı: ULU İKF, 2015, 236 s.
3. Kazımov T. Azərbaycan dili və virtual məkan, Bakı: İnformasiyaTexnologiyaları, 2009, 42 s.
4. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: Elm və təhsil, 2014, 463s.
5. Qurbanova Ə. Virtual məkanda Azərbaycan dili: Bəzi problemlər və həlli yolları, Bakı: İnformasiya cəmiyyəti problemləri, №1, 2010
6. https://www.azerbaijan-news.az/view-23982/qloballasma-dovrunde-azerbaycan-dilinin-qorunmasi-obyektiv-sosial-zeruretdir
7. Şükürov A. Qloballaşma: Mahiyyəti və Perspektivləri, Bakı: Adiloğlu, 2001, 170 s.

Açar sözlər: Azərbaycan dili, qloballaşma, terminologiya, leksikalogiya
Key words: Azerbaijani language, globalization, terminology, lexicology
Ключевые слова: Азербайджанский язык, глобализация, терминология, лексикология

Qloballaşma şəraitində Azərbaycan dili

Xülasə

Azərbaycan dili zəngin tarixə malikdir. Uzun müddət yad təsirlərə məruz qalmasına baxmayaraq, dilimiz öz orijinallığını, lüğət tərkibini qoruyaraq inkişaf etmiş dillər sırasına yüksəlmişdir. Son dövrlər qloballaşma prosesi olduqca geniş yayılmışdır. Bununla bağlı xeyli tədqiqat əsərləri yazılmışdır. Qloballaşma dilimizin həm leksikasına, həm də terminologiyasına təsir etmişdir. Alınma sözlər, İnternet resurslarında olan yabançı sözlər dilimizin inkişafına mənfi təsir göstərir. Bunun qarşısını almaq üçün yad sözləri milli sözlərimizlə əvəzləmək lazımdır.

Azerbaijani language in the context of globalization

Summary

The Azerbaijani language has a rich history. Despite being exposed to foreign influences for a long time, our language has risen to the level of developed languages, preserving its originality and vocabulary. Recently, the process of globalization has become very widespread. Many research works have been written in this regard. Globalization has affected both the vocabulary and terminology of our language. Derived words, foreign words on Internet resources have a negative impact on the development of our language. To prevent this, it is necessary to replace foreign words with our national words.

Азербайджанский язык в контексте глобализации

Резюме

Азербайджанский язык имеет богатую историю. Несмотря на длительное воздействие иноземных влияний, наш язык поднялся до уровня развитых языков, сохранив свою самобытность и лексику. В последнее время процесс глобализации получил очень широкое распространение. По этому поводу написано много научных работ. Глобализация повлияла как на словарный запас, так и на терминологию наших языков. Производные слова, иностранные слова на интернет-ресурсах негативно сказываются на развитии нашего языка. Чтобы этого не допустить, необходимо заменить иностранные слова на наши национальные слова.

RƏYÇİ: dos. E.Vəliyeva

Лейла Алекперова, Таир Джафарли[75]

ИСПОЛЬЗОВАНИЕ КОМПЬЮТЕРНОЙ ТЕХНОЛОГИИ В ОБУЧЕНИИ ВТОРОМУ ЯЗЫКУ

Надо согласиться тем, что любая система образования не может быть независимой от общественного и политического устройства государства, она во все времена откликалась на социальный заказ. В силу этого политика Азербайджанского государства в последнее время направлена на то, чтобы внедрить информационные технологии в школы и вузы, привлечь к работе над новыми учебными материалами специалистов, а самое главное, к созданию электронной обучающей программы для школьников и студентов.

Необходимо, чтобы каждый преподаватель понял простую мысль: компьютер в учебном процессе – не механический педагог, не заместитель или аналог преподавателя, а средство при обучении детей, усиливающее и расширяющее возможности его обучающей деятельности. То, что преподаватель желает получить в результате использования машины, в неё необходимо запрограммировать.

Тогда компьютер берёт на себя львиную долю рутинной работы преподавателя, высвобождая ему время для творческой деятельности, которая на современном уровне развития техники не может быть отдана компьютеру.

Как известно, пригодность технических средств обучения и контроля для использования на занятиях по русскому языку определяется по следующим критериям:

во-первых, они должны способствовать повышению производительности труда и эффективности учебного процесса,

во-вторых, обеспечивать немедленное и постоянное подкрепление правильности учебных действий каждого учащегося;

в-третьих, повышать сознательность и интерес к изучению языка,

в-четвёртых, обеспечивать оперативную обратную связь и пооперационный контроль действий всех обучаемых,

в-пятых, обладать возможностью быстрого ввода ответов без длительного их кодирования и шифрования.

Как показывает практика, из всех существующих средств обучения компьютер наилучшим образом "вписываются" в структуру учебного процесса, наиболее полно удовлетворяют дидактическим требованиям и максимально приближают процесс обучения английскому языку к реальным условиям. Компьютеры могут воспринимать новую информацию, определённым образом обрабатывать её и принимать решения, могут запоминать необходимые данные, воспроизводить движущиеся изображения, контролировать работу таких технических средств обучения, как синтезаторы речи, видеомагнитофоны, магнитофоны.

Компьютерная техника существенно расширяет возможности преподавателей по индивидуализации обучения и активизации познавательной деятельности учащихся в обучении русскому языку, позволяют максимально адаптировать процесс обучения к индивидуальным особенностям учащихся. Каждый ученик получает возможность работать в своём ритме, т.е. выбирая для себя оптимальные объём и скорость усвоения материала.

Применение компьютеров на уроках русского языка значительно повышает интенсивность учебного процесса. При компьютерном обучении усваивается гораздо большее количество материала, чем это делалось за одно и то же время в условиях традиционного обучения. Кроме того, материал при использовании компьютера усваивается прочнее.

Компьютер обеспечивает и всесторонний (текущий, рубежный, итоговый) контроль учебного процесса. Контроль, как известно, является неотъемлемой частью учебного процесса и выполняет функцию обратной связи между учащимся и преподавателем. При использовании компьютера для контроля качества знаний учащихся достигается и большая объективность оценки. Кроме того, компьютерный контроль позволяет значительно сэкономить учебное время, так как осуществляется одновременная проверка знаний всех учащихся. Это даёт возможность преподавателю уделить больше внимания творческим аспектам работы с учащимися.

Ещё одно достоинство компьютера – способность накапливать статистическую информацию в ходе учебного процесса. Анализируя статистические данные (количество ошибок, правильных/неправильных ответов, обращений за помощью, времени, затраченного на выполнение отдельных заданий и т.п.), преподаватель судит о степени и качестве сформированности знаний у учащихся.

Необходимо отметить, что компьютер снимает такой отрицательный психологический фактор, как «ответобоязнь».

Во время традиционных аудиторных занятий различные факторы (дефекты произношения, страх допустить ошибку, неумение вслух формулировать свои мысли и т.п.) не позволяют многим учащимся показать

[75] BDU dosentləri

свои реальные знания. Оставаясь же "наедине" с дисплеем, учащийся, как правило, не чувствует скованности и старается проявить максимум своих знаний.

Благоприятные возможности создают компьютеры и для организации самостоятельной работы учеников на уроках русского языка. Учащиеся могут использовать компьютер как для изучения отдельных тем, так и для самоконтроля полученных знаний. Причём компьютер является самым терпеливым педагогом, способным сколько угодно повторять любые задания, добиваясь правильного ответа и, в конечном счёте, автоматизации отрабатываемого навыка.

Однако, сказав о достоинствах компьютеров надо отмечать и некоторые недостатки. Диалектичность педагогических явлений состоит в том, что какое бы то ни было, положительное само по себе свойство или качество целостного учебно-воспитательного процесса оборачивается своей противоположностью и становится крайне нежелательным при неумеренном, гипертрофированном проявлении, подавляющем другие, не менее важные свойства. Это замечание имеет самое непосредственное отношение к индивидуализации обучения, тем более что в условиях компьютеризации существенно меняются условия взаимодействия педагога и учащихся, а также учащихся друг с другом.

Уже на первом этапе обучения русскому языку азербайджанцев, в процессе постановки целей и задач предстоящей познавательной деятельности учащихся учитель участвует опосредованно. Непосредственное предъявление заданий учащемуся осуществляет компьютер. Конечно, учитель должен принимать самое активное участие в составлении обучающих программ, определяющих последовательность действий учащегося в решении той или иной задачи. Но в реализации важнейшей психолого-педагогической функции обучения – предъявлении и принятии учащимися целей и задач учебно-познавательной деятельности – в условиях компьютеризации возможен острый дефицит непосредственного общения учителя и ученика, живого слова учителя.

Хотя передача всех функций преподавателя машине в принципе возможна, идею полной автоматизации обучения едва ли можно рассматривать как практически реализуемую и гуманную. Обучение немыслимо без воспитывающего воздействия личности обучающего на учеников, а для этого необходим их непосредственный контакт.

Литература

1. Алтуфьева А. А.. Некоторые основные проблемы создания общего языка общения в системе Интернет http://linguact.hyperlink.ru/articles/altufjeva.html
2. Божович Л. И. «Изучение мотивации детей и подростков» Просвещение 1972
3. Зимняя И. А.-Психологические аспекты обучения говорению на иностранном языке. - М. Просвещение, 1978

XÜLASƏ

Məqalədə rus dilinin tədrisi prosesində kompüter texnologiyasından istifadəsindən danışılır və bununla bağlı ortaya çıxan bəzi məsələlər təhlil olunur. Bununla yanaşı qeyd olunur ki, kompüter müəllimi əvəz etsə də, onun dərs prosesində tərbiyəvi rolu inkar olunmazdır

РЕЗЮМЕ

В статье рассматриваются некоторые вопросы использования компьютерной техники в процессе обучения русскому языку. В связи с этим анализируются дидактические проблемы.

SUMMARY

The article discusses some issues of using computer technology in learning the Russian language. In this regard, analysis of teaching problems.

RƏYÇİ: dos. S.Abbasova

Elsanə Qənbər qızı Əliyeva[1]

QRAMMATİK MƏFHUMLARIN MƏNİMSƏNİLMƏSİNDƏ MƏNTİQİ ARDICILLIQ

Müasir təhsilin ümdə vəzifələrindən biri yaddaş məktəbindən düşüncə və fəaliyyət məktəbinə keçidi təmin etmək, şəxsiyyətyönümlülük, şagirdyönümlülük kimi prinsiplərə əsaslanmaqla şagirdi həyata hazırlamaq, kamilləşdirməkdir. Həyatda uğur qazanma isə müəllimin peşəkarlığından, onda cəmləşən səriştə kompleksindən çox asılıdır. Müasir müəllimin vəzifəsi bilikləri ötürmək yox, şagirdin özündə yaranan, düşüncə tərzini formalaşdıran yeni fəaliyyət növlərini dəstəkləməkdir. Bu gün təlim prosesində nəticənin standarta müvafiq alınması, biliklərdən maksimum səmərəli istifadə etmək bacarığının formalaşması şagirdlərin müstəqil fəaliyyətindən, şüurlu axtarış qabilliyyətindən, yeni fəaliyyət növlərindən düzgün istifadə etmə imkanlarından çox asılıdır.

Nəticəyönümlü standartlar əsasında hazırlanan, Azərbaycan dili təliminin məzmununu özündə daşıyan mətnlər üzrə işin düzgün qurulması, metodiki işin səmərəli təşkili və inteqrativliyin gözlənilməsi, hər şeydən öncə, şagirdlərin təlim materiallarına şüurlu münasibətindən, müstəqil fəaliyyətindən asılıdır. Yəni şagird hər hansı bir qrammatik məfhum və qaydaya, onu əsaslandıran dil faktına öz təfəkkürünün inkişafı səviyyəsindən yanaşmasa, qaydanı əzbərləyəcək, həmin qaydaya aid dil nümunələrini göstərməkdə isə çətinlik çəkəcəkdir. Məhz bu məsələlərə görə fənn kurikulumunda imkan, meyl və maraqları nəzərə alınmış, "məzmun standartları hazırlanarkən şagirdlərin idraki, informativ-kommunikativ və qeyri-iradi fəaliyyətlərinin əhatə olunması, düşünmə, emosional və psixomotor bacarıqların da inkişaf etdirilməsi nəzərdə tutulmuşdur" (3,6).

Azərbaycan dili dərslərində qrammatik anlayışların formalaşması prosesi ibtidai təlim səviyyəsindən etibarən başlayır. Uşaqlar ailədən, məişətdən gətirdikləri söz ehtiyatlarını artırmaq hesabına qrammatik məfhumları da, ilk olaraq, mücərrəd anlayış olan ad, hərəkət, əlamət adı altında öyrənir, ümumi biliklərə sahiblənirlər. Sonrakı mərhələlərdə idraki inkişafın səviyyəsinə münasib olaraq onları əsas və ikinci dərəcəli əlamətlərinə görə fərqləndirir, xarakterik cəhətləri dəqiqləşdirməyə başlayırlar.

Azərbaycan dili təlimin dinləyib-anlama və danışma məzmun xətti üzrə işlə başlaması təsadüfi deyildir. Cisim və hadisə haqqında ilk anlayışların, təsəvvürlərin formalaşması da bu prosesin başlanğıcıdır. Ayrı-ayrı obyektlərin xüsusiyyətlərinin mücərrədləşməsi sayəsində qrammatik məfhumlar yaranır. Məntiqdə isə məfhum obyektləri ümumi və fərqləndirici xüsusiyyətinə görə bir yerə toplayan, ümumiləşdirən düşüncə kimi qəbul edilir.Yəni anlayış dünyanın rasional, məntiqi bilik səviyyəsində əks olunma formalarından biridir. Mücərrəd təfəkkürün əsas formalarından olan "məfhum eyni cinsdən olan və bir-birinə oxşayan əşya və hadisələrin mühüm əlamətlərinin, xüsusiyyətlərinn insan şüurunda ümumiləşdirilmiş inikasıdır" (4,4).

Fonem, leksem, morfem, söz, söz birləşməsi, cümləyə aid olan əsas xüsusiyyətlərin mücərrədləşməsinin nəticəsi olaraq qrammatik məfhum yaranır. Qrammatik məfhumları ümumiləşdirən kateqoriyaların mücərrədliyi isə özlüyündə həmin anlayışları dərk etmək və qavramaqda çətinliklər yaradır. Zehni əməliyyatların mənimsənilməsinə yönəlmiş xüsusi məşqlərdən (təhlil, sintez, müqayisə, təsnifat, ümumiləşdirmə və s.) istifadə etmədən şagirdlərin mücərrəd təfəkkürünü inkişaf etdirmək, anlayışları məntiqin qəbul edəcəyi situasiyaya uyğunlaşdırmaq mümkünsüzdür.

Müəllim dil qaydalarını öyrədərkən sadədən mürəkkəbə, azdan çoxa, məlumdan məchula prinsiplərini, məntiqi ardıcıllığı, dinləyib-anlama, danışma, oxu, yazı məzmun xətləri arasında inteqrativliyi gözləməli, təlimi strategiya və qiymətləndirməni fənnin məzmununa, şagirdlərin yaş səviyyəsinə, mənimsəmənin mərhələlərinə uyğun qurmalıdır.

Biz bilirik ki, müasir təlimdə pedaqoji proses mətn konteksində qurulur və linqvistik konsepsiyanın formalaşması da müəyyən mərhələlərdən keçməklə öz həllini tapır. Linqvistik materialın təhlili zamanı sözün fonetik, leksik, qrammatik mənasındakı mücərrədlik təmin edilir və verilmiş dil hadisəsinin xarakterik cəhəti vurğulanır. Şagird ilk olaraq zehni əməliyyatlar aparmaqla səs, söz, söz birləşməsi və cümləni ümumi ad altında, mücərrəd formada qəbul edir. Məsələn, səsin ümumi cəhətlərini, sözün lüğəvi mənasını, söz birləşməsinin iki və daha artıq sözdən ibarət olmasını, cümlənin bitmiş bir fikri ifadə etməsini öyrənir. Bundan sonrakı mərhələdə xüsusiyyətlər ümumiləşdirilir, onların bir-biri ilə əlaqəsi təsbitlənir və terminlərin tətbiqi başlanılır. Şagird təhlil və müqayisə etmə əməliyyatlarına sahiblənir. Məsələn, sait səsi samit səsdən, sözün mənasını mənşəyindən, sabit söz birləşməsini sərbəst söz birləşməsindən, nəqli cümləni sual cümləsindən fərqləndirməyə başlayır. Növbəti mərhələdə anlayışların tərifi, əlamətlərin mahiyyəti və onlar arasında əlaqənin aydınlaşdırılması təmin edilir. Şagird bilir ki, əşyanın adını bildirən, kim?, nə?, hara? sualına cavab verən, cümlə üzvü kimi əsasən mübtədanın ifadə vasitəsi olan nitq hissəsi isimdir və o, sifət, feil, say, əvəzlik, zərfdən hansı əlamətlərinə görə fərqlənir. Məntiqi nəticə olaraq şagirdlər öyrəndikləri qrammatik anlayışları yeni dil materialları üzərində konkretləşdirir və onlarda mənimsənilən bilikləri nitq praktikasında tətbiq etmək bacarığı formalaşır. Müasir Azərbaycan dili təliminin ən yaxşı cəhətlərindən biri də odur ki, məfhum və anlayışlar, ümumilikdə söz və onun leksik-semantik mənası mətn üzrə işlərdə mənimsənilir. Şagirdlərsə mətnlərlə yalnız Azərbaycan dili dərslərində deyil, digər fənlərin tədrisində də rastlaşırlar. İnformativlik, ayrı-ayrı mətnlərin məzmunu üzərində işlər şagirdin məntiqi təfəkkürünün daha sürətlə formalaşmasına kömək edir.

Dinlədiyi fikri anladığını, tanış olmayan sözləri, mətnin məzmun və strukturunu, dil qaydalarını mənimsədiyini, rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirmə bütövlükdə məntiqi təfəkkürü inkişaf etdirən fəaliyyətlərlə bağlıdır. İnduktiv-deduktiv metod müasir dil dərslərində ən çox istifadə olunan metodlardandır və bu heç də təsadüfi deyildir. Çünki

[1]*Azərbaycan Dövlət PedaqojiUniversitetinin magistrant;*

bu metodların daxili təbiətində, bu metod üzrə qurulan işin istiqamətlərində bir məntiqi ardıcıllıq var. Ümumilkdə induktiv üsul şagirdlərə dil faktlarını təhlil edib ümumiləşdirmələr aparmağa imkan yaratmaqla, onlarda nəticə çıxarmaq bacarığı da formalaşdırır. Məsələn, mürəkkəb anlayış olan nitq hissələrini induktiv üsulla öyrənmək daha məqbuldur.

Müəllim yaxşı bilir ki, şagirdlər ibtidai sinifdən nitq hissələri haqqında ilkin təsəvvürlərə malikdirlər. Onlar ismi ad, feili hərəkət, sifəti əlamət bildirən anlayış kimi tanıyır və termin kimi isim, sifət, feil sözlərindən də məlumatlıdırlar. VI sinifdə "Əlvida, "bilmirəm" mətni üzrə işdə də dil qaydası olaraq nitq hissələri haqqında məlumat zamanı şagirdlərin diqqəti mətndə göy rəngdə verilmiş "*Mənə dedi ki, əsl Hollivud aktrisası kimi qaralmısan*" cümləsinə yönəldilir və hər bir sözün sualını müəyyənləşdirmək tapşırılır. Şagirdlər *mənə, dedi, , Hollivud, aktrisası, qaralmısan* kimi sözlərin suallarını (*kimə?, nə etdi?, hara?, nəyi?, nə etmisən?)* müəyyənləşdirir və *ki, əsl, kimi* sözlərə isə sual verə bilmirlər. Müəllim Venn diaqramından istifadə edərək bu sözləri müqayisə edir, ümumiləşdirir və belə bir təlimi qaydanı öyrədir ki, əsas nitq hissələrinin leksik mənası olur və müəyyən bir suala cavab verir. Köməkçi nitq hissələri isə qrammatik məna daşıyır və onlara sual vermək olmur. Bu mərhələdə şagirdlər köməkçi nitq hissələri haqqında məlumata tam sahib deyillər və *ədat, qoşma* kimi terminləri də tanımırlar. Yəni onların məntiqi düşüncəsi bu anlayışları fərqləndirməkdə, konkretləşdirməkdə acizdir. Çünki köməkçi nitq hissələri və onlara aid terminlər haqqında məlumat VII sinifdə veriləcəkdir. Bütün bunlar onu deməyə əsas verir ki, qrammatik məfhum haqqında məlumatlar təlimin məzmumuna, məntiqi ardıcıllığa və şagirdlərin yaş səviyyəsinə uyğun olaraq verilməlidir.

Ədəbiyyat

1. Azərbaycan dili – 6. Dərslik. Bakı, 2013, 191 s.
2. Azərbaycan dili – 6. Müəllim üçün metodik vəsait. Bakı, 2013, 175 s.
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, 2015, 209 s.
4. Fərəcov Ə. Qrammatik məfhumların mənimsənilməsi. Bakı, 1967, 120 s.
5. İsrafilov M. Məntiq. Bakı, 1987, 333 s.

Açar sözlər: məfhumlar sistemi, qrammatik kateqoriya, qrammatik məfhum, dil faktı, məntiqi təfəkkür.

Ключевые слова: система понятий, грамматическая категория, грамматическое понятие, языковый фактор, логическое мышление.

Keywords: system of concepts, grammatical category, grammatical concept, language factor, logical thinking.

XÜLASƏ

Məqalədə təfəkkür prosesinə, məntiqi ardıcıllığa əsaslanmaqla şagirdlərdə qrammatik məfhumları formalaşdırmanın üsul və yolları araşdırılır. Göstərilir ki, elmi məfhumlar sistemini şüurlu yanaşma əsasında dərk etmədən elmin əsaslarına sahiblənmək qeyri-mümkündür. Cisim və hadisələrin əsas xüsusiyyətlərini bilmədən onların arasındakı əlaqə və münasibətləri, qanunauyğunluqları anlaya bilmədiyimiz kimi, qrammatik məfhumları da formalaşdırmadan Azərbaycan dilinin başlıca xüsusiyyətlərini başa düşə, dil materiallarını şüurlu mənimsəyə bilmərik. Məntiqi yanaşma olmadan qrammatik məfhumları müəyyən etmək, onların əsas əlamətlərini göstərmək, qrammatik terminlərin məzmununu anlamaq çətindir. Bunun nəticəsi olaraq şagirdlər ən mürəkkəb məfhumun tərifini əzbər söyləsə də ona aid nümunələr göstərə bilmir. Metodologiya göstərir ki, bu çətinliyi aradan qaldırmağın yolu dili təfəkkürün inkişafi ilə vəhdətdə öyrənməkdən keçir.

Логическая последовательность в освоении грамматических понятий

Р Е З Ю М Е

В статье рассматриваются способы и пути формирования у учащихся грамматических понятий на основе процесса мышления и логической последовательности. Подчеркивается, что невозможно овладевать основами науки без осознанного подхода к системе научных понятий. Подобно тому, как без знания основных особенностей предметов и явлений невозможно осознать взаимосвязь и закономерности между ними, так и невозможно понять главные особенности азербайджанского языка, осознанно усвоить языковый материал без формирования грамматических понятий. Без логического подхода трудно определить грамматические понятия, указать на их основные признаки, понять содержание грамматических терминов. И как результат, если учащиеся хоть и могут запомнить наизусть определение самого сложного понятия, но приводить примеры затрудняются. Как показывает методология, путь для преодоления подобной сложности состоит в единстве изучения языка и развития мышления.

LOGICAL CONSULTATION IN THE DEVELOPMENT OF GRAMMATICAL CONCEPTS

S U M M A R Y

The article discusses the ways and means of forming grammatical concepts in students based on the process of thinking and logical sequence.

It is emphasized that it is impossible to master the basics of science without a conscious approach to the system of scientific concepts. Just as without knowledge of the main features of objects and phenomena it is impossible to understand the relationship and patterns between them, so it is impossible to understand the main features of the Azerbaijani language, to consciously assimilate the language material without the formation of grammatical concepts. Without a logical approach, it is difficult to define grammatical concepts, point out their main features, and understand the content of grammatical terms. And as a result, although students can memorize the definition of the most complex concept, they find it difficult to give examples. As the methodology shows, the way to overcome such complexity lies in the unity of language learning and the development of thinking.

RƏYÇİ: dos. S.Abbasova

Miradə Axundova Əhməd qızı[1]

SƏMƏD VURĞUNUN "AZƏRBAYCAN" ŞEİRİNİN TƏDRİSİ

Orta məktəbin VII sinfində S.Vurğunun "Azərbaycan" şeiri tədris olunur. Bu şeir vasitəsilə şagirdlər heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini müəyyənləşdirməyi öyrənirlər.

"Azərbaycan" şeirinin 16-cı bəndində iki dəfə "Qarabağ" sözünü işlətməsi ilə vətənpərvər şair, bir tərəfdən vətənin bu parçasına necə yüksək önəm verdiyini göstərir, digər tərəfdən də o cənnətməkan yerlərin faciəli gələcəyini görürmiş kimi, sövqi-təbii olaraq, narahatçılığını büruzə verirdi. "Könlüm keçir Qarabağdan" ifadəsi ilə duyğusal şairin indi milyonlarla azərbaycanlı üçün könül dağına çevrilmiş o şahənə yerlərə həsrət qalacağımızı sanki əvvəlcədən duyması heyrət doğurur. Qarabağın himninə çevrilmiş möhtəşəm "Qarabağ şikəstəsi"nin sonunda həmin bəndin oxunması da bu şeirin əzəmətinin göstəricisidir. Şeirin 18-ci bəndi bütövlükdə Azərbaycan ədəbiyyatına, ona verilən dəyərə həsr edilib. S.Vurğun dahi Nizamini və Füzulini xatırlayaraq, əsl sənət əsərlərinin və sənətkarın ölməzlik fikrini önə çəkib. O, "Deyilən söz yadigardır" ideyasına əminlik bildirərək, bütün vətən yazarlarını hünər və cəsarətlə qəlblərində kini deməyə, yazmağa səsləyir. "Azərbaycan"şeirində mühüm bir ideya bütün şeir boyu qırmızı bir xətt kimi keçir.Bəndləri bir-birinə bağlayan bu qırmızı xətt böyük şairin Vətən sevgisi, Vətənə olan məhəbbətidir. O, bu məhəbbəti bənddən-bəndə yeni rənglərlə,yeni çalarlarla,amma tam səmimiyyətlə izharedir və sanki onu təkrar-təkrar nümayiş etdirməkdən zövq alır, rahatlıq tapır. Şeirdə Vətənlə bağlıı fadələri- "Azərbaycan", "vətən", "elim", "obam", "yurdum", "yuvam", məskənim" - sevə-sevə işlətməsi, şairin bu torpağa, bu Vətənə, bu yurda bağlılığının bariz nümunəsidir.Ölməz şair:

Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan? (1, 37)

- deyərək, Vətəni anası kimi doğma bilir, ona, ən əziz bir insana müraciət edən kimi, hər dəfə "Gözəl vətən!"deyə müraciət edir,Vətən-ana vəhdətindən söz açır və bu sevgisini, ülvi hissini ən yüksək mərtəbəyə qaldırır.

Şeir heca vəznində, 4+4 bölgüsü ilə, beşlik bəndlərlə yazılmışdır. Hər bəndin məzmunu, əsasən son 3 misrada ifadə olunur, ilk iki misra isə birlikdə bitkin bədii lövhə təşkil edir. Lakin bəndin bütün misraları heyranedici bir tərzdə bir-birini tamamlayır. Səməd Vurğunun "Azərbaycan" şeirinin tədrisi heca vəzninin qaydalarını, daxili bölgünü, məntiqi və emosional vurğunu, ritmi, ahəngi öyrənmək baxımından çox funksiyalı rol daşıyır. Əsərin ideya-bədii xüsusiyyətlərinin tədrisi birbaşa olaraq əsərin vəzn sisteminin düzgün öyrədilməsindən asılıdır. Düzgün intonasiya, fasilə və ahəng əsərin həm üzdə olan, həm də gizlin olan mətləblərinin açılmasına yardımçı olur.

Aşağıda S.Vurğunun "Azərbaycan" şeirinin təhlili üzrə iş əsasında qurduğumuz dərs nümunəsini təqdim edirik.

Standart.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota) rolunu aydınlaşdırır.

2.2.1. Müzakirələrdə ədalətlilik və obyektivlik nümayiş etdirir.

3.1.1. Mövzu ilə bağlı əlavə mənbələrdən topladığı materialları əlaqələndirir, yazısında istifadə edir.

Təlim nəticələri.

1. Əsərin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır.
2. Fərqli fikirlərə ədalətli, obyektiv münasibət nümayiş etdirir.
3. Müxtəlif mənbələrdən topladığı materialları əlaqələndirib istifadə edir.

Dərsin tipi: induktiv, bədii əsərin öyrədilməsi

İş forması: kiçik qruplarla iş

Metod və priyomlar: müsahibə, ikihissəli gündəlik

Təchizat: dərslik, şeirin məzmununa uyğun videoçarxlar, illüstrasiyalar, iş vərəqləri

Motivasiya, problemin qoyuluşu: İnternetdənS.Vurğunun "Azərbaycan" şeirini şairin öz dilindən şagirdlərə dinlədirik və onlarla şeiri dinlərkən keçirdikləri hisslər barəsində sorğu aparırıq.

Tədqiqat sualı: Şeir vətənimizə həsr olunmuş digər əsərlərdən nə ilə fərqlənir? Fərziyyələr dinlənilir və qeydlər aparılır.

Tədqiqatın aparılması: Bu mərhələdə şagirdləri kiçik qruplarda birləşdiririk. Hazırladığımız sualları şagirdlərə iş vərəqlərində təqdim edirik.

"Vətən" qrupu:

1. Şeirin hansı bəndində vətənin gözəllikləri, sərvətləri daha dolğun ifadə olunmuşdur?
2. S.Vurğunun "Azərbaycan" şeirinin ilk iki bəndi üzərində işləməklə fikirlərinizi ikihissəli gündəlikdə yazın.

"Qarabağ" qrupu:

Şeirin mövzu və ideyasını müəyyənləşdirin:

a) Müəllifin əsərin mövzu və ideyasına münasibəti
b) Sizin əsərin mövzu və ideyasına münasibətiniz.

"Bakı" qrupu: Şeirdə hansı bədii təsvir və ifadə vasitələrindən istifadə olunmuşdur?

---

[1]Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı

"Azərbaycan" qrupu: S.Vurğunun "Azərbaycan" şeiri ilə Ə.Cavadın "Azərbaycan! Azərbaycan!" şeirinin müqayisəli şəkildə təhlilini verin.

Məlumatın mübadiləsi və müzakirəsi: Qruplar apardıqları tədqiqatın nəticələrini təqdim edirlər. Müzakirə zamanı müəllim dialoji nitq bacarığının nümayişinə, fikirlərin sərbəst söylənməsinə diqqət yetirir. Bu mərhələdə şagirdlərin fəallığına səy göstərilməlidir. Hər bir qrup digər qrupların cavablarına münasibət bildirir, əlavələr edir mövqelərini misallarla əsaslandırmağa çalışır.

Nəticənin çıxarılması, ümumiləşdirilmənin aparılması: Şagirdlər şeirlə bağlı fikirlərini, şairin vətənpərvərlik hisslərinin şeirdə öz əksini necə tapması barədəki mülahizələrini ümumiləşdirir və nəticə çıxarırlar. Daha səmərəli olması üçün bu mərhələdə əvvəlcədən hazırladığımız suallardan istifadə edirik.

1. Şeirdə hansı bədii xüsusiyyətlər diqqətinizi daha çox çəkdi?
2. Şeirin ideyasını yığcam şəkildə necə ifadə edərsiniz?

Qiymətləndirmə:

Qiymətləndirmə meyarları: Aydınlaşdırır, nümayiş etdirir, istifadə edir

I səviyyə

Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir.
Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir.
Şeirlə bağlı fikirlərini mətndən nümunələr gətirməklə şərh etməkdə çətinlik çəkir.

II səviyyə.

Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən müəllimin köməyi ilə aydınlaşdırır.
Şeirdə bədii təsvir və ifadə vasitələrini suallar verməklə müəyyənləşdirir.
Şeirlə bağlı fikirlərini müəllimin köməyi ilə mətndən nümunələr gətirməklə şərh edir.

III səviyyə

Şeirdə tanış olmayan sözlərin mətnə uyğun mənasını lüğətlərdən aydınlaşdırmaqda bəzən çətinlik çəkir.
Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə bəzən çətinlik çəkir.
Şeirlə bağlı fikirlərini mətndən bəzi məqamlarda müvafiq nümunələr gətirməklə şərh edir.

IV səviyyə

Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə aydınlaşdırır.
Şeirdə bədii təsvir və ifadəvasitələrini tam əhatə etməklə müəyyənləşdirir
Şeirlə bağlı fikirlərini mətndən ardıcıl olaraq müvafiq nümunələr gətirməklə şərh edir.

Ev tapşırığı: "Azərbaycanın füsunkar təbiəti" haqqında esse yazın.

Ədəbiyyat

1. Səmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. (Dərslik). Bakı: "Proqres" nəşriyyatı, 2012, 434 s
2. Həsənli B., Hüseynoğlu S., Məmmədova S., Mustafayeva A. Ədəbiyyat. VII sinif. Müəllim üçün metodik vəsait. Bakı: "Bakı" nəşriyyatı, 2018, 211s
3. Həsənli B., Hüseynoğlu S., Verdiyeva N., Mustafayeva A. Ədəbiyyat. IX sinif. Müəllim üçün metodik vəsait. Bakı: "Bakı" nəşriyyatı, 2020, 226s.

Acar sözlər: Səməd Vurğun, heca vəzni, lirik şeirlər, təbiətin təsviri, vətən sevgisi, daxili bölgü

Ключевые слова: Самед Вургун, вес слога, лирические стихи, описание природы, отечественная любовь, внутреннее подразделение

Keywords: Samad Vurgun, syllable weight, lyrical poems, description of nature, patriotic love, internal division

Xülasə

Məqalədə ümumtəhsil məktəblərində heca vəzninin tədrisi məsələlərinə toxunulub. Heca vəzninin tələbləri, şərtləri, ahəngi Səməd Vurğunun "Azərbaycan" şeiri üzərində tədqiq edilib. Məlum olmuşdur ki, heca vəznində müxtəlif hecalı, mövzulu, ideyalı, təsirli poeziya nümunələri göstərmək olar. Bundan əlavə, heca vəznində daxili bölgü, ritm, ahəng məsələlərinin tədrisi araşdırılmışdır. Səməd Vurğun məşhur "Azərbaycan" poemasının 22 bəndinin hər birində Vətən haqqında öz fikirlərini ifadə edir və onları güclü poetik obrazlardan istifadə etməklə oxucuya daha dolğun çatdıra bilir. Bütün bunlar şeiri yaddaslardan silinməyən ölməz bir əsərə cevirir.

Слоговый ритм и способы его обучения в стихотворении «Азербайджан» С.Вургуна

Резюме

Величайший азербайджанский поэт, первый народный поэт Самед Вургун написал известное стихотворение "Азербайджан", когда ему было 28 лет. Отличия поэзии от бытовой мистики, нагрузки патриотизма и многогранности картины страны. В этом стихотворении отражено энциклопедическое содержание. Такого результата автор добивается благодаря сложной поэтической структуре. Каждый из 22 абзацев выражает собственные представления поэта о Родине и способен более полно донести их до читателя, используя мощную поэтическую образность. Все это делает поэму бессмертным произведением, которое невозможно стереть из памяти.

Teaching syllables in S.Vurgun's poem "Azerbaijan"

Summary

The greatest Azerbaijani poet, the first Azerbaijani poet Samad Vurgun wrote the famous Azerbaijani poem when he was 28 years old. Differences between the poetry of domestic mysticism, patriotism load and multi-faceted picture of the country. This poem reflects the encyclopedic content. The author achieves this result thanks to the complex poetic structure. Each of the 22 paragraphs expresses the poet's own ideas about the motherland and is able to convey them more fully to the

reader, using powerful poetic imagery. All of this makes the poem a work of immortality that cannot be erased from memory.

RƏYÇİ: dos.S.Abbasova

Levla Talıb qızı Oədirli[1]

I-IV SİNİF AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİ VƏ METODİK VƏSAİTLƏRİNDƏ MƏNTİQİ ÇALIŞMALAR

İbtidai sinif dərsliklərini vərəqləsək, müxtəlif tipli çalışma nümunələrinə rast gələ bilərik. Hər bir çalışma nümunəsi şagirdlərin zehni inkişafı üçün olduqca əhəmiyyətlidir. Məntiqi çalışmalar, üzündən köçürmə yazılar, imlalar və s. tipli orfoqrafik çalışmalar həm yazı vərdişlərini, həm də şifahi nitqi formalaşdırır. Biz məntiqi çalışmalar haqqında məlumat verərkən onların da orfoqrafik çalışma nümunələri ilə bilavasitə bağlı olduğunu deyə bilərik. Çünki məntiqi çalışmalar da quruluşca orfoqrafik çalışmaların bəzi xüsusiyyətlərini daşıyırlar. Məsələn, biz məntiqi çalışmaları nəzərdən keçirsək görə bilərik ki, bu tip çalışmalarda nümunələr seçmək, bənzər halların müqayisəsi, qaydaların dəqiqləşdirilməsi, ümumiləşdirilmələrin aparılması və s. məsələlərə rast gəlinir. Bu məsələlər həmçinin orfoqrafik tipli çalışmaların da əsasını təşkil edir.

Orfoqrafik çalışmaların müxtəlif xarakterləri olur. Əsasən isə üç növü göstərilir ki, bu da N.S.Rojdestvenskinin bölgüsünə əsasəndir. Bunlar aşağıdakılardır:

1) Şagirdlərin qavrama fəaliyyətinin xarakterinə görə;
2) Dərsin keçirilmə məqsədinə görə;
3) Çalışmalar yerinə yetirilərkən iştirak edən şagirdlərin xarakterinə görə.

Şagirdlərin qavrama fəaliyyətinin xarakterinə görə çalışmalar özü də üç qrupa ayrılır: 1) analitik tipli çalışmalar; 2) sintetik tipli çalışmalar; 3) analitik-sintetik tipli çalışmalar.

İndi isə gəlin bu çalışma növləri haqqında qısa məlumat əldə edək:

1) Analitik tipli çalışmalar.

Analitik tipli çalışmalarda adətən orfoqrafiyanın daha aydın, asan və möhkəm mənimsənilməsi üçün qrammatik orfoqrafik təhlilə geniş yer verilən çalışmalar nəzərdə tutulur. Bu çalışmalara orfoqrafik təhlil, seçmə imla, xəbərdarlıqlı imla, izahlı imla, üzündən köçürmədən əvvəl və sonra təhlil və s. nümunə göstərə bilərik.

2) Sintetik tipli çalışmalar.

Bu növ çalışmaların köməyi ilə şagirdlər adətən əvvəllər öyrəndiklərini qruplaşdırır, öyrəndikləri qaydalar üzrə təkrarlar edir, həmin qaydaları bir mövzu ətrafında ümumiləşdirir.

3) Analitik-sintetik tipli çalışmalar.

Bu çalışmalar isə sübuta əsaslanan çalışmalardır. Təhlil-tərkib tapşırıqlı cümlələrin tərtib edilməsi, imla, ifadə, inşa yazıları zamanı bəzi lazımi orfoqramları tapmaq, əşya və şəkillərin altından adlarını qeyd etmək, mətnlərdəki buraxılmış sözləri, buraxılmış hərfləri bərpa etmək və s. bu çalışmalara nümunə göstərə bilərik.

Çalışma növləri ilə bağlı ümumi bir fikir bildirdikdə isə onu deyə bilərik ki, bu çalışma növlərindən ən əlverişli olanı həm təhlil, həm də tərkib elementlərini özündə birləşdirən çalışma növləridir. Yəni bu bir çalışma nümunəsində həm təhlil, həm də tərkib eyni anda iştirak edirsə bu daha əlverişli variant olur. Çünki, məsələn, üzündənköçürmə yazı, yaxud imla yazıldıqdan sonra lazımi orfoqramın tapılması üçün şagird əvvəlcə tərkib, sonra isə təhlil əməliyyatını həyata keçirir. Bununla da hər iki üsul vəhdət təşkil edir və öyrənmə fəaliyyətinin nəticəsi daha yüksək olur.

Məntiqi çalışma nümunələrinə həm metodik vəsaitlərdə, həm də ibtidai sinif dərsliklərində rast gəlmək mümkündür. Metodik vəsaitlərdə verilən çalışma növlərinin digərlərindən fərqi ondadır ki, burada çalışmalar müəllimin tərtibi və köməkliyi ilə həyata keçirilir. Həmçinin bu çalışmalar konkret variantlar və cavablar şəklində deyil, yazılı şəkildə olur. Yəni bu çalışmalar mətnə əsasən hazırlanır, dərs müddətində yaxud ev tapşırığı şəklində verilir.

Yuxarıda qeyd etmişdik ki, məntiqi çalışmalar və orfoqrafiya ilə bağlı olan çalışmalar bilavasitə bir-biri ilə əlaqəlidir. İndi isə bu qeyd etdiyimiz çalışma tiplərinin (analitik, sintetik, analitik-sintetik) məntiqi çalımalar üzərində həm ibtidai sinif dərsliklərində, həm də metodik vəsaitlərdə uyğun olaraq izahına baxaq. Əvvəlcə metodik vəsaitdəki nümunələrlə başlayaq.

Məsələn, IV sinif metodik vəsaitinə nəzər yetirməklə başlayaq. Bu metodik vəsaitdə " Qədim yunan sözləri " mövzusunda yazı tapşırığına aid belə nümunə verilib:

1) " Elə bir hekayə qurmağa çalış ki, sonunda hekayə qəhrəmanı " evrika " deyə qışqırsın. "

Çalışmanın xüsusiyyətindən də görünür ki, bu çalışma həm yazı bacarıqlarının, həm məntiqi təfəkkürün inkişafına yönəlmişdir. Üstəlik bu çalışmanı həll edən şagirdlərin söz ehtiyatı artır, hekayə qurmaq, plan üzrə işləmək bacarıqları da aktiv olur.

Elə bu mövzu üzrə yenə də metodik vəsaitdən bir çalışmaya da nəzər salaq. Çalışmanın şərti belədir:

2) İndi isə "baş" sözünü aşağıdakı mənalarda cümlələrdə işlədin:

1) insanın bədən üzvü;
2) bir şeyin yuxarı tərəfi (kəndin başı);
3) rəhbər, birinci (baş həkim).

---

[1]ADPU-nun II kurs magistrantı

Bəs bu sozun mənaları arasında yaxınlıq varmı? Hansı mənanı "baş" sözünün ilkin yəni həqiqi mənası kimi qəbul etmək olar? ("Göz", "boğaz", "ətək" sozlərini də misal gətirmək olar.)

Bu çalışmanın verilməsinə səbəb isə dərsliyin 58-ci səhifəsində verilmiş 2-ci tapşırıqda omonim sözlər haqqında "**Yadda saxla!"** bölməsindəki məlumatların öyrənilməsidir. Çalışma omonim sözlərlə çoxmənalı sözləri bir-birindən fərqləndirməyə xidmət edir. Müəllim bu çalışma ilə bir növ həm öyrənilənləri möhkəmləndirir, həm də yenə də şagirdin məntiqi təfəkkürünün inkişafına şərait yaradır. Bu tip çalışmaları qruplar şəklində və müxtəlif fəal təlim metodları ilə yerinə yetirmək olar.

İndi isə IV sinif Azərbaycan dili dərsliyindəki nümunələrə baxaq. Burada " Əməksevərlik" bölməsində, "Bir boşqab sıyıq" mətninin sonunda verilmiş çalışma 9-a nəzər salaq. (səhifə 75) Çalışmanın şərti belədir:

1) Verilmiş cümlələrdə köməkçi nitq hissələrini müəyyənləşdir. Onların cümlədəki funksiyasını izah et.

1. Axı yoldaşların səni gözləyir.
2. Göyün üzü tutuldu, lakin yağış yağmadı.
3. Sevincindən quş kimi göydə süzmək istəyirdi.

Nümunə: axı –köməkçi nitq hissəsi, cümlənin təsir gücünü artırır.

Bu çalışma nümunəsi dil qaydalarının mənimsənilməsi üçün verilmişdir. Çünki həmin mətnin sonunda köməkçi nitq hissələri haqqında məlumat vardır. Şagird bu çalışmada həm köməkçi nitq hissələrini tapır, həm də onların mənasını izah edir. Çalışmanın nəticəsində isə dil qaydaları tam mənimsənilir, məntiqi təfəkkür inkişaf edir.

Elə həmin bölmədən, eyni səhifədəki növbəti çalışmaya nəzər salaq. Çalışmanın şərti belədir:

2) "Məsələn, hətta, ona görə də, artıq" köməkçi nitq hissələrini cümlələrdə işlət.

Bu çalışmanın digərindən fərqi ondadır ki, əvvəlki çalışmada dil qaydasını izah etmək üçün cümlələri verib, onların funksiyasını izah etməyi tələb edirdi. Burada isə çalışmanın şərtini nisbətən qəlizləşdirib, cümlələri də qurmağı tələb edir. Sanki birinci çalışma ikincinin həlli üçün zəmin yaradır. Birinci çalışmanı həll edə bilən şagird, rahatlıqla ikinci çalışmanı da həll edəcəkdir. Bu çalışmanın nəticəsində isə həm yazı qaydaları, həm dil qaydaları tam mənimsənilir. Üstəlik lüğət ehtiyatı zənginləşir və məntiqi düşüncə formalaşır.

İndi isə III sinif "Azərbaycan dili" dərsliyi və metodik vəsaitindən olan nümunələrə baxaq. Əvvəla dərslikdən başlayaq. "Sirli dünya" bölməsində, "Leylək və bülbül" mətninin sonunda çalışma 6 verilmişdir. (Səhifə 76) Çalışmanın şərti aşağıdakı kimidir:

1) Sözlərin düzgün yazılışını müəyyənləşdirərək tamamla və bir neçəsini cümlədə işlət. *şaf…alı, bit…i, əriş…ə, küf…ə, bən…, tüs…ü, həf…ə*

Bu çalışmanın həlli sadə görünsə də əslində çox diqqət tələb edən çalışma tiplərindəndir. Çalışmanın özü həm dil qaydalarının, həm də yazı qaydalarının mənimsənilməsində və möhkəmlənməsində əsas rol oynayır. Çalışmanın həlli üçün şagirdlər əvvəlcə sözlərin düzgün yazılış qaydasını bilməlidir. Çünki bəzən şagirdlər samitlərin kar-cingiltili əlaqələrini, hansının işlənib-işlənmədiyini qarışdırır. Samitləri düzgün yerləşdirdikdən sonra isə onları cümlədə işlətməlidir. Cümlələr isə şagirdlərinin yaş xüsusiyyətlərinə uyğun qurulmalıdır. Yəni müəllimlər cümlə quruluşuna da fikir verməlidir. Çox sadə cümlələrdən qaçınmalı, yaxud çox mürəkkəb cümlə qurub əsas fikirdən kənara çıxılmamalıdır.

Növbəti çalışma isə eyni bölmədən "Qarağacın kölgəsi" mətnindən sonra verilən 11, 12 və 13-cü çalışmalardır. (Səhifə 79) Çalışmaların şərti belədir:

2) Lüğətin köməyi ilə "sənəd" və "sənət" sözlərinin mənalarını araşdır və hər bir sözü cümlədə işlət.

3) Dördündən birində sözün sonundakı "q" fərqli səslənir:

A) maraq B) qonaq C) hüquq Ç) qıvraq

4) "Q" samitinin "x" kimi tələffüz olunduğu sözləri seç:

qayıq, üfüq, budaq, Afaq, otaq, qulluq, dəqiq, sadiq, sınaq

Çalışmaların həllindən əvvəl eyni səhifədə dil qaydası kimi "Söz sonunda bəzi samitlərin tələffüzü" hissəsi verilmişdir. Bu çalışmaların şərtindən də göründüyü kimi şagirdlər əsasən lüğət üzrə işə, orfoqrafiya və orfoepiya qaydalarına, yazı vərdişlərinə, cümlə qurmaq bacarıqlarına və s. xüsusi diqqət etməlidir. Bu sadaladıqlarımız isə məntiqi çalışamların həlli yolunda ən mühim yeri tutur, xüsusi əhəmiyyət kəsb edir.

Digər çalışmaya isə III sinif metodik vəsaitində olan nümunə ilə nəzə salaq. Metodik vəsaitin 55-ci mövzusunda "Azərbaycan" adlı bir bölmə vardır ki biz həmin bölmədən bir neçə keçir. (Səhifə 147) Çalışmaların şərti belədir:

1) "Gen" sözü 4-cü bənddə "ayrı", "aralı" , 6-cı bənddə "enli, "geniş" sözləri ilə əvəz edin.

2) Dərin, beşik, sərin, qucaq, ocaq sözləri həqiqi mənada işlənməklə cümlələr qurun.

Birinci çalışmada lüğət üzrə işin vacibliyi, ikinci də isə sözün ilkin (həqiqi) mənası haqqındaverilən məlumatlar əsas yer tutur. Şagird bu çalışmaların həlli nəticəsində əgər bilmədiyi söz varsa, onları mənimsəyir, cümlə qurmaq vərdişlərinə, yazı yazmaq bacarıqlarına və s. yiyələnir.

Gördüyünüz kimi yuxarıda da qeyd etmişdik ki, metodik vəsaitlərdəki çalışmalar, dərsliklərdəki çalışmalardan quruluşuna, çətinlik dərəcəsinə görə fərqlənir. Daha çox diqqət tələb edən çalışmalar da elə metodik vəsaitlərdə yer alıb.

Ədəbiyyat

1) Nəbat Cəfərova.İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası- 1-ci hissə. Bakı, 2016;
2) Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün Azərbaycan dili dərsliyi. Bakı 2020;
3) Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün Azərbaycan dili dərsliyi. Bakı 2018;
4) Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün Azərbaycan dili dərsliyi. Bakı 2020;
5) Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün Azərbaycan dili dərsliyi. Bakı 2019;

6) Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı 2020;
7) Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı 2021;
8) Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı 2018;
9) Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı 2019;
Açar sözlər: Azərbaycan dili, metodik vəsait, çalışmalar sistemi, məntiqi çalışmalar, təhlil, tərkib,

Ключевые слова: азербайджанский язык, методические пособия, система упражнений, логические упражнения, анализ, синтез.
Key words: Azerbaijani language, teaching aids, system of exercises, logical exercises, analysis, synthesis.

I-IV SİNİF "AZƏRBAYCAN DİLİ"DƏRSLİKLƏRİ VƏ METODİK VƏSAİTLƏRİNDƏ MƏNTİQİ ÇALIŞMALAR

Xülasə

Çalışmalar həm dil qaydalarının, həm də yazı qaydalarının mənimsənilməsində və möhkəmlənməsində əsas rol oynayır İstifadədə olan dərsliklərdə müxtəlif tipli çalışma nümunələrinə rast gələ bilərik. Hər bir çalışma nümunəsi şagirdlərin zehni inkişafı üçün olduqca əhəmiyyətlidir. Məntiqi çalışmalar, üzündən köçürmə yazılar, imlalar və s. tipli orfoqrafik çalışmalar həm yazı vərdişlərini, həm də şifahi nitqi formalaşdırır. Məntiqi çalışma nümunələrinə həm metodik vəsaitlərdə, həm də ibtidai sinif dərsliklərində rast gəlmək mümkündür. Metodik vəsaitlərdə verilən çalışma növlərinin digərlərindən fərqi ondadır ki, burada çalışmalar müəllimin tərtibi və köməkliyi ilə həyata keçirilir. Həmçinin bu çalışmalar konkret variantlar və cavablar şəklində deyil, yazılı şəkildə olur. Məntiqi çalışmalar və orfoqrafiya ilə bağlı olan çalışmalar bilavasitə bir-biri ilə əlaqəlidir. Məqalədə analitik, sintetik, analitik-sintetik çalışma tiplərindən istifadə edilməsinin metodikası verilmişdir.

Логические упражнения в учебниках и методических учебниках азербайджанского языка для I-IV классов

Резюме

Упражнения играют ключевую роль в освоении и укреплении как языковых правил, так и правил письма.Мы можем найти различные типы учебных примеров в используемых учебниках. Каждая учебная проба очень важна для умственного развития учащихся. Логические упражнения, транскрипты, орфография и т.д. Орфографические упражнения данного типа формируют как навыки письма, так и устную речь. Примеры логических работ можно найти как в методических пособиях, так и в учебниках для начальных классов. Отличие видов работ, приведенных в пособиях, от других в том, что работа выполняется с помощью преподавателя. Также эти упражнения выполняются не в виде конкретных вариантов и ответов, а в письменной форме. Логические упражнения и орфографические упражнения напрямую связаны. В статье представлена методика использования аналитических, синтетических, аналитико-синтетических видов работы.

Logical exercises in I-Iv grade azerbaijani language textbooks and methodical textbooks

Exercises play a key role in mastering and strengthening both language rules and writing rules. We can find different types of study examples in the textbooks used. Each study sample is very important for the mental development of students. Logical exercises, transcripts, spelling, etc. Spelling exercises of the type form both writing skills and oral speech. Examples of logical work can be found in both teaching aids and primary school textbooks. The difference between the types of work given in the manuals and others is that the work is carried out with the help of a teacher. Also, these exercises are not in the form of concrete options and answers, but in writing. Logical exercises and spelling exercises are directly related. The article presents the methodology of using analytical, synthetic, analytical-synthetic types of work.

RƏYÇİ: dos. S.Abbasova

Qurbanova Səbinə Namiq qızı[1]

ANARIN " KEÇƏN İLİN SON GECƏSİ" ƏSƏRİNİN TƏHLİLİNƏ DAİR

Bədii əsərlərin təhlili ədəbiyyat məşqələlərində ən mürəkkəb və məsul məsələlərdən biridir. Etiraf edilməlidir ki, dramatik əsərlərin tədrisi epik, lirik əsərlərin öyrədilməsi yollarından mürəkkəbliyi ilə fərqlənir. Dram əsərlərinin tədrisi çətindir. Bu çətinlik ədəbi növün mahiyyətindən, özünəməxsusluğundan irəli gəlir. Müasir tədris proqramında dramatik əsərlərin öyrədilməsi də üç mərhələdə reallaşır: Oxu. Məzmun üzrə iş. Təhlil

Təhlil sonuncu və həlledici mərhələdir. O, müəllimdən və şagirddən gərgin iş, böyük zəhmət tələb edir.

Bədii əsərlərin təhlilində başlıca məsələ əsərin hansı cəhətlərinin nə kimi ardıcıllıqla aydınlaşdırmaqdan ibarətdir. Bütün əsərlərin təhlilini standartlaşdırılmış və şablon halını almış üsul və yollarla aparmaq doğru deyildir. Hər bir əsərin təhlili onun janrından, pedaqoji iş şəraitindən asılı olaraq konkret üsul və priyomlar tələb edir.

Bədii əsərlərin o cümlədən dramatik əsərlərin təhlilində əhatə olunan komponentlər həm çox, həm də mürəkkəbdir. Dramatik əsərlərin təhlilində əhatə olunan komponentlər aşağıdakılardır:

1. Əsərin mövzu və ideyası
2. Obrazların təhlili
3. Əsərin konfilikti və problematikası
4. Əsərin bədii xüsusiyyətləri(dil, üslub, obrazlılıq yaradan vasitələr, kompozisiya və s.)

. Aşağıda "Anarın " Keçən ilin son gecəsi" əsərinin təhlili" mövzusunda təşkil etdiyimiz eksperimentdən nümunəni təqdim edirik.Dərs üçün aşağıdakı məzmun standartları seçilmişdir:

Standartlar	Təlim nəticələri
1.2.2. Digər obrazların müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.	Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə dramın qəhrəmanlarını səciyyələndirir.
1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfiliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.	Dramın mövzusunu, ideya- bədii xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir.
2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir.	Dramla bağlı təqdimat və çıxışlarda müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya- bədii xüsusiyyətlərini şərh edir.
2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.	Dramla bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

Dərsin gedişi

Dərsi ilk növbədə ev tapşırığının yoxlanması ilə başlayırıq. Təqdimatları dinləyir və müzakirəsini həyata keçiririk.

Motivasiya, problemin qoyuluşu.Bu mərhələdə internetdən " Keçən ilin son gecəsi" filmindən bir fraqmenti şagirdlərə nümayiş etdiririk. Şagirdlər izlədikləri film əsasında müsahibə aparırlar.

Tədqiqat sualı: Gənc nəsil yaşlı nəsildən nələri əxz edib yaşadır?

Tədqiqatın aparılması.Bu mərhələdə şagirdləri kiçik qruplarda birləşdiririk. Hazırldığımız sualları şagirdlərə iş vərəqlərində təqdim edirik.

1-ci qrupun tapşırığı:

- Həmidə ana obrazını səciyyələndirin. Həmidə ana obrazının xarakterindəki başlıca xüsusiyyətləri, düşüncələri (həyata, ailə münasibətlərinə baxışı) nitqi – danışığı üçün səciyyəvi olan cəhətləri aydınlaşdırın.

2-ci qrupun tapşırığı:

- Ananın övladlarını səciyyələndirən başlıca cəhətlər hansılardır? Onların Yeni il gecəsini analarının yanında keçirməmələrinə münasibətiniz necədir?

3-cü qrupun tapşırığı:

- "Dünyada heç nə itmir, batmır, heç kəs ölmür. Yaxşı da, pis də keçir, nəsil-nəsil keçir... Biz... əlimizin zəhmətilə çörək qazanmışıq. Qoy bizim həyatımızda yaxşı nə olubsa, uşaqlarımız özləri ilə təzə həyatlarına, təzə nəsillərə aparsınlar. Həyat da elə budur..." Sizcə, bu fikrində Qəzənfər haqlıdırmı? Nə üçün?

4-cü qrupun tapşırığı:

- Əsərin bədii gözəlliyinin, fikrin təsir gücünün artmasında məcazların rolunu aydınlaşdırın. Dramda işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

5-ci qrupun tapşırığı:

- Əsərdəki başılıca fikir-ideya, sizcə, nədir? İdeyanın başa düşülməsində daha əhəmiyyətli olan ifadə və cümlələr hansılardır?

Məlumatın mübadiləsi və müzakirəsi mərhələsində qruplar birinci növbədə, bir-birinin işinin məzmunu ilə ətraflı tanış olurlar. Təqdimatlarda daha vacib məsələlər üzərində dayanılır, fikri təsdiq edən nümunələr göstərilir. İstiqamətləndirici

[1]Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı

sualları verərək şagirdləri tədqiqat sualını aydınlaşdırmağa yönəldirik. Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması. Şagirdlərdə belə qənaət möhkəmlənir ki, nəsillər arasında varisliyin mövcud olması həyatın davamı üçün vacib şərtdir. Məhz varislik nəsillər arasında rabitənin qorunub saxlanmasına, yaxşı nə varsa, yaşadılmasına səbəb olur. "Keçən ilin son gecəsi" əsərində yaşlı və gənc nəsil qarşılaşdırılmaqla həyat həqiqətləri əks etdirilmişdir. Bu nəsillərin arasında varisliyin, bağlılığın və ardıcıllığın qorunub saxlanmasının vacib olması fikri əsaslandırılmışdır. Çıxarılmış nəticələrin tədqiqat sualı və fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir. Qiymətləndirmə.Qiymətləndirmə meyarları. Səciyyələndirmə. Münasibətbildirmə, Şərhetmə. Nümayişetdirmə

1-ci səviyyə

Nitqindən çıxış etməklə obrazı səciyyələndirməkdə çətinlik çəkir.
Dramın ideya- məzmununu şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir.
Dramla bağlı fikirlərini müqayisə əsasında şərh etməkdə çətinlik çəkir.
Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirməkdə çətinlik çəkir

2-ci səviyyə

Nitqindən qismən çıxış etməklə obrazı səciyyələndirir.
Dramın ideya- məzmununu şərh edir,əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir.
Dramla bağlı fikirlərini müqayisə əsasında qismən şərh edir.
Müzakirələrdə dialoji nitq bacarığını qismən nümayiş etdirir.

3-cü səviyyə

Nitqindən əsasən çıxış etməklə obrazı səciyyələndirir.
В произведениях Ломоносова встречаются варианты *имн, ирой, ипотеза, ипербола* и др. Эти слова заимствованы из греческого языка, в котором они произносятся с начальным придыхательным гласным, не свойственным русскому языку. Наряду с этими укороченными вариантами Ломоносов употребляет формы *гимн, герой, гипотеза, гипербола*, в которых чуждый русскому языку придыхательный элемент не отсекается, а заменяется близкой по месту образования фонемой русского языка. Вариативно употреблялось Ломоносовым имя *Юлий Цезарь* в формах *Иулий*и *Юлий, Кесарь* и *Цесарь.* Имя *Юлий* было транслитерировано, поэтому начальное сочетание [ju] передавалось не русской буквой **Ю**, а буквосочетанием **Иу.** Варианты, *Цесарь – Кесарь* возникли, по-видимому, в результате параллельного заимствования из двух разных языков – латинского и греческого.

По дублетным формам заимствований можно судить о безударном вокализме русского языка XVIII века. Параллельное употребление букв**а** и **о**, обозначавших безударные гласные, может быть объяснено редукцией гласных, нейтрализацией соответствующих фонем в данных позициях. Ломоносов с большой чуткостью выдвинул

83 **БГУ, Кафедра русского языкознания**

на первенствующее место «московское наречие», в котором особенно ценил «аканье». В московском говоре он видел основу дальнейшего развития русского литературного языка. (2, с. 257) О наличии редукции гласного **э,** его нейтрализации с **и** в безударных слогах после мягких согласных свидетельствует параллельное употребление Ломоносовым букв **Е** и **И** (Демосфен – Димосфен). Близостью артикуляции лабиализованных гласных **о – у** была, по всей вероятности, основной причиной вариативности слов французского происхождения *Боало – Буало, сопостат – супостат.*

Вариативность появлялась и вследствие несоотносительности графем русского языка и языка-источника. В русском языке твёрдость и мягкость согласных перед гласными чётко определяется на письме гласной буквой. В европейских языках встречаются полумягкие, смягчённые согласные, но мягкость-твёрдость не является дифференциальным признаком в этих языках, и в силу этого в них нет графических средств для обозначения мягкости согласных. При заимствовании слов с такими согласными наблюдается две тенденции: 1) обозначить мягкость согласного и 2) сохранить графический облик слова, соответствующий языку-источнику. Стремление сохранить графический облик слова находим у М. Ломоносова в таких примерах, как *иллуминация, Алба, галский* и др.

В связи с влиянием немецкого языка важно отметить некоторые моменты в процессе заимствования, протекавшем в XVIII веке. Особенности письма и фонетики немецкого языка явились одной из причин появления вариантности в кругу слов, заимствованных не только из немецкого, но и из других европейских языков. Так, одной из особенностей фонетики немецкого языка является произношение оглушённых согласных на месте букв, обозначающих звонкие согласные. Вероятно, влиянием этой особенностиможно объяснить появление в произведениях Ломоносова таких вариантов, как *Цесарь, Елисавета, гексаметр* и др. Сочетания букв **st**, **sp**в немецком языке читаются как [шт], [шп]. При заимствовании слов с такими буквосочетаниями наблюдается, содной стороны, стремление сохранить графический облик слова, с другой стороны, передать более верно звучание слова в языке-источнике, т.е. слово заимствуется разными способами – транскрипцией и транслитерацией. У М. Ломоносова встречаются варианты *штиль, ишпанский, пашпорт.*

Заимствование *символ – симбол* пришло из греческого языка. Ломоносов использовал вариант *симбол,* соответствующий языку-источнику. Причину появления более позднего варианта *символ* установить трудно. Можно предположить, что здесь имеет место диссимиляция одинаковых по месту и способу образования **м** и **б**: оба они губно-губные смычные, что затрудняет их артикуляцию, поэтому звук **б** заменяется близким по месту образования губно-зубным щелевым согласным **в**.

Говоря о фонетических особенностях заимствований в языке Ломоносова, в первую очередь следует отметить, что им использовались в большинстве слова полностью адаптированные, подчинившиеся фонетическим нормам русского языка. Заимствования у Ломоносова – это в основном терминологическая лексика, слов нейтральных, общеупотребительных гораздо меньше, чем терминов. Избегая иноязычных заимствований, М.Ломоносов в то же время стремился содействовать сближению русской науки с западноевропейской, используя, с одной стороны, интернациональную научную терминологию, состоявшую преимущественно из греко-латинских корней, а с другой стороны, образуя новые русские термины или переосмысляя уже существующие слова. Многим терминам в процессе использования он даёт определение, вследствие чего они прочно закрепились в языке и дошли до нас в тех же значениях, в каких они были употреблены Ломоносовым. Так, в его произведениях мы находим слова *тема, идея, троп, метафора, метонимия, гипербола, ирония, сарказм, аллегория, цезура* и др., вошедшие в литературоведческую терминологию. М. Ломоносов использует ряд терминов, заимствованных из греческого языка, обозначающих стихотворные размеры: *гексаметр, пентаметр, тетраметр, тетраметр, триметр* и др.

Некоторые слова, заимствованные в XVII- начале XVIII вв. употреблены Ломоносовым в новом значении. Так, слово *поэма* встречаетсявегопроизведенияхв двух разных значениях: первоначальном – «стихотворное произведение» и новом – «художественное творчество в стихотворной форме (в отличие от прозы)». Слово *фигура* впервые употреблено ПетромI (1701 год) в значении «внешнее очертание, облик, форма чего-либо». Ломоносов использовал его и в первоначальном значении, и как литературный термин в значении «словесный оборот, стилистический приём, придающий речи особую выразительность». Слово *период* впервые употреблено Петром I как астрономическое понятие «обращение, оборот». Считая данное слово термином риторики, Ломоносов употребляет его в качестве названия грамматического (синтаксического) понятия. Слово *ирония*, заимствованное первоначально в значении «притворство», Ломоносов использует как литературный термин со значением «тонкая насмешка».

Придерживаясь пуристических взглядов, Ломоносов тем не менее прибегал в некоторых случаях к применению, наряду с русскими соответствиями, иноязычных слов. Так, параллельно употреблялись им слова *версификация* и *стихотворство.* В одной из его работ по теории стихосложения («Письмо о правилах российского стихотворства») не раз использовано слово *версификация.*

В произведениях М. Ломоносова встречается целый ряд терминов из области логики и риторики, имеющих греко-латинское происхождение, таких как *дилемма, силлогизм, энтимема, сорит, хрия* и др. Все эти и подобные им слова были заимствованы в доломоносовский период – вXVII веке и в Петровскую эпоху и использовались в середине XVIII века как в их первоначальном значении, так и, в некоторых случаях, в новых значениях.

Литература:
1. Виноградов В.В. Очерки по истории русского литературного языка XVII-XIXвв. 4-еизд. М., 2002
2. Ломоносов М.В. Полное собрание сочинений. М.-Л., 1951-1953
3. Рукописный лексикон 1 половиныXVIII в. Л., 1964
4. Сорокин Ю.С. О задачах изучения лексики русского языка XVIIIвека./В сб. Процессы формирования лексики русского языка. М., 1966

Ключевые слова: заимствования, фонетическая адаптация, варианты слов, особенности употребления
Açar sözlər: alınmalar, fonetik adaptasiya, söz variantları, işlədilmə xüsusiyyətləri
Key words: borrowings, phonetic adaptation, word variants, features of use

Резюме

В статье анализируются некоторые особенности начального этапа процесса фонетической и лексической адаптации заимствований в русском языке. Материалом исследования явились заимствования в языке произведений М.В. Ломоносова. Рассмотрены варианты заимствованных слов, сделана попытка установления причин их появления. Проведён анализ особенностей употребления заимствованных слов, связанных с их семантикой.

Rus dilində alınmaların fonetik və leksik adaptasiya məsələsi haqqında

Xülasə

Məqalədə rus dilində alınma sözlərin fonetik və leksik adaptasiyası prosesinin ilkin mərhələsində müşahidə olunan bəzi xüsusiyyətlər analiz edilir. Tədqiqat materialı M.V. Lomonosovun əsərlərində işlənilmiş alınma sözlərdir. Məqalədə alınma sözlərin tələffüz və qrafik variantlarına baxılmış, onların yaranma səbəblərinin müəyyən edilməsinə cəhd edilmişdir. Alınmaların semantikası ilə bağlı olan işlədilmə xüsusiyyətləri analiz edilmişdir.

R/YÇİ: dos. L.Ələkbərova

Şəlalə Nəriman qızı Əliyeva[84]

XVII-XVIII ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİ DİLİ

Azərbaycan səfəvilər dövlətinin tarixində XVI əsrin sonu, XVII əsrin əvvəllərindən başlayaraq İctimai-tarixi şərait keyfiyyət dəyişikliyi özünü göstərir: o özünün milli məzmununu itirir və Azərbaycan tədricən I Şah Abbas dövlətinin əyalətinə çevrilir. Lakin, XVI əsrin əvvəllərində milli-mədəni təfəkkür elə bir inkişaf təkanı almışdı ki, bu hərəkatını dayandırmağa, hətta ləngitməyə belə heç bir qüvvə qadir deyildi. Azərbaycan intibahı milli xarakteri etnik (mifologiyadan gələn) təfəkkür əsasında tərbiyə edir, bu zamana qədər hakim olan ümumşərq normativliyi arxaikləşir, Azərbaycan kontekstində regional təzahürlər funksionallaşır (dialekt diferensiasiyasından tutmuş müxtəlif mədəniyyət məktəblərinin müəyyənləşməsinə qədər buraya daxildir); milli təfəkkür (və mədəniyyət) milli mövcudluqla adekvatlaşır bu isə, şübhəsiz, milli xarakterin normativləşməsi üçün mühüm şərt olur (1, s. 8-9).

XVII-XVIII əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafına kömək edir, adətən klassik ifadə üslubunu təmsil edirdilər, onların getməsi ilə folklor ifadə üslubunun mövqeyi yüksəlirdi. Övliya Çələbinin "Səyahətnamə"sində XVII əsr Azərbaycan mədəniyyətinin inkişafı, maddi-mədəniyyət abidələri barədə geniş məlumata rast gəlirik. Buradan aydın olur ki, XVII əsr təkcə müharibələr, iğtişaşlar dövrü deyil, həm də klassik mədəniyyətin son ehtişamını yaşadığı dövrdür. Adam Oleari Şamaxıda olmuş və burada Azərbaycan türk dilinin geniş yayıldığından, qeyri-türk mənşəli xalqlar arasında ümumi ünsiyyət dili olmasından danışır: "Burada farslar, ermənilər, azacıq da olsa gürcülər yaşayırlar. Bu millətlərin hər birinin öz dili olsa da, onların hamısı ümumən Şirvan əhalisi kimi türkcə danışırlar" (2, s. 26). Klassik müsəlman mədəniyyəti eyni zamanda, həmin mədəniyyəti mühafizə edən orta əsrlər şəhəri XVI əsrin ortalarından başlayaraq tənəzzül edir – XVIII əsrdə artıq yeni şəhərlər meydana çıxır: Gəncə, Şəki, Şuşa, – və klassik ümumşərq şəhərlərinin süqutu ilə əyalətin rolu, nüfuzu artır. Məhz bu zaman mədəniyyət saraydan geniş ictimai münasibətlər meydanına çıxır.

Azərbaycanda XVIII əsrin ortalarından başlayaraq müstəqil, yaxud yarımmüstəqil xanlıqların yaranması prosesi gedir. Həmin prosesin "həlleqdici qüvvəsi xalq, onun müstəqillik uğrunda mübarizəsi idi. Nadir şahın qəddar tədbirləri lazım olan effekti vermədi və xalqın nifrətini artırdı. İran hakimiyyətinə qarşı xalq kütlələrinin mübarizəsində əyalətlərdəki bəzi feodallar da iştirak edirdilər. Ona görə ki, ümumi narazılıqdan istifadə edib hakimiyyətə yiyələnsinlər" (3, s. 9-10) . Xalq kütləsinin iradəsi xanlıqlar dövründə özünü daha qabarıq şəkildə göstərirdi. Azərbaycanda xanlıqlara parçalanma, obrazlı şəkildə desək, müstəqil dövlətlərin meydana çıxması milli azadlıq ehtiyacının bir qədər vulqar şəkildə təzahürü idi. Bunu siyasi-iqtisadi məzmunlu bir hadisə saymaq olmaz həm də tamamilə təbii nəticəli etnik mədəni hadisə idi. Müstəqil xanlıqların təşəkkülü Azərbaycan kəndinin ictimai-tarixi nüfuzunu artırırdı. Azərbaycan mədəniyyətinin və ədəbi dilinin milli əsaslar üzərində yenidən qurulmasında təsadüfi deyil ki, kəndli təfəkkürü, dli mədəniyyəti, kəndli şəxsiyyəti, və kəndlinin dili genotipin bilavasitə daşıyıcısı idi. Ona görə də Azərbaycanın ictimai həyatında XVII-XVIII əsrlərdə kəndli subyekti xüsusi funksionallığı ilə diqqəti cəlb edir.

XVII-XVIII əsrlərdə milli ticarətin formalaşması, inkişafı və milli təfəkkürün müəyyənləşməsinin həm səbəbi, həm də nəticəsi idi. Azərbaycan dastanlarının tacir qəhrəmanları məhz bu dövrdə meydana çıxmışdır. Xanlıqlar dövründə Azərbaycanda bir sıra tədqiqatçılar konkret tarixi şəraiti nəzərə almadığından təsərrüfat-iqtisadi inkişafı qeyd etmir. XVIII əsrin birinci və ikinci yarısı arasındakı fərqi görməyən xanlıqlar dövrü tənəzzül dövrü kimi təqdim edilirdi. Bu tamamilə yanlışdır. XVII-XVIII əsrlərdə Azərbaycanda nə qədər qanlı müharibələr olsa da, həyat şəraiti bəzən görünməmiş bir şəkildə mürəkkəbləşsə də, Yenidən sürətlə təşkil olunan mədəniyyət, milli məzmun, mahiyyət kəsb edir, hətta tədqiqatlar göstərir ki, intibah dövrü keçirirdi (4, s. 70-71).

Məlumdur ki, XVIII əsrin birinci yarısında Azərbaycan İran, Türkiyə və Rusiya arasında mübarizə meydanı idi. Lakin bu, heç də bir sıra tədqiqatçıların belə bir fikrini təsdiq etmir ki, Azərbaycan xalqı guya bu dövrdə sığınmaq üçün, tabe olmaq ücün güclü dövlət axtarırdı (və bu da məhz Rusiya idi). Milli intibah dövrü XVII-XVIII əsrlərin olması faktının özü artıq həmin fikri təkzib edirdi. Necə ola bilər ki, Azərbaycan xalqı sığınmağa "güclü dövlət" axtarır?! bir halda ki, "Əsli və Kərəm", "Koroğlu", Aşıq Abbas Tufarqanlının qoşmaları, "Aşıq Qərib" dastanları, Sarı Aşığın bayatıları, Molla Nəsrəddin lətifələri yaranır, yayılır, Azərbaycanın gah Türkiyə, gah İran, gah da Rusiya tərəfindən istilası və nəhayət, İran və Rusiyaya ilhaqı isə tamamilə başqa məsələ idi və xalqın müstəqillik hissinə qarşı yönəlmişdi.

Azərbaycan ədəbi dilinin yüksəlişi XVII-XVIII əsrlərdə, milli əsaslar üzərində yenidən təşkili, milliləşməsi xalqın çox-çox dərinlərdən gələn milli özünüdərk, başqa sözlə, müstəqillik duyğularından kənarda baş verə bilməzdi – bunlar da bir-biri ilə sıx əlaqədə olan hadisələr idi.

Azərbaycan milli ədəbi dilinin təşəkkülü problemi olduqca mürəkkəb, mübahisəli, bir problemdir və biz burada onun nəzəriyyəsi üzərində geniş dayanmaq fikrində deyilik. Lakin bu problemə münasibətdə son zamanlar müəyyən sabitlik yaranmaqdadır. Getdikcə belə bir fikir daha çox qərarlaşır və müəyyənlik qazanır. Azərbaycan milli ədəbi dili XVI-XVII əsrlərdən meydana çıxmağa başlayır və XVII-XVIII əsrlərdə milli ədəbi dilin keyfiyyəti müəyyənləşir. Nəticə etibarilə həm şifahi, həm də yazılı ədəbi dildə məhəlli ünsürləri, Azərbaycanın ayrı-ayrı regionları arasında əlaqələrin intensivliyi, az olmasına gətirib çıxarmışdı. Azərbaycan dilində milli ünsürlər məhz bu dövrdə keyfiyyət halına çatmışdır.

Milli intibah hərəkatının güclənməsi XVIII əsrin ortalarında tarixən formalaşmış klassik mədəniyyətin də varisinə çevrilmişdir. Klassik üslub xəttinin Füzuli zirvəsi XVI əsrdə, mahiyyətcə, xalq ədəbi dili üslub xəttinin Vaqif zirvəsi ilə

---

[84] BDU, Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru

XVIII əsrdə "əvəz" olundu. Tədqiqatçı prosesin məzmununun tarixi barədə yazır: "XVIII əsrdə intensivləşməyə başlayan belə bir təkamül gedişi, əlbəttə, ümumxəlqi-milli əsaslarla ədəbi dil quruculuğu inkişaf prosesinin nəticəsi kimi qavranıla bilər" (5, s. 104).

Azərbaycan milli ədəbi dilinin təşəkkülünü aşağıda göstərilən şəkildə təsəvvür etmək mümkündür. Milli intibahın təkanı ilə tarixi oyanış Ümumxalq Azərbaycan dili bazasında baş verir. Həmin oyanış şifahi xalq ədəbiyyatının dilini, şifahi ədəbi dili, yüksəldir. Şifahi xalq ədəbiyyatının dili, yaxud şifahi ədəbi dil intensiv şəkildə yazıya alınır. Nitqin strukturu şifahi olaraq yaranır, yazıyaalınma meydana gəlir. Nəhayət ki, dil-üslub yaradıcılığı (yazılı nitq) sürətlənir, son mərhələdə klassik üslubla folklor üslubunun dialektik təsiri daha güclü olur.

XVII-XVIII əsrlər Azərbaycan ədəbi dili, Azərbaycan mədəniyyətinin elə bir mərhələsidir ki, bu mərhələ faktiki deyil, metodoloji əhəmiyyətə malikdir. Türk ədəbi dillərinin yenidən təşkili prosesi XVII-XVIII əsrlərdə inkişaf edib özünü göstərmişir. Türk, türkmən və Azərbaycan ədəbi dillərinin milliləşməsi meydana çıxmışdır. Azərbaycan ədəbi dili ilə, türk ədəbi dillərinin milli əsaslar üzərində təşkili güclənir, sərhədləri müəyyənləşir.

Azərbaycan ədəbi dilinin normalarında XVII-XVIII əsrlərdə demokratikləşmə prosesi gedir, milli ədəbi dil müəyyənləşir. "Dövrün inkişaf tələbatına uyğun olaraq, bu dövrdə yazılmış əsərlərdə müxtəlif anlayışları ifadə etmək üçün ümumxalq danışığından, şivələrdən, sözlərin, ifadələrin alınıb işlənilməsi dil vahidlərinin ümumiləşmə prosesini gücləndirmiş, milli dilin formalaşmasına əlverişli şərait yaratmışdır".

Tədqiqatçılar, Azərbaycan ədəbi dilinin milliləşməsi dedikdə davamlı, demokratik məzmuna malik, həm də ümumxalq dili ilə daimi sıx əlaqədə inkişaf edən norma yaranmasını nəzərdə tuturlar. Normanın milliləşməsi, və ya milli ədəbi dilin normalarının meydana çıxması, bir qayda olaraq, sistemli prosesdir: fonetik, yaxud fonoqrafik, leksik və qrammatik səviyyələrdə eyni, yaxud təxminən eyni dövrdə baş verir.

Ə.Dəmirçizadə yazır: "XIX əsrə qədərki dövrdə Azərbaycan dilinin fonetik sistemində, Azərbaycan dilinin inkişafı tarixində qrammatik vahidlərində xüsusən dəqiqləşmə, təkmilləşmə istiqamətində azacıq dəyişiklik olmuşdur, belə dəyişmələr Azərbaycan dilinin milli dil kimi vahidləşməsi məhz bu dövrün sonunda, XVIII əsrdə həm canlı danışıqda, həm də ədəbi dildə ümumiləşib sabitləşmişdir" (6, s. 259). Milli ədəbi dil normalarının təzahürü yalnız ədəbi dil səviyyəsində deyil, ümumxalq dil prosesinin nəticəsidir.

XVII-XVIII əsrlər ədəbi dilinin fonetikasında özünü göstərən ən mühüm proses paralelliyin aradan qalxmasıdır. Bu proses məlum olduğu kimi, XVI əsrdən başlayır və gələ gələ keyfiyyət həddinə çatır. Ədəbi dildə nəinki milli dil vahidlərinin sıxlığı artır, ümumxalq dilinin güclü "təzyiqi" ilə eyni zamanda, bir sıra alınma sözlərin fonetik və fonoqrafik milliləşmə prosesi gedir. Bəzi yazı formaları meydana çıxır və bu forma XIX əsrin ortalarında nəzəri dilçilik ədəbiyyatında ana dilinin faktı-norması kimi qeyd olunur. XVII-XVIII əsrlərdə yazı klassik üslubdan folklor üslubunun ixtiyarına keçir. Bu isə yazı dilində müəyyən demokratizmin yayılmasına təkan verir. Lakin ərəb əlifbasının konsonant (samit səslər üzərində qurulmuş) əlifba olması, həmişə olduğu kimi bu mərhələdə də özünü göstərir. Azərbaycan ədəbi dili saitlərinin adekvat ifadəsini qeyrimümkün edir. Samit səslərin ifadəsində də müəyyən çətinliklər müşahidə olunur. Samit hərflər yenə də türk mənşəli səslərin işarələnməsində iştirak edir və fonoqrafik normanın sabitliyini pozur. Ancaq bu pozulmada pərakəndəlikdən çox, milli demokratik təfəkkürün yad əlifbaya sərbəst münasibəti təzahür edir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı: Elm və təhsil, 2014
2. İsmayılova M. Azərbaycan dili və nitq mədəniyyəti. Aktual poblemlər. Bakı, 2017
3. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və kommunikasiya. Bakı: Elm və təhsil, 2020
4. İsmayılova M. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2016
5. Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı: Elm və təhsil, 2021
6. Cəfərov V. Diplomatik etiket və nitq mədəniyyəti. Bakı, 2009

Açar sözlər: Azərbaycan dili, ədəbi dil, dövlət dili, əsr, müstəqillik, xalq
Ключевые слова: Азербайджанский язык, литературной язык, государственный язык, века, независимость, народ
Keywords: Azerbaijani language, literaru language, state language, century, independence, nation

Азербайджанский литературный язык XVII-XVIII вв.

Резюме

В XVII-XVIII веках начинается период формирования азербайджанского литературного языка на основе национального языка, заканчивается период формирования на основе национального языка - формируется национальный литературный язык. Азербайджанский литературный язык до 17 века называется старым, а после 17 века - новым азербайджанским литературным языком. Существует разница как в функциональном стиле, так и в нормах между старым азербайджанским языком и новым азербайджанским языком. Эти отличия считаются преемником литературного языка после XVII века литературному языку XVII века. В этот период наш язык играл роль литературного языка во всей Средней Азии, как армейский и дворцовый язык ряда азербайджанских государств (джалаирийцев, гарагоюнлусов, аггоюнлусов, сефевидов). Среди этих государств особенно выделялся основатель Сефевидского государства Ш.И.Хатаи. В его время было проделано много работы. Земли Азербайджана были объединены, азербайджанский язык получил статус государственного, и многие произведения были написаны на родном языке.

17th and 18th century Azerbaijani literary language

Summary

In the 17th and 18th centuries the period of the formation of the Azerbaijani literary language as a national language commence,the period of formation on the basis of national language coming to an end – the national scholarly language enlightened.The period up to the 17th century Azerbaijani literary language old -fashioned, after the 17th century,it is called the new Azerbaijani poetic language.There is a difference in both fuctional style and norm between the primeval Azerbaijani speech and the current Azerbaijani mother tongue.These differences are considered to be the successor of the post - 17th century literary language up to the 17th century.During this period a number of Azerbaijani states where our language existed (Jalairis,Blacksheep,Whitesheep,Safavids) as an army and palace language, it played the role of a literary language in all of Central Asia.Founder of the Safavid state Ş.İ Hetai was especially distinguished within these states.A wide range of work had been done in the course of his period.The lands of Azerbaijan are united,Azerbaijani language had received the status of the state language,a myriad of works are written in the native language.

RƏYÇİ: dos. S.Abbasova

Rəhilə İldırım qızı Quliyeva[85]

AZƏRBAYCAN DİLİNDƏ ALLİTERASİYA

Hər hansı bir dilin mövcudluğu və ünsiyyət vasitəsi kimi fəaliyyət göstərməsi danışıq səsləri ilə həyata keçirilir. Deməli, insanlar arasında istər şifahi, istərsə də yazılı şəkildə kommunikasiyanın formalaşmasında dilin fonetik quruluşu həlledici rol oynayır. Dil üçün maddi əsas səslərdir. Eyni zamanda, digər fonetik vasitələr də - fonetik qanunlar və hadisələr, vurğu və s. dilin fonetik quruluşunu təşkil edir. Fonetika dilin səslərinin obyektiv mövcud qanunauyğunluqlarını öyrənir və dilin leksikasının, qrammatikasının özülünü təşkil edən fonetik quruluşunu müəyyənləşdirir. Bu baxımdan, Azərbaycan dilinin fonetik quruluşu maraqlı və zəngindir. Sözün fonetik cəhətdən formalaşması üçün müxtəlif fonetik sıralanma, həmahənglik, fonetik təkrarçılıq və s. kimi zəruri qanunlar, qaydalar vardır. Azərbaycan dilində şifahi və yazılı nitqdə sabitləşən bir sıra fonetik qanun və fonetik hadisələr – ahəng qanunu, cingiltiləşmə qanunu, eliziya qanunu, həmçinin assimlyasiya, dissimlyasiya, metateza, proteza, reduksiya və s. özünü göstərir.

Ali və orta ümumtəhsil məktəbləri üçün yazılmış Azərbaycan dili dərsliklərində və eləcə də müxtəlif monoqrafiyalarda, bir çox elmi tədqiqat əsərlərində bu fonetik vasitələr haqqında kifayət qədər danışılmışdır. Lakin bizim diqqətimizi çəkən Azərbaycan, ümumən türk dillərində daha çox özünü göstərən **alliterasiya** qanunudur. Onu da qeyd edək ki, belə fonetik vasitələr bir sıra hallarda fonetik qanun və hadisələr kimi təsnifləndirilir. Bizcə, hadisə kimi təqdim edilənlərin özündə də bir qanunauyğunluq vardır.

Alliterasiya nədir, ahəng qanunundan fərqli xüsusiyyətləri hansıdır?

"Alliterasiya bir qrup söz daxilində ardıcıl və ya yaxından əlaqəli hecalardakı eyni başlanğıc samit səslərinin, fərqli yazıldığı halda da nəzərə çarpan təkrarlanmasıdır" (6).

Məşhur türkoloq B.Radlova görə, alliterasiya sözlərin hər hansı hissəsindəki samitlərin eyni və yaxın olmasıdır (1, s. 189). Ahəng qanunu isə həmahənglik deməkdir. "Müasir Azərbaycan dilində eynicinsli saitlərin eynicinsli saitlərlə, incə saitlərin incə saitlərlə, qalın saitlərin qalın saitlərlə, həmçinin incə saitlərin qalın saitlərlə çarpazlaşması halları da mövcuddur" (2, s. 33). "Müasir Azərbaycan dili" dərsliyində yalnız saitlərin ahəngindən bəhs edilmişdir. Lakin türk dillərində səslərin ahəngləşməsi o dərəcədə güclüdür ki, hətta samit səslər də ahəng qanununa tabe olur. Görkəmli dilçi alimlər – prof. Ə.Dəmirçizadə, akad. A.Qurbanov və s. Azərbaycan dili dərsliklərində samit səslərin də əksəriyyət sözlərdə ahəng qanununa tabe olduğunu izah etmişlər. Alliterasiya qanunu Azərbaycan dilçiliyində, ümumən türkologiyada geniş tədqiqat obyekti olmamışdır. Türk dillərində alliterasiya haqqında ilk tədqiqat məşhur polyak dilçisi Tadeuş Kovalskinin adı ilə bağlıdır. T.Kovalski 1921-ci ildə "Türk şeirində alliterasiya" adlı əsərini yazmış və Krakov şəhərində çap etdirmişdir. Türkoloq A.N.Finin həmin əsəri rus dilinə tərcümə etmiş və 1926-cı ildə Bakıda çap etdirmişdir (3).

Alliterasiya, əsasən, şeir dilində, poeziyada özünü göstərir. Yəni ardıcıl gələn misralarda səslərin təkrarı diqqəti cəlb edir, emosionallıq, ekspressivlik yaradır. Azərbaycan dilində alliterasiyaya bayatılarda, atalar sözləri, zərbi-məsəllər, hikmətli ifadələr, frazeoloji birləşmələr və yanıltmaclarda daha çox rast gəlinir:

1. Yağ yağa qarışdı,
Yarmalar yavan qaldı.
Yel aparan yelinki
Yerdə qalan mənimki.
2. Su səhəngi suda sınar

Azərbaycan dilində alliterasiya qanunu həm şifahi xalq ədəbiyyatında, həm yazılı ədəbiyyatda nəzm və nəsrlə yazılmış əsərlərdə geniş miqyasda özünü göstərir. Bu haqda bir çox tədqiqatçıların fikirləri çox maraqlıdır. Dilimizin qədim tarixi abidəsi "Dədə Qorqud" dastanında çox geniş miqyasda işlənən alliterasiya haqqında V.V.Bartold, V.M.Jirmunski, Ə.Dəmirçizadə və s. alimlər maraqlı fikirlər söyləmişlər.

V.M.Jirmunski qədim türk dastanlarında q (k) səsinin alliterasiyasının çox geniş yayıldığını qeyd edir və "Kitabi-Dədə Qorqud"dan çoxlu nümunələr gətirir:

Qara-qara dağlardan xəbər aşa,
Qanlı-qanlı sulardan xəbər keçə,
Qanlı oğuz elinə xəbər vara,
Qanlı Qoca oğlu Qanturalı nə etmiş deyərlər? (1, s. 197.)

Burada, əsasən, sətir əvvəlindəki alliterasiyaya aid nümunələr verilmişdir, sətrdaxili alliterasiya daha çox işlənir.

V.M.Jirmunski dastanlardakı alliterasiya qanunu üzərində çox dayanmış və alliterasiyanın üslubi ekspressivlik, emosional həyəcan yaratmaq xüsusiyyətlərini ön plana çəkmişdir.

Azərbaycan dilçiliyində alliterasiya az tədqiq edilən sahə olsa da, prof. M.Adilovun bu haqda araşdırması diqqət çəkir və maraqlıdır. Müəllif klassiklərin, o cümlədən Ş.İ.Xətainin, M.Füzulinin əsərlərində alliterasiya qanununun üslubi xarakter daşıdığını göstərmiş, alliterasiya qanununun tədqiqi məsələsinə toxunmuş və türk dillərinin lüğət tərkibində mühüm yer tutan qoşa sözlərin əmələ gəlməsində alliterasiyanın əsas faktorlardan biri olduğunu aydınlaşdırmış və qeyd etmişdir ki, rus türkoloqu V.A.Qordlevski hələ 1928-ci ildəki tədqiqatlarında türk (osmanlı) dili qoşa sözlərində alliterasiyanın geniş

[85] *Filologiya üzrə fəlsəfə doktoru, dosent. Bakı Dövlət Universiteti*

yayıldığından bəhs etmişdir: ağrı-acı, and-aman, baş-beyin, ar-abır, qohum-qonşu, bağ-bağat, qonaq-qara, boy-buxun, qabaq-qənşər, qab-qacaq, qayda-qanun, dava-dalaş, dava-dərman, qəpik-quruş, yalvar-yaxar, doğru-dürüst və s.

Prof. M.Adilov öz tədqiqatında alliterasiyanın poeziya, şeir dili üçün xarakterik olduğunu qeyd edir. Fikrimizcə, alliterasiya fonetik qanundur, çünki həm şifahi, həm də yazılı dildə sabitləşmişdir. Eyni zamanda alliterasiya türk dillərində təkcə fonetik qanun kimi deyil, həm də leksik, qrammatik, üslubi bir cəhətdən öyrənilməli, tədqiq edilməlidir.

Alliterasiya mətni, söhbəti, cümləni, hər hansı bir ifadəni daha qabarıq şəkildə nəzərə çarpdırır, yaddaqalan edir. Məsələn, Saçı uzun Suray xanım, Boynu uzun Buray xanım; Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar; Bəzən ümumxalq danışıq dilində alliterasiya prinsipi əsasında elə ifadələr yaranır ki, sözün əşyavi mənəvi-semantikası olmur, lakin belə sözlər nitqdə maraq doğurur. Məsələn, Gələn kimdir? – Kilimçi. Nə almısan? – Nə bilim, çiçi-biçi.

Qeyd edək ki, Azərbaycan ədəbiyyatşünaslığının, dilçiliyinin inkişaf etməsində XI əsrdə yaşayıb-yaradan Xətib Təbrizinin müstəsna rolu olmuşdur. Xətib Təbrizinin bədii yaradıcılığı ilə yanaşı, elmi fəaliyyəti də xalqımız üçün zəngin mənbədir. Xətib Təbrizi ömrünün 40 ilini Bağdadda "Nizamiyyə" mədrəsəsində dil və ədəbiyyat dərslərini tədris etməklə keçirmiş, eyni zamanda ədəbiyyatşünaslıq və dilçiliyə dair maraqlı əsərlər yazmış, həmçinin öz dövründə yazılan əsərlərin elmi-tənqidi şərhini vermişdir.

Sənan İbrahimov və Mətanət Həsənovanın "Azərbaycan ədəbiyyatının tədirisi tarixi" adlı kitabında Xətib Təbrizinin dilçilik sahəsində elmi fəaliyyəti haqqında maraqlı faktlara rast gəlirik: ərəb dilçisi Əbu Yusif Yaqubun "Nitqin düzəlişi" əsəri əsasında Xətib Təbrizi "Nitqin izahı"nın düzəlişi" adlı əsərini yazmışdır. Xətib Təbrizi öz əsərində Əbu Yusifin kitabındakı bəzi səhv məqamlara aid düzəlişlər vermiş, eyni zamanda özünün dilçiliyə dair mülahizələrini də yazmışdır. Müəllif hələ o dövrdə formaca müxtəlif, mənaca eyni olan sözləri, vahid kökdən ibarət ifadələri, onların etimologiyasını dərindən araşdırmış, danışıq dili ilə yazılı dil arasında fərqləri göstərmişdir.

Xətib Təbrizinin ərəb dilçiliyinə dair başqa bir elmi əsəri "Axırdan da oxunduqda əvvəldən oxunan kimi səslənən sözlərə dair kitab" adlanır. Bu kitabda Xətib Təbrizi ərəb poeziyasında təsadüf etdiyi hər iki tərəfdən də oxunanda eyni cür alınan sözləri və həmin sözlərin işləndiyi beytləri seçib vermişdir (4, s. 33-34.). Xətib Təbrizini dünyanın bir çox şərqşünas alimləri "ədəbiyyat və qrammatika elminin rəhbəri" adlandırmışlar. Biz də Xətib Təbrizinin haqqında bəhs etdiyimiz əsərindən qaynaqlanaraq Azərbaycan və ümumiyyətlə, türk dillərində hər iki tərəfdən eyni cür oxunan sözləri qruplaşdırmaq və bunun səbəbini izah etməyi məqsədəuyğun hesab edirik.

ata	qalaq	lal	iri	dad	sus
ana	qapaq	ləl	iti	did	səs
ağa	qaçaq	lil	ütü		sis (duman)
ada	qırıq	lül	mum		süs (bəzək)
ara (isim)	qulluq		iki		şiş (isim)
ara (feil)	qalaq		ulu		şiş (feil) və s.
ala (sifət)	qabaq				

Belə sözlərin quruluşu, hansı nitq hissəsinə mənsubluğu başqa araşdırmaların mövzusu ola bilər. Məqalədə məqsədimiz bu tipli sözlərdə həm ahəng qanunun, həm də alliterasiya qanunun mövcud olduğunun göstərməkdir. Nümunələrdəki ata, ana, ada, ara və s. sözlərdə saitlərin ahəngi ilə yanaşı, eyni cinsli saitlər təkrar da olunub, digər sözlərdə isə samitlər sözlərin əvvəlində və axırında təkrarlanıb. Fikrimizcə, belə sözlər alliterasiya qanunu əsasında yaranmışdır.

Qeyd etmək lazımdır ki, əgər bu mövzu hələ XI əsrdə alimlərin diqqətini cəlb edirdisə, bu mövzu tədqiq edilirdisə, bu gün üçün də aktualdır. Azərbaycan dilinin fonetikasında, fonetik quruluşunda tədqiqə ehtiyacı olan mövzulardan biri alliterasiya qanunudur. Bu məsələ ilə bağlı fikirləri oxucuların ixtiyarına buraxmağı məqsədəuyğun hesab edirik.

Bir məsələni də xatırlatmaq yerinə düşər. Hələ XX əsrin əvvəllərində, ortalarında alliterasiya qanunu, bu qanun əsasında yaranan qoşa sözləri məşhur dilçi alimlər, türkoloqlar tədqiq etmiş, bu haqda maraqlı fikirlər söyləmiş, əsərlər yazmışlar. Bu mövzuya dair tədqiqat aparan A.M.Şerbak, M.K.Xamrayev, V.V.Bartold, V.M.Jirmunski, V.V.Kojevnikova, D.E.Rozaental, N.S.Trubetskoy, V.A.Qordlevski, N.K.Dmitriyev, V.İ.Abayev, Ə.Dəmirçizadə, M.Adilov, A.Axundov və s. kimi dilçiləri göstərmək olar.

"Azərbaycan dilinin inkişafi və hər sahədə geniş şəkildə tətbiqi haqqında" ölkə rəhbərliyinin biri-birinin ardınca verdiyi sərəncamlara əsasən Azərbaycan dilinin fonetikası, leksika, qrammatika, üslubiyyatı haqqında tədqiqat işlərinin, əsər və dərsliklərin yazılması günümüzün prioritet məsələlərindən biridir.

Məşhur fonetist, görkəmli dilçi-alim A.Axundov yazmışdı: "Azərbaycan dili öz fonetik imkanları cəhətdən bədii dil üçün ən yararlı dillərdən biridir. Dilimizdə sait səslərin çoxluğu, vurğu və intonasiya vasitələrinin zənginliyi, nəhayət, sait və samit səslərinin harmoniyası olan ahəng qanunu – bütün yaratmaq üçün bunlar bədii dilin gözəl nümunəsini yaratmaq üçün əvəzsiz imkanlardır" (5, s. 190).

Əsərdə səslərin harmoniyasına alliterasiya qanunu da aiddir. Müəllif "Fonetikanın üslubi imkanları" məqaləsində göstərir ki, eyni saitlərin təkrarı da şeirdə müəyyən ahəngdarlıq yaradır. Bu cəhətdən aşağıdakı şeir parçalarında eynicinsli samitlərin təkrarı heç də təsadüfi deyildir:

Pıçıldaşır şirin-şirin şıltaq ləpələr (S.Vurğun).
Göydə iki qara bulud çatılaraq,
İldırımlar şaqqıldayır şaraq-şaraq (M.Müşfiq).

Göründüyü kimi, şeirlərdə ş samiti bir neçə dəfə təkrar edilərək müəyyən bir hadisənin səsini əks etdirir (5).

Müəllif "alliterasiya" terminini işlətməsə də samit səslərin təkrarından nümunələr əsasında geniş şəkildə bəhs etmişdir.

Qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, alliterasiya yalnız üslubi xarakter daşımır, söz yaradıcılığı prosesində də iştirak etməklə dilin lüğət tərkibinin zənginləşməsində böyük rol oynayır. Məqalədə əsas məqsədimiz alliterasiya qanununun dil üçün vacib fonetik proses oldğunu nəzərə çatdırmaqdan ibarət idi. Həmçinin bu mövzu ilə əlaqədar belə nəticəyə gəlirik ki, türk dillərində bir sıra fonetik, leksik, morfoloji məsələləri alliterasiya ilə əlaqədar izah etmək düzgün olar. Bu əsasda diqqətimizi çəkən məsələlərdən biri dilimizin lüğət tərkibindəki əksəriyyət sözlərin alliterasiya qanunu əsasında yaranmasıdır. Buna görə də, düşünürük ki, bu mövzunu daha geniş aspektdə araşdırmağa ehtiyac var.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan bədii dilinin üslubiyyatı (Oçerklər). Bakı: Elm, 1970
2. Müasir Azərbaycan dili. Bakı: Elm, 1978
3. К вопросам формального изучения поэзии турецких народов. Известия Восточного факультета АГУ имена И.И.Ленина, том I, Бакы, 1926, s. 147-196.
4. İbrahimov S., Həsənova (Saraclı) M. Azərbaycanda ədəbiyyatın tədrisi tarixi. Bakı: MBM, 2016, s. 33-34
5. Ağamusa Axundov. Dilin estetikası. Bakı: Yazıçı, 1985, s. 190
6. https://wikifaz.icu/wiki/Alliteration

Açar sözlər: Azərbaycan dili, fonetik qanun, alliterasiya, samit səslər, ahəngdarlıq
Key words: Azerbaijani language, phonetic law, alliteration, consonant sounds, harmony
Ключевые слова: азербайджанский язык, фонетический закон, аллитерация, согласные звуки, гармония

Azərbaycan dilində alliterasiya

Xülasə

Məqalə Azərbaycan dilində, xüsusilə də onun bədii üslubunda diqqət çəkən fonetik bir prosesə - alliterasiya qanununa həsr edilib. Qeyd olunur ki, alliterasiya Azərbaycan dilinin özünəməxsus keyfiyyətlərə malik bir fonetik prosesidir. Bu prosesdə dilin samitlər sistemi aktuallaşır və dil vasitələrində öz həmahəngliyi ilə diqqət çəkir. Alliterasiya özünü daha çox şeirdə və poeziyada göstərir. Alliterasiya dedikdə ardıcıl gələn misralarda eyni səslərin təkrarı olmalıdır. Azərbaycan dilində alliterasiya daha çox atalar sözləri, bayatılarda, frazeoloji birləşmələrdə, yanıltmaclarda daha tez-tez rast gəlinir. Həmçinin o da vurğulanır ki, alliterasiya təkcə üslubi xarakter daşımır, söz yaradıcılığı prosesində də iştirak etməklə dilin lüğət tərkibinin zənginləşməsində böyük rol oynayır. Yəni alliterasiya yazılı və şifahi kommunikasiyada mühüm rol oynayan fonetik proseslərdən biri kimi xüsusi əhəmiyyət daşıyır.

Аллитерация в азербайджанском языке

Резюме

Статья посвящена фонетическому процессу в азербайджанском языке, особенно его художественному стилю - закону аллитерации. Отмечается, что аллитерация-это фонетический процесс азербайджанского языка, обладающий уникальными качествами. В этом процессе система согласных языка приобретает актуальность и привлекает своей гармонией языковых средств. Аллитерация больше проявляется в стихах и поэзии. Аллитерация означает, что в последовательных толстых строках должно быть повторение одних и тех же звуков. В азербайджанском языке аллитерация чаще встречается в пословицах, поговорках, фразеологизмах, заблуждениях. Также подчеркивается, что аллитерация не только носит стилистический характер, но и играет большую роль в обогащении словарного состава языка, участвуя в процессе словообразования. То есть аллитерация имеет особое значение как один из фонетических процессов, играющих важную роль в письменной и устной коммуникации.

Alliteration in Azerbaijani language

Resume

The article is devoted to the phonetic process in the Azerbaijani language, especially its artistic style - the law of alliteration. It is noted that alliteration is a phonetic process of the Azerbaijani language, which has unique qualities. In this process, the system of consonants acquires relevance and attracts linguistic means with its harmony. Alliteration is more evident in verses and poetry. Alliteration means that the same sounds should be repeated in consecutive thick lines. In the Azerbaijani language, alliteration occurs more frequently in proverbs, sayings, phraseology, and delusions. It is also emphasized that alliteration not only has a stylistic character, but also plays a major role in enriching the vocabulary of the language, participating in the process of word formation. That is, alliteration has special importance as one of the phonetic processes that play an important role in written and oral communication.

RƏYÇİ: dos.E.Vəliyeva

Mustafayeva Sona Şahin qızı[86]

RƏŞİD BƏY ƏFƏNDİYEVİN ƏDƏBİ-NƏZƏRİ GÖRÜŞLƏRİ

Rəşid bəy Əfəndiyev XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühitində öz pedoqoji və bədii fəaliyyəti ilə seçilən, qabaqcıl ziyalılardan biridir. Ədibin yardıcılıq fəaliyyətində ana dilinin inkşafı uğrunda apradığı islahatlar diqqət mərkəzində olmuşdur və bu məqsədlə bədii əsərlərlə yanaşı dərsliklər də yazmışdır.

Rəşid bəy Əfəndiyev 1863-cü ildə mədəni və iqtisadi cəhətdən inkişaf etmiş Şəki şəhərində, ruhani ailəsində dogulmuş və ilk təhsilini də şəhər məktəbində almışdır. Burada rus dilini öyrənmiş və Şəki ədəbi mühiti onun bədii estetik zövqünün formalaşmasına təsir göstərib, ədəbiyyata, poeziya sənətinə məhəbbət yaratmışdır.

1878-ci ildəRəşid bəy M.F.Axundovla görüşmüş və bu görüşün ədibin gələcək həyat və yaradıcılıq rolunun müəyyənləşməsində önəmli təsiri olmuşdur. O,M.F.Axundovun məsləhəti ilə təhsilini Qori müəllimlər seminariyasında davam etdirmişdir.Seminariyada təhsil aldığı müddətdə K.D.Uşinski və A.O. Çernya-yevskinin kimi pedoqoqlardan təhsil alır, müxtəlif mədəni tədbirlərə qatılır, dünya ədəbiyyatı xüsusuilə rus ədəbiyyatına dair dərin biliklərə yiyələnir. Rəşid bəy seminariyada tələbələr arasında öz biliyi ilə fərqlənirdi və buna görə də o, A.O.Çernyayevskinin diqqətini cəlb etmiş və "Vətən dili" dərsliyinin birinci hissəsinin hazırlanmasında tələbəsinin köməyindən istifadə etmişdi.

Rəşid bəyhələ tələbə ikən müxtəlif bədii əsərləri və dərslikləri ana dilinə tərcümə edib, məktəblilərin bu əsərlərlə tanış olmasına imkan yaradır. Onun tərcümələri Azərbaycan maarifçi-realist ədəbiyyatını xüsusilə də uşaq şeirini inkişafına təkan vermişdir. Ədibin tərcümələri sırasına Firdovsidən "Rüstəm və Söhrab" hekayəsi, Rus dilindən çevirdiyi "Həndəsə" kitabı, A.S.Puşkindən "Torçu və balıq", "Kaftar", "Hal anası", K.D.Uşinskidən "Tülkü və keçi" İ.Krılovdan təmsillər aiddir.

Semanirayanı bitirdikdən sonra Rəşid bəy Qutqaşendə ibtidai məktəbdə müəllimlik fəaliyyətinə başlamışdır. Burada dərs deyərkən şagirdlərinin müatiləyə olan ehtiyaci və onu ana dilində dəslik yaratmağa təşviq etmişdir. Seminariyadan qazandığı təcrübələri daha da artıraraq çalışmış və pedaqoji fəaliyyətini bütünlüklə ana dilinin inkşafına və tədrisinə həsr etmişdir. Bu barədə öz xatirələrinə belə yazırdı: "Mən əski ərəb məktəbini təməldən devirmək niyyəti ilə "Uşaq baxçası" adı ilə Qutqaşendə 1887 sənədə təzə kitab yazdım. O zaman mənim qarşımda yalnız "Vətən dili" kitabı var idi. Və mən onunla məktəbimdə dərs verirdim".[4, s.8] A.O Çernyayaevskinin "Vətən dili" dərsliyinin çatışmazlıqlarını nəzərə alaraq R.Əfəndiyev milli ruhda və daha sadə dərslik yaratdı.

"Uşaq baxçası" azərbaycanlı müəllif tərəfindən yazılmış ilk ana dilli dərslikdir. Yazıldığı dövrün şərtlərinəzərə alınarsa olduqca original və yeni tipli bir dəsrlik idi və tezliklə məktəblərdə populyarlıq qazanaraq90000 tirajla nəşr olundu. Kitab iki əsas bölmədən ibarətdir və birinci bölmə əlifba məsələlərinə, hərflərin tədrisinə həsr olunmuşdur. İkinci bölmədə isə oxu materialları verilib və mütailə üçün nəzərdə tutlub.Dərsliyə müəllif 60 miniatür hekayə və 34 şeir daxil etmişdir. Bu bədii nümunələr məzmununa görə əxlaqi-nəsihətamiz mövzuları və təbiət haqqında təsvirləri əhatə edir.

Balacalar üçün dərslik yazdıqadan sonra Rəşid bəy yuxarı sinif şagirdləri üçün də dərslik yazmağı öz öhdəsinə götürdü. Dərslik "Bəsirətül-ətfal" adlanır və bədii nümunərlə yanaşı Azərbaycan ədəbiyyatına dair bir sıra nəzəri məsələri də əhatə edirdi. Müntəxəbat müqəddimə və üç babdan – hissədən ibarətdir. Müntəxəbatın birinci hissəsində ancaq bədii nümunələr verilmişdir və bu nümunələr arssında original əsərlərlə bərabər müəllifin rus ədəbiyyatından etdiyi tərcümələr də yer alıb. İkinci hissə "Azərbaycan türklərinə məxsusu ədəbiyyat" adlanır və burada ədəbin nəzəri görüşləri ilə tanış oluruq. Bu bölmədə poetika və nəsrə dair nəzəri məlumatlar bədii nümunələrlə izah edilir.

Rəşid bəy Əfəndiyevin pedoqoji fəaliyətə başladığı ilk illər Azərbaycan ədəbi-ictimai mühitində mühüm hadisələrin cərəyan etdiyi bir vaxta təsadüf edir. XIX əsrdin sonuXX əsrin əvvələrində Azərbycanda maarifçi-realizm cərəyanı yaranıb, inkişaf edirdi və Rəşid bəy də bu cərəyanin qabaqcıl nümayandələrindən bir idi. Ədib bütün ömrünü maarifçiliyin inkişafına həsr etmiş bu sahədə islahatlar aparmış, dərsliklər və bədii kitablar yazmışdır. Maarifçi-realist düşüncə və milli ruh onun əsərlərinin əsas qayəsini təşkil edir. Rəşid bəy Əfəndiyevin ədəbiyyata, cəmiyyətə dair fikirlərinini biz müəllifin müxtəlif jurnallarda nəşr olunan məqalələri ilə yanaşı "Bəsirətül-ətfal" adlı dərsliyindən də oxuyurq.

Rəşid bəy Əfəndiyevin ədəbi düşüncələrinin əsasında realist və milli ədəbiyyatın , ana dilinin inkişafına dair mülahizələr dayanır, ədibin həm bədii yaradıcılığı həm də ictimai fəaliyyəti bu amala xidmət etmişdir. Rəşid bəy anadilində bədii əsərlərin azlığından şikayətlənir, hətta anadilli əsər kimi qəbul edilən ədəbi nümunələrin başdan-ayağa ərəb və fars sözlərindən ibarət oldugunu bildirirdi. Onun fikrincə hər bir xalqın dilinin inkişaf etməsində həmin dildə yaranan ədəbiyyat mühim rola malikdir. "Bəsirətül-ətfal" kitabında bu barədə müəllif yazır ki: "Hər millətin və hər tayfanın doğma dilində məxsusi ədəbiyyatı vardır. Hansı tayfanın ki, elm və mərifət tərəqqisi qədim isə onun ədəbiyyatının dəxi qədim və vəsi olmağı aşkardır. Lakin təvafeyi islam arasında Azərbaycan türklərinni ədəbiyyatı-məxsusəsi axərimci əsrlər kibi olmayub desək səhv etmərik zənnindəyəm. Çünki müddəti-mütəmadı cəmi milləli-islam arasında bilaistisna yazı-pozu və kitabət yalnız ərəb və ya fars dillərində işlənibdir. Məsələn: Firdovsi "Şahnamə"silə, Sədi külliyyatı ilə, Molla Rumi, Xaqani, Şəms Təbrizi və Cami fars dilində yazdığları divanlar ilə məşhudrulər. Və bu zəvati-giamın qələmləri sayəsində farsın dili xeyli tərəqqi tapub lətafət və zərafət kəsb edübdir, əmmatürk dilində qədimi zamanlardan bəri belə asari-məğrubələr meydana gəlməməgi cəhətindən dilimiz kasıb halında qalubdur. Türk dili ümumi islam arasında işlənən dillərdən ən fəğir və ən sadəsi olsa da iqlimgir dillərinin biri hesab olunur. Bu dilə kasıb və fəğir deməgimin vəchi budur ki, əgər filhəqiqət türk dilindən ərəbə və farsa mütəlliğ sözləri atsaq ol vəqt ən sadə xəyalın bəyanında aciz qalaruq. Məsələn:

---

[86] *AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun . Türk dünyası əlyazmalarının tədqiqi şöbəsinin elmiişçisi*

Hənqami-yəs qədri-zühur inayətini,

Mətlubəyi-dəsti-qüdrəti kütah olan bilür."[1,s.124-125] Müəllif türk dilini kasıb və fağır qalmasının səbəbini bu dildə daxil olmuş külli miqdarda ərəb və fars sözlərində, mübağilələrdə və təşbihlərdə görürür. Ədibin fikrincə türk dilini bu mürəkkəblikdən xilas etmək üçün yersiz ərəb və farsca sözlərinin istifadəsindən yayınmaq lazımdır. Türk dilini iqlimgir adlandıran yazar onu bütün İslam coğrafiyasında işlənən önəmli dillərdən hesab edir və bu dilin daha da zənginləşməsi inkişaf etməsi üçün türkcə yazıb-yaratmağın vacibliyini qeyd edirdi. Ədib Nabidən misal göstərdiyi şeir nümunəsində klassik ədəbiyyatda yazılan türk dilli əsərlərin əslində türkcə olmadığını, ərəb və fars sözlərinin sadəcə türk dilinə uygunlaşdırlaraq bəzi səs dəyişimlərinin oldugunun sözlərin isə bütünlükə yabancı mənşəli olmasından şikayətlənir. Yazar bildirir, ki bu nümunələr nə qədər də türkcə əsərlər hesab olunsa da ərəb və farsca bilməyən biri bu əsərlərdən heç nə anlamayacaq. Ədib ana dilimizi ərəb və farscaya möhtac olmaqdan qurtarmaq üçün yalnız türk mənşəli sözlərdən istifadə etməyi lazım bilirdi.

Rəşid bəy Əfəndiyev maarifçilik hərəkatinin nümayəndəsi kimi ədəbiyyatda realizmin və müasirliyin tərəfdarı idi. Maarifçi realist düşüncə tərzi onun ədəbiyyatla bağlı düşüncələrində, ədəbi-nəzəri fikirlərində özünü büruzə verir. Azərbaycan ədəbiyyatı tarixində təqlidçiliyi və ənənçiliyi tənqid edən ədib belə əsərlərin ədəbiyyatımıza heç nə qazandırmadığını, əksinə onun inkişafına maneə oldugunu bildirirdi.Uzun illərlə Xaqani, Nizami, Füzuli, Nəsimi, Xətayi, Vaqif, Sabir kimi dahi şairlərin yaradıcılığı Azərbaycan ədəbiyyatını zənginləşdirmiş, poeziyada məktəb rolunu oynamışdır.Ədəbiyyatımızın önəmli bir hissəsi bu şairlərin yaradıcılığını nümunə alaraq onların yaradıcılıq ənənlərini davam etdirməklə formalaşmışdır. Azərbaycan poeziyasının keçdiyi inkişaf mərhələlərinə nəzər saldıqda görürük ki, hər bir dövr özündən əvvəlki mərhələnin ən gözəl ənənələrini davam etdirmiş və daha da zənginləşdirmişdir.

Ədəbiyyatımızda təkrarçılqdan şikayət edən və təqlidçiliyi zərərli bir axın hesab edən Rəşid bəy "Bəsirətül-Ətfal" əsərində bu mövzuya toxunmuşdur. Ədibin fikrincə klassik ədəbiyyatın təsiri ilə əsrlərdən bəri davam edən subyektiv hisslərin tərənnmündən ibarət olan və şəxsi mənafeyə xidmət edən əsərlər ədəbiyyatda yeknəsək və sıxıcı əsərlərin yaranmasına səbəb olmuşdur. Müəllif xüsusilə Füzuli bədii yaradıcılığının şairlər arasında uzun illər boyunca təqlid olundugunu bildirir. Füzuli yaradıcılığı hər zaman diqqət mərkəzində olmuşdur və onun yaratdığı əsərlər ədəbiyyatın bütün dövrlərində aktuallığını saxlamışdır. Rəşid bəy Füzulini "ədəbiyyatımızın atası" adlandırır lakin onu təqlid edənlərin ədəbiyyata heç bir xidməti olmadığını qeyd edirdi. Bu şairlərinin heç biri Füzuli dühası səviyyəsinə yüksələ bilməmiş və ona layiq əsərlər yarada bilməmişlər. Əksinə təqlidçi, müqəllləd şairlərinyaradıcılığını şəxsi hissərə xidmət edən və eşbazlıqdan və həcvlərdən ibarət olan şeirləri poeziyanın inkişafına mənea olan zərərli bir axına səbəb olmuşdur. "Xülasətül-kəlam türk dilinin pişrəftinə və bu dildə meydana gələn asar ədəbiyyatımızın tərəqqisinə əmək sərf olunası vəqtdir. Füzuli ədəbiyyatımızın atasıdır, ən əvvəl türk dilində nəzm və nəsr yazan türk übədasından o olubdur. O, lakin hələ o bəlağətdə və o zərafətdə bir şair türk torpağı yetirüb, əsrə gətürməyübdür. Pəs imdi də onun o asari-bəlağət şüarı sərməşqliq halında durub müqəllədlərinə tən etməkdədir zənnindəyəm. Füzuliyə müqəllləd şüərarlərimizin eşqbazlığı və həcvguluqdan maidə bir şeyi vücudə gətirməyübdir ki, andan əxlaq dərsi alınsun".[1, s.127]

Ədib dərsliyin "Azərbaycan türkələrinə məxsusu ədəbiyyat" adlı bölməsində ədəbiyyatın inkişafı üçün onun qarşısında duran başlıca vəzifələrə nəzər salır, onun inkişafına mane olan problemleri aradan qaldırmağa xüsusi diqqət yetirir,mövzu və ideya cəhətdən bəşəri və milli ruhlu əsərlər yazmağı təklif edirdi. ədəbiyyatın qarşısında yüksək əxlaqi vəzifələr qoyan Rəşid bəy sənətdə ideyasızlığa, məzmunsuzluğa qarşı çıxır, erotik əsərlər yazan şairlərin yaradıcılığını rəzalət hesab edir və onlara qarşı kəskin tənqidi münasibət bəsləyirdi. O, təqlidçi şairləri ictimai, bəşəri ideyalaradan uzaq olmaqda ittiham edirdi. Ədibə görə subyektiv hisslərin ön planda oldugu bu şeirlər insanların qəlbində nəfsani və heyvani hisslər oyandırır, cəmiyyətdə fitnə-fəsadın yayılmasına səbəb olur. Cılız mövzularadn ibarət olan bu şeirləri müəllif "məxlut şeiri" adlandırır və rəzalət hesab edirdi: "Qərəgöz və qərəqaş sənəmləri tərif və tövsif edən və ya həcvdən ibarət olan "sin kaf" əfzaəli ilə məxlut şeirlərin meydan almağı əxlaq nöqteyi nəzərindən bilkülliyə rəzalət və səfalətdir".[1, s.127]

R.Əfəndizadənin ədəbi-nəzəri fikirlərinin əsasında ictimai mövzular, əxlaqi-tərbiyəvi fikirlər dayanır. Ədəbiyyatda sadə dildə əsərlər yazmağı, mövzuların real gerçəklikdən alınmasına xüsusi diqqət yetirən müəllif Seyid Əzim Şirvani, Raci, Nəbati, Dilsuz kimi şairlərin yaradıcılıqlarını buna nümunə göstərirdi. Rəşid bəy şairi yaşadığı cəmiyyətin məhsulu hesab edirdi. Şairlərin əsərlərinə seçdikləri mövzularda, yaradıcılıqlarının formalaşmasında, oxucuların bədii zövqü önəmli rol oynayırdı. Müəllifə görə bədii əsərlərdə seçilən mövzuların ideya cəhətdən zəif olmasında təkcə şairlərdə qəbahət axtarmaq düzgün deyil, həmçinin şairin yaşadığı cəmiyyət də bu cəhətdən günahkardır: Şair yaşadığı cəmiyyətin güzgüsüdür, əgər xalq həcvə əhsən desə şair həcv yazcaq, əgər eşq məhəbbət şeirləri bəyənilsə onda yazarlar bu mözuya üstünlük verəcəklər. Bununla bağlı ədib yazırdı ki: "Şairin nitqini guya edən və qələmini təhrikə gətürən məhz zuhurə gətirdigi əsərə xəlayiq tərəfindən söylənən təhsindir. Xəlq həcvə təhsin eyləsə, şair həcvgu olacaqdır. Eşqbazlığa afərin desə, şair aşiq olub qərəqaş və qərəgöz sənəmlərə asarını münhəsər qılacaqdır".[1, s.129]

Rəşid bəy şairin istedadının tamamilə kütlənin zövqünə xidmət etməsini qınayarq buna müqabil olaraq S.Ə.Şirvani yaradıcılığını misal göstəriridi. S.Ə.Şirvanin şeirləri yaşadığı mühitdə birmənəlı qarşılanmır və təyziqlərə məruz qalırdı. İnsanlar ona ənənəvi hekayələrdən mövzu seçməyi diqtə etsə də ədib onlara tabe olmurdu. Müəllif dərslikdə buna Şirvanin aşağıdakı beytlərini nümunə göstərirdi:

"Bir görün ki, olubdu bu cahil,

İnqilabi-ənasirə qail,

Söyləyür: gah su havaya dönür,

Gah hava su olub, səmadan enür...
Ey səfiyyə-dəbəngi-nahəmvar!!
Bu xəyaindən eylə istigfar...
Var cahəndə gözəl hekayətlər,
Neçə min nazənin hekayətlər,
Nəzm qıl qissəyi-Güləndamı,
Eylə məlum eşqi Bəhramı.
Kərəmin Əsli ilə yaz vəslin
Kəşf qıl əsli xanımın əslin.(s129-130)

Sifarişlə əsər yazmağa tənqidi yanaşan Rəşid bəy şairlərin yaradıcılığını bar verən ağaca bənzədirdi ki bu ağacın meyvələri həm kal, həm dəymiş, həm də çürük ola bilər. Belə ki hər bir şair öz istedadına uyğun mövuzlar seçməlidir və qələmindən çixan nümunələrin seçib ən gözəlini xalqa təqdim etməlidir. Klassik bədii ifadə və təsvir vasitələrinə də münasibət bildirən ədib həddindən artıq mücərrəd və qeyri-real ifadələrlə bəzədilmiş şeirləri tənqid edir və bunları ağıla, məntiqə uygun olmayan nümunələr hesab edirdi. Müəllif şeirlərdəki sənəmlərin ifrat mədh olunmasına ironik yanaşaraq şeirdəki misralara uygun bir rəsm çəkməyi təklif edir və sonda oxucuların həmin rəsmdəki məxluqa sevgi yox nifrət hissinin yaranacağını bildirərək yazırdı: "Məhbubənin qaşlarını yaya və kirpiklərini oxlara oxşatdı. Biz də o minval qaş və kirpik əvəzinə həman dairənin içində iki danə yay və cərgədən oxlar düzülmüş oxlar təşkil edək.

Zikri-ləbinlə zülfünə can oldu dəstrəs,
Anın kibi ki, oxuyub əfsun ilan dutar.

Bu beytdə də məhbubinin zülflərini ilana oxşatmağına görə biz də dairənin iki tərəfində bir cüft ilan çəkək.

Xüləsatül-kəlam "köhnə" səpkidə intiçar olan əşarın böylə tərifi-tövsifləri dəxi təbii əhvala müğayir oldığından oxuayan kəsə kəsalət və nifrət gətirəcəkdir. Heç bir surətdə insan üçün mərifət və ibrət dərsi andən hüsulə gəlmədiyi məlumdur."[1, s.134]

XIX əsr boyu Şərqdə poetika məsələləri ilə bağlı sanballı elmi-nəzəri əsər yazılmadı. Poetikaya dair nəzəri biliklər yalnız kənd məktəblərində və mollaxanalarda öyrədilirdi. Məktəblərdə tədris olunan ədəbiyyatşünaslığa dair biliklər isə pərəkandə halda qeyri professional şəkildə təqdim olunurdu. Rəşid bəy Əfəndiyev məktəblilərin sistemli şəkildə bilklərə yiyələnməsi üçün təqdim etdiyi "Bəsirətül-Ətfal" dərsliyində ədəbiyyatşünaslıq məsəslərində də yer vermişdir. Müəllif dərsliyin "Azərbaycan ədəbiyyatı nümunələri" adlanan hissəsində yazı, ədəbiyyatın predmeti, nəsrlə və nəzmlə yazılan ədəbi nümunlərin janr və üslub məsələlərini şərh etmişdir. O, Ədəbiyyatı insanların fikir və xəyallarının məhsulu hesab edirdi. Ədibin fikrincə ədəbiyyat isan fikirlərinin təbliğinə xidmət etməlidir. Fikirdən və ideyadan məhrum ədəbiyyatı qeyrimümkün hesab edən müəllif yazırdı: " Ədəbiyyatı anlamağa və özgəsini qandırmağa fikir lazımdır. Həm söz söyləməkdən qabaq və həm yazı yazmaqdan müqəddəm ən əvvəl zehnimizə gələn şeyə "fikir" deyərlər. Fikirsiz danışılmış sözün və yazılmış kəlamın nə hüsnü var?"[1, s.135]Bədii əsərlərdə ideya qədər hissin də önəmli rolundan danışan müəllif hissiyyatdan, duyğulardan kənar olan yazıları bədii nümunə hesab etmirdi. Müəllifə görə yazıda əks olunan hissiyyat təbii və həqiqi olmalıdır: "Çünki bir qəlbin hissiyyati-həqiqi olduğı surətdə böylə hissiyyat sayəsində zühura gələn yazını başqa qəlblərə olan əsəri dəxi təbii olacaqdır"[1, s.136] Beləliklə ədibə görə yazı təkcə insanların fikirlərini bir-birlərinə çatdırmır, fikir mübadiləsində olanların hisslərini bir-birinə aşılayır. Buna görə də emosiylardan uzaq yazıları bədii ədəbiyyat nümunəsi hesab etmirdi.

Rəşid bəy bədii əsərdə ideya ilə yanaşı üsubu da vacib element hesab edirdi. Üslub ideyanın qələmə köçürülməsi üçün lazım olan bir qəlibdir. Müəllifə görəyazının keyfiyyətini artıran məsəslərdən biri də bu yazını hansı üslubla ərsəyə gəlməsinə bağlı idi. Üslub fərdi bir keyfiyyət olaraq, hər bir insanın özünəməsus qabiliyyətdir və yazının bəyan olunmasında mühim rol oynayır. Ədib ərəb və fars ifadələri ilə qəzlizləşdirilmiş yazılar yerinə daha aydın, anlaşıqlı və sadə üslubda yazmağı tövsiyyə edirdi: "Asari-ədəbiyyatda istimali adət olmayan ərəb və ya fars və ya əcnəbi istilahı qərabətə səbəb olur."[1, s.137] O, kifayət qədər zəngin söz ehtiyatina malik olan türk dilində əsərlər yazmağı ədəbiyyatın inkişafında mühüm amillərdən biri hesab edirdi.

Ədəbiyyatın nəzəri məsələlərini şərh edərkən Rəşid bəy yazının növlərinə də diqqət yetirmiş onu iki növdə təsnif etmişdir. Bir qismi "sadə yazı" adlandırır və buraya nəsrlə yazılan yazıları daxil edirdi.İkinci qismə isə müəyyən qaydaqanuna, nizama tabe olan yazıları aid edirdi ki, buraya da nəzmlə yazılan nümunələr daxildir. "Nəsrin ənvayi" adlı bölmədə müəllif nəsr əsərlərini janrlara görə təsnif edir və hər bir janrın xüsusiyyətləri haqqında yığcam məlumat verir. O, nəsri insan fikirlərinin sərbəst forma3da təzühürü adlandırır və nəsrin janrlarına müqəddimə, məktub, məlfufə, təbriknamə, təziyyətnamə, məqaleyi-fənniyyə, məqaleyi-ədəbiyyə, tarix, roman, komediya tragediya, nitq və s. aid edirdi.

Bəsirətül-ətfal dərsliyində yazar nəzm məsələrinə geniş yer vermiş, nəzmin janrlarının bədii xüususiyyətlərini müxtəlif nümunələr əsasında şərh etmişdir. Şeirin bədii komponentlərinə diqqəti cəlb edən müəllif vəzn, struktur, qafiyə kimi məsələrin izahını vermişdir. Düzgün şeir yazmağın qaydalarından bəhs edərkən o, yazırdı: "Kəlamı mənzum eləmək üçün bir neçə qayda vardır. Əvvəla, kəlamda vəzn lazımdır. Belə ki, hər şeirin misrası müəyyən hecadan əmələ gəlməyi şərtdir. Və saniyən kəlamda ləhn lazımdır. Belə ki, hər sözün özünəməxsus olan ləhn kəlmanın vəzninə münasib olsun... və salisən, vəzn və ləhndən maidə nəzm və şeirdə qafiyə və rədif lazım gəlir. Hər beytin axırındaki sözə "qafiyə" deyillər ki, həmin söz qəzəlin hər beytində mükərrər gələcəkdir və qafiyə sözündən qabakkı söz ki, bəzi kəlamlara təkyeyi – "qafiyə" üçün mükərrər qılınır, buna "rədif" deyirlər.[1, s.147-148]

Rəşid bəy Əfəndiyevin elmi və pedoqoji yaradıcılığında əsasında uşaqların təlim tərbiyyəsinin inkişafı, onların bərabər hüquqlarlaelm öyrənməsi məsələri xüsusi diqqət ayrılmışdır. Uşaqların tərbiyyəsində doğruluq, dinə bağlılıq, ədəb, həya, vətənpərvərlik kimi tələbləri önə çəkən pedoqoq cəmiyyətdə qadın və kişi hüquqlarının bərabərliyi uğrunda da mübarizə aparan maarifçilərdən biriolmuşdur. Qadınların təhsil alması, savadlanması, cəmiyyətdə mövqe sahibi olması barədə Rəşid bəy 1914-cü ildə çap etdirdiyi "Arvad məsləsi" adlı kitabında geniş yer ayırmışdır. O, məktəblərdə dərs dediyi illər ərzində kəndələrdə təhsildən uzaq qalan yüzlərlə qızı təhsilə cəlb etmişdir, onların savadalanması üçün əlindən gələni əsirgəməmişdir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində geniş vüsət alan maarifçilik hərəkatı ədəbiyyatın, tetarın və sənətin ayrı-ayrı sahələrində inkişafa və yeniliklərə səbəb olmuşdur. Azərbaycanda şifahi xalq ədəbiyyatı nümunələrinin sistemli şəkildə toplanması və nəşri bu illərə təsadüf edir. S.Mümtaz, E.Sultanov, M.Mahmudbəyov, V.Xuluflu, H.Əlizadə və b.tədqiqtçıların araşdırmaları folklorşünaslığımızın inkişafında əvəzolunmaz rol oynamışdır. R.Əfəndiyev də müasirləri kimi folklor məsələrinə biganə qalmamışdır və dərs dediyi kəndələrdə xalqın dilindən müxtəlif, tapmacalar, laylar, nağıllar, əfsanələr, atalar sözləri və bayatı nümunələrin toplamışdır. R.Əfəndiyevin folklorla bağlı araşdırmaları sırasında "El ədəbiyyatı", "Bayatılar və el nəğmələri" adlı yazılar xüsusi yer tutur. Bu əlyazmalarda müəllif ayrı-ayrı şifahi xalq nümunələrini təsnif etmiş, və onları janrlara uyğun qruplara ayırmışdır. 1926-ci ildə ədib, folklorla bağlı araşdırmalarını ümumiləşdirərək bu barədə "El ədəbiyyatı yaxud el sözləri adlı" məqaləsini yazmışdır və bu məqalə "Azərbaycanı öyrənmə yolları" adlı jurnalda nəşr olunmuşdur.

Rəşid bəy Əfəndiyev XIXəsrdin sonu və XX əsrin əvvələrində öz elmi və pedoqoji fəaliyyəti ilə Azərbaycan ədəbəbi mühitində xüsui yeri olan ziyaylılar-dan biridir. Uzun illər boyunca Azərbaycan məktəblərində onun yazdığı dərsliklər tədris edilmiş, pedoqoji və maarifçi görüşləri uşaqların savadlan-masında önəmli rol oynamışdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Əfəndiyev R. Bəsirətül-ətfal. Bakı: Elm və təhsil,2019, 236 s.
2. Əfəndiyev R. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 120 s.
3. Əfəndiyev R. Uşaq baxçası. Bakı: ABU, 2010, 192 s.
4. Əfəndiyev R. Müəllim R.Əfəndizadənin tərcümeyi-halı. M.Füzuli adına Respublika Əlyazmalar İsntitutu, arxiv qutu -1 (1) saxlama vahidi 49, 1890, s.8, 30 v.
5. Bayramova S. Rəşid bəy Əfəndizadə. Bakı: Nurlan, 2007,128s.
6. Hüseynov Ə. Maarif fədailəri: Firudin bəy Köçərli-150, Rəşid bəy Əfəndiyev- 150: qoşa-qanad. Bakı: ADPU, 2013, 199 s.
7. Mürşüdova U. Rəşid bəy Əfəndizadə və folklor. Bakı: Kooperasiya, 104 s.

Xülasə:

Rəşid bəy Əfəndiyev XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühitində öz pedoqoji və bədii fəaliyyəti ilə seçilən, qabaqcıl ziyalılardan biridir. Bu məqalədə ədibin bədii əsərləri ilə yanaşı ədəbiyyata dair nəzəri də görüşləri araşdırılmışdır. Rəşid bəy Əfəndiyevin ədəbi düşüncələrinin əsasında realist və milli ədəbiyyatın, ana dilinin inkişafına dair mülahizələr dayanır, ədibin həm bədii yaradıcılığı həm də ictimai fəaliyyəti bu amala xidmət etmişdir.

Açar sözlər: Rəşid bəy Əfəndiyev, Bəsirətül-ətfal, marrifçilik.

Summary:

RashidbekAfandiyevwas one of the foremost visitors to Azerbaijan's literary environment in the late 19th and early 20th centuries. In addition to literary works, this article examines the subject of literature. Based on the literary ideas Rashid bekAfendiyev, realistic and national literature and the development of the mother language, both literary and social work have contributed to this.

Key words: *Rashid bek Afandiyev, Basiratul-athval, enlightenment*

Резюме:Р

ашид бек Эфендиев был одним из главных посетителей литературной среды Азербайджана в конце 19-го и начале 20-го веков. Помимо литературных произведений, в данной статье рассматривается тематика литературы. Опираясь на литературные идеи Рашид бек Эфендиева, реалистическую и национальную литературу и развитие родного языка, этому способствовала как литературная, так и общественная работа.

Ключевые слова: Рашид бек Эфендиев, Басиратул-атфал образование

RƏYÇİ: dos. L.Ələkbərova

Mehdiyeva Gülbəniz Hacıbaba qızı [87]

ANTROPONİMİYA DİL HAQQINDA BİR ELM KİMİ

Xüsusi adların strukturu, mənşəyi, adlandırma xüsusiyyətləri, yayılma arealı və onlarla bağlı bir çox digər məsələlər daim linqvistikanın diqqət mərkəzində olmuşdur. Bu, onomastik vahidlərin ictimai-tarixi, ictimai-siyasi prosesin müştərək məhsulu olub keçmişin izlərini özündə mühafizə etməsi ilə birbaşa bağlıdır. Bəşər tarixinin öyrənilməsində xüsusi adlar müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə desək, kiçicik kitabə olan hər bir xüsusi adda qədim xalq xəzinəsinin müəyyən bir parçası gizlənib qorunur. Bu gizlin xəzinə səhifələrinin açılmasında xüsusi adlar başlıca rol oynayır. Bu mənada, hər bir ad xalqın milli, mənəvi, tarixi varlığını və ün-vanını qoruyur, əsrdən-əsrə, nəsildən-nəslə ötürülür.

Dilçiləri ən çox maraqlandıran problemlərdən biri də xüsusi adların öyrənilməsidr. Xüsusi adlar üzərində tədqiqatlar keçən əsrə təsadüf edir. Dilin ümumi lüğət fonduna daxil olan bu vahidlər ayrıca toplanır, xüsusi lüğətlərdə, ensiklopedik toplularda izah olunur. Onomastik vahidlər fərqli adlandırma prosesinin məhsuludur. Xüsusi adların semantikası ilə adlandırılan arasında birbaşa əlaqələr bu adların növlərindən asılı olaraq müxtəlif şəkildə təzahür edir. Onomastik vahidlərin bir növü olan şəxs adları, soyadlar rəsmi qeydə alınsa da, onların seçilməsində məcburiyyət yoxdur. Bir sıra xüsusi adlar (ləqəblər, məhəllə, bulaq adları və s.) formalaşıb sabitləşir. Onomastik vahidlər dilin lüğət tərkibində xüsusi lay təşkil edir. Adı olmayan və ya adsız insan ola bilməz. Doğulduqdan sonra ilk anda hər bir kəs, kasıblar da, adlı-sanlı, şan – şöhrətli insanlar da öz adını şirin bir hədiyyə kimi yaxınlarından alır... Xüsusi adlar haqqında elm onomastika adlanır.Bu termin yunanca *onyma – ad* sözü ilə əlaqələndirilir. Hazırda onomastika müstəqil bir elmə çevrilmiş və son illərdə o, tamamilə müxtəlif yeni istiqamətlərlə inkişaf etməyə başlamışdır. Onomastika – yunan dilindən *onomastike* – "ad qoyma sənəti" deməkdir. Xüsusi adlar ən geniş anlayışların, predmetlərin, hadisələrin fərdi adlarıdır.

İnsanlara qoyulan şəxsi adları, ata adları, soyadları, ləqəbləri antroponimika elmi (anthropos – insan, onyma – ad deməkdir) adlanır. Su obyektlərinin adları (çaylar, bataqlıqlar, dənizlər və s.) – hidronimiya, kosmik obyektlər (ulduzlar, planetlər, bürclər, kometlər) – kosmonimika, müvafiq olaraq zoonimika heyvanların ləqəblərini, xrematonika – maddi mədəniyyət predmetlərinin, elmin, texnikanın, zərgərlik məmulatlarının, musiqi alətlərinin adını və s. öyrənən elmdir. Adlarını sadaladığımız coğrafi obyektləri (dənizlər, çaylar, dağlar, ovalıqlar, şəhərlər, kəndlər, vilayətlər, ölkələr toponim, hidronim, oykonim və s.) toponimika elmi adlanır. Onomastik vahidlər rəsmi orqanlar tərəfindən qəbul və təsdiq olunur. Xüsusi adlar qədim dövrlərdən etibarən alimlərin diqqətini cəlb etmiş və fəlsəfə, məntiq, dilçilik, psixologiya kimi elmlərin qovşağında dayanmışdır.

Xüsusi adlar sözlərin xüsusi bir sinfi olaraq E.ə. IV əsrin sonunda Ellin mədəniyyəti zəmnində kosmopolit və fərdiyyəçilik ideyalarının və riyazi biliklər əsasında texnikanın inkişafi ilə əlaqədər meydana gəlmiş fəlsəfi təlimin nümayəndələri olan "stoiklər" məktəbi tərəfindən vurğulanmışdır. Yeni dövr, hər şeydən əvvəl, antik mədəniyyətin dirçəlisini təmin edir və təsadüfi deyil ki, bu dövr yüksəliş dövrü adlanır. Bu dövr XV əsrin ikinci yarısından başlanan intibah dövrdür. İntibah dövrünün ən mükəmməl və mühüm cəhətlərindən biri də dünyagörüşünün incəsənətə istiqamət götürməsidir. Əgər orta əsrlər dinin hökmranlığı dövrü idisə, intibah dövrü bədii– estetik dəyərlərin üstünlük təşkil etdiyi dövr idi. Əgər antik dövrün diqqət mərkəzində təbiət– kosmos münasibətləri, orta əsrlərdə allah və insan münasibətləri dururdusa, intibah dövründə mərkəzdə insan dururdu. Bu dövrdə artq xüsusi adlar haqqında C.Lokk və Q.Leybnits arasında başlanan mübahisələr, XIX əsr ərzində C.S.Mill, H.Cozef diskussiyaları davam edirdi. Məhz XIX əsrdən başlayaraq bu qrupa nəzər salanda iki əks fikir müşahidə olunurdu, baxmayaraq ki, bu problem hər şeydən əvvəl məntiqi problem kimi qəbul edilirdi. Birinci tendensiya müasir rasionalist istiqamətin əsasını təşkil etmiş və xüsusi adların əhəmiyyətsiz olduğunu sübut edən ingilis filosofu Con Stüart Millin (1806-1873) adı ilə bağlı olmuşdur.Onlarda predmetləri tanımağa kömək edən özünəməxsus işarələr və ya etiketlər var: "xüsusi adlar heç nəyi şərh etmir və ciddi şəkildə desək, əhəmiyyətsizdir. A.V.Superanskayanın yazır: "Xüsusi adlara aid olan məna zənginliyi onlara söz kimi deyil, onların adlandırdığı obyektləri və bu adların ensiklopedik məlumatlarını təşkil edir" [9, 198]. Keçən əsrlərdə əksər alimlər A.Qardiner, O.Yespersen, Y.Kuriloviç müasir dövrümüzün dilçilərindən A.A.Ufimseva, A.A.Rematskii məqsədəuyğun, səmərəli yanaşma məcrasında işləmişlər. Baxmayaraq Yespersen xüsusi adları tələffüz edərkən mətnin əhəmiyyətindən danışmış, yəni adın nitqdə olan əhəmiyyətini qeyd emişdi. Yespersen yazırdı: "Mətndə xüsusi adların kontekstual mənası, yəni onun ifadə etdiyi və yazıldığı konkret vəziyyətdə özünü büruzə verən mənanın mövcudluğu nəzərdə tutulur" [11, 71-72].V.A.Nikonov yazır: "Adlar dildə xüsusi bir alt sistem təşkil edir, burada ümumi dil qanunları xüsusi olaraq istiqamətini dəyişir" [8, 54].

Xüsusi adların təbiətini, onların cəmiyyətdə fəaliyyətinin xüsusiyyətlərini daha yaxşı başa düşməyə imkan verən çoxsaylı nailiyyətlərə baxmayaraq, onomastika sahəsində bir çox problemlər meydana çıxmışdır. Onların həlli xüsusi adlarada nəinki mənanın mövcudluğunu, hətta tam və adekvat ifadəyə qədər obyektin xüsusiyyətləri ilə motivasiya olduğunu nəzərdə tutur. Bu mifoloji yanaşmadır.

---

[87] Bakı Slavyan Universitetinin gulbeniz57@mail.ru

Müxtəlif fəlsəfi və dini sistemlərə görə ad şəxsiyyətin bir hissəsi, nəsnənin məlum və dərk edilə bilən mahiyyəti, ideyasıdır. Yəni, dərk edilənlə dərk edənin arasında əlaqə olmalıdır. Xüsusi adların öyrənilməsinə belə mifopoetik yanaşma rus filosofları P.A.Florenski və A.F.Losevin araşdırmalarında təsadüf edilir. A.F.Losevə görə, "hər hansı bir nəsnənin və ya mahiyyətin adı ondan fərqlənsə də, o, öz-özlüyündə bir varlıqdır" [12, 234] Xüsusi adlara eyni baxış P.A.Florenskinin əsərlərində də öz əksini tapmışdır: "Ad şəxsi, ən zərif və buna görə də şəxsiyyətin ən adekvat cismi, mənəvi mahiyyətin elan olunduğu ən nazik cisimdir" [4,48].

Xüsusi adlara mifopoetik yanaşma artıq XIX əsr və XX əsrin əvvəllərində A.N.Veselovski, A.N.Afanasyev, Y.F.Karski, V.İ.Dal kimi alimlərin əsərlərində təsadüf olunurdu. Bu cür yanaşma etnolinqvistika sahəsində çalışan bir çox müasir dilçi alimlərin əsərlərində – dilçilikdə, dilçiliyin istiqamətlərində, mədəniyyətlə bağlı dili öyrənən istiqamətlərdə, dilin fəaliyyətinin dil, etnomədəni, etnopsixoloji amillərinin qarşılıqlı əlaqəsində inkişaf etmişdir. Məhz bu istiqamətdə N.İ.Tolstoy "Etnolinqvistikanın predmeti və onun dili, etnik mənsubiyyətin öyrənilməsində rolu" əsərində yazır: "Leksikanın qanunauyğunluğu, onun dili və leksikanın bir elm kimi öyrənilməsində şəxsi adlar sferasında aydın şəkildə özünü göstərir. Məlumdur ki, qədim dilin itirilmiş xüsusiyyətlərini, yəni hadisələri, formaları, çox vaxt məna və leksik səviyyə üçün arxaikləşmiş olan spesifikasını saxlamağa imkan yaradır" [13,74].

M.Baxtinin fikrincə, "dil sistemində fərdiləşmiş vahid obyektin "nominativ əlaməti" kimi çıxış edən xüsusi adlar, eyni zamanda, müxtəlif semantik və emosional assosiasiyaların toplusu, "abbreviaturası" olmaqla böyük konnotativ potensiala malikdir"[2,458] Heç bir başqa dil vahidi xüsusi adlar qədər informasiyanı zamanında ötürə və saxlaya bilmir, çünki adlar mədəniyyətin dəyişməz dəlili və onun əsaslarının ən vacibidir. Bundan əlavə, xüsusi adlar, xüsusilə antroponim sözün əsl mənasında çox sakraldır, yəni müqəddəs mənaya malikdir. Bunu filosoflar və etnoqraflar çoxdan qeyd edirlər. Xristian ənənəsində antroponimin, şəxsi adın sakrallığı səma himayədarının – adının daşıyıcısının funksiyası və məişəti ilə, bütpərəstlik ənənəsində - sözün yalnız ayrı-ayrı əşyaların xüsusiyyətlərini nəzərdə tutmadığını, lakin bu xüsusiyyətləri xüsusi adlar kimi verilmiş şəxsə ötürə biləcəyini təsəvvür etməklə əlaqələndirilir. Ancaq xüsusi adın mənası haqqında danışırıqsa, bəzi "başqa" mənalar haqqında da danışmalıyıq. N.İ.Tolstoy bu barədə yazır: "Xüsusi ad hamı üçün eyni olmayan bir növ məlumat, yəni məzmun daşıyır. Xüsusi adın mənası semantika ilə qarışdırılmamalıdır" [13, 194]. "Bəzi dildənkənar fərdi və təsadüfi məlumat kimi başa düşülən "məzmun"a münasibətdə xüsusi adlar ümumi adlara qarşı deyil, çünki sonuncu ona sahib ola bilər. Lakin Xüsusi adlar semantikaya malik olmadan bu "məzmun"a – bir çox homogen obyektlərə xas olan bir sıra xassələri ümumiləşdirən və seçmə şəkildə əks etdirən semantik xüsusiyyətlərin məcmusuna malikdir. Bu cür semantik xüsusiyyətlər cəminə ancaq bu prinsipə görə, bu əsasda müəyyən sistemi əks etdirən digər ümumi adlara qarşı olan ümumi adlar malik ola bilər"Adın mənasının linqvistik hissəsini ifadə edən söz haqqında məlumatın tərkibinə advermənin şəxsi motivləri və adın dildə işlənməsinin xüsusiyyətləri və müasir qavrayışı, adın yaranma tarixi və onun əsasının etimologiyası daxildir.

Adın mənasının ekstralinqvistik aspektinin tərkibinə adın cəmiyyətdə istifadəsi üçün xüsusi şərtlər və onunla əlaqəli mədəni-tarixi birliklər, adın göstərilən obyektlə xüsusi əlaqəsi və dərəcəsi, obyektin məşhur olması və adı daxildir" [5, 36]. Azərbaycanda onomastikasının bir elm kimi inkişaf etməsində görkəmli alim, dilçi, akademk A.Qurbanovun elmi, fəaliyyəti xüsusilə qeyd olunmalıdır. Onun bir çox məqalələrində, "Azərbaycan onomastikası" və iki cildlik "Azərbaycan onomalogiyası" adlı kitablarında Azərbaycan onomastik vahidləri geniş tədqiq edilmişdir. Ad xalqın tarixidir, deyərlər. Görkəmli onomatoloq Mədət Çobanov yazır: "Türk xalqlarının Həyatnaməsi (Tərcümeyi - halı) və onun mənəvi aləminin kökü, dünyanın digər xalqlarının tarixi ilə müqayisədə çox qədimdir" [3,47]

Azərbaycan ərazisində çağdaş dövrümüzə qədər yaşayan qədim türklərin çoxkomponentli ad sisteminə malik olmaları haqqında kifayət qədər yazılmışdır. Əgər türkün ruhu, peşəsi, xarakteri, qəhrəmanlığı və s. onun adında əks olunurdusa, digər sənətkarların, yəni şairlərin adları da onların şairlik sənətinə uyğun olmalı idi. Demək, qədim türklərdə sənətkarın əsl adı onun müxtəlif peşə sahibi şair, memar və ya rəssam olduğunu da bildirirdi. Qədim türkün adı onun göstərdiyi igidlik və qəhrəmanlıqla əlaqədar olaraq dəyişə bilərdi. Buna görə də onun ilkin adı çox vaxt unudulurdu. L.N.Qumilyov yazır: "Qədim türklər avropalılar kimi anadan olandan ölənə qədər bir ad daşımazdılar. Türkün adı həmişə onun cəmiyyətdəki mövqeyini əks etdirirdi. Uşaqlıqda onun (ləqəbi), gəncliyində çini, böyüyəndə isə titulu olardı. Əgər o, xandırsa, onun titulu da mövcud sistem üzrə dəyişilərdi" [7,21] "Kitabi-Dədə Qorqud" dastanlarında qədim türk ad sistemi çox rəngarəng və mürəkkəbdir. Dastanlarda qəbilə adı, əsl ad, ata adı, şəxsin oğul, ər, qayınata adı ilə adlanması, titul, ləqəb, kiçiltmə və əzizləmə adları və s. vardır. Bunlardan da biri, ikisi və ya bir neçəsi ilə birlikdə şəxsi adlandırmağa xidmət edirdi. Qədim türk ad sistemi əsasında formalaşan ərəb ad sistemi sonralar tədricən türk ad sistemini parçaladı və IX-X əsrlərdən etibarən türk xalqlarının hakim təbəqələri ərəb ad sistemindən geniş istifadə etməyə başladılar. Azərbaycan antroponimiyasının həm əsas, həm də köməkçi ad kateqoriyaları, müasir adlarla qədim adlar, birbirilə çox qaynayıb-qarışmışdır. Odur ki, həm əsas, həm də köməkçi ad kateqoriyaları və onların hər birini ayrılıqda araşdırarkən bütün bunlar nəzərə alınmalıdır.

Türk mənşəli Azərbaycan antroponimləri ümumi antroponimiyanın əsasını təşkil edir. Qədim abidələrin dilində, işləklikdən düşən antroponimik vahidlər üzərində araşdırmalar keçmişimizə, keçib

gəldiyimiz yola, bizimlə birgə addımlayıb zaman-zaman inkişaf edən dünyagörüşümüzə, adət və ənənələrimizə olan məhəbbətin ifadəsidir.

Ədəbiyyat siyahısı

1. Afad Qurbanov. Azərbaycan onomalogiyasının əsasları. I cild (2 cilddə). Bakı, 2019. 280 səh 11.
2. Бахтин Михаил Михайлович, Собрание сочинений в 7-ми томах, Изд: Языки славянских культур, 2008, стр1120.
3. Çobanov.M.N. Türk ədəbi dillərinin birliyinə doğru VII Uluslararası Türk dili qurultayına həsr olunur, Bakı, "Elm və təhsil", 2012, .100.
4. Флоренский П.А. , Имена, Изд. Азбука, 2011.
5. İsaeva Z.G., İsxakova X.F., Podolskaya N.V. Onomastik tədqiqatın nəzəriyyəsi və metodları. Diskussiya. – M., 1991).
6. Həsənov H. Söz və ad. Bakı. 1984. 116-129).
7. Гумилев Л.Н.. **Древние тюрки**. **М**осква: Наука, **1967,** 504 с.
8. **Никонов В.А. Имя и общество М.: Наука, 1974. 278 с**
9. **Суперанская А.В, Имя–через века и страны, М.: Наука, 1990. 190**
10. Суперанская А.В., Сталтмане В.Э., Подольская Н.В., Султанов А.Х. Теория и методика ономастических исследований, М.: Наука, 1986. 256 с.
11. Есперсен Отто, Философия грамматики. М.,1958, 396 стр.
12. Лосев А.Ф. Вещь и имя. Самое само. СПб., 2008. 576 с.
13. Tolstoy N.I. Bir daha xüsusi adın semantikası haqqında Leksikologiyanın aktual problemləri. - M., 1970, s. 200.

Açar sözlər: onomastika, toponimlər, antroponimlər, hidronimlər, xüsusi adlar.

Ключевые слова: ономастика, топонимы, антропонимы, гидронимы, соственные имена.

Антропонимия как наука о языке

Резюме

В статье речь идёт о структуре собственных имён о свойствах называния источников, а также о других задачах, начатых дисскусиях XIX векамежду Джон Локом, Готфрид Вильгельм Лейбниц и Джон Стюарт Милл, Т.Джозефом XIX веке изначально XX веков произведениях А.Н.Веселовского, А.Н.Афанасьева, Ф.Краскова, В.И.Даля, а также в произведениях русских и азербайджанскихученых наблюдается мифо-поетический подход к собственным именам ономастики - топонимы, антропоним, гидронимы собственные имена.

ANTHROPONYMIES AS A SCIENCE OF LANGUAGE

Summary

The article deals with the structure of proper names, the properties of naming sources, as well as other tasks initiated by the discussions of the 19th century between John Locke, Gottfried Wilhelm Leibniz and John Stuart Mill, T. .N.Afanasyev, F.Kraskov, V.I.Dal, as well as in the works of Russian and Azerbaijani scientists, there is a mytho-poetic approach to proper names of onomastics - toponyms, anthroponyms, hydronyms proper names.

Rəyçi: dos. Nigar Sadıxova

Севда Джалал кызы Алиева, Кямала Галендар кызы Ахмедова [88]

ЗАЛОГИ ГЛАГОЛА В РУССКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Введение: Как известно, азер байджанский и русский языки относятся к разным языковым семьям, в залогах этих двух разных по содержанию сходные и различные свойства.В грамматике азербайджанского языка кроме основного то есть действительного различает ещё 4 залога - страдательный, возвратные, взаимо-совместный и понудительный залоги.Страдательный залог представлен во всех ныне существующих тюркских языках. Характерным его показателем является суффикс ın (in; un; ün), ıl (il; ul; ül). Например: **yazılmaq, vurulmaq, yıxılmaq**. Возвратный залог существует го всех современных тюркских языках.Показателем его в азербайджанском языке является суффикс ın(in; un; ün)

Например; **Yıxılmaq, görünmək** засвидетельствован он также во всех ныне исчезнувших ныне азербайджанских памятниках. Значение возвратного глагола явилось переосмысление первоначального значения многократного действия.Подобно страдательному и возвратному залогу, взаимно-совместный залог также представлен во всех старых и современных тюркских языках.Вне всякого сомнения, он сформировался в эпоху праязыка. Показателем этого залога является суффикс ış (i;uş,üşНап**:vuruşmaq, sevişmək.** Показателями понудительного залога могут быть следующие суффиксы: ar//er//ir//ır ; dır//dir и т.д. Например: durmaq, içirmək

Основной курс. В азербайджанской литературе образование от глаголов принято считать за залогообразование. Поскольку авторы, касающиеся этого вопроса в различных тюркских языках, что их высказывания относительно определенного азербайджанского языка одинаково относится и к другим родственным тюркским языкам.На вопрос - что такое залог? - подавляющее большинство лингвистов отвечает в основном одно и тоже: например, А.Н.Кононов говорит; залог – это отношение действия к субъекту и объекту, а известный тюрколог **Н.А.Баскаков определяет залог** как отношение субъекта и объекта к действию, так и отношение самого действий к субъекту и объекту (1, с. 123-128). Большое внимание на понимание категории залога в научной и учебной литературе имела статья академика Ф.Ф.Фортунатова «О залогах русского глагола», в которой было объединено все ценное из предыдущей грамматической традиции.

Академик Ф.Ф.Фортунатов различает две формы залога: возвратный и невозвратный, от теории залога он отделяет вопрос об активных и пассивных оборотах. Формами залога, по мнению академика Ф.Ф.Фортунатова, обладают лишь соотносительные с ними форм на **-ся-** (типа ехать), или те глаголы на -ся, которые не имеют соотносительных форм без -ся (смеяться, гордиться).На современную научную и учебную практику большое влияние имеет разработку вопроса о залоге академик **В.В.Виноградов в книге «Русский язык»** (2, с. 494). Основные положения концепции В.В.Виноградова сводятся к следующим: в основе залога лежит общее грамматическое понятие- отношение действия к субъекту и объекту, способность глагола воспроизводить оттенки этого общего понятия соотносительными формами- основной и производной-осложненный агглютинативный суффиксом -ся- и
создаёт грамматическую категорию залога. Категория залога в современном русском языке прежде всего выражается в соотношении возвратных и невозвратных форм одного и того же глагола.Академик В.В.Виноградов обращает внимание, что происходит своеобразная лексикализация даже собственно возвратных залоговых отношений.

Залоги в Азербайджанском языке. Кононов А.Н. 'Грамматика турецкого языка' Залог–это одна из грамматических категорий (лиц, числа, наклонения, временных аспектов), характеризующих глагол. Категория залога выражает различные отношения между субъектом и объектом, находящие свое отражение в форме глагола. Субъект в его отношении к действию выражается личными окончаниями (аффиксами); отношение действия к объекту выражается падежным управлением. По своей связи с падежные формы глаголы делятся на переходные и непереходные (3, с. 66-72).

В Азербайджанском языке выделяют пять категорий залога: основной (действительный), взаймосовместный, возвратный, страдательный, понудительный. Основной (действительный) залог характеризуется нулевым показателем; принадлежность того или иного глагола к этому залогу определяется лексическим путем. По отношению к объекту глаголы этого залога представлены двумя группами:

Переходные глаголы: Непереходные глаголы:

1. qorxmaq küsmək Yazmaq sevmək-Oxumaq
2. təmizləmək Almaq qəbul etmək təlaş etmək
3. hürkmək yatmaq qızınmaq oxumaq

Среди непереходных глаголов встречаются глаголы, имеющие общевозвратное и пассивное значение: dolmaq- наполняться.

Взаимосовместный залог. Взаимо- совместный залог выражает, совершаемое взаимно и совместно несколькими действующими лицами, т.е. глагол в форме взаймосовместного залога обозначает действие двух (или

[88] Гянджинский Гасударственный Университет. Доценты кафедры “Русского языка”при Иностранных Языков sevdakamala@com.ru

нескольких лиц), каждое из которых в то же время является объектом такого же действия, совершаемого другими лицами.Глаголы данного залога образуются путем присоединения четырехвариантного аффикса -ış- и -ş.

Переходность такого глагола сохраняется. Если основа переходного глагола оканчивается на согласный звук, то к ней присоединятся четырёхвариантный суффикс:

Sevmək- любить sevişmek- любить друг друга

Vurmaq- ударить vuruşmaq- биться

Если основа глагола оканчивается на гласный звук, то к ней присоединяется суффикс – Ş- Məs: Dərhal qucaklaştık, öpüşdük.

Глаголы в форме взаимосовместного залога, образованный от непереходного глагола, обозначает такое действие, одновременно и совместно совершаемое двумя и более действующими лицам. При этом действие может быть направлено в разные стороны или же к одному месту. Глаголы, которые образуются от непереходных глаголов. называются глаголами взаимо-невозвратного значение и выражает действие двух и более субъектов без возврата действия на них.

Возвратный залог. Возвратный залог - выражает действие, совершаемое данным субъектом для себя или направленное на самого себя.Возвратный залог указывает на обращенность действия в самом его производителе-субъекте.

Таким образом, при глаголе возвратом залоге субъект и объект совпадают в одном лице. Это четырёхвариантный суффикс -ın-, а также другого четырехвариантного суффикса -ıl- Различают следующие основные разряды глаголов возвратного залога:

1) Глаголы собственно-возвратного залога
2) Глагол общевозвратного залога
3) Глаголы косвенно-возвратного залога

Страдательный залог. Страдательный залог - выражает действие, которым подвергается субъект со стороны объекта. Страдательный залог образуются от переходных и непереходных глагольных основ с помощью суффиксов:

1. Il/il/ul/ül – при согласных основа, за исключением основ на l:

Yazmaq- писать yazılmaq- быть написанным

Vurmaq- бить vurulmaq- быть побитым

Seçmək- выбирать seçilmək- быть выбранным

Понудительный залог. Шахматов А.А. 'Очерк современного русского языка' Понудительный залог - выражает действие, которое одно лицо, предмет, навязывает (заставляет или позволяет) совершить другому лицу или предмету.Понудительный залог выражает действие переходное, как и основной (действительный) залог; по характеру участия субъекта в совершении действия этот залог представлен двумя типами (4, с. 34).

1) Субъект сам является реальным производителем действия; в этом случае сам понудительный залог образуется от непереходных глаголов:

Durmak-durğuzmaq bişmək-bişirmək

1) Субъект - реальный производитель действия - является грамматическим дополнением в дательном падеже, причём он осуществляет действие не по своему почину, а по воле другого субъекта, который может быть и не выражен отдельным слова в предложении, но обязательно показан в глаголе суффиксом понудительноо залога.

2) Залоги глагола в русском языке.

Залогами называют разновидность глаголов в зависимости от различий в отношении обозначаемого глаголом действия к субъекту и объекта.

В русском языке в переходных глаголах имеется три основных залога: действительный, страдательный и возвратный.

Действительный залог: Действительный залог, или основной, залог характерен тем, что не имеет залогообразующих суффиксов, и от этого залога могут быть образованы все последующие залоги путем присоединения к ним соответствующих окончаний. В русском языке только переходные глаголы обладают действительным залогом, так как действие направлено и непосредственно на объект, например: Мирный труд в нашей стране приносит замечательныйе плод. Действительный залог как простым, так и сложным глаголом, например: брать, работать, приходить, писать, падать, возвращаться.

Страдательный залог. Глаголы страдательного залога является производными от глаголов действительного залога. Страдательный и действительный залоги соотносительны в том смысле, что отношение одних и тех же субъектом к действию может быть выражено и действительным, и страдательным оборотом, нап: Я прочитал эту книгу. Эта книга прочитана мною. Страдательный залог в русском языке образуется посредством частицы -ся. Например: строить-строиться, управлять-управляться, украшает-украшается, разрушает-разрушается.

Возвратный залог. Глаголы собственно-возвратного значение указывает на то, что действие выполняемое субъекта, направлено на само действующее лицо. Глаголы собственно-возвратного значение в русском языке образуется от глаголов действительного залога с помощью возвратной частица -ся: одевать-одеваться, купать-

купаться, показать-показаться и т.д. Более наглядно это можно следующим образом: одеваться-одевать себя, умываться- умывать себя и т.д. Действие возвращается на субъект, и частица -ся близко к местоимению «себя»Глаголы возвратного значения обозначают, что действие замыкается в самом субъекте.

Выводы: Понудительный залог.На русский язык переводится описательно. Понудительный залог обозначает действие, которое выполняется под непосредственным влиянием другого лица. На русский язык форма понудительного залога передается при помощи глаголов; заставит копать, заставить принести.

Итак, схожесть залогов русского и азербайджанского языков в следующем: все залоги азербайджанского языка, кроме основного (действительного), образуются путем добавления ко-глагольной основе различных суффиксов. В русском языке (кроме действительного) также образуется посредством частицы -ся.

Действительные залоги в обоих языках не имеют залогообразующих суффиксов, и в русском языке от этого суффикса могут быть образованы все последующие залоги.Различия заключаются в следующем: большинство лингвистов сходны том мнении, что залогов в азербайджанском языке-пять. Число залогов же в русском языке - три. Возвратный залог азербайджанского делится на три разряда, а в русском языке имеет восемь смысловых значений.

Список использованной литературы:

1. Баскаков Н.А. 'Избранные сочинения', М.,1984, с.123-128
2. Виноградов В.В. 'Русский язык' Москва, 1947, с. 494
3. Кононов А.Н. 'Грамматика турецкого языка', Изд. Л-М, 1941, с. 66-72
4. Шахматов А.А. 'Очерк современного русского языка'. (статья). с. 34

Ключевые слова: азербайджанский язык, морфология, субъектно-объектные отношения, залоги глагола
Key words: Azerbaydjani launguage, morphology, subject-object relations, voices of verbs
Açar sözlər: Azərbaycan dili, morfologiya, subyekt və obyektin münasibəti, feilin məna növləri

İNFİNİTİF OF THE VERB IN RUSSIAN AND AZERBAIJANIAN LANGUAGES

Summary

In Azerbaidjan literature, the formation of verbs from verbs is considered to be a pledge formation. Since the authors dealt with this issue in various Azerbaijan languages, their statements regarding a certain azerbaijani language apply equally to other related languages.

Voices are called a variety of verbs, depending on the differences in relation to the action denoted by the verb to the subject and object.

Rus və Azərbaycan dillərində feilin məsdər forması

Xülasə

Azərbaycan ədəbiyyatında feildən feil əmələ gəlməsi girov əmələ gəlməsi hesab olunur. Müəlliflər bu məsələyə müxtəlif türk dillərində toxunduqlarına görə, onların müəyyən bir Azərbaycan dili ilə bağlı ifadələri digər qohum türk dillərinə də eyni dərəcədə aiddir.Məsdər feilin subyekt və obyektə işarə etdiyi hərəkətə münasibətindəki fərqlərdən asılı olar-aq müxtəlif feil adlanır.Rus dilində keçidli feillərdə üç əsas məna növü var: aktiv, passiv və refleksiv.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Gülarə Teymurova

Nailə Qəmbər qızı Qədimova, Səidə Bayram qızı Zeynalova [89]

QƏDİM, ORTA VƏ MÜASİR İNGİLİS DİLİNDƏ İNVERSİYA HADİSƏSİNİN SADƏ CÜMLƏ TƏRKİBİNDƏ İŞLƏNMƏSİ VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ İFADƏSİ

Giriş. Qədim ingilis dilindən başlayaraq sonrakı mərhələlərdə ingilis dili sintaksisində də nəzərə çarpan dəyişikliklər baş vermişdir. Belə dəyişikliklərdən biri də özünü cümlənin kommunikativ tiplərində göstərir. İngilis dilinin tarixindəki hər üç dövrə nəzər saldıqda cümlənin həmin kommunikativ tiplərində fərqli cəhətlərin olduğunun şahidi oluruq.

Müasir ingilis dilində olduğu kimi qədim ingilis dilində də məqsəd və intonasiyaya görə cümlənin üç növünü fərqləndirmək olar:

1. Nəqli cümlə - cümlənin təsdiq və inkar formasında ola bilər, məs.:

Nu wille we secgan be suban Donna paere ea ymbe Creca land… (Orasius) (Now will we speak about Greece, on the south of the river Danuba)

Hem liste nat to go to bedde sone. (They did not like to go to bed soon)

2. Sual cümləsi, məs.

Hu moeg se ealda mann eft beon acenned? (how can the old man be born again?)

Qədim ingilis dilindəki sual cümlələrindən danışarkən Peter S.Baker feil+mübtəda (V+S) söz sırasının sual cümlələri üçün xarakterik olduğunu yuxarıdakı misalla izah etmişdir. O, qeyd edirdi ki, bu tip cümlələr sual sözü ilə başlasa da, başlamasa da, V+S söz sırasına malik olurlar.Başqa bir mənbədə də qədim ingilis dilində sual cümlələrinin mübtəda və xəbər inversiyasının nəticəsində əmələ gəldiyi qeyd olunur. Bu cür cümlələrdə **"do"** köməkçi sözü tələb olunmurdu.

Hwaet getacniad donne da twelf oxan buton da XII apostolas? (What signify then those twelve oxen except those XII apostles?)

Musayev O.İ. İngilis dilinin qrammatikası. B: Maarif, 1996.. Gördüyümüz kimi, hər iki mənbədə də sual cümləsinin mübtəda və xəbərin yerdəyişməsi nəticəsində əmələ gəlməsi qeyd edilmişdir. Bununla belə Peter S.Baker bu cür söz sırasının (V+S) həm də nəqli cümlələrdə də ola biləcəyini göstərmişdir. O, "Beowulf" əsərindən belə bir misal çəkir (1, s. 126-129).

Eart pu se Beowulf, se pe wid Brecan wunne.

Baker qeyd edir ki, bir çoxları bu parçanı sual cümləsi kimi tərcümə edirlər: "Are you the Beowulf who contended with breca?" Lakin , müəllif təkidlə bu cümlənin nəqli cümlə olduğunu söyləyir. "You are that Beowulf? the one who contended with Breca!".

Qədim ingilis dilindən sual cümlələri müxtəlif vasitələrin köməyi ilə əmələ gəlmişdir. Bu vasitələrə sual əvəzliklərini və zərflərini, yuxarıda haqqında danışdığımız cümlənin baş üzvlərinin inversiyasını (burada xüsusi sualların yaranması nəzərdə tutulur) və ya sadəcə inversiyanı (burada isə ümumi sualların düzəldilməsi nəzərdə tutulur) aid eləmək olar. O dövrdə sual cümlələrində işlənən əvəzliklərə Hwaet (what), hwa (Who is that man?); Hwaet sceal ic sinzan? (What shall I sing?); Hwylc is min modor? (which is my mother?)

Əsas hissə. O göstərir ki, 42 sual cümləsində isə zərf təsriflənən feildən sonra işlənir. Məs.: Bid he ponne buton swylce stan oppe treow? (What is it then but like stone or log?); Hwaer beop ponne his welan and his wista? (Where are then his riches and his feasts?). Sual cümlələrin yaranmasında əsaslı dəyişikliklər isə məhz erkən yeni ingilis dili dövrünə təsadüf edir. Bu yeniliklər cümləıdə sabit söz sırasının yaranması ilə bağlı olmuşdur. Dövrün ilk vaxtlarından cümlədə sintaktik münasibətlərin əsas ifadə vasitəsi söz sırası olmuşdur. Bu dövrdə sual cümləsində ki, sıraya əsasən sözönsüz tamamlıq feildən sonra işlənmişdir. Məhz elə bu vəziyyətdə sözönsüz işlənən tamamlığın əsas sintaktik əlamətinə çevrilmişdir.

Abdulrahimov E.H. "The ABC of the history of the English language "Lakin bununla belə XVI əsrin əvvəllərində bəzi sual cümlələrində xəbərlə sözönsüz tamamlığın arasında mübtədanın işləndiyi hallarda olurdu. Məs.: Eat cats mice? Orta ingilis dilində sual cümlələri ilkə qarışıqlıq tam inversiyanın olduğu hallarda ortaya çıxmışdır. Belə ki, tam inversiya zamanı köməkçi feildən istifadə olunmadan indiki və ya keçmiş zamandakı xəbər cümlənin əvvəlində işlənmişdir. XVI əsrin əvvəllərində indiki və ya keçmiş qeyri-müəyyən zamanda olan cümləyə istər ümumi, istərsə də xüsusi sual verərkən tam inversiya baş vermişdir. Məs.: Call you? What find I here&" (2, s. 66-72).

Sual cümlələrinin bu cür işlənməsi erkən yeni ingilis dili dövrünə qədər davam etmişdir. Tədricən erkən yeni ingilis dilində indiki və keçmiş qeyri – müəyyən zamanların analitik formaları olan "do" və "did" köməkçi feillərindən istifadə olunmağa başlanmışdır. Qeyd etmək lazımdır ki, "perifrastik" (yəni, semantik yükə malik olmayan) "do" ilk dəfə XIII əsrdə meydana gəlmiş, ancaq o dövrdə onun nə inkarlıq, nə də inversiya ilə heç bir xüsusi əlaqəsi olmamışdır

Bu dövrün görkəmli siması V.Şekspirin əsərlərində həm "do" ilə , həm də onsuz işlənən xüsusi suallarada rast gəlmək olur. Məs.: What meanes this, my lord?; How like you this play?; What doe you call this play? və s.

89

Azərbaycan Dövlət İqtisad Universiteti "Xarici Dillər" kafedrasının baş müəllimləri. saidanaila@com.ru

Ümumi sualların düzəldilməsində hələ uzun müddət qədim quruluş tipindən istifadə olunmuşdur. Belə ki, XVIII əsrin ortalarına qədər ümumi suallar tam inversiyanın köməyi ilə (yəni, köməkçi feildən istifadə olunmadan feilin, cümlənin əvvəlinə keçməsi ilə) qurulmuşdur. Məs: Seemed he a gentleman?; Know you to whom you speak? Ümumi sual cümlələrinin müasir dövrdəki quruluşu isə ancaq 1750-ci ildən sonra formalaşmağa başlamışdır.

Abdulrahimov E.H. "The ABC of the history of the English language "Araşdırmalarda beş cümlə tipinin həm qədim, həm də müasir dövrdəki strukturlarını fərqləndirmiş və diqqəti də "do" köməkçi feilinin işlənməsinə yönəltmişdir. O, bu cümlə tiplərinə nəqli inkar (negative declarative), sual inkar (negative question), təsdiqdə olan təsirli sual (positive question transitive), təsdiqdə olan təsirsiz sual (positive question intransitive) və təsdiqdə olan "wh-obyekt" suallarını (positive wh-object) aid etmişdir (3, s. 14-27).

Bu cümlə tiplərinin həm qədim, həm də yeni dövrdə hansı struktura əsasən inversiyanın qurulduğunu müəyyənləşdirmək üçün aşağıdakı cədvələ nəzər salaq:

Cümlə tipləri	Qədim	Yeni
Negative declarative Negative question Positive question transitive	He went not. Went he not? Saw he the dragon? Went he?	He did not go. Didn't he go? Did he see the dragon?
Positive question intransitive Positive wh-object question	What saw he?	Did he go? What did he see?

Bundan başqa "do" sözü nəinki köməkçi feil kimi sual cümlələrinin yaranmasında, həmçinin fel əvəzləyicisi kimi nəqli cümlələrdə də istifadə edilmişdir. "Do" sözünün bu mənada işlənməsi əsas feil olmadan işlənən modal və köməkçi feillər kimi, cümlədə xəbərin yerini də boş qala bilməyəcəyini göstərmişdir. Məsələn:

Helpeth me now, as I Dyde yow whileer (Chaucer).

(Help me now as I did (help) you formerly.)

Stand! So I do, against my will… (Shakespeare)

Qədim ingilis dilinin sonlarına yaxın başqa qüvvətləndirici inkar ədatı naht (noht) inkar cümlələrinin düzəldilməsində istifadə olunmağa başlayır.

İnkarlığın ifadə vasitələrindəki əsaslı dəyişikliklər məhz orta ingilis dili dövründə baş vermişdir. Bu dövrdə qədim dövrdəki **nawiht** əvəzliyindən yeni bir inkar ədatı " not (nat)" inkişaf edib, qədim inkarlıq bildirən "ne" ədatının işlənmə dairəsini azaldır. Artıq orta ingilis dilinin əvvəllərindən "ne" demək olar ki, müstəqil şəkildə işlənmirdi; yəni o, həmişə "noht (not)" ədatı ilə birlikdə işlənirdi. (ne ... noht (naht)) XIV əsrdən "not" ədatı inkar cümlələrində aparıcı rol oynamağa başlayır. Məs.: The Longabardis which dwelled not thane in Itaile (The Longabards which didn't dwell then in Italy)/

Nəticə. XVI əsrin ortalarından isə feildən əvvəl işlənən "ne ... noht (not)" formasındakı "ne" ədatı tamamilə istifadədən çıxır. XVI əsrin sonlarına qədər "not" inkar ədatı daha çox feilin şəxsli formasından əvvəl işlənmişdir. Məs.: My sunne I not defende.

Buna baxmayaraq V.Şekspirin dilində "not" ədatının feildən sonra işlənməsi hallarına da rast gəlmək olar. Məs.: I know not which is which.

Sual cümlələrindən danışarkən qeyd etdik ki, XV əsrin əvvəllərindən indiki və keçmiş qeyri-müəyyən zamanların analitik formaları (do, did) yarandı.Bu analitik formalar nəinki sual cümlələrinin qurulmasında, eyni zamanda bu dövrdən başlayaraq tədricən inkar cümlələrində də istifadə olunmağa başlandı. Məs: I see you do not meane to parl with her; Thou dos not love her.

Исследование посвящено роли психологии в изучении иностранных языков. В фокусе внимания — проблема изучения подготовки высококвалифицированных специалистов, работающих в системе взаимодействия «человек-человек». В статье анализируются особенности взаимоотношений «преподаватель-студент» и подходы, способствующие повысить психологическую адаптацию студентов, которая влияет на успешность обучения и отражается на их профессиональной деятельности в будущем.

Ключевые слова: практическая деятельность, психологическая адаптация, качества преподавателя, учебная мотивация, компетенция, психологический климат

Rəyçi: dos. E.Vəliyeva

Qocayeva Ləman Şahmar qızı[97]

İNGİLİS DİLİNDƏ PSİXOLOGİYANIN ROLU

Giriş: Əsrin ötən rübündə müasir cəmiyyətdə kardinal sosial transformasiyalar baş verdi ki, bu da peşəkar psixoloqlara ehtiyac yaratdı. Son illərdə psixoloji dəstəyin göstərilməsinin və mühüm kəskin sosial problemlərin həllinin praktiki problemlərini həll etməyə qadir olan mütəxəssislərə ehtiyac artmışdır.Cəmiyyətdə tələbatın yüksək olmasına baxmayaraq, məzunların heç də hamısı praktiki işə hazır və ya uyğun deyil. Çox güman ki, buna səbəb tələbələrin təhsilindəki çatışmazlıqlar və ya təlim prosesinə cəlb edilən tələbələrdə psixi və davranış pozğunluqlarının olmasıdır. Buna görə də "insan-insan" qarşılıqlı əlaqəsi sistemində çalışan yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasının öyrənilməsi problemi xüsusilə aktuallaşır. Bu baxımdan bu problemdə xüsusi diqqətə layiq olan mühüm məsələ şagirdlərin əqli inkişafının və onlara təlim prosesində təsir edən amillərin öyrənilməsidir.

"Müəllim-şagird" münasibətinin xüsusiyyətlərindən biri fərdi yanaşma və davranışda status-rol fərqləridir. Bu, ilk növbədə, təhsil müəssisəsindəki ümumi psixoloji ab-havadan asılıdır. Tələbə üçün müəllimə münasibətin adekvat qiymətləndirilməsi yaradıcı əməkdaşlıq şəraitində formalaşır. Bu cür əlaqələr həm müəllimin şəxsiyyətinə, həm də fənnin özünə marağı artırır. Müəllimin "şəxsiyyəti" həmişə şagirdi maraqlandırır. Suallar yaranır: Auditoriyada oturub bu mövzu ilə ilk dəfə qarşılaşanda müəllimdə qorxu yaranırmı? Müəllim mövzunu bilirmi? Mühazirə maraqlı olacaq? O (şagird) hansı yeni faktları öyrənir? Test/imtahan necədir? Bunlar dinləyicilərin özlərinə verdiyi suallardan yalnız bir neçəsidir.

Müəllimin kommunikativ xüsusiyyətləri onun şəxsi keyfiyyətlərini də xarakterizə edir.Mütəxəssislərin hazırlanması, onların peşə və ictimai fəaliyyətinin ali məktəbdə oxuyarkən qazandıqları bilik, bacarıq və vərdişlərdən daha çox asılı olduğu mübahisəsizdir, lakin bu təlim təkcə onların formalaşdırılması ilə məhdudlaşmamalıdır.Təlim prosesində yaşla yanaşı, öyrənmə şəraiti də mühüm rol oynayır. Bir insanın zehni inkişafının qanunlarını və mexanizmlərini və həyatda şəxsi formalaşmasını nəzərə almaq bizə kömək edir

Pedaqoji psixologiya təhsil prosesində insanın sosial-mədəni təcrübəni mənimsəməsinin mexanizmlərini və qanunauyğunluqlarını öyrənməyə kömək edir.

. Xarici dilin ən yüksək səviyyədə tədrisinin əsas məqsədi kommunikativ sərişdənin formalaşmasıdır, burada bir neçə komponent fərqlənir: linqvistik sərişdə, sosiolinqvistik, sosial-mədəni sərişdə, strateji, diskursiv və sosial sərişdə. [15, s. 6] . Qədim dövrlərdən bəri dil və nitq mürəkkəbliyinə və insan həyatının psixi tərəfi ilə bağlı problemlərin kifayət qədər öyrənilməməsi səbəbindən hərtərəfli marağa səbəb olmuşdur.

Psixolinqvistikanın qabaqcısı A.A. Leontiev Alman filosofu və dilçisi Wilhelm von Humboldtun adını çəkir, çünki "nitq fəaliyyəti ideyası və dilin cəmiyyətlə insan arasında əlaqə kimi dərk edilməsini" özündə cəmləşdirir. (A.A. Leontiev)

Artıq XX əsrin 50-ci illərində dilçiliyə bitişik bir elm - psixolinqvistika formalaşdı. Dilçiliklə həmsərhəd olan elmin yaranması, ilk növbədə, onunla bağlıdır ki, bir sıra əzifələri təkcə işarə sistemi baxımından deyil, həm də insan inkişafının psixi tərəfi baxımından dərk etmək zərurəti yaranmışdır. Psixolinqvistikanın predmeti şəxsiyyətin nitq fəaliyyətinin strukturu və funksiyaları ilə əlaqəsi, eləcə də insan dünyasının obrazını formalaşdıran əsas element kimi - dildir.Xarici dillərin ardıcıl öyrənilməsi ilə pedaqoji psixologiya şagirdin sosial-mədəni təcrübəsinin inkişaf qanunauyğunluqlarını, onun şüurda saxlanmasını və ondan müxtəlif vəziyyətlərdə istifadə etmək bacarığını müəyyən etməyə kömək edir. Həmçinin tədris prosesinin təşkilinin xüsusiyyətlərini və bu prosesin şagirdin təhsil və idrak fəaliyyətinə necə təsir etdiyini müəyyən edir. [10, s. 25].

Xarici dillərin tədrisinin psixoloji və metodoloji konsepsiyalarından biri B.V. Belyaevə məxsusdur. Konsepsiyanın əsas ideyası xarici dillərin tədrisi prosesinin instrumental komponentini təmin etməkdir.Onun fikrincə, psixologiya məhz metodologiyanın əsasını təşkil edir və metodologiya ilə psixologiya arasında prinsipcə düzgün əlaqədir.

Xarici dillərin öyrədilməsi bilavasitə öyrənmə keyfiyyətindən və təfəkkürün bir dildən digər dilə keçmə qabiliyyətinin inkişafından asılıdır [6, s. 26].Xarici dilləri öyrənməyə yanaşmalar əsasən insanın dil öyrənməyə başladığı yaşla müəyyən edilir. Yeniyetmə və gənclikdə biliyin inkişafı prosesi fəal şəkildə gedir [1, s.30]. Yeniyetmələrdə artıq məntiqi təfəkkür və introspeksiya qabiliyyəti formalaşıb. Onlar müxtəlif mövzular üzərində düşünməyi, xüsusi mülahizələrə əsaslanaraq ümumi nəticələr çıxarmağı və əksinə, ümumidən xüsusiyə doğru düşünməyi bacarırlar.. Uşaqla müqayisədə yetkin şagird öz fəaliyyətini müstəqil təşkil edə bilən pedaqoji qarşılıqlı əlaqənin fəal subyekti hesab olunur.Yetkin bir subyektin hərəkətləri idrak və kommunikativ fəaliyyətin xüsusi bir istiqaməti ilə xarakterizə olunur. Yetkin bir insanın həyat və fəaliyyət üçün müəyyən strategiyaları var, buna görə də yetkin bir şagirdin öyrənən uşaqdan bir sıra fərqləri var, bunlar aşağıdakılardır:

♦ müstəqil özünüidarə edən şəxsdir;

♦ çoxlu həyat təcrübəsinin olması;

♦ ilkin olaraq öyrənmə üçün yüksək spesifik motivasiya (bir qayda olaraq, bu, peşəkar problemləri həll etmək və ya bütövlükdə bir şəxs kimi özünü həyata keçirmək imkanıdır)

♦ əldə edilmiş bilik və bacarıqların gündəlik və peşə həyatında praktiki tətbiqinə çalışmaq;

♦ böyüklərin öyrənmə fəaliyyətləri peşəkar, sosial və digər məhdudiyyətlərə məruz qalır;

[97] **Sumqayıt Dövlət Universiteti. Xarici dillər kafedrası, müəllim. leman.shahmar@mail.ru . tel: +994 (055) 889 77 34**

♦ keyfiyyət və təlim nəticələrinə yüksək tələblər.

♦ təhsilə praqmatik münasibət, məsuliyyətin artırılması. [bir].

Təlim motivasiyası həm ümumi, həm də xarici dillərin ardıcıl öyrənilməsində şagirdin intellektual inkişaf səviyyəsi və tədris prosesinin struktur təşkili ilə birbaşa bağlıdır.Öyrənmə motivasiyasını saxlamaq üçün fərdi iş və özünü ifadə etmək üçün daha çox imkanlar verilməlidir. Müasir xarici dillərin tədrisi öyrənməyə, şagirdyönümlü yanaşmaya əsaslanır , müəllimin bütün metodik qərarlarının "şagird şəxsiyyətinin prizmasından - onun ehtiyacları, motivləri, qabiliyyətləri, fəaliyyəti, intellektləri və digər fərdi psixoloji xüsusiyyətlərindən keçməli olduğunu" təklif edir.Bu zaman şagirdin şəxsiyyəti bu fəaliyyətin və ünsiyyətin xarakterini müstəqil müəyyən edən pedaqoji fəaliyyətin subyekti kimi qəbul edilir.

Bu gün təlim prosesinin diferensiallaşdırılması və fərdiləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. G.V Elizarova görə., öyrənmə prosesində xarici dil "insan üzərində elə bir təsir göstərməlidir ki, bunun nəticəsində o, özünü inkişaf etdirən, gözlənilməz mədəni şəraitdə ünsiyyət vəziyyətlərinin öhdəsindən gəlməyə qadir olan, emosional cəhətdən yetkin bir intellektual və idrak orqanizminə çevrilsin"(Q.V.Elizarova) Bu baxımdan, tədrisdə tələbələrin idrak üslublarının nəzərə alınması ilə bağlı olan problemlər aktuallaşır. Bir çox xarici və yerli psixoloq və müəllimlər (G. Witkin, B. Lou Leaver, V. S. Merlin, M. N. Berulava, G. A. Berulava, V. A. Kolga, I. M. Paley, M. A. Xolodnaya,M.B.Əsgərov və başqaları) hesab edirlər ki, koqnitiv üslublara diqqət yetirilməsi bu gün dil tədrisinin ən təsirli prinsipi kimi görünür, çünki hamı üçün universal tədris metodu yoxdur. (O.A. Obdalova, A.V. Soboleva) .Koqnitiv üslubların tədqiqi birbaşa insanın bütün xassələri arasındakı əlaqənin təbiətinin fərdi orijinallığını ifadə edir (V.S.Merlin)

Fərdiliyin ən məşhur çoxkomponentli sistemlərindən birinin yaradıcıları C.Roys və A.Pauel fərdiliyi altı qarşılıqlı təsir edən sistem - sensor, motor, koqnitiv, affektiv, eləcə də bir-biri ilə əlaqəli olan psixoloji xüsusiyyətlərin strukturu üslublar sistemi və dəyərlər sistemi.Sensor və motor sistemləri məlumatın daxil edilməsi və çıxarılması, onun kodlaşdırılması və dekodlanması proseslərinə cavabdehdir. Koqnitiv sistem məlumatların təhlili və emalı ilə. bağlidir. Affektiv sistem işlənmiş məlumatı aktivləşdirir. Buna əsaslanaraq, idrak və affektiv sistemlər informasiyanın işlənməsi üçün cavabdeh olan əsas elementlərdir. Üslub sistemi dəyər sistemi ilə sıx bağlıdır, çünki idrak və affektiv sistemlərdən alınan məlumatların ümumiləşdirilməsi və çevrilməsindən asılıdır.Bütün bunlara əlavə olaraq, üslub sistemi məlumatın necə işləndiyini seçmək üçün məsuliyyət daşıyır. Dəyərlər sistemi həm də məlumatı ümumiləşdirir, lakin fəaliyyət istiqamətini seçmək üçün deyil, məqsədləri vurğulamaq və onlara nail olmaq imkanlarını və yollarını müəyyən etmək üçün. Qeyd etmək lazımdır ki, üslub və dəyərlər sistemləri, eləcə də idrak və affektiv sistemlər informasiyanın emalı ilə bağlıdır, lakin bu sistemlərin təmin etdiyi ümumiləşdirmə səviyyəsi daha yüksəkdir. Belə çıxır ki, onlar informasiyanı vahid fərdilik səviyyəsində birləşdirir.Fərdilik iradi, intellektual, motivasiya sferaları, sinir sisteminin xüsusiyyətləri, temperament və s.üzərində qurulur. B. G. Ananiev tərəfindən təklif olunan fərdilik quruluşu geniş yayılmışdır ki, bu da fərdin xüsusiyyətlərini, şəxsiyyətin xüsusiyyətlərini və fəaliyyət subyektinin xüsusiyyətlərini fərqləndirir. Buna görə də elm fərdiliyi idrak (idrak) fəaliyyətin fərdi üslubu ilə birlikdə nəzərdən keçirir.Fərdi üslub, insanın fərdi xüsusiyyətlərinə görə meylli olduğu əməliyyatlar sisteminin xüsusiyyətlərini əks etdirir və idrak üslublarına vasitəçilik etməklə fəaliyyətin motivləri və məqsədləri əsasında formalaşan məlumatın şifahi çevrilməsi yolları sistemidir. [on beş].

Koqnitiv üslublar isə idrak proseslərinin fərdi psixoloji xüsusiyyətlərini, idrak sferasının bütün səviyyələrində məlumatların işləmə proseslərinə vasitəçilik edən şəxsiyyətin spesifik idrak strukturunu müəyyən edir.. Yuxarıda göstərilənlərin hamısına əsaslanaraq belə bir nəticəyə gələ bilərik ki, idrak üslubu idrak fəaliyyətinin prosedur xüsusiyyətlərinə aiddir.Stil parametrləri insanın bir çox müxtəlif psixoloji xüsusiyyətlərinə (sensimotor və psixofizioloji xüsusiyyətlərin, o cümlədən temperamentin xüsusiyyətləri) mütənasibdir. Koqnitiv üslub fərdi xüsusiyyətlərin bütün səviyyələri ilə əlaqələndirilir, fərdi fəaliyyət tərzinə təsir göstərir və ondan asılıdır.

Fərdiliyin zehni və şəxsi səviyyələri arasında olan koqnitiv üslublar fərd üçün dünyanın, o cümlədən linqvistik mənzərəni mənimsəməsinin bir yolu hesab olunur. Dil idrakın ayrılmaz və vacib hissəsi və dünyanın linqvistik mənzərəsini formalaşdırmaq vasitəsi olduğundan, xarici dilin tədrisi prosesi tələbələrin şəxsiyyətinin idrak sahəsinin xüsusiyyətlərinə əsaslanmalıdır.Psixologiyaya dair xarici və yerli ədəbiyyatda məlumatın (idrak üslubunun parametrləri) on beş fərdi metodu var. O.A. Obdalova, A.V. Sobolevanın "Xarici dilin tədrisi prosesinin fərdiləşdirilməsi üsulu kimi tələbələrin idrak üslublarının nəzərə alınması"məqaləsindəkoqnitiv üslubların müxtəlifliyindən dil materialının mənimsənilməsinin intellektual və psixoloji proseslərinə bilavasitə təsir edən və müasir Rusiya ali təhsil sistemi şəraitində tətbiq oluna bilənləri ayırmağa üstünlük verdilər.Müəlliflər həmçinin "bipolyar konstruksiyalar"ı da fərqləndirirlər.

sahə asılılığı / sahənin müstəqilliyi, ekvivalentliyin dar / geniş diapazonu (analitiklik / sintetiklik), idrak nəzarətinin sərtliyi / çevikliyi, kateqoriya darlığı / genişliyi, qeyri-real təcrübəyə dözümsüzlük / dözümsüzlük, konkret / mücərrəd konseptuallaşdırma, yüksək / aşağı idrak mürəkkəbliyi (kəskinləşmə / hamarlaşdırma), fokuslanma / skanlama nəzarəti.

Psixoloqların fikrincə, bu idrak üslublarının hər biri üçün insanların fərdi dəyərləri qütblər arasında yerləşərək vahid paylanma təşkil edir, yəni. hər bir idrak üslubu üçün insanların çoxu orta dəyərlərə malikdir və ifrat dəyərlər daha az yayılmışdır (O.A.Obaldova, A.V. Soboleva). Koqnitiv üslubların hər hansı birində ifrat olan insanlar diapazonun ortasında olanlara nisbətən daha az adaptasiya olurlar.Ən uyğunlaşan, situasiyanın şərtlərindən asılı olaraq idrak aparatlarının parametrlərini şüurlu şəkildə dəyişdirə bilən mobil idrak üslubu olan şəxslərdir. Şəxsi və intellektual yetkinlik tələbələrə qütblərdən birinə müəyyən cazibə saxlamaqla, vəziyyətin tələblərindən asılı olaraq fərqli hərəkət etmək bacarığını birləşdirməyə kömək edir.

Mobillik psixoloqlar tərəfindən fərdin idrak strukturlarının yüksək yetkinliyinin sübutu kimi qəbul edilir. Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, idrak üslubları əsasında fərdiləşdirmə, fərdin obyektiv və sosial mühitlə qarşılıqlı əlaqəsinin ayrılmaz təsiri kimi inkişaf edən və dəyişən fəaliyyət şəraiti ilə dəyişə bilən fərdi fəaliyyət tərzinin inkişafını böyük ölçüdə müəyyən edir. , inkişaf, təlim və təhsil prosesində inkişaf etdirilir. .

M.A.-nın qeyd etdiyi kimi, idrak üslublarını nəzərə alaraq xarici dildə ünsiyyət qurmağı öyrənmək həm intellektual davranışın üslub xüsusiyyətlərinin mövcud sisteminin yenilənməsi, həm də . hər hansı bir təhsil mövzusunu öyrənərkən, konsepsiyaları mənimsəyərkən və problemləri həll edərkən müxtəlif idrak üslublarının qarşılıqlı əlaqəsi üçün müxtəlif səviyyələrdə müxtəlif üslubları mənimsəməklə üslub davranışının tərkibinin genişləndirilməsi üçün şərait yaradılmasını nəzərdə tutur [17, s. 189].

Beləliklə, psixolinqvistik yanaşmada dil öyrənilmə predmeti kimi deyil, insanın mənimsəməsi və ondan düzgün istifadə edə bilməsi lazım olan bacarıq kimi qəbul edilir. Bu mövqedən müəllimin vəzifəsi bu bacarığı inkişaf etdirməkdir. Ona görə də belə bir prosesdə təkcə linqvistik deyil, həm də insan davranışının həqiqi motivlərinə əsaslanan psixolinqvistik metodlardan istifadə etmək lazımdır.Bu üsullar dilin qrammatik qaydalar toplusu deyil, bir sistem, ünsiyyət vasitəsi olması iddiasına əsaslanır. Bu yanaşma bir çox dil mərkəzlərində nitq fəaliyyətinin xarici dildə tədrisi üçün əsasdır [14, s. 102].

Linqvo-psixoloji yanaşma ayrı-ayrı sözlərin tərcüməsi ilə yadda saxlanmasını səmərəsiz texnika hesab edir, çünki insan təfəkkürü assosiativdir və söz deyil, proses yaddaşda qalır. . Ayrı-ayrı sözləri deyil, bütün mətnləri əzbərləmək tövsiyə olunur. Təlimin ilkin mərhələsində bunlar kiçik dialoqlar ola bilər. Sonra onların mürəkkəbliyi və həcmi artır. Müəllimlərin qeyd etdiyi kimi, bu halda əsas məqam təkrar danışmaq deyil, yadda saxlamaqdır, çünki təkrar danışarkən şagird öz ana dilindəki mətnin məzmununu qeyri-ixtiyari xatırlayır və nitqin bərpasını ləngidir.Əzbərləmə vəziyyətində o, hazır klişeləri canlandırır və sonra onları düzgün vəziyyətdə istifadə edir ki, bu da daldırma elementidir. Bu texnika istənilən təhsil səviyyəsində işləyir. Əlavə təhsil zamanı tələbələrə xarici dildə həm nəsr, həm də poeziya üzrə orijinal mətnlər təklif olunur. Belə mətnlərlə tanış olan tələbələr xarici (məsələn, ingiliscə) yumoru anlamağa başlayırlar.Ona görə də bu, artıq anlayışın yeni səviyyəsidir. Bununla belə, oxunan materialı başa düşməyin əsas vurğularını unutma: mətnin strukturunun təhlili, açar söz və ifadələrin vurğulanması və s. Bu təlim tələbələrə diaqonal oxu bacarıqlarını inkişaf etdirməyə kömək edir.Digər tərəfdən, lüğətə daimi müraciət etmədən müvafiq çətinlik səviyyəsində oxumağa cəlb etmək xarici dil öyrənmək üçün maraq və əlavə motivasiya oyadır. Oxumağı öyrənmək prosesi üçün əsas tələbləri qeyd etmək vacibdir: tələbələr mətni sözbəsöz oxumamalı, onu gözdən keçirməyi öyrənməlidirlər.

Peşəkar sahədə ədəbiyyat oxuyarkən tələbə bütün mətnin əsas fikrini vurğulamağı bacarmalıdır. Mətn adətən paraqraflara və ya fəsillərə bölünür. Növbəti addım hər bir abzasın əsas cümləsini tapmaqdır. Açar cümləni açar sözlərdən istifadə etməklə tapmaq olar. Linqvo-psixoloji yanaşmaya gündəlik məsələlərin müzakirəsi kimi praktiki tapşırıq da daxil ola bilər.Şagirdlər başqalarının gündəliklərini oxuyur və öz gündəliklərini xarici dildə yazır. Yəni həyatlarını xarici dildə yaşamağa başlayırlar. Bundan başqa, xarici dildə seriallara baxmaq təcrübəsi də həvəsləndirir. Şagirdlərin gündə bir epizoda baxması və həmin epizod üçün müvafiq tapşırıqlar hazırlaması gözlənilir. Təlimlər qrammatik deyil, semantikdir.Belə ki, tələbələr prosesə cəlb olunur və sanki serialı real həyatda izləyirmiş kimi növbəti bölümləri səbirsizliklə gözləyirlər. Bu, öyrənmə prosesini vəzifədən zövqə çevirir. Bu mərhələnin mühüm praktiki məşqi mədəniyyətlərarası təlimdir. Onun məqsədi insanlar arasında münasibətlərdə mədəniyyətlərarası fərqlərlə tanış olmaqdır. Təlimdə ünsiyyətin iki mədəniyyətdə fərqli şəkildə baş verdiyi vəziyyətlər nümayiş olunur.

Təlim nəticəsində əldə edilmiş bilikləri yeni vəziyyətlərə köçürmək bacarığı inkişaf edir. U.Brislin tərəfindən təklif edilən təsnifata görə, təlim prosesində tövsiyə olunan beş növ təlim var: özünüdərketmə təlimi, bu təlimdə insanın öz mədəni əsaslarını öyrənməsi; başqa mədəniyyət haqqında məlumat verildiyi idrak təlimi; tələbələrin vəziyyətləri başqa mədəniyyət baxımından izah etməyi öyrəndiyi atribut təlimi; davranış təlimi, o cümlədən praktiki bacarıqların öyrədilməsi [12, s. 213].

Şifahi xarici nitqin dinləmə ilə başa düşülməsi üzrə mədəniyyətlərarası təlim. Dinləyib-anlama adətən öyrənənlər üçün xüsusi çətinliklər yaradır. Dinləmə təlimi hər bir müəllim üçün ən çətin vəzifələrdən biridir, çünki bir bacarıq inkişaf etdirmək üçün uzun və ciddi təcrübə tələb olunur. Dinləmə problemlərindən biri tələbələrin özlərinə tez-tez qoyduğu zehni bloklardır.Tanımadığı bir söz qəflətən başa düşmə prosesini ləngidə bilər və tələbə tanış olmayan sözün analoqunu xatırlamağa çalışarkən sonrakı nitq qavrayışı maneə törədir. Nəticə etibarı ilə dinləmənin ardıcıllığı itir, şagird özünü danışıq dilini başa düşə bilməyən hesab edir və bununla da özünə ciddi psixolinqvistik problem yaradır. Bu problemi həll etmək üçün müəllimlər qrup söhbətləri təşkil etməyi tövsiyə edirlər [14].Birgə ünsiyyət zamanı tələbələr özlərini prosesin bərabərhüquqlu iştirakçıları kimi hiss etdikləri üçün səhv etməkdən qorxmurlar. Tələbələrin seçimlərinə uyğun mahnı dinləmək də köməkçi element kimi çıxış edə bilər. Seçim azadlığı bu halda həvəsləndirici amil kimi çıxış edir. Beləliklə, xarici dillərin ardıcıl tədrisinə sistemli yanaşmanın həyata keçirilməsi linqvopsixologiyada fərdin artıq qurulmuş psixoloji təşkilinin xüsusiyyətləri kimi onu təhlil metoduna çevirməyi və xarici dilin öyrənilməsi prosesində şəxsiyyətin tədricən inkişafı prosesini nəzərdə tutur,

Dilin ardicil öyrənilməsinə bu yanaşma,prosesi daha həyəcanlı edir, tələbələri öz peşə yönümlərinə uyğun biliklərə vivələnməyə həvəsləndirir. Xarici dilin tədrisində kommunikativ oriventasiya linqvopsixoloji yanaşmada həlledicidir.

NƏTİCƏ: Yerli və xarici psixoloqların bir sıra əsərlərini təhlil etdikdən sonra müəyyən etdik ki, pedaqoji və inkişaf psixologiyasına dair biliklər, habelə xarici dillərin tədrisi prosesində motivasiyanın formalaşması sosial-mədəni təcrübənin mənimsənilməsi qanunauyğunluqlarını və təhsilin təşkili xüsusiyyətlərini müəyyən etməyə kömək edir, tələbənin idrak fəaliyyətinə təsir göstərir

Təlim prosesində idrak üslublarının nəzərə alınması məlumatın inkişafı, bilik, bacarıq, bacarıqların formalaşması ilə bilavasitə əlaqədardır və gələcək şəxsiyyətlərarası ünsiyyətə kömək edir. Linqvistik psixologiyada sistemli yanaşmanın tətbiqi tələbələri təhsil proqramlarının dəyişkənliyi vasitəsilə xarici dilləri daha da öyrənməyə sövq edir.

Ədəbiyyat Siyahısı

1. Abulxanova K. A. Mövzu kateqoriyasının ideoloji mənası və elmi əhəmiyyəti. Rus mentaliteti: psixoloji nəzəriyyə və təcrübə məsələləri //// Məqalələr toplusu.—M.: 1997.—C. 56–74
2. Ananiev B.G. İnsan biliyin obyekti kimi.—L.: 1968.—340 s.
3. Arnold IV Dilçilikdə elmi tədqiqatın əsasları. // Dərslik.—M:. 1992.- 140 s.
4. Artemov V. A. Xarici dillərin tədrisinin psixologiyası.- M .: Təhsil, 1969.- 279 s.
5. Belyanin V.P.Psixolinqvistika: Dərslik—M.: MPSI, 2003–232 s.
6. Belyaev B.V.—Xarici dillərin tədrisinin psixologiyasına dair cızıq. 2-ci çap.—M.: Maarifçilik, 1965.—228 s.
7. Bodalev A. A. Böyüklərin öyrənilməsinin aktual problemləri // Psixologiya dünyası.- 1999.- № 2.-C. 6–11
8. Braqq M. İngilis dilinin sərgüzəştləri.—M.: "Alpina Non-Fiction", 2018.— 418 s.
9. Qış I. A. Məktəbdə xarici dillərin tədrisinin psixologiyası. // Xarici dillər müəlliminin kitabxanası. M .: Təhsil, 1991. - 222 s.
10. Zimnyaya I. A. Nitq fəaliyyətinin linqvistik psixologiyası.- M .: Moskva Psixoloji və Sosial İnstitutu, Voronej: NPO "MODEK", - 2001. - 432 s. ("Vətənin psixoloqları" seriyası).
11. Zimnyaya İ.A. Pedaqoji psixologiya: universitetlər üçün dərslik // 3-cü nəşr, yenidən işlənmiş.—M.: Moskva Psixoloji və Sosial İnstitutu; Voronej: NPO "MODEK", - 2010. - 448 s.
12. Koçetkov V.V.Mədəniyyətlərarası fərqlərin psixologiyası.—M.: PER SE.—2002.—416 s.
13. Marey A. A. Marey M. A. Xarici dillərin tədrisinə müdaxilə və köçürmə. // Xarici dillər: nəzəriyyə və təcrübə № 2. - M .: Tezaurus, 2014.-T 22.-S. 86–101
14. Melniçuk M.V., NenyukE. A., Alisevich M.V. Psixolinqvistik aspektlər xarici dilin praktiki öyrənilməsi üçün əsas kimi // Avstriya jurnalı Humanitar və İctimai Elmlər.— 2014.— No 9–10.—S. 100–104
15. Solovova E.N. "İA-nın tədrisi üsulları". // Mühazirələrin əsas kursu. M.: Astrel, 2005. - 239 s.
16. Sokolova İ.Yu. Təhsil prosesinin keyfiyyətinin psixoloji təminatı. // Müəllimlər, aspirantlar, bakalavrlar üçün dərslik.— Tomsk: 2006. - 305 s.
17. Şerba L. V. Dil və nitq fəaliyyəti // L. V. Şerba.—M.: Redaksiya URSS, 2004.— 432 s.
18. Soyuq M. A. Koqnitiv üslublar. Fərdi şüurun təbiəti haqqında.- 2-ci nəşr.- Sankt-Peterburq: Peter, 2004.- 384 s.
19.M.B.Əsgərov .Linqvo-psixoloji vəhdət nəzəriyyəsi."Elmvətəhsil" Bakı, 2015

Xülasə

Məqalədə xarici dillərin öyrənilməsində psixologiyanın rolu araşdırılır. Əsas diqqət "insan-insan" qarşılıqlı əlaqəsi sistemində çalışan yüksək ixtisaslı mütəxəssislərin hazırlanması probleminə yönəldilmişdir.Tədqiqat "müəllim-şagird" qarşılıqlı əlaqəsinin xüsusiyyətlərini və tələbələrin psixoloji uyğunlaşmasını gücləndirə biləcək yanaşmaları öyrənir. Psixoloji uyğunlaşma təhsildəki uğura və gələcəkdə tələbələrin peşə təcrübəsinə təsir göstərir.

Açar sözlər: praktik fəaliyyət, psixoloji uyğunlaşma, müəllim keyfiyyəti, təhsil motivasiyası, səriştə, psixoloji iqlim

Summary

The article explores the role of psychology in learning foreign languages. The analysis is focused on the problem of training highlyqualified experts who work in the «man-man» interactive system. The research studies the features of the «teacher-student» interaction and the approaches which can enhance psychological adjustment of students. Psychological adaptation influences the success in studying and students' professional practice in the future.

Keywords: practical activity, psychological adaptation, teacher quality, educational motivation, competence, psychological climate

Резюме

Исследование посвящено роли психологии в изучении иностранных языков. В фокусе внимания — проблема изучения подготовки высококвалифицированных специалистов, работающих в системе взаимодействия «человек-человек». В статье анализируются особенности взаимоотношений «преподаватель-студент» и подходы, способствующие повысить психологическую адаптацию студентов, которая влияет на успешность обучения и отражается на их профессиональной деятельности в будущем.

Ключевые слова: практическая деятельность, психологическая адаптация, качества преподавателя, учебная мотивация, компетенция, психологический климат

Rəyçi: dos. E.Vəliyeva

Məhbubə Oqtay qızı Məmmədli [98]

İNTİBAH DÖVRÜNDƏ YARANMIŞ SÖZLƏRİN İNGİLİS DİLİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU

Sakston dönəmindən 1650-ci illərə qədər olan zaman "İntibah dövrü" (Renaissance period) adlanır. Həmin zaman həmçinin *Kopernikus islahatları* və *Amerikanın kəşfi* ilə də yaddaşlarda iz buraxıb [1, s. 196].

İntibah dövrü (ingilis dilində *Renessans* ("yenidən doğulma", "dirçəlmə") Avropa tarixinin XV və XVI əsrlərini əhatə edən, orta əsrlərdən müasirliyə keçid dövrü kimi bilinir. Həmin hadisə son orta əsrlər dövrü böhranından sonra baş vermişdir və böyük sosial dəyişikliklə əlaqələndirilir. Standart dövrləşdirməyə əlavə olaraq "Long Renessans" dövrü fikrini dəstəkləyənlər bu dövrün XIV əsrdən başlayıb, XVII əsrdə sonlandığını düşünürlər. Ənənəvi baxış intibahın daha çox erkən müasir aspektlərinə yönələrək onun keçmişdən bir qırılma olduğunu iddia etsə də, bu gün tarixçilərin əksəriyyəti bu dövrü orta əsrlər aspektindən dəyərləndirərək, intibahın orta əsrlərin davamı olduğunu düşünür [2, s. 197].

İngiltərədə "İngilis İntibahı"nın başlanğıcı U.Sekspir, X.Marlou, E.Spenser, T. Mor, F.Bekon, F. Sidney, İ.Cons, T.Tallis, C.Taverner, U.Byordunun əsərlərini ərsəyə gətirdiyi XVI əsr olaraq qəbul edilir [3, s. 44].

Yeni əsərlərin meydana gəlməsi özünü əsasən ingilis dilinin zənginləşməsində biruzə verirdi. Həmin dönəmdə əsas diqqət lüğətə idi. Yeni yaranan konseptlərin dildə işlədilməsi ilə bəzi problemlər yaranırdı. O dönəmdə yeni yaranan məfhumların dildə işlədilməsini təmin edəcək kifayət qədər söz yox idi. Bununla əlaqədar olaraq, ingilis dilində yazan yazıçılar və başqaları digər dillərdən fərqli sözlər almaq məcburiyyətində qaldılar. Dilə daxil olan sözlərin çoxu Latın dilindən alınırdı. Bununla yanaşı, yunan, fransız, italyan, ispan və portuqal dillərindən də alınan sözlər az deyildi. Həmin dillərdən də ingilis dilinə çox sayda söz və ifadələr daxil olmuşdur. İngilis dilində Amerikan hindularının dillərindən, Afrika və Asya dillərindən alınma sözlərə də rast gəlmək mümkündür. Qeyd edək ki, ingilis dilinə Latın və italyan dillərindən keçən sözlərin çoxu fransız dili vasitəsilə keçib.

Məlumdur ki, dil heç vaxt sabit vəziyyətdə qalmır. İngilis dili lüğət tərkibi zəngin olan dillərdəndir [4, s. 170]. Ölkənin həyatında baş verən bütün yeniliklər, dəyişikliklər, ətraf aləmdə müşahidə olunan hallar istənilən dilin lüğət tərkibində əks olunur. Bu halları ingilis dilinin lüğət tərkibində də müşahidə etmək mümkündür. İqtisadiyyatda, siyasətdə, kənd təsərüfatında, idmanda, dində, hətta məişətdə belə müşahidə olunan vəziyyətlərin dilin lüğət tərkibində əks olunması həmin dilin lüğət tərkibinin zənginləşməsinə səbəb olur [4, s. 13]. Dilin lüğət tərkibində müşahidə olunan dəyişiklik illərdən illərə, əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə keçərək daha da zənginləşir. Müasir ingilis dilinin lüğət tərkibi də uzun və mürəkkəb yol keçmişdir. S.Potter ingilis dilinin lüğət tərkibinin zənginləşməsinin mürəkkəb və keşməkeşli yolunu ardıcıl və ətraflı şəkildə tədqiq etmişdir.

İntibah dövründə Latın dili yunan dilindən alınan sözlər üçün vasitəçi rolunu oynayırdı. Məsələn, ingilis dilində /devil/ "şeytan, iblis" sözünün alınma formasını nəzərdən keçirək [5, s. 134]:

Qədim ingilis dili	**Müasir ingilis dili**	**Latın dili**	**Kökü yunan dilindən qaynaqlanan söz**	**Azərbaycancaya tərcüməsi**
Deofol	devil	diabolus	Diabolos	şeytan, iblis
Engel	Angel		Ayyehos	Mələk, məlaikə

R.Hog yazır ki, /devil/, /angel/ kimi dini ibadətlərdə işlədilən sözlər katolik kilsəsində işlədilmiş və daha sonra insanlar arasında adi danışıqda işlədilməyə başlanmışdır [4, s. 33]. Kral Ceymisin "İncilinin"-nın tərcüməsindən götürülmüş bir nümunəyə baxaq:

/Submit yourselves therefore to God. Resist the devil, and he will flee from you// (King James Bible 4:7)

Kral Ceymisin İncilindən götürülmüş bu nümunədə /devil/ sözü əsl həqiqi mənasında işlədilmişdir. Burada "şeytan" pis qüvvə kimi təqdim edilir. Bu söz hazırda ingilis dilində adi danışıq sözü kimi də işlədilə bilir.

R.Hogun araşdırmasına görə, Latın dilindən ingilis dilinə keçən dini sözlərin əvvəlində bir neçə söz dayanır ki, bunlar da sanki xristianlığın simvolları hesab edilir [4, s. 109]. Məsələn:

Qədim ingilis dili	**Müasir ingilis dili**	**Latın dili**	**Azərbaycanca tərcüməsi**
Candel	Candle	candēla	şam
Win	Wine	Vinum	Şərab, çaxır, mey, üzüm şərabı
Predician	Preach	Praedicare	Vaizlik etmək, vəz söyləmək
maesse	Mas	Missa	Çoxluq, kütlə; cəmiyyətdəki dini qruma aid olan bir qrup insan
Abbud	Abbot	Abbat	Rahib, abbat

[98] Azərbaycan Dillər Universiteti. mmehbube@gmail.com

Bəzi alimlər iddia edirlər ki, bir qrup sözlərin ingilis dilində işlədilməsi Roma istilasından əvvələ təsadüf edir. Məsələn, qədim ingilis dilində /mynster/ sözü belə sözlərdəndir. Müasir ingilis dilində /monastery/ (monastr) Latın dilində /monastērium/ kimi işlədilən sözləri nümunə verə bilərik [6, s. 209]. Digər nümunə: qədim ingilis dilində /munuc/, müasir ingilis dilində /monk/ (keşiş, rahib), Latın dilində /monachus/ kimi sözlər işlədilirdi.

T.Payls yazır ki, intibah dövründə ingilis dilinə keçən sözlər əsasən şifahi, sonra isə yazılı dildə müşahidə edilmişdir [7, s. 217]. O yazır ki, ingilis dilinə keçən sözlərin çoxu kilsə vasitəsilə, daha dəqiqi həmin dönəmdə məşhur olan katolik kilsəsi vasitəsilə ingilis dilinə keçmişdir [7, s. 37].

Katolik kiləsisi vasitəsilə ingilis dilinə keçən sözlərin bir qismi bunlar idi:

Engel (950) 'angel' – angelus; "mələk";

Apostol (950) 'apostle' – apostolus; "həvari";

Candel (700) 'candle' – candela; "şam";

Celic (852) 'chalice' – calix; "şalis" və s.; [10, s. 73].

İntibah dövründə ingilis dilini zənginləşdirən frazeoloji birləşmələrdən "İncil"dən tərcümə edilən frazeoloji birləşmələr xüsusi yer tutur. U.Tindeyl yazır: "Deyirlər ki, o (İncil) bizim dilə tərcümə edilə bilməz. Bu cəfəngiyatdır, boş sözdür. Bu sözü deyənlər yalançıdırlar. Yəhudi dilindən ingilis dilinə tərcümə etmək latın dilindən tərcümə etməkdən min dəfə asandır [11, s. 1].

İntibah dövründə ibrani dili semit dilləri arasında ən mühim tarixi və dini məziyyətləri özündə ehtiva edən dil hesab edilirdi [8, s.65]. Elə bu səbəbdən də Yəhudi İncili qədim semit ədəbiyyatının əsas hissəsini əks etdirir. Yəhudi İncilinin ingilis dilinə tərcümə edilməsilə xeyli sayda frazeoloji birləşmələrin, ifadələrin (idiomlar, atalar sözləri və s.) müasir ingilis dilində işlədilməsini müşahidə etmək olur [10, s. 100]:

Onların bir qismini aşağıdakı kimi sıralaya bilərik:

"to lick the dust" - "tüpürdüyünü yalamaq; sözünü geri götürmək;

"to fall flat on one's face" - "üzü üstə yıxılmaq"; ümidsizliyə uğramaq, məyus olmaq;

"heavy heart" - "ağır qəlbli"; qəlbindən daş asılmaq; qəlbi sıxılmaq; kədərli olmaq;

"to pour out one's heart" - qəlbini açmaq, ürəyini boşaltmaq, paylaşmaq, söhbət etmək;

"the land of the living" - yaşadığın yer; yer kürəsi, dünya.

İndi isə İntibah dövründə ingilis dilinə keçən müəyyən sözlərin siyahısını təqdim edək:

Latın və yunan dillərindən alınma sözlər [5, s. 211]:

Absurdity	mənasızlıq
Adapt	Uyğunlaşmaq
Agile	Çevik
Alienate	Yadlaşdırmaq
Anachronism	Anaxronizm
Anonymous	Anonim
Appropriate	Uyğun, müvafiq
Asassinate	sui-qəsd etmək
Atmosphere	Atmosfer

Fransız dilindən alınma sözlər [6, s. 211]:

Alloy	Ərinti
Anatomy	Anatomiya
Battery	Batareya
Bayonet	Süngü
Bigot	Biqot
Balcony	Balkon
Ballot	Səsvermə bülleteni
Cameo	Kameo
Carnival	Karnaval
Concerto	Konsert

İtalyan dilindən alınma sözlər [5, s. 211]:

İspan və Portuqal dillərindən alınma sözlər [9, s. 211]:

Alligator	Timsah
Anchovy	Siyənək balığı
Apricot	ərik
Armada	döyüş gəmiləri donanması
Banana	Banan
Barricade	Barrikada

İntibah dövründə ingilis dilinin lüğət tərkibinin zənginləşməsində xüsusi rolu olan aşağıdakı sözlər də müəyyənləşib [9, s. 211]:

Bazaar (Persian)	Bazar (Fars)
Caravan (Persian)	Karvan (Fars)
Coffee (turkish)	Qəhvə (türk)

İntibah dövründə ingilis dilinin lüğət tərkibinin zənginləşməsində U.Şeksprin sonetlərində işlətdiyi ifadələrin də rolu danılmazdır. Onlardan bəziləri aşağıdakılardır [1, s. 216]:

Beggars all description	Bir işin təsvir edilməsinin və ya izah edilməsinin qeyri-mümkün olmasını göstərərn ifadə
A foregone conclusion	Bir işin baş verəcəyi şübhəsizdir və qarşısını almaq mümkün deyil
Hoist with his own petard	kiminsə başqaları üçün problem yaratma planları özünə əks nəticə verir
In my mind's eye	Mənim düşüncəmə görə
It is Greek to me	bunu başa düşmək mənim üçün çətindir
Salad days	insanın gənc və təcrübəsiz olduğu dövr
More in sorrow than in anger	Bir işə qəzəbdən çox kədər və ya məyusluq hiss etmək
Play fast and loose	məsuliyyətsiz və ya əxlaqsız davranmaq

Beləliklə, bu nəticəyə gəlirik ki, ingilis dilinin lüğət tərkibinin zənginləşməsində intibah dövrünün də mühüm rolu olmuşdur. İntibah dövrüdə ingilis dilinə müxtəlif dilllərdən, məsələn, Latın, yunan, fransız, italyan və s. çox sayda sözlər, ifadələr, frazeoloji birləşmələr keçmişdir. Müxtəlif zamanlarda ingilis dilinə daxil olan sözlər məişət, iqtisadiyyat, din, ekologiya, siyasət və s. sahələrdə geniş şəkildə işlədilir.

ƏDƏBİYYAT

1. Crystal D. The English Language. UK: Penguin Books, 1988, 312 p.
2. Freeborn D. From Old English to Standard English. A Course Book in Language Variation across Time. Ottawa: University of Ottawa Press, 1998, 480 p.
3. Gelderen E. van. A history of the English language. Amsterdam: John Benjamins Publishing company, 2006, 344 p.
4. Hogg R. The Cambridge History of the English Language. Vol I.: The Beginnings to 1066. Cambridge: Cambridge University Press, 1992, 633 p.
5. Hornby A.S. Oxford Advanced Leaner's Dictionary. Eighth edition. Oxford: Oxford University Press, 2010, 1888 p.
6. Kunin A.V. English-Russian Phraseological Dictionary. Moscow: Russky yazyk, 1984, 944 p.
7. Pyles Th. The Origins and Development of the English Language. New York: Harcourt, 1964, 383 p.
8. Rastorguyeva T.A., et al. History of the English language. Moscow: Higher school, 1972, 175 p.
9. Serjeantson M.S. A History of Foreign Words in English. London: Routledge, 1993, 354 p.
10. Sullivan J. F. The Externals of the Catholic Church: A Handbook of Catholic Usage. Aeterna Press: Religion, 1951, 403 p.
11. Tyndale W. Preface to *The Obedience of a Christian Man.* Penguin Books Limited, Religion, 1528, 272 p.

Açar sözlər: intibah, dövr, söz, lüğət tərkibi, ingilis dili, alınma
Key words: Renessans, period, word, vocabulary, English, borrowing
Ключевые слова: Ренессанс, период, слово, лексика, английский язык, заимствование

THE ROLE OF RENAISSANCE WORDS IN ENRICHING THE ENGLISH LANGUAGE

Summary

The article deals with the role of Renaissance words in enriching the English language. It states that a word is a unit that has meanings. It may have more meanings than one. Depending on the context the meanings of the word may be caught.

The article also highlights the importance of enriching the word stock of a language. The English language is known to have rich vocabulary. The Renaissance period is believed to have enriched the vocabulary of the English language. The words that were borrowed during the period of Renaissance have been distingushed in the article.

РОЛЬ РЕНЕССАНСНЫХ СЛОВ В ОБОГАЩЕНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Резюме

В статье рассматривается роль ренессансных слов в обогащении английского языка. Он утверждает, что слово – это единица, имеющая значения. Оно может иметь больше значений, чем одно. В зависимости от контекста могут быть уловлены значения слова.

В статье также подчеркивается важность обогащения словарного фонда языка. Известно, что английский язык обладает богатым словарным запасом. Считается, что период возрождения обогатил словарный запас английского языка. В статье выделены слова, заимствованные в период возрождения.

Rəyçi: fil.f.d. X.Əliyeva

Təranə İbrahim qızı Mehdiyeva [99]

ANA DİLİ FƏNNİNİN İNTELLEKTUALLIĞIN İNKİŞAFI ÜÇÜN ƏHƏMİYYƏTİ

İntellekt qabiliyyətlərinin inkişafını ön plana çəkən və müasir məktəblərimizdə getdikcə daha uğurla tətbiq edilən Milli Kurikulum sənədinin meydana gəlməsi ölkədə aparılan genişmiqyaslı islahatların nəticəsidir. İntellektual xarakter daşıyan Kurikulum təhsil proqramı olaraq dünyada yeni bir model kimi geniş tətbiq olunur. Azərbaycanda həyata keçirilən kurikulum islahatları şagirdlərin, ilk növbədə, intellektual qabiliyyətlərini inkişaf etdirməklə müasir məktəbin dünya standartları səviyyəsinə çatdırılmasını bir vəzifə olaraq qarşıya qoyur (1, 2). Bu vəzifə həm də ümumtəhsil fənlərinə, onların yenidən qurulması məsələlərinə baxılmasını xüsusi olaraq aktuallaşdırır. Cünki şagirdlərin inkişafını təmin edən, onların formalaşmasına təsir göstərən vasitələr sistemində tədris fənləri xüsusi seçilir. Bu mənada fənlər həm də məktəbin tədris fəaliyyəti sistemində əvəzsiz yer tutur.

Şagird bacarıqlarının ilkin qaynağı onun intellekti ilə bağlıdır. Şagirdlərdə intellekti inkişaf etdirmək hər bir fənn üçün mükəmməl bir metodikanın vacibliyini şərtləndirir. Metodika isə təsadüfləri sevmir. O, müəyyən sistemə əsaslanır. Sistemli şəkildə aparılan pedaqoji prosesdə uşaq hər şeyi tam aydınlığı ilə təsəvvür edir.

Orta məktəbdə "Azərbaycan dili" kursunun müasirləşməsi bu fənnin məzmununun və metodikasının yeniləşməsini bir məqsəd kimi qarşıya qoyur. Kurikulumun tələblərinə əsasən "Azərbaycan dili" bir tədris fənni kimi müasir dövrün tələblərinə, reallığına uyğunlaşdırılır. İndi şagirdlərə biliklərin verilməsi üçün mətnlərin, sual və tapşırıqların seçilməsini, "Azərbaycan dili" təliminin metodikasını yeni aspektdə işlənməsini bir tələb kimi qarşımızda durur. Yeni metodika şagird intellektinə, onun düşünmə, nəticə çıxarma, idrak fəaliyyətinin maksimum dərəcədə inkişaf etdirmək prinsiplərini əsas götürür (2).

İnsan bir sıra təbii instinktləri ilə dünyaya gəlir. Bu potensial instiktlərin içində yaşamaq, xəyala dalmaq, gələcək fəaliyyətini təsəvvür etmək, plan qurmaq və s. kimi yalnız insana məxsus olan keyfiyyətlərin rüşeymi olur. Bu keyfiyyətlər inkişaf etdikcə insan canlıların ən güclüsünə çevrilir. Deməli, hər şey insana xas olan təbii instinktləri inkişaf etdirməkdən, yəni bu cəhətləri tərbiyə edib həmin şəxsin xarakterinə çevrilməkdən ibarətdir. Ağaca su verib qulluq edildiyi kimi uşağa da hərtərəfli tərbiyə vermək cəmiyyətin ən mühüm işlərindən biridir. Cəmiyyətin bu vəzifəsini məktəb öz üzərinə götürür. Deməli, məktəb güclü varlığa çevrilmək imkanları olan və təbiətən başqa həmcinslərindən seçilən insanın sərvətə çevrilmək vəzifəsini icra etməlidir. Bu, məktəb fəlsəfəsinin əsasını təşkil edir.

Şagirdlərdə intellekt qabiliyyətlərinin inkişaf etdirilməsi işinə ibtidai siniflərdən başlanılır. "Ana dili" fənninin tədrisi prosesində şagird intellektinin inkişaf etdirilməsi üçün ən zəruri pedaqoji amillərin müəyyənləşdirilməsi bu gün vacib problemlərdən biri kimi qarşıda dayanır. Bu sahədə aparılan çoxsaylı təcrübələr də məsələnin günün vacib pedaqoji tələblərindən olduğunu aydın şəkildə göstərir. Müasir təhsilin qarşısında duran başlıca vəzifə şagirdlərdə intellekt qabiliyyətlərini inkişaf etdirməkdir. İntellekt tərbiyəsi ilə məşğul olmaq təkcə hər hansı bir ölkə üçün deyil, bəşəriyyət üçün kadr hazırlamaqdır. Bu, qlobal düşüncənin istəyidir. Bu gün intellekt ona görə lazımdır ki, o, dünyanı tərəqqiyə, firavanlığa, işıqlı amallara, dostluğa, xeyirxahlığa aparmağa qadirdir. "İntellekt" kəlməsini eşidən hər kəsin ağlına birinci növbədə təbiət elmləri gəlir. Fizika, riyaziyyat, kimya, biologiya və s. Lakin şagirdin əqli keyfiyyətlərinin inkişaf etdirilməsi bütün fənnləri eyni dərəcədə maraqlandırır. Şagirdlərdə intellekti inkişaf etdirmək hər bir fənn üçün mükəmməl bir metodikanın vacibliyini şərtləndirir. Metodika isə təsadüfləri sevmir. O, müəyyən sistemə əsaslanmalıdır. Sistemli şəkildə aparılan pedaqoji prosesdə uşaq hər şeyi tam aydınlığı ilə təsəvvür edir.

Təhsil müəllim-şagird münasibətlərinin bir formasıdır. Bütün zamanlarda şagird-ustad münasibətləri olub. Ustad biliklərini şagirdinə öyrədib. Çox zaman bu iş zopasız keçməyib. Ustad yanına qoyulan şagirdin anası bu sözləri deyib: "Əti sənin, sümüyü mənim". Bu sözün arxasında çox mətləblər dayanır. Yəni döy, söy, öldür, istismar et, amma sənətini öyrət. Bu gün dünyanın ən sivil ölkələrinin də keçmişi belə olub. Dünyanın nəhəng alimləri uzun illərdir ki, belə bir suala cavab axtarırlar: Müəllim uşağı passiv məlumatla yükləməlidir, yoxsa həmin məlumatların cüzi bir hissəsini şagirdin özü "kəşf etməli"dir? Axı "kəşf" sözündə tapmaq, qələbə çalmaq sevinci var. Bu sevinc tonqalı yandıra biləcək qığılcım qədər əhəmiyyətlidir. Biliyin kəşf olunması, yaranması anlayışının elmi adı konstruktivizmdir. Onun əsas əlaməti uşağın müəllimdən passiv məlumat alması deyil, şagirdin dərsin aktiv üzvü kimi bilikləri özünün qazanmasıdır (3).

Biliyi uşağın özünün anlaması, kəşf etməsi bəzilərinin iddia etdiyi kimi son əsrlərin elmi məhsulu deyil. Azərbaycan xalqı min illər bunda əvvəl belə deyib: "Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır!". Bir dəfə görmək, onu praktik şəkildə dərk etmək, öyrənənin özünün başa düşməsi deməkdir. Qədim çinlilərin də maraqlı sözü var: "Mənə de – unudum, göstər – yaddan çıxarım. Cəlb et – öyrənim!" İnsan özü müstəqil öyrənməyi həmişə başqalarının öyrətməyindən çox istəyir. Bu cəhət uşaqların psixologiyası üçün daha çox səciyyəvidir. Qəzet və jurnalların səhifələrində verilən "düşün, tap" rubrikası uşaqları çox cəlb edir. Çünki burada onu öyrədən yoxdur. Kəşf olunmalı biliklə uşaq təkbətək qalır. Onun öz gücünü yoxlamaq imkanları yaranır. Əgər axtarılan cavabı tapa bilməsə, qınaq obyekti olmayacaq. Kimsə ona "bacarmadın, düz deyil, bir yaxşı-yaxşı fikirləşsənə" kimi töhmət dolu sözlərlə müraciət etməyəcək.

"Azərbaycan dili" tədrisində müəllimin fasilitatorluq bacararığı, şagirdlər arasında yaratdığı dostluq əlaqələrinin möhkəmlənməsi işində həyata keçirdiyi tədbirlər (qrupların, qrup öncüllərinin yaradılması, qruplar üçün maraqlı tədqiqat

[99] ADPU-nun magistrantı. taranamehdiyevaa@gmail.com

suallarının hazırlanması və s.), motivasiya yaratmaq, tədqiqat sualı müəyyənləşdirmək, onları düşünməyə vadar etmək dərsin məhsuldar olması üçün ilkin şərtdir.

Bəs sinfə elmi bilikləri kim gətirməlidir? Müəllim, yoxsa şagird? Şagirdin fəallığı, yeni fikri sinifdə kəşf edərək öyrənməsi belə bir sualı doğurur. Bu suala birbaşa cavab vermək üçün fasiləsiz təhsil anlamında müəllimin fasiləsiz təhsilini yadımıza salaq. Bu müddəaya əsasən müasir müəllim ömrü boyu təhsil alır və deməli, həmişəlik özünüinkişafla məşğul olur. O, daim mütaliə edir, öyrənir, təkmilləşir və öyrəndiklərini tətbiq edir. Şagird də sinfə elmi bilikləri daşıyır. Dünənki dərsin tapşırığı elə olmalıdır ki, şagird müxtəlif qaynaqlardan onu tapıb sinfə gətirsin. Şagirdlər müxtəlif qaynaqlardan bəhrələndiyinə görə sinifdə bir mövzunun məlumat bankı yarana bilər. Mövzu üzrə məlumat o qədər çox ola bilər ki, seçim bolluğu yaranar.

O zaman belə sual ortaya çıxa bilər ki, yeni bilik haradan gəlir? Müəllim onu təchiz etmir, uşaqlara göstəriş verir. Şagird öz bilik və təcrübəsinə əsaslanaraq ətraf aləm haqqında yeni məlumatlar kəşf edir. Hesab edirik ki, şagirdlərin müxtəlif məlumat və təcrübələri müqayisə etdikdən sonra kəşf etdikləri yeni biliklər müəllimin fəallığını artırır. Prosesdə bir az neqativlik öyrənmə prosesini poza bilər. Bilik həmişə yaradıcı fəaliyyətin nəticəsi kimi çıxış edir. Buna görə də passiv şəkildə ötürülə bilməz.

Müasir dünya psixoloqları belə nəticəyə gəliblər ki, intellektin əsası uşağın körpə yaşlarından mənimsədiyi ana dilinin sintaksisidir. Ana dilinin sözləri, onların cümlə daxilindəki əlaqələri, qrammatik qanunların doğmalığı, bu qaydaların məntiqi haqqında şagirdin düşünməyə başlaması intellektin bünövrəsini qoyan amillərdəndir. "İntellekt" latın mənşəli sözdür. Mənası "idrak", düşüncə", "anlayış"deməkdir. Cisim və hadisələr arasındakı əlaqələrin dərk olunması, insanın davranışında şəraitin tələbinə uyğun şəkildə onu dəyişdirmək qabiliyyətidir ki, bu da müasir təhsilin ən mühüm vəzifəsidir (4, 5).

İntellekt qabiliyyətlərini inkişaf etdirmək üçün hər bir elm sahəsi öz imkanlarından istifadə edir. Bir qrup alimlər həmin qabiliyyətlərin inkişafını riyazi, həndəsi fiqurlar, əyləncəli və məntiqi məsələlərin həllində, digər qrup alimlər isə təbiətin sirlərini öyrənməkdə, bədii ədəbiyyatın rolunda görürlər.

İntellektin rüşeymləri, sağlam toxumları istedadla yazılmış ədəbiyyat nümunələrinin dərin qatlarındadır. Ədəbi əsərin estetik keyfiyyətlərini yalnız ana südü ilə müqayisə etmək olar. Ondan bəhrələnməyən uşaq sonralar hansı elm sahəsinə düşürsə düşsün, ya pis sənətkar, ya da cəmiyyət üçün yararsız adam olacaq. Buna görə də oxu dərsləri uşaqlarda bədii əsərin ləzzətini duymaq qabiliyyəti yaratmalıdır.

Bədii əsərin tədrisi prosesində əsas məsələ şagirdlərin qəlbində "niyə?", "nə üçün?" kimi suallar yaratmaq bacarığıdır.

Alimlər bu fikirdədir ki, bu gün məktəb elmi biliklərin sürətlə qavranılması, məqsədyönlü bacarıqların yaranması üçün meydan olmalıdır. Şagirdlərin məntiqi təfəkkürünün inkişafı, intellektlərinin genişlənməsi başqa fənlərlə birlikdə ana dili tədrisinin də üzərinə düşür. İntellektin inkişafı gələcək texnologiyaların inkişafıdır. Təfəkkür və düşüncə uşaqların təhsildə daha böyük nailiyyətlər əldə etməsinə kömək edir.

Təkcə "Azərbaycan dili" dərslərinin tədrisi prosesində deyil, bütövlükdə təhsil sistemində intellektin, beyin fəaliyyətinin və çevikliyin inkişafı nəzərə alınmalıdır. Biz hər gün uşaqların zeninə təsir edən bədii əsərlər vasitəsilə intellektini inkişaf etdirməli, bütün dərslərimizi onların düşüncə tərzinə uyğun oyunlar şəklində qurmalıyıq.

İntellektin çevikliyi şagirdlərin əldə etməli olduğu ən mühüm bacarıqlardan biridir. Danışanın fikrinin alt qatında gizlənən mənanı tez dərk etmək bacarığına yiyələnmək üçün şagirdlərə müxtəlif növ tapşırıqlar vermək olar. Bu tapşırıqlar ən sadə, elementar nümunələrdən başlamış şagirdin yaşına uyğun gələn mürəkkəb tapşırıqlara qədər yüksələ bilər. Təfəkkür çevikliyinin inkişaf etdirilməsi müasir təhsilin qarşısında duran vəzifələrdəndir. Şagird hər hansı sualın cavabını mümkün qədər tez vermək bacarığına yiyələnməlidir. Bu bacarıq xüsusi məşq tələb edən oyunlar vasitəsilə mənimsənilir. Bütün sinfə uzun bir söz verilir. Məsələn, "Azərbaycanşünaslıq". Bu sözdən istifadə edərək yeni sözlər yazılması tələb olunur. Kənar hərflərdən istifadə etmək olmaz. Həmçinin sözdə cəmi bir "Ə" hərfi varsa, yeni yaranan sözdə iki "Ə" ola bilməz. Bu şərtləri nəzərə almaqla uşaqlar yarışa başlayırlar. Məqsəd söz ehtiyatının nə qədər zəngin olduğunu yoxlamaqdan ibarətdir. Uşaqlar yazdıqlarını oxuyanda bir-birini zənginləşdirir, leksikonunda olmayan yeni sözləri öyrənirlər.

Təfəkkürü fəallaşdıran dil üzrə suallar, fakt və hadisələri keçilən dərsləri yada salmağa xidmət göstərmir. O daimi inkişafda olan intellektə yeni impuls verir, onu daha da fəallaşdırır, şagird təfəkkürünü alovlandırır. Müasir təhsilin yolu budur. Lakin sualları heç də həmişə müəllim vermir. Şagirdin müəllimə, şagirdin şagirdə ünvanladığı suallar da eyni dərəcədə maraqlı olmalıdır. Oxu dərslərində bu intellektlərin hər birinə qida verəcək imkanlar vardır. Fəal təlim texnologiyalarının əsas üstünlüklərindən biri tədris prosesində həmin qabiliyyətləri nəzərdə tutmaqdır. Müəllim sinifdə eyni intellekt maraqları olan şagirdləri qruplaşdırmağı bacarmalıdır. Hər bir şagird özünün intellekt qrupunda daha xoşbəxt olur. Həm də öz qabiliyyətlərini inkişaf etdirmək imkanları qazanır.

"Azərbaycan dili" fənninin pedaqoji və metodik problemlərin araşdırılması müasir təhsilimizin çox mühüm vəzifələrindən biridir. Bu isə mövzunun nə qədər aktual olduğu haqqında tam təsəvvür yaradır.

Nəticə. Dil təfəkkürlə bilavasitə bağlı olub onunla birgə fəaliyyət göstərir. Həmçinin dil özünün əvəzolunmaz vahidləri ilə uşaqların intellekinin inkişafında bir vasitə kimi rol oynamaqla onu hərəkətə gətirərək inkişaf etdirir, zənginləşdirir. Bu mənada Azərbaycan dilinin təlimi prosesində onun şagird intellektinin inkişafındakı roluna istinad edilməli, digər fənlərlə əlaqəsi nəzərə alınmalıdır.

Şagird qəlbində intellektin ilk rüşeymi olan "niyə?", "nə üçün?", "başqa cür ola bilərdimi?" kimi sualların yaranması üçün istedadla yazılmış əsərlərin dərin qatlarında gizlənən fikirlərin üzə çıxarılması da Azərbaycan dili tədrisi zamanı şagird qəlbində yaranan həmin suallar onları mütaliə zamanı daha ayıq olmağa və məntiqlə düşünməyə sövq edir. Şagird düşüncəsində yaranan ilk suallar kimi onların yaddaşına ömürlük həkk

Ədəbiyyat siyahısı:

1. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətlər. "Kurikulum islahatı: tədqiqatlar nəticələr / Nəşrə haz.: Abbasov Ə. Cavadov İ./ Bakı: Mütərcim, 2011
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni ezrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015
3. Novruzov Q., Abbasov Ə. Ənənəvi təhsildən "düşüncə və təfəkkür məktəbi"nə doğru, "Azərbaycan məktəbi" jurnalı, 2014, №3, səh. 9-18
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, Pedaqogika, 2004.
5. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı. 2006.

Açar sözlər: intellektuallığın inkişafı, təfəkkür, şagird inkişafı, yeni metodika, elmi biliklər
Key words: development of intelligence, thinking, student development, new methodology, scientific knowledge
Ключевые слова: развитие интеллекта, мышление, развитие учащихся, новая методика, научное знание

Xülasə

Məqalədə ilkin olaraq intellektual qabiliyyətlərin inkişafını ön plana çəkən hazırki təhsil islahatı tədbirlərindən danışılır. Onun əsas istiqamətlərindən biri olan kurikulumların meydana gəlməsindən bəhs olunur. Həmçinin bu kurikulumların şagird intellektinin inkişafında mühüm rol oynadığı qeyd olunur. Bir fənn olaraq Azərbaycan dili təliminin şagirdlərin intellektual qabiliyyətlərinin inkişafi baxımından imkanları araşdırılır. Azərbaycan dili kurikulumunun bu baxımdan geniş imkanlara malik olması vurğulanır.

Məqalədə həmçinin şagirdlərin intellektual qabiliyyətlərinin inkişafı baxımından Azərbaycan dili təlimi prosesinin mövcud imkanları təhlil edilir. Bu zaman biliklərin kəşf olunması, bunun üçün şagirdlərin axtarışlara istiqamətləndirilməsinin xüsusi əhəmiyyət daşıdığı göstərilir. Ana dilinin sintaksisinin intellektual əsaslı olması, dilə dair sual, fakt və hadisələrin onun inkişafina təsir göstərməsi qeyd edilir.

Summary

The article initially refers to the current education reform measures that prioritize the development of intellectual abilities. One of its main directions is the creation of a curriculum. It is also noted that these curricula play an important role in the development of the intellect of students. As a subject, the possibilities of teaching the Azerbaijani language are studied from the point of view of developing the intellectual abilities of students. It is emphasized that the curriculum of the Azerbaijani language has ample opportunities in this regard.

The article also analyzes the modern possibilities of the process of teaching the Azerbaijani language from the point of view of developing the intellectual abilities of students. At this time, it is shown that the discovery of knowledge and the guidance of students in their search is of particular importance. It is noted that the syntax of the native language has an intellectual basis, that questions, facts and events related to the language affect its development.

Резюме

В статье изначально говорится о текущих мерах по реформе образования, которые отдают приоритет развитию интеллектуальных способностей. Одним из основных его направлений является создание курикулума. Также отмечается, что данные учебные программы играют важную роль в развитии интеллекта учащихся. В качестве предмета исследуются возможности обучения азербайджанскому языку с точки зрения развития интеллектуальных способностей учащихся. Подчеркивается, что учебная программа азербайджанского языка имеет в этом плане широкие возможности.

В статье также анализируются современные возможности процесса обучения азербайджанскому языку с точки зрения развития интеллектуальных способностей учащихся. В это время показано, что особое значение имеет открытие знаний и руководство учащимися к их поиску. Отмечается, что синтаксис родного языка имеет интеллектуальную основу, что вопросы, факты и события, связанные с языком, влияют на его развитие..

RƏYÇİ: dos.L.Ələkbərova

Yeganə Musa qızı Qaraşova[100]

İNGİLİS DİLİNDƏ MODAL FEİLLƏRİN TARİXİ-NƏZƏRİ ASPEKTLƏRİ

Modallıq dilin ünsiyyət vasitəsi kimi təyin edilməsi ilə əlaqədar yaranmış qrammatik vasitələri əhatə edir və bildirilən fikrin əlçatanlığını və effektivliyini təmin edir. İngilis dilində hərəkətləri ifadə etməyən, yalnız danışan tərəfindən onlara münasibət bildirən bir qrup feil var. Onlara modal feillər deyilir. Onların köməyi ilə danışan bu və ya digər hərəkətin mümkün və ya qeyri-mümkün, məcburi və ya lazımsız olduğunu və s. bildirir.

Bəzi tədqiqatçılar hesab edirlər ki, model feillər yalnız müəyyən funksiyaları və mənaları olan bir növ feildir, buna görə də onlar ayrı bir qrup təşkil etmirlər. Əksər elm adamları hesab edirlər ki, bu, danışanın ifadəyə münasibətini ifadə edən ayrıca feil qrupudur. Bu qrup feilləri ayrıca bir sistemə ayırmaq olar, çünki onların məna və funksiyaları digər feillərin funksiya və mənalarından fərqlidir. "Modal feillərin əhəmiyyəti və rolu, eləcə də ingilis dilindən Azərbaycan dilinə tərcümədə ifadə imkanlarının araşdırılması da mövzunun aktuallığına dəlalət edir" [3, s. 4].

İngilis dilində modal feillər modallığı, yəni feil-predikatın hərəkətinin reallıqla əlaqəsini ifadə edən vasitələrdən biridir. Modallıq feil hallarının sintetik və analitik formaları ilə ifadə olunan bütün məna və çalarlarla çatdırılır. Yaxud başqa sözlə desək, modallıq (modalis - modal və modus - yol, ölçü sözlərindən) ifadənin reallığa müxtəlif növ münasibətini ifadə edən funksional-semantik kateqoriyadır. Eləcə də subyektiv kvalifikasiyanın müxtəlif növlərini bildirirlər. Təbii dilin əsas kateqoriyalarına aid olan linqvistik universaldır. Modallıq termini dil strukturunun müxtəlif səviyyələrində semantik həcminə, qrammatik xüsusiyyətlərinə və formallaşma dərəcəsinə görə geniş spektrli hadisələri ifadə etmək üçün istifadə olunur. Modal feillər onun aktuallaşma vasitələrindən biridir. İngilis dilində modal feillər bunlardır: *can, may, must, ought to, shall, should, will \would, dare, need.* Modal feillər də bəzi işlənmə hallarında *to be* və *to have* feillərinin şəxsi və şəxssiz formalarıdır. Bu, semantik və qrammatik (morfoloji və sintaktik) xüsusiyyətlərinə görə bir-birindən fərqlənən kiçik funksiyalı sözlər qrupudur. Semantik baxımdan modal feillər nə hərəkəti, nə də vəziyyəti bildirmir, adi feillərdən fərqli olaraq, mümkün, ehtimal, zərurət, təəccüb, şübhə, məqsədəuyğunluq, arzuolunanlıq və müxtəlif duyğuların mücərrəd modal mənalarını ifadə edir. Bu mənalar modal feildən sonra gələn müntəzəm feilin məsdəri ilə ifadə olunur. Məsdər *to* hissəciyi olmadan işlənir (*ought to* feili və *to be to, to have* modal feillərinin ekvivalentləri istisna olmaqla).

Sintaktik cəhətdən modal feillər cümlədəki roluna görə köməkçidir və heç vaxt cümlənin müstəqil üzvü kimi işlənmirlər. Onlar məsdərlə birləşir və onunla birlikdə mürəkkəb modal predikat əmələ gətirir.

Modal feillər digər feillərə xas olan bir sıra formalara malikdir:

- onların şəxssiz formaları yoxdur;
- onlarda üçüncü tək şəxsin sonluğu yoxdur;
- modal feillərin əksəriyyəti birdən çox məna daşıyır və müxtəlif modallıq çalarlarını ifadə edir.

Dillər daim dəyişkən olduğu üçün tarixi dövrlərə bölmək çox çətindir. Ümumiyyətlə, dil tarixçiləri ingilis dilinin tarixi, dilin formalaşmasını üç əsas mərhələyə bölürlər [8, s. 186]:

1. Qədim ingilis dili dövrü (450-1150-ci illər);
2. Orta ingilis dili dövrü (1150-1500-cü illər);
3. Müasir ingilis dili dövrü (1500- çağdaş dövr).

Hər dövrün sözlərdə özünəməxsus fonetik və qrammatik dəyişiklikləri olmuşdur. Qədim ingilis dili dövrü: İlkin mərhələdə modal feil anlayışı hələ mövcud deyildi. O zamanlar onlara preterite-present feil deyilirdi. Cəmi 12 idi. Bunlara *willan, cunnan, mægan, mōtan, āgan, sculan, meahte, nēādian, durran, geneah, munan, unnan* kimi feillər daxildir. "Qədim ingilis dilini başa düşmək olduqca çətin idi. İngilis dilinin bu qədim formasında yazı nümunələri yalnız bəzi ekspertlər tərəfindən oxuna bilir. Bu dövrdən bir neçə yazı nümunəsi qalıb" [2]. Bu gün runik əlifba ilə yazılmış Qədim ingilis dilini başa düşmək mümkün deyil. Bununla belə, bəzi Qədim ingilis sözləri bu gün müasir ekvivalentlərinə çox yaxındır. Qədim ingilis dili müasir ingilis dilinin təməlini təşkil edir. "Qədim ingilis dilinin qalıqlarına müasir ingilis dilinin dialektlərində rast gəlmək mümkünür" [7, s. 3].

Orta əsr ingilis dilində ən mühüm inkişaf bu dövrdə standart yazı dilinə tədricən keçid idi. Dövrün əvvəlində standart ingilis dili yox idi. İnsanlar öz tələffüzünə uyğun olaraq öz ləhcəsində yazırdılar. Orta ingilis dili dövründə preterite-present feillər sistemində aşağıdakı dəyişikliklər baş verdi:

1. Bəzi feillərin səs forması dəyişmişdir.
2. Bəzi feillərin mənası dəyişmişdir.

Orta ingilis dili dövründə dilin fonetik sistemindəki ümumi dəyişikliklərlə əlaqədar olaraq preterite-present feilləri öz səs formasını dəyişdi. Müasir ingilis dili dövründə bəzi preterite-present feillər yoxa çıxdı. Bu dövrə qədər qalmış feillər köhnə formalarının bir qismini və qrammatik fərqlərini itirmiş, lakin özünəməxsus xüsusiyyətlərini saxlamışdır. Qrammatik cəhətdən preterite-present feillərin məsdər və keçmiş zamanı var idi. Məsələn, Orta ingilis dili dövrünün sonunda cunnen feili öz formasını itirmiş və Müasir ingilis dili dövründə indiki zamanın tək forması can istifadə edilmişdir. Lakin can feilinin modal mənası daha genişdir. *May* və *must* feillərinin mənasını qismən əvəz edir. *May* modal feilinə gəlincə, Müasir ingilis dili dövründə o, məsdər və iştirakçı kimi qrammatik formaları itirmişdir. İndiki zamanda may, keçmişdə isə *might* forması var. *Shall* modal feili köhnə formalarının çoxunu itirmişdir.

---

[100] Filologiya üzrə fəlsəfə doktoru. Bakı Dövlət Universiteti. yegana_qrshv1287@mail.ru

Müasir ingilis dili dövründə feillər aşağıdakı dəyişikliyə uğradı:

- ingilis qaydasız feillərinin nizamlanması;
- birinci şəxsdə gələcək zamanı işarələmək üçün "*shall*"ın aradan qaldırılması;
- "*have*" feili üçün *do* köməkçi feilinin istiadəsi;
- *"wanna", "gonna", "gotta"* köməkçi feillərinin işlənməsi;
- ingilis dilinin feillərinin müəyyən indiki və keçmiş zaman formalarında istifadəsi [6, s. 18-19].

Müasir ingilis dili dövründə feil indiki zaman təkindən başqa bütün formalarını itirməlidir. O, həm də mənasını mümkündən məcburiyyətə dəyişdi. Qədim ingiliscə yeni modal feillər əmələ gəlmiş və inkişaf dövrü ilə birlikdə *have to must* mənasını dəyişmişdir. Mənşəcə daha bir preterit-present feili olan *dare*, inkişaf mərhələsi ilə özünün əsas xüsusiyyətlərini və modal feilin əksəriyyətini itirmişdir. Yeni İngilis dili dövründə 3-cü şəxsin təkində -s sonluğu ilə işlənir və bütün feillər kimi keçmiş zamanda *-ed* sonluğu ilə adi formaya malikdir. Qədim ingilis dilindəki *willan* feili, mənşəcə qabaqcadan indiki feil olmayan, modal feillərlə semantik və funksional oxşarlığına görə modallıq xassələri qazanır. Yuxarıda deyilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, modal feillərin inkişaf dövrləri çox müxtəlif və mürəkkəbdir.

Qədim ingilis dili feillərinin morfoloji təsnifi [1, s. 135]

Güclü	Zəif	Qeyri-vacib feillər
Müxtəlif keçidli yeddi sinif	Müxtəlif kök suffiksli üç sinif	Preterit-presens Suppletiv Anoma

Dilin inkişafının hər bir dövründə bu kiçik feil qrupu həm fonetika, həm də qrammatika baxımından əhəmiyyətli dəyişikliklərə məruz qalır. İnkişaf zamanı preterite-present feillərin bəziləri itdi, qalanları ya mənasını dəyişdi, ya da sabit qaldı. Fonetika baxımından bu qrup feillər böyük dəyişikliklərə məruz qalmışdır. Qədim ingilis dilinin preterite-present feillərini onların əmələ gətirdiyi feillərlə müqayisə etsək, onların arasında oxşarlıqları görmək çox çətin olacaq. Modal feilin inkişafı dilin inkişafının hər dövründə çox mürəkkəbdir. Müasir ingilis dili dövrünün əvvəllərində semantik və funksional xüsusiyyətlərinə görə preterite-present feilləri modal adlandırılmağa başladı.

Alimlərin modal feillərin tərifinə müxtəlif yanaşmalarını öyrənərək belə nəticəyə gəlmək olar ki, onların əsas xüsusiyyəti aşağıdakı kimidir:

1. Semantik aspekt. Semantika nöqteyi-nəzərindən modal feillər iradə və ya insan istəklərinin funksiyasını ifadə edir.

2) Qrammatik aspekt. Qrammatik cəhətdən modal feillərin öz forma və quruluşu var. Onlar 3-cü şəxsin təkində *-s* sonluğu olmadan işlənir. Onların da keçmiş zaman forması yoxdur. Bu, feillərin özünün inkişafının nəticəsidir. Amma hər yerdə olduğu kimi burada da istisnalar var. Başqa feillərdən məna və funksiyasından başqa heç bir cəhəti ilə fərqlənməyən iki modal feil var. *Dare, need, ought* modal feilləri *to* hissəciyi ilə işlənir. Belə dare və need feilləri 3-cü şəxsin təkində *-s* sonluğu ilə işlənir.

İngilis dilinin inkişafının müxtəlif dövrlərində modal feillərdə müxtəlif fonetik və qrammatik dəyişikliklər baş vermişdir. Fonetik aspekt baxımından preterite-present feillər böyük fonetik mənalar keçmişdir. Qədim ingilis feili *mægan* - orta ingiliscə öz inkişafı zamanı mowen formasını almışdır. Müasir ingilis dili dövrü sonluqların itirilməsi dövrü kimi qeyd olunur. Bu dövrdə indiki zaman may forması qorunub saxlanılmış, keçmiş may forması bu dövrdə *-e* sonunu itirərək might formasına çevrilmişdir. Qədim ingilis preterite-present verb sceal singular hal-hazırda orta ingiliscə öz inkişafı zamanı shal formasını almışdır.

Müasir ingilis dili dövründə indiki zaman forması sağ qalacaqdır. Keçmiş zamanın forması da fonetik cəhətdən dəyişmişdir. Qədim ingilis dilində *cūðe* keçmiş forması Orta ingilis dilinə couthe formasına keçdi. Orta ingilis dili dövründə *ð* samiti *th*-i əmələ gətirir. Müasir ingilis dili dövründə yalnız indiki zaman işlənir, keçmiş zaman isə dəyişdirilir. Nəticədə keçmiş zamanın yeni forması yarana bildi. Qədim ingilis feili *willan* öz inkişafı zamanı digər preterite-present feillərə nisbətən daha az fonetik dəyişikliklərə məruz qalmışdır. Qədim ingilis dili dövründə məsdər *willan*, indiki zamanda *wille*, keçmiş *wolde* şəklində idi. Orta ingilis dili dövründə onun forması praktiki olaraq dəyişmədi. İndiki zamanda *will* formasına sahib idi, keçmiş zamanda *wolde* formasını saxladı.

Müasir ingilis dili dövründə *owen* preterite-present feili bir sıra dəyişikliklərdən keçdi. Preterite-present feili *mōt* ən az fonetik dəyişikliyə məruz qalmışdır. Orta ingilis dili dövründə kökdə sait uzunluğunu itirmiş və bu dövrdə Qədim ingilis dili dövründə olduğu kimi eyni formalara sahib olmuşdur. İndiki zamanda *mot*, keçmiş zamanda - *moste* formasına malik idi. Orta ingilis dili dövrü bəzi preterite-present feillərin yoxa çıxması, bəzilərinin dəyişdirilməsi, bəzilərinin praktiki olaraq dəyişməz qalması ilə əlamətdardır. Ən əhəmiyyətli fonetik dəyişikliklər orta əsrlər inkişaf dövrünün sonunda baş verdi. Müasir ingilis dilinin başlanğıcında ən vacib fonetik dəyişiklik sonluqların itirilməsi idi.

Modal feillər məna və funksionallıq dəyişikliyi kimi qrammatik terminlərdə ən böyük dəyişikliklərə məruz qalmışdır. Müasir ingilis dili dövrünə qədər *mægan* preterite-present feili məsdər, indiki cəm və iştirakçı kimi bəzi qrammatik formalarını itirmişdi. Müasir qrammatikada may modal feili də bütün modal feillərin xüsusi funksiyasını saxlamışdır. Ondan sonra məsdər to hissəciksiz işlənir; ümumi sual qurarkən do köməkçi feili tələb olunmur. "Modal feillər başqa feillərdən təkcə məna baxımından deyil, həm də qrammatik formalar sisteminə görə fərqlənir. Modal feillər əskik, qüsurlu feillərdir. Onlarda digər feillərin malik olduğu bir sıra qrammatik formalar yoxdur" [4, s. 6].

Müasir qrammatikada can modal feilindən sonra *to* hissəciyi olmayan sadə məsdər bu şəkildə işlənir. Ümumi sual qurarkən *do* köməkçi feili də tələb olunmur. Müasir ingilis dilində could forması nəzakətli xahişi ifadə etmək üçün istifadə olunur və həm keçmiş zamanda, həm də indiki zamanda istifadə edilə bilər. Qədim ingiliscə *willan* feili o dövrdə əvvəldən indiki feil deyildi. Müasir ingilis dili dövrünün əvvəlində modallığını aldı. Onun qrammatik xüsusiyyətlərinə gəlincə, onlar preterite-present feillərin xüsusiyyətlərinə bənzəyirdi. Ondan sonra to hissəciyi olmayan sadə məsdər də işlədilirdi.

Orta ingilis dili dövründə də qrammatik xüsusiyyətlərini və funksiyalarını itirmir. Ondan sonra məsdər *to* hissəciyi olmadan istifadə olunur. Müasir ingilis dili dövrünün əvvəlində modal feilə çevrilir. Bütün modal feillər kimi, ümumi sual qurarkən o da *do* köməkçi feili tələb etmir. Müasir qrammatikada *will* modal feili həm də gələcək zamanın yaranmasına xidmət edir. İndiki vaxtda modal feildən daha çox gələcək zaman yaratmaq üçün istifadə olunur. İngilis dilinin inkişafının müxtəlif dövrlərində preterite-present feilin qrammatik xüsusiyyətlərini və modallığını dəyişməmişdir. Qədim ingilis dili dövründə o, mənalarından birində - *to have to* istifadə edilmişdir. Orta ingilis dili dövründə o, hələ də modal xüsusiyyətlərini özündə saxlayır, öhdəlik mənasını geridə qoyur.

Orta ingiliscə dövrünün sonuna doğru bacarmaq mənası yox olur. Qədim ingilis dili ilə müasir ingilis dili arasındakı mühüm fərq Qədim ingilis dilində feilin cümlənin əvvəlində gəlməsidir. Qədim ingilis dili dialekt baxımından müasir ingilis dilindən çox fərqlidir. Leksik və qrammatik sistemin əsaslı şəkildə yenidən nəzərdən keçirilməsi ilə müasir ingilis dili qrammatika baxımından daha sadə bir dilə çevrildi.

Modal feillərin əsas fərqləndirici xüsusiyyəti onların cümlə və suallarda işlənməsidir. Onlardan sonra məsdər to hissəciyi olmadan işlənir; ümumi sual qurarkən do köməkçi feili tələb olunmur (*dare, need, ought* feilləri istisna olmaqla). Bəzi feillər praktiki olaraq qrammatik və fonetik quruluşlarını dəyişməmişdir. İngilis dilinin inkişafının hər bir mərhələsində modal feillər funksional mənaları ilə yanaşı bir sıra dəyişikliklərə də məruz qalmışdır. Aparılan təhlillərə əsasən demək olar ki, modal feillərin digər feillərdən fərqli xüsusiyyətləri və funksiyaları vardır. Onların əsas xassələrindən biri də 3-cü şəxsin təkində -s sonunun olmamasıdır (*dare, need* feilləri istisna olmaqla).

Modal feillərin əsas xüsusiyyəti danışanın ifadəyə münasibətini göstərməkdir. Funksionallıq baxımından iradə və ya insan istəyini ifadə edirlər. "Modal feillər, digər feillərdən fərqli olaraq, hərəkəti bildirmir (getmək, oxumaq, öyrənmək), bu hərəkətlərə münasibət göstərir (getməliyəm, oxuya bilərəm, oxumalıyam) " [5]. Fonetika baxımından modal feillər ingilis dilinin inkişafi ilə bağlı bir sıra dəyişikliklərə məruz qalmışdır. Bəzi feillər fonetik formasını demək olar ki, tamamilə, bəziləri qismən və ya praktiki olaraq dəyişməmişdir. Modal feillər sisteminə gəlincə, o, ilkin olaraq preterite-present feillər sistemi kimi mövcud olmuş, ingilis dilinin inkişaf dövrləri ilə bu gün mövcud olan modal feillər sisteminə çevrilmişdir.

Şübhəsiz ki, bu gün danışılan ingilis dilində *"should", "could"* və s. kimi sözlər ayrıca bir kateqoriya, daha doğrusu, adi ingilis feillərindən sintaktik cəhətdən fərqlənməyən 'modal' altkateqoriya təşkil edir. Bu gün modal və ya modal köməkçilər kimi təsnif etdiyimiz sözlər Qədim ingilis dilində hələ də tam feil idi və bəzən Orta və Müasir ingilis dillərində də eyni şəkildə istifadə olunur. Məsələn, *"will/would"* və *"shall/should"* modalları *"willan"* və *"scullan"* feillərindən əmələ gəlir.

Feilin kateqorik funksiyası onun işlənmə nümunələri ilə müəyyən edilir. Modal birləşdiricilərin həm şifahi, həm də nominal predikat əmələ gətirmə qabiliyyəti, modal feillərlə bir tərəfdən müəyyən məna, morfoloji və funksional ümumiliyin olması, digər tərəfdən bağlayıcı feillər formullaşdırmağa imkan verir. Modal bağlayıcıların mənası, bəzi hallarda praqmatik kontekst səviyyəsinə çıxış yolu ilə predikatın mənasından və cümlənin mənasından birbaşa asılı olaraq şərh edilməlidir. Modallıq anlayışı müxtəlif elmlərin, xüsusən də dilçiliyin istifadə etdiyi mühüm kateqoriyadır. Bu anlayış hadisələrin, onların xassələrinin və əlaqələrinin çox geniş spektrini əhatə edir.

Modallığın linqvistik kateqoriyasının aydın konseptual formalaşdırılmasının olmaması, linqvistik və məntiqi modallıqların qarışması, Müasir ingilis dilində qeyri-real modallığı ifadə edən müxtəlif vasitələrin işləməsi və əlaqələri problemi haqqında biliklərin olmaması bu linqvistikanın daha da öyrənilməsini zəruri edir. Cümlədəki roluna görə modal feillər köməkçidir. Onlar semantik feilin ifadə etdiyi hərəkətin mümkünlüyünü, qabiliyyətini, ehtimalını, yerinə yetirmək ehtiyacını bildirir. Onlar hərəkəti deyil, yalnız modal münasibəti ifadə etdikləri üçün heç vaxt cümlənin ayrıca üzvü kimi işlənmirlər. Modal feillər həmişə yalnız məsdərlə birləşir. ***Must, should-ought, will-would, can-could, may-might, need*** modal feilləri müxtəlif təklif çalarlarını ifadə edə bilir. Hər hansı bir kateqoriyanın linqvistik statusunu nəzərdən keçirərkən onun digər kateqoriyaların hansı sisteminə daxil olduğunu, hansı kateqoriyalarla təmasda olduğunu və qarşılıqlı əlaqədə olduğunu müəyyən etmək lazımdır.

Modallığın qapalı forması yoxdur. Onlar şəxs və ya aspektdə dəyişmir. İnkar cümlədə inkar modal feillərdən sonra gəlir. Modal feillər yalnız semantik feillərlə işlənir. Onlar işin mümkünlüyünü, öhdəliyini, ehtimalını və zəruriliyini bildirir. Məsələn:

You must do that.- Bunu etməlisən.

You may do that.- Sən bunu edə bilərsən.

Müasir ingilis dilində modallığı ifadə edən qrammatik və leksik vasitələr mövcuddur. ***Qrammatik vasitələr must, should, ought, will/would, can/could, may/might, need*** kimi modal feillərdir. Eyni zamanda, bu feillər ilkin mənalarını zəiflədir, arzuolunanlıq, məcburiyyət, zərurət və s. və bütövlükdə fərziyyənin məzmununa yalnız danışanın münasibətini çatdırır.

İSTİFADƏ OLUNUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Hüseynova R. Qədim ingilis dili dövründə keçmiş zamanin ifadəsi. Dil və ədəbiyyat. Language and literature. Язык и литература. Beynəlxalq elmi – nəzəri jurnal. 2 (110), Bakı, 2019
2. İngilis dilinin tarixi və günümüzdə ingilis dilinin önəmi. https://taim.edu.az/ingilis-dili-haqqinda
3. Qaraşova Y. İngilis dilində modal feillər və onların Azərbaycan dilində ifadə vasitəsi. Avtoreferat. Bakı, 2016.

Rus dilində

4. Лисицина Н. И. Грамматика английского языка модальные глаголы. Учебное пособие. Томск 2009
5. Модальные глаголы в английском языке. https://easyspeak.ru/blog/vsyo-o-grammatike/modalnye-glagoly-v-anglijskom-yazyke
İngilis dilində
6. Leech, Geoffrey; Hundt, Marianne; Mair, Christian; Smith, Nicholas (2009). Change in Contemporary English: A Grammatical Study. Cambridge University Press. pp. 18–19.
7. Shore, Thomas William (1906), Origin of the Anglo-Saxon Race - A Study of the Settlement of England and the Tribal Origin of the Old English People (1st ed.), London, pp. 3, 393
8. Yule, G. The Study of Language. Cambridge: CUP, 2006.

Açar sözlər: modal feillər, ingilis dilinin tarixi, Qədim ingilis dili dövrü, Orta ingilis dili dövrü, Müasir ingilis dili dövrü
Keywords: modal verbs, history of the English language, Old English period, Middle English period, Modern English period
Ключевые слова: модальные глаголы, история английского языка, древнеанглийский период, среднеанглийский период, новоанглийский период

HISTORICAL-THEORETICAL ASPECTS OF MODAL VERBS IN ENGLISH

Summary

Old English is dialectally very different from Modern English. An important difference between Old English and Modern English is that in Old English the verb comes at the beginning of the sentence. With a fundamental revision of the lexical and grammatical system, modern English has become a simpler language in grammar review.

The article provides short information about the stages of formation of the English language, modal verbs have been considered from a historical-theoretical point of view. Important features of Old English period, Middle English period, Modern English period are also reflected in the article.

ИСТОРИКО-ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ МОДАЛЬНЫХ ГЛАГОЛОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

Резюме

Древнеанглийский диалект сильно отличается от Современного английского языка. Важное различие между Древнеанглийским и Современным английским языком заключается в том, что в Древнеанглийском глагол стоит в начале предложения. С кардинальным пересмотром лексико-грамматического строя Современный английский язык стал более простым языком с точки зрения грамматики. В статье дана краткая информация об этапах становления английского языка, рассмотрены модальные глаголы с историко-теоретической точки зрения. В статье также отражены важные черты Древнеанглийского периода, Среднеанглийского периода, Новоанглийского периода.

RƏYÇİ: dos. E.Vəliyeva

Xatirə Əvəz qızı Qocayeva [101]

YAZI VƏ TƏLƏFFÜZ ARASINDA OLAN BƏZİ FƏRQLİLİK

İngilis dilinin yazı sistemində bəzi çaşdırıcı yazı formalarına rast gəlmək mümkündür. Səslərin və yazının əlaqəsini öyrənmək üçün bəzi məsələlərə fikir vermək lazımdır. Məsələlərdən biri bir və ya iki samitin işlədilməsilə bağlıdır. Məsələn, bəzi sözlər var ki, onlar samitlə qurtarır və samitdən əvvəl qısa sait gəlir və bu zaman son samit qoşalaşır: *sit, hop* və s. Bu sözlərə /-ing/ şəkilçisi artırdıqda son samit qoşalaşır: *sitting, hopping* və s.

Bu cür yazı qaydası uşaqları çaşdıra bilir. Məsələn, çox tələbənin (yaxud şagirdin) *siting, hoping* kimi yazmasına rast gəlmək mümkündür. D.Kristal təklif edir ki, bu cür problemlərlə üzləşməmək üçün yaxşı olar ki, ilk əvvəl tələbələrə uzun və qısa saitlər və ya ümumiyyətlə sait və samit səslər, onların xüsusiyyətləri öyrədilsin (1, s. 230). Uzun və qısa saitlər arasında fərqləri bilən tələbələr təbii ki, aşağıda verilmiş sözlərə şəkilçi artırıldığı zaman hansı yazı dəyişikliyinin olduğunu da biləcəkdir. Müqayisə edək:

SHORT (QISA)	LONG (UZUN)
Rob – robbing;	Hope – hoping
Stop –stopping	Cane –caning
Cut –cutting;	Shame –shaming
Set-setting;	Beat –beating
Bet-betting;	Mean – meaning və s.
Can-canning;	
Man-manning (müdafiə etmək; iştirak etmək) və s.;	

Sözün birdən çox hecası olanda və nitqdə son heca vurğulananda son hərf qoşalaşır. Məsələn:

Begin –beginning;
Occur-occurring;
Refer-referring;
Permit-permitting;
Patrol-patrolling;

Əgər son heca vurğulanmırsa, o zaman son hərflər qoşalaşmır. Məsələn:

Listen –listening;
Happen- happening;

Qeyd edək ki, Britaniya ingilis dilində bəzi sözlər var ki, bu qaydaya tabe olmur, yəni bu sözlərə şəkilçi artırıldıqda son hərflər qoşalaşır. Məsələn:

travel, travelling, travelled; cancel, cancelling, cancelled.

Əgər söz qoşa samitlə bitərsə (*-rt, -rn* və s.), o halda son hərf qoşalaşmır. Məsələn:

Start – starting, started; burn - burn, burned.

Son hərfdən əvvəl iki qoşa sait gələrsə, o zaman son hərf qoşalaşmır. Məsələn:

Remain – remaining, remained.

Sözlərin sonundakı /w/ və ya /y/ hərfləri qoşalaşmır: *play – playing, played; snow - snowing, snowed.*

Qeyd edək ki, ingilis dilinin yazı qaydalarında müşahidə edilən belə formalar çoxdur.

Bu qəbildən olan digər sözlər də var. Qaydaya tabe olmayan siyahını belə təqdim edə bilərik:

1) əgər feil qoşa samitlə bitirsə, o halda həmin sözdə uzun sait olsa belə, feil sonundakı hərf düşmür, olduğu kimi qalır. Məsələn: purr – purring (pırıltı); err-erring (səhv) və s.;

2) iki sait səsli sözlər qısa sait səslə tələffüz edilirsə, sonuncu samit qoşalaşmır. Məsələn: dread-dreading (qorxu);

3) L, m, g və bəzən p hərflərilə bitən feillərdə adətən sonuncu samit qoşalaşır. Bu proses çox zaman Britaniya ingilis dilində müşahidə edilir. Məsələn: cancel-cancelling (təxirə salmaq); program-programming (proqramlaşdırmaq); humbug-humbugging (aldatmaq); kidnap-kidnapping (zorla qaçırmaq) və s.

4) S hərfi ilə bitən sözlərdə iki formanın işlədilməsinə də rast gəlmək olur. Yəni s hərfi həm qoşalaşa bilir, həm də deyil. Məsələn: focus-focusing/focussing (diqqət cəmləşdirmək); bias-biassing/biasing (ayrıseçkilik) və s.

5) Bəzi feillərdə c hərfindən əvvəl sait gələrsə, o zaman şəkilçi artırılan zaman c+k+ şəkilçi şəklində yazılma müşahidə edilir. Məsələn: panic – panicking (təlaş);

İngilis dilinin yazı sistemi 1000 illərdir ki, inkişaf edən prosesin nəticəsində meydana gəlib (3, s. 90).

Bu prosesə əsasən lingvistik və sosial hadisələr təsir edib və edir. İngilis dilinin yazı sistemində ilk dəyişiklik Roma missionerləri tərəfindən olub. Onlar ingilis dilinin əlifbasına 23 hərf daxil edirlər. Lakin onların qəbul etdikləri əlifbada I, J, U, V hərbləri arasında heç bir fərq olmur. Həmin əlifbada W hərfi də olumur. Məlumat üçün qeyd edək ki, W hərfi ingilis dilinin əlifba sisteminə orta İngilis dili dövründə daxil edilir. Norman işğalından sonra fransızlar ingilis dilinin əlifbasına öz fikirlərini təlqin etməyə çalışdılar. Məsələn, qədim ingilis dilində işlədilən /cw/ birləşməsini fransızlar /qu/ birləşməsi ilə əvəz etdilər: queen. Müəyyən sözlərdə /H/ hərfini /gh/, /c/ hərfini /ch/ ilə əvəz etdilər. Məsələn: night, enough; church və s. /U/ hərfini bəzi sözlərdə /ou/ kimi işlətdilər: house; /e/ və /i/ sözlərindən əvvəl /c/ hərfi işlədildi: circle və cell sözlərini nümunə

[101] **Filologiya üzrə fəlsəfə doktoru. Azərbaycan Dillər Universiteti.** *khatira.qocayeva@mail.ru*

göstərmək olar. Fransızlar çox halda /u/ hərfini /o/ hərfi ilə əvəz edərək yazmağı üstün tuturdular. Məsələn: come, love, son, one kimi sözlər bu cür dəyisikliyə uğramış sözlərdəndir (2, s.78). XV əsərin başlanğıcında ingilis dilinin yazı sistemi iki sistemin qarışığı ilə işlədilirdi: qədim ingilis dili və fransız dili.

1476-cı ildə çap maşınlarının meydana çıxması ilə ingilis dilinin yazı sistemində daha çox dəyisiklik müşahidə edilməyə başlandı. V əsrin əvvəllərində sözlərin yazı qaydalarının çox yolları vardı. Həmin dövrdə U.Sakston öz nəsriyyat evi üçün standart yazı sistemi seçməli idi. O, əsasən London şəhərində işlədilən yazı və tələffüz formasını seçməyə üstünlük verdi. Elə həmin dövrdə də bir çox sözlərin tələffüzündə və yazı qaydalarında artıq stabillik müşahidə edildi və nəticədə "düzgün yazı sistemi" məfhumu formalaşdı (4, s. 110).

Qeyd edək ki, əgər həmin dönəmdə yazı sistemi qaydaya düşürdüsə, tələffüzdə müəyyən qeyri-stabillik müşahidə etmək mümkün idi. V əsrdə London danışığında səslər tarixdə ən böyük dəyişikliyini ehtiva edirdi. Həmin dönəmdə orta ingilis dilində 6 sait tamamilə dəyişmişdi. Məsələn, C.Çouserin dövründə name (ad) sözü /a:/ səsi ilə tələffüz olunurdu, calm sözündə olduğu kimi. Beşincə əsrdə "sait dəyişikliyi" yarandı və bununla da bəzi sözlərin tələffüzü hazırkı formasını aldı.

K səsi qədim ingilis dilində bəzi sözlərdə tələffüz edilsə də, məsələn, knee, know, knight və s., artıq beşincə əsrdə onların bu tərkibli sözlərdə tələffüz olunması dayandırıldı.

VI əsrdə yazıçılar arasında bəzi sözlərin yazılışında onların etimologiyasını əks etdirmək kimi bir istək vardı. Bu istəklə də bəzi sözlərin yazılışında yeni istiqamət yarandı. Məsələn, debt sözündə orta ingilis dilində b səsi yox idi. B hərfinin həmin sözü artırlması onun etimologiyası ilə əlaqəli idi. Bəzi insanlar arzu edirdilər ki, hamıya bu sözün Latın sözü olan debitum sözündən götürüldüyü bildirsinlər və bununla da həmin sözə b hərfini artırırlar. Oxşar olaraq, b hərfi doubt sözünə də artırılır. Bu söz də Latın sözü olan dubitare sözündən götürülüb. Yaxud g hərfi reign sözünə artırılır (mənşəyi regno) və s. İngilis dilinin lüğət tərkibində belə sözlər kifayət qədər vardır.

VI əsrin sonları və VII əsrin əvvəllərində ingilis dilinə fransız, Latın, yunan, ispan, italyan və portuqal dillərində çox sayda sözlər daxil olmağa başlayır (2, s.80). Həmin sözlərin bəzilərini təqdim edək (2, s. 211).

Latın və yunan dillərindən ingilis dilinə keçən sözlər:

Agile (çevik)	Alienate (Özgələşdirmək)
Anachronism (anaxronizm)	Anonymous (anonym)
Appropriate (uyğun)	Assassinate (sui-qəsd etmək)
Chaos (xaos)	Contradictory (ziddiyyətli)
emancipate (azad etmək)	Exact (dəqiq)
Immaturity (Yetişməmişlik)	Impersonal (Şəxsiyyətsiz)
Ulna (dirsək sümüyü)	Vacuum (Vakuum)

İtalyan dilindən ingilis dilinə keçən sözlər:

Alloy (ərinti); Anatomy (Anatomiya); Battery (Batareya); Bayonet (Süngü); Chocolate (şokolad); Colonel (polkovnik); Comrade (yodaş); Detail (təfərrüat); Passport (passport); Pioneer (pioneer) və s.

Digər dillərdən ingilis dilinə keçən sözlər:

Bazaar (fars) (bazar), caravan (fars) (karvan), coffee (türk) (qəhvə), cruise (holland) (kruiz), easel (holland) (molbert), harem (ərəb) (hərəm), keelhaul (holland) (cəzalandırmaq), kiosk (türk) (köşk), knapsack (holland) (çanta), landscape (holland) (mənzərə), sago (Malay) (manqo) və s.

Müasir dövrdə internetə aid olan ən əsas xüsusiyyətlərdən biri hazırda ona məxsus olan leksikonun yaranmasıdır. Bu cür terminlər internetdən istifadə etməyə imkan verən və ekranda görünən proqram təminatı ilə əlaqələndirilir. Yaradılan bəzi terminlər artıq dildə çox tez-tez istifadə olunur. Məsələn: *file* (fayl), *edit* (redaktə etmək), *insert* (yerləşdirmək), *paste* (yapışdırmaq), *format* (format), *tools* (alət), *window* (pəncərə), *toolbars* (alət panelləri) və s.

D.Kristal yazır ki, artıq internet neologizmləri yaranır (1, s. 11) və bununla da yeni isimlərin yaranması müşahidə edilir. Məsələn: *mouseclick, mousepad, mouseover, click-and-buy, one-click, cost-per-click, double-click;* internet frazeoloji feilləri məsələn: *mouse across, mouse over* və s.

İnternet dilində hakerlərin istifadə etdiyi və yeni yaranan məzhəkəli jarqonlara da çox rast gəlmək olur. Bu terminlərin işlədilməsində leksik şəkilçilər çox vaxt çoxaldılır. Həmin şəkilçilərin bəziləri bunlardır: /-ity/ – *dubious* (şübhəli) - dubiosity, *obvious* (aşkar) – obviosity, *brief* (qısa) – brevity; /-itude/ – *winnitude, hackitude, geekitude*; /-full/ – *folderfull, windowfull, screenfull, bufferfull;* /-ification/ – *hackification, geekification* və s. (6, s. 27)

İnternet dilində müxtəlif abbreviaturaların da işlədilməsinə rast gəlmək olur. Məsələn: *BBS* (bulletin board system) (bülleten lövhə sistemi), *BBC* (blind carbon copy) (kor karbon surəti), *DNS* (domain name system) (domen ad sistemi), *FAQ* (frequently asked question) (tez-tez verilən sual), *URL* (uniform resource locator) (vahid resurs lokatoru) və s. (5, s. 88)

İnternet dilində diqqəti cəlb edən məsələlərdən biri də yazı üslubudur. N. Maynor yazır ki, internet dilində daha çox kiçik hərflə yazma üslubuna üstünlük verilir, yəni böyük hərflə yazmaqdansa, artıq kiçik hərflərlə yazılan üsluba rast gəlirik (3, s. 54). Məsələn: /amir are you going to paris soon// (Amir, are you going to Paris soon?) (Əmir, sən tezliklə Parisə gedəcəksən?)

İndi isə internet dilində durğu işarələrinin işlədilməsini nəzərdən keçirək. Məlumdur ki, durğu işarələrinin işlədilməsi yazıda xüsusi əhəmiyyət kəsb edir. Durğu işarələrinin düzgün yerdə işlədilməməsi cümlənin, yaxud mətnin mənasını tam dəyişə və fərqli nəticələrə gətirib çıxara bilir. Lakin internet dilində bunun əksini müşahidə etmək olur. Yəni, durğu işarələri internet yazı sistemində xüsusi şəkildə işlədilə bilir. Nümunələrə baxaq:

He has been reading_Magbeth_
He has been reading=Magbeth=
He has been reading / Macbeth /

Nümunələrin hər birində durğu işarələrinin işlədilməsi fərqli mənalar yaradır. Birinci nümunədə _ işarə altından xətt çəkmək anlamını verir; = işarəsi bərabərlik; / işarəsi isə növbəti mərhələyə keçmək anlamını verir.

Yuxarıda qeyd etdiyimiz kimi ingilis dilinin tarixi boyunca dilin lüğət tərkibinin zənginləşməsinə təsir edən aşağıdakı sözlər qrupu da mövcuddur: İngilis dilinə Latın dilindən keçən sözlərin sıyahısı [7, s. 175]:

Candle	şam
Canon	qanun
Cap	qapaq
Cedar	cökə
Cell	hüceyrə
Chalice	qədəh
Chest	sinə
Cleric	ruhani
Creed	məslək
Cucumber	xiyar
Demon	şeytan
Disciple	ardıcıl

İngilis dilinə skandinaviya təsiri də hiss olunurdu. İngilis dilinə skandinaviya təsiri ilə keçən bəzi sözlərin siyahısı [7, s. 17]:

Awkward	yöndəmsiz; bacarıqsız
Band	lenta; banda; orkestr
Bank	sahil
Birth	doğum
Brink	kənar
Bull	öküz
Call	çağırmaq
Clip	qayçılamaq
Crawl	sürünmək
Die	ölmək

İstifadə olunmuş ədəbiyyat

1. Crystal, D. (2002). Language and the Internet. – Cambridge: Cambridge University Press, – 272 p.
2. Crystal, D. (1988). The English Language. – Cambridge: Cambridge University Press, –300 p.
3. Maynor, N. (1999). The language of electronic mail: written speech? –Tuscaloosa: University of Alabama Press, –254 p.
4. Bryson, B. (1990). Mother Tongue: the English Language. – England: Penguin, – 270 p.
5. Burchfield, R. (1985). The English Language. – Oxford: Oxford University Press, 194 p.
6. Greenbaum, S. (1985). The English Language Today. – England: Pergamon Press, – 345 p.
7. Roger, L. (1987). The Shape of English: Structure and History. – UK: Routledge, –348 p.

Açar sözlər: yazı, tələffüz, fərq, ingilis dili, sait, samit, dil
Key words: spelling, pronunciation, difference, English, vowel, consonant, language
Ключевые слова: написание, произношение, разница, английский, гласный, согласный, язык

SOME DIFFERENCES BETWEEN SPELLING AND PRONUNCIATION

Summary

The article deals with some differences between spelling and pronunciation. The differences between writing and speech are necessary to be considered being important. Written language changes more slowly than spoken language. For this reason, written language is considered to be more archaic. Spoken language, on the other hand, is known to change often. According to some scientists, written language is considered to be more suitable for communication. In written speech, sentences are wide and voluminous, subordinate and non-subordinate clauses are often used. The kinds of pronunciation relating to different periods have been analyzed in the article as well.

НЕКОТОРЫЕ РАЗЛИЧИЯ МЕЖДУ НАПИСАНИЕМ И ПРОИЗНОШЕНИЕМ

Резюме

В статье рассматриваются некоторые различия между написанием и произношением. Различия между письмом и речью необходимо считать важными. Письменный язык меняется медленнее, чем разговорный. По этой причине письменный язык считается более архаичным. С другой стороны, разговорный язык, как известно, часто меняется. По мнению некоторых ученых, письменность считается более подходящей для общения. В письменной речи предложения широкие и объемные, часто используются придаточные и непридаточные предложения. В статье также проанализированы виды произношения, относящиеся к разным периодам.

Rəyçi: fil.e. d., prof. F.Cahangirov

Нурлана Ариф кызы Мамедова[102]

ДИМИНУТИВЫ В КОММУНИКАТИВНЫХ СИТУАЦИЯХ ВЫРАЖЕНИЯ «МАНИПУЛЯЦИИ, ЛАСКИ, СИМПАТИИ, СОЧУВСТВИЯ»

Как известно диминутивы могут играть не только роль обозначения малости, но и выражать определенные эмоции, причем диапазон этих эмоций будет различен для различных коммуникативных ситуаций. Английский язык является отражением моделирования ситуаций на когнитивном уровне. Он дает возможность влиять на массовое сознание, побуждать общество к действиям, формировать общественные ценности, отображает национальную картину мира и т.д. Все это может осуществляться на языковом уровне, с помощью диминутивов [2, с. 22].

Коммуникативными ситуациями называют такие, которые говорящий осуществляет в соответствии с целью, мотивами и задачами речевого общения. А также в соответствии с социальными и культурными нормами речевого поведения, принятыми в определенной социально-культурной среде и приближенной к реальности.

В современных лингвистических исследованиях важное место отводиться отводят психологической стороне коммуникативных процессов, в частности, употреблению специфических языковых средств, которыми являются диминутивы, в сочетании с контекстом. Данные языковые средства употребляются для осуществления определенного воздействия на адресата, для передачи определенных эмоций: явно или завуалировано. Рассмотрим некоторые коммуникативные ситуации и определим роль диминутивов в контексте этих ситуаций [2, с. 25].

Целью манипуляции является изменение мнения, поведения адресата. Психологические приемы, применяемые коммуникантами, в свою очередь, влияют на выбор конкретных языковых средств, в частности, диминутивов.

Типичным примером межличностного манипулирования является – общение между мужчиной и женщиной для получения личной выгоды. Однако важно не путать манипуляцию с флиртом. В коммуникативной ситуации флирта коммуникативная роль говорящего заключается, с одной стороны, в выявлении дружеской привязанности, сигнализируя собеседнику о том, что его/ее заметили, выделили среди других, а с другой стороны – в получении удовольствия, которое является прелюдией к более тесным отношениям, любовной игре. Коммуникативной ситуации межличностной манипуляции присущи идентичные поведенческие схемы, однако цель общения является отличной от коммуникативной ситуации флирта [3, с.15].

Во фрагменте сериала “Desperate Housewives”, продавщица Габи обращает внимание на мужчину, попавшего в ее отдел. Опытная женщина хочет поманипулировать им, и осуществить выгодную сделку. Обращаясь к мужчине, она снижает тон голоса и для усиления эффекта манипуляции использует невербальные средства: кокетливые жесты, выражение лица, прикосновения.

– Good morning. My name's Gabrielle. I'm a personal shopper here. Can I help you?
– No, no, no. I'm just trying to find the men's department. I need some socks.
– Oh, I can help you with that. May I? Oh, you're right. These ankles deserve... So much better.
– You think? I- I-I've always thought they were just average ankles.
– Average? They're exquisite. Ooh! Do you work out?
– I do a little mall walking, yes.
– Well, I don't say this to every man, but you've got the perfect ankles for cashmere. Let me show you a few pairs.

Далее она прибегает к тактике похвалы, применяя слова equisite, perfect ankles. После слов «Ooh! Do you work out? », мужчина также использует диминутив «I do a little mall walking, yes». В данной ситуации, каждый из коммуникантов манипулирует другим. Женщина расчитывает на выгодную продажу, а мужчина на комплименты со стороны дамы.

Участниками коммуникативной ситуации «ласка» чаще выступают мужчина и женщина. Например:

«Jamie Sullivan had leukemia…Jamie, sweet Jamie, was dying…My Jamie…”.

Отношения главных героев романа учеников Ландона Картера и Джейми Салливан, изначально были дружескими: В новогоднюю ночь Джейми и Лэндон идут в кафе, где они танцуют свой первый танец. Несколько недель спустя парень признается девушке, что влюблен в нее. К его удивлению, Джейми отвечает, что между ними ничего не может быть. Джейми сообщает ему, что она больна смертельной болезнью. Вместе с тем диминутив sweet Jamie также говорит об искренних чувствах Лэндона по отношению к девушке, его заботе, а притяжательное же местоимение в диминутиве my Jamie усиливает глубину эмоций адресанта [7, с.23]..

С помощью диминутива в коммуникативной ситуации «ласка» один из коммуникантов выражает свои чувства, чаще всего диминутив помогает при признании в любви.

“Dearest Westley – I've never called you that before, have I? -- Westley, Westley, Westley, Westley, Westley, – darling Westley, adored Westley, sweet perfect Westley, whisper that I have a chance to win your love”.

Осознав, что испытывает чувства к Уэстли, Лютик решается на признание. Она повторяет его имя девять раз, чтобы показать свою серьезность и искренность. Более того, адресант использует по отношению к объекту

[102] **Азербайджанский Университет Языков.** nurlanamamedova777@gmail.com

речи диминутивы darling Westley, adored Westley, sweet perfect Westley, тем самым, демонстрируя, что она не стыдится своих чувств и готова говорить о них снова и снова. Подобная тональность разговора помогает Уэстли и Лютик установить близкие и доверительные отношения.

В коммуникативной ситуации «ласка» диминутивы также употребляются для того, чтобы передать заботу, опеку, нежность, искренность и т.п. Например, в следующей коммуникативной ситуации пожилая женщина лечит мужчину от ранения, но испытывает к нему материнские чувства, поэтому употребляет диминутив при обращении к нему: «Now, now, sweet little dove».

Уже сам фрейм «врач – пациент» подразумевает использование диминутива со стороны лекаря, чтобы успокоить больного. Вместе с тем, ситуация разыгрывается в XV столетии и пациентом тетушки Элинор является взрослый мужчина, рыцарь Эрик. Сказанный женщиной диминутив sweet little dove вызывает взрыв смеха среди других мужчин, женщина диминутивом пытается выразить свое заботливое отношение [5, с. 129].

Нередко в коммуникативной ситуации «ласка» диминутивы используют дети, чтобы выразить свое нежное отношение по отношению к взрослым.

“Mummy, my beloved Mummy!.. Oh, my dear Mummy, I want to stay with you forever, near to your heart, in the warmth of your embrace!”.

F.Cəlilov yazır: "Tabeli mürəkkəb cümlədə nisbi əvəzliklər iki vəziyyətdə işlənir. Birinci vəziyətdə nisbi əvəzlik budaq cümlənin tərkibində olur və budaq cümlə baş cümlədən əvvəl gəlir, baş cümlədə budaq cümləni xatırladan işarə əvəzliyi işlənir və ya təsəvvür olunur, nisbi əvəzlik tabelilik əlaqəsi yaradan əsas vasitə kimi çıxış edir və konstruksiyaya bağlayıcı artırmaq mümkün olmur. Məsələn, Kim soyuq divarlar arasına düşsə, (o) istinin qədrini çox bilər (B.Bayramov), Sən nə bacarırdın, onu eləmisən (M.İbrahimov), Dilrüba hara gedirdisə, elə bil orada işlər sahmana düşürdü (Ə.Vəliyev)" (2, s. 44). Buradan bir daha aydın olur ki, baş cümləsi əvvəl gələn və baş cümləsi sonra gələn tabeli mürəkkəb cümlə tiplərində qəlib sözlərin işlənməsində və ya funksiyasında müəyyən fərqlər olsa da, onlar birbaşa budaq cümlənin növünün müəyyənləşməsinə xidmət edir. Bu yarımfəsildə isə biz əsasən baş cümləsi ikinci gələn tübeli mürəkkəb cümlələrdən bəhs etdiyimiz üçün həmin cümlə tipinə uyğun nümunələrə diqqət yetiririk. Məsələn: *Necə* görmüşdü, əhvalatı *elə* danışdı; Bakı

[106] Pedaqogika üzrə fəlsəfə doktoru, dosent. Bakı Dövlət Universiteti

şəhərində *nə vaxt* xəzri əssə, *onda* qışdır; *Kim* bu cəsarəti özündə hiss eləmirsə, *o*, indidən desin (4, s. 190); Əlincədə *nə qədər* ordu vardısa, bir *o qədər* də əlləri külünglü kankan var idi (5, s. 105); Şamaxıda şeir deməyə qabil kim varsa, hamısını ziyafətə dəvət etsinlər (5, s. 28); Dolu qarışıq yağış qafil *necə* başlamışdısa, *eləcə də* birdən kəsdi (4, s. 276); Bu ehkam nə qədər dünya durubdur, o qədər də daim durub dəyişilməsin (6, s. 318) və s. kimi qeyd olunan cümlələrdə görünən budur ki, onlarda budaq cümlədə işlənən bağlayıcı sözlərin hamısının qarşılıq-qəlibi də işlədilmişdir.

Lakin bu tipə aid olan elə cümlələr də mövcuddur ki, onlarda da baş cümlə ikinci gəlməsinə və əvəzlik-qəlib işlənməsinə baxmayaraq, cümlənin bağlanma vasitəsi bağlayıcı söz deyil, intonasiya və ya bağlayıcıdır. Məsələn: Mən təxminən yüz metr məsafəni qaçmışdım ki, *bu zaman* körpüsalanlar gəlib mənə yetişdilər (4, s. 164) və s.

Bəzi hallarda isə bu tipli cümlələrdə bağlayıcı sözlə onun qarşılığı eyni fonetik qabığa malik olur. Məsələn: O yerdə ki, bir işin, çətin məsələnin özgə bir həlli yoxdursa, daha o yerdə çox da atılıb düşmək, ya çox fikirləşmək lazım deyil (6, s. 311) və s.

Z.Şahbazova yazır: "Bağlayıcı söz vasitəsilə qurulan tabeli mürəkkəb cümlənin quruluşu mütləqdir. Yəni budaq cümlə əvvəl, baş cümlə sonra işlənir. Bağlayıcı sözün işlənməsi isə tabeli mürəkkəb cümlənin qurulmasını mütləqləşdirir. Budaq cümlə ilə baş cümlə sərhədində əksər hallarda "ki" bağlayıcısına ehtiyac qalmır, bu zaman şəkilçiləşmiş "sa" ədatı işlənir. Bilindiyi kimi, həm də "sa" ilə müstəqil xəbərin işlənə bilməməsi mürəkkəb cümlənin II komponentinin vacibliyinə səbəb olur. Bağlayıcı söz işarə əvəzliyi cütlüyü (nəzərdə tutulsa belə) tabeli mürəkkəb cümlənin dairəsini qapamış olur. Bu cütlük tabeli mürəkkəb cümlənin həm struktur, həm də semantik bağlılığını qüvvətləndirir. Bağlayıcı sözün hansı halda olması tabeli mürəkkəb cümlənin növünü müəyyənləşdirməkdə əsas rol oynamır. Mürəkkəb cümlənin budaq cümləsinin növünü müəyyənləşdirməkdə əsas rolu qarşılıq söz oynayır. Qarşılıq söz cümlənin hansı üzvüdürsə, budaq cümlənin növü də elə olacaqdır" (3, s. 256). Göründüyü kimi, budaq cümlədə işlənən bağlayıcı sözün hansı halda və ya formada olması yox, baş cümlədə ona qarşılıq olaraq işlənən qəlib sözlərin hansı formada və halda olması önəmlidir. Məsələn: *Hər kim ki* sözünün üstündə durur, vətəninə, xalqına ləyaqətlə xidmət edir, *ona* bütün xalq rəğbət bəsləyir; Şuşa uğrunda gedən döyüşlərdə kim vuruşubsa, o, xalqının qəlbində taxt qurub və s.

Burada bir məsələni də qeyd edək ki, bəzən isə baş cümlədə qələn qarşılıq söz budaq cümlədə gələn sözün formasından asılı olur. Bu quruluşa, əsasən, yer budaq cümləsinin müvafiq tipində rast gəlirik. Məsələn: Haraya deyirsən, oraya gedim; Haradan deyirəm, oradan cavab verir və s.

Qeyd edək ki, professor Ə.Abdullayev "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" adlı kitabında (1) tabeli mürəkkəb cümlələri müxtəlif aspektdən tədqiqata cəlb edərək, sanballı elmi fikirlər, müddəalar və nəticələr göstərmişdir. Müəllif bu əsərində tabeli mürəkkəb cümlələri quruluşuna görə dörd qrupa bölür (1, s. 140) ki, onların birincisi məhz budaq cümləsi baş cümlədən əvvəl işlənən qrupudur. Alim həmin tip haqqında belə yazır: "...budaq cümlədə bağlayıcı sözlər və əksər halda baş cümlədə onların qarşılığının işlənməsi sayəsində, budaq cümlə baş cümləyə bağlanır. Budaq cümlənin xəbərinə çox vaxt -sa//-sə əlamətləri də artırılmış olur. Baş cümlənin işlənməsi zəruriyyəti budaq cümlədən doğur. Belə budaq cümlələr ümumilik və qeyri-müəyyənlik ifadə edir, onların məzmunu baş cümlədə konkretləşir. Bu cür tübeli mürəkkəb cümlələr nisbi sözlərlə (bağlayıcı sözlərlə) təşkil olunduğu üçün, buna nisbi tabelilik də deyilir" (1, s. 140). Həmçinin tədqiqatçı bu tip tabeli mürəkkəb cümlələrin hansı budaq cümlələrdə mövcud olduğunu da göstərir. Belə k, o, bu quruluşda olan budaq cümlə növləri kimi mübtəda, tamamlıq, təyin, xəbər, zaman, yer, səbəb, kəmiyyət və tərzi-hərəkət budaq cümlələrini təqdim edərək, onlara müvafiq olaraq belə nümunələr verir: Kimi gözləyirsən, o gəlmir, kimdən qaçırsan, o qabağına çıxır (mübtəda); Kim gəlib qiymət soruşurdu, tacir ona həmin qiyməti deyirdi (tamamlıq); Cinayətkarı hansı evdə tapsanız, o evi dağıdın..., Hansı şərtlə əkin əkiblər, o şərtlə də böləcəklər (təyin); Kim sənə tənbəl deyir, tənbəl özüdür (Xəbər); Nə vaxt Toqata gəldin, atın üzəngisini özüm basıb, səni ona mindirəcəyəm (zaman); Əvvəl mənə rast gələn yol hara aparsa, mən də oraya gedərəm (yer); Bilmirəm nə işi varsa, səni görən kimi qaçıb donuzluğa girdi (səbəb); Başıma gələn faciə nə qədər böyüksə, onu ikinci kərə nağıl etmək də mənim üçün bir o qədər ağırdır (kəmiyyət); Necə sən indi tüfəng götürüb canavarın üstünə getdin, bizim də borcumuz eləcə dərdin, azarın üstünə getməkdir (tərzi-hərəkət) (1, s. 140-141). Nümunələrdən aydın olur ki, budaq cümləsi əvvəl gələn tabeli mürəkkəb cümlələrdən səbəb budaq cümləsinə aid verilən nümunədən başqa, digər nümunələrdəki tabeli mürəkkəb cümlələrdə bağlayıcı sözlərlə qəlib (qarşılıq sözlər) sözlər qarşılıqlı şəkildə işlənmişdir. Bircə səbəb budaq cümləsində budaq cümlə baş cümlədən əvvəl gəlsə də, burada digərlərindən fərqli olaraq qəlib və bağlayıcı söz qarşılığı nəzərə çarpmır.

Nəticə. Ümumən, demək olar ki, Azərbaycan dilində tabeli mürəkkəb cümlələrin bu quruluş tipindən geniş istifadə edilir. Xüsusilə də bu tipdə olan tabeli mürəkkəb cümlələrin budaq cümləsində işlənən bağlayıcı sözlər budaq cümləni baş cümləyə bağlayan vasitədir, baş cümləsində işlənən qarşılıq-qəliblər isə budaq cümlələrin növünün müəyyənləşməsinə xidmət edən vasitədir və onlar belə cümlə tiplərində bir-birləri ilə qarşılıqlı şəkildə mövcud olur.

Tabeli mürəkkəb cümlələrin budaq cümlələrinin müəyyənləşdirilməsində qəlib sözlərin mühüm rolu var. Budaq cümlənin təyinedilməsində bu cür əhəmiyyət kəsb edən qəlib sözlərin mühüm hissəsi əvəzliklərdən, xüsusilə də işarə əvəzliklərindən ibarətdir.

Əvəzliklər tabeli mürəkkəb cümlələrdə istər komponentlərin bir-birinə bağlanmasında, istər baş və budaq cümlələrin bir-biri ilə əlaqələnməsində, istərsə də budaq cümlə növlərinin müəyyənləşdirilməsində çox mühüm rola malikdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. (Dərs vəsaiti). Bakı: Maarif, 1974, 419 s.
2. Cəlilov F.A. Bağlayıcısız tabeli mürəkkəb cümlə komponentlərinin struktur-semantik və leksik-qrammatik vasitələrlə bağlanması // Elmi əsərlər. Dil və ədəbiyyat seriyası. Bakı: ADU, 1979, səh: 38-46

3. Şahbazova Z. Azərbaycan dilində əvəzliklər. Bakı: ULU, 2007, 336 s.
4. Əfəndiyev İ. Seçilmiş əsərləri. III c. Bakı: AVRASİYA PRESS, 2005, 448 s.
5. Hüseynov İ. Seçilmiş əsərləri. III c. Bakı: AVRASİYA PRESS, 2009, 304 s.
6. Məmmədquluzadə C. Əsərləri. I c. Bakı: Öndər, 2004, 664 s.
7. https://az.wikipedia.org/wiki/Tabeli_m%C3%BC%C9%99kk%C9%99b_c%C3%BCml%C9%99

Açar sözlər: Azərbaycan dili, sintaksis, tabeli mürəkkəb cümlələr, baş cümlə, budaq cümlə, qəlib sözlər
Key words: Azerbaijani language, syntax, subordinate compound sentences, main sentence, branch sentence, template words
Ключевые слова: азербайджанский язык, синтаксис, придаточные сложные предложения, главное предложение, ответвленное предложение, шаблонные слова

Baş cümləsi budaq cümlədən sonra gələn tabeli mürəkkəb cümlələrdə qəlib sözlər

Xülasə

Məqalə tabeli mürəkkəb cümləyə, xüsusilə də baş cümləsi budaq cümlədən sonra gələn cümlələrə həsr edilmişdir. Qeyd olunur ki, bu tipli cümlələrdə qəlib sözlərin özünəməxsus rolu var. Yəni baş cümləsi budaq cümlədən sonra gələn tabeli mürəkkəb cümlələrdə mövcud olan işarə əvəzlikləri qarşılıq söz kimi dəyərləndirilir. Belə tabeli mürəkkəb cümlələrdə budaq cümlənin növü baş cümlədəki həmin qarşılıq sözün vasitəsilə ilə müəyyən edilir. Məqalədə bu kimi nəzəri fikirlər bədii əsərlərdən və adi danışıqdan konkret nümunələr verilməklə əsaslandırılır.

Template words in complex subordinate clauses with the main clause following the branch clause

Summary

The article is devoted to the subordinate complex sentence, especially the sentences whose main clause follows the branch sentence. It is noted that in sentences of this type, stereotyped words have a special role. In other words, the sign pronouns present in subordinate complex sentences whose main clause comes after the branch clause are evaluated as opposite words. In such subordinate complex sentences, the type of the branch sentence is determined by the corresponding word in the main sentence. In the article, such theoretical ideas are justified by giving specific examples from works of art and ordinary speech.

Шаблонные слова в сложных придаточных предложениях с главным предложением, следующим за ответвительным предложением

Резюме

Статья посвящена придаточному сложному предложению, особенно предложениям, главное предложение которых следует за ответвительным предложением. Отмечается, что в предложениях такого типа стереотипные слова играют особую роль. Другими словами, знаковые местоимения, представляющие собой несогласованные сложные предложения, главное предложение которых следует за ответвительным предложением, оцениваются как противоположные слова. В таких придаточных сложных предложениях тип ответвительного предложения определяется соответствующим словом в главном предложении. В статье такие теоретические идеи обосновываются приведением конкретных примеров из произведений искусства и обычной речи.

RƏYÇİ: dos. E.Vəliyeva

Sahilə Bağır qızı Mustafayeva [107]

İNGİLİS DİLİNDƏ KEÇMİŞ ZAMAN FEİLİ SIFƏT TƏRKİBLƏRİ

Müasir ingilis dilində feili sifət II ilə olan tərkib ən çox Tamamlıq feili sifət tərkibinin içində rast gəlinir. Tamamlıq feili sifət tərkibində feili sifət II ilə olan tərkib belə ifadə olunur: "feili sifətlə göstərilən hərəkət cümlənin mübtədası vəzifəsini icra edən şəxsin xahişi ilə yerinə yetirilir [1, s. 16]. Məsələn:

But fortunate had another fling for him to endure. It got about the hotel that she was to use to mildest expression conducting herself strangely. A girl who carries washing must expect criticism if anything not befitting her situation is observed in her apparel. She was seen wearing the gold watch. Her mother was informed by the housekeeper of the state things. But now she had her watch ***sold.*** *It was pity and her heart was going to be broken* [2, s. 160]. (*Lakin o, indi başqa bir vəziyyətlə üz-üzə idi və ona dözmək məcburiyyətində idi. Həmin oteldə o, özünü yaxşı aparırdı, bu təbii ki, ona məxsus bir hal idi və o, həmin oteldə hamının yaxşı tanıdığı tərbiyyəli qız idi. İndi əgər onun əlində bahalı bir şey görsələr, hamı onu qınayar və bu diqqət çəkər. Onda bu qızıl saatın haradan olduğunu soruşacaqlar. Artıq bu barədə onun anasına məlumat verilmişdi. Xadimə artıq anasına demişdir ki, onun haqqında oteldə söz-söhbət var. Lakin indi o, saatını satmalı oldu və bu onun ürəyini çox sıxırdı*).

Bu mətndə işlədilən sönuncu cümlədə Ceninin çəkdiyi bütün iztirabların səbəbi məlum olur. Hadisələrin gedişatından məlum olur ki, o, saatını satmalı olur və bu onu çox mütəssir edir. "But now she had her watch ***sold***" bu sön cümlə ilə mətnin lazım olan aparıcı xüsusiyyəti üzə çıxır.

Digər nümunələr:

I had ***my tar tuned.*** = I made someone tune my tar. (Mən tarımı köklətdim).

He had ***his coat altered***. = He made someone alter his coat. (O, paltosunu dəyişdirtdi).

She will have ***several newspapers brought.*** =She will make someone bring her some newspapers. (O, bir neçə qəzet gətirdəcək).

You had better have ***the car serviced*** before going on holiday. (Tətilə getməzdən əvvəl avtomobilə texniki qulluq göstərsəniz yaxşı olar).

John had ***the way repaired***. (Con yolu təmir etdirdi).

Did you have your dress made? (Yəni paltarını tikdirmisən?)

Are you going to have ***your flat redecorated***? (Mənzilinizi təmir etdirəcəksiniz?)

Where will you have ***your hair done***? (Saçınızı harada düzəldəcəksiniz?)

How often do you have ***your car serviced***? (Avtomobilinizə nə qədər tez-tez qulluq edirsiniz?)

He had ***his shoes mended***. (O, ayaqqabılarını təmir etdirdi).

I want to have ***my ceiling whitewashed***. (Mən tavanı ağartmaq istəyirəm).

He should have ***his pants shortened***, should not he? (O, gərək şalvarını qısaltsın, elə deyilmi?)

I have been trying all day to get ***everything done.*** (Mən bütün günü hər şeyi düzəltməyə çalışdım).

To have və *to get* feillərinin sual və inkar forması to do köməkçi feili vasitəsilə düzəlir. Məsələn:

You can't have ***your hair waved***. (Saçlarınızı dalğalandıra bilməzsiniz).

She does not have ***her dresses made*** here. (Onun paltarları burada tikilmir).

He did not have ***their watch mended***. (O, saatını təmir etdirməmişdir).

Did he have ***his horse killed***? (Onun atını öldürdülərmi?)

Did she have ***her fountain-pen broken*** yesterday? (Dünən onun fontan qələmi sındırıldımı?)

She must have ***her hair cut***. (O, saçını kəsdirməlidir).

Do you have ***your photo taken*** every day? (Hər gün şəkilinizi çəkirsiz?)

You cannot get ***your clothes made*** here. (Siz paltarlarınızı burada tikə bilməzsiniz).

You cannot get ***your dress washed*** here. (Burada paltarınızı yuya bilməzsiniz).

You must have ***your shoes cleaned***. (Siz ayaqqabılarınızı təmizlətməlisiniz).

İndi isə ingilis dilində olan bir mətn parçasını nəzərdən keçirək:

"On the strength of this conclusion he went to Washington and finished his term. Then he returned to Columbus to await the friendly recognition from the President which was to send him upon some ministry abroad. Jennie had not been forgotten in the last. The longer he stayed away the more eager he was to get back. When he was again permanently settled in his old quarters, he took up his cane one morning and strolled out in the direction of the cottage. Arriving there, he made up his mind to go in, and knocking at the door, he was greeted by Mrs. Gerhardt and her daughter with astonished and different smiles. He explained vaguely that he had been away, and mentioned his laundry as that was the object of his visit. Then, when chance given a few minutes later he was with Jennie again, he plunged in boldly. He had his stick brought and so, he was not afraid to fall down" [2, s. 200]. *(Bu qənaətin gücü ilə o, Vaşinqtona getdi və səlahiyyət müddətini başa vurdu. Sonra o, prezidentdən onu xaricə hansısa nazirliyə göndərməli olan dostcasına tanınmasını gözləmək üçün Kolumbusa qayıtdı. Jennie sonuncu dəfə unudulmamışdı. Nə qədər uzaqda qalsa, geri qayıtmaq üçün bir o qədər həvəsli idi. O, yenidən köhnə məhəlləsində daimi məskunlaşdıqda, bir səhər dəyənəyini götürdü və bağçaya tərəf getdi. Oraya çataraq içəri*

[107] Filologiya üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan Dillər Universiteti. *sahilamustafa@yahoo.com*

girməyə qərar erdi və qapını döyəndə xanım Gerhardt və qızı onu heyran və fərqli təbəssümlə qarşıladı. O, qeyri-müəyyən şəkildə uzaqda olduğunu izah etdi və ziyarətinin obyekti olduğu üçün çamaşırlarını qeyd etdi. Sonra bir neçə dəqiqədən sonra yenidən Jennie ilə birlikdə olanda o, cəsarətlə içəri girdi. Çubuğunu gətirmişdilər və buna görə də yıxılmaqdan qorxmurdu).

Göründüyü kimi, bu mətndəki cümlələrin bir-birilə sıx əlaqəsi vardır. Hər şeydən əvvəl fikrin ümumi komponentinə görə cümlənin hamısında söhbət bir cənabın tərəddüdlü vəziyyətindən gedir. O, bir nəfəri ziyarət etmək istəyir, lakin tərəddüd edir və s. Bu olduqca çətin bir vəziyyətdir və ümumi vəziyyətdə deyə bilərik. Birinci cümləyə diqqətlə baxaq: Üzvlənmə baxımından birinci cümlə iki hissəyə bölünür: On the strength of this conclusion he went to Washington (burada kiçik bir pauza edirik) və sonra cümlənin ikinci tərəfi deyilir. Burada birinci hissə temadır (yəni birinci hissə temadır). Əvvəlki mətndə verilən məlumdur; ikinci hissə isə remadır, yəni verilən yeni məlumatdır. Yazıçı sanki oxucuya məlumat verir. Bu cümlənin aparıcı xəttini isə cənabın xəbərdar etmədən Cenniyə baş çəkməsi və sonda feili sifət 2 tərkibinin işlənməsilə müəllifin oxucusuna çatdırmaq istədiyi fikrin həmin cümlə vasitəsilə ötürülməsidir.

Beləliklə, birinci cümlədə əsas məlumat Brenderin Cennini görmək istəməsidir. Yazıçı fikirlərini Brenderin beynindən keçən düşüncələrlə ifadə edir. Sonra isə cümlələr arasında sıx əlaqə yaranır və mətnə rema daxil olur, rema isə bu mətndə feili sifət 2-nin Tamamlıq məsdər tərkibi ilə işlənməsilə icra olunur.

Verilmiş mətn parçasında fikir cümlə daxilində temadan remaya doğru, daha dəqiqi məlumdan yeniyə doğru hərəkət edir. Fikrin cümlədən cümləyə hərkəti isə ona görə baş verir ki, əvvəlki cümlənin reması sonra gələn cümlənin temasına çevrilir ki, onun barəsində yeni məlumat verilir.

Fikrin bu növ hərəkəti məntiqi, ardıcıl surətdə inkişafda olan düşünən nitq üçün səciyyəvidir. Fikir sərbəst şəkildə bir cümlədən o biri cümləyə keçir, növbəti cümləyə başlağıc verir, cümlələri zəncir halında bir-birinə bağlayır. Buna görə də mətndəki cümlələr arasında belə əlaqəni zəncirvari əlaqə adlandırmaq olar. O, universal səciyyə daşıyır, bu əlaqə nəticəsində istədiyimiz qədər mətn düzəldə bilərik.

Digər nümunə:

"Happy families are all alike; every unhappy family is unhappy in its own way.

Everything was in confusion in the Oblonskys' house. The wife had discovered that the husband was carrying on an intrigue with a French girl, who had been a governess in their family, and she had announced to her husband that she could not go on living in the same house with him. This position of affairs had now lasted three days, and not only the husband and wife themselves, but all the members of their family and household, were painfully conscious of it. Every person in the house felt that there was no sense in their living together, and that the stray people brought together by chance in any inn had more in common with one another than they, the members of the family and household of the Oblonskys. The wife did not leave her own room, the husband had not been at home for three days. The children ran wild all over the house; the English governess quarreled with the housekeeper, and wrote to a friend asking her to look out for a new situation for her; the man-cook had walked off the day before just at dinner time; the kitchen-maid, and the coachman had given warning.

Three days after the quarrel, Prince Stepan Arkadyevitch Oblonsky—Stiva, as he was called in the fashionable world—woke up at his usual hour, that is, at eight o'clock in the morning, not in his wife's bedroom, but on the leather-covered sofa in his study. He turned over his stout, well-cared-for person on the springy sofa, as though he would sink into a long sleep again; he vigorously embraced the pillow on the other side and buried his face in it; but all at once he jumped up, sat up on the sofa, and opened his eyes" [3, s. 210]. (*Xoşbəxt ailələrin hamısı eynidir; hər bədbəxt ailə özünəməxsus şəkildə bədbəxtdir. Oblonskilərin evində hər şey qarışıq idi. Arvad ərinin onların ailəsində müdirə işləyən fransız qızı ilə arasında bir şey olduğunu aşkar etmiş və ərinə onunla eyni evdə yaşaya bilməyəcəyini bildirmişdi. Bu vəziyyət artıq üç gün davam etmişdi və təkcə ər və arvadın özləri deyil, onların bütün ailə üzvləri və ev təsərrüfatları bunu ağrılı şəkildə dərk edirdilər. Evdəki hər kəs hiss edirdi ki, onların bir yerdə yaşamasının mənası yoxdur və hər hansı bir mehmanxanada təsadüfən bir araya gələn sahibsiz insanların bir-birləri ilə onlardan, Oblonskilərin ailə və təsərrüfat üzvlərindən daha çox ümumi cəhətləri var. Arvad öz otağından çıxmırdı, ər üç gün evdə deyildi. Uşaqlar evin hər tərəfinə qaçdılar; ingilis qubernatoru ev işçisi ilə mübahisə etdi və dostuna məktub yazaraq, onun üçün yeni bir vəziyyət axtarmağı xahiş etdi; aşpaz bir gün əvvəl nahar vaxtı getmişdi; mətbəx qulluqçusu və faytonçu xəbərdarlıq etmişdi.*

Mübahisədən üç gün sonra knyaz Stepan Arkadyeviç Oblonski – dəb aləmində onu Stiva adlandırırdılar – həmişəki saatında, yəni səhər saat səkkizdə arvadının yataq otağında deyil, səhər saatlarında oyandı. İş otağında dəri üzlü divan. Güclü, baxımlı adamını yaylı divanda çevirdi, sanki yenidən uzun bir yuxuya qərq olacaq; o biri tərəfdəki yastığı güclə qucaqladı və üzünü oraya basdırdı; amma bir anda ayağa qalxdı, divanda oturdu və gözlərini açdı).

Bu nümunədə bütün cümlələr bir-birilə əlaqəlidir. Onlar ümumi mövzuya malikdir. Cümlələrin əlaqəsi sayəsində müxtəlif remaların birləşməsi baş verir. Cümlə daxilindəki fikir temadan remaya doğru irəliləyir.

Tamamlıq məsdər tərkibində *hissi qavrayış bildirən feillərdən* sonra Feili sifət 2 də istifadə olunur. Məsələn:

I saw ***a dog strapped*** himself (Bir itin özünü bağladığını gördüm).

The man ***felt the child clutched*** by the rope (Kişi uşağın ipdən yapışdığını hiss etdi).

Tamamlıq məsdər tərkibində *zehni fəaliyyət bildirən feillərdən* sonra Feili sifət 2 də istifadə olunur [4, s. 11]. Məsələn:

I consider *him to be engaged* to Mister Brender. (Mən onu cənab Brenderlə nişanlı hesab edirəm).

When you visit your siblings, you will find ***them already grown up.*** (Bacınız uşaqlarını ziyarət edəndə onların artıq

böyüdüyünü görəcəksiniz).

Tamamlıq məsdər tərkibində *arzu-istək bildirən feillərdən* sonra Feili sifət 2 də istifadə olunur [6, s. 119] Məsələn:

The boss wants ***the work done*** as soon as possible. (Rəhbər işin mümkün qədər tez görülməsini istəyir).

My mother wants ***the letter sent*** at once. (Anam məktubun dərhal göndərilməsini istəyir).

The people desire ***the peace gained*** in Ukraine. (Xalq Ukraynada sülhə nail olunmasını arzulayır).

I wish ***my book returned*** in time. (Litabımın vaxtında qaytarılmasını arzulayıram).

He intends ***his thoughts left alone*** soon. (O, tezliklə düşüncələrindən azad olmaq niyyətindədir).

Feilin şəxssiz formalarının hamısı xəbər tərkibləri yarada bilir: Məsdərlə üç xəbər tərkibi; cerundla bir xəbər tərkibi; feili sifətlə isə 6 xəbər tərkibi vardır [8, s. 119]:

Məsdərlə olanlar:

1) tamamlıq məsdər tərkibi;
2) mübtəda məsdər tərkibi;
3) for sözönülü məsdər tərkibi;

Cerundla olan:

a) Cerund tərkibi;

Feili sifətlə olanlar:

a) tamamlıq feili sifət tərkibi;
b) mübtəda feili sifət tərkibi;
c) nominativ müstəqil feili sifət tərkibi;
d) sözönülü müstəqil feili sifət tərkibi;
e) nominativ müstəqil tərkib;
f) sözönülü müstəqil tərkib;

Müasir ingilis dilində Feili sifət II ilə olan tərkiblər də mövcuddur. Feili sifət II tərkibləri əsasən Tamamlıq feili sifət tərkibində işlədilir:

a) *to have* və *to get* feillərindən sonra; b) hissi qavrayış bildirən feillərdən sonra; zehni qabiliyyət bildirən feilərdən sonra; c) arzu-istək bildirən feillərdən sonra.

Feili sifət tərkibləri mətnlərin formalaşmasında xüsusi rol oynayır. Onların mətnin sadə və cəlbedici olmasına – yazılmasına, oxunmasına və s. əsaslı təsir göstərir.

İstifadə olunmuş ədəbiyyat

1. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərcim, 2015, 376 s.
2. Dreiser Th. Jennie Gerhardt. Москва: Рипол Классик, 1987, 360 p.
3. Tolstoy V. Anna Karenina. London: Penguin Classics, 2004, 864 p.
4. Xanbutayeva L.M. Müasir Azərbaycan və ingilis dillərində infinitiv (ümumi tipoloji tədqiqat) [Mətn]: filologiya e. n. al. dər. a. üçün təq. ed. dis.: 10.02.20. /L. M. Xanbutayeva; Azərb.Dövlət Un-ti.- B., 2004.- 130 s.
5. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: Çaşıoğlu, 2010, 96 s.
6. Иванова П.И., Бурлаков В.В., Почебсов Q.Q. Теоретическая грамматика современного английского языка. М.: Прогресс, 1981, 281 с.
7. Иосифович А.М. Английский язык. Имя прилагательное. Киев: Издательство КД, 1987, 107 с.
8. Каушанская В.Л., Ковнер Р.Л., Кожевникова О.Н. и др. Грамматика английского языка (на англ. языке). Л.: Просвещение, 1973, 319 с.
9. Bolton W.F. and Crystal D. The English language. Sphere History of the English language. Vol 10, 2nd edition, Cambridge: Cambridge University Press, 1987, 362 p.
10. Börjars K. and Burridge K. Introducing English Grammar. London: Edward Arnold, 2001, 328 p.

Açar sözlər: ingilis, dil, feil, sifət, tərkib, keçmiş, forma, məna

Key words: English, language, verb, adjective, construction, form, meaning

Ключевые слова: английский язык, язык, глагол, прилагательное, конструкция, форма, значение

The constructıons relatıng to past partıcıple ın englısh

Summary

The article deals with the constructions relating to Past Participle in English. It gives some information about the verbals in English. Each of the verbals has been analyzed in the article. The constructions dealing with the verbals have been explained in the article as well. The article highlights the fact that there are some constructions with the Past Participle. The constructions with the Past Participle have been touched upon in the article.

Конструкции, относящиеся к причастию прошлого в английском языке

Резюме

В статье рассматриваются конструкции, относящиеся к причастию прошлого в английском языке. Это дает некоторую информацию о глаголах в английском языке. В статье проанализировано каждое из глаголов. Конструкции, связанные с глаголами, также были объяснены в статье. В статье подчеркивается тот факт, что существуют некоторые конструкции с причастием прошедшего времени. В статье затронуты конструкции с причастием прошедшего времени.

Rəyçi*:* fil.f.d., dos. F.Qurbanova

XALQ TƏBABƏTİNİN İZİ İLƏ

Yenicə çapdaş çıxmış "Xalq təbabətinin izi ilə" kitabı BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, f.ü.f.d. Rəna Mahmudovanın xalq təbabətinə həsr olunmuş əsəridir. Geniş oxucu kütləsi, həmçinin müəllimlər, tələbələr üçün nəzərdə tutulmuş bu əsər konkret olaraq tibb sahəsinə aid deyil, eyni zamanda bu kitab öz sağlamlığının qayğısına qalmaq istəyən bütün insanlar üçün faydalı bir töhfədir.

Kitab 178 səhifədən ibarət olmaqla nəfis şəkildə rəngli şəkillərlə tərtib edilmişdir.

Müəllif kitabın əvvəlində - "Xalq təbabətinin tarixindən" adlı bölməsində qədim Şərq və Antik dünyanın xalq təbabəti əsasında yaranmış Azərbaycan xalq təbabəti haqqında maraqlı məlumat verir. O, yeri gəldikcə mövzu ilə əlaqədar atalar sözü və məsəllərə, müdriklərimizin deyimlərinə, "Kitabi-Dədə Qorqud" dastanının boylarından loğmanlığa, təbabətə aid nümunələr göstərir.

Kitabın maraqlı cəhətlərindən biri də odur ki, müəllif burada İsa Məsihin, Məhəmməd Peyğəmbərin, Süleyman Peyğəmbərin təbabət haqqında tövsiyələri, fikirləri, dini kitabımız "Quran-i – Kərim"də adları çəkilən zeytun, əncir, nar kimi meyvələr və onların faydaları haqqında məlumatlar toplayaraq oxucuların nəzərə çatdırmışdır.

Müəllif Şərqin ən böyük dahisi, tibb elminin peyğəmbəri sayılan loğman İbn Sinanın "Tibb elminin qanunu" əsəri ilə oxucuları tanış edir. Kitabda xalq təbabətinin Azərbaycanda inkişafı və bu barədə yazıları Azərbaycan dilində ilk kitab Məhəmməd Bərgüşadın "Tibbi Nambevi", həkim Məhəmməd Yusif Şirvaninin XVIII əsrdə yazdığı "Tibbnamə" kitabı və digər xalq təbabətilə məşğul olan azərbaycanlı müəlliflər və onların əsərləri haqqında xronoloji ardıcıllıqla məlumatlar vermişdir.

Bildiyimiz kimi, N.Gəncəvi və M.Füzuli şair olmaqdan başqa həm də təbabət elminin sirlərinə bələd olan həkim kimi öz əsərlərində insanlara tövsiyələr vermişdir.

Müəllif - R. Mahmudova bir filoloq kimi dahi şairlərimizin əsərlərini incələyərək onların əsərlərində insan beyni, ürək, ağciyər, qaraciyər, dalaq, böyrək və s. orqanlar haqqında verdikləri maraqlı məlumatları zərrə-zərrə toplayaraq oxucuların - bizim nəzərimizə çatdırmışdır.

Böyük şair M. Füzulinin hələ XVI əsrdə təbabətə aid yazdığı "Səhhət və Mərəz" əsərində insan orqanizminin sağlamlığını pozan səbəblərdən, orqanizmin özünün müqavimətindən və bunların qarşısını almaq yollarından bəhs etdiyini, "Həft cam" əsərində 4 ünsürdən (od, su, hava, torpaq) məlumat verir.

Kitabda şəfa verən bitkilərdən - üzərrik və onun faydaları (s.29-32), zəfaran (s. 33-36), qaraçörəkotunun möcüzələri (s. 37-40), Aloe bitkisinin faydaları (s. 41-45), Gicitkən və onun faydaları (s. 46-48), Çiyələklə müalicə (s.49-50), zeytun və onun faydaları (s. 51-54), cənnət meyvəsi olan əncir və onun faydaları (s. 55-58), bal haqqında (s. 59-63), xurmanın faydaları (s. 64-66), sarımsaq haqqında (s.67-70), qozun faydaları (s. 71-75) və s. müalicə üsullarına xüsusi yer ayrılmışdır.

"Xalq təbabətinin izi ilə" kitabında müəllif təbii müalicə vasitələri içərisində duzla, zəli ilə, mumiya ilə, qanalma (həcəmət) ilə, metallar və qiymətli daş-qaşlarla müalicə haqqında çox maraqlı fikirlər söyləyir. Qiymətli daş-qaşlardan mis, gümüş, qurğuşun, polad, büllur, mərcan, qızıl, firuzə, almaz, brilyant, yaqut, kəhrəba, zümrüd, mirvari və s. daş-qaşın hansı xəstəliyin müalicəsinə necə təsir göstərdiyini oxuculara açıqlayır.

Çox maraqlıdır ki, tədqiqatçı su haqqında "Qurani-Kərim"in ayrı-ayrı surələrindən, yunan filosoflarının əsərlərindən gətirdiyi nümunələrdə suyun faydalarından və xassələrindən söz açır.

Oxuculara təqdim olunan bu kitabda düzgün qidalanma, sağlamlıq və xəstəlik, köpmə, qəbizlik və onun müalicəsi, qaraciyər, öd və sarılıq xəstəliklərində xalq təbabətindən istifadə, göz haqqında təbii müalicə vasitələri, çiçək xəstəliklərində xalq təbabətindən istifadə, şəkər xəstəliyi, qan təzyiqi, oynaq ağrıları, saç tökülməsi haqqında həm məlumat verilir, həm də onların müalicəsində xalq təbabətindən istifadə etmək barədə fikirlər verilib.

Kitabın 168-ci səhifəsində müəllif sağlamlıq haqqında müdriklərin kəlamlarını aforizmləri toplamışdır.

Rəna Mahmudova sanki dəryada dürr axtararaq peyğəmbərlərdən, həm şərq, həm də qərb filosof və şairlərindən, siyasətçilərindən gətirdiyi sitatlarla kitabın elmi dəyərini daha da zənginləşdirir.

Kitabın sonunda (s.172-177) təbabətə aid terminlər əlifba sırası ilə verilmiş və onların izahı açıqlanmışdır. Bu da kitabın elmi cəhətdən səviyyəsini yüksəldir.

Kitab ədəbiyyat siyahısı ilə (s.178) tamamlanır. Böyük və gərgin əməyin nəticəsi olan bu kitabın ərsəyə gəlməsində müəllif çox səbir və səliqə ilə çalışmışdır.

Belə bir maraqlı və oxunaqlı kitab ərsəyə gətirdiyi üçün kafedramızın bütün əməkdaşları adından, həmçinin öz adımdan müəllifə təşəkkürümü bildirir və ona elmi və pedaqoji fəaliyyətində uğurlar diləyirəm.

Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti,
f.ü.f.d. Məhbubə Əbdülhəmid qızı Qurbanova

Anar Fərəcov, Ramil Bayramov, Pərvin Eyvazov

PROFESSOR ZEMFİRA ŞAHBAZOVA VƏ AZƏRBAYCAN DİLİNİN QRAMMATİKASI MƏSƏLƏLƏRİ

(Professor Zemfira Şahbazovanın 75 illiyi münasibətilə)

Bakı Dövlət Universiteti filologiyanın müxtəlif sahələrinə, o cümlədən Azərbaycan dilçiliyinə görkəmli simalar bəxş etmiş və onların güclü potensialı sayəsində ölkəmizdə dilçilik elmi müasir inkişaf səviyyəsinə yüksəlmişdir. BDU-da Azərbaycan dilçiliyinin akademik məktəb kimi formalaşıb inkişaf etdiyini və bu elmi-pedaqoji məktəbin nümayəndəsi olan görkəmli alimlərin dilçiliyimizin təşəkkülü və tərəqqisində böyük rol oynadığını hər zaman fəxrlə qeyd etmək olar. BDU-da həmin elmi-pedaqoji ənənələri bu gün də uğurla dava etdirən ziyalılar fəaliyyət göstərir ki, onlar həm dilçilik elminin inkişafında, həm də bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasında yaxından iştrak edirlər. Belə alim və müəllimlərimizdən biri BDU-nun Azərbaycan dilçiliyi kafedrasının professoru, filologiya elmləri doktoru Zemfira Əsgər qızı Şahbazovadır.

Zemfira Şahbazova 1947-ci il iyulun 7-də Göyçay rayonunda anadan olmuşdur. 1955-1965-ci illərdə Göyçay rayonu 1 saylı tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini müvəffəqiyyətlə başa vuraraq, 1965-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunmuş və 1970-ci ildə buranı "Filoloq. Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bitirmişdir.

Z.Şahbazova 1970-1973-cü illərdə BDU-nun Azərbaycan dilçiliyi kafedrasının əyani aspirantı olmuşdur. 1973-cü ildə görkəmli türkoloq, professor Əlövsət Abdullayevin rəhbərliyi ilə "Müasir Azərbaycan dilində ara söz və söz birləşmələri" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. Elə həmin vaxtdan - 1973-cü ildən indiyə kimi o, Azərbaycan dilçiliyi kafedrasında müxtəlif vəzifələrdə çalışmaqla həm müəllim, həm də alim kimi Azərbaycan elminin və təhsilinin keşiyində dayanır.

Uzun illər türk dillərində əvəzliklərin öyrənilməsi istiqamətində araşdırmalar aparmış Z.Şahbazova çoxsaylı tədqiqatlarının nəticəsi kimi 2012-ci ildə "Müasir Azərbaycan dilində əvəzliklər" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2015-ci ildə BDU-nun Azərbaycan dilçiliyi kafedrasının professor əvəzi, 2018-ci ildə isə həmin kafedranın professoru vəzifəsinə seçilmişdir.

Z.Şahbazova 2008-ci ildən Dövlət İmtahan Mərkəzində (keçmiş Tələbə Qəbulu üzrə Dövlət Komissiyası) "Azərbaycan dili və ədəbiyyatı" fənni üzrə ekspert kimi fəaliyyət göstərir. Bu müddətdə onun ali məktəbə hazırlaşan abituriyentlər, o cümlədən orta məktəb müəllimləri üçün dərs vəsaitləri, xeyli sayda məqalələri işıq üzü görmüşdür.

Dilçi alim ümumilikdə 11 kitabın, bəzi tədris proqramlarının, 150-dən çox elmi məqalənin müəllifidir. Onun elmi yaradıcılığının ana xəttini *Azərbaycan dilinin qrammatik quruluşu təşkil edir*. 1985-ci ildə çap olunmuş "Müasir Azərbaycan dilində ara sözlər və söz birləşmələri" adlı əsəri bu istiqamətdə aparılmış tədqiqatlar içərisində öz elmi çəkisi ilə seçilir.

Z.Şahbazova Azərbaycan dilçiliyində daha çox əvəzliyin tədqiqatçısı kimi tanınır. Onun araşdırmaları ilə dilçiliyimizdə əvəzliyin etimologiyası, leksik-semantik xüsusiyyətləri, morfoloji əlamətləri, sintaktik vəzifə və funksiyaları kompleks şəkildə tədqiqata cəlb olunmuşdur. Alim "Azərbaycan dilində əvəzliklər" (2007), "Azərbaycan dilində əvəzliyin sintaksisi" (2007), "Azərbaycan dilində əvəzliyin morfologiyası" (2007), "Əvəzliyin qrammatikası" (2008), "Əvəzliyin linqvistik xüsusiyyətləri" (2018) adlı kitablarında türk dillərində əvəzliklərin qrammatik xüsusiyyətləri və dildə kommunikativ rolu,

habelə bir nitq hissəsi kimi bu söz qrupunun varlığı haqqında ətraflı danışmış, məsələ ilə bağlı bir çox mübahisəli məqamlara aydınlıq gətirmişdir.

Z.Şahbazovanın tədqiqatlarında əvəzlik bir nitq hissəsi kimi müasir dil materialları əsasında öyrənilmiş, bu problem Azərbaycan dilçiliyində ilk dəfə monoqrafik şəkildə araşdırılmışdır. Alim əvəzliyin nitq hissələri arasında yeri və mövqeyini əsaslandırmış, onların növləri və söz tutumunu dəqiqləşdirmiş, hər bir növünün özünəməxsus leksik-semantik xüsusiyyətlərini izah etmişdir. Onun bu sahədəki mühüm xidmətlərindən biri Azərbaycan dilindəki əvəzlikləri digər türk dillərində işlənən əvəzliklərlə müqayisəli şəkildə tədqiq etməsidir. Müqayisələr, əsasən, özünü əvəzliyin əhatə dairəsinin, sərhədlərinin, onun vəzifə və funksiyalarının çoxtərəfliliyində göstərir. Tədqiqatların elmi yeniliyini şərtləndirən başlıca cəhətlərdən biri sintaktik vahidlərin (ələlxüsus da, mürəkkəb cümlə komponentlərinin) və mətn komponentlərinin əlaqələnməsində əvəzliklərin rolunun araşdırılmasıdır.

Məlum olduğu kimi, Azərbaycan dilinin qorunması və inkişafına yönəlmiş əsas məsələlərdən biri onun düzgün və sistemli tədris olunması, öyrədilməsidir. Qloballaşan dünyada milli dillərin qorunması, onların perspektivlərinin müəyyənləşdirilməsində tədris prosesi mühüm rol oynayır. Dil tədris prosesində təkcə ünsiyyətə xidmət etmir, müxtəlif fənlərin mənimsənilməsi, şagirdlərin formalaşmasında əsas faktor kimi çıxış edir. Bu mənada, Zemfira xanım Azərbaycan dilinin tədrisinin təkmilləşdirilməsində, xüsusən orta məktəblərdə Azərbaycan dilinin öyrədilməsi işində də yaxından iştirak edir. O, uzun illər Dövlət İmtahan Mərkəzinin əməkdaşı kimi ali məktəbə hazırlaşan abituriyentlər və orta məktəb müəllimləri üçün "Azərbaycan dili və ədəbiyyatı" fənninə dair dərs vəsaitləri hazırlamışdır. Onun "Ədəbiyyat nəzəriyyəsi (test tapşırıqları)" (2009), "Azərbaycan dili (VII sinif üçün test toplusu)" (2010), "Orfoqrafiya və orfoepiya lüğəti" (2012), "Azərbaycan dili (test toplusu)" (2013), həmmüəlliflərlə birgə yazdığı "Azərbaycan dili" (2016) kitabları Azərbaycan dilini öyrənənlər üçün dəyərli mənbədir.

Çoxsaylı əsərlərin müəllifi olan Zemfira Şahbazovanın məqalələri həm respublikamızda, həm də xaricdə çap olunur. Dilçi alim Türkiyə, Rusiya, Bosniya və Hersoqovina, Polşa və digər ölkələrdə təşkil edilmiş beynəlxalq qurultaylarda türkologiyanın müxtəlif problemlərinə həsr olunmuş məruzələrlə çıxış edir. Həmin məqalələrdə türkoloji dilçiliyin müxtəlif problemləri əks olunur: "Cümlə üzvlərinin sintaktik funksiyasını dəyişərək ara sözə çevrilməsi" (1976), "Həmcins üzvlərin bağlanma vasitələri" (1982), "Azərbaycan dilində -ca, -çə formatı haqqında" (1984), "Təkrarların nitqdə rolu" (1985), "Həmcinslik kateqoriyası" (1999), "Həmcins üzvlərində qrammatik əlaqə məsələsi" (2001), "Vurğu qəbul etməyən şəkilçilər" (2003), "B.Vahabzadə dilinin estetikliyi" (2013), "Mürəkkəb sintaktik bütövlərin sərhədlərinin təyin-edilməsi haqqında" (2014), "Azərbaycan dilində bəzi əlaqə növləri haqqında" (2015), "Türk dillərində inkorporlaşmanın izləri" (2020), "Türk dillərində qoşa sözlərin işlənmə özəllikləri" (2021), "Azərbaycan və Türkiyə türkcələrində nidaların linqvistik xüusiyyətləri" (2022) və s.

Zemfira Şahbazova həm də gözəl müəllim - pedaqoqdur. Ömrünün 50 ilini Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə bağlayan bu ziyalı xanım səmərəli pedaqoji fəaliyyəti ilə tələbələrin qəlbinə yol tapmağı bacarmış, çalışdığı kollektivin rəğbətini qazanmışdır. Azərbaycan dilinin fonetikası, leksikası, morfologiyası və sintaksisi fənlərini tədris edərək öz elmi yaradıcılığı ilə pedaqoji fəaliyyətini sıx şəkildə əlaqələndirə bilmişdir. Bizcə, Zemfira xanımın uğurlu elmi yaradıcılıq yolu ilk növbədə onun təcrübəli pedaqoq olması ilə bağlıdır. Çünki elmdə yeni faktları üzə çıxarmaq və problematik məsələlərin həlli yollarından biri fənnin düzgün tədrisidir. Mükəmməl tələbə-müəllim dialoqu isə bir alim üçün elmdə yeni cığır açmağa imkan verən əsas amillərdən biridir. Və Zemfira xanımın uzun illərə dayanan təcrübəsi buna tam şəkildə əmin olmağa əsas verir.

Zemfira Şahbazova elmi rəhbər kimi universitetdə yüksəkixtisaslı kadrların hazırlanmasında da yaxından iştirak edir, rəhbərliyi ilə fəlsəfə doktorluğu dissertasiyaları müdafiə olunur.

Zemfira Şahbazova həmkarları, xüsusilə də gənclər üçün maraqlı həmsöhbətdir: onun elmi mülahizələri, müəllim kimi tövsiyələri, həyat təcrübələrindən söz açması həmişə müsahiblərinin diqqətini çəkir. Beynəlxalq konfranslarda onunla birlikdə iştirak edən məsləkdaşları yaxşı bilirlər ki, Zemfira xanımla yol yoldaşı olmaq insanı yormur: xatirələri, şən söhbətləri və zarafatları ilə qarşısındakını darıxmağa qoymur və onun yanında zamanın necə gəlib-keçdiyi hiss olunmur.

Bəzən həmkarlarımızla məktəb və universitet illərindən söhbət düşəndə "filankəs mənim müəllimim olub", yaxud "filankəs mənə dərs deyib" cümlələrini işlədirik. Bu ifadələrlə tələbələrinə can yandıran, onlara bilik verən və həyatı öyrədən əsl ziyalıları fərqləndiririk. Bu mənada Zemfira xanım təkcə tələbələrinə müəllim olmamışdır, istedadlı, bacarıqlı gənclərə mənəvi ana kimi yanaşmış, ehtiyac olduqca onlardan öz dəstəyini əsirgəməmişdir. Gənclərlə həmsöhbət olanda həmişə onlara dəyərli tövsiyələr verər, öz həyat təcrübəsindən gətirdiyi örnəklərlə tələbələrini həyatda möhkəm və mübariz olmağa həvəsləndirər.

Zemfira Şahbazova yaşının bu müdrik çağında da elmi-pedaqoji fəaliyyətini yorulmadan davam etdirir. Tələbələr bu təmkinli müəllimin mühazirələrini maraqla dinləyir, gənc müəllim və tədqiqatçılar onun təcrübəsindən bəhrələnirlər. Bu gün də elmi axtarışlarını davam etdirən alim öz tədqiqatları ilə 103 yaşlı Bakı Dövlət Universitetinin elmi-ictimai həyatında yaxından iştirak edir. İnanırıq ki, öz tərcümeyi-halı ilə gənclərə nümunə olan Zemfira xanım çoxillik elmi-pedaqoji təcrübəsi ilə bundan sonra da əzmlə çalışaraq elmimizin və təhsilimizin inkişafına dəyərli töhfələr verəcəkdir.

Zemfira xanımı 75 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ömrünün bu müdrik çağında ona möhkəm cansağlığı, elmi və pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq. Yubileyiniz mübarək, əziz müəllimimiz!

Mənbələr:

1. Şahbazova Z. Şəxi məlumat forması / http://static.bsu.az/w15/Zemfira%20Shahbazova-BDU-fil_1.pdf (17 iyul 2022)

2. Şahbazova Z. Müasir Azərbaycan dilində ara sözlər və söz birləşmələri. Bakı, 1985
3. Şahbazova Z. Azərbaycan dilində əvəzliklər. Bakı: ULU, 2007
4. Eyvazov P. Zemfira Akser Kızı Şahbazova / Türkiye Dışındaki Türk Dünyası Türkologları – Dilciler. I. Cilt, Ankara, 2019, s. 251-256.